**Ragif Tofiq HUSEYNOV, ph.d.**

**Shafa Shahin HUSEYNOVA**
Graduate student of Azerbaijan University of Technology
E-mail: shafakamran@gmail.com

# STRESS MANAGEMENT STRATEGIES

**Abstract**

There are many causes of stress, including personal difficulties (e.g. conflict with loved ones, being alone, lack of income, worries about the future), problems at work (e.g. conflict with colleagues, an extremely demanding or insecure job) or major threats in your community (e.g. violence, disease, lack of economic opportunity). The stress became part of everyday life for the modern society. It affects our lifestyle and the outcomes of the communication. That is why for the companies and employed people, who care about the work efficiency and own well-being, my research is meaningful. The effort which is needed to accomplish the tasks in order to prevent stress intervention seems enormous. The purpose of this study is to determine the main causes and consequences of stress at work, to find the most effective ways to prevent and deal with it. This study can also be helpful in terms of preparing students for the challenging working life in their future life.

**Key words:** stress, eustress, distress, cope with stress, time budget.

**UOT: 331**
**JEL:L29**

## Introduction

Perhaps never before life haven't been as stressing as in the third millennium or perhaps each one of use has the tendency to appreciate his "time" as an apogee of all tasks. In modern life conditions our capacity to adapt is more and more asked for. The quality of adaptive answers is permanently subdued to new exigencies: the growth of intellectual worked up behaviours; the increase of social competition; the necessity of taking important decisions in a very short time; and time elapses in a different way in "speed's century". Before time wasn't that short, the fight for existence that violent, the people that nervous. Time had become a mainspring of everyone. It is present everywhere, starting with economic medium, where it identifies with gain and ending with relaxing moments, it seems time is never enough. Captured between the desire of enjoying our spare time and the desire of fulfilling our professional duties we found ourselves fighting, of course, against time, fighting against us. The tensions that follow from this fight, that has time as common denominator have repercussions on us, causing a succession of psycho-conductor alterations, varying from confusions and depressions to aggressive answers or, on the contrary, to blocking answers.

The stress is, nowadays, intensely studied, the beginning been made especially in the inter-war period, when stress was appreciated as a mass phenomenon, as a disease of great extension, generated by the complexity and accelerated rhythm of social life. The word stress comes from Latin word "stringere" which means to embrace, to injure and that gave birth to French word "detresse" and to English word "stress". The later signifies the notion of compulsion, of force, of solicitation and designates any aggression coming from the environment or any tensional mood created by that.

To stress means, generally speaking, "any force that applied to a system causes important changes of it's shape, usually with the connotation that change is a deformation. The term is used regarding body, social and psychological shape" (Brate, 2002, p. 86). In other scientists' conception stress is defined as "the person's reaction at situations or events that ruins or threat to ruin his physiological or mental equilibrium; a physiological or mental mood, as answer to a stressor (person, situation,

event from the environment).” (Iluþ, Chelcea, coord., 2004, p. 348).

According to other theory, “stress is a discrepancy subjectively perceived between the environment’s tasks and self-evaluation of one’s own capacities” (Lazarus, Folkman, 1984). To forestall each person ways to adapt in different situations there have to be known both the stressors and the individual resources, looked as expression of personality’s efficiency. As it is revealed out of Selye’s conception, stress sends not to the situation that caused the tension mood, but to the organism’s reaction: “Not what happens is important, but the way you react”. The differences between the persons’ reactions, as expression of their psychical features, become even more discernible when the persons are in time crisis, when the tasks are even more petitioner and thus trough their ampleness, duration and complexity put to the test the psychical and physiological functional capacities of persons. “The same stressors causes negative stress to some (distress), positive stress to others (eustress) and leave impassive others”. The personality’s features concretize in certain adaptive styles and the research of correlations between personality’s features and the conduct in difficult situations, caused by activities’ solicitations made evident the adaptive ways characteristic to certain types of personality.

A growing number of health care professionals are saying that a laugh a day may help keep the doctor away! Yes, you read that correctly – humor and laughter can cause a domino effect of joy and delight, as well as set off a number of positive health benefits. Stress is a reality more than present nowadays and has numerous effects (See Figure 1). The cues frequently used: “I’m overworked”, “I’m stressed” are very strong arguments in this sense. In these conditions terms as stress or neurosis pass from the scientific language to the daily one. Being stressed means to feel overwhelmed of circumstances without knowing what to do. Stress, although seems something regular, inevitable, still when we are stressed we solve harder our problems or make decisions.




**Figure 1. Effects of Stress**

In work activity stress appears as a consequence of insufficient psychical resources to face the tasks and professional exigencies. In this case we speak of occupational stress which

is often considered to have a good character to employees' performances; this is defined as eustress and mobilize the individual resources. It's opposite is called distress, it's effects affecting negative the health (Jurcău, Moldovan, 2003). The psychical stress could be defined as an interaction modality between person and environment, involving the person's confrontation with a situation that threatens his good mood and integrity, concretized in a tensioned disposition generated by the frustration or repress of motivation moods (needs and aspirations) or by the difficulty to solve certain problems.

**Materials and methods.** The research's purpose concerns the investigation on how the people use their time budget, more precisely how they use their time within a working day and a rest day (24 hours). The study has as object exhibiting a succession of findings made up from real investigation. The present research's objects are multiple and various. As main objects we found: clearing up machineries of growing up stress level against the restriction of spare time; grasping aspects of relation between the spare time volume and the volume of time spent to solve job's tasks; the analysis of time budget's structure; proving that individual differences from subject's answers are signs of their personality's particularities.

The study revealed the main factors that cause stress in our country. Therefore, it is recommended that there is the need for management to show they take stress seriously and therefore understand towards employees who admit to being under stress. There is also the need for the employer to have improved communication by sharing information with employees to reduce uncertainty about their jobs security and future prospects and also by clearly defining employees roles and responsibilities. Furthermore, the employer should reassure employees by providing opportunities for their career development and also give employees more control over their work.

**The organisation and stress management.** The stress management can be seen as an attempt to vary the subordinates level of stress towards an optimum point to achieve the maximum performance, avoiding the mental traumas associated with excessive stress. In this process are included: the estimation of self position on stress-performance curb; the constant and active evaluation of person and environment to identify the potential stress sources, selecting and adopting the most adequate strategies to diminish stress' effects; the efficiency's evaluation of those strategies.

Management can be defined as an important social technique, as guidance and control of efforts of a group of persons in order to achieve a common goal. "A good manager is the one that makes it's group to achieve the goals in terms of a minimum expense of resources and efforts" (Mackensie, 1969, after Cornescu, Mihăilescu, Stanciu, 2003, p. 2). Each person invested with managing responsibility at one level or other showed a specific way in thinking and acting. Style, in the context of psychosocial approach, means behaviour constant and consistency in thoughts and actions. A competent manager reveals his qualities of leader especially in tensed situations. His will stir up the others, his power reverberates in the persons he leads to achieve the organisation's (economic or normative – schools, army) goals.

Managing stress differential and nuance, helped by adequate strategies, the leader can help the subordinates to change the perception upon the tasks and to adapt it to their capacities. People react different in front of same stressors due to different perception of it's nature and also due to their different capacities to confront them. That's why the leader, as stress' manager should introduce the task differentiated, depending on the person's position on the stress-performance curve. When the personal performance is satisfying and there aren't any signs of wrong function the stress' level mustn't be adjusted.

A stress management more active should be applied when the leader plans his activities or when there are bigger or smaller signs of stress. In managing stress it is important the recognition of stress signs and decipher it's significations. Among stress signs we enumerate: incapacity to sleep or sleep without rest; irritability; the growth or the diminution of appetite; suddenly burst into tears; the lack of control and patience; confusion; the feeling that things aren't going well; difficulties in working

with others; constant task of perfection for self and others (Vernon, 2006, p. 58). At the same should understand that the number of signs and their frequencies determine the extent of somebody's stress level; a frequent sign shouldn't worry, but more signs felt frequent and during a long period of time indicate a real problem.

Stress management involves using "healthy" techniques and "unhealthy" techniques. The healthy techniques demand for using reason in behaviour, acting by anticipating a problem and achieving steps to impede the development of event or minimizing it's effects by taking on preventive measures. The rational thinking might be a good way to reduce the intensity of a stressor. "If we use time to think and establish priorities, some things would be unavoidable postponed and other even eliminated" (Wood, Tolley, 2003, p. 43). The majority of techniques to adapt to stress accentuate especially the the cognitive dimension of behaviour: on one hand the situation's evaluation, on the other hand the behaviour register, which the varied it is, the more growth the chances of an efficient adaptation. The cognitive training to adapt stress has as goal to eliminate or to minimize the stress sensation by teaching the person to call, any time he needs, a pattern of rational analysis. In difficult situations we needn't to react which involves not to anticipate the problem and as a consequence to react after it had occurred. The "unhealthy" techniques (cigarettes, alcohol, drugs) aren't so useful because they often brought an increase of stress level causing a series of negative effects.

The leader can use three ways to accomplish stress management: 1. The manipulation of perception and present tasks on subordinates (strategies regarding the requirements); 2. The evaluation and, subsequent, the improvement of present perception on subordinates' capacities (strategies regarding the capacities); 3. The attenuation of dysfunctional answers of subordinates (physiological, mental and conductor answers – strategies of moulding).

The stress management general procedure starts when the leader, through varied evaluation methods, establishes that the level of individual stress is not at the optimum of performance. Generally speaking, if the leader notices the stress level is too reduced, he can increase the tasks to such a point that demands overcome the capacities. On the other hand, if the demands excess is dysfunctional, the leader should investigate the probable causes and to reduce the demands to a tolerable level or he could improve the subordinates self perception about their capacities. A third option is to try to relief the stress effects, focusing even on the demands, even on capacities or answers or any other combination.

The stress management strategies can focus on subordinates' capacities, on observing and stimulating/ accelerating subordinates' abilities to accomplish their tasks. This strategies are usually focused either on adopting/amending subordinates' abilities through training, or on attempt to improve self-confidence to accomplish the task. In most cases the leader may influence the requirements to discharge the employees' duties either by specifying the ways to accomplish the requirements either by imposing the performance's standards, but the growth of requirements' level is more tolerable if it is made gradually. A relevant example about the effect of changing the performance's standards is the preparation for an athletic competition. The performance's levels growth progressively to the optimal physical condition, corresponding to capacities and demands.

Another source of manipulating by requirements that leader may use is to negotiate resources' assignment to execute the tasks. It is not a custom leader to hold back deliberately the resources to produce stress; anyway time constrains can be used to manipulate the demands' level. If the leader ignores comments such as: "I can do that, but I need more time!" there is the possibility of dysfunctional stress. Sometimes a demand like: "We must do this report immediately!", may diminish subordinates' lethargy/ inertia, improving their performance. Changing the demand or the procedures to achieve the demand could be major sources of stress, controllable by leader. The subordinates tend to see the change as overwhelming their abilities, especially if the current procedure was installed for a long time.

Among the important psychological factors in preventing and combating stress an essential role is hold by the high perception of personal

efficiency, a person's belief that he or she can accomplish a specific task. Such beliefs influence the person's behaviour, generating more perseverance in front of obstacles and frustrations and, implicit, more chances to reach success.

**How to Reduce, Prevent, and Cope with Stress**. Stress is a natural part of the human experience. In fact, stress can provide motivation and increase our performance. Psychological stress is known to suppress the immune system, making us more susceptible to illness. Stress is also associated with hypertension, heart disease, headaches, and cancer. Prolonged stress can also trigger depression, anxiety, and other psychological symptoms. It may seem that there's nothing you can do about stress. The bills won't stop coming, there will never be more hours in the day, and your career and family responsibilities will always be demanding. But you have more control than you might think. In fact, the simple realization that you're in control of your life is the foundation of stress management. Managing stress is all about taking charge – of your thoughts, emotions, schedule, and the way you deal with problems. Stress is an internal reaction to events and circumstances that challenge us to make changes in our lives.

Stress management starts with identifying the sources of stress in your life. This isn't as easy as it sounds. Your true sources of stress aren't always obvious, and it's all too easy to overlook your own stress-inducing thoughts, feelings, and behaviors. It may seem that there's nothing you can do about stress. The bills won't stop coming, there will never be more hours in the day, and your career and family responsibilities will always be demanding. But you have more control than you might think. In fact, the simple realization that you're in control of your life is the foundation of stress management. Managing stress is all about taking charge: of your thoughts, emotions, schedule, and the way you deal with problems. See below the best stress management plan (Figure 2).




**Figure 2. Best Stress Management Plan**

According to the research, some employees agreed stress had a negative effect on their performance and their attitude towards work. To help address these, the employer must take seriously what employees say about the pressures of their work. The signs of stress must also be taken seriously. The employer also needs to ensure employees have the skills, training and resources they need, so they will be able to work in a relaxed atmosphere and not feel too pressured. To prevent stress, it is necessary to vary working conditions and ensure flexibility in the work environment. Managers on the other hand, must know the effects of stress and attach the necessary urgency, because if stress is not checked it will have a negative effect on their job satisfaction and attitude to work.

**Discussion and Conclusion**

Stress is part of everyone's life. Stress means different things to different people, and what causes stress for one person may not cause it for

another. Stress is not always bad. For example, very positive events like weddings, the birth of a grandchild, and starting or ending a job can cause stress. Some stress can help make your life interesting and exciting, but too much stress, or stress that continues for too long, can have a negative impact on your body and your mind. If not managed properly, stress can lead to illness, increased blood glucose levels, increased anxiety, or depression and mood swings.

The World Organization of Health placed, as far back as in last years, at forehead on the list of diseases with growing spread coefficient, the psychical affections. Stress lies at the ground of many such diseases, often incurable. One of the areas in which stress may appear, showing itself, is the professional area. At work stress appears when the professional exigencies overcame the resources the human being dispose it. The professional stress is determined by the person's impact with physical and intellectual work process.

Most interventions to reduce the risk to health associated with stress in the workplace involve both individual and organisational approaches. Individual approaches include training and one-to-one psychology services-clinical, occupational, health or counselling. They should aim to change individual skills and resources and help the individual change their situation. However, the prevention and management of workplace stress requires organisational level interventions, because it is the organisation that creates the stress. An approach that is limited to helping those already experiencing stress is analogous to administering sticking plaster on wounds, rather than dealing with the causes of the damage. An alternative analogy is trying to run up an escalator that's going down! Organisational interventions can be of many types, ranging from structural (for example, staffing levels, work schedules, physical environment) to psychological (for example, social support, control over work, participation).

Stress is not only the result of major events, but also of daily tensions and pressures. The later, through their frequencies, have an important part in professional environment and affects more the person than the rarely major negative events. This session explores the causes of stress and how participants deal with stress. Participants learn ways of reducing stress by streamlining their physical activity, making time to relax, getting plenty of sleep, and having a good laugh. Participants examine how they are spending their time each day and brainstorm ways to improve their time-management. There are several relaxation techniques that help reduce stress. These techniques bring on the "relaxation response" where your body enters a state of calmness. Using these relaxation techniques can help reduce stress and tension, lower blood pressure and blood glucose, relieve tension, and improve sleep. Learning to deal with stress in a positive manner can help you to greatly improve your health!

**References:**

1. Job Stress Management Resources. URL: http://www.mindtools.com/stress/Brn/IntroPage.htm. Quoted: 10.01.2010
2. Cooper CL, Marshall J. Occupational sources of stress: a review of the literature relating to coronary heart disease and mental ill health. J Occup Health Psychol 1976; 49:11–28.
3. Mental Health Touches. Stress at work.URL: http://www.athealth.com/Consumer/disorders/workstress.html. Quoted: 30.12.2009
4. Friedman, N.D., Rosenman, R.H. (1974). Type A behavior and your heart, Knopf, New York
5. Karasek RA, Theorell T. Healthy work: stress, productivity, and the reconstruction of working life. New York: Basic Books, 1990.
6. Silverthorne, C., Chen, J. (2008) The Impact of Locus of Control on Job Stress, Job Performance and Job Satisfaction in Taiwan. Leadership & Organization Development Journal, 29, 572-582. http://dx.doi.org/10.1108/01437730810906326 Selye, H. [1956] (1976).
7. Manufacturing, Science and Finance Union. Preventing stress at work: an MSF guide. London: MSF, 1997.
8. Thompson, P. And McHugh, D. (1995) Work Organizations; A Critical Introduction. 2nd Edition, Macmillan Press Ltd., Hampshire.

**Рагиф Тофиг оглу ГУСЕЙНОВ, к. э. н.**

**Шафа Шахин кызы ГУСЕЙНОВА**
Азербайджанский Технологический Университет
E-mail: shafakamran@gmail.com

# СТРАТЕГИИ УПРАВЛЕНИЯ СТРЕССОМ

**Резюме**

Существует много причин стресса, в том числе личные трудности (например, конфликт с близкими, одиночество, отсутствие дохода, беспокойство о будущем), проблемы на работе (например, конфликт с коллегами, чрезвычайно требовательная или небезопасная работа) или серьезные угрозы в вашем обществе (например, насилие, болезни, отсутствие экономических возможностей). Таким образом, стресс стал частью повседневной жизни современного общества. Он влияет на наш образ жизни и результаты общения. Поэтому исследования в этой статье могут оказаться полезными для компаний и работающих людей, которым важна эффективность работы и собственное благополучие. Некоторые задачи требуют больших усилий, чтобы избежать стрессовых помех. Целью данного исследования является определение основных причин, последствий стресса на рабочем месте, и выявить наиболее эффективные пути предотвращения и борьбы со стрессом. Это исследование также может быть полезным для подготовки студентов к трудной трудовой жизни, которая их ожидает.

**Ключевые слова:** стресс, эустресс, бедствие, справляться со стрессом, бюджет времени.

**Raqif Tofiq oğlu HÜSEYNOV, i.f.d.**

**Şəfa Şahin qızı HÜSEYNOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: shafakamran@gmail.com

# STRESS İDARƏETMƏ STRATEGİYALARI

**Xülasə**

Stressin bir çox səbəbi var, o cümlədən şəxsi çətinliklər (məsələn, yaxınlarınızla münaqişə, tək qalmaq, gəlirin olmaması, gələcəklə bağlı narahatlıqlar), işdəki problemlər (məsələn, həmkarları ilə münaqişə, həddindən artıq tələbkar və ya etibarsız iş) və ya icmanızdakı əsas təhlükələr (məsələn, zorakılıq, xəstəlik, iqtisadi imkanların olmaması). Beləliklə, stress müasir cəmiyyətin gündəlik həyatının bir hissəsinə çevrilib. Bu, həyat tərzimizə və ünsiyyətimizin nəticələrinə təsir göstərir. Buna görə də, işin səmərəliliyinə və öz rifahına əhəmiyyət verən müəssisələr və orada işləyən insanlar üçün bu məqalədəki araşdırmalar faydalı hesab oluna bilər. Stressə müdaxilənin qarşısını almaq üçün müəyyən tapşırıqların yerinə yetirilməsi böyük səy tələb edir. Beləliklə, bu tədqiqatın məqsədi iş yerində stressin əsas səbəblərini və nəticələrini müəyyən etmək, onun qarşısının alınması və onunla mübarizə aparmağın ən təsirli yollarını tapmaqdır. Bu tədqiqat həm də tələbələri onları gözləyən çətin iş həyatına hazırlamaq üçün faydalı ola bilər.

**Açar sözlər:** stress, eustress, sıxıntı, stresin öhdəsindən gəlmək, vaxt büdcəsi.

**Məhərrəm Cəlal oğlu HÜSEYNOV, prof.**

**Asim Akif oğlu İSGƏNDƏRLİ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**İmamverdi Lətif oğlu HÜSEYİNZADƏ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: mina34mk@mail.ru

# KORPORATİV BİZNESDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ METODOLOGİYASININ TƏTBİQİ

**Xülasə**

Korporativ biznesdə risklərin idarə olunması haqqında biliklərin əldə olunması nəticəsində bir sıra korporativ biznes problemlərini həll etmək mümkündür. Tədqiqat əsasında risklərin idarə olunması və qiymətləndirilməsi sahəsində mövcud olan proseslərlə tanışlıqdan sonra korporativ biznes sahəsində risklərin idarə edilməsinin, həmçinin onlara nəzarət edilməsinin vacib məsələ olduğu bir daha sübut olunur. Belə ki, korporativ biznes sahəsində riskləri tamamilə dəf etmək mümkün deyil. Lakin onlara nəzarət edərək azaltmaq mümkündür. Belə ki, bu da korporativ idarəetmə sahəsində səmərəliliyin təmin edilməsi deməkdir.

Ümumiyyətlə, bu tədqiqatın məqsədinə risklərin müəyyən edilməsi, mövcud riskləri təhlil edərək onların azaldılması yollarının tapılması, o cümlədən korporativ biznes fəaliyyətindən risklərə nəzarət əsasında maksimum mənfəətin əldə edilməsi aiddir.

**Açar sözlər:** risk, müəssisə, strategiya, korporativ biznes, motivasiya, idarəetmə, bank, kredit

**UOT:** 338.12:338.34:330.36

## Giriş

Risklərin idarə edilməsi təkcə şirkətin bütün menecerlərinin yerinə yetirməli olduğu vəzifə deyil, həmçinin korporativ biznesdə idarəetmənin səmərəli alətidir. Risklərin idarə edilməsi proses kimi korporativ bizneslə sıx bağlıdır, çünki bu halda səhmdarlar özləri üçün zəruri olan risklər və həmçinin bu risklərin nəzarət altında saxlanılması barədə informasiyaya malik olurlar.

Risklərə nəzarət biznesin səmərəli idarə olunması üçün vacibdir, çünki ayrı-ayrı mütəxəssislərin və bölmələrin işini daha realist qiymətləndirə bilər, bundan başqa ümumilikdə biznesdə mövcud olan riskləri nəzərə alaraq onların maliyyə göstəricilərinə düzəlişlər edə bilər.

Təbii ki, bank sahəsində risklərin idarəedilməsi metodologiyasının mürəkkəblik səviyyəsi və vacibliyi, xüsusilə də, onların ölçüsü sənaye müəssisələri ilə müqayisədə xeyli yüksəkdir. Məsələn, əgər bank qulluqçuları rəhbərliyə tez - tez real vaxt rejimində mürəkkəb proqram məhsullarının köməyilə RmD-in hesablanması, risklərin açıq mövqeləri haqqında təsəvvürlər yaratmağa çalışırlarsa, sənaye müəssisələrinin rəhbərləri, bir qayda olaraq, biznes riskləri haqqında müəyyən informasiyanı öz səhmdarları qarşısında yazılı formada açıqlamaq üçün hesabat dövrünə qədər gözləyə bilərlər, ilk növbədə, obyektiv və dolğun məlumatların açıqlanmasına çalışarlar.

Korporativ biznesin ayrı-ayrı sahələrində risklərin idarə edilməsi metodologiyası öz tətbiqini tapır. Məsələn, bir sıra müasir Azərbaycan banklarında və bank olmayan kredit təşkilatlarında kredit risklərinin kifayət qədər mürəkkəb nəzarət sistemi artıq çoxdan uğurla tətbiq olunur. Alıcılar üçün sistematik limitlər - həm vaxtlı (göndərilən məhsulun ödəniş müddətinə görə), həm də pullu (əmtəə kreditinin məbləğinə görə) müəyyən edilir.

Bu limitlər izlənilir və nəzarət edilir, müvafiq idarəetmə qərarlarının nəticələrini izləmək və bunun əsasında nəticəyə görə mükafatlandırma və ya cəzalandırma sistemini

tətbiq etmək üçün həddi aşılan limitlərə görə satış şöbələrinin rəhbərlərinin səlahiyyətləri formalaşdırılır.

Beləliklə, korporativ biznesdə işçilərin töhfəsi və ya risk səviyyəsi əsasında ümumi maliyyə nəticələrinin bölgüsü müəyyənləşdirilən zaman şirkətin heyətinin motivasiya sistemi ilə risklərin idarəedilməsi arasında əlaqə yaranır. Burada, həmçinin maliyyə institutlarının təcrübəsi faydalı olacaq. Belə ki, onlar öz mövqelərində açıq risklər səviyyəsini nəzərə alaraq ilk dəfə olaraq öz treyderlərinin işlərinin nəticələrini qiymətləndirmək üçün təcrübəyə təqdim etdilər.

**Mövzunun aktuallığı.** Korporativ biznes spesifik bir sahədir. Onun əsasını başlıca olaraq pul vəsaitlərinin cəlb edilməsi və onlardan mənfəət əldə edilməsi təşkil edir. Belə ki, bütün təsərrüfat subyektlərində olduğu kimi, korporativ biznes fəaliyyəti müştərilərə məhsulu təqdim etmək yolu ilə mənfəətin əldə edilməsinə yönəlmişdir. Məhz bu səbəbdən korporativ biznes fəaliyyəti hər zaman olduqca riskli sahə olmuş və olmaqdadır. Hal-hazırda korporativ biznesdə risk problemi xüsusən kəskindir. Ona görə də, korporativ biznes sisteminin effektiv fəaliyyətinin təşkil edilməsində, onun risklərinin səmərəli idarə olunması sisteminin yaradılmasını zəruri edir. Bu, onunla izah olunur ki, riskin mövcudluğu korporativ biznesdə iqtisadi itkilərin olmasına gətirib çıxarda bilər. Yəni ən yaxşı halda korporativ biznes mənfəətdən məhrum ola, ən pis halda isə ziyanla işləyərək iflasa uğraya bilər.

Təcrübi korporativ biznes işində əsas məsələ riskin, ümumiyyətlə, istisna olunması deyil, onun qabaqcadan ehtimal edilməsi, qiymətləndirilməsi və səviyyəsinin azaldılmasıdır. Bütün hallarda risk müəyyən edilərək ölçülməlidir. Risklər düzgün qiymətləndirilmədikdə, yaxud onlara qarşı təsirli tədbirlərin görülməsi mümkün olmadıqda korporativ biznes üçün mənfi nəticələr yarana bilər. Yuxarıda deyilənləri nəzərə alaraq Azərbaycanda korporativ biznesdə risklərin idarə olunması sahəsində yaranan problemləri müəyyən etmək və bu problemlərin aradan qaldırılması istiqamətində təkliflər hazırlamaq çox aktual bir məsələdir.

**Təqdqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi korporativ biznesdə mövcud olan riskləri, onların quruluşunu, korporativ biznes fəaliyyətinə risklərin necə təsir etdiyini, onların qiymətləndirilməsini öyrənməkdən ibarətdir.

**Tədqiqatın obyekti:** Tədqiqatın obyekti korporativ biznesdə risklərin idarə olunması, onların qiymətləndirilməsi xüsusiyyətləridir.

**Tədqiqatın metodları:** Ölkənin iqtisadi siyasətinin əsas həlqəsi olan risklər, onların tənzimləmə metodları, başlıca istiqamətləri, alətləri və müəssisələrdə risk menecmentinin təkmilləşdirilməsi yolları.

**Materiallar və müzakirələr**

Risklərin idarə edilməsi metodologiyası menecerlər üçün o qədər universal və cəlbedicidir ki, korporativ biznesdə onların mümkün rollarını yenidən qiymətləndirmək üçün tədqiqatlar aparmaq lazımdır.

Korporativ biznesdə strateji məqsədlər və onların reallaşdırılması yolunda şirkətin mümkün uğursuzluqları haqqında danışarkən səmərəli strateji planlaşdırma və bütün konsaltinq alətlərindən istifadə mövzusuna istər-istəməz toxunmaq lazım gəlir.

Strateji riskin qiymətləndirilməsi biznesin özünün xüsusiyyətləri və imkanları, həm də bazarın perspektivləri, ümumiyyətlə əsas hadisələrin identifikasiyası və hadisələrin mümkün inkişaf ssenarilərinin qurulması kimi dərin təhlil yolu ilə həyata keçirilir. Bu əlaqə barədə, əlbəttə, "korporativ biznesdə strateji risklər" və onların idarəedilməsi haqqında danışmaq olar, lakin, təhlil və planlaşdırmanın dəqiq ədədi metodlarının şirkətin menecerlərinə hansısa yeni və səmərəli idarəetmə alətlərini verəcəklərinə az ümid etmək olar [1].

Bəzən onların köməyilə idarəetmə qərarlarının qəbulu zamanı rahat istifadə edə biləcəyimiz faydalı informasiya almaq olar ki, bu da başqa məsələdir: Məsələn, bazarda hadisələrin inkişaf ssenarisinin ehtimalı əsasında ənənəvi SWOT-təhlilini tənzimləmək və ya onların ehtimallarına görə biznesdə xarici təhlükələrə qarşı prioritetlər yaratmaq və ya beynəlxalq kapital bazarlarının təhlili əsasında Azərbaycan bazarının müvafiq seqmentlərində hadisələrin inkişafını proqnozlaşdırmağa cəhd etmək.

Korporativ biznesdə vəzifələrin yaradılması və mədəni təhlil mənasında risklərin idarə edilməsi metodologiyası özü faydalı ola bilər.

Risklərin idarə edilməsi metodologiyası AMB-nın "Risklərin idarə edilməsi" Standartı

əsasında hazırlanır. Belə ki, həmin metodologiyanın hazırlanması bu Standartın 2-ci və 3-cü bəndində öz əksini tapmışdır.

Bu Standartın 2-ci bəndində banklarda mövcud olan riskləri, onların qiymətləndirilməsini və toplanmasını, o cümlədən, hansı üsullarla risklərin ölçülməsi qeyd edilmişdir.

Standarta əsasən risklərin aşağıdakı növləri var:

Bazar riski - faiz dərəcəsi, xarici valyuta məzənnəsi və kapitalın (həmçinin bazar qiymətli kağızların) qiymətlərindəki enibqalxmaların nəticəsində bank aktivinin bazar dəyərini dəyişməsindən itkiyə səbəb ola bilən ehtimaldır.

Bu anlayışa əsasən bazar riski riskin mənbəyindən asılı olaraq aşağıdakı kateqoriyalara bölünə bilər:

- Faiz dərəcəsi riski – faiz dərəcəsinin dəyişilməsi nəticəsində yaranan riskdir. Bu risk mənbəyi ilk növbədə faiz gətirən maliyyə alətlərinə təsir edir;
- Xarici valyuta riski – valyuta məzənnələrindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi xarici valyutada yerləşdirilən alətlərin portfelinə təsir edir. O, həmçinin ticarət əməliyyatları müxtəlif valyutalarda aparıldıqda və sonradan qiymətləndirmə uçotu və hesabatları yerli valyutaya çevirildikdə bankın ümumi portfeli xarici valyuta riski ilə üzləşə bilər;
- Kapital riski – kapitalın və digər bazar giymətli kağızlarının qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi kapital portfelinə, eləcə də hedcinq və spekulyasiya məqsədləri üçün istifadə edilən kapitalın törəmə alətlərinə təsir göstərir;
- Əmtəə-mal riski - əmtəə-mal qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyinin təsir göstərdiyi portfellər faktiki əmtəələrdən (məsələn, qızıl) və ya əmtəə fyuçerslərindən və forvard müqavilələrindən ibarət ola bilər. Bu riskin banklara təsiri onların fəaliyyətindən asılı olacaqdır.

Kredit riski, aktivin dəyərini itirməsinə və yaxud dəyərsiz hala düşməsinə səbəb olan, borcalanın maliyyə vəziyyətinin pisləşməsi kimi hadisəsindən (balansdankənar hadisələr daxil olmaqla) yaranan zərər ehtimalıdır. Kredit risklərinin idarə edilməsində məqsəd, belə kredit hadisələrini aradan qaldırmaq, kredit riski təhlükəsini məqbul olan parametrlər daxilində saxlamaq, bank aktivlərinin sağlamlığını qorumaq və onlardan əldə olunacaq gəlirlərin itkilərin örtəcəyini təmin etməkdən ibarətdir [4].

Banklar, bütün kredit portfelinin riskini, eləcə də ayrı-ayrı kreditlərdə və ya əməliyyatlarda mövcud olan riskləri idarə etməlidir.

Likvidlik riski, bankın aktivlərində olan artımı maliyyələşdirə bilməməsi və öz öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirə bilməməsi riskidir [5].

Əməliyyat riski, qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş daxili proseslərdən, insanlardan və ya sistemlərdən, yaxud kənar hadisələrin baş verməsindən yaranan zərər riskidir.

"Risklərin idarə edilməsi" Standartına görə bankın risk növləri ilə üzləşmə təhlükəsinə Risklərin İdarəedilməsi Departamenti nəzarət etməlidir. Bütün mövqelər Müşahidə Şurası tərəfindən təsdiq edilən prosedur və qaydalardan istifadə etməklə ən azı gündəlik sərbəst olaraq və cari bazar şəraitinə uyğun yenidən qiymətləndirilməlidir. Çünki qiymətləndirmə bütün risk ölçüləri üçün əsasdır.

Kredit risklərinin kəmiyyətinin təyin olunması sadəcə olaraq ayrı-ayrı müştəri üçün kreditin ödənilməməsi ehtimalının hesablanması deyildir. O, həmçinin risklərin spesifik müştəriyə və ya sənayeyə doğru konsentrasiyasını və girovun dəyərindəki dəyişiklikləri əks etdirməlidir. Bu cür məlumatlar bütün kredit portfeli və yaxud ayrı-ayrı kreditlər üzrə risklərin hesablanması məqsədi ilə təhlil edilməlidir [8].

Risklərin idarə edilməsi metodologiyasının tətbiqində risklərin ölçülməsi zəruridir. "Risklərin idarə edilməsi" Standartında risklərin hər bir növü üzrə ölçülmə üsulları verilmişdir. Belə ki, riskləri ölçmək üçün aşağıdakı üsullardan istifadə etmək olar:

1. Ehtimal əsaslı ölçülər – adətən 1 və 10 gün müddətində hesablanır. Bura aşağıdakı metodlar daxildir:

a) Riskə məruz Dəyər (RmD) - verilmiş müddət ərzində, müəyyən əminliklə (normal olaraq 99%) ehtimal olunan zərərin maksimum məbləğinin müəyyən edilməsidir. Həmin məbləğ bankın aktivləri üzrə portfelinin gələcəkdə bölüşdürülməsi və yaxud standart meyillilikdən

asılı olaraq ehtimal olunan itki üçün məlumat olacaqdır.

b) Gözlənilən gələcək portfelin dəyəri: bu, bankın portfel dəyərinin bölüşdürülməsi ehtimalının statistik üsuludur.

2. Həssaslıq ölçüləri – spesifik bazar riski amilləri üzrə portfel dəyərinin həssaslığıdır. Bu metod ayrı-ayrı elementlərin dəyişikliyə həssaslıq dərəcəsini göstərmək üçün hesablanır və bəzi RmD modellərinə giriş kimi tətbiq edilə bilər.

3. Stress testi – bu, ekstremal bazar dəyişikliklərindən yaranan maksimal potensial zərərləri qiymətləndirmək üçün nəzərdə tutulan hesablamadır və modelin ehtimallarının intensivliyi və sabitliyi ilə bağlı sübutlar əldə etmək üçün istifadə edilir.

4. Ssenarilərin təhlili – bu statistik metod, müxtəlif ssenarilərin portfelin dəyərinə necə təsir göstərəcəyini müəyyənləşdirmək üçün risk modelinə qabaqcadan müəyyən edilmiş bəzi bazar ssenarilərinin tətbiq edilməsini tələb edir. Bu yoxlamaların nəticələri gələcəkdə müxtəlif vəziyyətlərə tab gətirmək üçün yaradılmalı risklərin idarə edilməsi strategiyaları haqqında ətraflı məlumatın təmin edilməsinə köməklik göstərir.

Lakin qiymətləndirmənin ehtimal-əsaslı üsullarını tətbiq etmək üçün kifayət qədər etibarlı məlumat bazası olmadıqda nisbətən sadə metodologiya tətbiq edilməlidir.

Metodologiyanın tətbiqində həmçinin risklərin toplanması da zəruridir. Belə ki, toplanmış risklər gündəlik ümumi bank təlimatları və limitləri əsasında nəzərdən keçirilməlidir. Ümumiyyətlə, banklar üzrə limitlərə aşağıdakılar daxildir:

1. Riskə məruz Dəyər limitləri - bank riskə məruz kapitalı hesablayanda istifadə olunur. Riskə məruz kapital, hər bir biznes bölməsinin məruz qaldığı əsas riskləri əks etdirmək məqsədi ilə, həm bazar, həm də kredit riski elementlərini daxil etməlidir. Digər elementlər, məsələn əməliyyat riskinin miqdarını təyin etmək üçün metodologiyalar mövcud olduqda istifadə olunmalıdır.

2. Bazar riski limitləri – bu biznes bölmələri və treyderlər üzrə müəyyən edilməli və nəzarət edilməlidir.

3. Kredit limitləri - hər bir qarşı tərəf və yaxud müştəri üçün müəyyən edilməlidir.

4. Kreditlərin cəmləşməsi limitləri - qarşı tərəf qrupları (məsələn, qarşılıqlı əlaqəli müəssisələr), ayrı-ayrı ölkələr və ya ölkə qrupları, sənaye sektorları, kredit reytinqi ilə bağlı olan risklərin cəmlənməsi nəzərdə tutulur.

“Risklərin idarə edilməsi” Standartının 3-cü maddəsində isə risklərin idarə edilməsi prosedurları öz əksini tapmışdır. Bu prosedurlara isə aşağıdakılar aiddir:

1. Təsdiq etmə və nəzarət prosedur – müvafiq orqanlar tərəfindən yerinə yetirilməli olan prosedurlardır;

2. Nəzarət orqanlarına hesabatların verilməsi – idarə etmə orqanları nəzarət orqanlarına fəaliyyətin səmərəliliyini təmin etmək üçün vaxtlı-vaxtında dəqiq, dolğun hesabat verməlidirlər.

3. Monitorinq və qiymətləndirmə prosedurları – bank fəaliyyətinin effektivliyini təmin etmək üçün həyata keçirilən prosedurlardır;

4. Gözlənilməyən halların planlaşdırılması - İdarə Heyəti, fəaliyyətin davamlılığı üzrə ətraflı planların yaradılmasını və normal biznes əməliyyatlarına təsir göstərəcək hər hansı bir pozuntu halının aşkar edilməsi məqsədi ilə bu planların yoxlanılmasını təmin etməlidir.

Bütün bu yazdıqlarımızı ümumiləşdirərək qeyd edək ki, hər bir bank fəaliyyətinin xüsusiyyətlərinə və əldə edilən məlumatlara uyğun öz metodologiyasını yaratmalıdır, həmçinin yaratdığı metodologiyanı öz fəaliyyətinə tətbiq edərək risklərin idarə edilməsinin səmərəli sistemini yarada bilər.

**Nəticə**

Korporativ biznesdə risklərin idarə edilməsi mürəkkəb, çoxcəhətli və olduqca böyük əhəmiyyətə malik anlayışdır. Belə ki, risklərin idarə olunması, onların düzgün qiymətləndirilməsi təkcə korporativ biznes fəaliyyətinin maksimum mənfəət əldə etməsinə deyil, həm də onun optimal şəkildə idarə olunmasını təmin etməyə şərait yaradır.

Yekun olaraq aşağıdakı nəticələr əldə edilmişdir:

1. Təşkilati hüquqi formaya görə korporativ strukturların bəziləri müxtəlif adla adlandırılsa da, məzmun etibari ilə eyni funksiyanı yerinə yetirmələri;

2. Risklərin idarə edilməsi metodologiyasının təkcə normativ hüquqi sənədlər

əsasında deyil, həm də hər bir bankın öz fəaliyyət xüsusiyyətlərinə uyğun hazırlanmalı olduğu;

3. İdarə etmənin səmərəliliyinin qiymətləndirilməsində reytinq və monitorinq sistemini həyata keçirən yerli şirkətlər olmaması;

4. Reytinq və monitorinq sistemi korporativ biznes fəaliyyətini həyata keçirənlər üçün əlavə xərcləri yaratması;

5. Ölkəmizdə korporativ idarəetmə sahəsində tam dolğun informasiyalar təqdim edilmədiyindən reytinq və monitorinq sistemlərinin bir o qədər yüksək nəticə verməməsi;

6. Beynəlxalq təşkilat və komitələrin tövsiyələrinin AMB tərəfindən nəzərə alınaraq bankların istifadəsinə verilərək onların inkişaf etdirilməsi;

7. Nəzarət sisteminin düzgün qurulması əsasında təhlükələrin dəf edildiyi, itkilərin qarşısının alındığı;

8. Bundan başqa, Mərkəzi Bank xarici təcrübəni daim izlədiyi, həmin təcrübəni ölkəmizin real vəziyyətinə uyğun olaraq tətbiq etmək üçün tədbirlər gördüyü və qismən də olsa ölkəmizdə mövcud olan problemləri aradan qaldırmağa çalışması;

9. Biznes strategiyasının effektivliyini təmin etmək üçün nəzarətin olduqca vacib olduğu, nəzarət əsasında təhlükələrin dəf edildiyi, itkilərin qarşısının alınması.

**Tədqiqatın elmi yeniliyi:**

– İlk olaraq korporativ biznesdə risklərin idarə olunmasının əsas xüsusiyyətləri nəzərdən keçirildi;

– Risklərin qiymətləndirilməsi metodlarına və alqoritmlərinə nəzər yetirildi;

– Korporativ biznesdə risklərin rolu müəyyən edilmişdir;

– Xarici təcrübənin Azərbaycanda mövcud olan korporativ biznes sahələrinə tətbiqi göstərildi;

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Aparılan tədqiqat əsasında Azərbaycanda korporativ biznes sahələrinə, xüsusilə də yerli banklara risklərin idarə olunması və qiymətləndirilməsi üzrə irəli sürülən təklif və tövsiyələr tətbiq edilmə imkanlarını daha da genişləndirir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Məmmədov Z. “Pul, kredit və banklar”. Dərslik. Bakı, 2006

2. Xanhüseyn Kazımlı, İbrahim Quliyev. “İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi”. Dərs vəsaiti. Bakı, “İqtisadiyyat Universiteti”, 2011.

3. Абчук В.А. “Риски в бизнесе, менеджменте и маркетинге”. СПб. Изд-во Михайлова, 2006.

4. Бартон Т. и др. “Комплексный подход к риск-менеджменту: стоит ли этим заниматься”. М.: Изд. дом «Вильямс», 2003.

5. Бернстайн П. “Против богов. Укрощение риска”. М.: Олимп-Бизнес, 2000.

6. Масленченков Ю.С. Команов В.А. Учетная политика и кредитный анализ предприятия. Банковский журнал, № 4-1995 г.

7. Пикфорд Дж. “Управление рисками”. М.: Вершина, 2004

8. Усоскин В.М. “Современный коммерческий банк”. Москва, ИПЦ “Вазар-Ферро”1994 г.

9. Хохлов Н.В. “Управление риском”. М.: ЮНИТИ, 2001.

10. Холмс Э. “Риск-менеджмент”. М.: Эксмо, 2007.

11. Шоломицкий А.Г. “Теория риска. Выбор при неопределенности и моделировании риска”. М.: Изд. ГУ-ВШЭ, 2005.

**Магеррам Джалал оглы ГУСЕЙНОВ, проф.**

**Асим Акиф оглы ИСКЕНДЕРЛИ**

**Имамверди Латиф оглы ГУСЕЙНЗАДЕ**
Азербайджанский Технологический Университет
E-mail: **mina34mk@mail.ru**

## ПРИМЕНЕНИЕ МЕТОДОЛОГИИ УПРАВЛЕНИЯ РИСКАМИ В КОРПОРАТИВНОМ БИЗНЕСЕ

**Резюме**

С помощью приобретения знаний в корпоративном бизнесе управление рисками формируется способность решения многих проблем корпоративного бизнеса. На основе исследований после ознакомления с процессами существующих в области оценки и управления рисками, еще раз свидетельствует о важности корпоративного бизнеса в области управления рисками, а также контроль за их. Так, совершенно невозможно ликвидировать риски в сфере корпоративного бизнеса. Однако им контроль, можно сократить. Так что, это означает обеспечение эффективности в сфере корпоративного управления.

В целом, данного исследования для определения рисков, найти пути сокращения существующие рисков на основе анализа, в том числе чтобы получить максимальную прибыль на основании контроля корпоративного риски в деятельностью корпоративного бизнеса.

**Ключевые слова:** риск, предприятия, стратегия, корпоративный бизнес, мотивация, управления, банк, кредит

**Maharram Jalal HUSEYNOV, prof.**

**Asim Akif İSGENDERLİ**

**Imamverdi Latif HUSEYNZADE**
Azerbaijan Technological University
E-mail: mina34mk@mail.ru

## APPLICATION OF RISK MANAGEMENT METHODOLOGY IN CORPORATE BUSINESS

**Summary**

As your knowledge of risk management in corporate business can be solved some corporate business problems. Research based on risk management and assessment of risk management and control on the important issue is further evidence that corporate business after getting acquainted with the processes that exist in the field. So, it is impossible to repel the corporate business risks completely. But it is possible to reduce and control. So, it means ensuring efficiency in corporate governance.

In general, the purpose of this research, determination of risk, risk analysis, risk control activities based on the maximum profit, include finding ways to reduce them, including corporate business.

**Keywords:** risk, enterprises, strategy, corporate business, motivation, management, bank, credit

**Mehman Məzahir oğlu HÜSEYNOV, i.f.d., dosent**

**Sumayya Təhmasib qızı ABBASOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: sumayyaabbasova@gmail.com

# KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ DAXİLİ AUDİT İŞİNİN TƏŞKİLİ

**Xülasə**

Məqalədə kənd təsərrüfatı müəssisələrində audit xidmətlərinin təşkili məsələlərinə baxılır. Göstərilir ki, kənd təsərrüfatı sahəsində müəssisənin müstəqil sahibkarlıq subyekti statusunun gücləndirilməsi məqsədi ilə onun fəaliyyətinə nəzarətin həyata keçirilməsinə prinsipcə yeni yanaşmalara ehtiyac duyulur. Bu istiqamətdə daxili nəzarətin tədricən aradan qaldırılması və müstəqil audit xidmətlərinin yaradılmasına və inkişafına şərait yaradılmalıdır. Həmçinin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (ETKİS) Avropa Birliyinin Kənd Təsərrüfatı Uçotu Məlumat Şəbəkəsi - FADN (The Farm Accountancy Data Network) sistemi ilə müqayisə edilərək gələcək inkişaf üçün yeni istiqamətlərə baxılır.

**Açar sözlər:** uçot, audit, auditor, mühasibatlıq, ETKİS, FADN.

**UOT: 332**
**JEL: O13**

## Giriş

Beynəlxalq təcrübə göstərir ki, kənd təsərrüfatının inkişaf etdirilməsində kəndli-fermer təsərrüfatlarının aqrar kooperativlərdə birləşdirilməsinin və bu kooperativlər vasitəsilə kənd təsərrüfat məhsullarının ticarət şəbəkələrinə çıxarılmasına əhəmiyyətli təsir göstərir. Bu, eyni zamanda, kənd təsərrüfatında məhsulların istehlakçılara vaxtında çatdırılmasına, nəqliyyatdaşıma infrastukturlarına, xüsusilə, maliyyə və statistika hesabatlılığı sistemlərinin tam, dolğun və şəffaf formada təşkilinə təkan verir.

Auditin kifayət qədər böyük inkişaf tarixi vardır və müxtəlif tərcümələrdə "o dinləyir" və ya "dinləyici" mənalarını verir. Auditin meydana gəlməsi bilavasitə şirkətləri idarə edənlərin (müdiriyyət, menecer) və onların fəaliyyətlərinə pul qoyanların (mülkiyyətçilər, səhmdarlar, investorlar) mənafelərinin ayrılması inkişafı ilə bağlıdır. Mülkiyyətçilər, səhmdarlar, investorlar yalnız təşkilatlarının rəhbərlərinin və onların tabeliyindəki mühasiblərin təqdim etdikləri maliyyə informasiyasına etibar edə bilməzlər və etibar etmək istəmirlər. Müxtəlif şirkətlərin tez – tez müflisləşməsi səbəbi müdiriyyət tərəfindən aldadılma halları maliyyə qoyuluşları riskini xeyli artırır.

Auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat subyektinin mühasibat (maliyyə) hesabatlarının düzgünlüyü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdən ibarətdir.

2016-cı il 18 iyul tarixli «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanunu bu baxımdan müstəsna əhəmiyyətə malikdir. .Belə ki, həmin qanunda kooperativlərdə şəffaflığın artırılmasına xidmət edə biləcək bir sıra müddəalar əks olunmuş, onların tətbiqinin hüquqi əsasları göstərilmiş, «kooperativlərə və kənd sakinlərinə göstərilən maliyyə-kredit xidmətlərinin genişləndirilməsi» kənd təsərrüfatı kooperasiyasının inkişafına dövlət dəstəyinin əsas istiqamətlərindən biri kimi öz əksini tapmışdır (Maddə 13, bənd 13.1.7). Həmçinin bu sahədə müstəqil auditə xüsusi əhəmiyyət verilmiş, Qanunun 5-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulmuşdur ki: «Kooperativlərin maliyyə-təsərrüfat fəaliyyətini tənzimləmək, kooperativ üzvlərinin maraqlarına zidd olan, kooperativin fəaliyyətini pisləşdirən və ya onun iflasına səbəb olacaq nöqsanların aradan qaldırılması və kooperativin idarə edilməsinin səmərəliliyini artırmaq məqsədilə kooperativdə «Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq audit yoxlaması həyata keçirilir» [1].

"Kənd təsərrüfatı kooperasiyası haqqında"Azərbaycan Respublikasının Qanununda kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə

fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi kənd təsərrüfatı kooperativi adlanır və iştirakçılarının maddi və sosial tələbatlarının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi üçün yaradılan hüquqi şəxs kimi təsbit olunmuşdur.

Müəssisələrdə həyata keçirilən auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat obyektlərində mühasibat (maliyyə) hesabatlarının düzgünlüyünü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdir.

Auditin əsas vəzifəsi - müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinə dair düzgün informasiya toplamaq və həmin informasiya əsasında müəssisənin maliyyə vəziyyəti haqqında, mühasibat balansı və maliyyə hesabatlarının düzgünlüyü haqda nəticələri formalaşdırmaqdır. Həmin vəzifələrin uğurla həyata keçirilməsi üçün aparılan audit ümumi prinsiplərə əsaslanır (BAS 120 «Auditin beynəlxalq standartlarının əsas prinsipləri»). Auditi tənzimləyən prinsiplər iki əsas qrupa bölünür: peşə etikası və metodoloji. Auditin aparılması zamanı peşə etikası prinsipləri mütləq nəzərə alınmalıdır. Metodoloji prinsiplər mütləq və tövsiyə xarakteri daşıya bilər. Mütləq və ya tövsiyə xarakterli metodoloji prinsiplər konkret audit standartları ilə reqlamentləşdirilir.

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı məhsullarının kooperativlər formasında istehsal olunmasının aşağıdakı üstünlükləri vardır:

1.Kooperativlərdə kənd təsərrüfatı məhsullarının istehsalı aşağı risk səviyyəsinə malikdir;

2.Daha mütərəqqi nəqliyyat-daşıma infrastrukturunun təşkilinə imkan verir;

3.Bazar iqtisadiyyatına daha çox uyğunlaşmışdır;

4.Kəskin qiymət dəyişmələrinin mənfi təsirinə daha az məruz qalır;

5.Şəffaf maliyyə hesabatlılığının təşkilinə imkan verir[3].

Kənd təsərrüfatının inkişaf etdirilməsinin Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olduğunu nəzərə alsaq, kooperativlərdə məcburi auditin tətbiqinin aktuallığı ön plana gəlir. «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu kimi, kooperativlərdə «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq audit yoxlaması həyata keçirilməlidir.

Kooperativlərdə auditin aparılması aşağıdakı qaydalarda təsis edilir:

1.Qanunvericiliyin tələblərinin yerinə yetirilməsi;

2.Rəhbərlik və mülkiyyətçilər tərəfindən idarəetmə ilə bağl əsaslandırılmış qərarların qəbul edilməsi üçün dürüst məlumatların əldə edilməsi;

3.Maliyyə hesabatı istifadəçiləri (Dövlət, müvafiq icra hakimiyyəti orqanları, bank, sığorta və s. təşkilatlar) tərəfindən dürüst məlumatların əldə edilməsi;

4.Audit zamanı aşkar edilən nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədləri .

5.Kooperativ üzvlərinin kooperativin maliyyə vəziyyəti, maliyyə nəticələri və gözlənilən dividendlər barədə məlumatlandırılması [2].

Audit zamanı kənd təsərrüfatı kooperativlərinin yaradılması şərtləri, nizamnamədə göstərilmiş fəaliyyət növləri, nizamnamə kapitalının məbləği, idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, qərarların qəbul edilməsi haqqında məlumatlar və təşkilatın 10 ləğvi şərtləri ətraflı araşdırılmalıdır. Kənd təsərrüfatı kooperativlərinin hüquqi əsasları, hansı təşkilati-hüquqi formada yaradılması, iştirakçıları, nizamnaməsi, nizamnamə kapitalı, mənfəətin bölüşdürülməsi, idarəetmə, onların yenidən təşkili və ləğvi, nizamnamə kapitalındakı payın keçməsi, iştirakçının əmlakındakı payına tutmanın yönəldilməsi, iştirakçının təşkilatdan çıxması və çıxdığı andakı hesablaşmaları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən və kənd təsərrüfatı kooperativlərinin nizamnaməsi ilə müəyyən edilir.

Auditor kənd təsərrüfatı obyektlərində audit zamanı protokollardan və qərarlardan çıxarışlarla tanış olmalı, müvafiq bölmələrin auditi zamanı bu qərarların icrası vəziyyətini araşdırmalıdır. Auditin əhatə etdiyi dövrdə kənd təsərrufatı obyektlərində auditor yaranmış nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, həmçinin aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

Auditor kənd təsərrüfatı fəaliyyəti üzrə aşağıdakı məsələləri diqqətlə araşdırmalı və öz hesabatına daxil etməlidir:

a) maliyyə hesabatlarında tanınmış hökumət subsidiyalarının xüsusiyyəti və miqyası;

b) hökumət subsidiyaları üzrə yerinə yetirilməmiş şərtlər və gözlənilməz hallar;

c) hökumət subsidiyalarının səviyyəsində gözlənilən mühüm azalmalar.

Təsərrüfat subyektlərində auditor xidmətlərini, müdiriyyət sifariş verir. Auditor xidmətindən daha çox istifadə edənlərə vergi orqanları, banklar və digər maliyyə təsisatları; potensial investorlar, ticarət tərəfdaşları və başqaları aiddir. Audit yoxlanması məcburi hallarda bilavasitə qanunvericilikdə müəyyənləşdirilmiş hallarda və ya dövlət orqanlarının tapşırığı ilə keçirilir.

Kənd təsərrüfatı müəssisələrində auditor xidmətinin əhəmiyyəti aşağıdakılardan ibarətdir.

✓ kənd təsərrüfatı obyektlərində şəffaflığı yüksəldir;

✓ biznes tərəfdaşlarının kənd təsərrüfatına diqqətini artırır;

✓ neqativ hallara qarşı qabaqlayıcı tədbirlər görməyə şərait yaradır.

Maliyyə hesabatının düzgünlüyünü təsdiq etmək üçün auditor yoxlamaları dövlət orqanlarına, məhkəmələrə, prokurorluğa və müstəntiqlərə lazımdır.

Kənd təsərrüfatı obyektlərində həyata keçirilən auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat subyektlərinin mühasibat (maliyyə) hesabatlarının düzgünlüyünü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdir. Buradan belə aydın olur ki, auditin təyin edilməsi aşağıdakı məqsədlə maliyyə hesabatlarının yoxlanılması deməkdir:

- hesabatların düzgünlüyünün təsdiqi və ya qeyri-düzgün olmasının müəyyən edilməsi;

- yoxlanılan dövrdə məsrəflərin, gəlirlərin və fəaliyyətin maliyyə nəticələrinin uçotda və hesabatda dolğun, düzgün və dəqiq əks etdirilməsinin yoxlanılması;

- uçotun aparılması və hesabatların tərtib edilməsi qaydalarını tənzimləyən qanunvericiliyə və normativ sənədlərə, aktivlərin, öhdəliklərin və xüsusi kapitalın qiymətləndirilməsi metodologiyasına əməl olunmasına nəzarət;

- əsas və xüsusi dövriyyə vəsaitlərindən, maliyyə ehtiyatlarından və borc mənbələrindən daha yaxşı istifadə imkanlarının üzə çıxarılması.

Kənd təsərrüfatı müəssisələrində iflas, təsərrüfat subyektlərinin səhmdarları, investorları qarşısında öhdəliklərini yerinə yetirməmək halları mövcuddur. Nəticə etibarilə maraqlı tərəflər bir çox hallarda iqtisadi fəaliyyətin həcminin azalmasının əsl səbəbləri barədə məlumat ala bilmir və kənd təsərrüfatı müəssisələrinin iflas səbəbləri barədə etibarlı məlumata sahib olmurlar. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda göstərilir ki, auditor yoxlaması məcburi və ya könüllü ola bilər. Qanuna görə, öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburi, digər hallarda isə könüllü həyata keçirilir [4].

Audit xidməti, maliyyə hesabatlarının etibarlılığını təsdiqləməklə yanaşı, həmçinin auditlə əlaqəli xidmətlər də göstərə bilər:

✓ mühasibat uçotunun bərpası və aparılması,

✓ maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsi,

✓ konsaltinq xidmətləri;

✓ vergi konsaltinqi;

✓ hüquqi konsaltinq;

✓ iqtisadi və maliyyə konsaltinqi;

Maliyyə uçotu məlumatları və digər hər hansı bir məlumat daxili audit üçün nəzarət obyekti kimi xidmət edir. Daxili audit istehsal metodlarını qənaət, məhsuldarlıq və səmərəlilik üçün qiymətləndirir. Bütün maliyyə və iqtisadi fəaliyyətlərə daxili audit nəzarət edir. Daxili auditdə istifadə olunan alətlərə daxili nəzarət sisteminin qiymətləndirilməsi, daxili maliyyə və idarəetmə hesabatlarının yoxlanılması və qiymətləndirilməsi, kooperativ təşkilatlar siyasətinin həyata keçirilməsini təmin edən nəzarət sisteminin təhlili, maliyyə planlarının təhlili aid edilir. Daxili auditin əsas funksiyaları bunlardır: - daxili qaydalar və nəzarət prosedurları sisteminin yetərliliyinin yoxlanılması; - hesablama intizamına uyğunluğun yoxlanılması: - mühasibat uçotu metodikasının və texnikasının, maliyyə hesabatlarının etibarlılığının araşdırılması.

Audit üzrə beynəlxalq normativlərə görə audit - obyektin mənfəət əldə edib-etməməsindən, həcmindən, təşkilati formasından asılı olmayaraq nəşr olunmuş maliyyə hesabatlarının və gələcək fikirlərin formalaşdırılması və ya ona aid maliyyə informasiyalarının məqsədi ilə aparılan müstəqil yoxlanmasıdır.

"Auditor xidməti haqqında" AR Qanununda göstərilir ki, audit- əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun

dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanmasıdır. Audit prosesinin aparılmasında məqsəd qanunvericiliklə, auditor fəaliyyətinin tənzimlənməsinin normativ sistemi ilə, müştərinin müqavilə öhdəlikləri ilə müəyyən olunan konkret məsələlərin həll edilməsidir [3].

Audit (auditing) elə bir prosesdir ki, onun vasitəsilə səlahiyyətli sərbəst işçi kəmiyyətcə qiymətləndirilə bilən və spesfik təsərrüfat sisteminə aid olan informasiyanın müəyyən edilmiş meyarlara uyğunluq dərəcəsini təsbit etmək və bunu öz rəyində əks etdirmək üçün həmin informasiya haqqında sübutlar toplayır və onları qiymətləndirir.

"Auditor haqqında" AR Qanununda göstərilir ki,audit yoxlanması məcburi və ya könüllü (təsərrüfat subyektlərinin öz təşəbbüsü ilə) şəkildə aparıla bilər .Qanunvericiliyə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat obyektləri üçün, habelə qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və ya səlahiyyətli dövlət orqanlarının müvafiq qərarlarına əsasən (onların sifarişi ilə) həyata keçirilən audit məcburi, digər hallarda isə könüllüdür.

Auditor prosesini yalnız yoxlama fəaliyyəti kimi xarakterizə etmək olmaz. Bura mühasibat (maliyyə) hesabatlarının, ödəmə-hesablaşma sənədlərinin, vergi bəyannamələrinin və iqtisadi subyektin digər maliyyə öhdəliklərinin və tələblərinin müstəqil idarədən kənar yoxlanılması, eləcə də digər auditor xidmətlərinin göstərilməsi: gəlirlər haqqında bəyannamələrin və mühasibat (maliyyə) hesabatlarının hazırlanması; maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, iqtisadi subyektin aktivlərinin və passivlərinin qiymətləndirilməsi; maliyyə, vergi, bank və digər təsərrüfat qanunvericiliyi məsələləri üzrə məsləhətlərin verilməsi və s. daxildir.

Audit – mühasibat uçotunun aparılması qaydasının gözlənilməsinin, təsərrüfat əməliyyatlarının AR-in qanunvericiliyinə uyğunluğunun, müəssisənin fəaliyyətinin mühasibat (maliyyə) hesabatlarında əks etdirilməsinin tamlığının və dəqiqliyinin yoxlanılması əsasında müəssisənin mühasibat (maliyyə) hesabatlarının müstəqil ekspertizasıdır.

Audit müstəqil təftiş keyfiyyətinə malik olsa da, onun fəaliyyəti yalnız mühasibat (maliyyə) hesabatlarının yoxlanması ilə məhdudlaşa bilməz. Məlumatların kütləvi axını şəraitində onların ümumiləşdırılməsi və səmərəli istifadə olunması menecerin və təsərrüfat rəhbərinin qarşısında duran ən vacib məsələlərdən biridir. Digər tərəfdən, müəssisələrdə və təşkilatlarda uçot nəzarətinin yüksək səviyyədə qurulması ilə resursların səfərbər edilməsini, onlardan səmərəli istifadə olunmasını, məhsulun maya dəyərinin minimum həddə çatdırılmasını, mənfəətin artımını, sabit maliyyə vəziyyətini təmin etmək olar. Auditin məqsəd və vəzifələri bu prinsiplərə uyğun olaraq həyata keçirilir.

Auditor nəzarəti üzrə əsas məqsədə çatmaq və müştəriyə rəyi təqdim etmək üçün auditorlar aşağıdakı məsələlər üzrə öz fikrini formalaşdırmalıdır:

- hesabatların ümumi qəbul edilməsi (hesabatın bütövlükdə bütün tələblərə cavab verməsi, yanlış informasiyaları özündə əks etdirməməsi);
- əsaslı olması (hesabatda göstərilən məbləğlərin hesabata daxil edilməsi haqda əsasın olması);
- qiymətləndirmə (bütün kateqoriyaların düzgün qiymətləndirilməsi, düzgün hesablanması);
- açıqlanması (bütün kateqoriyaların maliyyə hesabatlarına köçürülməsi, hesabatlarda və onlara əlavələrdə düzgün əks etdirilməsi) [5].

Auditor apardığı audit prosesi və onun nəticəsinə dair verdiyi rəyə görə məsuliyyət daşıyır. Auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yerinə yetirmədikdə qanunvericiliyə uyğun olaraq əmlak məsuliyyətinə cəlb oluna bilərlər.

Auditorun məsuliyyətini yaradan şərtlər aşağıdakılardır:

1. Auditin prinsiplərinin pozulması
2. Keyfiyyətsiz auditin aparılması
3. Başqa növ fəaliyyətlə məşğul olmaq
4. Vaxtı keçmiş, könüllü olaraq Auditor Palatasına qaytarılmış və ya auditorlar palatası şurasının qərarı ilə ləğv edilmiş lisenziyalara əsasən auditor fəaliyyəti göstərmək.
5. Auditor tərəfindən etika və peşəkarlıq normalarına riayət edilməsi

Auditor dövlət qarşısında və keyfiyyətsiz audit prosesinin aparılması nəticəsində zərərçəkən sifarişçi və təsərrüfat subyekti qarşısında məsuliyyət daşıyır.

Dövlət qarşısında məsuliyyət qanunvericilikdə müəyyən edilmiş cəza və cərimələrlə, sifarişçi və ya təsərrüfat subyekti qarşısında məsuliyyət isə

müqavilənin şərtlərinə görə müəyyən edilir. Auditorun məsuliyyətinin aşağıdakı novləri vardır:

1. İntizam məsuliyyəti
2. Mülki məsuliyyət
3. Cinayət məsuliyyəti

Auditorun intizam məsuliyyəti auditorlar palatası tərəfindən, mülki və cinayət məsuliyyəti isə məhkəmə orqanları tərəfindən, Azərbaycan Respublikasının müvafiq qanunvericilik və normativ hüquqi aktları əsasında müəyyən edilir.

Auditor müəssisəsində yoxlama apararkən təsisedici sənədlərin qanunauyğunluğuna xüsusi olaraq fikir verilməlidir. Ona görə ki, təsisçilər tərəfindən üzvlük haqqı kimi ödənilən əmlakın və qeyrimaddi aktivlərin auditorun iştirakı ilə inventarlaşdırılması keyfiyyətli yoxlamanın zəruri şərti sayıla bilər. Çünki əmlakın tərkibində bəzən sıradan çıxmış əsas vəsaitlər, az qiymətli və tez köhnələn əşyalar və qeyrimaddi aktivlərin sırasında intellektual əhəmiyyətini itirmiş "Nou-hau" proqramları ola bilər. Nəzarətin sonuncu mərhələsində nizamnamə kapitalının uçotunda aşkar olmuş normativ hüquqi aktlardan, nizamnamədən kənarlaşmalar yekunlaşır və onların aradan qaldırılması üzrə təkliflər verilir.

Mühasibat uçotunun informasiya sistemi kənar (maliyyə uçotu) və daxili (idarəetmə uçotu) sistemlərə ayrılır. Maliyyə uçotunda müəssisənin maliyyə-təsərrüfat və iqtisadi göstəriciləri haqqında məlumatlar əks olunur və pul ifadəsində öz əksini tapır. Maliyyə mühasibat uçotunun əsas vəzifəsi müəssisədaxili və kənar istifadə edənlər üçün xüsusi müəyyən olunmuş formada hazırlanmış informasiyalarla təmin etməkdən ibarətdir. Etibarlı səviyyədə hazırlanmış iqtisadi informasiyalar faydalı idarəetmə qərarlarının qəbul olunmasında xüsusi əhəmiyyətə malik olmaqla, müəssisənin gələcək vəziyyətinin yüksəlməsinə, mülkiyyət sahiblərinin mənfəətinin artırılmasına, dövlət büdcəsinə daxil olan vəsaitin artmasına və digər əsaslı inkişafın təmin olunmasına kömək edir [6].

**Nəticə**

Zamanla müəssisələrin miqyası və təsərrüfat fəaliyyətlərinin mürəkkəbliyi ilə daxili auditin xarakteri dəyişir. Audit və auditorlar müəyyən edilmiş prosedurlardan kənarlaşmaların adi fiksasiyası istiqamətində deyil, daha çox və daha fəal şəkildə bu sistemlərə və prosedurlara daxil olaraq onlara düzgün bir qiymət vermək üçün inkişaf etməyə başlamışlar.

Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, hec kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil. Bunun nəticəsidir ki, 2022-ci ildə ümumi iqtisadiyatda təxminən 5%, qeyri neft sektorunda 9%-dən n çox, bununla bərabər ümumi daxili məhsulumuz rekord həddə - 130 mln. dollara çatıb, bu tarixi bir nailiyyətdir. Bu göstəricilərin nəticəsində belə aydın olur ki, Azərbaycan Respublikasında kənd təsərrüfatına necə önəm verilir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Kənd Təssərüfatı Kooperativlərində Auditin Aparılmasına Dair Təlimat. Bakı 2017
2. Azerbaijanian journal of Agricultural Economics.Bakı 2020
3. Azərbaycanın və Dünya Ölkələrinin Kənd Təssərüfatı. Bakı 2003
4. Novruzov V.T. və başqaları. "Audit". Dərs vəsaiti. Bakı, 2012.
5. Rzayev Q.R. "Nəzarət və təftiş". (dərslik) Bakı, "Adiloğlu" nəşriyyatı, 2011.
6. Qəhrəman Rəsul oğlu Rzayev "Mühasibat uçotu və audit". Bakı 2006.

**Мехман Мазахир оглы ГУСЕЙНОВ, к. э. н., доцент**

**Сумайя Тахмасиб кызы АББАСОВА**
Азербайджанский Технологический Университет
E-mail: sumayyaabbasova@gmail.com

## ОРГАНИЗАЦИЯ РАБОТЫ ВНУТРЕННЕГО АУДИТА В СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ПРЕДПРИЯТИЯХ

**Резюме**

В статье рассматриваются вопросы организации аудиторской службы в сельскохозяйственных предприятиях. Показано, что для укрепления статуса предприятия как самостоятельного хозяйствующего субъекта в сфере сельского хозяйства необходимы принципиально новые подходы к контролю его деятельности. В этом направлении должны быть созданы условия для постепенной ликвидации внутреннего контроля и создания и развития независимых аудиторских служб.

**Ключевые слова:** бухгалтерский учет, аудит, аудитор, учет, ЭТКИС, ФАДН.

**Mehman Mazahir oghlu HUSEYNOV, Ph.D., Associate Professor**

**Sumayya Tahmasib gizi ABBASOVA**
Azerbaijan Technology University
E-mail: sumayyaabbasova@gmail.com

## ORGANIZATION OF INTERNAL AUDIT WORK IN AGRICULTURAL ENTERPRISES

**Summary**

The article examines the issues of organizing audit services in Agricultural Enterprises. It is observed that by strengthening the status of the enterprise as an independent business entity in the field of agriculture, fundamentally new approaches are needed to control its activity. This system should be created to eliminate internal control and establish independent audit services.

**Keywords:** accounting, audit, auditor, accounting, ETKIS, FADN.

**Nüsrət Qənbər oğlu HÜSEYNOV, i.f.d., dos.**

**Arzu Zaur qızı ZEYNALOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: arzu1.memmedova1@gmail.com

# İŞGÜZAR MÜNASİBƏTLƏRDƏ MARKETİNQ XİDMƏTİNDƏN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASININ YOLLARI

**Xülasə**

Məqalə xidmətlər bazarında işgüzar münasibətlər marketinqi konsepsiyasının istifadəsinə həsr edilmişdir. Müəllif fəaliyyətlərdə əlaqələr marketinqinin inkişafı prosesinin blok-modul strukturunu təklif edir. Məqalədə müasir bazar şəraitində işgüzar münasibətlərin marketinqi konsepsiyasından istifadənin aktuallığının elmi və praktiki əsaslandırılmasının nəticələri təqdim olunur, eləcə də, müştəri loyallığının məzmunu və amilləri müəyyən edilir. Üst-üstə düşən sahələrin olması müxtəlif marketinq vasitələrinin tətbiqi sahələri arasında aydın sərhədlərin olmamasının nəticəsidir ki, bu da onların birgə istifadəsinin mümkünlüyünü göstərir. İşgüzar münasibətlər marketinqini başa düşmək üçün bu yanaşmalar bir-birini istisna etmir, əksinə tamamlayır.

**Açar söz:** İşgüzar münasibətlər, marketinq xidməti, yaxşılaşdırılma yolları, marketinq konsepsiyası, istehlakçılar

**UOT: 334**
**JEL: J50**

**Giriş**

İşgüzar münasibətlərin satışı kimi, əlaqələr marketinqi də perspektivlər və müştərilərlə uzunmüddətli əlaqələrin inkişafına diqqət yetirir. Bu, ilk növbədə zehniyyətin dəyişməsini nəzərdə tutur. Diqqətiniz müştərinin sizə necə fayda verəcəyinə deyil, ona necə kömək edə bildiyinizə yönəlməlidir. O, həmçinin əlavə texnoloji imkanlar tələb edir.

**Tədqiqatın məqsədi.** İşgüzar münasibətlərdə marketinq xidmətindən istifadənin yaxşılaşdırılmasının yollarını araşdırmaq.

**Tədqiqat obyekti**. Marketinq xidmətləri sahəsi.

**Tədqiqat metodu.** İşgüzar münasibətlərin marketinqi müştərilərinizlə güclü, ikitərəfli əlaqələr qurmaq bacarığınızdan asılıdır. Məqalədə işgüzar münasibətlərin marketinqinin xidmət sahəsində vacibliyi və zəruriliyi vurğulanır.

Dünya iqtisadiyyatının qloballaşmasının sürətli tempi, müxtəlif istehsalçıların mallarının yüksək dərəcədə oxşarlığı və istehlakçıların müraciətlərinin fərdiləşdirilməsi rəqabətin aparılmasının qiymət metodlarının və ənənəvi marketinq vasitələrindən istifadənin effektivliyini azaldır. Bununla əlaqədar olaraq, istehlakçılarla uzunmüddətli əlaqələrin inkişafına və saxlanmasına, onların loyallığının formalaşmasına əsaslanan marketinqdə və xüsusən də münasibətlər marketinqində innovativ yanaşmalardan istifadə edilməsinə ehtiyac var.

F.Reycheld və R. Sasserin tədqiqatlarının nəticələri göstərir ki, şirkətə sadiq istehlakçıların 5% artımı fəaliyyət sahəsindən asılı olaraq 25-85% diapazonunda mənfəətin artması ilə müşayiət olunur. Bununla belə, ölkədə işgüzar münasibətlər marketinq texnologiyalarının tətbiqi, istifadə edilən istehlakçı loyallığı proqramlarının əksəriyyəti kifayət qədər effektiv deyil. Bu, istehlakçı loyallığı proqramlarının onların təşkilinə sistemli yanaşmanın olmaması, Qərbin nüsxəsi kimi ciddi çatışmazlıqlarla bağlıdır [5,s 65].

Hazırda iqtisadiyyatın istənilən sahəsində, bazarda rəqabət şəraitində müəssisənin səmərəli idarə olunması marketinq yanaşmasına əsaslanır. Yerli müəssisələr artıq fərdi marketinq alətlərinin istifadəsində kifayət qədər böyük təcrübə toplayıblar, lakin marketinq konsepsiyasının inteqral istifadəsində praktiki olaraq heç bir təcrübə yoxdur. Qeyd etmək lazımdır ki, xarici müəssisələrin marketinqi

sahəsində fəaliyyət, bir qayda olaraq, vahid konsepsiya çərçivəsində həyata keçirilir.

Mütəxəssislər hər biri marketinq fəaliyyətinin müəyyən aspektinə yönəlmiş altı ümumi qəbul edilmiş marketinq konsepsiyasını ayırırlar. Marketinq anlayışları bazarın inkişafı ilə dəyişir, lakin əvvəlki anlayışlar tam inkar edilmir, sonrakılar da qismən istifadə olunur. Marketinq konsepsiyalarının inkişafındakı ümumi tendensiya diqqəti istehsalın və malların təkmilləşdirilməsindən istehlakçılarla münasibətlərin qurulması və sosial etikanın qorunması üçün kommersiya səylərinin intensivləşdirilməsinə çevirməkdir. Müəssisədə müəyyən marketinq konsepsiyalarının istifadəsi əsasən bazarın xüsusiyyətləri və meyilləri ilə müəyyən edilir [3,s 12].

Müxtəlif xidmət növlərinin ümumi xüsusiyyətlərinin səmərəli axtarışı sayəsində xidmət marketinqinin müasir nəzəri və metodoloji əsasları yaradılmışdır. Bir qayda olaraq, alimlər razılaşırlar ki, bəzi xidmət sinifləri onları mallardan - məhsullardan fərqləndirən eyni xüsusiyyətlərə malikdir. Xidmət marketinqinin demək olar ki, bütün mövcud nəzəri modelləri xidmətlərin istehsalı və istehlakının eyni vaxtda baş verməsi fərziyyəsinə əsaslanır. Buna görə də, xidmətin keyfiyyəti, eləcə də personalın bacarıq və bilikləri xidmət təşkilatları üçün əsas uğur amillərinə çevrilir. Xidmətin qeyri-maddiliyini və xidmətin satışının istehlak edilməmişdən və alınan işin keyfiyyətinin qiymətləndirilmədən əvvəl baş verdiyini vurğulayırlar, bu səbəbdən də, müştəriyə xidmətin keyfiyyətinin inandırıcı sübutunu təqdim etmək marketoloqun məsuliyyətinə çevrilir.

Beləliklə, iddia etmək olar ki, xidmət marketinqi müasir bazar münasibətlərinin müştəri ehtiyaclarını ödəmək, istehlakçı gözləntilərinə cavab verən xidmət mühitinin yaradılması və təkmilləşdirilməsi üçün zəruri tələbidir. Şübhəsiz ki, xidmət sektorunda marketinq fəaliyyəti spesifikdir. Bu, xidmətlərin aşağıdakı fərqli xüsusiyyətləri ilə əlaqədardır:

●Xidmətlər qeyri-maddidir (onlara toxunmaq və ya dadmaq mümkün deyil)

●Xidmət sektorunun qeyri-maddiliyi ilə bağlı qeyri-müəyyənliyi azaltmaq üçün müştəri bu xidmətlərin keyfiyyətini həqiqətən mühakimə edə biləcəyi maddi bir şey axtarır, yəni bir çox amillərlə - maddi təbiətlə, yaxud , otel seçərkən ulduzların sayından başlayırlar;

●Xidmətlər eyni vaxtda istehsal olunur və istehlak edilir, xidmətlərin istehlakı gec vaxta təxirə salına bilməz, saxlanmağa və daşınmaya məruz qalmır;

●Xidmətlərin keyfiyyəti onun spesifik provayderindən (təchizatçısından), eləcə də göstərilmə vaxtından, yerindən və üsulundan asılıdır;

●Xidmətin yerinə yetirilməsinin mahiyyəti əməliyyatlar xidmətini təşkil edən proseslərin yerinə yetirilməsində özünü göstərir (bir və ya bir neçə);

●Xidmətlərin göstərilməsi prosesinə istehsalçı ilə istehlakçı arasında birbaşa şəxsi əlaqə daxildir;

●Tələb və təklifin daha diqqətli əlaqələndirilməsi,xidmətlərin göstərilməsinin xüsusi çevikliyi və uyğunlaşması tələb olunur, istehlakçı tələbatındakı dəyişikliklərə gecikmədən uyğunlaşmağa məcbur edilir.

Qeyd etmək lazımdır ki, xidmətlərin xüsusi xassələri ilə yanaşı, marketinq sistemi və xidmətlər bazarının özünün spesifik xassələri formalaşır ki, bunları təsvir etməyə ehtiyac yoxdur və artıq hamıya yaxşı məlumdur. Onların təsiri xidmət marketinqinin [5] prinsiplərində xarakterik xüsusiyyətləri müəyyən edir ki, , bunlardan da ən mühümləri aşağıdakılardır:

●İstehlakçıların tələbatını tam ödəyən məhsul istehsal etmək;

●Müəyyən məhsulda təcəssüm olunmuş istehlakçı problemlərinin həlli vasitələrini bazara çıxarmaq;

●İstehsal və marketinq fəaliyyətinin son nəticəsinin əldə edilməsinə - əmtəələrin səmərəli satışına və müəyyən bazar payının əldə edilməsinə diqqət yetirmək;

●Proqram-hədəf metodu və inteqrasiya olunmuş yanaşma prinsiplərindən istifadə etmək;

●Dəyişən tələbə uyğunlaşma strategiyasını ona aktiv təsir etməklə inteqrasiya etmək və tələbin təkrar istehsalına şərait yaratmaq;

●Diqqəti uzunmüddətli perspektivə yönəltməyə imkan verən innovasiya prosesinin davamlılığını təmin etmək;

●Marketinq prosesinin bütün mərhələlərində sosial amili nəzərə almaq.

Xidmət marketinqini potensial və faktiki istehlakçı tələbinin və konkret bazar şəraitinin öyrənilməsi əsasında məhsul-xidmətin yaradılması və istehsalı prosesini birləşdirən, habelə onu istehlakçıya çatdıran xidmətlər bazarında kompleks, proqram xarakterli fəaliyyət kimi təsvir etmək olar.

Xidmətlərin marketinqi rəqabətli biznesin inkişafı və istehlakçı tələbatının ödənilməsi üçün təşkilatın mənfəətini artırmaq kimi ikili məqsəd güdür. Xidmət sektorunda marketinq fəaliyyəti marketinq kompleksi sisteminin təklif etdiyi çeviklik, mürəkkəblik və uyğunlaşma prinsiplərinə görə qurulur. O, marketinqə xas olan bütün funksiyalar kompleksini - bazarın araşdırılması, xidmətlərin dizaynı və istehsalının əlaqələndirilməsi, çeşid çeşidinin optimallaşdırılması və xidmətlərin paylanması, qiymət siyasətinin işlənib hazırlanması, xidmətlərin tələbinin formalaşması, satışının təşviqi və s. həyata keçirir. Marketinq istehlakçıdır.

20-ci əsrin əvvəllərində müəssisənin idarə edilməsində istehsal, sonra isə məhsul marketinqi konsepsiyasını özündə birləşdirən sənaye yönümlü yanaşma üstünlük təşkil etdi. Bu mərhələ bazarda az sayda şirkət, məhsul çeşidinin az olması və tələbin təklifdən artıq olması ilə xarakterizə olunurdu. Bazar üzərində hakimiyyət istehsalçılara məxsus idi. Seçim olmadıqda, istehlakçılar istehsalçının onlara təklif etdiyi şeyi almağa məcbur oldular. Bu şəraitdə kütləvi istehsal texnologiyalarından istifadə etməklə müəssisənin səmərəliliyinin artırılmasına nail olundu ki, bu da xərcləri əhəmiyyətli dərəcədə azaltmağa və sabit keyfiyyətli homojen məhsulların yüksək həcmdə istehsalını təmin etməyə imkan verdi[4,s 66].

20-ci əsrin 60-cı illərində satış konsepsiyasını və ənənəvi marketinq konsepsiyasını özündə birləşdirən rəqabət yönümlü yanaşma dövrü gəldi. Bu dövrdə bazar vəziyyəti oxşar istehsal texnologiyalarının geniş yayılması ilə xarakterizə olunurdu, bu da funksional nöqteyi-nəzərdən zəif fərqlənən məhsulların meydana çıxmasına səbəb oldu və istehsalçılar arasında əsas mübarizə istehsalçıların diqqətini cəlb etmək sahəsində başladı. Şirkətin rəqabət qabiliyyəti əsasən çeşid siyasəti, kommunikasiya strategiyası, istehlakçı innovasiyaları və dizayn kimi marketinq üsulları üzərində qurulmağa başladı. İstehlakçıların təsiri əhəmiyyətli dərəcədə artdı: satıcılar özləri üçün ən sərfəli bazar seqmentlərinin istəklərini nəzərə almağa başladılar. Rəqabət edən şirkətlərdən ayrılma və bazarda liderlik uğrunda mübarizə bir çox müəssisələrin strategiyasının əsasını təşkil etdi[2,s 35].

Hal-hazırda ölkə müəssisələrində (sənaye yönümlü və ya rəqabət yönümlü) geniş yayılmış biznesin təşkilinə idarəetmə yanaşmaları, əksər hallarda bütün sadalanan bazar tendensiyalarının mövcud olduğu ölkə bazarının hazırkı inkişaf mərhələsinə uyğun gəlmir. Nəticədə, bir çox yerli müəssisələr istehlakçıların artan tələbatını zəif ödədikləri üçün rəqabət qabiliyyətli deyillər.

Daha əvvəl qeyd edildiyi kimi, müştərilərin saxlanmasına, fərdi ünsiyyətə və məhsullara deyil, əlaqələrə əsaslanan əməkdaşlığa diqqət yetirməklə xarakterizə olunan müştəri yönümlü yanaşma marketinqin idarə edilməsində işgüzar münasibət marketinqi konsepsiyasının istifadəsini təklif edir. Ədəbiyyatda "işgüzar münasibət marketinqi" anlayışı ilə yanaşı, "münasibət marketinqi", "partnyorluq marketinqi", "qarşılıqlı marketinq" kimi anlayışlar da mövcuddur.

Müştəri yönümlü xidmət personalı, işgüzar marketinqdə əsas rol oynayır. Təbii ki, potensial alıcılar arasında maraq yaratmağa yönəlmiş birbaşa poçt reklamı və şəxsi satış kimi ənənəvi marketinq vasitələrindən də istifadə olunur. Satıcı ilə alıcı arasında sıx əlaqə olduqda, nəinki sərfəli qiymət, həm də məlumat mübadiləsi, satıcının yeni təkliflərinin birgə işlənməsi və uzunmüddətli əlaqələr onları bir yerdə saxlayır. Satıcının rəqabət üstünlüyü aşağı qiymətə deyil, layiqli məhsul keyfiyyətinə, mükəmməl xidmətə, mal və ya xidmətlərin əldə edilməsi prosesinin rahatlığına əsaslanır.

İşgüzar münasibət marketinqi satış əməliyyatlarından çox müştərinin saxlanmasına və müştəri məmnuniyyətinə yönəlmiş marketinq formasıdır. O, müştəri loyallığının yaradılmasının uzunmüddətli dəyərini dərk etməklə digər marketinq formalarından fərqlənir. Əlaqə marketinqi ünsiyyəti vurğulayır, müdaxilə edən reklam və satış mesajlarından qaçır.

İşgüzar münasibətlər marketinqi konsepsiyasının universal xarakter daşımaması ilə əlaqədar onun tətbiqi şərtləri müəyyən edilmişdir [7,s 98]:

●Alış qərarının qəbulu prosesində istehlakçının yüksək iştirakını tələb edən məhsulların aparılması və ya satışı;

●Uzunmüddətli perspektivdə şirkət üçün istehlakçıların yüksək dəyəri;

●Müəssisənin fəaliyyətinin yüksək sabitliyi;

●Müəssisə ilə son istehlakçı arasında birbaşa əlaqə.

İşgüzar münasibətlərin marketinqi istehlakçılar və digər tərəfdaşlarla güclü əlaqələrin yaradılmasını, saxlanmasını və genişləndirilməsini nəzərdə tutur. Marketinq getdikcə diqqətini fərdi sövdələşmələrdən uzaqlaşdıraraq daha dəyərli əlaqələr və marketinq şəbəkələri qurmağa yönəldir. İşgüzar müna--sibətlərin marketinqi uzunmüddətlidir. Onun məqsədi istehlakçılara uzunmüddətli dəyər təmin etməkdir. Onun uğurunun ölçüsü onların ehtiyaclarının uzunmüddətli ödənilməsidir. İşgüzar münasibətlərin marketinqi şirkətin bütün şöbələrindən bir komanda şəklində işləməyi, marketinq konsepsiyası əsasında işləməyi və vahid məqsədə - müştəriyə daha yaxşı xidmət göstərməyi tələb edir. Marketinq müxtəlif səviyyələrdə - iqtisadi, sosial, texniki və hüquqi münasibətlərin qurulmasını nəzərdə tutur və onların məqsədi məhsula və şirkətə yüksək istehlakçı loyallığını təmin etməkdir[1,s 19].

Müştəri bazasının unikal seqmentlərini başa düşmək üçün vaxt ayırmaq və məlumatları toplamaq lazımdır ki, bu da onları qəbul edən perspektivlər və müştərilər üçün yüksək dərəcədə uyğun və dəyərli olan fərdiləşdirilmiş kommunikasiyalar təqdim etsin. Bu vurğu işgüzar münasibətlər marketinqinə yönəlmiş şirkətlərin sahib olacağı altı xüsusiyyətə gətirib çıxarır:

**1. Müştəri diqqəti.** İşgüzar münasibətlər marketoloqları şirkətin müştərilərə verdiyi dəyərə diqqət yetirirlər. Bu, düşüncə tərzinin şirkət üçün yaxşı olandan müştəri üçün yaxşı olana keçməsini nəzərdə tutur, lakin bu, həm də müştəriləri (məsələn, aparıcı kəşfiyyat proqramı) və texnologiyanı başa düşmək üçün mürəkkəb məlumatların toplanmasını tələb edir.

**2. Müştərilərin saxlanmasının üstünlükləri.** İşgüzar münasibətlər marketinq strategiyası müştərilərlə uzunmüddətli münasibətlərin inkişafına diqqət yetirir, çünki müştəriləri saxlamaq yeni müştərilər əldə etməkdən daha sərfəli olur.

**3. Sadiq müştərilərin mükafatlandırılması.** Perspektivləri və müştəriləri üçün münasibət faydaları yaratmağa çalışan bir şirkətdə marketoloqlar və satıcılar müştərilərinin sədaqətini ödəməyin yollarını tapırlar.

**4. Müştərilərlə tez-tez (lakin müvafiq və dəyərli) ünsiyyət**. E-poçt partlayışları əvəzinə, işgüzar münasibətlər marketinqi bir-bir ünsiyyət kanalı yaradır:

●Müştərilər suallar verə və rəy bildirə bilərlər

●Şirkət nümayəndələri müştərilərə bazarı anlamaqda kömək etmək üçün rəy tələb edə və məlumat verə bilərlər

**5. Əla müştəri xidməti.** Müştəri məmnuniyyəti və sədaqət münasibətlərin marketinq strategiyasının əsas amilləridir, buna görə də, tez cavab müddəti ilə çoxlu əlaqə rejimi təklif etmək çox vacibdir. Müştərilər bilməlidirlər ki, kimsə onların hər hansı problem və ya sualını dərhal həll edəcək.

**6. Əsas müştərilər üçün hesab menecerləri.** İşgüzar münasibətlər üzrə marketinq yanaşmasına arxalanan şirkətlərlə əlaqələri daha da inkişaf etdirmək və müştəri məmnuniyyətini təmin etmək məqsədilə adətən daha böyük müştərilər üçün xüsusi hesab meneceri təyin ediləcək [6,s 33].

Şirkət işgüzar müştərilərlə daha güclü əlaqələr qurmaq və onların ehtiyaclarını daha yaxşı ödəmək üçün hansı xüsusi marketinq vasitələrindən istifadə edə bilər? Bu üç yanaşmadan biri ilə edilə bilər. Birincisi, ilk növbədə, istehlakçı ilə münasibətlərə əlavə maliyyə faydalarının daxil edilməsini nəzərdə tutur. Məsələn, aviaşirkətlər tez-tez səyahət edənlər üçün mükafat proqramları təklif edir; otellər daha çox onlarla birlikdə qalan qonaqlara otaqlar verməyə diqqət yetirir; supermarketlər müştərilərin satın alınan məhsuldan narazı olduqları halda pullarını qaytarmaq üçün vəsait yaradırlar [7,s 43].

İkinci yanaşma, maliyyə ilə yanaşı, əlavə sosial müavinətlərin tətbiq edilməsidir. Eyni zamanda, şirkətin kollektivi istehlakçıların hər birinin tələbat və istəklərini öyrənərək onlarla sosial əlaqələrin gücləndirilməsi, daha sonra isə onların məhsul və xidmətlərinin fərdiləş-dirilməsi istiqamətində iş aparır. Beləliklə, onlar istehlakçıları müştəriyə çevirirlər. İstehlakçılar şirkət üçün adsız ola bilər, lakin müştərilər deyil. İstehlakçılar bazarın kütləsinin və ya böyük seqmentlərinin bir hissəsidir; müştərilərə fərdi qaydada xidmət göstərilir. İstehlakçılara şirkətin yerində olan istənilən işçisi xidmət göstərir; müştərilərə onlar üçün xüsusi olaraq hazırlanmış peşəkar xidmət göstərir.

Güclü müştəri əlaqələrinin qurulması üçün üçüncü yanaşma maliyyə və sosial faydalarla yanaşı, struktur əlaqələrin də daxil edilməsidir. Məsələn, aviaşirkətlər səyahət agentləri üçün xüsusi marşrut bron sistemləri təklif edirlər. Şirkətlə tez-tez əlaqə saxlayan müştərilərin istifadə edə biləcəkləri xüsusi telefon xətləri var. Şirkətdə marketinq əlaqələrinin qurulması proqramının əsas mərhələləri aşağıdakılardır:

●Şirkət rəhbərliyi tərəfindən xüsusi münasibətə layiq olan əsas müştərilərin müəyyən edilməsi. Ən böyük və ən yaxşı müştəriləri seçin və xüsusi işgüzar əlaqələr üçün onları rəhbərliyinizə yönləndirin. Müstəsna artım nümayiş etdirən və ya yeni sənayenin inkişafına öncülük edən müştərilər kimi digər müştərilər də daxil edilə bilər.

●Hər bir əsas müştəri üçün ixtisaslı müştəri əlaqələri menecerinin təyin edilməsi. Hal-hazırda istehlakçıya xidmət göstərən satıcı münasibətlərin idarə edilməsi üzrə xüsusi təlim almalı və ya bu məsələdə daha ixtisaslı mütəxəssislə əvəzlənməlidir. Müştərilərlə əlaqələr meneceri müştərinin gözləntilərinə cavab verən və onu cəlb edən xüsusiyyətlərə malik olmalıdır.

●Müştərilərlə əlaqələr üzrə hər bir menecerin müştəri münasibətlərinin inkişafı üçün illik və uzunmüddətli planı olmalıdır. Bu planlara məqsədlər, strategiyalar, xüsusi fəaliyyətlər və onların həyata keçirilməsi üçün tələb olunan resurslar daxil edilməlidir.

●Baş menecerin təyin edilməsi - müştəri ilə əlaqələr üzrə menecerlərin işinə nəzarət etmək. Bu şəxs öz işinin təsvirini yazmalı, onun qiymətləndirilməsi üçün meyarlar seçməli və müştəri əlaqələri menecerlərinin işinin effektivliyini artırmaq, eləcə də onu dəstəkləmək üçün resursları müəyyən etməlidir.[4,s 26]

Beləliklə, müştərilərlə işgüzar münasibət-lərin idarə edilməsi düzgün həyata keçirildikdə, təşkilat öz məhsulu (mal və xidmətləri) qədər müştərilərlə işləməyə də diqqət yetirməyə başlayır. Eyni zamanda, bir çox şirkətlər istehlakçı münasibətləri marketinqi istiqamətində güclü şəkildə irəliləsələr də, bu heç də həmişə arzu olunan effekti vermir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aşurov A.S. Marketinqin kommunikasiya sistemi. Dərs vəsaiti. “İqtisad Universiteti” nəşriyyatı. Bakı. 2008.

2. Kotler F. Marketinq menecment. Ekspress - kurs, 2-ci nəşr Bakı. 2008

3. Райхельд Ф. Ф. Эффект лояльности. Движущие силы экономического роста, прибыли и непреходящей ценности / Ф. Ф. Райхельд, Т. Тыл ; пер. с англ. – М.: Вильямс, 2005. – 383 с.

4. Котлер Ф. Основы маркетинга: краткий курс / Ф. Котлер; пер. с англ. – М.: Вильямс, 2015. – 488 с.

5. Багиев Г. Л. Маркетинг: учебник для вузов / Г. Л. Багиев, В. М. Тарасевич; под общ. ред. Г. Л. Багиева. – 4-е изд., перераб и доп. – М.: Питер, 2012. – 556 с.

6. Третьяк О. А. Маркетинг: новые ориентиры модели управления: учебник / О. А. Третьяк; Моск. гос. ун-т им. М. В. Ломоносова, экон. фак. – М.: ИНФРА-М, 2005. – 402 с.

7. Лосев С.В. Управление отношениями с клиентами / С.В. Лосев // Маркетинг в России и за рубежом. – 2006. – № 1. – С. 42-47.

**Нусрат Ганбар оглы ГУСЕЙНОВ, к. э. н., доцент**

**Арзу Заур kызы ЗЕЙНАЛОВА**
Азербайджанский Технологический Университет
E-mail: arzu1.memmedova1@gmail.com

# ПУТИ УЛУЧШЕНИЯ ИСПОЛЬЗОВАНИЯ МАРКЕТИНГОВЫХ УСЛУГ В ДЕЛОВЫХ ОТНОШЕНИЯХ

**Резюме**

Статья посвящена использованию концепции маркетинга деловых отношений на рынке услуг. Автор предлагает блочно-модульную структуру процесса развития маркетинга взаимоотношений в деятельности. В статье представлены результаты научно-практического обоснования актуальности использования концепции маркетинга деловых отношений в современных рыночных условиях и определены содержание и факторы лояльности клиентов. Наличие пересекающихся областей является результатом отсутствия четких границ между областями применения разных маркетинговых инструментов, что свидетельствует о возможности их совместного использования. Эти подходы к пониманию маркетинга деловых отношений не исключают друг друга, а скорее дополняют друг друга.

**Ключевые слова:** деловые отношения, маркетинговая служба, пути совершенствования, маркетинговая концепция, потребители.

**Nusrat Qanbar HUSEYNOV, ph.d., Associate Professor**

**Arzu Zaur ZEYNALOVA**
Azerbaijan Technology University
E-mail: arzu1.memmedova1@gmail.com

# WAYS TO IMPROVE THE USE OF MARKETING SERVICES IN BUSINESS RELATIONSHIPS

**Abstract**

The article is devoted to the use of the business relationship marketing concept in the services market. The author proposes a block-module structure of the relationship marketing development process in activities. The article presents the results of the scientific and practical substantiation of the relevance of using the concept of business relationship marketing in modern market conditions and determines the content and factors of customer loyalty. The presence of overlapping areas is the result of the lack of clear boundaries between the areas of application of different marketing tools, which indicates the possibility of their joint use. These approaches to understanding business relationship marketing are not mutually exclusive, but rather complementary.

**Key word:** Business relations, marketing service, improvement ways, marketing concept, consumers

**Asiman Rasim oğlu İLYASOV**
Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Təlim və metodologiya şöbəsinin müdiri
Azərbaycan Texnologiya Universiteti, Doktorantura tələbəsi

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞAN AKADEMİK VƏ İNZİBATİ HEYƏTİN ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUN KADR HAZIRLIĞININ KEYFİYYƏT MEYARLARINA DAİR PERSEPSİYASININ AKKREDİTASİYA MEYARLARINDA ƏKS OLUNMASI VƏZİYYƏTİ

**Xülasə**

Ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyətin ali təhsil müəssisəsinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət meyarlarına dair fikirləri mövcuddur və bu fikirlər keçirilmiş sorğu vasitəsi ilə fərqli kateqoriyalar üzrə müəyyən edilmiş və persepsiya analizi aparılmışdır. Lakin, beynəlxalq təcrübədə olduğu kimi Azərbaycan Respublikasında da fəaliyyət göstərən tabeliyindən, mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmadan bütün ali təhsil müəssisələrinin xarici keyfiyyət təminatından məsul dövlət orqanı mövcuddur və bu orqanın qiymətləndirmə ölçüləri müvafiq qaydada təsdiq olunmuş müxtəlif istiqamətləri əhatə edən meyarlardır. Ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyət arasında keçirilmiş sorğulardan əldə olunmuş nəticələr əsasında aparılmış perspepsiya təhlili göstərir ki, ali təhsil müəssisəsinin keyfiyyət meyarlarına dair bildirilən fikirlər ilə ölkə üzrə müəyyən olunmuş institusional akkreditasiya üzrə qiymətləndirmə meyarları əksəriyyət etibarı ilə oxşardır.

**Açar sözlər:** əmək bazarı, ali təhsil müəssisəsi, keyfiyyət təminatı, keyfiyyət idarəetməsi

**UOT: 338**
**JEL: I 20**

## Giriş

“Təhsil haqqında” qanunun müvafiq müddəalarına əsasən yerli və beynəlxalq əmək bazarında rəqabətqabiliyyətli kadrların hazırlanması təhsil müəssisəsinin əsas keyfiyyət göstəricilərindən biri olaraq göstərilir [4]. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi [1], “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” [2], “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” [3] qarşılıqlı təhlil edildiyi zaman görülür ki, ölkənin dayanıqlı və davamlı iqtisadi inkişafa nail olmasının əsas alətlərindən biri əmək bazarının kəmiyyət və keyfiyyət tələblərinə uyğun kadr hazırlığıdır. Belə ki, kadrların əmək bazarının tələb etdiyi bilik və bacarıqlara sahib olması onların məşğulluq imkanlarının, eləcə də əmək fəaliyyətinin səmərəliliyinin artmasına, bu isə öz növbəsində ölkənin iqtisadi göstəricilərinin və əhalinin iqtisadi rifahının yüksəlməsinə səbəb olacaqdır. Belə ki, beynəlxalq və yerli elmi tədqiqatlar göstərir ki, əmək bazarında keyfiyyətli təhsil alan şəxslərin ortalama aylıq əmək haqqı digər şəxslərə nisbətən yüksəkdir və bu isə onların iqtisadi həyatlarında alıcılıq qabiliyyətlərinə və sosial-iqtisadi rifahının yüksək olmasına gətirib çıxarır.

Əmək fəaliyyəti ilə məşğul olaraq əlavə dəyər yaradıb ölkənin iqtisadi inkişafına təkan verəcək subyektlər bacarıq və səriştələrinin böyük bir qismini ali təhsil müəssisələrində qazanmalıdır. Lakin, beynəlxalq və yerli tədqiqatlar göstərir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri tərəfindən əmək bazarının tələblərinə uyğun səriştəli və bacarıqlı kadr hazırlığının

əhəmiyyətinin hər fürsətdə vurğulanmasına baxmayaraq bu sahədə konkret fəaliyyətlər, modellər təqdim olunmamışdır. Eyni zamanda, Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan tələbələr arasında keçirilmiş sorğuların nəticəsi göstərir ki, tələbələr məzun olduqdan sonra özlərini əmək bazarına hazır hiss etmirlər. Qeyd olunan məsələlər ali təhsil müəssisələrinin kadr hazırlığının keyfiyyətinin idarəedilməsi məsələsini aktuallaşdırır.

Ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyətin hər birinin ali təhsil müəssisəsinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət meyarı olaraq gördükləri müəyyən indikatorlar mövcuddur. Eyni zamanda, beynəlxalq təcrübədə olduğu kimi Azərbaycan Respublikasında fəaliyyət göstərən tabeliyindən, təşkilati-hüquqi formasından və mülkiyyətindən asılı olmadan bütün ali təhsil müəssisələrinin xarici keyfiyyət təminatından məsul qurum öz Nizamnaməsinə əsasən Təhsildə Keyfiyyət Təminatı Agentliyidir. Sözügedən Agentlik öz fəaliyyət istiqamətlərini icra üçün qiymətləndirmə meyarlarından istifadə edir. Sözügedən ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları 30 sentyabr 2022-ci ildə Elm və Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiqlənmişdir.

**Metodologiya**

Təhlil zamanı keyfiyyət təhlil metodundan istifadə olunmuşdur. Birinci mənbə olaraq müəllif tərəfindən ali təhsil müəssisələrində çalışan 1705 akademik və inzibati heyət arasında keçirilmiş sorğunun nəticələri və ikinci mənbə olaraq isə müvafiq qaydada rəsmi olaraq təsdiqlənmiş və cari ildə (2023) qüvvədə olan "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları" əsas alınmışdır. Sorğu anonim xarakter daşımış və ali təhsil müəssisələrində çalışan 1705 akademik və inzibati heyət iştirak etmişdir. Sorğuda iştirak edən şəxslər sorğunun məqsədinə dair məlumatlandırılmışdırlar. Əksəriyyəti qadın cinsinə mənsub, elmi dərəcəsi və ya elmi adı olmayan, dövlət ali təhsil müəssisələrində çalışan, akademik vəzifədə çalışan və iş təcrübəsinin və pedaqoji təcrübəsinin 20 ildən çox olduğu respondentlər üstünlük təşkil edir. Sorğunun limitasiyası olaraq qeyd oluna bilər ki, respondentlərin ali təhsil müəssisələri üzrə paylanması normal deyil, belə ki ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyət arasında nisbət fərqlərinin böyük olması, eləcə də universitetlərin filiallarının da sorğuda iştirak etməsi bu paylanmanın normallığına təsir etmişdir. Daha detallı nəticənin əldə olunması üçün növbəti tədqiqatların aparılmasına ehtiyac vardır.

Sorğu nəticəsində respondentlərin ali təhsil müəssisəsinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət meyarı olaraq bildirdiyi qiymətləndirmə ölçüləri ilə (60%-dən çox respondentin tamamilə razı və ya razı olduğu) qüvvədə olan meyarların qarşılıqlı müqayisəli təhlili aparılmış və onların oxşarlığı vəziyyəti tədqiq olunmuşdur.

**İnzibati və akademik heyətin keyfiyyət meyarlarına dair persepsiyası**

Tələbə və məzunlarla əlaqəli keyfiyyət meyarlarına baxıldığı zaman (bax. Qrafik 1) görülür ki, respondentlərin əksəriyyəti ali təhsil müəssisəsinə daxil olan tələbələrin Dövlət İmtahan Mərkəzindən yüksək nəticə göstərməsini (63%), məzunların magistratura təhsil səviyyəsinə qəbul olma sayının çox olmasını (69%), məzunlarının yüksək Ümumi Orta Müvəffəq Göstəriciyə sahib olmasını (66%), məzunlar üçün yüksək iş imkanlarının mövcud olmasını (68%), tələbələrin təhsil aldığı ali təhsil müəssisəsindən məmnunluğu səviyyəsinin yüksək olmasını (73%) və dövlət sifarişli və ya adlı təqaüd alan tələbələrin sayının çoxluğunu (67%) müəssisənin tələbə və məzunlarla əlaqəli keyfiyyət göstəriciləri olaraq qəbul edirlər (tam razı və ya razıdırlar). Müvafiq göstəricilər üzrə ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarlarına baxıldığı zaman görünür ki, ali təhsil müəssisəsində kadr

hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi (3.2.1), məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti (3.10.4), tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası (3.8.4), məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti (3.10.3), təhsilalanlara təqaüd imkanının yaradılması vəziyyəti (3.8.12) qiymətləndirmə indikatorları olaraq meyarlarda əks olunmuşdur. Lakin, müvafiq qiymətləndirmə meyarlarında ali təhsil müəssisəsinə daxil olan tələbələrin yüksək DİM nəticələrinin və ya məzunların yüksək ÜOMG nəticələrinin olması əks olunmamışdır. Çünki beynəlxalq təcrübədə də olduğu kimi xarici keyfiyyət təminatı qurumu müəssisənin daxili keyfiyyət təminatı sistemini qiymətləndirərkən inputa deyil, daha çox proses və nəticələrə əsasən qiymətləndirmə aparmalıdır.

Akademik heyət ilə əlaqəli respondentlərin bildirdiyi fikirlərə (60%-dən çoxunun tamamilə razı və ya razı olduğu) baxıldığı zaman görünür ki, xarici ölkələrdə təhsil almış akademik heyətin çoxluğu (61%), akademik heyət tərəfindən nəşr olunmuş milli və beynəlxalq elmi tədqiqatların çoxluğu (68%), akademik heyətin müvafiq sahə üzrə təcrübəsinin çoxluğu (77%) və elmi dərəcəsi və ya elmi adı olan akademik heyətin sayının çoxluğu (66%) ali təhsil müəssisəsinin kadr hazırlığının keyfiyyət meyarlarıdır. Müvafiq istiqamət üzrə ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarlarına baxıldığı zaman görünür ki (bax. Qrafik 2), Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti (3.7.12), tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası, elmi dərəcəsi olan akademik heyətin hər 100 nəfərinə düşən nəşr olunmuş elmi məqalələrin (ölkə daxilində və xaricdə) sayının artım dinamikası, TM-in daimi ştatda olan professor-müəllim heyətinin hesabat dövründə (H) indeksi 5-dən yuxarı olan əməkdaşlarının sayının dinamikası (4.3.12), elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti (4.3.17) ali təhsil müəssisəsinin institusional akkreditasiyası zamanı qiymətləndirilən indikatorlardandır.




| | Təhsilalan sayının çox olması | Daxil olan tələbələrin yüksək DİM balları | Məzun olan tələbələrin sayının çox olması | Məzunların magistraturaya qəbul faizinin yüksək olması | Məzunların yüksək ÜOMG nəticəsi | Məzunlar üçün yüksək iş imkanları | Tələbələrin universitetdən məmnunluğu | Təhsil prosesində inkluzivliyi nəzərə alması | Digər müəssisələrə transfer olan tələbələrin sayının azlığı | Dövlət sifarişli və ya adlı təqaüd alan tələbələrin sayının çoxluğu |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Tam razıyam | 11% | 16% | 11% | 18% | 14% | 21% | 21% | 16% | 10% | 18% |
| Razıyam | 36% | 47% | 34% | 51% | 52% | 47% | 52% | 46% | 33% | 49% |
| Qismən razıyam | 34% | 30% | 33% | 23% | 28% | 24% | 22% | 32% | 34% | 25% |
| Razı deyiləm | 19% | 7% | 23% | 7% | 6% | 8% | 6% | 6% | 23% | 8% |

**Qrafik 1 Tələbə-məzun ilə əlaqəli respondentlərin fikirləri**
**Mənbə:** Müəllif tərəfindən keçirilmiş sorğu




| | Akademik heyətin sayının | Daimi əsaslarla çalışan akademik heyətin sayının çoxluğu | Xaricdə təhsil almış akademik heyətin çoxluğu | Universitetdə çalışan əcnəbi müəllimlərin sayının çoxluğu | Bir akademik heyətə düşən təhsilalan sayının azlığı | Akademik heyət tərəfindən tərəfindən milli və beynəlxalq nəşrlərin çoxluğu | Akademik heyətinin ortalama yaşının azlığı | Akademik heyətin müvafiq sahə üzrə təcrübəsinin çoxluğu | Elmi dərəcəsi və elmi adı olan akademik heyətin çoxluğu |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tam razıyam | 11% | 13% | 19% | 12% | 9% | 22% | 10% | 24% | 21% |
| Razıyam | 35% | 43% | 42% | 30% | 27% | 46% | 29% | 53% | 45% |
| Qismən razıyam | 33% | 30% | 29% | 37% | 42% | 24% | 40% | 18% | 24% |
| Razı deyiləm | 21% | 13% | 10% | 21% | 22% | 8% | 21% | 5% | 9% |

**Qrafik 2. Akademik heyət ilə əlaqəli respondentlərin fikirləri**
**Mənbə:** Müəllif tərəfindən keçirilmiş sorğu

Lakin, akademik heyətin iş təcrübəsi müddətinə görə qiymətləndirilməsi ilə bağlı müvafiq meyarlarda indikator mövcud deyildir və sözügedən məsələ işə götürmə prosesinin kompetensiya əsaslı olması qismində qiymətləndirilir.

Tədris prosesi ilə əlaqəli respondentlərin keyfiyyət meyarı olaraq bildirdiyi fikirlərə (60%-dən çoxunun tamamilə razı və ya razı olduğu) nəzər saldığımız zaman görünür ki (bax. Qrafik 3), müəllim və tələbə arasında effektiv ünsiyyətin olmasını (81%), tədris prosesində yeni tenologiyalardan istifadə etməyi (86%), fərdi öyrənmə imkanlarının təmin edilməsini (71%), tələbə dəstək xidmətlərinin mövcudluğunu (72%), tədris prosesində müasir tədris texnologiyalarından istifadəni (84%) respondentlər ali təhsil müəssisəsinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət meyarları olaraq qəbul edirlər.




| | Müəllimlər və tələbələr arasında effektiv ünsiyyət | Tədris proseslərində yeni texnologiyalardan istifadə | Fərdi öyrənmə imkanlarının təmin edilməsi | Tələbə dəstək xidmətlərinin mövcudluğu | Tədris prosesində müasir tədris metod və üsullarından istifadə | Tyutorların sayının çoxluğu keyfiyyət göstəricisidir |
|---|---|---|---|---|---|---|
| Tam razıyam | 27% | 34% | 23% | 22% | 33% | 10% |
| Razıyam | 54% | 52% | 48% | 50% | 51% | 26% |
| Qismən razıyam | 16% | 12% | 25% | 24% | 12% | 38% |
| Razı deyiləm | 3% | 3% | 5% | 4% | 3% | 26% |

**Qrafik 3Tədris prosesi ilə əlaqəli respondentlərin fikirləri**
**Mənbə:** Müəllif tərəfindən keçirilmiş sorğu




| | Zəruri infrastuktur şəraiti | Güclü informasiya texnologiyalarına və kompüter şəbəkəsi infrastrukturuna | Tələblərə uyğun sinif otağı, emalatxana, laboratoriya və s. Olması | sosial, mədəni və idman məqsədləri üçün maddi-texniki bazası və infrastrukturunun zənginliyi | Kitabxanasında zəngin çap və elektron resursların olması |
|---|---|---|---|---|---|
| Tam razıyam | 27% | 36% | 39% | 32% | 43% |
| Razıyam | 53% | 49% | 48% | 47% | 45% |
| Qismən razıyam | 17% | 12% | 10% | 18% | 9% |
| Razı deyiləm | 4% | 3% | 3% | 3% | 2% |

**Qrafik 4.**
**Mənbə:** Müəllif tərəfindən keçirilmiş sorğu

Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarlarında müvafiq istiqamət üzrə indikatorların mövcudluğu vəziyyətinə nəzər saldığımız zaman görünür ki, akademik və inzibati heyətin fikirlərinə uyğun olaraq müvafiq keyfiyyət meyarlarının əksəriyyəti qiymətləndirmə meyarlarında əks olunmuşdur. Belə ki, tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti (3.8.9), təlim nəticələrinin əldə olunmasını təmin

**İnfrastruktur ilə əlaqəli respondentlərin fikirləri** edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti (3.4.1), tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti (3.4.5) ali təhsil müəssisəsinin qiymətləndirilməsi zamanı qiymətləndirilən indikatorlardandır. Eyni zamanda, tələbə dəstək xidmətinin mövcudluğunu qiymətləndirmək üçün məsləhət xidməti, tibbi xidmət, karyera-məsləhət xidməti, yataqxana, yeməkxana və digər məsələlər ilə bağlı müvafiq meyarlarda bir sıra müvafiq indikatorlar mövcuddur.

İnfrastruktur ilə bağlı ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyətin fikirlərinə nəzər saldıqda görünür ki, yuxarıda qeyd olunan bütün indikatorlar üzrə respondentlərin 60%-dən çoxu keyfiyyət meyarı olması fikri ilə ya tamamilə razı və ya razıdırlar. Ali təhsil müəssisələrinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarlarında müvafiq istiqamət üzrə kifayət qədər çox indikator və meyarlar əks olunmuşdur. Belə ki, sözügedən meyarlarda 6-cı istiqamət başlıq olaraq "infrastruktur"dur və yuxarıda respondentlərin bildirdiyi məsələlərin hamısı müvafiq istiqamət üzrə qiymətləndirmə indikatorları olaraq qeyd olunmuşdur.

**Nəticə**

Müəllif tərəfindən ali təhsil müəssisələrində çalışan 1705 akademik və inzibati heyət arasında keçirilmiş sorğunun nəticələri olaraq 60%-dən çox respondentin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət meyarı olduğunu düşündüyü meyarlar ilə 22 sentyabr 2022-ci ildə Elm və Təhsil Nazirliyinin

Kollegiyasının Qərarı ilə təsdiqlənmiş ali təhsil müəssisəsinin institusional akkreditasiya üzrə qiymətləndirmə meyarları arasında müqayisəli persepsiya təhlili aparılmışdır və təhlil nəticəsi olaraq demək olar ki, respondentlərin tələbə və məzunlarla, akademik heyətlə, tədrisin təşkili və infrastrukturla bağlı qeyd etdiyi keyfiyyət meyarları müvafiq qaydada təsdiqlənmiş institusional akkreditasiya meyarlarında əks olunmuşdur. Bu isə öz növbəsində ali təhsil müəssisələrinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının xarici keyfiyyət təminatı meyarları ilə müəssisədə çalışan akademik və inzibati heyətin düşündükləri meyarların əksəriyyət olaraq eynilik təşkil etdiyini göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:

1.“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / Bakı şəhəri, 2021-ci il 2 fevral / № 2469

2.“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / Bakı şəhəri, 22 iyul 2022-ci il / №3378

3.“2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / Bakı şəhəri, 30 oktyabr 2018-ci il / № 602

4.“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu / Bakı şəhəri, 19 iyun 2009-cu il / № 833-IIIQ

5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları”

**Исиман Расим ИЛЬЯСОВ**
Начальник учебно-методического отдела
Агентства по обеспечению качества образования
Азербайджанский Технологический Университет, аспирант

## СОСТОЯНИЕ ОТРАЖЕНИЯ ПРЕДСТАВЛЕНИЙ НАУЧНО-ПЕДАГОГИЧЕСКОГО И АДМИНИСТРАТИВНОГО ПЕРСОНАЛА О КРИТЕРИЯХ КАЧЕСТВА ПОДГОТОВКИ СТУДЕНТОВ В КРИТЕРИЯХ АККРЕДИТАЦИИ

**Резюме**

Преподавательский и административный персонал, работающий в высших учебных заведениях, имеет мнение о критериях качества подготовки студентов вузов в соответствии с требованиями рынка труда, и эти мнения были выявлены посредством опроса в различных категориях и проведен анализ восприятия. Однако, как и в международной практике, существует государственный орган, ответственный за внешнее обеспечение качества всех высших учебных заведений, действующих в Азербайджанской Республике, независимо от их подчиненности, формы собственности и организационно-правовой формы, и оценочные меры этого органа утвержденные в установленном порядке критерии, охватывающие различные направления. Анализ восприятия, проведенный на основе результатов опросов, проведенных среди академического и административного персонала, работающего в высших учебных заведениях, показывает, что мнения, высказанные о критериях качества высшего учебного заведения и критериях оценки институциональной аккредитации, определенных для страны во многом похожи.

**Ключевые слова:** рынок труда, вуз, обеспечение качества, управление качеством.

**Asiman Rasim ILYASOV**
Head of Training and Methodology Unit, Education Quality Assurance Agency
Azerbaijan Technological University, PhD student

# THE STATE OF REFLECTION OF THE ACADEMIC AND ADMINISTRATIVE STAFF'S PERCEPTION OF THE QUALITY CRITERIA OF STUDENT PREPERATION IN THE ACCREDITATION CRITERIA

**Summary**

The academic and administrative staff working in higher education institutions have opinions on the quality criteria of student preperation of HEIs in accordance with the labor market requirements, and these opinions were identified by means of a survey in different categories and a perception analysis was carried out. However, as in the international practice, there is a state body responsible for the external quality assurance of all higher education institutions operating in the Republic of Azerbaijan regardless of their subordination, ownership and organizational-legal form, and the assessment measures of this body are the criteria covering various directions that have been duly approved. The perception analysis conducted on the basis of the results obtained from the surveys conducted among the academic and administrative staff working in higher education institutions shows that the opinions expressed about the quality criteria of the higher education institution and the assessment criteria for institutional accreditation determined for the country are mostly similar.

**Keywords**: labor market, higher education institution, quality assurance, quality management

**Afiyyəddin Həmid oğlu HƏMİDOV, i.f.d., dos.**

**Həbibə Sabid qızı MUSTAFAYEVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ DÖVLƏTİN STRUKTUR SİYASƏTİNİN REALLAŞMASI VƏ TƏKMLİLLƏŞDİRMƏ MƏSƏLƏLƏRİ

**Xülasə**

Bazar münasibətlərinə keçid şəraitində əhalinin rifah halının yaxşılaşdırılmasına və onun tələbatının ödənilməsinə töhfə verən təbii sərvət potensialından rasional istifadə daha çox onun öz imkanları əsasında struktur transformasiyalarının optimallaşdırılmasına yönəlmiş işlənmiş iqtisadi siyasətdən asılıdır.

Respublikanın indiki inkişaf mərhələsində iqtisadi inkişafın struktur tarazlığını təmin edən iqtisadi siyasətin formalaşdırılması və həyata keçirilməsi üçün yeni prinsiplərin işlənib hazırlanmasının zəruriliyi və əhəmiyyəti xeyli artır.

**Açar sözlər:** Bazar iqtisadiyyatı, struktur siyasət, dövlətin struktur siyasəti, həyata keçirilməsi,təkmilləşdirmə məsələləri

**UOT: 338**
**JEL: L59**

## Giriş

Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Şübhəsiz ki, dövlət müstəqilliyini qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir. Müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu bunu bir daha təsdiq edir. Bu dövrdə dövlətimizə, onun müstəqilliyinə qəsdlər olub, lakin onların qarşısı qətiyyətlə alınıb.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və möhkəmlənməsi də dövlət müstəqilliyinin əsaslarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilməzdik. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişafına şərait yaratmışdır [1,15].

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatın bazar münasibətlərinə əsaslanan inkişafına konstitusiya təminatının verilməsi, neft müqavilələrinin imzalanması, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi, respublikamızın beynəlxalq əhəmiyyətli strateji iqtisadi layihələrə qoşulması, iqtisadi inkişafın dərinləşdirilməsi Ümummilli Liderin fəaliyyəti, bu sahədə atdığı strateji addımlar nəticəsində dünyanın aparıcı dövlətləri ilə iqtisadi əməkdaşlıq mümkün olmuşdur.

Sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə səciyyələnən son 15 il Azərbaycan iqtisadiyyatı üçün son dərəcə uğurlu olmuşdur. Qazanılan uğurlar, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların xarakteri, cəmiyyətin real tələbatının ödənilməsinə yönəlmiş dövlət proqramlarının həyata keçirilməsi davamlı inkişafı sayəsində təmin edilib. Bu dövrdə Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi qüdrətinin getdikcə artdığını, həyat səviyyəsində, rifah halında, iqtisadi sahədə müşahidə olunan mütərəqqi dəyişiklikləri hiss etmişlər.

Məqalədə bazar iqtisadiyyatı şəraitində struktur siyasətinin formalaşdırılması və həyata keçirilməsi üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- bazar münasibətlərinin inkişafı şəraitində struktur siyasətinin formalaşması və həyata

keçirilməsinin iqtisadi konsepsiyalarını tədqiq etmək;

•struktur siyasətinin konseptual aparatını təhlil etmək və iqtisadi praktikada struktur dəyişikliklər üçün elmi ilkin şərtləri müəyyən etmək;

• qəbul edilmiş məqbul metodlar və müddəalar kontekstində struktur siyasətinin işlənib hazırlanması və həyata keçirilməsində xarici ölkələrin təcrübəsini nəzərdən keçirmək;

•milli iqtisadiyyatda struktur siyasətinin institusional əsaslarının dərin müqayisəli təhlilini aparmaq;

• milli iqtisadiyyatın inkişafında struktur dəyişikliklərinin təmin edilməsi üçün alətləri və maliyyə əsaslarını öyrənmək;

•iqtisadiyyatın liberallaşdırılması şəraitində dövlətin struktur siyasətinin strateji istiqamətlərini müəyyən edir;

• prioritet sahələri müəyyən etmək və yaxın gələcəkdə struktur siyasətinin inkişafına yanaşmaların təkmilləşdirilməsi üçün tədbirlər hazırlamaq.

Hazırda islahatların texnologiyası da təkmilləşdirilir. Bunu iqtisadi siyasətdə çevikliyin təmin edilməsi, struktur və institusional islahatların paralel həyata keçirilməsi, konkret məqsədlərə və maliyyə mənbələrinə əsaslanan proqramların idarə olunması bir daha təsdiq edir. Son 15 ildə 201 siyasət sənədi, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 fəaliyyət planı, 21 fəaliyyət proqramı, 17 milli plan və proqram qəbul edilib [2,47].

Hazırda qeyri-neft sektorunda müşahidə olunan davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə minimum xarici dövlət borcumuz, mühüm enerji nəqliyyatı layihələrinin həyata keçirilməsi ölkəmizin milli və iqtisadi təhlükəsizliyinə möhkəm zəmin yaradır. Strateji əhəmiyyət kəsb edən belə genişmiqyaslı iş milli-iqtisadi maraqlarımızın müdafiəsi, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edilməsi, iqtisadiyyatla siyasətin uğurlu vəhdəti ilə tamamlanır.

Sənayenin müasirləşdirilməsi və strukturunun təkmilləşdirilməsi Prezident İlham Əliyevin əsasını qoyduğu iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, dövlətimizin başçısı ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elm tutumlu və innovativ istehsalın təşkili, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi məqsədilə “Azərbaycan Respublikasında sənayeləşmənin inkişafı üzrə Dövlət Proqramı”nı təsdiq etdi. “2015-2020-ci illərdə Azərbaycan Respublikasında sənayenin inkişafı” Sərəncamı ilə 2014-cü il “Sənaye ili” elan edilmişdir.

Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişiklikləri baxımından yeni yanaşmadır. Ona görə də, son vaxtlar ölkədə belə qurumların yaradılması istiqamətində mühüm işlər görülüb.

Kimya sənayesini inkişaf etdirmək məqsədilə 2011-ci ildə Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında qərar qəbul edib.

2017-ci ildə dövlət başçısının iştirakı ilə Balaxanı sənaye parkının açılış mərasimi keçirilib. Sənaye parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, habelə əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji ilə təmin olunmasına, alınan xammal və ya istehsal olunan məhsulların bazara problemsiz çatdırılmasına şərait yaradır.

Təməli 2016-cı ildə qoyulmuş Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyalar, tekstil, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması nəzərdə tutulur. Pambıqçılığın sürətli inkişafı qabaqcıl texnologiyalar əsasında yeni istehsal və emal sahələrinin təşkilini tələb edir. Belə müəssisələr Mingəçevir Sənaye Parkının ərazisində yaradılmış iki iplik istehsalı müəssisəsi - üzük üsulu ilə istehsal olunan pambıq-polyester istehsalı fabriki və Mingəçevirin açıq ucu ilə iplik istehsalı fabrikidir. 2018-ci ilin fevralında Prezident İlham Əliyev hər iki fabrikin açılışında iştirak edib.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Milli Yardım Fondunun dəstəyi ilə yaradılan belə müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesini inkişaf etdirməyə, yerli istehsal müəssisələrini daim yüksək keyfiyyətli və ucuz xammalla təmin etməyə, həmçinin pambıq ixrac etməyə imkan verəcək hazır məhsul kimi istehsal olunur.

Bakı Gəmiqayırma Zavodu gəmiqayırma sahəsində ixtisaslaşan Qaradağ Sənaye Parkında fəaliyyət göstərir, burada ağır yükdaşıyan tankerlər, dəniz təchizat gəmiləri və digər məqsədlər üçün gəmilər tikilir.

Əczaçılıq məhsullarının istehsalı üzrə ixtisaslaşan Pirallahı Sənaye Parkında artıq təməli qoyulmuş dərman preparatları istehsalı zavodlarının tikintisi üçün müvafiq tədbirlər görülür. Ölkəmiz üçün yeni sənaye sahəsi olan, əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynayan əczaçılıq sənayesinin yaradılması həm də yerli istehsal hesabına əhalinin keyfiyyətli əczaçılıq məhsulları ilə təmin olunmasına, idxaldan asılılığın azaldılmasına və ixrac potensialının artırılmasına imkan verəcək [2,74].

Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli resurslardan istifadə edən sənaye sahələrinin yaradılmasında, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılmasında, sənaye müəssisələri arasında kooperasiya əlaqələrinin gücləndirilməsində sənaye parkları və sənaye məhəllələrinin böyük əhəmiyyəti vardır.

İqtisadiyyatın sürətli inkişafı, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun artması ölkəmizə marağın artmasına, respublikaya gələn əcnəbilərin sayının ildən-iləçoxalmasına, turizmin genişlənməsinə şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti 2011-ci ili ölkəmizdə “Turizm ili” elan etmişdir. Ötən müddət ərzində təkcə Bakıda deyil, regionlarda da mehmanxana və istirahət mərkəzlərinin açılması turizmin inkişafına geniş imkanlar yaratmışdır. Əgər 2003-cü ildə ölkədə cəmi 96 mehmanxana və mehmanxana tipli müəssisə var idisə, 2004-2017-ci illərdə belə obyektlərin sayı artaraq 550-yə çatıb ki, bunun da 400-ü regionlarda yerləşir.

Dünya ölkələri ilə, xüsusən də Avropa İttifaqının üzvü olan ölkələrlə nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) ixrac neft kəməri və Bakı-Tbilisi-Ərzurum ixrac qaz kəməri Azərbaycanın iqtisadi inkişafının təmin edilməsinə layiqli töhfə vermişdir.

Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət kəsb edən Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP və TAP layihələri üzrə yekun investisiya qərarının imzalanması xüsusilə diqqətəlayiqdir. Bu layihələr üzrə işlərin çoxu artıq yekunlaşıb.

İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna böyük investisiyalar hesabına hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikintisi, yeni avtomobil və dəmir yollarının çəkilməsi və digər işlər davam etdirilmişdir.

Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhlizinin gücləndirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Bakıda Ro-Ro terminalının açılışı da daxil olmaqla tranzit potensialının reallaşdırılmasına yönəlmiş irimiqyaslı layihələr həyata keçirilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri boyunca magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Ölkənin tranzit potensialından daha səmərəli istifadə etmək üçün dövlət səviyyəsində institusional islahatların aparılması zərurəti yaranıb. Bu siyasətin davamı olaraq Tranzit Yük Daşımaları üzrə Koordinasiya Şurası yaradılmışdır. Koordinasiya Şurasına ölkədən keçən nəqliyyat dəhlizlərinin stimullaşdırılması, özəl şirkətlərin dövlət qurumları ilə əlaqələndirilməsi, tariflərin optimallaşdırılması və tranzit prosedurlarının sadələşdirilməsi istiqamətində işlərin görülməsi həvalə edilib. Koordinasiya Şurası ölkənin tranzit cəlbediciliyini artırmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Belə ki, dəhlizin rəqabət qabiliyyətinin artırılması məqsədilə region ölkələri arasında koordinasiya gücləndirilib, tranzit müddətləri qısaldılıb, prosedurlar təkmilləşdirilib, optimallaşdırılmış tarif siyasətinə başlanılıb.

“Doing Business” hesabatına əsasən, Azərbaycan 2017-ci ildə 190 ölkə arasında 57-ci, Davos İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında isə 35-ci yerdə qərarlaşıb. Eyni zamanda, son hesabata görə, Azərbaycan “Siyasətçilərə ictimai etimad” göstəricisinə görə dünyada 20-ci yerə yüksəlib. Bu isə xalqın hakimiyyətə böyük etimadını səciyyələndirən mühüm göstəricidir [3,65].

İndi ölkəmizdə iqtisadi liberallaşmanın və struktur islahatlarının yeni mərhələsi başlayır. İndiki mərhələdə əsas vəzifə səmərəli iqtisadiyyat yaratmaq, daha sağlam iqtisadi bazaya əsaslanan səmərəli sosial siyasətin həyata

keçirilməsidir. Qeyd edək ki, Şərqi Avropanın bir çox ölkələri kimi "Ən yaxşı sosial siyasət düzgün iqtisadi siyasətdir" tezisini əsas götürən Azərbaycan da iqtisadi transformasiya dövrünü uğurla başa vurub.

Bazar iqtisadiyyatı yolunu seçmiş ölkələr davamlı dövlət proteksionizmi və ucuz enerji resursları hesabına rəqabətqabiliyyətliliyini təmin edə bilmirlər. Bütün bunlar idman yarışlarında olduğu kimi iqtisadiyyata qısamüddətli "dopinq effekti" verir. Biz iqtisadiyyatımızın rəqabət qabiliyyətini yalnız struktur islahatları və texnoloji yenilənmə ilə təmin edə bilərik.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yoxsulluğun azaldılması, çoxlu sayda iş yerlərinin açılması ilə səciyyələnir. Eyni zamanda, regionlarımız inkişaf edir ki, bu da əyalətlərdə iqtisadi fəallığın artması ilə müşayiət olunur. Dövlət investisiyaları hesabına infrastruktur obyektlərimiz müasirləşdirilir. Qeyri-neft sektorunun potensial sektorları xidmət sektorunu, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm və emal sektorunu inkişaf etdirir. Kənd təsərrüfatına dövlət dəstəyi siyasəti davamlı xarakter daşıyır.

Bütün sahələrdə yeniləşmənin uğurla həyata keçirilməsi ölkənin inkişafı ilə bağlı konkret hədəflərin müəyyənləşdirilməsindən birbaşa asılıdır. Azərbaycan artıq öz perspektiv inkişaf kursunu müəyyən edib. Bu, qəbul olunmuş dövlət proqramlarında, strateji yol xəritələrində bir daha öz əksini tapıb.Ölkəmizdə proqram idarəçiliyinə işarə edən bu sənədlər siyasi, sosial-iqtisadi və institusional inkişafla bağlı qarşıya qoyduğu məqsədləri də əhatə edir.

Əgər ilkin mərhələdə ölkə rəhbərliyinin siyasi kursu və diplomatik fəaliyyəti iqtisadi maraqlarımızın reallaşmasına xidmət edirdisə, bu gün iqtisadi sahədə əldə olunan uğurlar, davam edən iqtisadi diplomatiya ölkəmizin siyasi və strateji maraqlarına xidmət edir. Bu gün Azərbaycanda iqtisadiyyat və siyasət bir-birindən ayrılmazdır və bir-birini uğurla tamamlayır. Prezident İlham Əliyevin iqtisadi inkişaf sahəsində fəaliyyəti strateji xarakter daşıyır və Azərbaycanın sosial-iqtisadi inkişafı üçün uzunmüddətli perspektivlər açır.

İstənilən ölkədə iqtisadi inkişaf birbaşa siyasi amillərdən asılıdır. Azərbaycanda formalaşmış siyasi ab-hava iqtisadi inkişafa müsbət təsir göstərir. Beləliklə, öz milli iqtisadiyyatını quran ölkə üçün güclü dövlət və güclü siyasət prinsipial əhəmiyyət kəsb edir. İctimai-siyasi sabitliyin qorunması və bu gün ölkəmiz üçün "imkanlar pəncərəsi" rolunu oynayır. Azərbaycan etibarlı tərəfdaş kimi öz mövqeyini möhkəmləndirir. Balanslaşdırılmış və uğurlu xarici siyasət ikitərəfli və çoxtərəfli iqtisadi əlaqələrin genişləndirilməsi üçün əlverişli şərait yaradır.

Ölkə rəhbərliyinin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət Azərbaycanın dövlət maraqlarının qorunmasında, ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarının əhəmiyyətli dərəcədə genişləndirilməsində mühüm rol oynamışdır.

İstənilən ölkədə idarəetmə sisteminin və dövlət nəzarətinin xüsusiyyətləri mövcud iqtisadi münasibətlərin xarakteri ilə müəyyən edilir. Bu mənada ölkəmizdə bazar münasibətlərinin tədricən formalaşması, iqtisadiyyatın liberallaşdırılması dövlət idarəetməsi və nəzarəti sistemində keyfiyyət dəyişikliklərinə şərait yaratmış və onun fəaliyyətinə yeni məzmun vermişdir.

İstənilən iqtisadi sistem uyğun idarəetmə və tənzimləmə mexanizminin yaradılmasını tələb edir. Nəzarət sistemi isə idarəetmə sisteminin tərkib hissəsi və qoludur, ona görə də, bu sistemdə qanunun aliliyi, demokratik cəmiyyət, azad iqtisadiyyat kimi prinsiplərə məhəl qoyula bilməz.

Əgər planlı iqtisadiyyat sistemində dövlət idarəetmə aparatı iqtisadiyyata total nəzarət funksiyasını yerinə yetirirdisə, yeni mərhələdə dövlət orqanları daha çox tənzimləyici rol oynamalıdır. Nəzarət funksiyaları ciddi şəkildə tənzimlənməlidir.

Dövlət nəzarəti sistemində baş verən əsaslı dəyişikliklər heç bir halda dövlət nəzarətinin yumşaldılması və ya aradan qaldırılması kimi səciyyələndirilə bilməz. Dövlət heç bir halda qanunların pozulmasına, israfçılığa, dövlət əmlakının və vəsaitlərinin mənimsənilməsinə göz yuma bilməz. Əksinə, Azərbaycanda milli iqtisadiyyatı formalaşdıran bir ölkə kimi dövlət nəzarəti daha da gücləndirilməli idi. Bu sərtlik "məqsədli" əsassız yoxlamaların aparılması ilə deyil, qanun pozuntularının aşkar edilməsi və nəticələrinin aradan qaldırılması ilə müəyyən

edilir. Bir sözlə, nəzarət sistemində aparılan islahatlar dövlət nəzarətinin yumşaldılmasına deyil, onun təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına və bu sistemin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulmasına yönəlmişdir.

Dövlət nəzarəti sistemində islahatların aparılması zərurətini və bu sahədə müşahidə olunan dəyişikliklərin mahiyyətini müəyyən etmək üçün yaxın keçmişimizə - komanda iqtisadiyyatının təcrübəsinə diqqət yetirmək lazımdır [3,21].

Bazar münasibətlərinə əsaslanan iqtisadi sistemdən fərqli olaraq, mərkəzləşdirilmiş planlı iqtisadiyyat sistemində dövlət nəzarəti iqtisadiyyatın bütün sahələrini əhatə etməklə total xarakter daşıyırdı. Əsas nəzarət obyekti olan dövlət müəssisələrinin fəaliyyəti tam şəkildə tənzimlənirdi. Onlar ancaq dövlət sifarişlərinin icraçısı kimi fəaliyyət göstərirdilər. Sahibkarlıq fəaliyyəti, ticarət vasitəçiliyi, valyuta və qiymətli kağızların alqı-satqısı qanunla qadağan edildi. Bu sahədə istənilən fəaliyyət sonda cinayət məsuliyyətinə cəlb olunurdu. Çoxlu sayda qadağalar nəzarətin əhatə dairəsini genişləndirdi.

Son illər ölkəmizdə aparılan institusional islahatlar çərçivəsində dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl və kompleks tədbirlər həyata keçirilir.

Belə ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli Qanunu əsasında sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılıb. Qanuna əsasən, bu müddət ərzində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, qida təhlükəsizliyinə və dövlətin maraqlarına ciddi təhlükə törədən faktlar üzrə yoxlamalar aparıla bilər. Azərbaycan Respublikası Prezidentinin 3 noyabr 2017-ci il tarixli Fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti 2021-ci il yanvarın 1-dək həyata keçirilmişdir.

Müqayisə üçün qeyd edək ki, əgər 2 il müddətinə dayandırılana qədər yoxlamaların sayı 120 mindən çox idisə, növbəti 2 ildə yoxlamalar dayandırıldıqda bu rəqəm 200-dən aşağı düşüb.

İqtisadiyyatın geniş miqyasda liberallaşdığı, sahibkarlıq fəaliyyətinə qoyulan qadağaların aradan qaldırıldığı bu gün təsərrüfat subyektləri üzərində total dövlət nəzarəti praktiki olaraq mümkün deyil. Yeni şəraitdə dövlətin iqtisadi nəzarəti əsasən maliyyə nəzarəti xarakteri daşımalıdır. Belə nəzarət öz növbəsində maliyyə intizamının yüksəldilməsini, mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektləri tərəfindən dövlət qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsini, ölkənin maliyyə təhlükəsizliyini təmin etməlidir.

Maliyyə nəzarəti fiskal nəzarətlə məhdudlaşa bilməz. Valyuta, gömrük və bank nəzarəti də daxil olmaqla, maliyyə vəsaitlərinin formalaşması, bölüşdürülməsi və istifadəsi prosesinin qanuniliyinə, məqsədəuyğunluğuna və səmərəliliyinə nəzarət sahəsində dövlət orqanları və audit təşkilatları tərəfindən həyata keçirilən tədbirlər məcmusudur.

Sistemli maliyyə nəzarətinin təşkili aşağıdakı şərtlərin yerinə yetirilməsindən asılıdır:

- birincisi, konkret olaraq maliyyə nəzarətinin subyektlərini, yəni nəzarəti hansı strukturların həyata keçirəcəyini müəyyən etmək; ;

- ikincisi, maliyyə nəzarətinin obyektlərini, yəni hansı strukturlara nəzarət edəcəyini dəqiqləşdirmək;

- üçüncüsü, nəzarətin predmetini - hansı nəzarətin həyata keçirildiyini aydınlaşdırmaq;

- dördüncü, nəzarətin prinsiplərini, üsullarını və metodologiyasını, texnikasını və texnologiyasını müəyyən etmək.

Maliyyə nəzarətinin sistemliliyini təmin etməyin ən əsas şərti nəzarətin nəticələrinə əsasən konkret qərarların qəbul edilməsidir. Yəni maliyyə nəzarətinin bir-birini tamamlayacaq başlanğıc və son nöqtəsi olmalıdır.

Maliyyə nəzarətinin əsas istiqamətlərindən biri büdcə nəzarətidir.

Maliyyə nəzarətindən fərqli olaraq, büdcə nəzarətinin əhatə dairəsi məhduddur. Belə ki, büdcə nəzarəti əsasən dövlət sektorunu, dövlət vəsaitlərindən istifadə edən idarə və təşkilatları əhatə edir.

Milli iqtisadiyyatı formalaşdıran ölkə üçün büdcə nəzarəti və onun səmərəli təşkili xüsusi əhəmiyyət kəsb edir. Dövlət öz funksiyalarını sərbəst və normal şəkildə həyata keçirməli, sosial-iqtisadi prosesləri çevik şəkildə tənzimləməlidir. Bu imkanların həyata keçirilməsi isə dövlət vəsaitinin həcmi ilə müəyyən edilir.

Dövlətin maliyyə resursları nə qədər çox olarsa, onun sosial-iqtisadi proseslərə təsir imkanları da bir o qədər geniş olar. Bu mənada ölkəmizdə büdcə nəzarəti bir tərəfdən maliyyə resurslarından səmərəli və qənaətlə istifadəni təmin etməli, digər tərəfdən isə büdcə gəlirlərinin artırılması üçün mövcud ehtiyatları müəyyən etməlidir.

Dövlət idarəetmə sisteminin səmərəliliyi həm də dövlət vəsaitlərindən istifadə vəziyyəti ilə bağlıdır. Ona görə də, son illər büdcə sistemi, dövlət satınalmaları və büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi ilə bağlı qanunvericilik təkmilləşdirilmiş, hesabatlılığın və şəffaflığın artırılması, maliyyə inzibatçılığının gücləndirilməsi istiqamətində dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Hesablama Palatası son illər Prezident İlham Əliyevin verdiyi tapşırıqların, qanunla müəyyən edilmiş tapşırıq və funksiyaların icrasının təmin edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirir. Nəzarət funksiyalarının gücləndirilməsi dövlətin ali audit strukturuna maliyyə və prosessual yanlış hesablamaların aşkar edilməsində nəinki sistemli yanaşma tətbiq etməyə, həm də onların nəticələrinin aradan qaldırılması üçün təsirli tədbirlər görməyə imkan verir. Belə ki, son illər həyata keçirilən nəzarət tədbirləri nəticəsində dövlət büdcəsinə qaytarılan vəsaitlərin həcmi xeyli artıb [4,89].

Dövlət vəsaitləri üzərində ictimai nəzarət mexanizmlərinin səmərəliliyi həm də hesabatlılığın və şəffaflığın təmin edilməsi ilə sıx bağlıdır. Üçüncü dövlət maliyyə nəzarəti orqanı olan Hesablama Palatasının bu istiqamətdə atdığı addımlar, xüsusən də nəzarət tədbirləri ilə bağlı məlumatların açıqlanması, tərtib edilmiş nəticə və hesabatlar, vətəndaşlar, QHT-lər və dövlət qurumları tərəfindən göndərilən sorğulara cavablar media, rüblük bülletenlərin nəşri, beynəlxalq standartların nəzərə alınması baxımından son dərəcə əhəmiyyətlidir.

Maliyyə nəzarətinin əsas istiqamətlərindən biri kimi valyuta nəzarətinə xüsusi diqqət yetirilməlidir. Valyuta nəzarəti orqanları valyutanın kölgə dövriyyəsinin aradan qaldırılması, xarici valyutanın ölkədən qeyri-qanuni çıxarılmasının qarşısının alınması və dövlətin valyuta ehtiyatlarından səmərəli istifadə edilməsi üçün təsirli tədbirlər görməlidir.

Ölkədə müstəqil audit xidmətini inkişaf etdirmədən, fəaliyyəti təkmilləşdirmədən maliyyə nəzarətini dövrün tələblərinə uyğun qurmaq mümkün deyil. Bu sahənin inkişafı öz növbəsində yüksək ixtisaslı audit kadrlarının hazırlanmasını, auditor xidmətlərinə tələbatın artırılması üçün lazımi şəraitin yaradılmasını tələb edir. Maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi statistika və mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması ilə paralel aparılmalıdır.

Maliyyə nəzarətinin səmərəliliyini təmin etmək üçün bu sahədə çalışan kadrların sosial problemlərinə də diqqət yetirilməlidir. Fəaliyyətə əsaslanan mükafatlandırma sistemindən istifadə maliyyə nəzarətinin effektivliyini təmin edə bilər.

Nəzarət orqanlarının fəaliyyətinin elektronlaşdırılmasına, bu sahədə müasir telekommunikasiya sistemlərinin və informasiya texnologiyalarının geniş tətbiqinə xüsusi diqqət yetirilməlidir.

Dövlət nəzarəti sistemində islahatların uğurla davam etdirilməsi bu sahədə aparılan işlərin iqtisadi islahatların gedişi və dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi vəzifələri ilə uzlaşdırılmasını tələb edir.

İqtisadi islahatların hazırkı mərhələsində əsas vəzifə kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçidi təmin etməkdən ibarət olmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün geniş imkanlar, getdikcə daha çox yeni perspektivlər açır. Azərbaycanın hazırkı inkişafı, şübhəsiz ki, ortamüddətli perspektivdə onun yüksək həyat səviyyəsinə və güclü iqtisadiyyata malik ölkələr sırasına daxil olmasına imkan verəcək [4,35].

**Nəticə**

Azərbaycan Respublikasının iqtisadiyyatının strukturunu təkmilləşdirmək, onun dinamikliyini və çevikliyini təmin etmək üçün ilk növbədə sənaye sahələrində struktur dəyişiklikləri aparılmalıdır.

Bazar iqtisadiyyatı şəraitində qarşıdakı konkret dövrdə iqtisadiyyatın şaxələndirilməsi, makroiqtisadi sabitliyin qorunması, iqtisadi, o cümlədən institusional islahatların davam

etdirilməsi, strateji layihələrin həyata keçirilməsi, qeyri-neft sektorunun və sahibkarlığın dəstəklənməsi, sənaye potensialının daha da gücləndirilməsi, ixracın və idxalın əvəzlənməsi, aqrar-sənaye kompleksinin və regionların inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, meliorasiya və irriqasiya sahəsində tədbirlərin görülməsi, inflyasiyanın, işsizlik və yoxsulluğun minimum səviyyədə saxlanılması, infrastruktur layihələrinin həyata keçirilməsi hökumətin prioritet istiqamətləri kimi nəzərdə tutulur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Allahverdiyev X.B. dosent Qafarov K. dosent Əhmədov A.M. "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi". Bakı, 2012
2. "Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi". V.İ.D. prof. V. I. Kushlinintsmumi tərəfindən qızılla düzəliş, 2005
3. Pisareva M.P. "Dünya iqtisadiyyatı və onun strukturu". Dünya iqtisadiyyatı: mühazirə qeydləri
4. Rıbalkin V E. Shcherbinin Y..A. Beynəlxalq iqtisadi əlaqələr. 6-cı nəşr. M.: UNİTİ, 2006.-S. 47.

**Афиеддин Хамид оглы ХАМИДОВ, к. э. н., доцент**

**Хабиба Сабид кызы МУСТАФАЕВА**
Азербайджанский Технологический Университет

# ВОПРОСЫ РЕАЛИЗАЦИИ И СОВЕРШЕНСТВОВАНИЯ СТРУКТУРНОЙ ПОЛИТИКИ ГОСУДАРСТВА В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

## Резюме

В условиях перехода к рыночным отношениям рациональное использование потенциала природных ресурсов, способствующее повышению благосостояния населения и удовлетворению его потребностей, в большей степени зависит от выработанной экономической политики, направленной на оптимизацию структурных преобразований на основе его собственные возможности.

На современном этапе развития республики значительно возрастает необходимость и важность разработки новых принципов формирования и реализации экономической политики, обеспечивающей структурную сбалансированность экономического развития.

**Ключевые слова:** рыночная экономика, структурная политика, структурная политика государства, вопросы реализации, совершенствование.

**Afiyyeddin Hamid oglu HAMİDOV, ph.d., Associate Professor**

**Khabiba Sabid gizi MUSTAFAYEVA**
Azerbaijan Technological University

## ISSUES OF IMPLEMENTATION AND IMPROVEMENT OF THE STRUCTURAL POLICY OF THE STATE IN A MARKET ECONOMY

**Summary**

In the conditions of transition to market relations, the rational use of the potential of natural resources, which contributes to the improvement of the population's well-being and satisfaction of its needs, depends more on the developed economic policy aimed at optimizing structural transformations based on its own capabilities.

At the current stage of development of the republic, the necessity and importance of developing new principles for the formulation and implementation of the economic policy, which ensures the structural balance of economic development, is increasing significantly.

**Keywords:** market economy, structural policy, structural policy of the state, issues of implementation, improvement

**Fazil Cəmil oğlu KƏRİMOV, i.f.d., dos.**

**Aidə Xeyrəddin qızı MƏMMƏDOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Anarə Anar qızı QÜRBƏTZADƏ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Əfsanə Vaqif qızı HƏSƏNOVA**
Azərbaycan Texnologiya Universitetinin əməkdaşı
E-mail: leqendav81@mail.ru

# DAXİLİ İSTEHLAK BAZARINDA NƏZARƏT MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Bazar münasibətlərinə keçidlə əlaqədar ölkə iqtisadiyyatının liberallaşdırılması və struktur cəhətdən yenidən qurulması mərhələsində daxili bazarın formalaşması və inkişafı, gömrük siyasəti ilə bağlı problemlərin həll edilməsi mexanizmi sahəsində bir çox eyni və mürəkkəb problemlərin tədqiq edilib öyrənilməsi onlara həm tamamilə yeni nəzəri-metodoloji aspektlərdən və həm də müasir beynəlxalq standartlara uyğunlaşmaqda olan gömrük sisteminin qanun-qaydaları və tələbləri baxımından yanaşılmasını tələb edir. Yerli əmtəə istehsalçılarının müdafiəsi iki aspektdə çıxış edir:bir tərəfdən, iqtisadiyyatın struktur cəhətdən yenidən qurulmasına dəstək, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi və milli ixracın inkişafı üçün şəraitin yaradılması;digər tərəfdən milli əmtəə istehsalçılarının daxili bazarda xarici firmaların ədalətsiz rəqabətindən qorunması.

**Açar sözlər:** daxili bazar, istehlak, istehsal, əmək məhsulu, xarici ticarət.

## Giriş

Bazar istehsalla istehlakın toqquşduğu məkandır. Qısaca qeyd etsək, bazar alıcı ilə satıcının iqtisadi münasibətlərini əhatə edən görüş sferasını təmin edir.

Məlumdur ki, insanlar yaşamaq, cəmiyyətdə mövqe tutmaq, inkişaf etmək üçün gündəlik olaraq müəyyən həcmdə müxtəlif əmtəə və xidmətlərdən istifadə etməlidir. Belə ki, cəmiyyətdə insanlar tərəfindən bu nemətlərin, xidmətlərin istehlakı daimi və fasiləsiz şəkildə vüsət aldığı kimi bunların yaradılması və istehsalı da daimi şəkildə təmin olunmalıdır. Tələbatların sonsuzluğu, iqtisadi ehtiyatların məhdudluğu şəraitində cəmiyyətə lazım olan bütün növ əmtəə və xidmətlərin istehsalının fasiləsiz şəkildə davam etməsi və bərpası təkrar istehsal adlanır.

Bu nöqteyi nəzərdən qeyd edə bilərik ki, bazar - ictimai təkrar istehsal prosesində iqtisadi, eyni zamanda əmtəə-pul münasibətlərinin təzahür etdiyi mürəkkəb bir mexanizm1-dir, sosial iqtisadi kateqoriyadır.

Bazar əmək məhsulunun əmtəəyə çevrildiyi, ona görə də bu məhsulun başqasına satılmaqla verildiyi bir yerdir. Bazar təkrar istehsalın müəyyən mərhələsini ifadə edir, bunsuz ictimai təkrar istehsal mümkün ola bilməz. Bazar, həm də əmtəənin tədavüldə olduğu bir sahədir, buradan kənarlaşan məhsul tədavüldən də kənarlaşmış olur, öz əmtəəliliyini itirir. Burada əmtəə-pul münasibətləri vasitəsilə əmtəələrin alqı – satqı prosesi, yəni əmək məhsullarının mübadiləsi baş verir. Bazar ictimai əmək bölgüsünün öz mahiyyətini, həm də bu iki anlayışın bir-biri ilə ayrılmaz əlaqədə olduğunu təzahür etdirdiyi bir məkandır.

İctimai əmək bölgüsü isə, özünü tələb və təklif vasitəsilə təzahür etdirərək, eyni zamanda cəmiyyətdəki sosial cəhətdən olan bölgünü də əks etdirir. Buradan aydın olur ki, tələb və təklif müxtəlif aspektli sosial bölgülərin (əhali qrupları, ixtisaslar, əhali peşə qrupları və s.) olmasını nəzərdə tutur. Bu sosial qruplar cəmiyyətin ümumi gəlirini (öz sosial vəziyyətinə, ictimai istehsaldakı iştirakına və s. uyğun olaraq) öz aralarında bölüşdürür (bu isə maliyyə

münasibətlərini əmələ gətirir), öz istehlakı üçün sərf edirlər; istehlakçıların gəlirinə uyğun olaraq ödənilən bu tələbat hissəsi tələb əmələ gətirir ki, bu da bazarı, tələbin formalaşdığı, onun tələbatdan fərqli bir kateqoriya şəkli aldığı, onun təzahür forması olan bir sahə kimi qiymətləndirməyə əsas verir. Burada, eyni zamanda, yeni yaranmış və bazara daxil olmuş əmtəə, yeni tələbat və tələb də formalaşır.

Bazar münasibətlərinə keçidlə əlaqədar ölkə iqtisadiyyatının liberallaşdırılması və struktur cəhətdən yenidən qurulması mərhələsində daxili bazarın formalaşması və inkişafı, gömrük siyasəti ilə bağlı problemlərin həll edilməsi mexanizmi sahəsində bir çox eyni və mürəkkəb problemlərin tədqiq edilib öyrənilməsi onlara həm tamamilə yeni nəzəri metodoloji aspektlərdən və həm də, ona müasir beynəlxalq standartlara uyğunlaşmaqda olan gömrük sisteminin qanun-qaydaları və tələbləri baxımından yanaşılmasını tələb edir.

Yerli əmtəə istehsalçılarının müdafiəsi iki aspektdə çıxış edir: bir tərəfdən, iqtisadiyyatın struktur cəhətdən yenidən qurulmasına dəstək və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi və milli ixracın inkişafı üçün şəraitin yaradılması; digər tərəfdən milli əmtəə istehsalçılarının daxili bazarda xarici firmaların ədalətsiz rəqabətindən qorunması.

Azərbaycan Respublikası milli əmtəə istehsalçılarının müdafiəsi üzrə tədbirlərin tətbiqinin məhdud təcrübəsinə malikdir, Ümumdünya Ticarət Təşkilatının (ÜTT) normalarına uyğun proteksionist tədbirlərin tətbiqi imkanları, mexanizm və xüsusiyyətləri üzrə tədqiqat və işləmələrdə çatışmazlıqlar hiss olunur.

Azərbaycanın yerli əmtəə istehsalçılarına dövlət yardımı sisteminin təkmilləşdirilməsi bazar mexanizmlərinin formalaşması şəraitində baş verir. Bu, daxili bazarın formalaşması və gömrük sisteminin dövlət tənzimlənməsi prosesinin dinamikasını izləməyə, əsas meyillərini və problemlərini aşkara çıxarmağa, seçilmiş istiqamətlərinə dair tövsiyyələr işləyib hazırlamağa və dəyişikliklər etməyə, habelə gömrük siyasətinin əsas istiqamətlərini müəyyənləşdirməyə imkan verir.

Ən qısa zaman kəsiyində Azərbaycanın gömrük xidmətinin qabaqcıl ölkələrin gömrük sisteminin səviyyəsinə çatdırılması tələb olunur. Bunun üçün gömrük işinin təşkili və aparılması üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla mövcud vəziyyətin dərin elmi təhlili vacibdir. Məhz, bütün bunlar ölkədə daxili bazarın formalaşmasında gömrük sistemi qarşısında duran problemlərin aradan qaldırılmasına, respublikada çevik və işlək gömrük siyasətinin reallaşdırılmasına imkan yaradar. Ona görə də, belə hesab edirik ki, Azərbaycanın daxili bazarının formalaşması və inkişafı problemlərinin tədqiqi, eləcə də gömrük siyasətinin təkmilləşdirilməsi istiqamətinə dair müvafiq təklif və tövsiyələrin işlənib hazırlanması xüsusilə aktuallıq kəsb edir və mühüm elmi-nəzəri və təcrübəvi əhəmiyyətə malikdir.

Bazar münasibətləri şəraitində daxili bazarın formalaşmasının nəzəri-metodoloji əsaslarını, Azərbaycanda onun inkişaf meyillərini və xüsusiyyətlərini, habelə xarici ölkələrin təcrübəsini, eləcə də Azərbaycanın gömrük sistemində mövcud hüquqi və təşkilati-iqtisadi münasibətləri dərindən öyrənib ümumiləşdirmək əsasında gömrük siyasətinin daxili bazarın formalaşması və inkişafına təsirinin gücləndirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlamaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

- bazar münasibətləri şəraitində gömrük siyasətinin mahiyyətinin və məzmununun yeni nəzəri-metodoloji aspektlərdən öyrənilib aşkara çıxarılması;
- liberallaşma və proteksionizmin əsas xüsusiyyətlərinin, qarşılıqlı əlaqə və ziddiyyətlərinin tədqiqi;
- iqtisadi islahatların müxtəlif inkişaf mərhələlərində dövlətin gömrük siyasətinin formalaşması xüsusiyyətlərinin öyrənilib aşkara çıxarılması və onların elmi cəhətdən əsaslandırılması;
- bazar münasibətləri şəraitində daxili bazarın formalaşmasında ölkənin xarici ticarət-iqtisadi əlaqələrinin rolu və yerinin öyrənilib aşkara çıxarılması;
- Azərbaycanda xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsinin müasir vəziyyəti və ona təsir edən amillərin təhlili və qiymətləndirilməsi;
- ölkənin daxili bazarının formalaşmasında gömrük siyasətindən istifadə mexanizminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanması;

- gömrük islahatları şəraitində xarici iqtisadi fəaliyyət üzrə alternativ inkişaf proqramları arasında ən optimalının əsaslandırılaraq seçilməsi;

- beynəlxalq standartlara uyğun gömrük siyasətinin aparılması məqsədilə gömrük xidməti üzrə avtomatlaşdırılmış idarəetmə sisteminin inkişaf istiqamətlərinin və proqnozlaşdırılması modelinin işlənməsi.

Formalizasiya dövrünü keçən milli iqtisadiyyatda aparılan iqtisadi, hüquqi islahatlar, mülkiyyətin özəlləşdirilməsi və azad sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi istehlak bazarındakı mövcud vəziyyətə də öz təsirini göstərmişdir. Odur ki, milli iqtisadiyyatda (daxili bazarda) qiymətlər tələblə təklifin təsiri altında formalaşmaqla, azad rəqabət mühiti geniş vüsət almışdır. Məlumdur ki, mövcud istehlak bazarında tarazlığın təmin edilməsi və qiymətlərin səviyyəsinin sabitləşdirilməsi üçün əmtəə təklifinin həcminin artırılması və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi labüddür. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan iqtisadi islahatlar kursu, keçid dövrünü yaşayan respublikamızda qısa müddət ərzində yerli iqtisadiyyatın dirçəlməsinə, iqtisadi böhranın qismən dayandırılmasına, böhranın mənfi nəticələrinin aradan qaldırımasına və makroiqtisadi sabitliyin təmin edilməsinə əlverişli şərait yaratmışdır.

Məhz bütün bunların nəticəsidir ki, 1995-ci illə müqayisədə 2015-ci ildə ölkədə ümumi daxili məhsul istehsalı 27 dəfə, adambaşına məhsul istehsalı 20 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı dəyər ifadəsində 6 dəfə, satışın bütün kanallarında pərakəndə əmtəə dövriyyəsi 14 dəfə artmışdır. Təbii ki, makroiqtisadi göstəricilərin səviyyəsinin yüksəlməsi əhalinin yaşayış səviyyəsinin, rifah halının də yüksəlməsinə təsirini göstərmişdir. Belə ki, müqayisə olunan dövrdə əhalinin gəlirləri 18,2 dəfə artaraq 39360,7 milyon manata, əhalinin xərcləri isə 11,9 dəfə artaraq 31267,8 milyon manata, iqtisadiyyatda məşğul olan işçilərin orta aylıq əmək haqqı 26 dəfə artaraq 444,45 manata çatmışdır.

Bazarın digər növ müxtəliflikləri ilə yanaşı, istehlak bazarı da özünə məxsus xüsusiyyətlərə malikdir. İqtisadiyyatda istehlak malları bazarının vacibliyini, aktuallığını izah edərkən ilk növbədə, onun sosial-iqtisadi mahiyyətini, funksional təyinatını və təsnifat əlamətlərini araşdırmaq son dərəcə mühüm əhəmiyyət kəsb edir. İqtisadi ədəbiyyatlarda əmtəə-xidmətlər bazarı kimi də adlandırılan istehlak bazarında əhaliyə gündəlik tələbat məhsulları təklif edilir. Daha sonra bu tələb ödənilərək, reallaşdırılaraq istehlakçının (yaxud alıcının) mülkiyyətinə keçir. Alqısatqı prosesində vacib əhəmiyyətə malik gündəlik tələbat məhsullarının satışı istehsalçıları da stimullaşdırır. Bu isə nəticə olaraq konkret növ əmtəə-xidmətlərin istehsalının artımına və bu istehsalın optimallaşdırılmasına gətirib çıxarır. Təbii ki, istehlak bazarında alıcılar tərəfindən alınmayan məhsullar da az deyil. Belə olan halda onların istehsalı müəyyən zaman kəsiyində azalır, yaxud dayanır. İstənilən halda bu və ya digər gündəlik tələbat məhsulu istehsal edərək (təklifin bərpası) istehlakçıların tələbatlarını ödəmək bazarın əsas qanunauyğunluqlarındandır və bu da biznes strukturlarının gəlir əldə etməsinə əlverişli şərait yaradır.

İstehlak bazarı – bazar təsərrüfatı sisteminin son dərəcə vacib həlqələrindən hesab olunur və o, cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinin indikatoru fonunda tələbatların səmərəli, effektiv şəkildə ödənilməsinə istiqamətlənmiş mal və xidmət müraciətinin məkan, ərazi formasıdır. Bazar münasibətlərinin formalaşması üçün istehlak bazarına xüsusi əhəmiyyət vermək lazımdır. İstehlak bazarı bir - biri ilə qarşılıqlı əlaqədə olan elementləri əhatə etməklə, mürəkkəb kompleks bir sistemdir. Onun fəaliyyətinin genişlənməsi, hər şeydən əvvəl, qiymətqoyma sisteminin yenidən qurulması, məhsul dövriyyəsinin tənzimlənməsi və bazar strukturlarının formalaşması ilə xarakterizə olunur. İstehlak bazarı - qeyri-kommersiya xarakterli şəxsi istehlak üçün satın alınan əmtəə və xidmətlərin tədavülü sferasında yaranan iqtisadi münasibətlərin məcmusu hesab olunur. İstehlak bazarının tərkibində ərzaq malları bazarı və qeyri-ərzaq malları bazarı fərqləndirilir. İstehlak bazarı müəyyən iqtisadi münasibətlərin təzahür sferasıdır. Bu münasibətlər əsasən istehlak olunan əmtəə və xidmətlərin bölgüsü və yenidən bölgüsünü, eləcə də onun əhalinin pul gəlirlərinə mübadilə olunması vasitəsi ilə həyata keçirilməsini özündə təcəssüm etdirir. İstehlak bazarı, həmçinin istehsalçı və istehlakçı arasında, eləcə də

əmtəənin (xidmətin) qiyməti və faydalılığı arasında yaranan münasibətlərin təzahür formasıdır. Burada söhbət, ilk növbədə bazar subyektlərinin iqtisadi mənafelərinin ziddiyyətli xarakterindən gedir. Bu ziddiyyət alqı-satqı prosesində həll olunur və ona görə də, bazar istehsal sferası ilə istehlak sferası arasında mənafe uyğunluğunu təmin edən alət, vasitə kimi çıxış edir. İstehlak malları bazarı bir tərəfdən istehsalla bölgü, digər tərəfdən şəxsi istehlak arasında əlaqələndirici vasitə rolunu oynayır.

İstehlak bazarının tədqiq olunması üçün öncə istehlakçının özünün tələbini, onun psixologiyasını, hazırkı şəraitdə hansı əmtəə və xidmətlərə üstünlük verdiyini, məhsulların seçilməsi zamanı hansı sosial-psixoloji və iqtisadi amillərə əsaslandığını dəqiqləşdirmək labüddür. Burada əsas məsələ istehlakçının seçimi nəzəriyyəsidir. İstehlakçı seçimi nəzəriyyəsi özünü istehlakçı davranışında göstərir. İstehlakçı davranışı – əmtəə və xidmətlərin alınması, istifadəsi (istehlakı) və onlardan “qurtulma” zamanı istehlakçıların yol verdiyi hərəkətlərin məcmusudur, özünü necə aparmasıdır.

İstehlak bazarı bir qayda olaraq iqtisadi, sosial, demoqrafik, təşkilati və hüquqi aspektləri özündə əks etdirir. İstehlak bazarının iqtisadi aspektləri daha çox dövlətin iqtisadi siyasətindən bilavasitə asılı olmaqla, istehsalın və təklifin səviyyəsinə təsir edən amilləri özündə birləşdirir. Bu zaman xarici iqtisadi əlaqələrin xarakteri, eləcə də, dövlətin tənzimləmə vasitələrinin spesifik xüsusiyyətləri də istehlak bazarına həlledici təsir göstərir. Burada iqtsadi siyasətin əsas prioritet istiqamətləri, istehsalın həcmi və quruluşu, ETT-in səviyyəsi, əhalinin gəlirləri, xərcləri, qiymətlərin ümumi səviyyəsi və s. əks olunur. İstehlak bazarının sosial aspektləri əhalinin alıcılıq qabiliyyətindən bilavasitə asılı olur. Burada cəmiyyətin sosial quruluşu, əhalinin həyat səviyyəsi, mədəniyyət səviyyəsi və digər milli xüsusiyyətlər xarakterizə olunur. İstehlak bazarının təşkilati aspektləri bazar infrastrukturlarının formalaşması və inkişafı ilə sıx bağlıdır. Bazar infrastrukturlarının inkişafı istər istehsalçıların və istərsə də istehlakçıların maraqlarının reallaşdırılmasında əhəmiyyətli və son dərəcə vacib rol oynayır. Bazar infrastrukturu-bazarın normal fəaliyyətini təmin edən fəaliyyət növləridir. Hüquqi aspektlər, adından da göründüyü kimi, istehlak bazarının tənzimlənməsinin qanunvericilik təminatını özündə əks etdirir və iqtisadiyyatın hüquqi tənzimlənməsi proseduraları ilə reqlamentləşdirilir.

Keçid iqtisadiyyatını keçən ölkələrin təcrübəsi sübut edir ki, istehlak bazarının normal, səmərəli fəaliyyətini pozan ən mühüm aspektlərdən biri də inzibati və bürokratik maneələrin mövcud olmasıdır. Bu əngəllər mahiyyət etibarilə bazarın özünü tənzimləmə mexanizminə mənfi təsir göstərir. Eyni zamanda, kölgəli iqtisadiyyatın inkişafına da rəvac verir. Bütün bunlar son nəticədə dövlət büdcəsinə vergidən yayınmağa gətirib çıxarmaqla «çirkli pullar» probleminin aktuallaşmasını şərtləndirir. Bu, xüsusilə, istehlak məhsullarının mübadiləsi seqmentində özünü daha çox birüzə verir. Vurğulamaq istərdim ki, iqtisadiyyatda şəffaflığın təmin edilməsi və statistik uçotun düzgün qaydada həyata keçirilməsi bu problemin həllində önəmli vasitə, üsul hesab olunur. Təəssüflə qeyd etmək lazımdır ki, bir çox hallarda yeni yaradılmış sahibkarlıq subyektlərinin iqtisadi maarifləndirmə səviyyəsinin aşağı olması bu prosesə dolayı yolla da olsa mənfi təsir göstərir.

İstehlak bazarının formalaşması və inkişafı ölkənin beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının ən mühüm təzahürü kimi çıxış edir. Bütövlükdə götürdükdə, hər hansı ölkədə istehlak bazarının formalaşması, azad rəqabət mühitinin inkişafı prosesi bazar təsərrüfatçılıq sisteminin təşəkkülünün ayrılmaz tərkib hissəsi olmaqla istər makro, istərsə də mikro iqtisadiyyatda baş verən transformasiya yönümlü dəyişikliklərdən asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehlak bazarında tarazlığın təmin edilməsi və qiymətlərin səviyyəsinin sabitləşdirilməsi ölkənin milli ərzaq təhlükəsizliyinin qorunmasının ən mühüm ilkin şərti kimi çıxış edir. Qeyd etmək lazımdır ki, istehlak bazarı bazarın mühüm tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda, özünəməxsus spesifik xüsusiyyətlərə də malikdir. Belə ki, istehlak bazarında bilavasitə əhalinin gündəlik tələbat məhsulları reallaşdırılır. Bu məhsullara isə xüsusilə ərzaq və yeyinti malları şamil edilir.

Real həqiqətdir ki, kənd təsərrüfatı əhalinin istehlak tələbatının təxminən ¾ hissəsinin

ödənilməsində mühüm rol oynayır. Odur ki, istehlak bazarında sabitliyin təmin edilməsi milli ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün əhəmiyyətli rola malikdir.

İstehlak bazarı əmtəə-pul münasibətlərinin mühüm tərkib hissəsi olan mübadilə sferasının reallaşdırılmasında əhəmiyyətli xüsusi çəkiyə malikdir. Məhz mübadilə sferası vasitəsilə respublikanın ərzaq kompleksinin təməl sahələrinin (kənd təsərrüfatı və emal sənayesi) və digər həlqələrinin istehsal vasitələri və əmək vasitələri (xammal, materiallar, avadanlıq, yanacaq və s.) qismində aralıq məhsullarına, ölkənin bir başa son hazır istehlak mallarına, bu kompleksə daxil olmayan istehsal sahələrinin xammala olan ehtiyacları ödənilir. İstehlak bazarı mübadilə sferası olmaqla yanaşı, əslində yeni istehsal münasibətləri şəraitində istehlak məhsullarının geniş təkrar istehsalı prosesinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Başqa sözlə, istehlak bazarına yalnız birmənalı olaraq istehlak məhsullarının reallaşdırıldığı mübadilə sferası kimi yanaşılması olsa-olsa, məsələnin bir tərəfini xarakterizə edir. Daha doğrusu, yeni istehsal münasibətləri şəraitində mübadilə və reallaşdırma prosesləri istehlak bazarının yalnız görünən tərəfləri kimi xarakterizə olunmalıdır.

İstehlak bazarının ən mühüm göstəricisi əmtəə dövriyyəsi hesab edilir. Əmtəə-pul münasibətlərinin inkişaf etdiyi şəraitdə əmtəə tədavülü prosesi əmtəə dövriyyəsinin həcminin artırılması ilə bilavasitə bağlıdır. Əmtəə dövriyyəsinin bir qayda olaraq üç forması fərqləndirilir ki, bunlar da aşağıdakılardır:

Pərakəndə əmtəə dövriyyəsi - əmtəələrin tədavül sferasından şəxsi istehlak sferasına hərəkətinin son mərhələsini, əmtəələrin əhaliyə satışını əks etdirir.

İaşə əmtəə dövriyyəsi - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarım fabrikatlar, həmçinin aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

Topdansatış əmtəə dövriyyəsi - əmtəələrin böyük həcmlə, sonradan əhaliyə satmaq məqsədi ilə (emal edilmədən) bir müəssisədən digərinə satışını əks etdirir.

Topdansatış əmtəə dövriyyəsi istehsal vasitələri, kənd təsərrüfatı məhsulları və xalq istehlak mallarının topdansatış qiymətlərlə istehlak bazarında ümumi həcmini özündə əks etdirir. Əgər topdansatış əmtəə dövriyyəsi tədavül prosesinin başlanğıc mərhələsi hesab edilirsə, pərakəndə əmtəə dövriyyəsi tədavül prosesinin sonuncu mərhələsini özündə ehtiva edir.

Pərakəndə əmtəə dövriyyəsinin həyata keçirilməsi ilə istehlak bazarında istehlak mallarının tədavül prosesi başa çatır və əmtəələr tədavül xərclərindən şəxsi istehlak dairəsinə keçir. Pərakəndə əmtəə dövriyyəsi nəticəsində istehlak məhsullarının bilavasitə istehlakçılara çatdırılması baş verir.

Araşdırmalar bunu deməyə əsas verir ki, əmtəə dövriyyəsinin pərakəndə formada təşkili istehlak bazarının vacib, labüd göstəricisidir. Lakin onu birmənalı olaraq əhalinin şəxsi istehlakı ilə eyniləşdirmək real (düzgün) deyil. Məlumdur ki, pərakəndə əmtəə dövriyyəsinin şəxsi istehlakın ümumi həcmində payı təxminən 83-85 faizdir. Əmtəə və xidmətlər bazarında pərakəndə əmtəə dövriyyəsinin əmtəə satışı formaları aşağıdakılardır:

1. Pərakəndə ticarət şəbəkələri vasitəsilə əhaliyə istehlak məhsullarının satışı;
2. İctimai iaşə (ticarət) şəbəkələri vasitəsilə əhaliyə istehlak məhsullarının satışı;
3. Anbarlardan, tədarük məntəqələrindən bilavasitə şəxsi istehlak üçün əhaliyə istehlak məhsullarının satışı;
4. Dərman məhsullarının satışı;
5. Geyim əşyalarının satışı.

Əmtəə və xidmətlər bazarı istehlak mallarının əldə edilməsinə və xidmətlərə görə fərqlənirlər. Bununla belə, bütün tədqiqat boyu istehlak bazarı əlamətlərinə görə, bazar münasibətləri sistemində onun məzmunu, yeri və rolu, təkrar istehsal prosesində satıcı və alıcının mövqeyi baxımından nəzərdən keçiriləcək. Bu cür yanaşma düşünürük ki, istehlak bazarının hərtərəfli nəzərdən keçirilməsini təmin etməlidir.

Bazar iqtisadiyyatına keçid dövründə istehlak bazarlarının inkişafında, xüsusən məhsulun keyfiyyətinin yüksəldilməsində dövlət və nəzarət orqanlarının rolu artır. Dövlət və ictimai nəzarət orqanları arasında Dövlət ticarət nəzarət müfəttişliyi, həmçinin istehlakçıların hüquqlarını müdafiə edən ictimai orqanlar mühüm rol oynaya bilərlər.

Ölkənin istehlak bazarının formalaşmasında daxili amillərlə yanaşı xarici amillərin rolu da böyükdür.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra, bu müstəqilliyi yaşatmaq və daha da möhkəmləndirmək gücünə malik olan bütöv iqtisadi sistemin, müstəqil milli iqtisadiyyatın yaradılması zərurəti ilə üzləşmişdir. Dünya təcrübəsi göstərir ki, müasir dövrdə xarici iqtisadi əlaqələrə malik olmadan heç bir dövlət inkişaf edə bilməz. İndi hər bir ölkənin iqtisadi inkişafı dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin edilməsindən asılıdır. Bu, onunla izah edilir ki, dünyada baş verən köklü keyfiyyət dəyişiklikləri beynəlxalq iqtisadi münasibətlərdə inteqrasiya prosesini obyektiv zərurətə çevirmişdir.

Bazar iqtisadi sistemində istehlak bazarı mərkəzi yer tutur, çünki bazar sistemində tarazlığın pozulması daha çox istehlak bazarına mənfi təsir göstərir. Bu universal keyfiyyətinə görə o, ictimai istehlakın real hissəsini əks etdirən xüsusiyyətlərə malikdir. İstehlak bazarı bazarlar sistemində ilk və tamamlayıcı halqadır, bu onun başlıca xüsusiyyətidir.

Bazar münasibətlərinin formalaşmasının ilkin mərhələsində istehlak bazarına və istehsal vasitələri bazarına, eləcə də bazar infrastrukturlarının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilməsi vacibdir. Təhlil göstərir ki, dərinləşən qloballaşma şəraitində istehlak bazarının inkişafı bir-biri ilə sıx qarşılıqlı əlaqəyə və təsirə malik olan elementlərin məcmusunu özündə əks etdirməklə, kompleks sistem kimi fəaliyyət göstərir. Bazarın ən mühüm mexanizmini təşkil edən tələb və təklif, iqtisadiyyatda tənzimləyici funksiyalar yerinə yetirir ki, bu da son nəticədə istehsalın iqtisadi səmərəliliyinə öz təsirini göstərir. Xüsusilə istehlak bazarının funksiyalarının genişlənməsi, son nəticədə gündəlik tələbat məhsulları üzrə əmtəə dövriyyəsinin həcminin artmasını şərtləndirir. Bu baxımdan istehlak bazarı iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatı və emal sənayesində geniş təkrar istehsalın ayrılmaz tərkib hissəsi kimi çıxış edir və bu sferada iqtisadi münasibətləri tənzimləyir.

İdxal ölkənin daxili bazarının formalaşmasında mühüm əhəmiyyət kəsb edir. İdxal sahəsindəki siyasət daxili iqtisadi siyasət ilə sıx əlaqədardır və ölkənin inkişafının ümumi strategiyasını əks etdirir. Təhlil göstərir ki, Azərbaycan Respublikasının idxal strukturunda qida və istehlak mallarının xüsusi çəkisi daha böyükdür. İdxalın strukturunun təkmilləşdirilməsi üçün ölkənin ümumi iqtisadi durumunun yaxşılaşdırılması, eləcə də daxili istehsal və istehlak strukturunun inkişafı üzrə tədbirlərin həyata keçirilməsi son dərəcə vacibdir.

İstehlak malları bazarında müvazinətin təmin olunmasında istehlakçıların alıcılıq qabiliyyətinin də əhəmiyyətli rolu var. Belə yanaşma onların gəlirləri ilə bağlıdır. Vurğulamaq lazımdır ki, daxili istehsal potensialının gücündən tam, effektli, səmərəli istifadə olunması xüsusi əhəmiyyətə malikdir. Bu bir yandan istehlak bazarında təklifin çoxalması, digər prizmadan isə yerli istehlakçıların gəlirlərinin yüksəlməsi ilə bağlıdır. Nəzərdən qaçırmaq olmaz ki, bir çox hallarda daxili istehsalın artırılması yeni kapital qoyuluşları əsasında istehsalın restrukturizasiyasını, mövcud istehsal müəssisələrinin texniki-texnoloji cəhətdən müasirləşdirilməsini, yeni istehsal müəssisələrinin yaradılmasını tələb edir ki, bunu da əksər hallarda daxili imkanlar hesabına realizasiya etmək mümkün olmur. Bazar iqtisadi sistemində bu problemi beynəlxalq iqtisadi əlaqələrin köməyi ilə həll etmək mümkün hesab olunur.

Cəmiyyətin iqtisadi, sosial cəhətdən inkişafında bazarın rolu, əhəmiyyəti danılmazdır. Bazarın iqtisadiyyatda, bütövlükdə cəmiyyətdə yerinin və rolunun daha da dərinləşməsi, bizə onu deməyə əsas verir ki, onun inkişafının nəzəri əsasları daha geniş formada və obyektiv amillərlə müəyyənləşir.

Müasir mərhələdə Azərbaycan ixracı böyük inkişaf perspektivinə malik deyildir. Buradan da göründüyü kimi, xarici ticarətin liberallaşdırılması, bizim fikrimizcə, milli iqtisadiyyatın müdafiə olunması amili kimi çıxış edir. Odur ki, xarici siyasətdə proteksionist və liberal istiqamətlərin müqayisə edilməsinə ehtiyac vardır. Xüsusilə də bu halda dünya təcrübəsindən faydalanmaq lazımdır. Belə ki, müasir dünyada heç bir ölkə mütləq azad ticarətlə məşğul olmur. . İstənilən dövlət üçün onun qəbul olunmuş xarici ticarət siyasətinin milli modeli işlənib hazırlanmışdır. Təbii ki, Azərbaycanın xarici ticarət siyasəti milli iqtisadiyyatın genişlənməsi və inkişafı, iqtisadi artımın daha da sürətləndirilməsi vasitələrindən biri kimi çıxış etməlidir. Milli iqtisadiyyatın müdafiəsi üçün idxal rüsumları və müdafiənin səmərəli formalarından istifadə etmək lazımdır.

Bundan başqa, ölkənin sənaye siyasəti konsepsiyasına və xarici ticarət siyasəti prinsiplərinə əsaslanmaqla Azərbaycanın ixrac strategiyası konsepsiyasını işləyib hazırlamağı məqsədəuyğun hesab edirik. Azərbaycanın müasir xarici ticarətinin əmtəə strukturunu əhəmiyyətli dərəcədə dəyişmək lazımdır. Prioritet ixrac müəssisələrini ayırmaq lazımdır, oxşar məhsulların idxalına isə yüksək tarif dərəcələri tətbiq olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov A.F. "İqtisadi təhlükəsizliyin əsasları". Bakı, 2000, 185 c.
2. Allahverdiyev H.B. Qafarov K.S. Əhmədov Ə.M. "İqtisadiyyatın dövlət tənzimlənməsi". Bakı, Nasir, 2002, 408 s.
3. Axundov Ş.Ə. Marketinq. Dərslik. İkinci nəşr, I hissə. Bakı, 2003, 592 s.
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Bakı, Qanun, 2003.
5. Azərbaycan Respublikasının Gömrük tarifi haqqında Qanunu, Bakı, Qanun, 2004.
6. Azərbaycan Respublikaı Nazirlər Kabinetinin 2004-cü ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2005, 180 c.
7. AZərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2006, 144 c.

**Фазиль Джамиль оглы КЕРИМОВ, к. э. н., доцент**

**Аида Хейреддин кызы МАММЕДОВА**

**Анара Анар кызы ГУРБЕТЗАДЕ**

**Афсана Вагиф кызы ГАСАНОВА**
Азербайджанский Технологический Университет
E-mail: leqendav81@mail.ru

# НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ МЕХАНИЗМОВ КОНТРОЛЯ НА ВНУТРЕННЕМ ПОТРЕБИТЕЛЬСКОМ РЫНКЕ

**Резюме**

В связи с переходом к рыночным отношениям, в стадии либерализации и структурной перестройки экономики страны, формированием и развитием внутреннего рынка, механизмом решения проблем, связанных с таможенной политикой, изучением многих однотипных и сложных проблем изучались и изучаются, как с совершенно новых теоретических и методологических аспектов, так и к современным международным стандартам требует подхода с точки зрения законов и требований адаптируемой таможенной системы. Защита местных товаропроизводителей имеет два аспекта: с одной стороны, поддержка структурной перестройки экономики и повышение конкурентоспособности продукции и создание условий для развития национального экспорта; с другой стороны, защита национальных товаропроизводителей от недобросовестной конкуренции. иностранных фирм на внутреннем рынке.

**Ключевые слова:** внутренний рынок, потребление, производство, продукт труда, внешняя торговля.

**Fazil Jamil KERIMOV,** Ph.D., Associate Professor

**Aida Kheyraddin MAMMADOVA**

**Anare Anar GURBATZADE**

**Afsana Vagif HASANOVA**

Azerbaijan University of Technology

E-mail legendav81@mail.ru

## DIRECTIONS FOR IMPROVING CONTROL MECHANISMS IN THE INTERNAL CONSUMER MARKET

**Summary**

In connection with the transition to market relations, in the stage of liberalization and structural reconstruction of the country's economy, the formation and development of the internal market, the mechanism of solving problems related to customs policy, and the study of many similar and complex problems were studied and studied, both from completely new theoretical and methodological aspects, and also to modern international standards. requires an approach in terms of the laws and requirements of the customs system being adapted. The protection of local commodity producers has two aspects: on the one hand, supporting the structural restructuring of the economy and improving the competitiveness of products and creating conditions for the development of national exports; on the other hand, protecting national commodity producers from unfair competition of foreign firms in the domestic market.

**Keywords:** domestic market, consumption, production, labor product, foreign trade.

**Minurə Hacı qızı KƏRİMOVA, i.f.d., b.m.**

**Aynur Muraz qızı RZAYEVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Asim Akif oğlu İSGƏNDƏRLİ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Əfsanə Vaqif qızı HƏSƏNOVA**
Azərbaycan Texnologiya Universitetinin əməkdaşı
E-mail: leqendav81@mail.ru

# KOMMERSİYA MÜƏSSİSƏLƏRİNDƏ İNSAN RESURSLARININ İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Müasir dövrdə insan resursları müəssisənin ən vacib ehtiyatı hesab olunur. Yüksək texnologiyalar əsrində cəmiyyətdə sürətli dəyişiklik informasiyaların rolunun yüksəlməsini yaradır. Kommersiya müəssisəsində heyətin idarə olunması bacarığını vacib edir. Bundan kommersiya müəssisəsinin mövcudluğu, eləcə də, bütövlükdə cəmiyyətin müxtəlif xarakteristikası asılıdır. Bütün bunlar seçilmiş mövzunun aktuallığını şərtləndirir. Hər bir müəssisədə oldugu kimi kommersiya müəssisəsinin də idarə edilməsində həlli zəruri olan məsələlər var. Bunlardan biri də müəssisənin heyətinin formalaşdırılması, heyətin idarə olunmasıdır. Kommersiya müəssisəsində kadrların hazırlanması, onların düzgün yerləşdirilməsi, eləcə də idarə olunması əsas məna daşıyır. Bu səbəbdən də müvəffəqiyyətli iş görən firmalar kadr işini uğurlu həyata keçirmiş olan firmadır. Tədqiqatımızın idarəetməsində əsas iş heyətin hazırlığıdır. Heyətin düzgün bölüşdürülməsi müasir idarəetmənin, həm də kadr siyasətinin əsas tərkib hissəsidir. Tədqiqatın həyata keçirilməsində təhlil, sistemli yanaşma metodlarına əsaslanmaq məqsədəuyğundur.

**Açar sözlər:** kommersiya, insan resursları, kadr potensialı, işəgötürən, innovasiya

**UOT: 331**
**JEL: J 00**

## Giriş

Kommersiya – ticarət sahibkarlığının və yaxud biznesin bir novü kimidir. Kommersiya latın mənşəli söz olaraq (commersıum) hərfi mənası da “ticarət” deməkdir. Amma nəzərə də almaq vacibdir ki, “ticarət” anlayışı 2li məna dasıyır: bir tərəfdən iqtisadiyyatı müstəqil sahə olaraq səciyyələndirir, başqa mənada isə məhsulların alqısı və satqısı aktlarının həyata keçirilməsinə yönəldilmiş mübadilə proseslərini özündə ehtiva edir. Kommersıya fəaliyyəti ticarətinin 2-ci mənası mənfəətin azaldılması məqsədilə alqı-satqı aktının həyata keçirilməyinə istiqamətlənmiş ticarət prosesini özündə eks etdirir.

Kommersiya fəaliyətinin bazar iqtisadiyyatı şəraitındə muasir ticarət işinin qanuna-uygunluqlarının və meyillərinin aşkar edilməsini və müəyyənləşdirilməsini başlıca vəzifə kimi qarşıya qoymaqla, məhsul tədavülü sferasında ticarət proseslərinin səmərəli yerinə yetirilməsi üçün bu qanunauyğunluq və tələblərinin ödənilməyi və qazanc əldə olunmağı məqsədilə məhsulların alqı-satqsının həyata keçirilməyinə yönəldilən operatıv-təşkilati fəaliyətinin geniş sferasını əhatə edır. Kommersiya mənfəətin qazanılmasına görə alqı-satqı aktının həyata keçirilməyinə yönəldilən və bununla bərabər dəyərin dəyişən forması ilə əlaqəli olan prosesdir.

Kommersiya fəaliyyəti dedikdə cari və perspektıv dövrdə baş vermiş bütün dəyişiklikləri nəzərə almagla cəmiyyətin tələbatlarının tam olaraq və keyfiyyətli şəkildə, bununla bərabər zamanında təmin olunması və bunların sayəsində mənfəətin əldə olunması məqsədinə catmaq üçün alqı-satgı proseslərinin həyata keçirilməsinə yönəldilən mürəkkəb operativ-təşkilati bir sistem başa düşülür. Kommersiya fəaliyyəti ölkələr üçün çox vacib və mürəkkəb bir sistem olduğuna görə onun təşkili, tənzimlənməyi, tələbin və təkliflərinin, həmçinin qiymətlərin muəyyən olunmağı onun yalnız sahibkarlar tərəfindən deyil, həm də ölkə tənzimlənməsi də mutləqdir. Bazar iqtisadiyyatı şəraitində kommersiya fəaliyətində intensivliyin daha da yüksəldilməyi və onunla bərabər olaraq rəqabət mühitinin gücləndirilməyi respublikada bir çox qayda və qanunlar ilə kommersiya fəaliyyətini tənzimləyir.

Ölkəmizdə kommersiya fəaliyətinin tənzimlənməyi, həmçinin fəaliyyət huquqlarının təsbit olunmağı ilə əlaqəli qanunları mövcuddur və icrasında həmin qanunlara riayət olunmağına nəzarət müvafiq dövlət qurumları tərəfindən yerinə yetirilir. Həmin bu qanunlara "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununu, “Kommersiya sirri haqqında” Azərbaycan Respublikasının Qanununu, Azərbaycanda kommersiya və depozit bankların fəaliyyəti hal-hazırda quvvədə olan 14 iyul 1994–cü il tarixli “Azərbaycan Respublikasında banklar və bank fəaliyyətləri haqqında” Azərbaycan Respublikasının Qanununu göstərmək olar.

“Kommersiya sirri haqqında” Azərbaycan Respublkasının Qanunu: Azərbaycan qanunvericiliyində “kommersiya sirri” anlayısına ilk dəfə 1992- ci ildə müəssisələr və sahibkarlıq fəaliyyəti haqqında qəbul olunmuş qanunda rast gəlinirdi.

Kommersiya sirrinə aid olan informasiyalar aşağıdakı formalarda təsnifləşdirilir və onların müdafiəsi tələb edilir.

1. İşguzar informasiya: Maliyyə məlumatları, məhsul xidmətlərinin dəyəri, texnologiyası, işgüzar planlar, marketinq haqqında razılaşmaları, təkliflər, kvotalar və s.
2. Texniki informasiya: Elmi tədqiqat layihələri, məlumat prosesi, EHM-lərin proqram təminatı, patent üçün verilmiş ərizələr, dizayn və digərləri.
3. Kommersiya sirri — huquqi və fiziki şəxslərın istehsalı texnoloji idarəetmə, maliyyə və digər fəaliyyətlə əlaqədar, sahibinin razılığı olmayaraq açıqlanmağı, bunların qanuni maraqlarına ziyan vura biləcək məlumatlardır.

Bütün dünya ölkələrində kommersiya fəaliyyətinin təkmilləşdirilməsi, bununla da səmərəliliyin yüksəldilməsi prioritet məsələlərdəndir. Kommersiya fəaliyyətinin təkmilləşdirilməsi müxtəlif ölkələrdə iqtisadiyyatin inkişaf sektoruna uyğun olaraq lazımi sahələrdə aparılır və bütövlükdə iqtisadiyyatın inkişafına əsaslanır. Texnologiyaların inkişafının hazırkı mərhələsində ölkəmizdə və dünya ölkələrində kommersiya fəaliyyətinin təkmilləşdirilməsi əsasən innovasiyaya əsaslanır.

**Sahibkarlıq** - sahibkarlara mənfəət əldə etdirən iqtisadi, istehsal və həmçinin başqa fəaliyyətlərin təşkil olunmasıdır. Sahibkarlıq, sənaye müəssisələrinin, kənd təsərrüfatları fermalarının, ticarət müəssisələrinin, xidmət göstərən müəssisələrin, bankların, vəkillər kontorunun, nəşriyyatların, tədqiqat idarələrının, kooperativlərin və s. təşkil olunması kimi anlaşıla bilər. Həyata keçirilən sahibkarlıq fəaliyyətlərinin bütün növlərinin arasında ticarət işi tam kommersiya fəaliyətinə aiddir. Kommersiya sahibkarlıq fəaliyyətinin formalarından biri kimi nəzərdən keçirilir.

Ümumiyyətlə, kommersiya fəaliyyətləri ərzaq, həmçinin qeyriərzaq malları əmtəəşünaslığı kursu ilə sıx əlaqədardır. Əmtəənin istehlak keyfiyyəti barədə əmtəəşünasların bilikləri kommersiya prossesini optimallaşdırmaga, əmtəələrin zəruri olan xarakteristikası ilə tam olaraq və dolğun seçimini etməkdə, həmçinin bunların istehlak xususiyyətlərini və üstunlüklərini öyrənməyə kömək edir.

Buradan da bu nəticəni çıxarmaq olar ki, ticarətdə kommersiya fəaliyyəti əmtəələrin sadə alqı-satqı prosesindən daha genis anlayışdır, yəni alqı-satqı aktlarının baş verməyi üçün ticarət sahibkarları bir sıra operativ-təşkilati və təsərrüfat əməliyatlarını, o cümlədən əhalinin tələbinin və satış bazarının tədqiqi, mal göndərənlərin və məhsul alıcılarının tapılmağı, onlarla effektiv təsərrüfat əlaqələrinin yaradılmağı, məhsulların daşınmağı, əmtəələrin satışı uzrə

reklam-məlumat iləri, ticarət xidmətinin təskili və s. həyata keçirmək məcburiyyətindədirlər

Kommersiya sferasında baş verən proseslər və əməliyyatlar iki növ olur: xalis ticarət; istehsal. Xalis ticarət – mənfəət almaq məqsədilə və dəyər formalarını dəyişməklə əlaqədar alqı-satqı aktlarının həyata keçirilməsinə yönəldilən proseslərdir.

Ticarət əməliyyatları – satıcıların və alıcıların arasındakı kommersiya əlaqələrinin təşkili, təchizat reklamları, əmtəədə alıcılıq tələbatının öyrənilməsi, alıcılara servis xidməti və s. ibarətdir.

Kommersiyada baş vermiş istehsal prosesləri əmtəə mübadiləsi sferasında istehsalın davam etdirilməyidir. Bu, əmtəənin istehsalçıdan istehlakçıya və alıcıya çatdırılması, saxlama, əmtəə ehtiyatlarının idarə edilməsi, bükülmə, qablaşdırma, sortlara ayrılma və s. ibarətdir.

İqisadi baxımdan belə hesab etmək olar ki, kommersıya fəaliyyəti istehsal edilən, hazır olan əmtəələrin istehsalçılardan istehlakçılara çatdırılması zamanı vacib vasitəçi rolunu yerinə yetirir. Kommersiya fəaliyyəti həmçinin müəyyən xidmət sahələrilə əhatələnmişdir. Kommersiya sferasında xidmətlər əsasən istehsal ilə bağlı olmuş, birlikdə inkişaf etmişdir, buna nümunə əmtəələrin, saxlanılması, çəkilməsi, bükülməsi və s. bu kimi xidmətləri yeni istehlak qiymətini yaratmayaraq əmtəənin qiymətinə daxil olunur.

Müəssisə fəaliyyəti olaraq kommersiya fəaliyyəti kompleks olaraq məsələlərin həllinə yönəldilmiş ticarət işi hesab olunur.

Kommersiyanın səmərəliliyi məsələləri də istehlak bazarlarının subyektləri əsasında cəmiyyətin tələbatının öyrənilməyinə istiqamətləndirilməlidir. İstehlakçılarının məhsul,həmçinin xidmətləri üzərində olan maraqları sahibkarlara, məhsullara və xidmətlərinə ədalətli qiyməti müəyyənləşdirmələrinə və növ fərqliliyi amillərinin nəzərə alınaraq formalaşmağına təsirini göstərir.

İnzibati-əmirlik sistemində mövcud idarə olunma üsulları ticarətdə kommersiya fəaliyyətinin əsasən bölüşdürücü funksiyalarını yerinə yetirmək ilə məhdudlaşırılmağına səbəb olmuşdur. Rəhbərlikdən əmtəənin istehsal olunmasına görə xeyli planlar və tapşırıqlar olunurdu və fondlarda rəhbərliyin özü tərəfindən bölüşdürülürdü. Ticarət müəssisələrində işləyənlərdən isə sadəcə olaraq verilmiş göstərişlərə sözsüz şəkildə əməl edilməsi tələb edilirdi.

Müəssisələrin təsərrufat fəaliyyəti, mahiyyət etibarilə, muəyyən məqsədlərin əldə olunmağına yönəldilən hərəkətlərin zaman ilə planlaşdırılmağına görə nəzərdə tutulan proqram növüdür. Proqramda, həm də gələcək imkanlardan istifadə edilməsi, yaxud ola biləcək uygunsuzluqların da aradan qaldırılması istiqamətində artıq bu gun hazırlıq işlərinin görülməyinə imkan yaradacaq tədbirlər əsas tutulmalıdır. U.Stenton və Ç.Fütrellin obrazlı ifadələrınə görə, "planlaşdırmalar – gələcəkdə nəyin necə edilməli olduğunu müəyyənləşdirmək üçün hazırkı anda kecmişi tədqiq etmək deməkdir".

Planlaşdırma prosesini planların ardıcıl formada təshih edilməyi prosesi kimi təqdim etmək olar. Bu, o deməkdir ki, gələcəyə aid qərarlar təsərrüfat fəaliyyətinin nəticələri haqqında daima yenilənən məlumatlar ilə tutuşdurulmalı və müvafiq olaraq təshih olunmalıdır. Bazarın qeyri-müəyyənliyi şəraitlərində fəaliyyətə yönəldilmiş planlaşdırma sistemlərinin vacib fərqləndirici əlaməti, üstünlüyü onun çevikliyi və aşağıdakı hallara operativ reaksiya göstərmək qabiliyyətidir:

- xarici mühitlə qarşılıqlı münasibətlərdən kənarlaşmalara;
- yeni imkanların yaranması ilə müəssisə daxilində vəziyyətin dəyişməsinə.

Başqa sözlə desək, plan – qarşıya qoyulan məqsədlərə mərhələlərlə nail olunmasına nəzarət vasitəsidir. Məqsədyonlü idarə etmə konsepsiyasının planlar sisteminin məzmununu və planlasdırmanın təskilinə məqsədli yanaşmanı sərtləndirmisdir. Strateji planlasdırmaya aid bir xeyli təriflər vardır. Nümunə üçün, Amerika alimləri C.Shteyner və C.Mayiner bu prosesi "korporasiyanın uzunmüddətli məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, hərəkət kursunun qəbulu və bu məqsədlərə nail olmaq üçün resursların bölünməsi" kimi nəzərdən keçirirlər.

Azərbaycanın iqtisadi strategiyasında insan kapitalının formalasdırılması piroritet məqsəd olaraq, müasir bilik və nanotexnologiyalar isə innovasiyanın inkisaf vasitələri kimi müəyyən olunmuş, strategiyanın elmi cəhətdən təhlili

həmçinin əsaslandırılmağı mövcüd olan uğurların davamlılığının və effektivliyinin təminatı kimi dəyərləndirilir. İnnovasiya texnologiyalarından genis istifadə olunması ölkənin hərtərəfli inkisafına öz xidmətini göstərir. Bu texnologiyalar cəmiyyətin sosial iqtisadi vəziyyətində müşahidə olunan problemlərin həllində, həmcinin yoxsulluq səviyyəsinin azaldılmağı üçün tutarlı vasitələrdən olmuşdur.

İnnovasiyanı tətbiq etməmişdən öncə bu sahənin innovasiya potensialını müəyyən etmək önəmlidir. İnnovasiya potensialı innovasiya fəaliyyətinin həyata kecirilməsi üçün zəruri olan maddi, maliyyə, intellektual, elmi-texniki və digər resursların məcmusudur. Ölkənin innovasiya potensialı asağıdakı elementlərin məcmusundan ibarətdir. Hazırda müstəqillik şəraitində Azərbaycan iqtisadiyyatının inkisafının əsas amillərindən birini ölkənin innovasiya potensialı təskil edir. Məhz, ona görə də respublikanın gələcək sosial-iqtisadi tərəqqisi ilk növbədə iqtisadiyyatın innovasiya yoluna keçirilməyindən, yeni texnoloji proseslərin yaradılmağı və tətbiqi ilə rəqabətə davamlı məhsulların, əmək və maliyyə ehtiyatlarının artırılmağından asılıdır. Ancaq effektli olan elmi biliklərin olmağı şəraitində ölkədə istehsala elmi, texniki inkişafın nəticələrini tətbiq ediblər.

Biznes əlaqələri fənn olaraq digər elmlər ilə əlaqədardır. Bunlara iqtisadi nəzəriyyə, sənayenin iqtisadiyyatı, istehsalın təşkili, biznesin əsasları, biznesin təşkili və idarə edilməsi fənlərini misal göstərmək olar. Biznes əlaqələri kursunun mahiyyəti iqtisadi qanunların fəaliyyəti və təzahür formalarını, bazarın tələbatlarını ödəmək məqsədilə optimal xərclərlə yüksək təsərrufat nəticələri əldə etməkdir. Bununla yanaşı mülkiyyət formalarından asılı olmayaraq yaradılan hər bir sahənın səmərəlilik gostəricilərini yaxşılaşdırmaq üçün onun idarə olunmasının metodlarını və üsullarını öyrənməkdir. Fərqli sahələrin maddi texniki bazalarındakı özunəməxsusluqdan yaranan müxtəlif cəhətləri olsa da, onların hamısı “Biznes əlaqələri” kursunun öyrənmə, müqayisə, təhlil, ümumiləşdirmə üçün istıfadə etdiyi metodlar ilə elmi müddəalara əsaslanır.

Elmi təcrubə subut edir ki, biznes və sahibkarlıq fəaliyyəti haqqında ixtisaslı savada, elmi-təcrübi biliklərə malik olan mütəxəssislər gələcəkdə hansı fəaliyyət növündə iştirak etmələrindən asılı olaraq prosesin idarə olunmağında, xammal, material, enerji ehtiyatlarına qənaət olunmasında məhsul istehsalının artırılmasında məhsulun keyfiyyətinin qoyulmuş standartlara uygun buraxılmasında, məhsulun maya dəyərinin aşağı salınmasında, istehsalın səmərəliliyinin yüksəldilməsində yaxından iştirak edirlər.

Elmi biliklərin idarə edilməsində həmişə elm isçiləri həlledici rol oynayır. Bunların hazırlanmağı tərəqqi etmiş və tərəqqi etməkdə olan dövlətlərin elmi texniki siyasətində aparıcı rol oynayır.

Ölkənin elmi-kadr potensialı innovasiya prosesinin bütün mərhələlərində əsas elementlərdən biri kimi istirak etməklə fundamental və tətbiqi tədqiqatların əsasını təşkil edir. Elmi texniki potensial deyildikdə, dövlətin elm sahələrinə aid olunan kadrlar, maddi, maliyyə resursları, ictimai, təbii və texniki elm sahələrində əldə olunmuş biliklər, istehsal təcrübəsinin məcmusu basa düşülür. Həmçinin elmi-texniki potensialda iqtisadi proseslərin idarə edilməyi üçün məlumatların yığılmağı, işlənməyi və verilməyi proseslərini əhatə edən məlumat potensialı da mühüm rola malikdir.

Hal-hazırda Azərbaycan Respublikasında elm, təhsil və mədəniyyət geniş inteqrasiya proseslərinə cəlb olunmuşdur. Sonuncu 2 il ərzində tədqiq olunan, həmçinin işləmələri həyata keçirən təşkilatların sayında cüzi azalma müşahidə olunmağına baxmayaraq, bu sahədə istifadə olunan başlıca vəsaitlərin dəyəri artmışdır.

Hər bir müəssisənin idarəedilməsində həlli zəruri olan məsələlərdən biri də müəssisənin işçi heyətinin formalaşdırılması, heyətin idarə olunmasıdır. Bu baxımdan hər bir müəssisədə kadrların hazırlanması, düzgün yerləşdirilməsi və idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, bu gün uğurlu fəaliyyət göstərən müəssisələrin hər biri kadr siyasətini uğurla həyata keçirmiş olan təşkilatlardır. İdarəetmə sistemində kadrların hazırlanması, onların düzgün bölüşdürülməsi, eləcə də kadr siyasətinin həyata keçirilməsi, sistemli yanaşma metodları əsaslandırılır.

Qeyd etdiyimiz kimi, hər bir müəssisənin idarə edilməsində əsas məsələlərdən biri də kadrların düzgün seçilməsi, peşə ixtisas səviy-

yəsindən, təhsilindən, həmçinin də potensialından asılı olaraq onların düzgün yerləşdirilməsinin təmin olunmasıdır. Bu fəaliyyətin həyata keçirilməsində isə hər bir müəssisə, idarə və yaxud da təşkilat özünün kadr siyasətini əlində rəhbər tutur. Müəssisənin kadr siyasəti dedikdə nə başa düşülür?

Kadr siyasəti dedikdə, müəssisənin işçi personalı ilə aparılan elə siyasət başa düşülür ki, bu siyasət nəticəsində müəssisənin dayanıqlı, uzunmüddətli dövrdə effektiv və iqtisadi səmərə verə biləcək şəkildə işləməsini təmin edə biləcək işçi personalının seçilməsi, yığılması, onların təhsilinin və peşə ixtisas səviyyəsinin artırılması, eləcə də ixtisas səviyyəsindən asılı olaraq işçi həyatinin düzgün rotasiyasının müəyyən edilməsini təmin edən nəzəri baxışların, prinsiplərin, həmçinin də tələblərin məcmusu başa düşülür. Kadr siyasətinin həyata keçirilməsi müəssisənin cari vəziyyətindən, eləcə də məqsədlərindən asılıdır və müəssisənin davamlı inkişafına xidmət edən əsas institusional siyasətlərdən biri sayılır.

Hər bir müəssisənin kadr siyasətinin həyata keçirilməsi istiqamətinin başında müəssisənin ümumi inkişafına xidmət edə biləcək işçi həyətinin formalaşdırılması dayanır. Belə ki, müəssisə ilk öncə özündə tələbatın olduğu və bu tələbatın onun gələcək dövrdə və uzunmüddətli fəaliyyətində mühim əhəmiyyət kəsb edən işçilərin seçilməsi istiqamətində özünün kadr siyasətini həyata keçirməlidir.

Əmək haqqı konsepsiyası ilə əlaqədar digər bir nüans isə işçilərin maddi və mənəvi tələbatının ödənilməsi sahəsində onların fəaliyyətinin stimullaşdırılmasıdır. Belə ki. bu sahədə uğur qazanmış müəssisələrin təcrübəsi onu deməyə imkan verir ki, müəssisədə daha səylə çalışan, özünün bütün bilik və bacarıqlarından istifadə edən işçilərin maddi və mənəvi tələbatlarının tam ödənilməsi həmin işçinin özü ilə yanaşı, digərlərinin də həvəslə işləməsinə şərait yaradacaq, başqa sözlə desək, onları motivə edəcəkdir. Müəssisələrdə kadr siyasətinin həyata keçirilməsində əsas seçilmiş istiqamətlərdən biri də işçilərin peşə ixtisas səviyyələrinin artırılmasını təmin edəcək təlimlərin keçirilməsi, işçi personalının əlavə təhsil və ixtisasartırma kimi kurslara cəlb edilərək onların əməyindən daha çox iqtisadi səmərə götürmək imkanlarının dəyərləndirilməsidir. Müəssisələrdə kadr siyasətinin həyata keçirilməsində ən əsas məsələlərdən biri də kadrların seçilməsi və onların yerləşdirilməsidir. Belə ki, kadrların düzgün seçilməsinin əsasında həmin kadrların öyrənilməsi prosesi dayanır.

İşgücü ehtiyacını keyfiyyət olaraq müəyyənləşdirən firma, yüz minlərlə namizəd arasında axtardığı xüsusiyyətlərə cavab verən CV-lərə çatmaq üçün filtrasiya xüsusiyyətindən istifadə edə bilər. Filtrasiya prosesində namizədlər; axtarılan cins, ailə vəziyyəti, yaş, təhsil səviyyəsi (müəyyən üniversitetin adı da seçilə bilər), işçinin təcrübəsi, xarici dil səviyyələri kimi meyarlara görə sıralana bilər.

İnsan resursları seçimində informasiya texnologiyalarının istifadə edilməsinin faydaları.

Məlum olduğu kimi, kadrların müraciətinin qəbulu və seçilməsi prosesi bir tərəfdən işəgötürən firmalar və digər tərəfdən də müraciət edən iş axtaran namizədlərin olduğu açıq bir sistem hesab edilə bilər. Buna görə də, "işəgötürən şirkət baxımından təmin edilən üstünlüklər" və "namizəd baxımından əldə edilən üstünlüklər" olmaqla, iki tərəf baxımından da fərqli olaraq yanaşmaq mümkündür. İşəgötürən şirkət aspektindən qiymətləndirdikdə, texnoloji tərəqqi və inkişaf, xüsusilə internetin insan resursu seçimində istifadə edilməsi ilə əldə edilən üstünlüklər aşağıdakı kimi verilmişdir.

**İşverən aspektindən üstünlüklər:**

- İstənilən məlumatları tez əldəetmə,
- CV-ləri standart formada almaq,
- 24 saat 7 gün elanları yayınlamaq,
- Müəssisələrin tanıtım imkanları,
- Vaxt itkisinin azalması,
- İşə götürülmüş adambaşına xərclərin azalması,
- Həmişə yeni məlumatlar əldə etmək,
- İxtisaslı namizədlərlə birbaşa əlaqə.

**İşaxtaranlar aspektindən üstünlüklər:**

- Müəssisə seçimində asanlıq,
- 24/7 asan giriş,
- Müraciət xərclərində azalma,
- CV-lərin yenilənməsi,
- Aktiv və ya passiv qaydada iş axtarılması,
- İstənilən şirkətlərə qarşı CV-nin gizli saxlanılması.

Göründüyü kimi, kadrların seçilməsi prosesində texnoloji istifadənin verdiyi üstünlüklər işaxtaran və işəgötürən baxımından fərqli şəkildə qiymətləndirilə bilər. Beləliklə, insan resursları haqqında müəssisələrdə məlumat bazası qurulan zaman işçilərin sahib olduğu vəzifələrə görə qruplaşdırma aparmalı, və onların sahib olduğu keyfiyyətlərlə bağlı informasiyalar təhlil edilməlidir.

Respublikamızda biznes etikası çoxəsrli inkişaf tarixi kecmişdir. Azərbaycan Respublikasında biznes etikasının formalaşmağının əsasında cəmiyyətin milli- mədəni, tarixi, dini görüşləri və həmçinin milli mentalitet məsələləri durur. Bunlarla bərabər biznesdə etikanın inkişafına cəmiyyətdə yaşanan siyasi, ictimai, hüquqi, iqtisadi, mədəni -sosial proseslər birbaşa olaraq öz təsirini göstərir. Bütün bunlardan sonra bu nəticəyə gəlmək olar ki, biznes etikası müstəqil olaraq tədris və həmçinin tədqiqat obyektinə çevrilib. Ölkəmizdə biznes etikası çoxəsrli inkişaf yolu keçərək formalaşmışdır.

Hər bir cəmiyyətin əsas məhsuldar qüvvəsi insan ehtiyatlarıdır. Bu ehtiyatların ən yaxşı istifadəsinə, onun təkrar istehsalına və hər bir şəxsin maraqları nəzərə alınmaqla zənginləşməsinə, əməyin yüksək qiymətləndirilməsinə və səmərəliliyinin artırılmasına şərait yaradıldığı hər bir yerdə tərəqqi var. Əmək ehtiyatlarının təkrar istehsalına, formalaşdırılmasına və istifadəsinə makro səviyyədə, yəni ölkə və region səviyyəsində baxılır. Bununla yanaşı bazar iqtisadiyyatı şəraitində müəssisələrə tam təsərrüfat müstəqilliyi verildiyindən, əmək ehtiyatlarının idarə edilməsi funksiyası yeni formada mərkəzi idarəetmə orqanlarından müəssisələrin özünə keçir.

Nəticə etibarilə müəssisə (firma) daxilində formalaşan ilkin əmək bazarı, əmtəə bazarı və kapital bazarı ümumi bazar sisteminin ayrılmaz tərkib hissəsidir. Yəni onların hər biri, o cümlədən əmək bazarı müəssisə hüdudlarından kənardakı bazarlarla funksional əlaqədədir. Əmək bazarında hər bir şəxsin rəqabətə davamlılığı onun əmək qabiliyyətindən asılıdır. İnsanın əmək qabiliyyəti öz ifadəsini işçi qüvvəsi anlayışında tapır. Onu insanın əmtəə və xidmətlərin istehsalında istifadə olunan fiziki və mənəvi keyfiyyətlərinin məcmusu kimi müəyyən edirlər. İşçi qüvvəsinin imkan və qabiliyyəti barəsində daha geniş təsəvvürü əmək potensialı ifadə edir. Bütün bunlarla yanaşı "əmək ehtiyatları", "işçi qüvvəsi" və "əmək potensialı" anlayışları mahiyyət etibarı ilə insanın işçi və şəxsiyyət kimi keyfiyyətlərinin öyrənilməsinə istiqamətlənmişdir.

Məhz bu baxımdan əmək potensialına malik, işçi qüvvəsinin sahibi, əmək ehtiyatlarının fərdiləşmiş elementi kimi "əmək adamı" anlayışı daha təbiidir. Əmək adamının formalaşdırılması ilk növbədə əmək potensialının tam realizə olunmasına imkan verən sosial-psixoloji keyfiyyətləri ön plana çəkir. Bununla əlaqədar əməyin motivasiyası sisteminin yaradılması böyük əhəmiyyətə malikdir. Beləliklə, əmək adamının əməyə olan münasibəti onun yaşama vasitəsinin mənbəyi və özünü realizə vasitəsi kimi səciyyəvi xüsusiyyətidir. Şəxsiyyətin inkişafının prioritetliyinin qəbul edilməsindən çıxış edərək işçilərə onların şəxsi keyfiyyətlərini və maraqlarını nəzərə almayan "kadr" kimi birtərəfli yanaşmanın geniş yayılmış praktikasından imtina edilməlidir. Bu baxımdan kökü qarşılıqlı fəaliyyətdə olan fərdiyyətlərin (şəxsiyyətlərin) məcmusundan ibarət olan təsəvvürlə əlaqəli "heyət" anlayışından istifadə edilməsinin qanunauyğunluğunu qəbul etmək lazımdır. Bazar münasibətləri şəraitində heyətin formalaşdırılması müəssisədaxili bazar mexaniminin fəaliyyətinə söykənir. Belə bir mexanizmin yaradılması və istifadə edilməsi müəssisənin zəruri kadrlarla təmin edilməsinin daha çevik formasının yaradılmasına imkan verir.

Azərbaycan Respublikasında aparılan sosial-iqtisadi islahatlar prosesində bu anlayışların mahiyyətinin müəssisələrin struktur dəyişikliklərini aparan mütəxəssislər tərəfindən dərk edilməsinin böyük praktiki əhəmiyyəti var. Belə ki, müəssisə heyətinin formalaşdırılması fəhlələrin və mütəxəssislərin peşə strukturunun, funksional strukturunun, sosial strukturunun, işçilərə olan tələbatın və işçilərin şəxsi heyətinin müəyyən edilməsini tələb edir. Müəssisə heyətinin formalaşdırılmasının ən əsas elementlərindən biri də onun tələb olunan səviyyəyə, yəni hər bir işçinin maraqları ilə müəssisə tələbatının uyğunluq səviyyəsinin adekvatlığının təmin edilməsidir. Bunun üçün işçilərin və iş yerlərinin attestasiyasının aparılması zəruridir. Eyni zamanda, peşə, funksiya və

sosial struktur baxımından heyətin kateqoriyalar üzrə daxili əmək bazarında təhlili aparılır. Bu zaman struktur dəyişikliklərlə əlaqədar ixtisar edilmiş işçilərin işə düzəldilməsi və çatışmayan kadrlarla təmin olunmaq üçün regional əmək bazarına müraciət edilmə imkanları da araşdırılır. Bu vəzifələrin həll edilməsində əməyin funksional təhlilinin böyük əhəmiyyətini qeyd etmək lazımdır.

### ƏDƏBİYYAT SİYAHISI:

1.Quliyev T.A. Əzizov E.D. Mustafayeva E.İ. Bayramova S.R. "İnsan ehtiyatlarının idarə edilməsi". Dərslik . Bakı, 2012

2. Quliyev T.A . "Bazar iqtisadiyyatının idarə edilməsi". Bakı, 2012

3. Веснин В. Р. Утилитарный маркетинг персонала. ЮРИСТЪ.Столица 2010 – 103 с.

4. Волгин А. П. Управление персонала в критериях рыночной экономики (эксперимент ФРГ). – 2004.- 256 с.

5. Вудкок М., Френсис Д.. Раскомплексованный клерк: Для руководителя –практика. Пер с англ. М.: Ремесло, 2005. 320 с.

6. Грачев М. В. Суперкадры: управление персоналом и международные компании. – М.: Ремесло, 2005.- 708 с.

**Минура Хаджи кызы КАРИМОВА, к. э. н., ст. пр.**

**Айнур Мураз кызы РЗАЕВА**

**Асим Акиф оглу ИСКЕНДЕРЛИ**

**Афсана Вагиф кызы ГАСАНОВА**

Азербайджанский Технологический Университет

E-mail: leqendav81@mail.ru

## СОВЕРШЕНСТВОВАНИЕ УПРАВЛЕНИЯ ПЕРСОНАЛОМ НА КОММЕРЧЕСКИХ ПРЕДПРИЯТИЯХ

**Резюме**

В современное время человеческие ресурсы считаются важнейшим ресурсом предприятия. В век высоких технологий стремительные изменения в обществе порождают возрастание роли информации. На коммерческом предприятии умение управлять персоналом имеет важное значение. На этом основано существование коммерческого предприятия, а также различные характеристики общества в целом. Все это определяет актуальность выбранной темы. Как и на каждом предприятии, в управлении коммерческим предприятием есть вопросы, которые необходимо решать. Одним из них является формирование кадров предприятия, управление кадрами.Первостепенное значение имеет подготовка кадров на коммерческом предприятии, их правильное расстановка, а также управление ими. По этой причине успешные компании — это компании, успешно внедрившие кадровую работу. Обучение персонала играет ключевую роль в управлении нашими исследованиями. Грамотное распределение персонала – главная составляющая современного менеджмента и кадровой политики. При осуществлении исследования целесообразно опираться на методы анализа и системного подхода.

**Ключевые слова:** коммерция, человеческие ресурсы, кадровый потенциал, работодатель, инновации.

**Minura Haji KARİMOVA, Ph.D**. in economics, head teacher

**Aynur Muraz RZAYEVA**

**Asim Akif ISKANDARLI**

**Afsana Vaqif HASANOVA**

Azerbaijan Technology University

E-mail: leqendav81@mail.ru

## IMPROVEMENT OF PERSONNEL MANAGEMENT IN COMMERCIAL ENTERPRISES

**Summary**

In modern times, human resources are considered the most important resources of the enterprise. In the age of high technologies, the rapid change in society creates an increase in the role of information. In a commercial enterprise, the ability to manage personnel is essential. The existence of a commercial enterprise, as well as the various characteristics of society as a whole, are based on this. All this determines the relevance of the chosen topic. As in every enterprise, there are issues that need to be solved in the management of a commercial enterprise. One of them is the formation of the staff of the enterprise, the management of the staff. The training of personnel in a commercial enterprise, their proper placement, as well as their management, are of primary importance. For this reason, successful companies are companies that have successfully implemented personnel work. Staff training is key to managing our research. Proper distribution of staff is the main component of modern management and personnel policy. In the implementation of the research, it is appropriate to be based on the methods of analysis and systematic approach.

**Keywords:** commerce, human resources, personnel potential, employer, innovation

**Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV, i. f. d., dos.**
Azərbaycan Kooperasiya Universiteti
E-mail: emeherremov79@mail.ru

# İşğaldan azad olunmuş ərazilərdə aqrar sahənin mövcud vəziyyəti və inkişaf etdirilməsi problemləri

**Xülasə**

*Tədqiqatın məqsədi* – işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin mövcud vəziyyəti və inkişaf etdirilməsi problemlərinin tədqiqindən ibarətdir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf potensialı araşdırılmış və təhlil edilmişdir. Aqrar sahənin müxtəlif istiqamətləri üzrə real vəziyyətdən yanaşmaqla, bu sahədəki problemlər ümumiləşdirilmişdir. Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında yaranmış yeni imkanlar baxılmış və dəyərləndirilmişdir. Xüsusilə, bir sıra mühüm aqrar məhsulların xammallarının yetişdirilməsi və emal şəbəkəsinin yaradılması perspektivlərinə toxunulmuşdur. Yaxın dövrdə işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* – ilk növbədə təhlil, sintez, müqayisə və ümumiləşdirmə kimi elmi metodlardan istifadə edilmişdir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf etdirilməsinə dair araşdırmalarda əks olunmuş fikirlər də diqqət mərkəzində saxlanılmışdır.

*Tədqiqatın nəticələri* – hazırkı dövrdə məqalədə əldə olunmuş elmi-praktiki nəticələrdən işğaldan azad olunmuş ərazilərdə tədbirlər kompleksinin həyata keçirilməsində və fəaliyyət strategiyalarının işlənilməsində istifadə etmək olar.

**Açar sözləri:** işğaldan azad olunmuş ərazilər, aqrar sahə, aqrar sahənin potensialı, aqrar sahənin mövcud vəziyyəti, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin inkişaf istiqamətləri.

**UOT:** 332:338.012
**JEL:** R11; R12; R58

## Giriş

Aqrar sahə bilavasitə kənd təsərrüfatından və kənd təsərrüfatı məhsullarının tədarükü, emalını və istehlakçılara çatdırılmasını təmin edən sahələrdən ibarətdir. İstənilən ölkə üçün aqrar sahə son dərəcə vacib bir fəaliyyət sahəsidir. Aqrar sahə və onun əsas tərkib hissələrindən hesab olunan kənd təsərrüfatı vasitəsi ilə ölkə əhalisinin zəruri ərzaq məhsulları ilə təmin olunmaqla, ərzaq təhlükəsizliyində vacib amillərdəndir. Ərzaq təhlükəsizliyinin təminatı iqtisadiyyatın aqrar sektorunun ən mühüm məqsədidir. Aqrar sahənin özəlliyi ölkəni ərzaqla təmin etməklə bərabər, digər sənaye sahələrini istehsal üçün xammalla təmin etməkdir. Deməli, aqrar sahənin inkişafı ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsini müəyyənləşdirmək üçün həlledici dərəcədə önəmlidir. Aqrar sahənin inkişafı dövlətin bu sahədə reallaşdırdığı aqrar siyasətdən asılıdır. Aqrar siyasətin inkişafı və müasirləşdirilməsi ilə bağlı dövlətin qarşısında duran əsas məqsədlər:

– uzunmüddətli perspektivdə ölkənin ərzaq müstəqilliyini və təhlükəsizliyini təmin etmək;
– ümumi rəqabət qabiliyyətini artırmaq;
– əhali üçün malların pərakəndə satış qiymətlərini sabitləşdirmək;
– istehlakçı tələbatının ödənilməsinə töhfə vermək;
– ərzaq və kənd təsərrüfatı məhsulları bazarlarının fəaliyyətini tənzimləmək;
– kənd təsərrüfatının gəlirliliyini və maliyyə dayanıqlığını təmin etmək.

Aqrar sektora dövlət təsirinin əsas alətlərini də ayırd etmək olar:

– vergilərin və dərəcələrin idarə edilməsi;

– gömrük siyasəti yolu ilə məhsulların idxal və ixracına nəzarət;

– ərazilərin ümumi təminatının dövlət büdcəsindən maliyyələşdirilməsi;

– kənd təsərrüfatı istehsalçılarına və həmin sahə məhsulları, xammal və ərzaq bazarının digər iştirakçılarına informasiya dəstəyi, habelə onlara məsləhət yardımının göstərilməsi;

– xammal, ərzaq kənd təsərrüfatı məhsulları bazarlarının antiinhisar tənzimlənməsi.

Sadalanan vasitələr bir-biri ilə və ya müəyyən şərtlərlə birlikdə istifadə olunur. Məsələn, subsidiyalar təsərrüfat qeydiyyatı, məhsulun artırılması və ya yerli kənd təsərrüfatı texnikasının alınması şərti ilə əldə edilə bilər.

Dövlətin aqrar siyasətini reallaşdırmaq məqsədilə orta və uzunmüddətli perspektivdə onun əsas sahələrini əsaslandırmaq lazımdır. Əsaslandırma həm mövcud vəziyyətin qiymətləndirilməsini, həm də onun gələcəkdə inkişaf imkanlarını ehtiva edir. Mövcud vəziyyətin qiymətləndirilməsi obyektin inkişafının güclü və zəif tərəflərini müəyyənləşdirməyə, istər sektor komplekslərinin, istərsə də təsərrüfat sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasının mümkün olduğu şərtləri nəzərdən keçirməyə imkan verir. Gələcəkdə inkişaf imkanlarının müəyyənləşdirilməsi perspektivlərin qiymətləndirilməsi və proqnozların verilməsindən ibarətdir. Bu, kənd təsərrüfatı istehsalının inkişafı üzrə hədəflərə - ərzaq təhlükəsizliyinin təminatına, ixrac potensialının, istehsalçıların gəlirliliyinin artırılmasına, əhalinin yaşayışının yaxşılaşdırılmasına nail olmaq baxımından zəruri tədbirlərin görülməsinə imkan verir. Kənd təsərrüfatı istehsalının inkişafı məqsədlərinə nail olmaq mövcud ehtiyatlardan istifadənin səmərəliliyindən və s. asılıdır [1, s.160].

Hazırda Azərbaycanda aqrar siyasətin əsas istiqamətlərindən və aqrar sahənin əsas problemlərdən biri onun işğaldan azad edilmiş ərazilərdə inkişaf etdirilməsidir. Bu problemin həlli məqsədilə həmin ərazilərin aqrar sahə müəssisələrinin əsas problemləri, onların yaranma mənbələri və həlli perspektivləri təhlil olunmalıdır ki, bu da kənd təsərrüfatının inkişafı baxımından səmərəli proqram hazırlamağa imkan verəcəkdir. Məhz bu ərazilərdə aqrar sahənin mövcud vəziyyətinin, inkişaf etdirilməsi problemlərinin və inkişaf perspektivlərinin öyrənilməsi zərurəti məqalənin aktuallığını müəyyənləşdirir.

Azərbaycanda aqrar sahənin inkişafı fundamental və strateji xarakter daşıyır. Aqrar sektorun kompleks və sistemli inkişafı qlobal səviyyədə ərzaq təhlükəsizliyinin gücləndirilməsi problemlərinin həlli baxımından böyük önəm daşıyır. Son zamanlar ölkəmizin aqrar bölməsində aparılan struktur dəyişiklikləri, idarəetmənin təkmilləşdirilməsi tədbirləri diqqətə layiqdir. Həmin sektorun müasir qlobal çağırışlara uyğun inkişafı üçün ilk öncə onun strukturu mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmalı və səmərəlilik problemlərinin həlli yolları müəyyənləşdirilməlidir. Bu məsələlər işğaldan azad edilmiş ərazilərdə fundamental xarakter daşıyır və həmin amillər nəzərə alınmaqla, postkonflikt ərazilərdə aqrar sahənin idarə olunması innovativ texnologiyalara əsaslanmalıdır [2, s.119]. İşğaldan azad edilmiş ərazilərdə yeni texnologiyaların tətbiqinə, innovativ sistemin tətbiqinə ciddi diqqət yetirməyə, intellektual mülkiyyətin formalaşmasına şərait yaratmağa çalışmaq lazımdır [3, s.151].

Bununla əlaqədar olaraq, həmin ərazilərdə milli innovasiya sisteminin formalaşdırılması məqsədilə yeni texnologiya, ideya və bilikləri istehsal edən müəssisələr şəbəkəsi yaradılmalı, yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətinin maliyyələşdirilməsi təmin edilməli, elmi və elmi-xidmət müəssisələrinin fəaliyyəti və onlar arasında münasibətlər tənzimlənməlidir. Qarabağın və Şərqi Zəngəzurun inkişafını təmin etmək üçün burada reallaşdırılan iqtisadi proseslərin idarə olunmasına dövlət müdaxiləsi vacibdir [4, s.17]. Odur ki, dövlət həmin iqtisadi rayonların ərazilərinin iqtisadiyyatını dirçəltmək üçün ən yaxşı variantlardan istifadə etməlidir və bu məqsədlə xarici ölkələrin təcrübəsini mənimsəməlidir [5, s.54].

Azərbaycanın işğaldan azad olunan əraziləri-nin kənd təsərrüfatına yararlı torpaq sahələri məhsuldarlığına və keyfiyyət xüsusiyyətlərinə görə digər rayonlarla müqayisədə yüksək çəkiyə malikdir. Həmin ərazilərin torpaq-iqlim xüsusiyyətləri imkan verir ki, burada bitkiçilik və heyvandarlıq sahələrini yüksək və səmərəli şəkildə inkişaf etdirmək mümkün olsun [6, s.90]. Qarabağda 250 min hektardan çox münbit torpaqlar var ki, həmin torpaqlar heyvandarlıq, üzümçülük, pambıqçılıq, tütünçülük, bağçılıq, baramaçılıq və s. sahələrin, həmçinin emal və yeyinti sənayesinin inkişafı üçün potensial var. Odur ki, həmin ərazilərdəki kənd təsərrüfatı istehsalı ehtiyatlarının mühüm hissəsini təşkil edən torpaq ehtiyatlarının təhlili önəmli rol oynayır. Qarabağ və Şərqi Zəngəzurun əraziləri, o cümlədən, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının resurs ərazisi taxıl becərilməsi üçün ən əlverişli ərazi hesab olunur. Bu rayonlarda kənd təsərrüfatına yararlı torpaqların ümumi sahəsi 290 min hektardır ki, bunun da təxminən 2/3 hissəsi əkin sahəsi hesab olunur. Zəngilan və Qubadlıda kənd təsərrüfatına yararlı olan torpaqların ümumi sahəsi 67 min hektardır ki, bunun da təqribən 1/3-i əkin sahəsi hesab olunur. Kəlbəcər və Laçında kənd təsərrüfatına yararlı olan torpaqların ümumi sahəsi 180 min hektardır ki, bunun da təqribən 10-12%-i əkin sahələrinə yararlı hesab olunur. Bu statistik məlumatlara əsasən belə qənaətə gəlmək olar ki, bu rayonların heyvandarlığın inkişafı baxımından böyük perspektivləri var. Bu ərazilərin uzun müddət işğal altında olduğunu və deqradasiyaya uğradığını nəzərə alsaq, torpaq ehtiyatlarının kənd təsərrüfatı istehsalı prosesinə cəlb edilməsində meliorasiya prosesi və müvafiq tədbirlərin görülməsi xüsusi önəm kəsb edir.

İşğaldan əvvəl ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının təqribən 35-40%-ni bu rayonlar verirdi. Əkin sahələrində məhsuldarlıq yüksək olmuş, hər hektardan təqribən 21-25 sentner taxıl yığılmışdır. Qarabağ və Şərqi Zəngəzurun ərazilərinin işğaldan azad edilməsi ölkəmizin ərzaq təhlükəsizliyinin təminatında da mühüm töhfə verəcək. Xüsusilə, heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi yüksələcək. Hazırda ölkəmizdə həmin məhsullar üzrə özünütəminat səviyyəsi 82,5%, süd və süd məhsulları üzrə isə 86,2% təşkil edir. Proqnozlara görə, bu ərazilərdə təsərrüfat fəaliyyəti bərpa olunduqdan sonra respublikamız özünü bu məhsullarla təmin edə biləcək. Həmçinin Azərbaycanda taxılçılıqla (çəltik buraya daxil deyil) özünütəminat səviyyəsi 70%-ə çatır ki, Qarabağ və Şərqi Zəngəzur ərazilər təsərrüfat dövriyyəsinə cəlb edilməklə bu sahədə vəziyyət daha da yaxşılaşdıracaqdır [7, s.29].

Artıq işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində - Laçın və Kəlbəcərdə əhalinin məskunlaşdırılması işləri aparılır və yerlərdə heyvandarlıq və arıçılığın inkişafı sahəsində kiçik və orta təsərrüfatlar üçün lazımi şərait yaradılıb. Oxşar perspektivləri Qubadlı rayonunda da görmək mümkündür. Burada müxtəlif növdə kənd təsərrüfatı məhsullarının emalı üzrə rəqabətqabiliyyətli müəssisələr şəbəkəsini, tərəvəz-meyvə, ipəkçilik, şərabçılıq və s. istehsalı sahələri üzrə sahibkarlığı inkişaf etdirmək imkanları mövcuddur. Hələ sovetlər birliyi dövründə Qarabağ və Şərqi Zəngəzurda rəqabətədavamlı aqrar sahə məhsulları, o cümlədən, toxuculuq sənayesi üçün əsas xammal növü olan yüz minlərlə ton pambıq istehsal olunurdu, əhalinin tələbatının əsas hissəsini ət və süd məhsulları ilə təmin edən heyvandarlıq kompleksləri fəaliyyət göstərirdi. İndi bu bölgələrdə sahibkarlığın inkişafına və potensial investorların cəlb edilməsinə imkan yaradan müasir nəqliyyat infrastrukturu inkişaf etdirilir [8, s.29].

Ağdam rayonunun da aqrar sektorun inkişafı baxımından əhəmiyyətli potensialı vardır. Sovet dövründə bu rayonda kiçik ilkin dəri emalı müəssisələri fəaliyyət göstərirdi. Bu ənənələri qorumaq və inkişaf etdirmək çox vacibdir. Bunun üçün ilk öncə iri mərkəzləşdirilmiş heyvan kəsim məntəqələri yaratmaq, kəndliləri və fermerləri bu müəssisələrin xidmətlərindən istifadə etməyə həvəsləndirə biləcək iqtisadi mexanizmləri inkişaf etdirmək lazımdır. Böyük kəsim məntəqələrinin olması emal üçün daha qiymətli

və faydalı heyvan dərilərinin istehsalına, heyvanların daxili komponentlərindən tam istifadə olunmasına, sanitar və ekoloji problemlərin qarşısının alınmasına, bir sözlə, bu müasir, tullantısız, yüksək texnologiyalardan istifadəyə töhfə verəcək [9, s.94]. Bu ərazilərdə heyvandarlıq təsərrüfatlarının yaradılması və onların heyvanlarla təmin olunması torpaqlar bərpa olunaraq təsərrüfat subyektlərinin istifadəsinə verildikdən sonra əsas addım olmalıdır. İntensiv amillər hesabına heyvandarlığın inkişaf imkanları nəzərə alınaraq fermaların yaradılması və həmin təsərrüfatların məhsuldar heyvanlarla təmin edilməsi məsələsi aktuallaşır [10].

Şərqi Zəngəzurun təbii şəraiti kənd təsərrüfatının inkişafı baxımından daha perspektivli sahə hesab olunan arıçılığın inkişafına imkan verir və həmin sahə çox qədim ənənələrə malikdir. Həmçinin, əlverişli iqlim şəraiti, yerli resurs bazası, ekoloji cəhətdən təmiz məhsulların istehsalı, böyük təcrübəyə malik yerli mütəxəssislərin olması və s. bu sahənin inkişafına təkan verən amillərdir. Bütün bunlar arıçılığın yaxın gələcəkdə ölkə iqtisadiyyatının inkişafında önəmli rol oynamasına geniş imkanlar yaradır.

Qarabağ bölgəsinin təbii-iqlim şəraiti üzümçülüyün inkişafı üçün geniş imkanlara malikdir. Rayonda üzümçülüyün inkişafı, yüksək keyfiyyətli süfrə üzümünün müxtəlif sortlarının yetişdirilməsi, şərabçılıq bu sahədə istehsalın artırılmasına və digər emal müəssisələrinin kənd təsərrüfatı xammalına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə şərait yaradacaqdır. Bu da üzüm və şərab məhsullarının ixracının artmasına və sahə məhsullarının idxalının azalması ilə nəticələnəcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə mövcud su anbarlarından geniş istifadə olunması təkcə postkonflikt ərazilərdə deyil, həm də ölkənin müxtəlif regionlarında əkin sahələrinin su ilə təminatı probleminin müsbət həllinə zəmin yaradacaqdır. Tərtər rayonunun Suqovuşan rayonu ərazisində yerləşən Suqovuşan su anbarının tamamilə işğaldan azad edilməsi 20 min hektaradək ərazinin müntəzəm suvarılmasının təmin edilməsi deməkdir.

İşğaldan azad edilən digər mühüm su anbarı Sərsəng su anbarıdır. Belə ki, ərazinin, o cümlədən Sərsəng su anbarının işğaldan azad edilməsi nəticəsində Azərbaycan Respublikasının rayonlarında, o cümlədən Bərdə, Tərtər, Goranboy, Yevlax, Ağdam, və Ağcabədidə 100 min hektara yaxın ərazini suvarmaq mümkün olacaq. Bundan başqa, Cəbrayıl və Zəngilan rayonlarında Xudafərin su anbarından istifadə 75 min hektar ərazinin suvarılması deməkdir. Su anbarlarının tam və rasional istismarı bəzi ərazilərdə su çatışmazlığı probleminin müsbət həllinə, əkin sahələrinin genişləndirilməsinə və nəticədə məhsuldarlığın artmasına kömək edir [11, s.620].

İşğaldan azad edilmiş ərazilərdə aqrobiznesin formalaşmasının zəruriliyi və əhəmiyyəti müvafiq dövlət tənzimlənməsi tədbirlərinin görülməsi zərurətini aktuallaşdırır. Belə ki, aqrobiznes strukturlarının formalaşdırılması baxımından milli və xarici investisiya layihələrinin, eləcə də aqrar sahədə təsərrüfat subyektlərinin maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi xüsusilə önəmlidir. Kənd təsərrüfatı müəssisələrinin maliyyələşdirilməsi baxımından maliyyə-bank sektorunun rolu xüsusilə mühümdür

Azərbaycanda aqrar sektorun əsas sahələrindən sayılan kənd təsərrüfatının inkişafı ilə bağlı layihə və proqramların maliyyələşdirilməsində Kənd Təsərrüfatı Kredit və İnkişaf Agentliyi önəmli rol oynayır və həmin agentlik illik 7 və ya 12%-lik kreditlər təklif edir. Ölkəmizdə bir çox kredit təşkilatları kənd təsərrüfatı müəssisələrinə mikrokreditlər verir. "Aqrar Kredit" QSC kredit xidmətləri göstərməklə kənd yerlərinin inkişafına nail olmaq məqsədinə xidmət edən əsas qurumlardan biridir. Kreditləşmənin subyektləri müxtəlif təsərrüfatlar, habelə ailə təsərrüfatlarıdır. Əldə edilən maliyyə vəsaitləri kənd təsərrüfatı istehsalına, həmin sahə üçün maşın və avadanlıqlarının alınmasına, müxtəlif xidmətlərdən istifadəyə və bu sahədə məhsulların marketinq sisteminin təşkilinə sərf oluna bilər.

Hazırda Şərqi Zəngəzur və Qarabağın ərazilərinin inkişafı proseslərinin ən intensiv fazaya keçidini sürətləndirmək tələb olunur. Bu, həmin iqtisadi rayonların iqtisadiyyatının strukturunda yeni və perspektivli sənaye sahələrin formalaşmasına, güclü nəqliyyat-logistika infrastrukturlarının yaradılmasına, yüksək texnologiyalı emal müəssisələrinin səmərəli təşkilinə gətirib çıxaracaqdır. Bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzurun ənənəvi aqrar sahələrinin inkişafı prioritet vəzifə kimi daim qarşıda duracaqdır [12, s.120].

Ölkədə aqrar sənaye istehsalının inkişafında rəqabət qabiliyyətinin artırılması problemi həlledicidir. Rəqabət qabiliyyəti məhsulun bazarda uğurunu müəyyən edən istehlakçı və maya dəyəri xüsusiyyətlərinin kompleksi kimi başa düşülür [13, s.201]. Şərqi Zəngəzurda və Qarabağda yaradılan aqrar sənaye müəssisələrinin inkişafı onların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi hesabına təmin edilə bilir. Odur ki, həmin sahə müəssisələrinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi əsas prioritetlərdəndir. Aqrar sahədə və onun əsas sahəsi olan kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətinin təmin edilməsi və yüksəldilməsi üzrə tədbirlər ola bilər:

1. Əmək ehtiyatlarının səmərəli istifadəsi.
2. Müəssisələrin kəmiyyət və keyfiyyət nisbətində işçi qüvvəsi ilə təmin edilməsi.
3. Kənd təsərrüfatında kadr dəyişikliyinin azaldılması.
4. İşçilərin iş və məişət şəraitinin yaxşılaşdırılması, yüksək əmək məhsuldarlığının təmin edilməsi və kadrların təkmilləşdirilməsi.
5. Mədəni və ictimai xidmətlərin səviyyəsinin yüksəldilməsi.
6. Əmək haqqının və onun tənzimlənməsinin təkmilləşdirilməsi
7. Mövcud avadanlıq və texnologiyaların istifadəsi ilə bağlı xərclərin və itkilərin optimallaşdırılması;
8. İcbari ekoloji sığorta sisteminin tətbiqi.
9. Torpaq ehtiyatlarının münbitliyinin artırılması.
10. Torpaq bazarına və ondan istifadə ilə bağlı münasibətlərin bütün spektrinə nəzarətin edilməsi və tənzimlənməsi (torpaqdan istifadə institutlarının yaradılması).
11. Gübrələrin və bitki mühafizə vasitələrinin səmərəli istifadəsi
12. Resurslara qənaət edən texnologiyalardan istifadə.
13. Regionlarda güzəştli kreditləşmə sisteminin yaradılması.
14. Mütərəqqi texnologiyaların və texniki vasitələrin tətbiqi.
15. Elmi tədqiqatlar sahəsində fəaliyyətin əlaqələndirilməsi.
16. Kənd təsərrüfatı müəssisələrinin əsas fondlarının yenilənməsi.

Nəzərdə tutulan tədbirlərin reallaşdırılması hesabına kənd təsərrüfatı istehsalçıları rəqabətqabiliyyətli mövqelərini yaxşılaşdıracaqlar ki, bu da onların bazarda yekun mövqeyinə təsir göstərəcək.

Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin iqtisadi inkişafının sürətləndirilməsinin aşağıdakılar hesabına təmin edilməsi məqsədəuyğundur:

1. resurs potensialının inkişafı və səmərəli istifadəsi;
2. aqrar sahədə bazar sferasının təkmilləşdirilməsi və istehsalçıların hazır məhsul və istehsal amilləri bazarlarına çıxışının asanlaşdırılması;
3. aqrar-sənaye kompleksində iqtisadi fəal sahibkarlıq subyektlərinin formalaşdırılması, kənd təsərrüfatında istifadə olunan təbii ehtiyatların təkrar istehsalının yaxşılaşdırılması;
4. kənd yerlərinin davamlı inkişafı üçün şərait yaradılması;
5. innovativ mühitin formalaşdırılması;
6. vahid informasiya təminatı sisteminin yaradılması.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə bütün mülki infrastruktur praktiki olaraq dağıdıldığından bərpa və tikinti işləri sıfırdan başlanılıb ki, bu da böyük sərmayələr və gərgin əmək tələb edir, lakin bunun da öz üstünlükləri var. Qarabağ və Şərqi Zəngəzurda yenidən qurulan bütün müəssisələr, xüsusilə də kənd təsərrüfatı müəssisələri ən müasir texnika və texnologiyalarla təchiz olunacaq, ən yüksək tələblərə

cavab verəcək və yüksək rəqabət qabiliyyətli məhsul istehsal etməyə imkan verəcəkdir [15, s.323]. Qarabağ və Şərqi Zəngəzurda müxtəlif tipli kənd təsərrüfatı emalı müəssisələrinin, o cümlədən pambıq, konserv, üzüm, yun və dəri emalı müəssisələrinin istifadəyə verilməsi əsas prioritetlərdəndir. Belə müəssisələrin mövcudluğu təkcə məşğulluq məsələlərinin həllinə deyil, həm də kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılmasına, iqtisadi fəallığın artırılmasına xidmət edir. Ölkənin hər bir bölgəsində kəndli və fermerlər yetişdirdikləri və istehsal etdikləri məhsulların öz əllərində qalmayacağına əmin olsalar, onu tədarük məntəqələrinə, emal müəssisələrinə icarəyə verməklə qazanc əldə edə biləcəklərsə, bu insanlar istehsalı hər cür genişləndirəcək, onun həcmini artıracaq. Bu da məhsuldarlığın artmasına, istehsalda müasir texnika və texnologiyaların tətbiqinə, daha rəqabətqabiliyyətli məhsulların istehsalına səbəb olacaq.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Потапов, А.П. Оценка перспектив формирования и использования ресурсного потенциала аграрного производства / А. П. Потапов //– 2021. – № 1. – С. 160-163.
2. Məhərrəmov E. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafına konseptual yanaşmalar. Geostrategiya jurnalı, № 04 (70), s.119-123.
3. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // “Вопросы истории”, Москва, 2022, № 6, Səh. 148-155. https://elibrary.ru/item.asp?id=48808624 (Web of science; Scopus).
4. Алиев, Ш.Т., Гусейнова, Н.Э., Яхьяева, А.Ю. Проблемы повышения инвестиционной привлекательности Карабахского региона Азербайджана и пути их решения / II International Scientific and Practical Conference Current Issues And Prospects for the Development of Scientific Research held on in Orléans, France, May 7-8, 2021, p.13-19. - https://ojs.ukrlogos.in.ua/index.php/interconf/issue/view/7-8.05.2021/534.
5. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin perspektiv inkişaf istiqamətləri. Audit, 2021, 1 (31), s.49-59.
6. Əliyev Ş.T. Ağdam və Füzuli rayonlarında postkonflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti. Geostrategiya jurnalı, № 04 (70), s. 89-94
7. Novruzova B. İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi. Naxçıvan Universiteti, 2021, №2, s.27-35.
8. Алиев, Ш., Маммадов, Э., Ахмедова, Т. Актуальные вопросы развития предпринимательства на освобождённых от оккупации землях Азербайджана. Scientific Collection «InterConf», (122), 2022. C.26–32. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/1183.
9. Рустамов, Ф.В. Аграрный потенциал и перспективы развития освобожденных территорий Азербайджана/ Ф.В. Рустамов// Аграрная экономика. – 2022. – № 4(323). – С. 88-96.
10. Fikrətzadə F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.23-37.
11. Махмудов, Э. Г. Анализ ресурсного обеспечения агробизнеса в постконфликтной территории Азербайджана / Э. Г. Махмудов // Вестник Кыргызского национального аграрного университета им. К.И. Скрябина. – 2021. – № 2(56). – С. 617-622.
12. Məhərrəmov, E. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafına konseptual yanaşmalar. Geostrategiya jurnalı, № 04 (70), s.119-123.
13. Давыдкина, О.А. Ресурсный потенциал как фактор повышения конкурентоспособности аграрного производства региона / О.А. Давыдкина// – 2013. – № 11-1. – С. 201-204.

14. Алиев, Ш.Т. Стратегическая важность возрождения Шуши в интенсификации социально-экономического развития Карабахского экономического района / VII Международная Научно-Практическая Конференция «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации», Москва, 30 июня 2022. – с. 321-329.

**Эльдениз Мазахир оглы МАГЕРРАМОВ,**
Доктор философии по экономике, доцент Азербайджанского Университета Кооперации,
E-mail: emeherremov79@mail.ru

# СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПРОБЛЕМЫ РАЗВИТИЯ АГРАРНОЙ СФЕРЫ НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ

## Резюме

*Целью исследования* – является изучение современного состояния и проблем развития аграрного сектора на территориях, освобожденных от оккупации. С этой целью был исследован и проанализирован потенциал развития аграрного сектора на территориях, освобожденных от оккупации. Рассмотрены и оценены новые возможности обеспечения продовольственной безопасности страны. В частности, были затронуты перспективы выращивания сырья для стратегически важной сельскохозяйственной продукции и создания для этого перерабатывающей сети. В конце статьи были даны рекомендации и внесены предложения по развитию аграрного сектора на освобожденных от оккупации территориях.

*Методы исследования* – в первую очередь, использовались такие научные методы, как анализ, синтез, сравнение и обобщение. При этом в центре внимания были и отраженные в различных исследованиях идеи развития аграрного сектора на территориях, освобожденных от оккупации.

*Результаты исследования* - полученные в статье научно-практические результаты могут быть использованы при реализации комплекса мероприятий и разработке стратегии действий на территориях, освобожденных от оккупации.

**Ключевые слова***:* освобожденные территории, аграрная сфера, потенциал аграрной сферы, современное состояние аграрной сферы, проблемы развития аграрной сферы, направления развития аграрной сферы.

**Eldaniz Mazahir MAHARRAMOV**
PhD in economics, Associate professor of Azerbaijan University of Cooperation,
E-mail: emeherremov79@mail.ru

# THE CURRENT STATE AND PROBLEMS OF THE DEVELOPMENT OF THE AGRARİAN SPHERE İN THE TERRİTORİES LİBERATED FROM OCCUPATİON

**Summary**

*The purpose of the research* is to study the modern state and problems of the development of the agricultural sector in the territories liberated from occupation. To this end, the potential for the development of the agricultural sector in the territories liberated from occupation is investigated. New opportunities for ensuring the country's food security are considered. In particular, the prospects of growing raw materials for strategically important agricultural products and creating a processing network for this are touched upon. Recommendations and proposals for the development of the agricultural sector in the territories liberated from occupation are given in the end of the article.

*Research methods* - first of all, scientific methods such as analysis, synthesis, comparison and generalization are used. At the same time, the ideas of the development of the agricultural sector in the territories liberated from occupation reflected in various studies are also in the center of attention.

*Research results* - the scientific and practical results obtained in the article can be used in the implementation of a set of measures and the development of an action strategy in territories liberated from occupation.

**Key words*:*** liberated territories, agrarian sphere, potential of agrarian sphere, current state of agrarian sphere, problems of development of agrarian sphere, directions of development of agrarian sphere.

**Nərmin Qabil qızı MİRZƏZADƏ**
Azərbaycan Dövlət Aqrar Universitetinin
Aqrobiznes və menecment kafedrasının assistenti
E-mail: narminmirzazada@gmail.com

# SUBSİDİYALAŞMANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALININ ARTIRILMASINDA ROLU

**Xülasə**

Məqalədə subsidiyanın aqrar sahədə əhəmiyyəti, məhsul istehsalının artırılmasında rolu məsələləri aydınlaşdırılmış, aqrar sahəyə ayrılan subsidiyanın məbləği, həmçinin kənd təsərrüfatında müxtəlif istiqamətlər üzrə subsidiya ödənişləri təhlil edilmişdir. Dövlət tərəfindən gözəştli şərtlərlə texnika və avadanlıqların satışının həcmi təhlil olunmaqla subsidiyalaşma mexanizminin müxtəlif aspektləri araşdırılmış, bu prosesdə kənd təsərrüfatının xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyi vurğulanmışdır.

**Tədqiqatin məqsədi.** Tədqiqatın məqsədi subsidiyalaşmanın kənd təsərrüfatı məhsulları istehsalının artırılmasındakı rolunu müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatin metodu.** Tədqiqatın aparılmasında müqayisə, qruplaşdırma və təhlil üsullarından istifadə edilmişdir.

**Tədqiqatin nəticəsi.** Subsidiya qoyuluşu kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında xüsusi rola malikdir. Tədqiqatın nəticəsi göstərir ki, subsidiyalar istehsal xərclərini azaltmaqla məhsul istehsalının artırılmasına, eləcə də rəqabət qabiliyyətinin yüksəlməsinə ciddi təsir edir.

**Açar sözlər:** subsidiya, səmərəlilik, dövlət dəstəyi, mənfəət, istehsal, istehsal xərci, güzəştli şərtlər, amortizasiya.

**UOT: 330:332**
**JEL: Q14**

## Giriş

Kənd təsərrüfatı iqtisadiyyatın strateji əhəmiyyətli sahələrindəndir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatının inkişaf səviyyəsindən birbaşa asılıdır, eyni zamanda əhalinin məşğulluq məsələlərinin həllində də bu sahə əhəmiyyətli rolu ilə fərqlənir. Ərzaq bolluğunun yaranmasında, kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsində, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasında və davamlı rəqabətin yaranmasında səmərəli maliyyə mexanizminin olması vacibdir. Aqrar sahənin maliyyə təminatı ilə bağlı mövcud olan problemlərə E.A. Quliyev, B.X. Ataşov, T.N Buqayeva, A.C. Nəsibov, L.V. Popova, A.V. Kireyeva, A.N. Komarniçkaya, V.A. Zalçıman və digərlərinin əsərlərində rast gəlmək mümükündür.

İqtisadi ədəbiyyata istinad etməklə kənd təsərrüfatı sahələri üzrə dövlət dəstəyinin aşağıdakı formaları qruplaşdırıla bilər [3]:

- heyvanların sayına, əkin sahələrinə, kənd təərrüfatı istehsal vəsaitləri üzrə birbaşa ödənişlərin verilməsi;
- bazara daxil olmaqla məhsullara və əmtəələrə görə qiymət siyasətinin tənzimlənməsi;
- marketinq, kredit, aqrar sahə məhsullarının sığortası və s. görə subsidiyaların verilməsi;
- ixrac subsidayalarının tətbiqi.

**Materiallar və müzakirələr.** Kənd təsərrüfatı məhsulları istehsalında maliyyə mənbələri şərti olaraq daxili və xarici mənbələrə ayrılır. Müəssisələrin sərbəst şəkildə formalaşdırdıqları maliyyə vəsaitlərinə təsərrüfat fəaliyyətlərinin nəticələrindən, satışdan əldə edilən gəlirlər daxildir. Deməli, özünümaliyyələşdirmə daxili mənbələrə, istehsaldan əldə edilən mənfəətin bir hissəsinə, amortizasiyaya, təsərrüfat fəaliyyətindən əldə edilən gəlirlərə aiddir. Kənd təsərrüfatı müəssisələrinin daxili maliyyə mənbələrindən istifadə imkanlarını nəzərə alaraq bu istiqamətdə aqrar sahədə yaranan vəziyyətin kifayət qədər problemli olduğu müşahidə olunur. Bəzən kənd təsərrüfatı

müəssisələri lazımi səviyyədə gəlir əldə etmir və kənardan maliyyə resurslarının cəlb edilməsinə zərurət yaranır. Xarici mənbələrdən maliyyələşməyə isə məqsədli dövlət kreditləri, uzunmüddətli bank kreditləri, qrantlar, subsidiyalar qeyd oluna bilər.

İqtisadi ədəbiyyatda kənd təsərrüfatı istehsalının subsidiyalaşdırılmasının tətbiqi üsullarının effektivliyi haqqında müxtəlif fikirlər mövcuddur. V.A. Zalçıman qeyd edir ki, kənd təsərrüfatının subsidiyalaşdırılması kənd təsərrüfatı üçün dəstək mexanizminin əhəmiyyətli bir hissəsidir və bu birbaşa kəndliyə ayrılan vəsait deyil. Yəni subsidiyaların artması ilə ayrılan vəsaitlərin istifadəsi, əsasən eyni istiqamətli olur və təsərrüfata cəlb edilir [1, s.32]. A.V. Kireyeva və A.N. Komarniçkayanın sözlərinə əsasən subsidiyaların və mənfəətin həcmi arasında olan fərq reqressiya asılılığına əsaslanır və kənd təsərrüfatı müəssisələri üçün vergitutmadan əvvəl belə bir nəticə əldə olunur ki, subsidiya formasında olan dövlət dəstəyi kənd təsərrüfatının təkrar istehsal prosesi üçün zəruri şərtdir [2, s.73].

İqtisadi səmərəlilik, resursların əldə edilməsinə çəkilən xərcləri geri qaytarmaqla müəssisədə mövcud olan resurslardan daha çox istehsal nəticəsi əldə edilməsidir. Dövlət subsidiyaları sahibkarların gəlirlərinin yüksəldilməsi, istehsalın artırılması, xüsusi məhsulların istehsalına üstünlük verilməsi məqsədi dayışır. Subsidiya dövlət üçün faydalı olan fəaliyyətlərin nəticəsi, istehsalçının və ya istehlakçının gəlirlərini artırması və ya xərclərini azaltması kimi qiymətləndirilir. Bir sıra dövlətlər ölkə gəlirlərinin böyük hissəsini kənd təsərrüfatı sahələrinə ayırdıqları subsidiyalardan əldə etdikləri mənfəət hesabına təmin edirlər. Kənd təsərrüfatı subsidiyaları kənd təsərrüfatının mühüm aspektidir və beynəlxalq ticarətdə mühüm rol oynayır. Onlar sahibkarlara kömək məqsədilə ödənilir və aqrobiznesdə operatorlar tərəfindən kənd təsərrüfatı məhsullarının təklifinin idarə edilməsi ilə gəlirlərini müəyyən etmək üçün beynəlxalq bazarlarda həmin məhsulların dəyəri və tələbi müəyyənləşdirilir [6]. Kənd təsərrüfatına qoyulan subsidiyalar aqrar məhsullar üzrə istehsal xərclərini stabilləşdirmək, mənfəəti yüksəltmək, məhsul və xidmətlərin qiymətlərini tənzimləmək və lazımi səviyyədə məhsul istehsalını həyata keçirməkdir.

Statistik məlumatların təhlili göstərir ki, 2018-ci ildə aqrar sahəyə ödənilən subsidiyanın tərkibində yanacaq və motor yağlarına, mineral gübrəyə, kənd təsərrüfatı texnikasına ayrılan subsidiyanın məbləği daha yüksəkdir. Belə ki, həmin sahələrə ayrılan subsidiyanın xüsusi çəkisi müvafiq olaraq 18,2%, 30% və 25,8% həcmində olmuşdur. Bu, qeyd edilən istiqamətlər üzrə məhsul istehsalı xərclərinin aşağı salınmasını şərtləndirən dəstək tədbiri olduğunu təsdiq edir. 2019-cu ildə əsas ödəniş sahəsi 39,8% ilə mineral gübrələrin və biohumusların dəyərinin 70%-nin ödənilməsi dövlət dəstəyində müşahidə olunur. Subsidiyaların 15,5%-i pestisidlərin, damazlıq heyvanların, xam pambıq və quru tütün məhsullarından olan istehsal vasitələrinin uyğun şərtlərlə əldə edilməsinə yönəlmişdir. Cəmi subsidiyaların məbləği, əsasən, artan istiqamətlidir. 2021-ci ildə 2018-ci ilə nisbətən subsidiya qoyuluşu 19,8% çox olmuşdur. 2020-ci və 2021-ci illərdə müxtəlif istiqamətlər üzrə ayrılan subsidiyaların məbləğində oxşarlıq müşahidə edilir. Yanacaq və motor yağları, buğda və çəltik, mineral gübrə və pestisidlərə ayrılan subsidiyanın xüsusi çəkisi 2020-ci ildə 62% idisə, 2021-ci ildə bu göstərici 63,4% olmuşdur. Yaş baramanın hər kq-na və arıçılara hər arı ailəsinə görə verilən subsidiyanın məbləğinə uyğun olaraq 232,7 min manat və 295.8 min manat fərqlər olsa da, onların verilən subsidiyanın tərkibində xüsusi çəkisi eynidir. Digər illərdə olduğu kimi 2020-ci və 2021-ci illərdə də texnika və avadanlıqların güzəştli şərtlərlə satışına ayrılan subsidiyanın həcmi fərqlənir. Müvafiq illərdə 73616,9 min manat və 80000 min manat ayrılmışdır. Bu isə qeyd olunan istiqamətə ayrılan subsidiyanın yüksək səviyyədə ünvanlı və nəticəli olması deməkdir [cədvəl 1]. Dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına əsas kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışı dinamikasına baxaq.

Araşdırmalardan aydın olur ki, ayrılan subsidiyaların həcminin azalması ilə texnika və avadanlıqların dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışının miqdarı da azalmışdır.

**Cədvəl 1.**

**Azərbaycanda kənd təsərrüfatına müxtəlif istiqamətlər üzrə ayrılan subsidiyaların həcmi (min, manat) [4]**

| Dövlət dəstəyinin növləri | Məbləği, min AZN | | | | Xüsusi çəkisi, % | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2018 | 2019 | 2020 | 2021 | 2018 | 2019 | 2020 | 2021 |
| Yanacaq və motor yağlarının dəyərinin 50 faizinin ödənilməsi (hər hektara 50 manat) | 61986.2 | 62600.7 | | | 18.2 | 16.5 | | |
| Buğda və çəltik istehsalçılarına hər hektar sahəyə 40 manat yardım verilməsi | 23330.0 | 22527.7 | | | 6.8 | 5.9 | | |
| Mineral gübrələrin və biohumusların dəyərinin 70 faizinin ödənilməsi | 102257.0 | 150858.3 | | | 30.0 | 39.8 | | |
| Pestisidlərin dəyərinin 70 faizinin ödənilməsi | 5743.0 | 19141.1 | 235179.0 | 258557.3 | 1.7 | 5.0 | 62.0 | 63.4 |
| 1-ci və 2-ci reproduksiyalı toxum və ting istehsalçılarına subsidiyalar | 7738.8 | 7425.1 | 4766.1 | 6658.4 | 2.3 | 2.0 | 1.3 | 1.6 |
| Elmi-tədqiqat müəssisələrinə orijinal, super elit və elit toxumları istehsalına çəkilən xərclərin ödənilməsi | 912.6 | 893.2 | 934.2 | - | 0.3 | 0.2 | 0.2 | - |
| Kənd təsərrüfatı texnikasının lizinqlə satışına tətbiq edilən güzəştin həcmi | 88000.0 | 59950.0 | 73616.9 | 80000.0 | 25.8 | 15.8 | 19.5 | 19.6 |
| Damazlıq heyvanların satışına tətbiq edilən güzəştin həcmi | 15970.0 | 9740.0 | 16644.4 | 17000.0 | 4.7 | 2.6 | 4.4 | 4.2 |
| Süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya verilməsi | 6905.1 | 8254.5 | 8798.6 | 9067.4 | 2.0 | 2.2 | 2.3 | 2.2 |
| Xam pambığın hər kq-na görə 0,1 manat subsidiya verilməsi | 23038.0 | 29551.5 | 29475.1 | 28359.8 | 6.8 | 7.8 | 7.8 | 7.0 |
| Quru tütünün hər kq-na, yaş tütünün isə hər 10 kq-na görə 0,05 manat subsidiya verilməsi | 247.4 | 185.5 | 266.8 | 106.4 | 0.1 | 0.1 | 0.1 | 0.03 |
| Bütün növ yaş baramanın hər kq-na görə 5 manat subsidiya verilməsi | 2490.5 | 3156.5 | 2172.4 | 2405.1 | 0.7 | 0.8 | 0.6 | 0.6 |
| Şəkər çuğundurunun hər tonuna görə 4 manat subsidiya verilməsi | 1106.6 | 873.8 | 919.3 | 544.6 | 0.3 | 0.2 | 0.2 | 0.1 |
| Arıçılara hər arı ailəsinə (pətəyə) görə 10 manat subsidiya verilməsi | 910.5 | 4265.3 | 5017.5 | 5313.3 | 0.3 | 1.1 | 1.3 | 1.3 |
| **Cəmi** | **340635.7** | **379423.2** | **377790.2** | **408012.3** | **100.0** | **100.0** | **100.0** | **100.0** |




**Qrafik 1. Dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışı [5].**

Büdcə hesabına güzəştli satış texnika ilə təmin olunmanı gücləndirməklə yanaşı, amortizasiya xərclərini də azaldır, nəticədə aqroservis xidmətləri göstərən müəssisələrdə daha aşağı xidmət tarifləri müəyyən edilir.

Bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı dinamikasına baxaq.

**Cədvəl 2.**

**Əsas bitkiçilik məhsullarının istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə (min ton) [5].**

| İllər | Dənlilər və dənli paxlalılar | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan məhsulları |
|---|---|---|---|---|---|---|
| **2017** | 2928.8 | 207.5 | 5.3 | 913.9 | 1405.6 | 438.1 |
| **2018** | 3309.2 | 233.6 | 6.3 | 898.9 | 1521.9 | 401.9 |
| **2019** | 3538.5 | 295.3 | 6.0 | 1004.2 | 1714.7 | 447.6 |
| **2020** | 3257.1 | 336.8 | 6.9 | 1037.6 | 1738.9 | 448.1 |
| **2021** | 3363.0 | 287.0 | 6.4 | 1062.0 | 1815.5 | 459.9 |

**Cədvəl 3.**

**Əsas heyvandarlıq məhsullarının istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə (min ton) [5].**

| İllər | Ət kəsilmiş çəkidə | Süd | Yumurta, milyon ədəd | Yun (fiziki çəkidə) | Barama | Bal |
|---|---|---|---|---|---|---|
| **2017** | 316.8 | 2024.1 | 1714.0 | 16.0 | 245.2 | 3.0 |
| **2018** | 326.0 | 2080.4 | 1676.2 | 15.8 | 513.9 | 5.0 |
| **2019** | 335.7 | 2150.8 | 1827.1 | 16.1 | 643.7 | 5.8 |
| **2020** | 346.0 | 2192.5 | 1906.2 | 16.1 | 446.6 | 6.6 |
| **2021** | 357.6 | 2223.4 | 1838.8 | 16.1 | 497.4 | 6.8 |

Məlumatları təhlil etdikdə həm bitkiçilik, həm də heyvandarlıq məhsulları istehsalının dinamikasının artım xarakterli olduğu məlum olur. Bitkiçilik məhsullarından dənlilər və dənli paxlalılarda, pambıq məhsullarında istehsal daha yüksək olmuşdur. 2017-ci illə müqayisədə 2021-ci ildə istehsal müvafiq olaraq 14,8% və 38,3% yüksəlmişdir. Heyvandarlıq məhsullarından isə barama və bal məhsullarında nəzərəçarpacaq artım qeydə alınmışdır ki, 2017-ci illə müqayisədə 2021-ci ildə uyğun olaraq 2 və 2,2 dəfə çox məhsul istehsal olunmuşdur [cədvəl 2, 3].




**Qrafik 2. Kənd təsərrüfatı məhsullarının, subsidiyaların və büdcə xərclərinin dinamikası, 2017-ci ilə nisbətən faizlə [5].**

Kənd təsərrüfatının ümumi məhsulunda 2018-ci ildə 2017-ci illə müqayisədə 6,5%, 2019-cu və 2020-ci illərdə 2017-ci illə müqayisədə müvafiq olaraq 19% və 28%, 2021-ci ildə isə 2017-ci ilə nisbətən 39,3% çox məhsul istehsalı əldə edilmişdir. Dövlət tərəfindən aqrar sahəyə ayrılan subsidiyanın məbləğini də 2017-ci ilə görə həmin illərlə müqayisə etdikdə uyğun olaraq 65,7%, 84,5%, 83,8%, 98,4% yüksək göstərici qeydə alınır. Büdcədən kənd təsərrüfatına ayrılan vəsaitlərin həcmində də 2017-ci illə müqayisədə növbəti illərdə yüksəlmə baş vermişdir. İllər üzrə müvafiq olaraq aqrar sahəyə 49,2%, 75,3%, 83,5% və 93,8% çox vəsait ayrılmışdır. Eyni zamanda, məlumatların təhlili göstərir ki, kənd təsərrüfatının ümumi məhsulu artan tendensiya ilə müşahidə olunmuşdur. 2019-cu ildə 2018-ci illə müqayisədə 12,5%, 2020-ci ildə 2019-cu illə müqayisədə 9%, 2021-ci ildə isə 2020-ci illə

müqayisədə 11,3% çox məhsul istehsal edilmişdir. Paralel olaraq artım büdcədən kənd təsərrüfatı xərclərinə ayırmalarda da müşahidə edilir. Belə ki, 2020-ci və 2021-ci illərdə əvvəlki illə müqayisədə müvafiq olaraq 8,2% və 10,3% yüksəlmə baş vermişdir. Bu da kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında vacib amillərdəndir. Büdcədən aqrar sahəyə birbaşa subsidiya ödənilməsi dəyişkən xarekterli olmuşdur. Belə ki, 2019-cu ildə əvvəlki ilə nisbətən subsidiyanın məbləği 18,8% çox olsa da, 2020-ci ildə 0,7% azalma, 2021-ci ildə isə 14,6% yüksəlmə qeydə alınmışdır. Məlumatların təhlili göstərir ki, kənd təsərrüfatının ümumi məhsuluna subsidiyalarla müqayisədə büdcə xərclərinin təsiri daha ciddi şəkildə özünü göstərmişdir. Belə ki, 2020-ci ildə aqrar sahəyə ayrılan subsidiyanın məbləğində azalma olsa da (0,7%) ümumi məhsulun həcmində artım baş vermişdir (9%). Büdcədən kənd təsərrüfatına ayrılan xərclərin səviyyəsində isə 2019-cu ilə nisbətən artım qeydə alınmışdır (8,2%). Təbii ki, göstərilənlər subsidiyaların istehsalın artımına təsirini azaltmır. Bunu digər illər üzrə subsidiyaların məbləğinin artımı ilə ümumi məhsulun artım tendensiyası arasındakı əlaqə də aydın şəkildə göstərir.

**Nəticə**

Beləliklə, qeyd edilənlərə əsaslanaraq demək olar ki, dövlət tərəfindən aqrar sahəyə subsidiyaların qoyuluşu kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında böyük rola malikdir. O, istehsal xərclərini azaltmaqla məhsulların rəqabət qabiliyyətinin artmasında rol oynayır. Araşdırmanın göstərdiyi kimi hazırda kənd təsərrüfatına ayrılan subsidiyalar həm məhsula görə, həm də konkret sahəyə görə müəyyən edilir. Bu şərtlər daxilində kənd təsərrüfatının xüsusiyyətlərindən irəli gələn müəyyən məsələlər kölgədə qalır: torpağın keyfiyyəti, ərazilərin dəmyə və ya suvarılan olması, yağıntının miqdarı və s. Bu, onu göstərir ki, kənd tsərrüfatı istehsalının həyata keçirildiyi ərazilərdə risk səviyyəsi də fərqlidir. Ona görə də, fikrimizcə, subsidiyalaşmada belə mühüm amillərin nəzərə alınması vacibdir.

**İşin elmi yeniliyi.** İşin əsas elmi yenilikləri aşağıdakılardır: subsidiyalaşmanın kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında rolu müəyyən edilməklə istehsal xərclərinin azalmasına təsiri əsaslandırılmışdır; dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı texnikası və avadanlıqlarının verilməsində, eləcə də məhsula və konkret istehsal sahəsinə subsidiyalar verilməsində sahələrin xüsusiyyətinin nəzərə alınmasının zəruriliyi əsaslandırılmışdır; subsidiyalaşmanın xərclərin azaldılması və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi arasındakı əlaqəyə təsiri müəyyən edilmişdir.

**Tətbiqi əhəmiyyəti.** Subsidiyaların istehsal prosesində xərclərin azalmasına, rəqabət qabiliyyətinin yüksəlməsinə, məhsul istehsalının artmasına təsirinin müəyyən edilməsi istehsalçıların gəlirlərinin artırılması baxımından praktiki əhəmiyyət kəsb edir.

**İqtisadi səmərəsi.** Subsidiyalaşmanın stimullaşdırıcı təsiri bir tərəfdən istehsalçıların kənd təsərrüfatı istehsalına marağının artırılmasında, digər tərəfdən istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin aşkara çıxarılmasında mühüm rol oynaya bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Зальцман В.А. Экономика и сельское хозяйство Дании // Нивы России. - 2017. - № 3 (147).

2. Киреева А.В., Комарницкая А.Н. Субсидии как универсальная форма государственной поддержки компаний реального сектора: основания предоставления // Финансы и управление. – 2020. – № 1. – С. 72 - 80

3. Agriculture subsidies. https://www.encyclopedia.com/plants-and-animals/agriculture-andhorticulture/agriculture-general/agricultural-subsidies (15.01.2020)

4. https://agro.gov.az/az

5. https://www.stat.gov.az/

6. https://www.sciencedirect.com/

**Нармин Габил МИРЗАЗАДЕ**
Азербайджанский Государственный Аграрный Университет
Ассистент кафедры «Агробизнес и менеджмент»
E-mail: narminmirzazada@gmail.com

## РОЛЬ СУБСИДИРОВАНИЯ В УВЕЛИЧЕНИИ ПРОИЗВОДСТВА СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ

**Резюме**

В статье выяснено значение субсидии в аграрном секторе, ее роль в увеличении производства, проанализированы размеры субсидии, выделяемой аграрному сектору, а также дотационные выплаты по разным направлениям в сельском хозяйстве. При анализе объемов реализации государством техники и оборудования на особых условиях исследованы различные аспекты механизма субсидирования, подчеркнута важность учета в этом процессе особенностей сельского хозяйства.

**Цель исследования.** Цель исследования определить роль субсидирования в увеличении производства сельскохозяйственной продукции.

**Метод исследования.** При проведении исследования использовались методы сравнения, группировки и анализа.

**Результат исследования.** Особую роль в увеличении производства сельскохозяйственной продукции играют дотационные инвестиции. Результаты исследования показывают, что субсидии оказывают существенное влияние на увеличение производства продуктов питания за счет снижения себестоимости продукции, а также повышения конкурентоспособности.

**Ключевые слова:** субсидия, эффективность, государственная поддержка, прибыль, производство, себестоимость, льготные условия, амортизация.

**Narmin Qabil MİRZAZADE**
Azerbaijan State Agricultural University
Assistant of «Agribusiness and management» department
E-mail: narminmirzazada@gmail.com

## THE ROLE OF SUBSIDIES IN INCREASING AGRICULTURAL PRODUCTION

**Summary**

The article clarifies the significance of subsidies in the agricultural sector, its role in increasing production, analyzes the size of the subsidy allocated to the agricultural sector, as well as subsidy payments in various areas in agriculture. When analyzing the volume of state sales of machinery and equipment under special conditions, various aspects of the subsidizing mechanism were studied, and the importance of taking into account the peculiarities of agriculture in this process was emphasized.

**The purpose of the study.** The purpose of the study is to determine the role of subsidization in increasing the production of agricultural products.

**Research method.** İn conducting the research were used comparison, grouping and analysis methods.

**The result of the study.** Subsidy investment has a special role in increasing the production of agricultural products. The results of the study show that subsidies have a significant impact on increasing food production by reducing production costs, as well as increasing competitiveness.

**Key words:** subsidy, efficiency, state support, profit, production, cost, preferential terms, depreciation.

**Pərvin Elman qızı MUXTAROVA, i.f.d., dosent**

**Gülnarə Rəsul qızı RƏHİMOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# AZƏRBAYCAN RESPUBLİKASINDA BÜDCƏ SİSTEMİ

**Xülasə**

Tədqiqatın başlıca məqsədi Azərbaycan Respublikasında büdcə sistemini araşdırmaq, habelə büdcə sistemi ilə vergi sisteminin qarşılıqlı əlaqələrinə nəzər salmaqdır. Büdcə nədir? Büdcə - vergi siyasəti necə formalaşır, hansı prinsiplərdən istifadə edilir bütün bunların araşdırılıb öyrənilməsidir. Eyni zamanda, koronavirus pandemiyasının (COVİD-19) ölkə iqtisadiyyatına mənfi təsirlərinin tədqiq edilməsi, pandemiya və postpandemiya dövründə çevik büdcə-vergi siyasətinin formalaşdırılması yollarının araşdırılmasıdır. Tədqiqat işi əsaslı və sistemli təhlil üsulları əsasında yerinə yetirilmişdir. Habelə, tədqiqat zamanı Beynəlxalq Valyuta Fondunun və digər maliyyə institutlarının, eyni zamanda dövlət qurumlarının aşağı neft qiymətləri dövründə dövlət büdcəsinin gəlirlərinin və xərclərinin strukturunda zəruri dəyişikliklər və vergi stimulları nəzərdən keçirilmiş və nəticələr təhlil edilmişdir. Tədqiqatın nəticəsinə əsasən deyə bilərik ki, 2020-ci ilin əvvəlindən başlayan koronavirus (COVİD-19) pandemiyası ilə mübarizədə həyata keçirilən vergi islahatları, digər iqtisadi və sosial tədbirlər sübut edir ki, vaxtında və əsaslandırılmış addımlar sözügedən pandemiyanın ölkənin sosial və iqtisadi həyatına təsirlərini minimuma endirmişdir.

**Açar sözlər:** büdcə, vergi, gəlir, sistemləşdirilmiş siyasət.

**UOT: 336**
**JEL: H60**

## Giriş

İqtisadiyyatın və sosial sahənin əsasını büdcə təşkil edir. Büdcə ümumi olaraq sosial-iqtisadi proqramların realaşmasını təmin etməklə yanaşı, iqtisadiyyatın prioritet sahələrinin inkişafında, həmçinin dövlət vəzifələrinin yerinə yetirilməsində xüsusi rola malikdir. Büdcə, eyni zamanda, Ümumi Daxili Məhsulun (ÜDM) müəyyən hissəsinin yenidən bölgüsünün həyata keçirilməsi məqsədilə dövlət və istehsal subyektəri arasında yaranan pul münasibətlərini tənzimləyir. Cəmiyyətin iqtisadi-siyasi və sosial strukturunun formalaşması və inkişafının hər bir mərhələsində həyata keçirilən dövlət tənzimlənməsinin əvəzedilməz rolu vardır. Dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsinin əsas mexanizmi maliyyə sistemi və onun tərkib hissəsi olan büdcə sistemidir. Belə ki, büdcə vasitəsilə dövlətin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaranması və istifadəsi həyata keçirilir. [Büdcə sistemi (Dərslik) Bakı, 2003, səh.19-23 ]

**Tədqiqatın məqsədi:** Azərbaycan Respublikasında büdcə sisteminin təhlili ilə vergi siyasətinin əlaqələrinin öyrənilməsi.

**Tədqiqat obyekti:** Büdcə sistemi

**Büdcə nədir?**

Büdcə Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünü idarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

**Büdcə təsnifatı nədir?**

Tərkibinə, mənbəyinə, istifadə istiqamətinə və digər təyinatlarına görə büdcənin gəlirləri və xərcləri müxtəlifdir. Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr və büdcə təşkilatları, habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının (o cümlədən, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının) müqayisəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasında vahid büdcə təsnifatı təsdiq olunur. Büdcə təsnifatı büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və sair prinsiplər əsasında tərtib olunmuş təsnifatından ibarətdir. Büdcə təsnifatının strukturu və tərkibi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilir. Qruplaşdırmanın xarakteri və onların quruluş prinsipləri

büdcə gəlirlərinin və xərclərinin sosial-iqtisadi məzmunu, təsərrüfatın strukturu və idarəetmə sistemi ilə müəyyən edilir. Azərbaycan Respublikasının büdcə təsnifatı Azərbaycan Respublikasının büdcə sisteminin bütün səviyyəli büdcələrinin gəlirlərinin və xərclərinin, həmçinin bu büdcələrin kəsirlərinin maliyyələşdirmə mənbələrinin qruplaşdırılması ilə müəyyən edilir və Azərbaycan Respublikasının büdcə sisteminin bütün səviyyəli büdcələrinin tərtib edilməsində və icrasında, onun göstəricilərinin müqayisə edilməsində istifadə olunur.

Qruplaşdırmanın şəffaflığı və dəqiqliyi büdcə təsnifatı qarşısında qoyulan mühüm tələbdir.

1. Büdcə təsnifatı elementləri üzrə qruplaşdırılmış göstəricilərdən bacarıqla istifadə edilməsi büdcə vəsaitlərinin real hərəkətini görməyə imkan verir və bu iqtisadi, sosial proseslərin gedişinə fəal təsir göstərir.
2. Plan və hesabat göstəricilərinin müqayisəsi və təhlili büdcə fondlarının yaradılması və istifadəsi haqqında əsaslı nəticə çıxarmağa, təklif verməyə və pul vəsaitlərinin iqtisadi və sosial inkişafın əsas istiqamətlərinə yönəldilməsinə imkan verir.
3. Gəlirlərin və xərclərin detallaşdırılması, qruplaşdırılması büdcəyə daxil olan göstəricilərin yoxlanmasını asanlaşdırır, daxilolmaların dinamik inkişafını, müxtəlif gəlirlərin və xərclərin xüsusi çəkisini və ya hər hansı bir ehtiyacın tələbatının ödənilməsini müəyyən edir.
4. Təsnifat smetaların və büdcələrin məcmusuna şərait yaradır, onların iqtisadi təhlilini asanlaşdırır, vəsaitlərin vaxtında büdcədə cəmlənməsinə, onların məqsədli istifadəsinə nəzarəti sadələşdirir.
5. Müxtəlif səviyyəli büdcə sistemlərinin müstəqiliyi şəraitində təsnifat bütün büdcə növlərinin tərtibi və icrasına vahid metodoloji baxımdan yanaşılmasına, büdcə göstəricilərinin sahələr və ərazilər üzrə müqayisəsinə əsas verir.

Büdcə təsnifatı bütün büdcə idarə və təşkilatları üçün vacibdir və Azərbaycan Respublikasının büdcə qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun qurulur.

**Azərbaycanda büdcə-vergi siyasəti və onun məqsədləri.**

Ümumiyyətlə, büdcə gəlirlərinin formalaşmasında vergi siyasətinin əhəmiyyəti böyükdür və ölkəmizdə vergi daxilolmaları büdcə gəlirlərinin əsas hissəsini təşkil edir. Belə bir sual yaranır ki, səmərəli vergi siyasəti dedikdə nə başa düşülür? Yuxarıda da qeyd etdiyimiz kimi, vergi daxilolmaları büdcə gəlirlərinin tərkib elementidir və burdan da belə bir qənaətə gəlirik ki, daha çox vergi daxilolmaları daha çox büdcə gəlirləri deməkdir. 1992-ci ildə Ölkəmiz müstəqillik əldə etdikdən sonra müasir büdcə-vergi sistemi qurulmağa başlamışdır. Bundan sonra ölkəmizdə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yeni maliyyə siyasəti həyata keçirilməkdədir. Bazar iqtisadiyyatına keçid şəraitindən bəri dövlət indiki vaxta qədər bir sıra iqtisadi qanunvericilik taktları qəbul etməklə, həm iqtisadiyyata müdaxilə edir, həm də öz iqtisadi siyasətini formalaşdırır. Ölkəmizdə hal-hazırkı dövrdə yaradılan büdcə-vergi siyasəti aşağıda qeyd etdiyimiz prinsiplər üzərində qurulmuşdur.

- Büdcənin sabitliyi və uzunmüddətli dayanıqlığı
- Orta müddətli maliyyə planlaşdırılması
- Büdcə münasibətlərinin səmərəli və bərabərhüquqlu sistem üzərində təşkili
- Fiskal şəffaflıq
- Səmərli maliyyə nəzarəti,hesabatlıq və monitorinq

Ölkəmizdə büdcə-vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülsə də,bu sahədə müəyyn problemlər mövcudur. Bu problemlərə aşağıdakıları misal göstərə bilərik.

- ✓ İqtisadi qanunlarda boşluqlar
- ✓ Neftdən asılılığın çox olması
- ✓ Kassa aparatlarının uçotunun tam düzgün aparılmaması
- ✓ İqtisadiyyatın bəzi sahələrində monopoliya, oliqapoliya, inhisarlaşmanın olması və buna qarşı ciddi tədbirlərin görülməməsi.

Yuxarıda qeyd etdiyimiz problemlərin həll edilməsi üçün dövlət vahid büdcə-vergi siyasətini həyata keçirərkən inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmalı, eyni zamanda milli, regional prinsiplər nəzərə alınmalıdır.

**Azərbaycan Respublikasında Koronavirus (COVİD-19) pandemiyası və postpandemiya dövründə büdcə-vergi siyasəti.**

2021-2022-ci illərdə Koronavirus pandemiyasının (COVİD-19) geniş miqyasda yayılmasının nəticəsində qlobal səviyyədə yaratdığı iqtisadi problemlər də geniş miqyasda böyüməyə başladı. Koronavirus pandemiyası dünya iqtisadiyyatına, ölkələr arasında olan ticarət dövriyyəsinə və digər əməkdaşlıq münasibətlərinə əsaslı şəkildə

təsir etdi. Xüsusilə də qlobal miqyasda iqtisadiyyatın bir çox sahələrində ləngimələrə və dayanmalara səbəb olması, ümumilikdə iqtisadi aktivliyin azalması səbəbindən neftə olan tələbatın da aşağı düşməsi nəticə etibarı ilə neft ölkələrinin iqtisadi-sosial vəziyyətinə olduqca mənfi təsir göstərdi. Bütün bunlar nəzərə alınaraq, dövlət tərəfindən adekvat şəkildə mövcud olan qanunvericiliyə dəyişiklik edilməklə ölkə iqtisadiyyatının müxtəlif sektorlarına vergi stimulları tətbiq edilmişdir.

Koronavirus pandemiyasının dünya üzrə sürətlə yayılması nəticəsində ölkələrinin sosial-iqtisadi həyatına ciddi şəkildə mənfi təsir göstərdi. İqtisadi fəallıq əhəmiyyətli dərəcədə azaldı.

**Cədvə 1.**

**Dövlət büdcəsinin gəlirlərinin 2019-cu və 2020-ci illərin altı ayı üzrə müqayisəsi, milyon manat [ Azərbaycanın Vergi jurnalı ]**

| Dövlət büdcəsinin gəlir mənbələri | 2019-cu ilin yanvar-iyun ayları | | | | 2020-ci ilin yanvar –iyun ayları | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Proqnoz | Cəmi daxilolma | Fərq,+; | icra,% | Proqnoz | Cəmi daxilolma | Fərq,+;- | icra,% |
| Dövlət büdcəsinin gəlirləri, o cümlədən | 11314,6 | 10405,7 | -909,0 | 92,0 | 11684,5 | 12022,7 | 338,2 | 102,9 |
| Vergi gəlirləri, | 4529,2 | 4942,9 | 413,7 | 109,1 | 4956,0 | 5378,2 | 422,3 | 108,5 |
| Qeyri-vergi gəlirləri(Dövlət Neft Fondundan daxilolmalarla birlikdə) | 6785,4 | 5462,8 | -1322,7 | 80,5 | 6728,5 | 6644,5 | -84,1 | 98,8 |

Mənbə: Azərbaycan Respublikasının Maliyyə və İqtisadiyyat nazirliklərinin məlumatları

**Cədvəl 2.**

**Azərbaycan Respublikası üzrə makroiqtisadi göstəricilərin illər üzrə müqayisəsi, milyon manat [ Azərbaycanın Vergi jurnalı ]**

| Göstəricilər | İllər | | |
|---|---|---|---|
| | **2019** | **2020** | **2021-ci il proqnoz** |
| 1.Ümumi Daxili Məhsul(ÜDM) | 81896,2 | 72432,2 | 80173,0 |
| o cümlədən | | | |
| 1.1. Qeyri-neft sektoru | 50607,0 | 50792,5 | 54299,4 |
| 1.2. Neft sektoru | 31289,2 | 21639,7 | 25873,6 |
| 3.Valyuta ehtiyatları (milyard manat) | 51.1 | 51.2 | |
| 4.Dövlətin xarici borcu | 9091,0 | 8821,5 | |
| 5.Bir barel neftin orta illik ixrac qiyməti (manat) | 64,0 | 43,6 | 40,0 |
| 6.Orta aylıq əməkhaqqı (manat) | 366,5 | 416,1 | 436,9 |

Mənbə: Azərbaycan Respublikasının Maliyyə və İqtisadiyyat nazirliklərinin məlumatları

Qeyd etdiyimiz problemlərin ölkəmizdə aradan qaldırılması ilə əlaqədar olaraq bir sıra sosial və iqtisadi layihələrin həyata keçirilməsi üçün ciddi addımlar atılmışdır. Qlobal böhran dövründə xalqın sosial rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar dövlətin qüdrətinin göstəricisidir. Məhz pandemiya illərində 5 milyona yaxın insanın həm dövlət, həm də özəl sektorda geniş sosial paketlə əhatə olunması bunun sübutudur. Cari ildə ölkəmizdə çox böyük sosial layihələrin həyata keçirilməsi təsdiqləyir ki, dövlət qlobal böhran dövründə bu proqramların sayını daha da artırıb. Neftin qiymətinin aşağı düşməsi ölkənin gəlirlərinə ciddi təsir göstərsə də, dövlət heç bir sosial layihəni ixtisara salmayıb.

Ölkəmizdə son 17 il ərzində həyata keçirilən siyasət nəticəsində elə bir möhkəm təməl yaranıb ki, dövlət istənilən böhranla əlaqədar düzgün addımlar atır və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, bütün sosial, iqtisadi öhdəlikləri yerinə yetirmək gücündədir.Yuxarıda qeyd etdiyimiz cədvələ nəzər salaq:

Yuxarıda qeyd olunan dövlət qurumlarının məlumatları əsasında müəlliflər tərəfindən hazırlamnmış Cədvəl 1-dən göründüyü kimi, ötən ilin altı ayı ilə müqayisədə cari ildə dövlət büdcəsinin gəlirləri proqnozdan artıq icra olunmuşdur. Xüsusilə vergi daxilolmalarının, proqnozdan artıq olması pandemiyaya baxmayaraq, ölkədə iqtisadi aktivliyin yüksək olmasının əyani sübutudur. Bildiyimiz kimi dünyanın əksər hissəsinə yayılan COVID-19 pandemiyası ölkəmizdən də yan keçməyib. Xüsusi karantin rejiminin iqtisadiyyata təsiri də qaçılmaz bir faktordur, o cümlədən ölkəmizdə də startaplar, fiziki, fərdi və ya hüquqi şəxs kimi fəaliyyət göstərən mikro sahibkarlar da pandemiyadan zərərçəkənlər siyahısındadır. Azərbaycan Respublikasının Prezidentinin "Koronavirus (COVİD-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkəmizin iqtisadiyyatına, makroiqtisadi sabitliyinə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" müvafiq Sərəncamına əsasən, iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən sahibkarlığa dövlət dəstəyinin göstərilməsi ilə bağlı proqramlar hazırlandı.

Yuxarıda qeyd etdiyimiz Cədvəl 2-də verilən makroiqtisadi göstəricilərin təhlili sübut edir ki, pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ildə ÜDM-nin həcmi azalsa da, qeyri-neft sektorunda artım olmuşdur. Neft sektorunda azalmalara səbəb neft hasilatının və qiymətinin aşağı olmasıdır.

Bütün bunlarla yanaşı, Vergi Məcəlləsindəki dəyişikliyə əsasən Azərbaycanda mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs kimi fəaliyyət göstərən startapların

" Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəəti 3 il müddətinə vergidən azad olunur. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanı ilə cari ilin dövlət büdcəsi təsdiq edilmişdir. Lakin qeyd etdiyimiz pandemiyanın dünya və ölkə iqtisadiyyatına mənfi təsirləri, neft qiymətlərində baş verən volatillik və iqtisadi durğunluq səbəbindən "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə 2020-ci ilin dövlət büdcəsinin bir sıra xərclərinin təyinatı dəyişdirilmiş, habelə büdcənin gəlir və xərclərinin proqnozuna yenidən baxılmışdır.

Bunu da qeyd edək ki, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon 500 min manat, xərcləri 26 milyard 894 milyon 700 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 23 milyard 359 milyon 465 min manat, gəlirləri 764 milyon 535 min manat, mərkəzləşdirilmiş xərcləri 26 milyard 677 milyon 330 min manat, yerli xərcləri 814 milyon 870 min manat) məbləğində müəyyən edilib. Nəticədə yenidən baxılma ilə təsdiq olunmuş dövlət büdcəsinin vergi və rüsumlar üzrə, habelə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları 890,5 milyon manat məbləğində azaldılmış və müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti və dövlət büdcəsinin digər daxiolmaları müvafiq olaraq 850,0 milyon manat və 30,0 milyon manat artırılmışdır. Beləliklə cari il üçün yenilənmiş makroiqtisadi proqnozlar əsas götürülməklə aparılmış hesablamalar əsasında 2020-ci il dövlət büdcəsinin dürüstləşdirilmiş gəlirləri 24124,0 milyon manat nəzərdə tutulur ki, bu da ÜDM-in 35,3 faizi həcmində olmaqla, 2020- ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 10,5 milyon manat azdır. Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması, pandemiyanın yaratdığı keyfiyyətcə yeni sosial və iqtisadi davranış mühitinin xüsusiyyətləri, əhalinin həssas sosial qruplarına, dövlət şirkətlərinə, sahibkarlıq subyektlərinə, kiçik və orta biznesə dövlət tərəfindən əlavə dəstəyin göstərilməsi, səhiyyə sahəsi üzrə əlavə tələbatın və digər dövlət ehtiyaclarının yaranması dövlət büdcəsinin icrası ilə bağlı yeni çağırışlar formalaşdırılmış və bununla bağlı əlavə maliyyə təminatının yaradılmasını zəruri etmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Büdcə sistemi (Dərslik) Bakı-2003
2. Azərbaycanın Vergi jurnalı
3. Zipfel, Frank (2012). The impact of tax sytems on economic growth in Europe, Deutsche Bank Research, EU monitor.
4. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Büdcə məlumatları, https://www.oilfund.az/az_AZ/hesabatlar-ve-statistika/buedce-melumatlari.asp
5. Dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı.Maliyyə Nazirliyinin re-portları (2012-2016). http://www.maliyye.gov.az/node/1128
6. Journal of Qafqaz University- Economics and Administration
7. Məmmədov F.Ə. Musayev A.F. Sadıqov M.M. Rzayev Z.H. Kəlbiyev Y.A. Vergitutmanın nəzəri və metodoloji əsasları (dərslik). Bakı, 1997

**Парвин Эльман kызы МУХТАРОВА, к. э. н., доцент**

**Гюльнара Расул kызы Рахимова**
Азербайджанский Технологический Университет

## БЮДЖЕТНАЯ СИСТЕМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Резюме**

Основной целью исследования является изучение бюджетной системы в Азербайджанской Республике. Это также взгляд на взаимоотношения бюджетной системы и налоговой системы. Что такое бюджет?, как формируется бюджетно-налоговая политика, какие принципы используются, все это исследуется и изучается. При этом изучаются негативные последствия пандемии коронавируса (COVID-19) на экономику страны, пути формирования гибкой бюджетной и налоговой политики в период пандемии и постпандемии. Исследовательская работа проводилась на основе фундаментальных и системных методов анализа. Также в ходе исследования были рассмотрены деятельность Международного валютного фонда и других финансовых институтов, а также государственных учреждений в период низких цен на нефть с необходимыми изменениями в структуре доходов и расходов государственного бюджета и налоговых льгот и получены результаты были проанализированы. И по результатам исследования можно сказать, что налоговые реформы и другие экономические и социальные меры, реализуемые в рамках борьбы с пандемией коронавируса (COVID-19), начавшейся в начале 2020 года, доказывают, что своевременные и обоснованные шаги позволят минимизировать влияние указанной пандемии на социальную и экономическую жизнь страны.

**Ключевые слова:** бюджет, налог, доход, системная политика.

**Parvin Elman Muxtarova, Ph.D., Associate Professor**

**Gulnara Rasul Rahimova**
Azerbaijan Technology University

## BUDGET SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN

**Summary**

The main purpose of the study is to examine the budget system in the Republic of Azerbaijan. It is also a look at the mutual relations between the budget system and the tax system. What is the budget?, how the budget-tax policy is formed, what principles are used, all this is researched and studied. At the same time, the negative effects of the coronavirus pandemic (COVID-19) on the country's economy are being studied, and the ways of forming a flexible budget and tax policy during the pandemic and post-pandemic period. The research work was carried out on the basis of fundamental and systematic methods of analysis. Also, during the research, the International Monetary Fund and other financial institutions, as well as state institutions, during the period of low oil prices, with necessary changes in the structure of the state budget's revenues and expenses and tax incentives were reviewed and the results were analyzed. And based on the results of the research, we can say that the tax reforms and other economic and social measures implemented in the fight against the coronavirus (COVID-19) pandemic, which began in early 2020, prove that timely and justified steps will minimize the effects of the said pandemic on the social and economic life of the country. downloaded.

**Key words:** budget, tax, income, systematic policy.

**Türkan Hamlet qızı NƏBİYEVA, doktorant**
Bakı Dövlət Universiteti
"Dünya iqtisafiyyatı" kafedrası
E-mail: tnabiyeva23@gmail.com

# MÜASİR DÖVRDƏ BEYNƏLXALQ MALİYYƏ BAZARLARININ İQTİSADİ QLOBALLAŞMAYA TƏSİRİ MƏSƏLƏLƏRİ

**Xülasə**

**Tədqiqatın məqsədi** – müasir dövrdə beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri məsələlərinin araşdırılmasıdır. Bunun üçün qloballaşma tendensiyaları, təsir dairələri baxılmış və bu mühitdə beynəlxalq maliyyə bazarlarının inkişaf prosesləri problemləri açıqlanmış, təhlil olunmuşdur. Beynəlxalq maliyyə bazarlarının iştirakçılarının davranışlarına, bu bazarların əsas seqmentlərinə baxılmışdır. Beynəlxalq maliyyə bazarlarının ümumiləşdirilmiş strukturu verilmişdir. Qloballaşma proseslərinin beynəlxalq maliyyə bazarlarına təsirləri ümumiləşdirilmişdir. İqtisadiyyatın qloballaşdığı müasir mərhələdə beynəlxalq maliyyə bazarlarının inkişafında daha çox diqqət çəkən xarakterik meyillər müəyyənləşdirilmişdir. Məqalədə baxılan problemlər üzrə bir qrup tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın metodu** – əsasən təhlil, sintez və ümumiləşdirmə kimi iqtisadi metodlardan ibarətdir. Eyni zamanda, müasir dövrdə maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri məsələləri üzrə araşdırmalar aparan tədqiqatçıların elmi yanaşmalarına yer verilmişdir.

**Tədqiqatın nəticələri** – hazırkı şəraitdə beynəlxalq maliyyə bazarlarının inkişafı və xarakterik cəhətləri kontekstində, iqtisadi qloballaşmaya təsirin müəyyənləşdirilməsi üzrə əsas fəaliyyət istiqamətlərinin və konseptual yanaşmaların ümumiləşdirilməsi ilə əlaqəlidir.

**Açar sözlər:** beynəlxalq maliyyə bazarları, qlobal təsirlər, qlobal meyillər, iqtisadi qloballaşma, beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri, beynəlxalq maliyyə bazarları iştirakçıları.

**UOT: 336.69: 338.22.01**
**JEL: F3; G15; F36; O11**

## Giriş

Son onilliklərin tendensiyalarından yanaşsaq, müasir beynəlxalq maliyyə bazarlarının (BMB) inkişafının əsas meyli qloballaşma ilə bağlıdır. Qloballaşma dünya iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən yeni hadisə deyil. Bir sıra tədqiqatçılar BMB-lərin qloballaşması prosesini 1980-ci ildə, maliyyə bazarları sisteminin qlobal səviyyədə fəaliyyət göstərməyə başladığı və müxtəlif ölkələrin aparıcı maliyyə mərkəzlərini birləşdirən qlobal maliyyə şəbəkəsinin yarandığı vaxtdan başlayan maliyyə inqilabı adlandırırlar. Hazırda qloballaşma birtərəfli proses deyil, onunla yanaşı, BMB-lərin yaradılması da baş verir. Bu tendensiya ən bariz şəkildə vahid Avropa Mərkəzi Bankı, büdcəsi və valyutası olan Avropa Valyuta İttifaqının yaradılmasında özünü göstərdi. Digər maliyyə mərkəzləri ətrafında da beynəlxalq regionallaşma prosesləri gedir. Maliyyə bazarında regionallaşma prosesinin daha bir bariz təzahürü milli ödəniş sistemlərinin inkişafının stimullaşdırılmasında öz ifadəsini tapmışdır [1, s.23].

XX əsrin ikinci yarısından etibarən qloballaşma prosesləri dünya iqtisadiyyatının inkişafının əsas xüsusiyyətlərindən birinə çevrilmişdir. Qloballaşma prosesləri ictimai həyatın bütün sahələrini əhatə etmiş, lakin dünya birliyinə təsirinin güclənməsinə ən mühüm töhfəni beynəlxalq iqtisadi əlaqələrin inkişafı vermişdir. Qloballaşma çərçivəsində tədqiqatçılar kifayət qədər maraqlı nəzəriyyələr formalaşdırıblar. Qloballaşma fenomenini əksər tədqiqatçılar müsbət hal kimi qiymətləndirir və yalnız müvəqqəti mənfi nəticələr verdiyini qeyd edirlər. Qloballaşma anlayışının mahiyyətinin bütün müxtəlif şərhlərini sistemləşdirərək aşağıdakı xüsusiyyətləri ayırd edə bilərik: 1) qloballaşma dünya inkişafının yeni paradiqmasını formalaşdıran obyektiv və çoxşaxəli prosesdir; 2) qloballaşma təkamül-tarixi prosesdir; 3) qloballaşma dünya

birliyinin həyatının bütün sahələrinə təsir edən mürəkkəb hadisədir; 4) qloballaşma milli iqtisadiyyatların və beynəlxalq münasibətlərin inkişafını sistemləşdirir, onları sintezə və qarşılıqlı asılılığa aparır; 5) qloballaşma şəraitində hələ də ölkələrin inkişaf səviyyələrində fərqliliklər olsa da, inkişaf strategiyasında ümumilik var; 6) istehsalın beynəlmiləlləşməsi və beynəlxalq münasibətlərin liberallaşması ilə səciyyələnən qloballaşma istehsal amillərinin və informasiyanın sərbəst hərəkətini təmin edir; 7) informasiya texnologiyalarının müxtəlif üsullarla yayılmasını stimullaşdırır; 8) qloballaşma dövlətlərin, onların bazarlarının, investisiya layihələrinin və s. qarşılıqlı asılılığını şərtləndirir və 9) qloballaşma dünya birliyinin həyatının bütün sahələrində unifikasiya və standartlaşdırma meyillərini gücləndirir və s [2, s.90].

**Beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsirinin araşdırılması**

Qeyd edək ki, qloballaşma prosesləri BMB-lərə təsir göstərir və bu bazarlarda səmərəli işləmək üçün onların strukturunu, mahiyyətini, mexanizmini, fəaliyyət xüsusiyyətlərini, ayrı-ayrı bazar subyektlərinin rolunu və yerini aydın başa düşmək lazımdır. Təşkilati tərəfdən BMB maliyyə aktivlərinin yaradılması və qlobal mübadiləsi üçün institusional struktur deməkdir. BMB dünya iqtisadiyyatının müxtəlif sektorlarında kapitalın qlobal səfərbərliyinə, kreditlərin verilməsinə, mübadilə əməliyyatlarının həyata keçirilməsinə və maliyyə resurslarının rasional yerləşdirilməsinə yönəldilmişdir. Geniş mənada BMB-lər ölkələr arasında pul kapitalının yığılmasını və yenidən bölüşdürülməsini təmin edən bazar münasibətləri sferasıdır. Dünya iqtisadi sisteminin mühüm tərkib hissələrindən olan maliyyə bazarlarının inkişafı nəticəsində BMB-lər formalaşıb və müasir dövrdə bu proses genişlənməkdədir. Milli valyutaların başqa ölkələrin milli valyutalarına dəyişdirilməsi zərurəti ildən-ilə artmış, maliyyə əməliyyatları milli hüdudlardan kənara çıxmış, təsərrüfat subyektləri iqtisadi əməliyyatlarını reallaşdırmaq məqsədilə lazım olan maliyyə resurslarını öz ölkələrindən kənarda axtarmağa məcbur olmuşlar və beləliklə, BMB-lər yaranmışdır [3, s.9].

BMB-lərin müasir inkişafında əsas tendensiya onun qloballaşması olmuşdur. BMB-lərin davamlı inkişafı və strukturlaşması sayəsində maliyyə qloballaşması mümkün oldu ki, bu da onların inkişaf prosesini əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Məhz iqtisadiyyatın real sektorunda qloballaşmanı xeyli qabaqlayan maliyyə qloballaşması BMB-lərin bütün sahələrinin fəaliyyətinə yeni tələblər qoyur. Buna əsas maliyyə mərkəzlərini vahid qlobal bazarda birləşdirən yeni informasiya texnologiyalarının, risklərin idarə edilməsi mexanizmlərinə əsaslanan yeni valyuta və kredit-maliyyə alətlərinin yaranması və inkişafı, əməliyyat xərclərinin və maliyyə əməliyyatlarının vaxtının kəskin azalması kimi amillər kömək etmişdir [4, s.56]. Son onilliklər qlobal maliyyə sektorunun həm strukturunda, həm də texnologiyasında böyük dəyişikliklərlə səciyyələnir. BMB-lərdə baş verən proseslər və informasiya sistemlərinin sürətli inkişafı bu dəyişikliklərə ən çox təsir etmişdir. Həmin bazarların müasir fəaliyyətində qloballaşma və regionallaşma kimi meyillər mövcuddur. BMB dar mənada fond bazarıdır və bu bazarı təkcə ticarət edilən maliyyə məhsullarının və xidmətlərinin növləri və formaları əsasında deyil, həm də onun mal və xidmətlərinin alqı-satqısı proseslərinin tənzimlənməsi və nəzarəti imkanları baxımından strukturlaşdırmaq vacibdir. BMB-lərin strukturu əməliyyatların yeri ilə müəyyənləşdirilir [5, s.32]. BMB-lər sahəsində tədqiqatlar kifayət qədər uzun müddətdir ki, davam edir. Həmin bazarların ayrı-ayrı sektorlarının formalaşması və inkişafının təhlili yerli və xarici iqtisadçılar tərəfindən aparılmışdır. BMB-lərin əsas iştirakçılarından biri kimi beynəlxalq maliyyə-kredit təşkilatları çıxış edir. Bu təşkilatlar beynəlxalq hesablaşmaların dayanıqlılığının qorunub saxlanmasında, bank, valyuta, kredit əməliyyatlarının yerinə yetirilməsində dünya ölkələri arasında maliyyə-kredit münasibətlərinin tənzimlənməsində və ümumilikdə iqtisadi münasibətlərə kömək göstərməkdə önəmli rol oynayır. Qlobal iqtisadiyyatda kapitalın hərəkəti sərbəst olduğu üçün beynəlxalq maliyyə-kredit təşkilatları borc almaq, borc vermək, investisiya qoymaq və maliyyə xidmətləri göstərmək funksiyalarını yerinə yetirmək məqsədilə aparıcı maliyyə mərkəzlərində öz bölmələrini yaratmaq imkanı əldə edirlər [6, s.440; 7, s.41].

BMB-lərdə əməliyyatlar öz iştirakçılarına investisiyaların şaxələndirilməsi, qabaqcıl texnologiyaların inkişafı üzrə dünya liderləri olan perspektivli müəssisələrə investisiyaların gəlirliliyinin artırılması, habelə törəmə alətlərlə

əməliyyatlar vasitəsilə risklərin sığortalanması üçün geniş imkanlar yaradır. Belə əməliyyatların, onların iştirakçılarının artması BMB-lərin səmərəliliyinin tədricən artmasına səbəb olur. Bu proses maliyyə qloballaşması şəraitində özünü göstərən obyektiv tendensiyadır. Maliyyə qloballaşması BMB-lərdə gedən və getdikcə dinamikləşən proseslərin mürəkkəbləşməsinə gətirib çıxarır. Bundan əlavə, onların milli maliyyə bazarları ilə əlaqələrinin parametrləri dəyişir. Belə şəraitdə qeyri-xətti iqtisadi və riyazi modellər beynəlxalq maliyyə idarəçiliyi sahəsində qərarların qəbulu üçün istifadə olunan göstəricilərin proqnozlaşdırıla bilməsini təkmilləşdirə bilər. BMB-lərin strukturunun dəqiq aydınlaşdırılması kifayət qədər problemlidir. Elmi ədəbiyyatda onların strukturlaşdırılması üçün müxtəlif meyarlardan istifadə olunur ki, bu meyarlara əsasən onlar, ya kapital bazarı, ya fond bazarı ilə eyniləşdirilir, ya da pul bazarı ilə kapital bazarının birləşməsi kimi qəbul edilir. BMB-lərin voyaltiliyinin artması, inkişafının qeyri-bərabərliyi, dünya iqtisadiyyatının real sektoruna dərin təsiri nəzərə alınaraq orada islahatların aparılmasını zəruri edir [8, s.121]. BMB-ləri müxtəlif meyarlara görə təsnif etməyin bir neçə yolu var. Sövdələşmənin obyektindən asılı olaraq onlar maliyyə bazarı bir-biri ilə əlaqəli bir sıra seqmentləri əhatə edir və həmin bazarlar arasında qiymətli kağızlar bazarı, valyuta, kredit kapitalı, fond, sığorta və qızıl bazarları var.

Şəkil 1-də beynəlxalq maliyyə bazarlarının ümumiləşdirilmiş strukturunu vermişik.




**Şəkil 1. Beynəlxalq maliyyə bazarlarının ümumiləşdirilmiş strukturu (Mənbə: müəllif tərəfindən tərtib olunub)**

Müasir beynəlxalq qiymətli kağızlar bazarının təkamülü xüsusi xüsusiyyətlərə malikdir. Kapitalların təmərküzləşməsi və onların daimi mərkəzləşdirilməsi eyni vaxtda gedir. Bu, bir tərəfdən yeni oyunçuların fond bazarına daxil olmasına, ticarəti əsas və ya köməkçi fəaliyyətinə çevirməsinə, digər tərəfdən isə böyük oyunçuların kapitallarının böyüməsinə və ya böyük şirkətlərin birləşməsi yolu ilə ayrılmasına imkan verir. Müasir investorlar artıq öz pullarını aşağı faizlə banklara yerləşdirmirlər, böyük şirkətlərin səhmlərini almağa və onların fəaliyyətindən divident almağa üstünlük verirlər. Bu təcrübə olduqca risklidir, lakin ondan əldə edilən gəlir daha əhəmiyyətlidir. Aparıcı beynəlxalq şirkətlərə və banklara sahib olan dövlətlərdən qlobal kapital axını nəticəsində transmilli fond bazarları formalaşmışdır. Onların yaradılması aşağıdakı səbəblərin təsiri ilə sürətləndi: xarici investisiya kapitalının cəlb edilməsinə ehtiyac olan layihələrin formalaşmasına səbəb olan sürətli elmi-texniki inqilab; inteqrasiya prosedurlarının işlənib

hazırlanması; birjada məzənnənin və kotirovkaların sabitliyi; ümumi çoxmillətli valyutalardan istifadə; bank və mübadilə sektorunun inkişafında nailiyyətlər. Beynəlxalq fond bazarının geosiyasi sərhədlərinin genişlənməsini şərtləndirən amillərə aşağıdakılar daxildir: 1) iqtisadiyyatın milli və xarici sektorları arasında artan əlaqə; 2) birjaların rolunun və əhəmiyyətinin artırılması; 3) ödəniş hesablaşmalarının təkmilləşdirilməsi; 4) banklararası telekommunikasiyanın inkişafı. Beynəlxalq fond bazarının mövcudluğunun əsas iqtisadi əlamətləri aşağıdakılardır: 1) kapitalın qiymətli kağızlar şəklində ölkələr arasında hərəkəti; 2) qiymətli kağızların beynəlxalq ticarəti üçün mərkəzlərin olması və 3) hər hansı konkret ölkənin yurisdiksiyasına aid olmayan beynəlxalq qiymətli kağızların buraxılması [9, s.59].

Hazırda dünya iqtisadiyyatında ən mühüm və təsirli maliyyə alətlərindən biri beynəlxalq kreditdir. Bu, istənilən ölkə üçün önəmli rol oynayır və onun bütün mövcudluğu ərzində ən azı bir dəfə müxtəlif beynəlxalq maliyyə təşkilatlarından maliyyə yardımı və ya dəstəyi cəlb etməsi ilə bağlıdır. Beynəlxalq kredit borc vermə formasıdır, bir dövlətin kreditorunun digər dövlətin borcalanına nağd pul şəklində və ya əmtəə formasında ödəniş, təxirəsalınmazlıq, geri ödəmə şərtləri ilə kredit verməsidir. Belə kreditin verilməsinin əsas səbəbi yerli istehsalın milli sərhəddən kənarda genişlənməsidir. Belə ki, ölkə borc götürdüyü vəsait hesabına digər ölkələrlə münasibətləri yaxşılaşdırır və öz məhsullarını dövlətlərə təklif edir. Beynəlxalq kredit hər bir dövlətin həyatında müsbət və mənfi rol oynayır. Beləliklə, genişlənmə həm yeni iş yerlərinin açılmasına, həm də müəssisənin özünün mənfəətinin artmasına kömək edir. Sənaye və istehsalın beynəlmiləlləşməsində böyük önəm daşıyır. Beynəlxalq kredit bazarının inkişafı nəticəsində maliyyələşdirmə proseslərinin dərinləşməsi müşahidə olunur ki, bu da dövlətin iqtisadiyyatına müsbət təsir göstərir. Beynəlxalq kreditin formaları müxtəlif meyarlara görə təsnif edilir, lakin onun mahiyyətini müəyyən edən funksiyalar azdır. Bunlara aşağıdakılar daxildir: kredit kapitalının dövlətlər arasında yenidən bölüşdürülməsi; beynəlxalq ödənişlər sahəsində paylama xərclərinə qənaət; konsentrasiyanın artırılması və kapitalın mərkəzləşdirilməsinin sürətləndirilməsi.

**Qlobal maliyyə silkələnmələri şəraitində beynəlxalq maliyyə bazarlarının müxtəlif seqmentlərinin xüsusiyyətləri və iqtisadi qloballaşmaya təsiri**

Qeyd edək ki, beynəlxalq kreditin mühüm funksiyası borc kapitalının müxtəlif ölkələr arasında yenidən bölüşdürülməsidir, çünki bu, istehsalın genişlənməsinə kömək edir. Dövlətlərin iqtisadiyyatının inkişafı ilə beynəlxalq kreditin inkişafı və təkmilləşməsi baş verir. Bu, dövlətlər arasında iqtisadi əməkdaşlığın müxtəlif formalarının genişləndirilməsi prosesində özünü göstərir. Belə bir kreditin köməyi ilə dövlətin istehsalı fasiləsiz işləyir, bunun nəticəsində onun daim genişlənmək imkanı yaranır.

Beynəlxalq kredit beynəlxalq kredit bazarının əsas obyektidir. Beynəlxalq kredit bazarı BMB-nin bir seqmentidir ki, burada kredit kapitalı borc alan ölkələrlə kreditor ölkələr arasında ödəniş, geri ödəmə və təcililik prinsipləri əsasında hərəkət edir. Beynəlxalq kredit bazarı (və ya kredit kapitalı bazarı) ölkələr arasında kredit kapitalının hərəkətinin qaytarılma, təcililik, təminat, faizlərin ödənilməsi, tələb və təklif şərtləri əsasında həyata keçirildiyi bazar münasibətləri sahəsidir. Beynəlxalq kredit bazarının köməyi ilə kredit resursları yığılır və ölkələr arasında yenidən bölüşdürülür. Bu bazarda dünyanın aparıcı ölkələrinin valyutalarından və beynəlxalq valyuta vahidlərindən (ABŞ dolları, avro) istifadə olunur. Bu bazarın xarakterik xüsusiyyəti onun çoxşaxəliliyidir ki, həmin bazarda müxtəlif əməliyyatlardan (kredit, hesablaşma, valyuta, konsal-tinq və s.) istifadə olunur. Əməliyyatların aparılması prosesi maksimum standartlaşdırılıb və ən son kompüter texnologiyalarının köməyi ilə reallaşdırılır [10, s.186]. Bu günə qədər beynəlxalq kredit bazarı borcalanlara məhdud çıxışla xarakterizə olunur və dünyanın aparıcı ölkələrinin valyutalarından və beynəlxalq valyuta vahidlərindən - ABŞ dolları, avro və digərlərindən istifadə edir. Beynəlxalq kredit bazarı dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin mövcud şəraitində bir sıra inkişaf meyillərinə malikdir. Birincisi, iri bankların çoxlu sayda birləşməsi və satın alınması və kredit bazarının yeni tənzimlənməsi sisteminin formalaşması nəticəsində beynəlxalq kredit bazarının dörd qatlı strukturu yaranmışdır. Strukturun birinci səviyyəsini aparıcı dövlətlərüstü və maliyyə institutlarının kiçik bir qrupu - BVF, Dünya Bankı

Qrupu və s. tutur. İkinci səviyyə mərkəzi banklar tərəfindən milli və regional (Avropa Mərkəzi Bankı) kimi təmsil olunur. Üçüncü səviyyəni törəmə və filiallar sistemi olan transmilli banklar tutur. Dördüncü səviyyə isə bütün bankların 90%-ni tutan adi kommersiya banklarıdır. Bundan əlavə¸ avrokreditlər və avrobondları əhatə edən avrovalyuta uzunmüddətli kreditləşmənin payı artır. Kreditorlar əsasən sırf banklardan yaradılmış sindikatlardır. Son illərdə digər tendensiya Amerika, Avropa və Cənub-Şərqi Asiyada banklar arasında artan rəqabətdir. Ümumi aktivlərə görə Avropa bankları birinci yerdədir, lakin əməliyyatların səmərəliliyinə görə Amerika bankları birinci yerdədir, Asiya banklarına gəldikdə isə onlar kredit bazarının Avropa və Amerika sektorlarına fəal şəkildə müdaxilə edir. Bundan başqa, BVF beynəlxalq kredit bazarında dünya ölkələri arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsinə nəzarətçi, tənzimləyici, məsləhətverici və təminat kimi daha böyük təsir və əhəmiyyətə malikdir.

Qızıl bazarları sənaye və daxili istehlak, şəxsi yığım, investisiya, risk sığortası, spekulyasiya və beynəlxalq hesablaşmalar üçün zəruri valyutanın əldə edilməsi üçün müntəzəm olaraq bazar qiymətinə alınıb satılan qızılın ticarəti üçün xüsusi mərkəzlərdir.

Yuxarıda qeyd etdiyimiz bütün BMB-lərə qloballaşma prosesləri önəmli dərəcədə təsir edir. Bu təsir müsbət və ya mənfi ola bilər. Həmin təsirləri şəkil 2 vasitəsilə əks etdirə bilərik.

**Qloballaşma proseslərinin beynəlxalq maliyyə bazarlarına təsirləri**

**Müsbət təsirlər:**
- ucuz maliyyə-valyuta və maliyyə-kredit resurslarının cəlb olunmasına çıxışın olması;
- yeni maliyyə bank texnologiyalarının yaranması və tədbiqi;
- maliyyə-iqtisadi kadrların müvafiq xarici təcrübəni mənimsəməsi və tətbiq etmək imkanının olması və s.

**Mənfi təsirlər:**
- valyuta-maliyyə sferasında böhran hadisələrinin dünya bazarlarından milli bazarlara ötürülməsi;
- iqtisadi tədbirlər və pul uğrunda dünya maliyyə bazarının ölkəyə siyasi təsirinin güclənməsinin baş verməsi;
- xarici maliyyə bazarlarında iş təcrübəsi alan kadrların, adətən xaricilərlə şəriklik qaydasında yaradılan birgə müəssisələrdə işləməsi və s.

**Şəkil 2. Qloballaşma proseslərinin beynəlxalq maliyyə bazarlarına təsirləri (mənbə: müəllif tərəfindən tərtib olunub).**

BMB sahəsində qloballaşma özünü bu bazarın universallaşması, yəni maliyyə alətlərinin dövriyyəsi üçün vahid prosedurların yaradılması və maliyyə institutlarının standartlaşdırılması kimi göstərir. İqtisadiyyatın qloballaşdığı indiki dövrdə BMB-lərin rolunun artması aydın nəzərə çarpır ki, bu da investisiya prosesi sistemində kapitalın yenidən bölüşdürülməsi və toplanması mexanizmi kimi çıxış edir. Əmtəə istehsalına olan tələbat BMB-lərin yaranmasına və onun inkişafına təkan vermişdir. BMB-lərin üstünlükləri arasında xüsusi kapital qoyuluşu hesabına əldə edilmiş yeni texnologiyalar vasitəsilə əmək məhsuldarlığının yüksəldilməsini, qabaqcıl sənaye sahələrinin sürətli inkişafını və ETT-ni qeyd etmək olar.

**Nəticə**

Beləliklə, iqtisadiyyatın qloballaşdığı müasir mərhələdə BMB-lərin inkişafında ən xarakterik meyilləri ayırmaq olar.

– Birincisi, bu, müxtəlif ölkələrin rezidentləri tərəfindən kreditləşmə və borclanma əməliyyatları baxımından beynəlxalq bazarların rolunun gücləndirilməsini özündə ehtiva edən bazarların qloballaşmasıdır.

– İkinci tendensiya bazarların beynəlmiləlləşməsidir. Bu, beynəlxalq maliyyə institutları və korporasiyalar şəbəkəsini genişləndirir, xarici ölkələrdə biznesin payını artırır, həmçinin bu maliyyə institutlarının və korporasiyalarının təşkilati sistemlərinə təsir göstərir. Beynəlmiləlləşmə ilə qloballaşma arasında ciddi fərqlər var. Beynəlmiləlləşmə ölkələr arasında davamlı

iqtisadi əlaqələrin inkişafıdır. Beynəlmiləlləşmə əsasən xarici bazarlarda əməliyyatların artdığı bir vəziyyətə aiddir, qloballaşma isə milli iqtisadiyyatların, o cümlədən maliyyə bazarlarının artan inteqrasiyası deməkdir ki, bu da son nəticədə vahid bazarın yaradılmasına gətirib çıxarır.

– Üçüncü tendensiya müxtəlif ölkələrin rezidentləri olan bazar subyektləri arasında BMB-lər üzrə beynəlxalq rəqabətin artmasıdır ki, bu da onların səmərəli inkişafına kömək edir. Beləliklə, maneələr aradan qalxır və bazar tarazlığı yaranır. Bununla belə, rəqabət maliyyə institutları və korporasiyaların iqtisadi səmərəliliyinin, hökumətlər üçün isə milli iqtisadiyyatların siyasi və iqtisadi sabitliyinin təmin edilməsi baxımından tələbləri əhəmiyyətli dərəcədə artırır.

– Dördüncüsü, onlar beynəlxalq bazarların inteqrasiyasını nəzərdə tutur. Xarici maliyyə institutları, kreditorlar və borcalanlar aktiv olduqları milli borc bazarlarına daha fəal şəkildə daxil olurlar.

– Beşinci tendensiya BMB-lərin yaxınlaşması prosesidir. Qlobal borc maliyyələşdirmə bazarlarının sektorları və seqmentləri arasında maneələr, həmçinin bəzi qanunvericilik qadağaları aradan qalxır və həm borcalanlar, həm də kreditorlar arasında beynəlxalq əməliyyatların sayı artır. Eyni dərəcədə mühüm tendensiya dünya kredit bazarlarının konsentrasiyasıdır. Bu proses investisiya, kommersiya və universal banklar, sığorta şirkətləri və pensiya fondları üçün xarakterikdir. Beynəlxalq bazar maliyyə institutlarını və borcalan korporasiyaları özünə cəlb etməklə, onların kredit kapitalını təmərküzləşməyə və birləşməyə aparır.

BMB-lərin inkişafında nəzərə çarpan altıncı tendensiya vasitəçiliyin aradan qaldırılması, yəni maliyyə vasitəçilərinin (brokerlərin, bankların) müxtəlif əməliyyatlardan kənarlaşdırılmasıdır ki, bu da əməliyyatın hər iki tərəfinə komissiya haqlarını və digər ödənişlərin dəyərini azaltmağa imkan verir və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Струк, Т.Г. Новые явления в мировом финансовом секторе и на мировом финансовом рынке / Т. Г. Струк //. – 2019. № 1. – с. 22-26.
2. Дорофеева, К.М. Основные параметры глобализации экономического и социального развития / К.М. Дорофеева, С.О. С. Гхаит // Економіка. Управління. Інновації. – 2016. № 2(17), – с. 82-93.
3. Hacıyeva, A.M. Qloballaşma şəraitində maliyyə bazarlarının müasir vəziyyəti və inkişaf istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, – Bakı, 2018, –26 s.
4. Лихтарова, О.В. Проблемы и перспективы развития международного финансового рынка в условиях финансовой глобализации / О.В. Лихтарова // Азимут научных исследований: экономика и управление. – 2015. № 3(12), – с. 55-58.
5. Международный финансовый рынок: Учебник и практикум / Е.А. Звонова, М.А. Эскиндаров, А.В. Навой [и др.]. – 1-е изд. – Москва: Издательство Юрайт, 2018. – 453 с. – (Бакалавр и магистр. Академический курс). – ISBN 978-5-9916-8904-5. – EDN IESOYH.
6. Ataşov, B.X. Maliyyə bazarları. Ali məktəblər üçün dərslik. Bakı: Kooperasiya nəşriyyatı, 2016, – 456 s.
7. Сорокоумов, В.С. Глобализация мировых финансовых рынков / В.С. Сорокоумов, Ю.С. Жаркова // Проблемы науки. – 2018. № 8(32). – с. 38-41.
8. Локтионова, Ю.Н. Особенности современной структуры мирового финансового рынка / Ю.Н. Локтионова, О.О. Толкачева // . – 2017. № 2, – с. 116-123.
9. Коновалова, М.Е. Мировой рынок ценных бумаги тенденции его развития / М. Е. Коновалова, О. Ю. Кузьмина, Л. В. Левченко //. – 2018. № 121. – с. 58-61.
10. Есиева, А.А. Современные тенденции развития мирового кредитного рынка / А.А. Есиева // Актуальные вопросы современной экономики. – 2019. № 1, – с. 186-191.

**Туркан Гамлет гызы НАБИЕВА, докторант**
кафедры «Мировая экономика» БГУ
E-mail: tnabiyeva23@gmail.com

# ВОПРОСЫ ВЛИЯНИЯ МЕЖДУНАРОДНЫХ ФИНАНСОВЫХ РЫНКОВ НА ЭКОНОМИЧЕСКУЮ ГЛОБАЛИЗАЦИЮ В СОВРЕМЕННОМ ПЕРИОДЕ

**Резюме**

**Целью исследования** – является рассмотрение вопросов влияния международных финансовых рынков на экономическую глобализацию в современном периоде. С этой целью раскрыты и анализированы проблемы развития международных финансовых рынков в контексте нынешних тенденций глобализации. Рассмотрены основные направления развития и поведения участников международных финансовых рынков. Обобщено влияние международных финансовых рынков на экономическую глобализацию в целом. Рассмотрены характерные тенденции развития международных финансовых рынков и определены группы факторов, отражающих влияние на глобализацию экономики в мире.

**Методы исследования** – состоят из ряда экономических методов, в том числе синтеза, анализа и обобщения. Наряду с этим, рассмотрены научные взгляды группы учёных по проблемам экономической глобализации и влияния на нее международных финансовых рынков.

**Результаты исследования -** отражены в обобщённых выводах о влиянии глобальных финансовых рынков на процессы экономической глобализации в современных условиях. Рассматриваются возможности использования полученных научных предположений для формирования концептуальных подходов по исследуемым проблемам.

**Ключевые слова:** международные финансовые рынки, глобальное влияние, глобальные тенденции, экономическая глобализация, влияние международных финансовых рынков на экономическую глобализацию, участники международных финансовых рынков.

**Turkan Hamlet gizi NABİYEVA, doctoral student**
Baku State University Department "World Economy"
E-mail: **tnabiyeva23@gmail.com**

# ISSUES OF THE INFLUENCE OF INTERNATIONAL FINANCIAL MARKETS ON ECONOMIC GLOBALIZATION IN THE MODERN PERIOD

**Summary**

**The purpose of the research** is to consider the impact of international financial markets on economic globalization in the modern period. To this end, the challenges of the development of international financial markets in the context of the current trends of globalization are analyzed. The main directions of development and behavior of participants in international financial markets are considered. The impact of international financial markets on economic globalization as a whole is summarized. Typical trends in the development of international financial markets are considered and groups of factors reflecting the impact on the globalization of the economy in the world are determined.

**Research methods -** consist of a number of economic methods, including synthesis, analysis and generalization. Along with this, the scientific views of a group of scientists on the problems of economic globalization and the influence of international financial markets on it are considered.

**The results of the research** are reflected in the generalized conclusions on the impact of global financial markets on the processes of economic globalization in modern conditions. The possibilities of using the obtained scientific assumptions to form conceptual approaches to the problems under study are considered.

**Keywords:** international financial markets, global influence, global trends, economic globalization, influence of international financial markets on economic globalization, participants of international financial markets.

**Nicat Adil oğlu NƏRİMANOV, i.f.d., dos.**

**Leyla Samir qızı MEHTİYEVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Həbibə Sabit qızı MUSTAFAYEVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: mina34mk@mail.ru

# XARİCİ İNVESTİSİYA QOYULUŞUNUN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**Xülasə**

İnvestisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin yüksəldilməsi mühüm tədbirlərdəndir. Onun təmin olunması bir sıra problemlərin həllini tələb edir ki, onlardan da iki ən mühümünü ayırmaq olar. Birinci, əlverişli investisiya mühitinin formalaşdırılması üçün kompleks tədbirlərin keçirilməsinin zəruriliyi. Qeyd edək ki, bu tədbirlərin həyata keçirilməsi son nəticədə investisiya qoyuluşu imkanlarının genişlənməsinə gətirib çıxarır. Ikincisi, investisiya qoyuluşlarının konkret istiqamətlərdə texniki təminatının yüksəldilməsidir. Başqa sözlə, xarici investisya qoyuluşlarında müasir standartlara cavab verən texnika və texnologiyalara üstünlük verilməsinə cəhd olunmalıdır.

**Açar sözlər:** investisiya, iqtisadi səmərə, kapital, lisenziya, iqtisadi subyekt

**UOT: 338.12:338.34:330.36**
**JEL: E20**

## Giriş

Qeyd etməliyik ki, investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin müəyyən edilməsi konkret metodologiyaya əsaslanır. Hələ keçmiş ittifaq dövründə iqtisadiyyatda kapital qoyuluşlarının bölgüsünün plan metoduna əsaslanan metodika fəaliyyət göstərmiş və onun əsasında çoxsaylı metodiki sənədlər hazırlanmışdır. Kapital qoyuluşlarının müəyyənləşdirilməsinin geniş yayılmış həmin metodikası müxtəlif istehsal təyinatına və məsrəflərin həcminə əsaslanırdı. Bu metodikaya əsasən kapital qoyuluşlarının ən yaxşı variantı, onun əsasında gələcək müəssisənin illik məhsulunun dəyərilə tikintiyə sərf olunan kapital qoyuluşunun həcminin normativ səmərəlilik əmsalı ilə müəyyən edilirdi.

İqtisadi səmərəlilik, həmçinin əmək məhsuldarlığının yüksəldilməsində və vacib əhəmiyyət kəsb edən digər iqtisadi məsələlərin müsbət həllində əks olunur. Bu yanaşmadan indiki şəraitdə investisya qoyuluşlarının səmərəliliyinin müəyyənləşdirilməsinin əsasən iki iqtisadi və sosial aspektləri fərqləndirilir.

İttifaqın dağılması müstəqil dövlətlərin meydana gəlməsi, yeni iqtisadi sistemə keçid üçün ölkəmizdə hüquqi baza yaradılmış, təşkilati-idarəetmə strukturları formalaşdırılmış, istehlak bazarında anti inhisar tədbirləri görülmüş, iqtisadi idarəetmənin bazar vasitələrindən geniş istifadə olunmasına başlanmışdır. Son 16 ildə həyata keçirilən iqtisadi islahatlar ölkənin planlı sosializm iqtisadi sistemindən bazar iqtisadiyyatı sisteminə keçidi üçün labüd olan maddi-texniki bazanın yaradılmasında iqtisadiyyata böyük həcmdə investisiya cəlb edilməsinə şərait yaratdı. Əldə edilmiş bütün uğurlarla yanaşı ölkəmizin iqtisadiyyatının müasir durumunun iddiaçı qiymətləndirilməsi göstərir ki, iqtisadiyyatda öz həllini gözləyən problemlər də meydana gəlmişdir.

**Mövzunun aktuallığı:** Milli iqtisadi inkişafın təcrid olunmuş halda həyata keçirilməsinin qeyri mümkünlüyü faktı istər-istəməz xarici amillərin tam ciddiliklə nəzərə alınmasını tələb edir. Başqa sözlə, qapalı iqtisadi məkandan dünya təsərrüfatına inteqrasiya edilməsi artıq ümumbəşəri problemə çevrilmişdir. Milli dövlət mənafelərinin birbaşa regional və qlobal mənafelərdən asılılığı isə iqtisadi inteqrasiyanı zəruri bir amilə çevirir. Resursların məhdudluğu və onlara olan tələbatın durmadan inkişafı istənilən cəmiyyəti xarici resursların ölkəyə cəlb olunması üsullarını

axtarmağa məcbur edir. Xüsusən bazar münasibətlərinə keçid şəraitində müxtəlif layihələrə investisiya qoyuluşu çox böyük əhəmiyyətə malikdir. Onsuz əsas istehsal fondlarının təzələnməsi, geniş təkrar istehsalı və onunla əlaqədar rəqabət qabiliyyətli məhsul istehsalı, deməli, ölkənin inkişafının sosial-iqtisadi problemlərinin həlli mümkün deyildir. Bazar iqtisadiyyatı şəraitində cəmiyyətin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsi mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsi, ETT-nin nailiyyətlərinin istehsala tətbiqi və bu kimi yeniliklər investisiya qoyuluşlarından asılıdır. Ölkədə iqtisadi inkişaf xarici investisiya və xarici texnologiya, yeni təşkilati idarəetmə strukturları və sərt büdcə məhdudiyyəti mövcud olduqda mümkündür. Bu şərtlər o zaman optimal səmərə verir ki, onlar yerli xüsusiyyətləri nəzərə alırlar, o xüsusiyyətlərlə birlikdə həyata keçirilirlər.

**Təqdiqiqatın məqsədi:** Xarici investisiyya qoyuluşunun iqtisadi səmərəliliyinin artırılması yollarının müəyyənləşdirilməsindən və onun formalaşdırılmasının zəruriliyinin əsaslandırılmasından xarici investisiyaların artım ehtiyatlarını aşkarlamaqdan və Azərbaycanda milli iqtisadiyyatın formalaşmasına yönəldilmiş investisiyaların iqtisadi səmərəliliyini təhlil etmək və qiymətləndirməkdən, onların yüksəldilməsini təmin edən tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqat obyekti:** Ölkənin iqtisadi artımına investisiya qoyuluşunda tədqiqat həlledici rola mənsub olduğuna görə, xarici investisiyaların tənzimlənməsi, nəzarəti, cəlbi, metodologiyası, qiymətləndirilməsi, yatırımın prioritet istiqamətlərini əhatə edir.

**Tədqiqat metodları:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış və təsdiq edilmiş metodoloji normativ materiallardan geniş istifadə olunmuşdur. Milli hesablar sisteminin materialları tətbiq edilməklə investisiya resurslarının yaranması, istifadəsi, iqtisadi səmərəliliyi və onların iqtisadi artıma təsiri müəyyən edilmişdir.

**Materiallar və müzakirələr**

İnvestisya qoyuluşunun iqtisadi aspektdə səmərəliliyinin müəyyənləşdirilməsi zamanı əsas və əlaqəli istehsal məsrəflərinin daha ətraflı nəzərə alınmasına cəhd olunur. Burada ümumi məsrəfdə həm istehsalçıda həm də istehlakçıda yaranan effektin məbləği aydınlaşdırılır və ümumi iqtisadi səmərəlilik alınan efektin investisiya qoyuluşlarına münasibəti kimi dəyərləndirilir. Bu zaman ümumiləşdirici göstərici kimi məhsulun və ya xidmətin həcminin artımı təmin olunduqda kapital tutumunun səviyyəsi, əmək məhsuldarlığı, məhsulun maya dəyəri, məhsulun texniki keyfiyyət səviyyəsi, məhsulun və ya xidmətin material və enerji tutumu, istehsalın davamlığı, layihə gücünün mənimsənilməsi, əmək şəraitinin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və s. müəyyən edilir.

İnvestisiya qoyuluşlarının sosial nəticələrinin müəyyənləşdirilməsi isə onun sosial normalar, standartlar və insan hüquqlarının qorunması ilə uyğunluq dərəcəsinin müqayisəsini əks etdirir. Bu baxımdan investisiya qoyuluşlarının sosial nəticələrini əks etdirən göstəricilərə aşağıdakıları aid etmək olar [1]:

- iş yerlərinin kəmiyyət dəyişikliyi;
- əhalinin yaşayış və mədəni-məişət şəraitinin yaxşılaşması;
- əmək şəraitinin dəyişdirilməsi;
- istehsal heyətinin strukturunun dəyişməsi;
- əhalinin sağlamlıq səviyyəsinin yüksəlməsi;
- əhalinin ayrı-ayrı tələbatının ödənilməsində müsbət dəyişiklik.

İnvestisiya qoyuluşlarının səmərəliliyi bir neçə aspektdə, o cümlədən bütövlükdə ölkə iqtisadiyyatına makrosəviyyədə, yəni, eyni texnologiyalara əsaslanan iri müəssisələr qrupu səviyyəsində hesablandığı zaman formulda əks etdirilmiş göstəricilər müvafiq olaraq kapital qoyuluşları nəticəsində mənfəətin artımının bütün maliyyə mənbələri üzrə kapital qoyuluşlarına nisbəti kimi əks etdirilir. Yeni yaradılmış müəssisələr səviyyəsində isə layihə üzrə illik məhsul buraxılışının topdansatış qiymətilə, illik məhsulun dəyəri arasındakı fərqin kapital qoyuluşlarına nisbəti əks etdirilir [3].

Qeyd etmək lazımdır ki, investisiya yatırımlarının iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi zamanı kəmiyyətcə qiymətləndirilməsi mümkün olmayan siyasi, sosial, ekoloji və digər nəticələrə əlavə səmərəlilik amilləri kimi baxılır və onlar dövlət tərəfindən investisiya qoyuluşlarının həyata keçirilməsi zamanı nəzərə alınır.

Bazar iqtisadiyyatı şəraitində uzun müddətli xərc və eyni zamanda, uzun müddətli gəlir gətirəcəyi nəzərdə tutulan investisiya qoyuluşlarının səmərəliliyinin investora əvvəlcədən

məlum olması çox vacib şərtdir. Belə ki, azad rəqabət şəraitində xüsusi sahibkarlıq üçün geniş imkanların yaranması və investisiya fəaliyyətinin növ müxtəlifliyi kapital sahibinin daha diqqətli olmasını tələb edir. İnvestisiya xarakterli idarəetmə qərarlarının qəbulu prosesinin əsasında nəzərdə tutulan investisiya ilə gələcəkdə daxil olacaq pul həcmlərinin müqayisəsi və qiymətləndirilməsi durur.

Müqayisə edilən göstəricilər müxtəlif vaxt anlarına aid olduğundan burada əsas problem onların müqayisəsidir. Mövcud şəraitdə, o cümlədən inflyasiya tempindən, investisiyaların ölçüsündən, daxilolmalardan, proqnozlaşdırma vaxtından və s. asılı olaraq bu məsələyə müxtəlif aspektlərdən yanaşmaq mümkündür.

Müasir dövrdə investisya qoyuluşlarının iqtisadi səmərəliliyinin müəyyən edilməsi istiqamətində müxtəlif metodlardan istifadə olunur ki, onlar da diskontlaşdırılmış qiymətləndirməyə və uçot qiymətləndirməyə əsaslanan iki qrupa bölünür. Diskontlaşdırma “Xərclər-faydalar” və “Alternativ dəyər” konsepsiyasına əsaslanır və bütün xərclərin uçotunu nəzərdə tutur. Bu zaman yalnız bütün hiss olunan material xərcləri deyil, mənəvi məsrəflər də nəzərə alınır. Faydaların və məsrəflərin qiymətləndirilməsi zamanı vəziyyət deyil, son nəticə araşdırılır.

Ümumiyyətlə, investisiya xarakterli qərarların qəbul olunması prosesinin əsasında, nəzərdə tutulan investisiya ilə gələcəkdə daxil olacaq vəsaitin müqayisəsi və qiymətləndirilməsi durur. Müqayisə edilən göstəricilər müxtəlif vaxt anlarına aid olduğundan, burada əsas problem onların uyğunluğudur.

Müstəqillik qazandıqdan sonra ölkəmizdə aparılan iqtisadi islahatların mühüm istiqamətlərindən biri xarici investisiya qoyuluşunun səmərəliliyinin yüksəldilməsidir. Bu istiqamətdə görülən tədbirlərdən biri xarici iqtisadi əlaqələrin liberallaşdırılmasıdır. Təbii olaraq, liberallaşma tədiyə balansının həm cari əməliyyatlarını, həm də kapitalın hərəkətli hesablarını əhatə edir. Bu aspektdən ilkin olaraq cari əməliyyatlar üzərində məhdudiyyətlər qısa müddət ərzində aradan qaldırılmışdır. Cari valyuta əməliyyatları üzərində heç bir məhdudiyyətin olmaması müvafiq qanunvericilikdə də təsbit edilmişdir. Hal-hazırda ölkəmiz BVF ilə sazişin VIII maddəsinə də qoşulmuşdur. Ölkəyə xarici valyuta mədaxilinin məcburi satışı qaydası da ləğv olunmuşdur.

Birbaşa investisiyalar, yeni gəlir əldə etmək və müəssisənin idarə edilməsində iştirak etmək hüququna malik olmaq məqsədi ilə müəssisənin nizamnamə kapitalına qoyulan sərmayə ; qiymətli kağızların əldə edilməsi; torpaq da daxil olmaqla binalar, qurğular, eləcə də, yerləşdiyi ölkənin qanunvericiliyi ilə daşınmaz əmlaka aid edilən digər əmlak üzərində mülkiyyət hüququnun, habelə daşınmaz əmlak üzərində başqa hüquqların ödənilməsi üzrə köçürmələr; əmtəə və xidmətlərin ixracı və idxalı üzrə 180 gündən artıq müddətə ödəniş möhlətinin verilməsi və alınması;

Xarici kapitalın ölkəyə daxil olması üzərində heç bir məhdudiyyət yoxdur. Ölkəmiz xarici sərmayələrin ən effektiv forması olan birbaşa xarici investisiyalardan adambaşına düşən paya görə nəinki MDB məkanında, eləcə də Şərqi Avropa ölkələri arasında ən qabaqcıl yerlərdən birini tutur. Dövlət, eləcə də digər iqtisadi subyektlər dünyanın aparıcı beynəlxalq əmtəə dövrüyyəsi kredit təşkilatları ilə, yüksək reytinqə əmtəəlik xarici banklarla əməkdaşlıq əlaqələri qurmuş və onlardan iri həcmlərdə uzunmüddətli borc vəsaitləri cəlb etmişlər [5].

Səmərəliliyin yüksəldilməsində ölkənin bank sistemində xarici kapitalın iştirakı əhəmiyyətli dərəcədə liberallaşdırılmışdır. Belə ki, bank sistemində xarici bank kapitalının iştirak limiti artıq aradan qaldırılmışdır. Qanunvericiliyə görə xarici investorlar tərəfindən mənfəətin repatriasiyasına da icazə verilmişdir. Hal-hazırda ölkədən kapitalın getməsinə “Valyuta tənzimi haqqında” qanunun 8-ci maddəsində göstərilmiş qaydada riayət olunur.

İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədi ilə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Bunun üçün aşağıda qeyd olunan tədbirlər həyata keçirilir:

- şəxsi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi;
- mülkiyyətin formasından asılı olmayaraq bütün investorlar üçün daha əlverişli rəqabət mühitinin yaradılması;
- stabil normativ-hüquqi rejimin təmin edilməsi məqsədi ilə dövlətin rolunun artırılması;
- investisiya fəaliyyətinin normativ-hüquqi bazasının daha da təkmilləşdirilməsi;
- investisiya obyektlərinin seçimi və təhlili məqsədi ilə müəssisələr haqqında investorların məlumatlandırılması sisteminin yaxşılaşdırılması;

- əmanətlərin investisiyalara səmərəli transformasiyasını təmin edən müasir institusional infrastrukturun inkişaf prosesinə yardımın artırılması;

- biznesin informasiya təminatının yaxşılaşdırılması, mühasibat uçotunun və statistikanın beynəlxalq standartlara uyğunlaşdırılması.

Xarici investorların iqtisadi maraqlarının qorunması baxımından Azərbaycan iqtisadiyyatının üstünlüklərini iki qrupda cəmləmək mümkündür: 1-ci qrup amillər bütün inkişaf etməkdə olan ölkələrə, o cümlədən Azərbaycana xas olan üstünlüklərdir. 2-ci qrup üstünlüklər isə birbaşa Azərbaycana aid olan üstünlüklərdir. İnkişaf etməkdə olan ölkələrə, o cümlədən Azərbaycana aid olan üstünlüklər aşağıdakılardır [7]:

1) inkişaf etməkdə olan ölkə olduğuna görə inkişaf potensialı inkişaf etmiş ölkələrlə müqayisədə dəfələrlə çoxdur. Daha çox inkişaf daha çox gəlir əldə etmək imkanı deməkdir. Bu prinsip dünyadakı transmilli şirkətləri daha çox inkişaf etməkdə olan ölkələrə investisiya qoymağa həvəsləndirir;

2) iri firmalar zəif inkişaf etdiyindən, daxildə rəqabət güclü deyil;

3) inkişaf etməkdə olan ölkələr yüksək risk qarşılığında daha çox gəlir əldə etmək imkanına malikdirlər;

4) inkişaf etməkdə olan ölkələrdə xarici investorlar bürokratik əngəllərlə yerli investorlarla müqayisədə daha az üzləşirlər.

Birbaşa Azərbaycana xas olana üstünlüklərdən aşağıdakıları göstərmək olar:

1) Azərbaycanın əlverişli coğrafi-nəqliyyat mövqeyinə malik olması ilə yanaşı, burada inkişaf etmiş beynəlxalq əhəmiyyətli nəqliyyat şəbəkəsi (hava, su, dəmiryolu və avtomobil yolları, neft və qaz kəmərləri) vardır. Bu, xariclə intensiv əlaqələr yaratmaq imkanını asanlaşdırır;

2) Zəngin təbii-iqtisadi potensiala (zəngin mineral-xammal ehtiyatları, məhsuldar torpaqlar, əlverişli təbii-iqlim şəraiti, bol və ucuz işçi qüvvəsi və s.) malikdir;

3) Bir sıra müasir texniki-iqtisadi bazaya malik sənaye müəssisələri, istehsal sahələri və infrastruktur obyektləri mövcuddur;

4) Güclü elmi-texniki potensial və ixtisaslı kadr ehtiyatı vardır;

5) Xarici investisiyaların cəlb olunması və onun müdafiəsi, xarici iqtisadi əlaqələrin liberallaşdırılması və inkişafı haqqında bir sıra vacib qanunların və hüquqi-normativ aktların qəbul olunması və onların həyata keçirilməsi üçün təşkilati-idarəetmə mexanizminin yaradılması;

6) Dünyanın bir sıra nüfuzlu xarici şirkətləri ilə birgə təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olan müəssisələrin yaradılması;

7) Dünyanın aparıcı ölkələri ilə dövlətlərarası iqtisadi müqavilələrin bağlanması, beynəlxalq müqavilə və sazişlərə qoşulma, beynəlxalq və regional iqtisadi birliklərə və təşkilatlara daxil olma və s. Ölkəmizin malik olduğu bu üstünlüklərdən istifadə edərək xarici investisiyaların cəlb edilməsini sürətləndirmək və biznesin inkişafına mane olan məhdudiyyətləri aradan qaldırılmaq lazımdır.

Ölkədə iqtisadiyyatın, sənayenin və özəl sektorun inkişafına mane olan amillər sırasında fəaliyyət sahələrinin lisenziyalaşdırılması sisteminin qeyri-mükəmməlliyi və bu səbəbdən də bürokratik əngəllərin yaranması kimi mənfi halların qarşısının alınması istiqamətində də əməli addımlar atılmışdır. Lisenziyalaşdırılan iqtisadi və sahibkarlıq fəaliyyəti sahələrinin sayı azaldılmış və bu istiqamətdə münbit mühitin yaradılması üzrə mühüm qanunvericilik sənədləri qəbul edilmişdir.

Bununla yanaşı, investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- dövlət orqanları və bələdiyyələr tərəfindən sahibkarlıq subyektlərinə, o cümlədən xarici investorlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, onların əhatə dairəsinin genişləndirilməsi və bu sahədə şəffaflığın artırılması məqsədi ilə elektron xidmət növlərinin genişləndirilməsi;
- sahibkarlıq subyektlərinin, o cümlədən xarici investisiyalı hüquqi şəxslərin qeydiyyatı, tikintiyə icazələrin verilməsi, kommunal şəbəkələrə qoşulma, daşınmaz əmlak hüquqlarının dövlət qeydiyyatı, işçi qüvvəsinin cəlb olunması, xarici ticarət və sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin digər sahələrində prosedur, müddət və xərclərin azaldılması, eyni zamanda, xarici investisiyaların cəlb olunması, qorunması və təşviqinə yönəlmiş qanunvericilik aktlarının təkmilləşdirilməsi, o cümlədən xarici ölkələrlə investisiyaların qarşılıqlı qorunması və təşviqi sahəsində ikitərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi;

- müvafiq dövlət orqanları tərəfindən sahibkarlıq subyektlərinə, o cümlədən xarici investorlara “vahid pəncərə” prinsipi əsasında göstərilən xidmət növlərinin genişləndirilməsi;
- xarici investorlara və ixracatçılara xidmət göstərən investisiyaların və ixracın təşviqi üzrə institusional mexanizmlərinin gücləndirilməsi və ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi;
- ölkə iqtisadiyyatına, xüsusilə iqtisadi subyektlərin layihələrinə birbaşa xarici investisiyaların qiymətli kağızlar bazarı vasitəsi ilə cəlb edilməsinin stimullaşdırılması, bunun üçün qiymətli kağızlar bazarının institusional inkişafı, maliyyə vasitəçiliyi və kollektiv investisiya sxemlərinin fəaliyyətinin təşkili və təşviqi, qiymətli kağızlar bazarında tələb və təklifin dəstəklənməsi, maliyyə şəffaflığı prinsinplərinin və korporativ idarəetmənin tətbiqinin genişləndirilməsi, qiymətli kağızlar bazarına dair normativ-hüquqi bazanın təkmilləşdirilməsi və qiymətli kağızlar bazarına dair məlumatlılığın və peşəkar hazırlığın yüksəldilməsi;
- Azərbaycanın ÜTT-yə üzvlüyünün sürətləndirilməsi;
- regional inteqrasiya bloklarında fəal iştirak etmək, həmçinin region ölkələri ilə ikitərəfli müqavilə imzalayaraq xarici ticarətlə bağlı qarşılıqlı güzəştlər əldə etmək;

Beynəlxalq təcrübə göstərir ki, inkişaf etmiş biznes infrastrukturuna malik olan ölkələr investorları özlərinə daha çox cəlb edirlər. İnvestorlar belə ölkələri əlverişli investisiya iqliminə malik olan ölkələr kimi qiymətləndirirlər.

Aydındır ki, bazar müstəqil olaraq investisiya mühiti yarada bilməz. Bu ilk öncə dövlətin qayğısıdır. İnvestisiya fəailiyyətinin canlandırılması və səmərəli investisiya siyasətinin həyata keçirilməsində dövlətin xüsusi rolu vardır. İqtisadiyyatın transformasiyası dövründə bu xüsusi ilə zəruridir.

İqtisadi yüksəliş və investisiya fəallığının artırılması üçün mövcud potensialından maksimum istifadə etmək məqsədilə dövlətin səmərəli makroiqtisadi siyasəti olmalıdır və bu halda daxili investisiya iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi çıxış edə bilər. Uzun müddətli investisiyalaşdırma üçün kommersiya banklarını stimullaşdırmaq məqsədi ilə müəyyən vergi və hüquqi güzəştlərin verilməsi, onların fəailyyətinin qiymətləndirilməsi və nəzarət edilməsi qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılması, əmanətlərin mükafatlandırılmasının və vəsaitlərin prioritet sahələrə yerləşdirilməsinin çevik və işlək mexanişminin, əmtəə dövriyyəsi infrastrukturunun və s. formalaşdırılması da əsas məsələlərdəndir.

Xarici firmaları ölkəyə cəlb etmək üçün regionda ölkəmiz bir sıqa üstünlüklərə malikdir. Bunlara aşağıdakıları misal göstərmək olar [8]:

1. Ölkənin əlverişli corafi-nəqliyyat mövqeyinə malik olması ilə yanaşı, burada inkişaf etmiş beynəlxalq əhəmiyyətli nəqliyyat şəbəkəsi də (hava, su, dəmiryolu və avtomobil yolları, neft qaz kəmərləri) vardır ki, bu da beynəlxalq bazarla intensiv əlaqələr və mübadilənin yaradılması imkanını asanlaşdırır;
2. Azərbaycan güclü təbii-iqtisadi potensiala malikdir;
3. Ölkənin bir sira müasir texniki-iqtisadi bazaya malik əmtəəlik sənaye müəssisələri, istehsal sahələri və infrastruktur obyektləri mövcuddur;
4. Ölkənin bir sıra sahələrində güclü elmi potensiallı və ixtisaslı kadr ehtiyyatı mövcuddur;
5. Xarici investisiyaların cəlb olunması onun mühafizəsi haqqında, xarici iqtisadi əlaqələrin liberallaşdırılması və inkişafı haqqında və bir sıra bu kimi digər hüquqi-normativ aktların qəbul olunması və onların həyata keçirilməsi üçün təşkilati idarəetmə işlərinin görülməsi;
6. Resbublikanın bir çox ölkələrlə dövlətlərarası iqtisadi əlaqələrə dair müqavilələr bağlaması, bir sıra beynəlxalq müqavilə və sazişlərə qoşulması, bir beynəlxalq və regional iqtisadi birliklərə daxil olması və s.

Son illərdə çox doğru olaraq dövlətin struktur siyasətinin istiqaməti dəyişdirilərək, qeyri-səmərəli fəaliyyət göstərən müəssisələrə dəstək göstərməyin əvəzinə daha çox infrastrukturun inkişafına, mobil işçi qüvvəsinin təmin edilməsinə, yeni sektorların dəstəklənməsinə (ilk növbədə, innovasiya və informasiya sahələrinin), müəssisələrin, təbii inhisarların yenidən qurulmasının və islahatların stimullaşdırılmasına yönəldilmişdir. Dövlət həmçinin ixracın diversifikasiyasını dəstəkləyən emal sahələrinin, xüsusilə də yüksək texnoloji sahələrin məhsulunun həcmini tədricən artırmalıdır. İqtisadiyyatın belə geniş miqyaslı modernləşdirilməsi qısa müddətdə başa çatdırıla bilməz. Onun reallaşdırılması üçün

bir neçə il tələb olunacaq və bu proses bir neçə mərhələdən ibarət olacaqdır. Sabitlik sahibkarlıq risklərini azaldır, intellektual kapitalın bərpa olunmasına zəmin yaradır və sosial bərabərsizliyin səviyyəsini aşağı endirir. Əlverişli investisiya mühitinin yaradılmasında əsas məqsəd və vəzifələr ümumiqtisadi inkişaf strategiyası ilə uzlaşmalıdır. Məhz, buna görə də, ölkəmizdə investisiya mühitinin köklü şəkildə yaxşılaşdırılması yaxın onilliyin ən əsas məqsədlərindən biri olmalıdır. Fikrimizcə, indiki inkişaf mərhələsində, bunu təmin etmədən davamlı və dayanıqlı, balanslı iqtisadi inkişafı təmin etmək mümkün olmayacaqdır.

**Nəticə**

İqtisadi nəzəriyyələrdən məlumdur ki, resuslar nə qədər məhdud olarsa, onun daha da səmərəli istifadə edilməsinə tələb artar. Bu nöqteyi nəzərdən dövlətin investisiya qoyuluşlarının maliyyələşdirilməsi məhdudluğu aktuallıq kəsb edir. Müstəqilliyin ilk dövrlərində milli iqtisadiyyat böhran vəziyyətinə düşmüşdür. Bu şəraitdə yeganə yol xarici investisiyaların ölkəyə cəlb olunması yolu ilə milli iqtisadiyyatı yenidən dirçəltmək öz ayaqları üstünə qaldırmaq idi. Məhz bu amilə görə də, həmin dövrdə vacib məsələ Azərbaycanın investisiya siyasətinin, əsas xarici investisiyaların daha çox neft sektoruna cəlb olunması idi. Xarici investorlar üçün investisiya mühitinin formalaşması sahəsində müəyyən tədbirlər görüldü. Bunun nəticəsidir ki, Azərbaycanın iqtisadiyyatına qoyulan investisiyaların həcmi milyard dollarlarla hesablanır.

Ölkəmizin müasir investisiya siyasətinin əsas xüsusiyyəti isə iqtisadiyyatın neftdən asılılığının tamamilə azaldılması və neftdən gələn gəlirdən qeyri-neft sektoruna investisiya şəklində yönləndirilməsi yolu ilə bu sektorun yüksək inkişafına nail olmaqla müəyyən olunur. Buna nail olmaq üçün isə mövcud istehsal obyektlərinə innovasion investisiyalar yönəltməklə onların istehsal gücünü artırmaq və elmi texniki tərəqqinin son nailiyyətlərindən istifadə etməklə yeni istehsal müəssisələri yaratmaq.

Halhazırda yaxın şərqdə yeni alovlanan müharibələr iqtisadi əlaqələrə ölümcül zərbələr endirir. İran, İraq, Suriya, Misir kimi ölkələrdə vətəndaş müharibələri istehsal və xidmət infrastrukturlarını məhv etmiş, ticarət və nəqliyyat xətləri tam şəkildə sıradan çıxmışdır. Qonşu Türkiyə Cümuhiriyyəti hal-hazırda ölkə daxilində və Anadolu hissəsində aktiv şəkildə antiterror əməliyyatları aparır. Ölkəsinin ən böyük yüngül sənaye ixracatçısı olan Rusiya ilə halhazırda iqtisadi əlaqələr böhran vəziyyətindədir. Bir çox mallara Rusiya tərəfindən qadağalar qoyulub. Terror səbəbi ilə proqnozlaşdırılan turist gəlişinin də özünü dogrultmayacaqı gözlənilir.

Yuxarıda qeyd olunanlar ölkəmizin regonda sabit iqtisadi duruma malik olduğunu daha qabarıq şəkildə göstərir və gələcək xarici investisiyaların regionda bizim ölkəyə yatırılmasına zəmin yaradır.

**Tədqiqatın elmi yeniliyi:**

- Hazırkı iqtisadi vəziyyəti nəzərə alaraq investisiya qoyuluşlarında istehlak mallarının və emal sənayesinin prioritetliyinin qəbul edilməsi və dövlətin investisiyalarının bu sahələrə yönəldilməsinin zəruriliyi əsaslandırılmışdır;
- iqtisadi siyasətdə xarici investisiyaların roluna yenidən baxılması və onların sənayenin qeyri-neft sektoruna və kənd təsərrüfatına yatırılması nəzəri praktiki cəhətdən əsaslandırılmışdır;
- xarici investisiyaların artırılmasının real ehtiyyatları aşkar edilmiş və onların stimullaşdırılması yolları barədə təkliflər hazırlanmışdır;
- ölkəmizdə iqtisadiyyatın xarici investisiyaların iqtisadi və sosial səmərəliliyini əks etdirən göstəricilər sistemi əsaslandırılmış və faktiki materiallar əsasında onların hesablanması həyata keçirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Əsas müddəalar, nəticələr və irəli sürülən təkliflər müəssisənin idarə edilməsi siyasətində, o cümlədən xarici investisiya qoyuluşunun həyata keçirilməsi zamanı risklərin tarazlaşdırılması və optimallaşdırılması ilə bağlı istifadə oluna bilər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Abbasov Ç.A. “Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları”.Bakı,2005.
2. Aliyev İ.H. İbadov S.A. “Azərbaycan iqtisadiyyatı”. Bakı,1998.
3. Namazova C. “Investisiyalar”. Bakı, 2014.
4. Zeynalov V.Z. “Azərbaycanda İnvaestisiya siyasəti”. Bakı,2012.
5. Hüseynov T. “Azərbaycanda İnvestisiyalar”
6. Əliyev F.B. “İnvestisiya layihələrinin təhlili və dəyərləndirilməsi”. Bakı, 2003.

7. Sabiroğlu N. "Qloballaşma xarici investisiyalar". Bakı, 2006.

8. Atakişiyev M. "Azərbaycan social iqtisadi tərəqqi yolunda". Bakı, 2005.

**Ниджат Адиль оглы НАРИМАНОВ, к. э. н.**

**Лейла Самир кызы МЕХТИЕВА**

**Хебибе Сабит кызы МУСТАФАЕВА**
Азербайджанский Технологический Университет
E-maıl: mina34mk@mail.ru

# ПУТИ ПОВЫШЕНИЯ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ

**Резюме**

Основной целью проекта является улучшение анализа экономической эффективности и оценки инвестиций, направленных на формирование национального роста экономики иностранных инвестиций в Азербайджане, так и для выявления и определения путей укрепления ее внешнеэкономических инвестиций необходимо обеспечить резюме работал с ними запасные инвестиции тезис. Нынешняя экономическая ситуация, учитывая ситуацию потребительских товаров и перерабатывающей промышленности инвестиций в этой сфере стало принятие государственных инвестиций, направленных на обоснование важности и приоритетности. Экономическая политика Роль иностранных инвестиций в не нефтяной сектор промышленности и их пересмотра и пресечения к сельскому хозяйству быть оправдано с практической точки зрения. Реальные запасы были обнаружены и их предложения о путях стимулирования увеличения иностранных инвестиций.

**Ключевые слова:** инвестиции, экономическая эффективность, капитал, лицензия, экономический субъект

**Nijat Adil oqlu NARİMANOV, Ph.D**

**Leyla Samir gizi MEHDİYEVA**

**Hebibe Sabit gizi MUSTAFAYEVA**
Azerbaijan Technological University
E-maıl: mina34mk@mail.ru

# WAYS TO IMPROVE THE ECONOMIC EFFICIENCY OF FOREIGN INVESTMENT

**Summary**

The main goal of the project is to improve the cost-benefit analysis and evaluation of investments aimed at shaping the national growth of the foreign investment economy in Azerbaijan, and to identify and determine ways to strengthen its foreign economic investment, it is necessary to provide a summary worked with them for spare investment thesis. The current economic situation, given the situation of consumer goods and manufacturing industry investment in this area has been the adoption of public investment aimed at justifying the importance and priority. Economic policy The role of foreign investment in the non-oil sector of the industry and their revision and curbing of agriculture can be justified from a practical point of view. Real reserves have been discovered and their proposals for ways to encourage more foreign investment.

**Keywords:** investments, economic efficiency, capital, license, economic entity

**Mahir Tahir oğlu QARAYEV**
Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı
E-mail: mahir.qarayev@gmail.com

# AQRAR SAHƏNİN MADDİ-TEXNİKİ BAZASININ İNKİŞAF ETDİRİLMƏSİ PERSPEKTİVLƏRİ

**Xülasə**

Qloballaşma prosesi şəraitində aqrar iqtisadiyyatın müasir inkişaf səviyyəsi kənd təsərrüfatının maddi-texniki bazasının modernləşdirilməsini və ondan daha səmərəli istifadə imkanlarının müəyyənləşdirilməsini önə çəkir. Bu baxımdan aqrar sahədə maddi-texniki resurslarla təchizatın istehsalçıların tələblərinə uyğunlaşdırılması ən mühüm məsələlərdən hesab edilir. Ona görə də, elmi-texniki tərəqqinin sürətləndirilməsi hesabına kənd təsərrüfatının müvafiq sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi bu istiqamətdə ən mühüm şərtlərdəndir.

**Açar sözlər:** maddi-texniki resurs, elmi-texniki potensial, təchizat, məhsuldarlıq, modernləşmə, səmərə.

**UOT:** 338.518
**JEL:** Q16

**Giriş**

**Mövzunun aktuallığı.** Araşdırmalar göstərir ki, sənayenin tədarük etdiyi istehsal vasitələrinin bölüşdürülməsi və dövriyyəsi prosesini həyata keçirən bu sahə aqrar-sənaye sferasının maddi-texniki bazasının formalaşmasına və inkişafına, əmək məhsuldarlığının artmasına təsir göstərir. Sənayedən kənd təsərrüfatına və aqrar-sənayenin digər sahələrinə maddi-texniki vasitələrin rasional təşviqindən tutmuş, mövcud istehsal müəssisələrinin normal işləməsi, xüsusən avadanlığın ehtiyat hissələri və təmiri yolu ilə onların işlək vəziyyətdə saxlanılmasından əhəmiyyətli dərəcədə asılıdır. Ona görə də, təchizat sistemində struktur dəyişikliklərinin xarakterik cəhəti obyektiv iqtisadi qanunların ən dolğun şəkildə nəzərə alınması və praktikada istifadə olunmasını tələb edir. Bu baxımdan aqrar sahənin dayanıqlı inkişafında maddi-texniki ehtiyatların istehlakçıları ilə təchizatçıları arasında rasional iqtisadi münasibətlərin qurulması həlledici rol oynayır.

Aqrar-sənaye sferasında maddi-texniki ehtiyatların istehsalçıları və istehlakçıları arasında birləşdirici əlaqə emal müəssisələrini, səhmdar cəmiyyətləri, kənd təsərrüfatı kooperativlərini və fermer təsərrüfatlarını maddi resurslarla təmin edən aqrar tədarük təşkilatlarına aiddir. Qeyd etmək lazımdır ki, maddi-texniki təchizatın mütərəqqi formalarının tətbiqində istehlakçıların, təchizatçıların, aqrar-sənaye müəssisələrində maddi ehtiyatların operativ idarə edilməsi vəzifəsi heç də az əhəmiyyət kəsb etmir. Belə şəraitdə kənd təsərrüfatı istehsal infrastrukturunun ən vacib sahələrindən biri kimi logistika sektoru ilə daha səmərəli iqtisadi əlaqələrin formalaşdırılması tələb olunur. Bütün bunlar mövzunun aktuallığını şərtləndirən əsas amillərdir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi aqrar sahənin dayanıqlı inkişafında mühüm rol oynayan maddi-texniki bazadan daha səmərəli istifadənin elmi əsaslarının araşdırılmasından, bu sahədə mövcud vəziyyəti təhlil etməklə maddi-texniki bazanın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Aqrar iqtisadiyyatın müasir inkişaf səviyyəsi və qloballaşma prosesi aqrar-sənaye sferasında maddi-texniki ehtiyatların yenidən formaladırılmasını, onun modernləşdirilməsini və daha səmərəli istifadə imkanlarının müəyyənləşdirilməsini tələb edir. Bu mexanizm maddi-texniki resurslarla təchizatın bazarın tələblərinə uyğunlaşdırılmasını önə çəkməklə, istehlakçı ilə istehsalçı arasında qarşılıqlı əlaqələri gücləndirmək, maddi ehtiyatlar çatışmazlığını aradan qaldırmaq, hər bir müəssisəyə öz maliyyə vəziyyəti daxilində tələbatlarına cavab verən maddi-texniki resurslar əldə etmək üçün real

imkanlar yaratmaq vəzifələrini müəyyən edir [4, s.56].

Müasir şəraitdə ölkə iqtisadiyyatının təşkili və idarə edilməsinin təkmilləşdirilməsi sahəsində yeni çağırışlar aqrar sahənin maddi-texniki təchizatı sisteminə də aiddir. Məlumdur ki, aqrar sahədə fəaliyyət göstərən bütün müəssisə və təşkilatların uğurlu fəaliyyəti daha çox bu sistemin rəvan və fasiləsiz işləməsindən asılıdır. Bu baxımdan aqrar-sənaye müəssisələrinin daha təkmil idarə edilməsində müvafiq struktur dəyişikliyinin aparılmasını və ilk növbədə, maddi-texniki vasitələrin topdansatış ticarətinə tez və tam keçidini zəruri etmişdir. Elmi-texniki tərəqqinin sürətləndirilməsi, istehsal potensialından səmərəli istifadə və kənd təsərrüfatının müvafiq sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ölkənin iqtisadi təhlükəsizliyinin uğurla həyata keçirilməsinin mühüm şərtidir [2, s.16]. Belə şəraitdə aqrar-sənaye sferasının maddi-texniki vasitələr istehsal edən sahələri ilə kənd təsərrüfatı arasında vasitəçi kimi maddi-texniki təminat sahəsinin rolu böyükdür.

## Materiallar və müzakirələr

Kənd təsərrüfatı müəssisələrinin maddi-texniki bazası istehsal, satış və istehlakın təşkili prosesində iştirak edən vasitələrin məcmusunu əks etdirir. İqtisadi ədəbiyyatda istehsalın maddi-texniki bazası maddi sərvətlər yaratmaq və cəmiyyətə xidmət göstərmək üçün istifadə olunan məhsuldar qüvvələrin, istehsal mexanizminin elementlərinin məcmusu kimi xarakterizə olunur. İstənilən sosial-iqtisadi formasiya şəraitində istehsal prosesində və müəssisələrin fəaliyyətində həlledici rolu göstərilən amillərin mövcudluğu oynayır. Ümumiyyətlə, istehsal münasibətlərindən asılı olmayaraq, kənd təsərrüfatı istehsalını özündə ehtiva edən maddi istehsalın mühüm təbii-maddi elementi istehsal vasitələridir. Bu səbəbdən də, , qeyd etmək olar ki, kənd təsərrüfatı istehsalında məhsuldarlıq, müəssisələrin və ayrı-ayrı sahələrin inkişafı əsas fondlarla təminat səviyyəsindən, onların keyfiyyətindən və struktur tərkibindən asılıdır. Ona görə də, əsas fondların keyfiyyət və kəmiyyətcə təkrar istehsalı mikro və makro səviyyədə iqtisadi artımın zəruri şərti hesab edilir.

Bu cür tendensiyalar və əsas istehsal fondlarının təkrar istehsalı təsərrüfat subyektlərinin rentabelliyi ilə təmin edilir. Kənd təsərrüfatının əsas fondlarının təkrar istehsalının iqtisadi xarakterinə bir sıra amillər, xüsusən təsərrüfat subyektlərinin fəaliyyət göstərməsi üçün xarici mühit, onların istehsal fəaliyyətinin səmərəliliyi, əsas fondların fəaliyyətinin xarakteri və xüsusiyyətləri təsir göstərir. Təbii ki, istehsalın maddi-texniki bazasının mahiyyətini dərk etmədən təkrar istehsal proseslərinin lazımi sürət və nisbətlərlə təmin edilməsinə dair elmi ideyaların əsaslandırılması qeyri-mümkündür. Texniki təminat problemləri kənd təsərrüfatı istehsalı texnologiyalarının işində problemlərə, itkilərin artmasına, texnoloji geriliyə səbəb olur. Hazırda yerli maddi-texniki bazanın keyfiyyətinin aşağı olması innovativ texnologiyaların tətbiqinə və aqrar sahənin daha yüksək inkişaf səviyyəsinə keçidinə imkan vermir. Bu, kənd təsərrüfatı istehsalının maddi-texniki təminatının təkmilləşdirilməsini tələb edir.

İstehsal vasitələrinin artırılması baxımından aqrar iqtisadiyyatın strateji istiqamətlərinin əsas məqsədi innovasiya-investisiya modelinə uyğun olaraq kənd təsərrüfatının əsas fondlarının yenidən qurulması və yeniləşdirilməsidir [5, s.83]. İnnovasiya prosesi müxtəlif sahələrin fəaliyyətinin inkişafına xidmət etməklə nəzərdə tutulan tədbirlərin sistemli, kompleks həllini nəzərdə tutur. Bu zaman ən başlıca məqsəd maddi-texniki bazanı modernləşdirməklə yanaşı, elmi-texniki potensiala uyğun şəkildə elmtutumlu istehsalı təmin etməkdən ibarətdir.

Elmi-texniki tərəqqinin istehsalata tətbiqində onun təsiri ilə torpağın təbii məhsuldarlığının saxlanılması və artırılması xüsusi yer tutur. Elmi-texniki tərəqqi torpağın təbii məhsuldarlığını və təbii quruluşunu bərpa etməklə, həm də aqrar sahənin xüsusiyyətlərinin nəzərə alınması zərurətini şərtləndirir. Məlum olduğu kimi, torpaq kənd təsərrüfatında əsas istehsal vasitəsidir və elmin təsiri ilə torpaqda yeni xassələr formalaşır. Bu öz növbəsində innovasiya prosesinin yeni növ texnika və texnologiyaların mənimsənilməsi və istehsal olunan məhsulların modernləşdirilməsi baxımından fərqli yanaşma tələb edir. Daha müasir elmi texniki yeniliklərlə zəngin olan maşın, avadanlıq və materialların istehsalata

tətbiqi, daha təkmil istehsal üsullarından istifadəni şərtləndirir. Qeyd edilənlər həmçinin istehsalın təşkilində mütərəqqi idarəetmə metodlarının tətbiqini nəzərdə tutur.

Bu baxımdan əsas fondların sosial-iqtisadi mahiyyəti bu istehsal vasitələri arasındakı əlaqəni və fərqləri əks etdirən bir sıra əlamətlərə görə dövriyyə vəsaitləri ilə müqayisə edilərək aşkar edilir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehsal prosesində əsas fondların istismar müddəti ərzində istifadəsi onların istehlak xassələrinin itirilməsi prosesi ilə müşayiət olunur ki, bu da obyektin köhnəlməsi nəticəsində itkilərə səbəb olur. Ona görə, yüksək və təhlükəsiz texnologiyalardan istifadə etməklə kənd təsərrüfatı işlərinin tam dövriyyəsinin vaxtında və keyfiyyətli həyata keçirilməsini təmin edə bilən logistikanın texnoloji tələbat səviyyəsində kəmiyyət və keyfiyyətcə artırılması zəruridir. Bu baxımdan ən mühüm tədbirlərdən biri kimi kənd təsərrüfatı istehsalının texniki və texnoloji modernləşdirilməsinə dövlət dəstəyini və yerli kənd təsərrüfatı maşınqayırmasının inkişaf prioritetlərinə dair mövcud hüquqi aktların təkmilləşdirilməsini qeyd etmək olar.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı müəssisələrinin səmərəliliyinin artırılması maddi-texniki bazaya innovasiyalar və investisiyalar tətbiq edilmədən, praktiki olaraq mümkün deyil. Bu məqsədə nail olmaq üçün kənd təsərrüfatı istehsalının əsas kapitalına investisiyaların artırılması üçün müvafiq institusional və iqtisadi şərait yaratmaq lazımdır: əsas fondların yenilənməsinə dövlət dəstəyinin formalarının, istiqamətlərinin və ölçülərinin təkmilləşdirilməsi; məqbul dərəcələrlə aqrolizinq və kreditləşmənin inkişafına kömək; yüksək texnologiyalı, daha az enerji tutumlu, ekoloji cəhətdən təmiz növlər üzrə əsas fondların yenilənməsinə investisiyaların stimullaşdırılması və s. Təsadüfi deyil ki, bu sahədə müsbət nailiyyətlər əldə etmək üçün dövlət "rəqabətqabiliyyətli, yüksək texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılmasında iştirak etməklə, zəmanətli satış bazarlarının təmin edilməsi və xarici bazarlara çıxışının həvəsləndirilməsi və himayə edilməsi" [1] məsələlərini öz üzərinə götürür. .

Belə tədbirlərin nəticəsidir ki, son illər kənd təsərrüfatı istehsalçılarına güzəştli şərtlərlə texniki vasitələr satışı vasitəsilə bu sahədə çatışmazlıqların aradan qaldırılmasına çalışılır. Araşdırma göstərir ki, son 2016-2020-ci illər üzrə əksər kənd təsərrüfatı texnikalarının güzəştli satışında fərqli vəziyyət müşahidə edilir. Belə ki, 2016-cı ilə nisbətən traktorların satışı 2020-ci ildə 77,9% azalmışdır. Müqayisə olunan dövrdə kotanların satışında 80%, kultivatorların sayında 61,4%, səpici aqreqatlaırn sayında 73,9%, pambıqyığan kombaynların sayında 87,2%, gübrə səpən maşınların sayında 96,8% azalma baş vermişdir. Kənd təsərrüfatı texnika və maşınlar üzrə ən yüksək satış göstəricisi 2017-ci il üzrə müşahidə edilmiş, traktorların güzəştli satışı 36,6%, digər kənd təsərrüfatı maşın və avadanlıqlarının satışı 4,9 dəfə artmışdır [6].

İqtisadiyyatın modernləşdirilməsi şəraitində aqrar sahə məhsulları istehsalında mineral və üzvi gübrələrin verilməsinə, suvarma və torpaq eroziyasına qarşı mübarizə üçün yüksək məhsuldar maşınlarla təchiz edilməyə xüsusi diqqət yetirilir. Eyni zamanda, yem tədarükü və emalı, heyvandarlıq təsərrüfatlarının, komplekslərin və quşçuluq təsərrüfatlarının maddi-texniki təchizatı üçün maşın və avadanlıqların tədarükünün sabit templə artırılması önə çəkilir. Bu zaman, qabaqcıl təcrübənin və elmi-texniki tərəqqinin nailiyyətləri aşağıdakı istiqamətlərdə tətbiq oluna bilər: yemin hazırlanması və paylanmasının mexanikləşdirilməsi, binaların təmizlənməsi, su ilə təmin edilməsi, məhsulların daşına bilən vəziyyətə gətirilməsi, məhsulların daşınmasına nəzarətlə bağlı texnoloji proseslər və s. Heyvandarlıqda bu proseslər əsasən stasionar xarakter daşıyır, ona görə də, onlar nəinki mexanikləşdirilə bilər, hətta bəzi hallarda avtomatlaşdırıla bilər. Heyvandarlıq təsərrüfatlarının və komplekslərinin təminatı peşəkar mütəxəssislər tərəfindən həyata keçirilir, çünki sənaye texnologiyasında mexanikləşdirmə alətləri, elektrik avadanlıqları, avtomatlaşdırma alətləri və heyvandarlıq məhsullarının istehsalı və qəbulunun texnoloji prosesinə nəzarət ən mühüm məsələlərdən biri kimi qəbul edilir [3, s.35].

Heyvandarlıq məhsullarının istehsalının yeni mərhələyə keçidi müasir biliklərin heyvandarlıqda tətbiqi imkanlarına faydalı təsir göstərir. Buna görə də, heyvanların saxlanması üçün daha qabaqcıl texnologiyadan səmərəli

istifadə edən mövcud heyvandarlıq binalarından istifadə təcrübəsi diqqətə layiqdir. Heyvandarlığın səmərəli inkişafı ilk növbədə dayanıqlı yem istehsalına əsaslanır. Ona görə də, yem bitkilərinin məhsuldarlığının artırılması, otlaqların yaxşılaşdırılması üçün geniş tədbirlərin həyata keçirilməsi vacibdir. Bu, yemlərin tədarükü, emalı və istifadəsi üzrə müasir texnologiyalara keçidi sürətləndirməyi, ölkənin və onun regionlarının yem sənayesini daha fəal inkişaf etdirməyi tələb edir. Bununla əlaqədar olaraq, yem istehsalı, tədarükü və hazırlanması üçün yeni texnologiyalardan istifadə etməklə yem istehsalını təmin edən zəruri maşınların istehsalı və təchizatının əhəmiyyətli dərəcədə artırılması nəzərdə tutulur. Təcrübədə hazırlanan yemin keyfiyyətinin yaxşılaşdırılmasına və yemdə qidalandırıcı xüsusiyyətlərin maksimum dərəcədə qorunub saxlanmasına mühüm diqqət yetirilir. Eyni zamanda, yem istehsalının ənənəvi üsulları ilə yanaşı, ot ununun hazırlanması, yüksək məhsuldar yem yığan maşın və mexanizmlərin istifadəsi əhəmiyyətini qoruyur.

Aqrar iqtisadiyyatın modernləşdirilməsi kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinin növbəti mərhələsidir. Əsas özəlliyi ondan ibarətdir ki, istehsalçılar yeni, daha səmərəli kənd təsərrüfatı texnikası əldə etmək imkanına nail olur.. Burada əsas məqsəd mexanikləşdirmə işlərini gücləndirmək, kənd təsərrüfatı işlərinin müddətlərini qısaltmaq, iqtisadiyyatın bəzi yarımsahələrində kompleks mexanikləşdirilməni başa çatdırmaq və mexanikləşdirmə səviyyəsini yüksəltməkdir. Təcrübə göstərir ki, daha təkmil, yüksək məhsuldar maşınların əldə edilməsi, həmçinin istehsalın artırılması və kənd təsərrüfatına tədarükün artırılması, ilk növbədə yüksək sürətli və enerji ilə doymuş texnikaların alınması nəzərdə tutulur.

Aqrar sahənin davamlı inkişafının ən mühüm şərtlərindən biri də kənd təsərrüfatında elektrik enerjisindən daha da geniş və hərtərəfli istifadə olunmasıdır. Elektrik enerjisindən istifadə əmək məhsuldarlığını kəskin artırır, əhaliyə mədəni və məişət xidmətini yaxşılaşdırır, istehsal proseslərinin avtomatlaşdırılmasına və bir sıra hallarda iqtisadiyyatın aqrar bölməsində istehsalın kompleks mexanikləşdirilməsinə keçməyə imkan verir. Son illər kənd təsərrüfatının elektrikləşdirilməsi sahəsində mühüm dəyişikliklər baş vermişdir. Kənd təsərrüfatının demək olar ki, bütün obyektlərinin elektrikləşdirilməsi başa çatdırılmış, dövlət enerji sistemlərindən elektrik enerjisi istehlakının xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdır. Qeyd etmək lazımdır ki, elektrik enerjisindən istifadə, ilk növbədə, stasionar texnoloji proseslərdə - heyvandarlığın mexanikləşdirilməsi, kənd təsərrüfatı məhsullarının emalı, istixanalarda suvarma zamanı, ölkənin və rayonların sənaye yardımçı kənd təsərrüfatı müəssisələrində əhəmiyyətli dərəcədə artmışdır. Elektrik avadanlıqları ilə təchizatın artması və elektrik enerjisindən istehsal məqsədləri üçün və kənd əhalisinin məişətində daha geniş istifadə edilməsi hesabına elektrik enerjisinin ümumi istehlakı artmaqdadır. Ona görə də, hazırda aqrar sahənin elektrikləşdirilməsinin daha yüksək istehsal və infrastruktur bazasında həyata keçirilməsi nəzərdə tutulur.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, müasir şəraitdə elektrik enerjisindən istifadənin iqtisadi səmərəliliyinin artırılmasının ən mühüm amili kənd təsərrüfatı istehsalının ixtisaslaşmasıdır. Kənd təsərrüfatı istehsalında elektrik enerjisindən istifadənin genişləndirilməsi müasir elektron hesablama maşınlarından istifadə etməklə məhsuldar texnoloji proseslərin tətbiqinə səbəb olur. Beləliklə, aparılan təhlillərə əsasən belə qənaətə gəlməyə əsas verir ki, aqrar sahənin modernləşdirilməsi maddi-texniki bazanın təkmilləşməsinə və ondan daha effektiv istifadəyə gətirib çıxarır.

**Nəticə**

Aqrar sahənin inkişafında maddi-texniki bazadan səmərəli istifadə edilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması bir sıra nəticələri ümumiləşdirməyə imkan verir. İlk növbədə qeyd etmək olar ki, maddi-texni bazanın yaxşılaşdırılması elmi-texniki nailiyyətlərlə bağlıdır və bu amil, innovativ resurslarla istehsal arasındakı əlaqələrin genişləndirilməsini tələb edir. Kənd təsərrüfatının intensiv inkişafı şəraitdə səmərəliliyin yüksəldilməsi o zaman mümkün olur ki, onlar arasında qarşılıqlı təsir mexanizmi yaradılsın və maddi-texniki bazanın modernləşdirilməsi səviyyəsi optimal proporsiyalı inkişafa əsaslansın. Qeyd etmək lazımdır ki, elmi-texniki potensialdan

intensiv istifadə yalnız elmi nailiyyətlərin istehsalata tətbiqi ilə deyil, həm də kənd təsərrüfatında elmi resursların hər vahidinə görə daha çox əlavə məhsulun alınması yolu ilə qiymətləndirilir. Elmi-texniki nailiyyətlərdən istifadənin yaxşılaşdırılması öz növbəsində innovativ resursların istehsalata tətbiqinin stimullaşdırıcı xarakterini önə çəkir.

Göstərilənlərə əsaslanaraq demək olar ki, müasir şəraitdə aqrar sahədə elmin təşkilinə, onun nailiyyətlərindən istifadəni yaxşılaşdırmağa imkan verən mexanizmin yaradılması öz əhəmiyyətliliyini təsdiq etməklə istehsalın iqtisadi səmərəliliyini intensiv amillər hesabına artırmağa imkan verir. Ümumiyyətlə, aqrar sahədə innovasiya tətbiqinin təşkili yalnız istehsal prosesində yeniliklərin artmasına və miqyasının genişlənməsinə deyil, həm də yeni sortların, toxumların və heyvan cinslərinin keyfiyyətinə nəzarət etməyə imkan verir. Beləliklə, innovasiyaların və elmi-texniki məhsulların kənd təsərrüfatında istifadəsinin genişləndirilməsi istehsal sahələrinin kompleks surətdə resurslara qənaətini təmin etməyə, əsas istehsal resurslarının istifadəsinin optimallaşmasına, bitkiçilik və heyvandarlığın səmərəli sahə quruluşunun formalaşdırılmasına, çevik təşkilati-iqtisadi mexanizmin tətbiqinə zəmin yaradır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

-aqrar sahədə maddi-texniki bazanın formalaşdırılmasına təsir edən amillər müəyyənləşdirilmişdir;

-kənd təsərrüfatında maddi-texniki bazadan istifadənin istehsalın səmərəliliyinə təsiri müəyyən olunmuşdur;

-maddi-texniki resurslardan səmərəli istifadənin kənd təsərrüfatının dayanıqlığına təsiri müəyyən edilmişdir;

-maddi-texniki resurslardan istifadənin yaxşılaşdırılmasının prioritetləri müəyyənləşdirilmişdir;

-aqrar sahənin maddi-texniki bazasının inkişaf etdirilməsi imkanları və ondan daha səmərəli istifadə edilməsi yolları müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti aqrar sahədə maddi-texniki bazanın inkişaf etdirilməsi və maddi-texniki potensialdan istifadənin yaxşılaşdırılması hesabına iqtisadi səmərə əldə etmək imkanlarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Modernləşmə şəraitində kənd təsərrüfatında maddi-texniki bazanın inkişaf etdirilməsinin istehsalın iqtisadi səmərəliliyinə və aqrar sahənin dayanıqlı inkişafına təsiri baxımından iqtisadi cəhətdən daha effektiv tədbirlər müəyyənləşdirməyə imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu. 14 iyun 2016-cı il.

2. Косников С.Н. Оценка эффективности использования производственного потенциала сельскохозяйственных предприятий и развитие сельских территорий // Труды Кубанского государственного аграрного университета. - 2014. - № 50. - С. 13-18.

3. Кормановский Л.П., Цой Ю.А., Зеленцов А.И. Технологическое и техническое переоснащение молочных ферм: Учебное пособие. М.: Росинформа-гротех, 2014. 268 с.

4. Полухин А.А. Влияние рыночной конъюнктуры на формирование тракторного парка сельскохозяйственных организаций России // Современная конкуренция. 2012. № 34 (4). С. 53-60.

5. Зельднер А.Г. Привлечение инвестиций в инновационно-технологическое развитие АПК с использованием механизма государственно-частного партнерства // Никоновские чтения. 2016. Научно-техническое развитие АПК: проблемы и перспективы. М., 2016. С. 82-84.

6. www.stat.gov.az

**Махир Тахир оглы ГАРАЕВ**
Азербайджанский Государственный Аграрный Университет
E-mail: mahir.qarayev@gmail.com

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОЙ БАЗЫ АГРАРНОЙ ОТРАСЛИ

**Резюме**

В условиях процесса глобализации современный уровень развития аграрной экономики выдвигает на передний план модернизацию материально-технической базы сельского хозяйства и определение возможностей более рационального ее использования. С этой точки зрения наиболее важной задачей считается снабжение аграрной отрасли материально-техническими ресурсами в соответствии с потребностями производителей. Поэтому самыми важными условиями в этом направлении являются определение и осуществление мер укрепления материально-технической базы соответствующих отраслей сельского хозяйства за счет ускорения научно-технического прогресса.

**Ключевые слова:** материально-техническая база, научно-технический потенциал, снабжение, производительность, модернизация, эффективность.

**Mahir Tahir oghlu GARAYEV**
**Azerbaijan State Agrarian University**
E-mail: mahir.qarayev@gmail.com

## DEVELOPMENT OF MATERIAL AND TECHNICAL BASE OF THE AGRARIAN SECTOR PROSPECTS

**Summary**

In the context of globalization, the modern level of development of the agrarian economy leads to the modernization of the material and technical base of agriculture and the identification of opportunities for its more efficient use. From this point of view, one of the most important issues is to adapt the supply of material and technical resources in the agricultural sector to the requirements of producers. Therefore, the identification and implementation of measures to strengthen the material and technical base of relevant sectors of agriculture through the acceleration of scientific and technological progress is one of the most important conditions in this direction.

**Keywords:** material and technical resource, scientific and technical potential, supply, productivity, modernization, efficiency.

**Zakir Hacı oğlu ZEYNALOV, i.f.d., dosent**
Azərbaycan Dövlət İqtisad Universiteti

**Pərvin Cavanşir qızı TƏLAİ**
Azərbaycan Dövlət İqtisad Universitetinin Magistrantı
E-mail: pervintelai@gmail.com

# DAYANIQLI BANK SEKTORUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ƏHƏMİYYƏTİ

**Xülasə**

**Tədqiqatın məqsədi -** Bank sektorunun dayanıqlılığı uzunmüddətli perspektivdə dayanıqlı iqtisadi artımın təmin edilməsi üçün zəruri şərtdir. Tədqiqatın məqsədi sosial-iqtisadi inkişafa dair milli prioritetlərin həyata keçirilməsi çərçivəsində bank sektorunun dayanıqlılığının təmin olunması istiqamətlərini tədqiq etməkdir.

**Tədqiqatın metodologiyası -** Məqalədə bank sektorunun daynıqlılığına təsir edən amillər və ölkəmizdə bank sektorunun vəziyyəti ilə bağlı araşdırmalar aparılaraq analiz, sintez, müqayisəli təhlil, induksiya və deduksiya metodlarından istifadə edilmişdir.

**Tədqiqatın nəticələri -** Banklar bizim gündəlik həyatımıza və fəaliyyətlərimizə daxil olublar. Maaşları götürmək, hesabları ödəmək və gələcəyimiz üçün qənaət etmək kimi bir çox məsələlər buna aiddir. Bank işinin qeyri-sabitliyi iqtisadiyyat üçün mənfi nəticələrə səbəb olan maliyyə böhranına səbəb ola bilər, ona görə də dayanıqlı, sabit və sağlam bank sektoruna sahib olmaq çox vacibdir.

**Açar sözlər:** dayanıqlılıq, sosial-iqtisadi inkişaf, maliyyə sabitliyi, bank

**UOT:** 336.71
**JEL:** G21

## Giriş

Banklar olmadıqda, əmanətlərin necə stimullaşdırıla biləcəyini görmək çətindir. Həmçinin bu əmanətləri başqa kimin sahibkarlar arasında bölüşdürəcəyini də təsəvvür etmək olmur. Bankların vasitəsilə cəmiyyətin əmanətləri avtomatik olaraq məhsuldar olan yerlərə axır. Banklar təkcə öz təhlükəsizliyini deyil, həm də cəmiyyətin maliyyə resurslarından optimal istifadəsini təmin edir. Beləliklə, banklar cəmiyyətin maliyyə resurslarını səfərbər etməklə və onların arzu olunan yerlərə axınını təmin etməklə iqtisadi inkişafın təşviqində faydalı rol oynayırlar. Əgər bir ölkədə bank sistemi effektiv, səmərəli və nizam-intizamlıdırsa, bu, iqtisadiyyatın digər sahələrində də sürətli artıma səbəb olur. Banklar ilk növbədə kapitalın formalaşmasını təşviq edir. Kommersiya bankları maliyyə resurslarının artırılmasında önəmli rol oynayır. Bu banklar sahibkarlara yeni müəssisələrə investisiya qoymaq və yeni istehsal üsullarını mənimsəmək üçün kreditlər verir. Bizneslə məşğul olan şirkətlər, istehsalçılar bankların köməyi ilə əsas kapitalı əldə edə bilirlər. İqtisadi inkişaf planında kapital strateji əhəmiyyət kəsb edən mövqe tutur. Kapital formalaşmasının adekvat dərəcəsi olmadığı təqdirdə böyük miqyasda iqtisadi inkişaf mümkün deyil. İnkişaf etməmiş iqtisadiyyatlara mənsub xüsusiyyətlərdən biri olan cəmiyyətin kifayət qədər qənaət etməməsi və bunun da nəticəsi olan kapital çatışmazlığıdır. İqtisadi inkişafda bankların önəmli rolu əmanət və investisiyaları stimullaşdırmaqla kapital çatışmazlığını azaltmaqdır. Bank sektorunun sosial-iqtisadi inkişafda olan təsirinin fonunda onun dayanıqlılığı vacib amillərdəndir.

## Dayanıqlı bank sektorunun formalaşması və sosial-iqtisadi inkişafa təsiri

Azərbaycan sosial-iqtisadi inkişafında milli sosial rifah səviyyəsinin davamlı yaxşılaşdırılması məqsədilə iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmin edilməsi ölkəmizin yeni inkişaf yolunun mərkəzində durur. Ölkənin təhlükəsizliyi, rifahı, iqtisadi və ticarət

əlaqələrinin inkişaf etdirilməsi sosial-iqtisadi inkişafın şərtlərindəndir. Xarici dövlətlərlə əməkdaşlıqların möhkəmləndirilməsi, bazaryönlü islahatların keçirilməsi, özəl sektorların rolunun artırılması, xarici bazarlara yerli məhsulların çıxarılmasını artırmaq üçün ticarətin həyata keçirilməsinin asanlaşdırılması da digər şərtlərdəndir. Bunun üçün 2030-a qədər olan mərhələdə Azərbaycan iqtisadiyyatının möhkəmləndirilməsi, rifah səviyyəsi yüksək cəmiyyətin formalaşması başlıca prioritetlərdəndir. Əhalinin rifahının davamlı artırılması üçün isə ölkəmiz sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşması, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın həyata keçirilməsi və ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılması nəzərdə tutulan Milli Prioritetləridir [1].

Sosial-iqtisadi inkişaf sosial siyasətin və iqtisadi fəaliyyətin birgə həyata keçirilməsi ilə fərdlərin, ailələrin bütövlükdə cəmiyyətin rifahının davamlı yaxşılaşdırılmasına nail olmaq məqsədi daşıyır. Həmçinin bankların bu inkişafda rolu əvəzsizdir. İnvestisiya mühitinin yaradılmasını götürsək bankların yetərincə pul ehtiyatlarına malik olması və bu kimi tələblərə cavab verə bilməsi üçün dayanıqlı bank sektoruna ehtiyac vardır. Bankın təhlükəsizliyi və etibarlılığı dövlət siyasətinin əsas problemlərindəndir və hökumət buna görə siyasəti bank uğursuzluqlarını və onların alovlandıra biləcəyi çaxnaşmanı məhdudlaşdırmaq üçün hazırlayır. Əslində, bankçılıq etimadla, inamla bağlıdır, yəni bankın öhdəliklərini yerinə yetirmək üçün pula malik olduğuna olan inam. Bu güvəndə hər hansı bir çatlaq olarsa, bu potensial olaraq bankın uğursuzluğuna səbəb ola bilər, hətta ödəmə qabiliyyəti olan institutlara da təsir edə bilər. Bir çox ölkələr bankların uğursuzluğu halında əmanətləri sığortalayır. Bankın problemlərinin olduğu qəbul edildikdə, müştərilər əmanətlərini itirə biləcəklərindən qorxaraq vəsaitlərini o qədər tez geri çəkə bilərlər ki, bankın əlində olan likvid aktivlərin kiçik hissəsi tez tükənər. Belə bir “depozitlərlə işləmə” zamanı bank bu tələbləri ödəmək üçün digər uzunmüddətli və daha az likvid aktivləri çox vaxt zərərlə satmalı ola bilər. Zərərlər kifayət qədər böyükdürsə, onlar bankın saxladığı kapitaldan çox ola və onu müflisləşdirə bilər. Qloballaşmanın artdığı və rəqəmsal transformasiyaların sürətləndiyi son dövrlərdə banklar həm daxili, həm də xarici bazarlarda daha çox gərgin rəqabətə məruz qalırlar. Digər tərəfdən, bank sektorundakı bəzi texnoloji inkişaflar iqtisadiyyatlar üçün daha çox imkanlar təqdim etsə də, rəqabətin daha az hiss olunmasına səbəb olur. Bu vəziyyət bankları daim yeni məhsullar istehsal etməyə və yeni müştərilər axtarmağa məcbur edir ki, bu da onların fəaliyyət göstərdiyi biznes istiqamətlərində və xidmət göstərdiyi coğrafi ərazilərdə daima dəyişikliyə və müxtəlifliyə gətirib çıxarır. Bank sektorunun siması illər ərzində dəyişir. Banklar artıq onlarla ünsiyyəti asanlaşdırmaq üçün texnologiya ilə kütlələrə müraciət edən sistemdir. Bank sistemi təkcə əngəlsiz olmamalı, həm də texnologiyanın və hər hansı digər xarici və daxili amillərin yaratdığı yeni çağırışlara cavab verə bilməlidir. Bank sektorunun dayanıqlılığının təmin edilməsində bank sektorunun fəaliyyəti ilə əlaqədar göstəricilərə baxsaq buna bank sektorunun mikroprudensial göstərcilərini qeyd edə bilərik. Bank sektorunun dayanıqlılığının təhlili üçün ümumi istifadə edilən çərçivələrdən biri maliyyə institutlarının sağlamlığını əks etdirən altı qrup göstəricinin təhlilini nəzərdə tutan CAMELS çərçivəsidir [8]:

- Kapital adekvatlığı,
- Aktivin keyfiyyəti,
- İdarəetmənin düzgünlüyü,
- Qazanclar,
- Likvidlik
- Bazar riskinə həssaslıq

Keçmişdə yaşanan bank böhranlarını və getdikcə mürəkkəbləşən riskləri nəzərə alsaq, bankların daha stabil olmasının iqtisadi artım və maliyyə inkişafı baxımından çox böyük əhəmiyyət kəsb etdiyini söyləmək olar. Bank fəaliyyətini risksiz təsəvvür etmək olmur. Risklərin təhlili, qiymətləndirilməsi və idarə edilməsi maliyyə institutlarının fəaliyyətlərinin tərkib hissəsidir [7]. Bank riskləri nə qədər çox olarsa, bankın mənfəət əldə edə bilməsi də çətinləşir. Bank sektorunun dayanıqlılığı üçün

bankların nüfuzlarını itirməməyi, risklərdən qorunmağı, yetərli kapitala sahib olmaları şərtdir. Bu amillərdən biri də likvidlikdir. Bankın likvidliyi onun öz öhdəliklərini vaxtında və heç bir problem yaşamadan ödəmə qabiliyyətidir. Likvidlik-bankın davamlılıq, etibarlılıq və işqabiliyyətinin göstəricisidir. Likvid aktivlər maliyyə öhdəliklərini yerinə yetirmək üçün lazım olduqda tez pula çevrilə bilən aktivlərdir. Bankın aktivlərinin likvidliyi onun balansının likvidliyi ilə ölçülür: bankın balansı o zaman likvidli hesab olunur ki, onun aktivlər üzrə vəsaitləri tez reallaşma nəticəsində passiv öhdəlikləri ödəyə bilsin [5, s.23-24]. Dayanıqlılıq üçün şərh edilməli məsələlərdən biri olan likvidliyin zəif idarə olunması səbəbindən ilkin olaraq ödəmə qabiliyyətinə malik maliyyə institutları bağlanmağa doğru yönələ bilər, ona görə də, likvidlik göstəricilərinə nəzarət etmək vacibdir. Bunun üçün istifadə olan əmsallardan biri olan kreditlərin depozitlərə nisbətini göstərə bilərik. Zamanla nəzərdən keçirildikdə, kreditin ümumi depozitlərə nisbəti (banklararası depozitlər istisna olmaqla) bank sisteminin kredit tələbini ödəmək üçün əmanətləri səfərbər etmək qabiliyyətinin olduğunu göstərə bilər. Yüksək nisbət bank sistemindəki stressi və şoklara cavab vermək üçün likvidliyin aşağı səviyyəsini göstərə bilər və ya likvid aktivlərin ümumi aktivlərdə payı nisbəti həddindən artıq ödəmə uyğunsuzluğunu aşkar edə və likvidliyin daha diqqətli idarə edilməsinə ehtiyacı vurğulaya bilər [8]. Bankların üzləşdiyi digər risklərdən biri də kredit riskidir. Kredit verilən zaman müştərilər maksimum səviyyədə yoxlanılmasına baxmayaraq, kreditlərin gecikdirilməsi və ümidsiz kreditlər bütün banklar üçün labüddür. Öhdəlikləri kimin yerinə yetirməyəcəyini dəqiq bilmək mümkün olmasa da, kredit riskinin düzgün qiymətləndirilməsi və idarə edilməsi zərərin təsirini azalda bilər. Bunun üçün də bütün kredit portfelindəki ümidsiz risklər qiymətləndirilməlidir. Maliyyə institutlarının ödəmə qabiliyyəti ilə bağlı risklər çox vaxt aktivlərin dəyərsizləşməsindən irəli gəlir, ona görə də, aktivlərin keyfiyyət göstəricilərinə nəzarət etmək vacibdir. Çünki bəzən borcalanlar öz kreditlərini defolt edir və problemli kreditlərin həcmi artır. Zərərlərin bankların etibarlılığına və kredit vermək qabiliyyətinə təsirini azaltmaq üçün banklar hər zaman möhkəm kredit meyarlarına əməl etməli və problemli kreditlərlə mübarizə aparılmalıdırlar. Banklar müvafiq kredit riskini ödəmək üçün daha çox kapital saxlamalı və gözlənilən itkilərə adekvat olaraq daha yüksək ehtiyatlar ayırmalıdırlar.

Bank sektoru üçün həmçinin kapital mövqeyi önəmli rol oynayır, hansı ki, bank bununla potensial itkilərini azalda bilir. Bankın dayanıqlılığını təmin etməsində istifadə olunan əmsallardan biri də kapital adekvatlığı əmsalıdır (KAƏ). Bu əmsal bank kapitalının riskli aktivlərə olan nisbəti kimi ifadə edilir. Risk dərəcəsi üzrə ölçülmüş aktivləri belə izah etmək olar ki, bank öz vəsaitini kredit verə, yaxud qiymətli kağıza investisiya edə, həmçinin, digər bir maliyyə qurumunda depozit şəklində də yerləşdirə bilər. Yollar müxtəlif olduğu kimi risk səviyyələri də fərqlidir. Kapitalın adekvatlığı son nəticədə maliyyə institutlarının balans hesabatlarına təsir göstərə biləcək möhkəmliyini müəyyən edir. Bu nisbətdə azalma tendensiyası artan riskə məruz qalma və mümkün kapital adekvatlığı problemlərindən xəbər verə bilər. Kapitalın adekvatlıq əmsalları bankların müflis olma riskini azaltmaqla ölkənin maliyyə sisteminin dayanıqlılığını təmin edir. Əmanətçilər əmanətlərini yalnız bank sahib olduğu kapitalın məbləğindən artıq zərər olduğu halda itirə bilər. Beləliklə, bankın kapitalının adekvatlıq əmsalı nə qədər yüksək olarsa, əmanətçinin aktivlərinin qorunma dərəcəsi də o qədər yüksək olaraq bank təhlükəsiz hesab edilər və öz maliyyə öhdəliklərini də daha rahat yerinə yetirə bilər. Həmçinin, banklar getdikcə daha çox şaxələndirilmiş əməliyyatlarda iştirak edirlər ki, bu əməliyyatların hamısı bazar riskinin bir və ya bir neçə aspektini əhatə edir. Maliyyə institutlarının aktiv və öhdəliklərinə əhəmiyyətli təsir göstərən faiz dərəcəsi və valyuta riski də bank sektorunun dayanıqlılığında nəzərə alınmalı olan amillərdəndir. Bütün bunlarla yanaşı, idarəetmənin düzgünlüyü, digər gəlirlilik göstəricilərinə riayət edilməsi də vacib məsələlərdəndir. Sağlam idarəetmə maliyyə institutlarının fəaliyyətinin açarıdır.

**Azərbaycanda dayanıqlı bank sektorunun vəziyyətinin təhlili**

Ölkələrin sosial-iqtisadi inkişafı ölkənin inkişafı deməkdir. Ümumi daxili məhsulun artımı ilə, əlverişli investisiya mühiti, sosial sahələrdə maliyyə təminatının gücləndirilməsi, biznes şəraitinin optimallaşdırılması, xidmət sektorunda keyfiyyət göstəricilərinin yaxşılaşdırılması kimi məqamlar da ölkələrin sosial-iqtisadi inkişafını xarakterizə edən amillər şəklində çıxış edirlər. Bank sektoru sosial-iqtisadi inkişafda idarəedici kimi önəmli rol daşıyır. Pandemiya dönəmində, yəni 2020-ci il ərzində qrafik 1-də də göstərildiyi kimi ölkəmizdə bankların iqtisadiyyata ümumi kredit qoyuluşu 15,3 milyard manatdan 14,5 milyard manata düşdü və bu isə 5% azalma olduğu demək idi. Həmin il sərt karantin tədbirləri çərçivəsində kreditləşmədə olan yüksək azalmanın qarşısı dövlət dəstəyi ilə alındı və zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək məqsədi ilə verilən kreditlərlə bağlı bir çox tədbirlər görüldü. Bu qaydalar çərçivəsində sahibkarların banklardan alacaqları kreditlərə dövlət zəmanəti və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verilməsi nəzərdə tutulmuşdu. 2021-ci il üzrə göstəricilərə baxdığımızda isə iqtisadiyyata qoyulan cəmi kredit qoyuluşunun 17 milyarda qalxdığını görə bilərik ki, bu isə 17.8% artım olduğu deməkdir. 2021-ci ildə makroiqtisadi və maliyyə sabitliyi hədəfləri istiqamətində kredit portfeli genişlənərək iqtisadi fəallığa səbəb olmuşdur.

**Qrafik1.**

**2016-2022-ci illərdə iqtisadiyyata kredit qoyuluşları.**




**Mənbə:** https://www.stat.gov.az/ saytından götürülən məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub

Həmçinin 1-ci qrafikdən də görüldüyü kimi 2022-ci ildə isə iqtisadiyyata kredit qoyuluşları ötən il ilə müqayisədə 17,9 faiz artaraq 20 milyard manata çatıbdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2022-ci il ÜDM-in həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 43,6% artaraq 133,8 mlrd. manat təşkil etmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyanın həcmi 2022-ci ilin yanvar-iyun aylarında 20.7% azalmış, qeyri neft-qaz sektoruna yatırılan vəsaitin həcmi isə 18.5% artmışdır. Qoyulan sərmayənin 74.5%-i daxili mənbələr, 25.5%- i isə xarici mənbələr hesabına formalaşmışdır [4]. Bundan əlavə 2-ci qrafikdən də görüldüyü kimi, 2022-ci ildə toplam olaraq real sektora edilən kredit qoyuluşlarından ən çox 3303 mln. manat həcmində ticarət və xidmət sektoruna, 649.9 mln. manat mədənçıxarma və elektrik enerjisi, qaz, buxar və su təsərrüfatı sektoruna, 629.1 mln. manat kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoruna, 1097.4 mln. manat inşaat və tikinti sektoruna, 1059.8 milyon manat sənaye və istehsal, 792.7 mln. manat isə nəqliyyat və rabitə sektoruna yönəldilib.

**Qrafik 2.**

**2022-ci ildə real sektora yönəldilən kredit qoyuluşlarının müqayisəli təsviri, faizlə**




**Mənbə:** https://www.stat.gov.az/ saytından götürülən məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub

2022-ci ilin birinci yarımilində qrafik 3-də də təsvir olunduğu kimi sektor üzrə kredit portfelinin 57.2%-i biznes, 28.3%-i istehlak, 14.5%-i isə ipoteka kreditləridir. Biznes kreditləri portfelinin həcmi 7.6 % artaraq 10.5 mlrd. manat təşkil etmişdir. Yarımil ərzində ipoteka portfeli 10.3% artaraq 2.6 mlrd. manata çatmışdır. Bu dövr ərzində istehlak kreditləri portfeli isə 14.9% artaraq 5.2 mlrd. manat təşkil etmişdir [4]. Banklar tərəfindən real sektora yönəldilən maliyyə vəsaitlərinin həcminin artdığı da görünüb.

**Qrafik3.**

**Kredit portfelinin strukturunun dinamikası, mlrd. Manatla**




**Mənbə:** Mərkəzi Bank "Maliyyə sabitliyi hesabatı" 2022 1ci yarımil

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2022-ci ilin sonuna biznes krediti 10855,1 mln. manat təşkil etmişdir. Keçən ilin eyni dövrü üçün bu rəqəm 9740 mln. manat olmuşdur və bu 11,45% artım deməkdir. İstehlak krediti isə 2022-ci ilin sonuna 5754,1 mln. manat olmuşdur. Keçən ilin eyni dövrü üçün bu rəqəm 4518,4 mln.manat təşkil etmiş və bu da 27,35% artım deməkdir Amma bank sektorunun kredit portfelində ilk yeri biznes kreditləri tutsa da, istehlak kreditləri nisbətdə daha çox artıb. Bankların kredit portfelində istehlak kreditlərinin payı hələ də yüksəkdir. Biznes kreditləri daha çox artırılmalıdır, çünki belə artım iqtisadi inkişafa və yeni iş yerlərinin yaranmasına, məşğulluğun artmasına müsbət təsir göstərir.

Bankların dayanıqlılığını təmin etməli olduğu məsələlərdən biri kredit risklərin azaldılmasıdır. Beləliklə, kredit risklərinin azaldılması məqsədilə bank tərəfindən tədbirlər həyata keçirilir. Qeyri-işlək kreditlər dedikdə

faizinin hesablanması artıq dayandırılmış, ya da əsas məbləğinin və ya faizinin ödənişi müqavilədə göstərilmiş müddətdən 90 gün və ya daha çox gecikdirilmiş, yaxud faizinin ödəniş müddəti uzadılmış kreditlər, faizlərinin ödəniş vaxtı 90 gün və ya daha çox gecikdirilmiş overdraftlar və qabaqcadan müəyyən edilmiş ödəniş müddəti olmayan kreditlər başa düşülür [2]. Qeyri işlək kreditləri minimallaşdırmaq üçün banklarda kredit riskinin idarə edilməsi strategiyası qurulur. Həmçinin, qeyri işlək kreditlər əmsalı dedikdə bankın problemli kreditlərinin ümumi kreditlərə nisbəti, başqa sözlə desək, problemli kreditlərin dəyərinin kredit portfelinin ümumi dəyərinə bölünməsinin faizlə ifadəsidir. Qrafik 4-ə nəzər yetirsək 2011-ci ildən 2022-ci ilin 1-ci yarımilinə kimi qeyri-işlək kreditlər (QİK) əmsalının illər üzrə dəyişən dinamikasını və qeyri işlək kreditlərin həcminin artım tempini görə bilərik. Qeyri-işlək kreditlər (QİK) əmsalı dəyişməyərək 2022-ci ilin ilk yarısı üçün 4.5% təşkil etmişdir. Həmin zaman üçün qeyri işlək kreditlərin həcminin isə 800 mln. manat olduğunu, bunun isə ötən illə müqayisədə 14.3%, yəni tam olaraq 100 mln. manat həcmində artdığını qrafik 4-dən də görə bilərik. Qeyri-işlək kreditlər əmsalı Azərbaycanda kredit riski göstəricisidir. Bu əmsal bankın sağlamlığını və səmərəliliyini ölçür. Yüksək nisbət kredit portfelinin pisləşməsindən xəbər verə bilər. Ölkəmiz üzrə bu əmsalın 4.5% olduğunu bir daha qeyd edərək qanedici olduğunu deyə bilərik.

**Qrafik 4.**

**Bank sektoru üzrə QİK portfelinin dinamikası**




**Mənbə:** Mərkəzi Bank "Maliyyə sabitliyi hesabatı" 2022 1-ci yarımil

Azərbaycan Respublikasının Mərkəzi Bankı ölkənin dayanıqlı inkişafında maliyyə sektorunun rolunun gücləndirilməsini dəstəkləyir və bu məqsədlə 2023-2026-cı illəri hədəf qoyan Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi hazırlamışdır [6]. Yol xəritəsi ölkəmizdə maliyyə sektorunun dayanıqlılığının gücləndirilməsi məqsədilə özündə tədbirlər planını ehtiva edir. Bu planda bank sektoru ilə əlaqədar olaraq ekoloji, sosial məsələlər fonunda risklər sahəsində məlumatlılığın, bilik və bacarıqların artırılması, dayanıqlı maliyyə alətlərinin təşkili, əhəmiyyətli risklərin qiymətləndirilməsi və monitorinqi, stress-testlərin aparılması və s. tədbirlər əksini tapır. Ekoloji, sosial və iqtisadi sistemlərin arasında qarşılıqlı əlaqə zamanı tarazlığın təmin edilməsi iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində önəmli rol oynayır. Bankların sosial-iqtisadi inkişafda davamlı rolunun təmin edilməsində isə dayanıqlı bank sektoruna ehtiyacı var.

**Tədqiqatın elmi yeniliyi.** Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin həyata keçirilməsində dayanıqlı bank sektorunun təmin edilməsinin vacibliyi ilə bağlı məsələlər göstərilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Bankların davamlı sosial-iqtisadi inkişafda faydalı rolunu qoruyub saxlaması üçün banklarda dayanıqlılığın təmin edilməsində diqqət yetirməli olduğu məsələlərdə istifadə oluna bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Bank sektorunda dayanıqlılığın təmin edilməsi iqtisadiyyatın sağlam inkişafı üçün mühüm tələbdir. Təhlükəsiz bank sektorunun təşkili ilə

sosial-iqtisadi inkişafa fayda vermək dayanıqlı bank sektorunun önəmini açıqlayır.

**Nəticə**

Banklar da digər firmalar, şirkətlər kimi uğursuz ola bilər, lakin onların uğursuzluğu daha böyük nəticələrə səbəb olar, hansı ki, müştərilərə, digər banklara, cəmiyyətə və bütövlükdə bazara zərər verə bilər. Buna görə də, bankların fəaliyyətində fərqli yollarla dayanıqlılığın, sabitliyin təmin olunmasına çalışılır. Banklar səfərbər etdikləri əmanətləri məhsuldar məqsədlər üçün yatırılmasına kömək edirlər. Bu əmanətlər xalqın məhsuldarlığını artırmaq üçün iqtisadiyyatın müxtəlif sahələrinə paylanılır. Bank sektoru insanları qənaət vərdişlərinə təşviq edərək, vəsaitlərin məhsuldar investisiyalara axınını təmin edərək, həmçinin kapitalın formalaşmasında, iş imkanlarının yaradılmasında iştirak edərək ölkələrin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Bütün bunlar nəzərə alınaraq, bu sektorun dayanıqlılığı vacib amillərdəndir. Təhlilin nəticələrinə əsasən bank fəaliyyətinin həyata keçirilməsi zamanı üzləşdiyi risklərin qarşısının alınması və bank sektorunun maliyyə dayanıqlılığı göstəriciləri ilə bu sektorun sağlamlaşdırılması tədbirləri həyata keçirilərək bu kimi prudensial siyasət tədbirləri ilə bank sektorunun dayanıqlılığının təmin olunmasına çalışılır. Bank sektorunun maliyyə sabitliyinin təmini ilə əlaqədar banklarda risklərin davamlı qiymətləndirilməsinin aparılması, risklərin idarə edilməsinin təkmilləşdirilməsi tədbirlərinin görülməsi və fərqli ssenarilər əsasında stress-testlərin qiymətləndirilməsi, həmçinin fövqəladə tədbirlər planlarının yaradılması da dayanıqlılığın təmin edilməsi tədbirlərindəndir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 fevral 2021,
2. Aktivlərin təsnifləşdirilməsi və zərərin ödənilməsi üçün ehtiyatların yaradılması qaydaları, https://e-qanun.az/framework/10901
3. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı, https://www.stat.gov.az/
4. Azərbaycan Respublikasının Mərkəzi Bankı “Maliyyə sabitliyi haqqında hesabatı” 2022 1ci yarımil
5. Bəşirov R.A., “Bank işi”, Bakı, 2007, 117 səh.
6. Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi (2023-2026)
7. Məmmədov İ.N., “Banklarda risk menecmenti”, Bakı, 2021, “Füyüzat”, 208 səh.
8. Owen Evans, Alfredo M. Leone, Mahinder Gill, and Paul Hilbers, April 2000, “Macroprudential Indicators of Financial System Soundness”. OCCASIONAL PAPER, p.192

**Закир Гаджи оглы ЗЕЙНАЛОВ, д.ф.э., доц.**
Азербайджанский Государственный Экономический Университет

**Парвин Джаваншир кызы ТАЛАИ**
Азербайджанский Государственный Экономический Университет
E-mail: pervintelai@gmail.com

# ЗНАЧЕНИЕ УСТОЙЧИВОГО БАНКОВСКОГО СЕКТОРА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

**Резюме**

**Цель исследования** - Стабильность банковского сектора является необходимым условием обеспечения устойчивого экономического роста в долгосрочной перспективе. Цель исследования - изучение направлений обеспечения устойчивости банковского сектора в рамках реализации национальных приоритетов социально-экономического развития.

**Методология исследования** -В статье исследованы факторы, влияющие на устойчивость банковского сектора и положение банковского сектора в нашей стране, и использованы методы анализа, синтеза, сравнительного анализа, индукции и дедукции.

**Результаты исследования-** Банки стали частью нашей повседневной жизни и деятельности. Это включает в себя множество вещей, таких как получение зарплаты, оплата счетов и сбережения на будущее. Банковская нестабильность может привести к финансовому кризису с негативными последствиями для экономики, поэтому крайне важно иметь стабильный, стабильный и здоровый банковский сектор.

**Ключевые слова:** устойчивость, социально-экономическое развитие, финансовая устойчивость, банк.

**Zakir Haji oqlu ZEYNALOV, PhD in economics, docent**
Azerbaijan State University of Economics

**Parvin Javanshir gizi TALAİ**
Azerbaijan State University of Economics
E-mail: pervintelai@gmail.com

## THE IMPORTANCE OF A SUSTAINABLE BANKING SECTOR IN SOCIO-ECONOMIC DEVELOPMENT

### Summary

**The purposeof the research -** The stability of the banking sector is a necessary condition for ensuring sustainable economic growth in the long term. The purpose of the study is to study the directions of ensuring the stability of the banking sector within the framework of the implementation of national priorities for socio-economic development.

**Methodology of the research -** In the article, the factors affecting the stability of the banking sector and the situation of the banking sector in our country were investigated and analysis, synthesis, comparative analysis, induction and deduction methods were used.

**Research findings -** Banks have become part of our daily lives and activities. This includes many things like taking paychecks, paying bills, and saving for our future. Banking instability can lead to a financial crisis with negative consequences for the economy, so having a stable, stable and healthy banking sector is crucial.

**Keywords:** stability, socio-economic development, financial stability, bank

**Tükəzban Qurban qızı QASIMLI**
"Naxçıvan" universitetinin əməkdaşı, dissertant

**Həcər Şöhrəddin qızı VƏLİZADƏ**
ADAU-nun "Marketinq" kafedrasının assistenti
E-mail: hecer6.gurbanova@bk.ru

# DAYANIQLI İNKİŞAF KONTEKSTİNDƏ MARKETİNQ FƏALİYYƏTİNİN ƏHƏMİYYƏTİ

**Xülasə**

**Tədqiqatın məqsədi** – dayanıqlı inkişaf kontekstində iqtisadi proseslərin qanunauyğunluqlarının müəyyən edilməsi, marketinq münasibətlərinin formalaşması xüsusiyyətlərinin aşkarlanması və sistemləşdirilməsi, marketinq alət, üsul və vasitələrindən, onun inkişaf mexanizmlərinin zəruri komponentlərindən optimal şəkildə istifadə imkanlarının müəyyən edilməsi tədqiqatın məqsədini təşkil edir.

**Tədqiqatın metodu** – tədqiqat zamanı qruplaşdırma və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın nəticələri** – bütövlükdə iqtisadi sistemin və onun ayrı-ayrı sahələrinin "tələbatın monitorinqi – istehsaldan öncəki planlaşdırma – istehsal – reallaşdırma" xətti əsasında fəaliyyəti ilə bağlı nəticələr əldə edilmiş, istehsalda dayanıqlılıq faktorlarının qiymətləndirilməsi üsulları müəyyənləşdirilmişdir.

**Açar sözlər:** dayanıqlı inkişaf, iqtisadi sistem, marketinq münasibətləri, rəqabət, bazar, proqnozlaşdırma.

**UOT: 339.138; 65.01.005**
**JEL: M 31**

## Giriş

Ölkənin, o cümlədən onun regionlarının iqtisadi təməlləri çoxsaylı amillərin mövcudluğu əsasında formalaşmaqdadır. Əhali və istehsalın tələblərinin öyrənilməsi, müxtəlif müstəvilərdə sosial mühitin bərqərar olmasına imkan verən bazanın təşəkkülü, fərqli məzmunlu tələbləri qarşılaya biləcək təklifin müəyyənləşdirilməsi və tərkib hissələr (istehsal və idxal) üzrə müvafiq kəmiyyət-keyfiyyət göstəricilərinin həcmlərinin dəqiqləşdirilməsi və digər bu kimi özünün aktuallığı ilə seçilən məsələlər üzrə tammənalı işlərin proqnozlaşdırılması və icrası mühüm addımlar kimi qiymətləndirilməkdədir [6, s. 112].

Sadə məzmun üzrə "dayanıqlılıq" ifadəsi ilə müşayət olunan istənilən obyekt və ya fəaliyyət öz növbəsində uzunmüddətliliyin, yaranmış çətinliklərdən uzu ağ çıxmanın, tərəflər arasında mövcud olan əlaqələrin sarsılmazlığının, icra olunan siyasətin perspektiv dövrlərdə də özünün kursuna sadiq qalacağının təcəssümüdür. Digər tərəfdən, sadalanan keyfiyyətlərlə marketinqin məzmununun vahid tandem şəkildə nəzərdən keçirilməsi də xüsusi əhəmiyyət daşımaqdadır.

İqtisadi fəaliyyətin dayanıqlılıq prinsiplərinə söykənərək təşkil edilməsi zamanı marketinq təyinatlı işlərin sistemli şəkildə icra olunması ilk növbədə sistem üzrə fəaliyyətin cəmiyyətdə, bütövlükdə ölkə, o cümlədən ayrı-ayrı regionlar üzrə baş verə biləcək iqtisadi təlatümlərə qarşı tab gətirməsindən xəbər verməkdədir ki, bu sırada da marketinq alət və vasitələrindən istifadə olunması həmin dayanıqlılıq xassələrinə xidmət etməlidir.

İstər dayanıqlı iqtisadiyyat, istərsə də bu kontekstdə marketinq mexanizmi özünün daxili və beynəlxalq müstəvidə seçilən, növləri və ifadə formaları, həmçinin xarakter və xassələri ilə fərqlənməkdədir. Bu sırada dayanıqlılıq elementinin əsasən hansı tədqiqat obyektinə birbaşa aidiyyatı ilə fərqlənməsi markertinqin də hansı mərhələdən başlayaraq tətbiq edilməsini şərtləndirməkdədir. Digər tərəfdən, marketinqin hansı mərhələdə tətbiqinə qərar verilməsi dayanıqlılıq ifadəsinin səviyyəsinin

mümkün qədər maksimallaşdırılmasında özünün göstərəcəkdir.

Məqalədə "dayanıqlı iqtisadiyyat və marketinq" iqtisadi anlayışlarının sintez şəkildə araşdırılması nəzərdə tutulmuşdur. Məhz deyilən fikir ümumilikdə əsas kimi qəbul edələrək, ilk növbədə diqqəti dayanıqlı iqtisadiyyatda, onun müasir dövrdəki məzmununun formalaşmasında, tarixinin müxtəlif pillələrindəki ifadə etdiyi spesifik məqamlarında cəmləmək yerinə düşərdi.

Öncə qeyd olunmalıdır ki, iqtisadi təcrübədə "davamlı inkişaf" terminoloji birləşməsi özlüyündə eyni adlı konsepsiyanı ifadə etməkdədir. O, sivilizasiya (təkmilləşdirmə daha mütərəqqi mərhələlərə keçid) yönündə formalaşdırılmış inkişaf modellərindən biridir. Burada daxili tərkibin iştirakçı tərəfləri baxımından üç komponent vəhdət halında əhatə edilməkdədir.

Onlardan ilk qrupu sosial mühit təşkil etməkdədir. Özünün müvafiq siyasəti ilə təcrübədə bəlli yol alan bu mühit istər iqtisadi, istərsə də inzibati müstəvilərdə həyata keçirilən spesifik fəaliyyətin, icra olunan məqsədyönlü işlərin nəticələri dayanıqlı güclü iqtisadiyyat məqsədlərinə xidmət etməkdədir. İqtisadi sistemin tənzimləmə, idarəetmə (menecment), təşkilatlanma, (o cümlədən marketinq), planlaşdırma, proqnozlaşdırma, proqramlaşdırma və digər əlaqəli istiqamətlərdə vahid məqsədlərə xidmət edəcək addımların atılmasını, işlərin həyata keçirilməsini nəzərdə tutmaqdadır.

Birbaşa mikrosəviyyədə rastlaşdığımız əməliyyatlar sırasında isə iştirakçı komponentlər haqqında məlumatları ümumiləşdirmək üçün cədvəl 1-ə nəzər yetirək.

**Cədvəl 1**

**Mikrosəviyyədə əməliyyatlar prosesində iştirakçı komponentlər**

| İstehsaldan öncəki fazanın prosesləri | İstehsal fazasının vacib komponentləri | İstehsaldan sonrakı proseslər |
|---|---|---|
| təchizat prosesləri | əsas fondlarla təminolunma, | nağd və nağdsız reallaşdırma sisteminin yaradılması, kreditli satışın təşkili |
| planlaşdırma-proqnozlaşdırma prosesləri | istehsalın xüsusi komponentləri ilə təmin olunma (lizinq yolu ilə gübrə, suvarma sistemləri, cins malqara təminatı) | istehlakçılar üçün "al qapıda" sisteminin aktivləşdirilməsi |
| tədarük prosesləri, | müstəqim dövriyyə fondları növləri ilə təminolunma | müvafiq logistik imkanlarının mövcudluğu (soyuducular, saxlama kameraları, xüsusi nəqliyyat vasitələrinin, dəyirmanların, köməkçi ötürmə məntəqələrinin, ümumi və xüsusi təyinatlı mübadilə məkanlarının mövcudluğu ) |
| konsaltinq xidmətləri, | | |
| istehsal nümunələrinin müəyyən edilməsi, | zəruri istehsal-təsərrüfat əşyaları ilə təminat<br>peşəkar kadr personalının mövcudluğu, | |
| Istehsal vasitələrinin əldə edilməsi üzrə kredit imkanlarının qiymətləndirilməsi | istehsal üçün yeni strukturların yaradılması yönündə maliyyə resursları ilə təminolunma | |
| təbii-iqlim, yerquruluşu və s. şərtlərin öyrənilməsi | köməkçi və xidmətedici istehsal strukturlarının yaradılması və s. | vergi imtiyazlarından istifadə,<br>müstəqil bank siyasətinin həyata keçirilməsi və s. |

İqtisadi mühitin mərkəzində istehsal-iqtisadi fəaliyyət durur ki, onun ətrafında da mikrosəviyyədə bir tərəfdən təchizat, digər tərəfdən təbii faktorlar, yerquruluşu, konsaltinq, planlaşdırma-proqnozlaşdırma yönlü işlər təmsil olunmaqdadır. İstehsal fazası mühüm əhəmiyyət kəsb etməklə yanaşı bütün mühüm elementləri özündə birləşdirir. Bu fazanın əhəmiyyəti ilk növbədə onunla izah edilir ki, məhsul istehsalı, yeni növ-çeşid məhsulların mənimsənilməsi, onlar üzrə transformasiya prosesləri məhz bu fazada baş verir.

İstehsal fazasının mühüm komponentləri aşağıdakılardır:

1. Təsərrüfat subyektlərinin müxtəlif formalarda əldə olunması və məqsədlərinə uyğun istifadə edilməsi;

2. Fərqli istehsal komponentlərinin (gübrə, suvarma sistemləri, cins mal-qara, imtiyazlı qiymətlə yanacaq, əkilən hər hektar torpağa, yığılan hər sentner məhsula görə ödəmələr və s.) vahid "yaratma" prosesi ətrafında birləşməsi;

3. Zəruri istehsal-təsərrüfat əşyaları ilə təminoluma proseslərinin həyata keçirilməsi;

4. İstehsal təyinatlı yeni, daha fərqli və mütərəqqi, istehsalın avtomatlaşdırma səviyyəsini artıran fəaliyyət sahələrinin, köməkçi və xidmətedici təsərrüfat bölmələrinin formalaşdırılması, yaradılması və s. [6, s.264]

Öz növbəsində istehsal fazasından sonrakı proseslər də özünün aktuallığı ilə seçilən, məhsul bolluğunun yaradılmasına öz töhvəsini verən elementlərdəndir. Bu sırada öncə logistik sistemə, onun spesifik bəndlərinə xüsusi diqqət yetirilməlidir. Onunla yanaşı satış sistemlərinin növlərinə, üsul və mexanizmlərinə də ayrıca fikir verilməlidir.

Sadalananlarla yanaşı istehsal proseslərinin başa çatması müxtəlif növ vergilərin sistemli şəkildə aktivləşdirilməsinə də yol açmaqdadır. Bu fəaliyyət adətən istehlakçılarla təmaslar öncəsi işə salınmaqdadır. Digər tərəfdən, sonrakı addımlar maliyyə-bank hesablaşmalarının aktivləşdirilməsi ilə də ortaya gəlir ki, bu zaman debitor-kreditor qarşılaşması da mümkündür.

Qeyd etmək yerinə düşər ki, iqtisadi mühit lokal qaydada mövcud deyil. O, digər iki mühit növü ilə əlaqəsi mövcud olan eyni "məkanlarla" fərqlənməkdədir. İlk növbədə müvafiq sahiblənmələrdən birincisi sosial mühitlə qarşılıqlı məkan bölgüsüdür. Bu halda bir sıra alimlərin qeyd etdiyi ədalətli durumun yaradılması mümkün olur. "İqtisadi sosial" mühit elementlərinin vəhdətinin düzgün qiymətləndirilməsi və obyektiv şəkilləndirilməsi ədalətli durum adlanan reallığın mövcudluğuna imkan yaradır. Digər tərəfdən, ekoloji mühitlə olan ümumi məkan qənaətedici durumu yaratmaqdadır [1, s.471].

İkinci mühit sosial mühiti əks etdirməkdədir. Həmin mühit öz tərkib elementləri sırasında sosial-psixoloji, ideoloji, psixi, etik-estetik və digər yönləri cəmləməkdədir. İqtisadi mühitdə olduğu kimi, sosial mühit də iqtisadi və ekoloji mühitlə ümumiləşmiş məkanlara sahibdir. İnsanların, istehsalların ehtiyacları müxtəlif meyarlı qiymətləndirmələrə məruz qalmaqdadır. Bu ehtiyaclar məzmunca kifayət qədər rəngarəng areallı əhatə etməkdədir.

Təsvir ifadələnmələrində üçüncü qrupu ekoloji mühit təşkil etməkdədir. O, insan cəmiyyətinin mövcudluğunun mühüm elementlərindəndir. Bu sırada yaşıllaşdırma və digər oxşar elementlərin yaradılmasına aidiyyatı ilə seçilən, flora və faunanın nadir nümunələrinin mövcudluğuna imkan yaradan nümunələrin və sistemləşdirilmiş əmtəələrin vahidləri məcmu şəklində ifadə edilməkdədir.

Sadalanan ayrı-ayrı komponentlər (sosial, iqtisadi və ekoloji) vəhdət formasında dayanıqlı inkişafı xarakterizə etməli , onun ifadə şəklini dəqiqləşdirməlidir. Belə vəziyyət ədalətli və qənaətedici olmaqla yanaşı, eyni zamanda, "yol verilə biləcək durum" haqda da fikir bildirməyə imkan verir. "Dayanıqlı inkişaf" terminin işlədilməsinin tarixinə gəldikdə qeyd etmək olar ki, onun yaranması yuxarıda fərdi qaydada diqqət yetirdiyimiz hər üç mühitin tələblərindən, onların vahid formada təzahürü əsasında zəruriləşməkdədir. Bu terminin ilk dəfə müzakirə məkanlarında istifadə oluması 1987-ci ilə təsadüf edir.

"Dayanıqlı inkişaf" termininin elmi, siyasi, iqtisadi tədbirlər məkanlarında istifadə olunması üçün təməl nöqtəsini məşhur iqtisadçı Q.H.Brutlanl qoymuşdur. Q.H.Brutlanl tərəfindən hazırlanmış "Bizim ümumi gələcəyimiz" adlı məruzədə BMT-nin Ətraf mühit və inkişaf üzrə ümumdünya komissiyasının iclasında dayanıqlı inkişafla bağlı dəyərli və əsaslandırılmış fikirlərə ilk dəfə xeyir-dua verilmişdir.

"Bizim ümumi gələcəyimiz" düşüncəsində bir tərəfdən cəmiyyətin real üzvlərinin, digər tərəfdən isə onun perspektiv nümayəndələrinin müxtəlif növ tələblər üzrə təklif olunan qarşılanmalar öz əksini tapmaqdadır, yəni, təmsil edilən cəmiyyətin hər bir üzvü istər bu gün, istərsə də sonrakı müddətlərdə mümkün həcmlərdə tələbatların ödənilməsi şərtləri ilə öz həyatını keçirməli və başa vurmalıdır. Nəticədə, daha mütərəqqi inkişaf modeli formalaşmalıdır.

Yeni model üzrə görülən işlər ilk növbədə öncəki modellərin köhnəlməsi, onun tələblərə zəruri cavab verməməsi nəticəsində mümkün olmaqdadır. Müasir dövrün tələblərinə cavab verməyən model kənarlaşdırılmalı, öz yerini isə daha mütərəqqi, müasir dövrün tələbləri ilə çulğalaşan modelə verməlidir.

Son illərdə hətta bir sıra inkişaf etmiş ölkələrdə düzgün tənzimləməyə məruz qalmamış, zəruri planlaşdırma və proqnozlaşdırma işləri icra olunmamış inkişaf modelləri həmin ölkələr üçün maneəyəçevrilməkdədir. İqtisadi sistemin ayrı-ayrı sahə və istiqamətləri arasında nisbətlərin pozulması son nəticədə

sosial, iqtisadi, ekoloji və digər balanslaşdırma səhvlərinə gətirib çıxarmaqdadır ki, bu da istər ölkə daxilində ümumilikdə, istərsə də fərdi qaydada nəzərdə keçirilən regionlararası nisbətlərdə, hətta vahid region daxilində sahə və istiqamətlərin vəziyyətində baş verən dəyişikliklərin norma və meyil dəyişmələrinə səbəb olmaqdadır.

Son dövrlərdə haqqında bəhs olunan məsələ, onunla bağlı tarazlığın qorunması, nisbətlərin qarşılaşdırılması dünyanın bir çox mötəbər kürsülərindən diqqətə çatdırılmış, daha geniş aidiyyatı auditoriyalara xatırladılmış, beynəlxalq konfrans və digər elmi, elmi-təcrübi tədbirlərin mövzusuna çevrilmişdir.

Qeyd olunduğu kimi, dayanıqlı inkişafın yeni modelində ekoloji amillər və proseslər mühüm rol oynamaqdadır. Bəhs olunan məsələdə önə çəkilən mühüm amillərdən biri kimi ölkədə (regionlarda) ekoloji fəlakətlərin qarşısının alınması sahəsində sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmaqdadır.

Bununla belə, ekoloji problemlərin önlənməsi sahəsində atılan addımların intensivliyi və digər bu kimi məsələlər aktivliyini, bununla da əhəmiyyətini, aktuallığını, optimallığını və digər cəhətlərini qorumaqdadır.

**Tədqiqatın nəzəri və ya empirik nəticəsi**

Qeyd olunmalıdır ki, dayanıqlı inkişaf prosesinin uzunmüddətli olması bir çox amillərdən asılıdır. Təcrübədə sübut olunduğu kimi, onlardan biri də marketinq işlərinin düzgün təşkilindən ibarətdir. Market sözünün hərfi məna baxımından araşdırılması "bazar, mübadilə məkanı", faəliyyət baxımından isə həmin mübadilə məkanında istehsalçı və istehlakçının "görüşdürülməsi" kimi qiymətləndirməyə yol açmaqdadır.

Bununla belə, müasir marketinq üzrə tələblərin dəyişilməsi onun istehsal müstəvisindən daha öncəki mərhələyə keçidi təmin etməkdədir. Marketinqin məzmun ifadəsində kifayət qədər tutarlı amillər vahid müstəvidə cəmlənərək onun sosial-iqtisadi əhəmiyyətini sərgiləmiş olur.

Hər bir müstəqil elmi istiqamət kimi, marketinq də özünün nəzəri əsasları, konsepsiyaları, həmçinin onun tədqiqatlarının əsas istiqamətləri, metodoloji əsasları, qayda və prosedurları ilə təmsil olunmaqdadır. Onun sadalanan nəticələri ilə yanaşı dayanıqlı inkişafla sintez şəklində öyrənilməsinin əhəmiyyəti əvəzolunmazdır.

Terminoloji yanaşmada onun ilk dəfə istifadəsi XIX əsrin sonu – XX əsrin əvvəlllərinə təsadüf edir. Burada marketinqin konseptual yanaşmasının əsasında istehsal ehtiyatlarının ödənilməsi durmaqdadır. Həmin dövrdə konsepsiyanın əsasında satış metodu qurulmuşdur.

Digər tərəfdən, marketinqin təməl nöqtələrindən biri onun nəzəriyyələrinin payına düşməkdədir. Bəhs olunan müstəvidə ən ümumi yanaşma sosial-iqtisadi nəzəriyyə formatında həyata keçirilməkdədir.

Marketinq fəaliyyətinin mühüm mexanizmlərindən hesab olunan rəqabət özündə mühüm vasitələri istifadə etməkdədir. Onun tammənalı şəkildə araşdırma müstəvisində təmsil olunması iki şərtin mövcudluğunu təsdiqləməkdədir. Bu şərtlərdən birincisi kimi, bazarda olan təsərrüfat subyektlərinin iqtisadi gücü və real imkanlarının qiymətləndirilməsi şəraitində rəqabətin ixrac fəaliyyəti zamanı nəzərə alınmasıdır. Digər tərəfdən, təsərrüfat subyektlərinin öz fəaliyyətində rəqabətin forma və metodlarından istifadə olunması problemi də lazımınca qiymətləndirilməlidir [9, s.307].

Müasir inkişaf mərhələsində marketinq qarşısında qoyulan vəzifələr özünün çoxsaylılığı və genişçalarlılığı ilə fərqlənməkdədir. Onun mühüm yönlərinin araşdırılması ilk növbədə informativliyi yüksəltmək, həmçinin alıcıların ehtiyaclarının nəzərə alınması, öz növbəsində isə istehsalçıların bazara təkliflərinin sistemləşdirilməsi, onların həmin bazarlara təsir etməsi kimi addımların atılması da nəzərə alınmalıdır.

Marketinq fəaliyyətindən sistemli şəkildə istifadə olunması ölkədaxili və ölkələrarası istiqamətləri əhatə etməkdədir. Onun tərkibində icra olunan fəaliyyətin planlaşdırılması, proqramlaşdırılması və proqnozlaşdırılması kimi müstəqil yönlər fərqləndirilməkdədir. Təcrübədə marketinqin mühüm növlərinin təsnifləşdirilməsinin daha aydın izahı üçün aşağıdakı sxemə diqqət yetirmək məqsədəuyğun olardı.

Digər tərəfdən marketinq fəaliyyətinin aktuallığına dəlalət edən bir neçə istiqamət fərlqəndirilməlidir:

1. Marketinq fəaliyyətində üstünlük verilməli olan konsepsiya;

2. Təsərrüfat subyektləri tərəfindən icra olunan malgöndərmə əməliyyatlarının mahiyyəti və əhəmiyyəti;
3. Bu əməliyyatlar baş verərkən cəmiyyətin onlardan əldə etdiyi faydalar;
4. Marketinq fəaliyyətinin bərqərar olduğu müstəvidə iştirakçı fərdlərin, təsərrüfat subyektlərinin və ümumiyyətlə, cəmiyyətin fəaliyyət nəticələri üzrə müqayisəliliyinin təmin olunması və s.

**Sxem 1.**

**Marketinqin növləri**




Mənbə: sxem müəlliflər tərəfindən tərtib olunmuşdur.

Araşdırılan maddələr sırasında marketinq konsepsiyasının seçilməsi və təcrübi tətbiqi mühüm əhəmiyyət kəsb etməkdədir. Adətən marketinq sahəsinə aidiyyatı ilə seçilən konsepsiya dedikdə təsərrüfat subyektləri çərçivəsində onların ümumi fəaliyyəti və bütün əmlak, hesablaşma və malik olduğu digər istiqamətlərdəki maddi və qeyri-maddi vəsaitlərinin cəmiyyətin xidmətinə yönəldilməsi fəaliyyəti nəzərdə tutulmaqdadır. Belə ki, istehsal olunan məhsul hər hansı fərdi və ya istehsal tələbatını ödədiyi halda, bütövlükdə cəmiyyətin ehtiyaclarının bu və ya digər şəkildə qarşılanması kimi qiymətləndirilməkdədir. Bəhs olunan yöndə optimallıq, səmərəlilik, rəqabət, məqsədyönlü icraat və digər analoji fəaliyyət üzrə üsul və mexanizmlərdən istifadə olunması zamanla müvafiq istiqamətdə daha yüksək nəticələrin əldə olunmasına şərait yaradacaqdır.

Mövcud iqtisadi təməllərin formalaşdığı təkamül və irəliləmə şəraitində marketinqin bir neçə konsepsiyasından istifadə olunmaqdadır ki, onlardan da ardıcıllıq və mərhələlilik baxımından mühüm olanlarını aşağıdakı kimi sadalamaq mümkündür.

**Yekun nəticələr**

Məqalənin araşdırılması müxtəlif aspektlərin məcmusu kimi təzahür etməkdədir. Bunlardan iki qütbün iştirakı mütlədir: dayanıqlı inkişaf və marketinq. İşdə amillərin asılılığı ilk növədə dayanıqlı iqtisadiyyatın təmin edilməsində marketinq alət və mexanizmlərindən istifadənin xüsusiyyətlərinə diqqət çəkilir. Digər tərəfdən, dayanıqlı iqtisadi sistemin formalaşmasında marketinqin xidmət aləti kimi təzahüründən geniş söhbət açılır. Müqayisə üçün qəbul edildikdə dayanıqlı inkişaf daha gənc məfhumdur. Öz növbəsində marketinq təcrübəsində neçə əsrlərin təkamülü və transformasiyası təmsil olunmaqdadır.

Zamanla marketinq sahəsində baş verən dəyişmələr və irəliləyişlər onun ümumilikdə fəaliyyət sferasındakı əhatə dairələrinin genişlənməsinə, növ-tərkib ifadələrinin artmasına və zənginləşməsinə səbəb olmuşdur.

Marketinq fəaliyyətinin bazar fəaliyyəti sistemi kimi qiymətləndirilməsi də özünün spesifik icra, təmsil, ifadələnmə və s. çalarlarının vahid mənzərədə təmsil olunmasına geniş imkanlar yaratmışdır. Bu sırada ilk növbədə çoxsaylı metodların istifadəsi nəzərdə tutulur ki, onlardan da mühüm olanlarına aşağıdakı sxemdə ifadə edilən bəndlər aiddir.

Marketinq fəaliyyətinin həyata keçirilməsində istifadə olunan metodlar aşağıdakılardır:

- uçot və qeydəalma
- monitorinq və planlaşdırma
- proqramlaşdırma
- proqnozlaşdırma
- korreksiya (düzəlişetmə)
- layihələndirmə
- sistemin təşkili və nəticələrinin təhlili, tələb-təklif təsnifləşdirmələri və s.

**Sxem 2.**

**Marketinqin konsepsiyaları üzrə mərhələliyi və ardıcıllığı**

**Marketinqin konsepsiyaları üzrə mərhələliyin və ardıcıllığın qorunması**

*İstehsalın təkmilləşdirilməsi* prinsipləri əsasında fəaliyyətin təşkili

Insanların və ya istehsalatların ehtiyaclarından asılı olaraq *əmtəələrin* kəmiyyət və keyfiyyət ifadələrinin *təkmilləşdirilməsi*

Tələbatın hərtərəfli ödənilməsi məqsədilə *kommersiya səylərinin intensivləşdirilməsi*

Satış prosesində öncül nəticələrin əldə olunması məqsədilə *marketinqin* sistemli təməllərinin yaradılması və mütəmadi inkişaf etdirilməsi

Əmtəə və xidmət mübadilələrin hərtərəfli öyrənilməsi üçün *sosial-etik* və digər konseptual əsaslardan istifadə olunması və s.

Mənbə: sxem müəlliflər tərəfindən tərtib olunmuşdur

Məsələnin araşdırılması və hərtərəfi öyrənilməsində marketinq qarşısında duran vəzifələr də özünün spesifikliyi ilə fərqlənməkdədir. Belə ki, dayanıqlı inkişafın təmin edilməsində marketinq tərəfindən özünün vəzifələrinə yenidən baxılması qanunauyğun proses kimi qiymətləndirilməkdədir. Bu sırada aşağıdakı sxemin maddələrinin sistemli şəkildə ifadə olunması, onlarla bağlı daha genişmiqyaslı tədbirlərin icrası sərgilənməkdədir.

Dayanıqlı inkişaf sahəsində marketinqin nümunəvi vəzifələri aşağıdakılardır:

- Bazarın, onun quruluşunun, əsas tərkib elementlərinin kompleks və sistemli öyrənilməsi
- Mübadilə proseslərinin əsas iştirakçı tərəfləri olan tələblə təklifin qarşılaşdırılması, qarşılanmış tələbatla qarşılanmamış tələbat arasında kəmiyyət-keyfiyyət ölçülərinin müəyyənləşdirilməsi
- Əmtəə və xidmətlər üzrə növ-çeşid elementlərinin (quruluş, qiymət və s.) planlaşdırılması
- Müəyyən edilmiş tələbin məzmun, forma və digər göstəriciləri üzrə işlərin icrası
- Satış proseslərinin quruluşunun müəyyən edilməsi, onun planlaşdırma proseslərinə cəlbi və icrası
- İstehsalın təşkili və idarə edilməsi üzrə konseptual əsaslara riayət olunması, bəhs olunan istiqamətlərdə təkamül təyinatlı addımların atılması və s.

İstər ümumilikdə bölmələrdə, istərsə də nəticə hissəsində verilmiş informasiyalarda dayanıqlı iqtisadi inkişafın, həmçinin onun mühüm alətlərindən hesab olunan marketinqin əhəmiyyətindən xəbər verilməkdədir. Haqqında bəhs olunan informasiya “mərkəzləri” ilə bağlı sistemli məlumatların toplanması, onlardan sonrakı icraatlarda istifadə olunması özünün

aktuallığı ilə fərqlənməklə yanaşı ölkənin, onun regionlarının inkişafında mühüm, bəzi hallarda isə həlledici rollardan birini oynamaqdadır.

**Tədqiqatın elmi yeniliyi** – iqtisadi inkişaf potensialından optimal istifadə imkanları və xüsusiyyətlərinin müəyyən edilməsi, marketinq münasibətlərinin inkişaf etdirilməsi, bu istiqamətdə yarana biləcək problem və çatışmazlıqların aradan qaldırılması yollarının nəzəri və təcrübəvi müstəvidə aşkara çıxarılması tədqiqatın elmi yeniliyini təşkil edir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – istehsal sisteminin sahəvi və sektorlar üzrə dayanıqlılığının qiymətləndirilməsi, bu prosesdə marketinqin rolunun, tənzimləmə mexanizmləri əsasında inkişafı yollarının müəyyən edilməsi və müvafiq nəticələrin əldə edilməsi tədqiqatın tətbiqi baxımdan xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın iqtisadi səmərəsi** – tədqiqatın nəticələri dayanıqlı inkişaf kontekstində marketinqin effektivliyi meyarlarının müəyyən edilməsi və marketinq alətlərindən istifadənin genişləndirilməsi baxımından iqtisadi cəhətdən səmərəli hesab edilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə. Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), I cild, Bakı: Şərq-Qərb, 2012, 610s.
2. Hacızadə. E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 509s.
3. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə.Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), V cild, Bakı: Şərq-Qərb, 2012, 629s.
4. Allahverdiyev H.B. və b. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 446s.
5. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: Qərənfil. 2006, 591s.
6. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, 466s.
7. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. *Dərs vəsaiti*. Naxçıvan: Əcəmi, 2019, 264s.
8. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.M. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010, 508s.

**Тукезбан Курбан кызы КАСЫМЛЫ**
Диссертант, сотрудник кафедры «Экономики» Университет «Нахчыван»

**Хаджар Шохраддин кызы ВЕЛИЗАДЕ**
Ассистент АГАУ кафедры "Маркетинг"
E-mail: hecer6.gurbanova@bk.ru

# ЗНАЧЕНИЕ ДЕЯТЕЛЬНОСТИ МАРКЕТИНГА В КОНТЕКСТЕ УСТОЙЧИВОГО РАЗВИТИЯ

## Резюме

**Цель исследования** - определение закономерности экономических процессов в условиях устойчивого развития, выявление и систематизирование особенности формирования маркетинговых отношений, определение оптимального использования маркетинговых инструментов, методов и средств, необходимых компонентов механизма его развития.

**Метод исследования** – в ходе исследования использовались методы группировки и сравнительного анализа.

**Результаты исследования** - получены результаты деятельности экономической системы в целом и ее отдельных направлений по линии «мониторинг спроса - предпроизводственное планирование - производство - реализация», и были определены методы оценивания факторов устойчивости в производстве.

**Ключевые слова:** устойчивое развитие, экономическая система, маркетинговые отношения, конкуренция, рынок, прогнозирование.

**Tukazban Gurban gizi GASIMLI**
Phd student,"Nakchıvan" University

**Hajar Shokhraddin gizi VALIZADE**
Assistant of "Marketing" department, ASAU
E-mail hecer6.gurbanova@bk.ru

## THE SIGNIFICANCE OF MARKETING ACTIVITIES IN THE CONTEXT OF SUSTAINABLE DEVELOPMENT

**Summery**

**The purpose of the research** – is to determine the patterns of economic processes in the context of sustainable development, to identify and systematize the features of the formation of marketing relations, to determine the optimal use of marketing tools, methods and means, the necessary components of its development mechanism.

**Method of research** – in the course of the research, methods of grouping and comparative analysis were used.

**Results of the research** - were determined the results of the activity of the economic system as a whole and its individual areas along the line of "demand monitoring - pre-production planning - production - sales" were obtained, and methods for assessing sustainability factors in production system.

**Key words:** sustainable development, economic system, marketing relations, competition, market, forecasting.

**Kamran Ağaəli oğlu RƏSULOV, i.f.d., dosent**
Təhsildə Keyfiyyət Təminatı Agentliyi
E-mail: kamran.rasulov@tkta.edu.az

# İNNOVASİYALI SƏNAYE İSTEHSALININ İQTİSADİ MƏQSƏDƏUYĞUNLUQ ASPEKTLƏRİ

**Xülasə**

Məqalədə innovasiyalı sənaye istehsalının iqtisadi səmərəliliyi və məqsədəuyğunluğu məsələləri nəzərdən keçirilmiş, iqtisadi məqsədəuyğunluq anlayışı dəqiqləşdirilmişdir. Emal sənayesində innovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluğunun əsas aspektləri tədqiq olunmuşdur. Tədqiqatın məqsədi emal sənayesi sahələrində innovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluq məsələlərinin tədqiqi və onların həlli imkanlarını müəyyən etməkdir. Tədqiqat prosesində monoqrafik, müqayisəli təhlil, elmi abstraksiya, məntiqi ümumiləşdirmə və modelləşdirmə üsullarından istifadə edilmişdir. Tədqiqatın yekunu kimi əsaslandırılan müddəalar və əldə edilən nəticələr sənaye innovasiyalarının iqtisadi məqsədəuyğunluğunun təhlili və qiymətləndirilməsi təcrübəsində istifadə oluna bilər. Tədqiqat nəticəsində innovasiyalı sənaye istehsalının əlverişli iqtisadi mühitini şərtləndirən amillər xarakterizə edilmişdir. Ölkənin emal sənayesində innovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluğunu təmin etmək üçün atılan addımlar qiymətləndirilmiş, sahənin innovasiyalı inkişaf imkanlarına yaşıl iqtisadiyyatın tələbləri baxımından münasibət bildirilmişdir.

**Açar sözlər:** innovasiyalı istehsal, sənaye, iqtisadi məqsədəuyğunluq, yaşıl iqtisadiyyat, dayanıqlıq, modelləşdirmə.

**UOT: 338**
**JEL: O31**

## Giriş

Hazırda dinamik inkişaf edən Azərbaycanın iqtisadiyyatının və o cümlədən sənayesinin əldə etdiyi nailiyyətlərdə elmi-texniki tərəqqinin rolu artmaqdadır. Dünyanın qabaqcıl təcrübəsinin öyrənilməsi, perspektiv inkişaf meyillərinin və mövcud reallıqların tələbləri nəzərə alınmaqla onların mənimsənilməsi, texnoloji və bir sıra digər xarakterli innovasiyaların transferinin çevik və işlək sisteminin yaradılması, respublikanın elmi-texniki potensialından istifadə səmərəliliyinin yüksəldilməsi, sənaye texnologiyalarının ekoloji ekspertizası sisteminin beynəlxalq standartlar səviyyəsində qurulması və bu kimi bir sıra digər tədbirlər, innovasiyalı inkişafı dəstəkləməklə, sənayedə məcmu səmərəliliyi yüksəldir. Qeyri-neft sektorunun inkişafının prioritetliyinin bəyan edilməsi, bu istiqamətdə həyata keçirilən kompleks xarakterli tədbirlərin səmərəliliyində innovasiya amilinin artan rolu müşahidə olunur.

## Sənaye istehsalının innovasiyalı inkişafının iqtisadi mühiti

Müasir sənayedə, o cümlədən emal sənayesi sahələrində innovasiyalı fəaliyyətin iqtisadi səmərəlilik və iqtisadi məqsədəuyğunluq baxımından xarakterizə olunması nəzəri və təcrübi baxımdan mühüm əhəmiyyətli məsələdir. İnnovasiyaların investisiyalaşdırılmasına başlanmasının iqtisadi baxımdan məqsədəuyğunluğunun qiymətləndirilməsi innovasiyalı fəaliyyətin iqtisadi səmərəliliyini müəyyənləşdirmək baxımından ilkin və mühüm addımlardan biridir. İnnovasiyalı istehsala hazırlıq və onun başlanmasının iqtisadi məqsədəuyğunluğunun qiymətləndirilməsi kifayət qədər mürəkkəb və çoxaspektli məsələdir [1].

Təkcə onu qeyd etmək kifayətdir ki, innovasiyaların iqtisadi məqsədəuyğunluğunun hüquqi və fəlsəfi aspektləri də tədqiqatçıların diqqət mərkəzindədir. Odur ki, innovasiyalı sənaye istehsalının iqtisadi məqsədəuyğunluğunun səciyyələndirilməsinin bəzi nəzəri və praktiki müddəalarını dəqiqləşdirməyə ehtiyac vardır. Bu baxımdan, zənnimizcə, ilk növbədə iqtisadi məqsədəuyğunluq anlayışına münasibət bildirmək lazımdır.

İqtisadi məqsədəuyğunluq bir anlayış kimi bu və ya digər fəaliyyətin başlanğıcında, ona məsrəflər və əldə edilən nəticənin dəyər ifadəsi

arasında münasibət müstəvisində müəyyən olunur. İstehsal fəaliyyətində gəlir və xərclərin nisbəti (fərqi) isə iqtisadi məqsədəuyğunluğun kəmiyyətcə qiymətləndirilməsi üçün zəruri ilkin informasiya kimi istifadə oluna bilər. Belə ki, ilkin yanaşmada konkret təsərrüfatçılıq layihəsinə yönəldilən vəsait gəlir gətirirsə, onun iqtisadi baxımdan məqsədəuyğun olub-olmadığını müəyyən etmək üçün analoji layihə ilə müqayisələr aparılmalıdır [2,s.2667-2675].

İnnovasiyalı fəaliyyət üzrə, sözün həqiqi mənasında analoq tapmaq isə, məlum olduğu kimi heç də həmişə asan iş deyildir. Bununla belə, məhz həmin müqayisələr sayəsində konkret layihənin iqtisadi məqsədəuyğunluğu barədə fikir söyləmək olar. Bir sözlə, istehsal innovasiyalarının investisiyalaşdırılması üzrə hər hansı layihənin işlənib hazırlanmasına başlamaq üçün, həmin layihənin iqtisadi baxımdan investorun məqsədlərinə uyğunluğu vəziyyəti dəyərləndirilməlidir. Haqqında danışılan layihənin yaşıl iqtisadiyyatın tələblərinə adekvatlığı məsələsi də diqqətdən yayınmamalıdır.

İnvestisiyanın ödənilməsi müddəti layihənin iqtisadi məqsədəuyğunluğunu qiymətləndirmək baxımından müəyyən informativliyə malik göstəricidir. Belə ki, investisiya layihəsinin əsaslandırılması prosesində, bir qayda olaraq əsas xarakteristikalar müqayisəli surətdə qiymətləndirilir. Başqa sözlə, investisiya qoyuluşlarının ödənilmə müddəti, birmənalı surətdə müqayisə edilə bilən göstərici kimi konkret layihənin iqtisadi baxımdan, habelə yaşıl iqtisadi mühit tələbləri baxımından əlverişli olub-olmamasını qiymətləndirməyə imkan verir. İnnovasiya layihələrinin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün tətbiq edilən digər göstəricilərin (xalis gətirilmiş dəyər, daxili gəlirlik norması, gəlirlik indeksi, investisiyanın rentabellik əmsalı və i.a.) iqtisadi məqsədəuyğunluğun səciyyələndirilməsi baxımından istifadə edilməsi imkanları xeyli dərəcədə məhduddur. Belə ki, həmin göstəricilər, ən tez istehsal innovasiyalarının investisiyalaşması layihələrinin ilkin nəticələri əldə edildikdən sonra məqbul dəqiqliklə müəyyən edilə bilər.

İstehsal innovasiyalarının iqtisadi məqsədəuyğunluğunu müəyyən etmək üçün müvafiq investisiya layihələrinin əsas mərhələlərini və əhəmiyyətli nəticələrini xarakterizə etmək lazımdır. Bu məqsədlə, ilk növbədə istehsal innovasiyası layihəsi hər zaman iqtisadi meyarlarla qiymətləndirilməli, maliyyə resursları da daxil olmaqla resurs və məhsul axınları modelləşdirilməlidir. Unutmaq olmaz ki, modelləşdirmə proseslərində istisnasız olaraq alternativlik prinsipinə riayət olunmalıdır. Başqa sözlə, resurs və məhsul axınlarının modelləşdirilməsi prosesində alternativ imkanlar diqqətdən yayınmamalıdır. Emal sənayesində istehsal innovasiyalarının iqtisadi məqsədəuyğuluğunun müəyyən edilməsi zamanı innovasiya layihəsinə qədərki və sonrakı dövrlər deyil, həmin layihənin reallaşdırılması və reallaşdırılmaması variantları müqayisə edilməlidir [3,s. 163-169].

İnvestisiyaların ödənmə müddətinin müəyyənləşdirilməsində iqtisadi meyarlarla kifayətlənmək mümkün deyildir. Bu zaman, habelə, texniki və texnoloji xarakteristikaların məqbulluğu səviyyəsi də diqqət mərkəzində olmalıdır. Deyək ki, emal sənayesində innovasiyalı inkişafa adekvat iqtisadi mühitin formalaşması imkanları araşdırılarkən və investisiya tələbatı müəyyən edilərkən bu və ya digər layihə üzrə texniki diaqnostika məsələləri də tədqiq edilməlidir. Məhz həmin diaqnostika, əlbəttə xammal xarakteristikaları da nəzərə alınmaqla, layihənin iqtisadi məqsədəuyğunluq göstəricilərində təshihlərə səbəb ola bilər.

İnnovasiyaların iqtisadi məqsədəuyğunluğu yaşıl iqtisadi mühitdə texniki və texnoloji məqsədəuyğunluqla əlaqədardır [4]. Emal sənayesində innovasiyalı istehsal fəaliyyətinin iqtisadi məqsədəuyğunluğuna təsir edən texniki səviyyə göstəricilərinin innovasiya, texniki, təşkilati və texnoloji göstəricilər qruplarının fərqləndirilməsi məqsədəmüvafiqdir (şəkil).

Təşkilati-texnoloji strukturun yenilənməsi tempini, elmtutumlu məhsulun ümumi istehsalda payını, avadanlıqların və məhsulun yenilənməsi tempini, elmi-tədqiqat və təcrübə konstruktor işlərinin (ETTKİ) əsas xarakteristikalarını əks etdirən innovasiya göstəriciləri emal sənayesində innovasiyalı istehsal fəaliyyətinin iqtisadi məqsədəuyğunluğuna təsir edən mühüm göstəricilərdir.

Sahədə innovasiyaların iqtisadi məqsədəuyğunluğuna təsir edən texnoloji amillər qismində texnologiyaların çevikliyi və adaptivliyi, texnoloji intensivlik, texnoloji təhlükəsizlik və ekoloji təmizlik xüsusi olaraq qeyd

edilməlidir. Emal sənayesində, məhz texnologiyaların çevikliyi və adaptivliyinə xidmət edən innovasiyaların iqtisadi cəhətdən daha məqsədəuyğun olduğunu söyləmək olar [5]. Məsələ ondadır ki, sənayenin həmin sahələrində texnoloji xətlərin yenilənməsi tempi, onların hissə-hissə yenilənməsi tempindən xeyli geri qalır. Bu və digər səbəblərdən emal texnologiyalarının çevikliyinin və kifayət qədər geniş amplituda malik texnoloji xarakterli dəyişikliklərə adekvat reaksiyanın təmin edilməsi sahədə innovasiya fəallığını şərtləndirən mühüm amil rolunda çıxış edir.

İnnovasiyalı istehsal fəaliyyətinin iqtisadi məqsədəuyğunluğuna təsir edən texniki səviyyə göstəriciləri

| İnnovasiya: | Texniki: | Təşkilati: | Texnoloji: |
|---|---|---|---|
| -təşkilati-texnoloji strukturun yenilənməsi;<br>-elmtutumlu məhsul;<br>- avadanlığın yenilənməsi;<br>- məhsulun yenilənməsi;<br>- ETTKİ | -əməyin texniki və enerji təminatı;<br>- texnikanın məhsuldarlığı;<br>- əsas fondların köhnəlməsi;<br>- erqonomiklik;<br>-avadanlıq parkının strukturu. | -istehsal proseslərinin səmərəli təşkili;<br>-istehsal dövrünün davamlılığı;<br>-ritmiklik;<br>-istehsalın estetikası və mədəniyyəti. | -texnologiyaların çevikliyi və adaptivliyi;<br>- texnoloji intensivlik;<br>-texnoloji təhlükəsizlik;<br>-ekoloji təmizlik. |

Şəkil. Emal sənayesində innovasiyalı istehsal fəaliyyətinin iqtisadi məqsədəuyğunluğuna təsir edən texniki səviyyə göstəriciləri

İnnovasiyaların yayılması arealı emal sənayesi üzrə fəaliyyətlərin məcmusunu əhatə etməyə bilər. Daha doğrusu emal sənayesində innovasiya proseslərinin istehsal-kommersiya fəaliyyətinin müxtəlif mərhələləri və fraqmentlərini əhatə etməsi heç də nadir hal deyildir. Sahədə modernləşdirmə prosesləri ayrı-ayrı maşın və avadanlıqları əhatə etdikdə, onların hər biri üzrə və texnoloji proses üzrə ümumilikdə modernləşmənin iqtisadi baxımdan məqsədəuyğun olub-olmaması məsələsi həll edilməlidir. Haqqında danışılan analoji yanaşma Azərbaycanın emal sənayesinin qida məhsulu, ağac emalı, toxuculuq kimi sahələrində istehsal fəaliyyətinin ahəngdarlığı üçün heç də az əhəmiyyətli olmayan əsaslı təmir proseslərinə də tətbiq edilə bilər. Əlbəttə, bu halda, əsaslı təmir xərcləri maşın və avadanlıqların balans dəyərini aşmamalıdır. Əks halda, bu tədbir iqtisadi baxımdan məqsədəuyğun olmayacaqdır.

Emal proseslərinin avtomatlaşdırılmasının iqtisadi məqsədəuyğunluğu xərc və miqyas aspektində xüsusilə aktualdır. Məsələ ondadır ki, avtomatik surətdə həyata keçirilən, başqa sözlə, xammalın hazırlanması və istifadəyə verilməsindən son məhsulun yeridilişinə qədər mərhələlərdə insanın bilavasitə nəzərdə tutulmaması məsələsi konkret halda qarşıya qoyulmasa da, hər bir halda iqtisadi məqsədəuyğunluq başlıca meyar rolunda çıxış edir [6, s. 25-38]. Haqqında danışılan müstəvidə emal proseslərinin avtomatlaşdırılmasının miqyası, başqa sözlə innovasiyalı istehsal proseslərinin əhatə dairəsi genişləndikcə iqtisadi məqsədəuyğunluq məsələsi daha da aktuallaşır. İstehsal proseslərinin avtomatlaşdırılmasının iqtisadi məqsədəuyğunluğunu qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə oluna bilər: ilkin əsaslı xərclərin ödənmə müddəti; avtomatlaşdırmaya əsaslı vəsait qoyuluşunun müqayisəli rentabelliyi; məhsul vahidinin maya dəyərinin azalması faizi; məhsul vahidinə əsaslı xərclərin azalması faizi.

Xarici investorların Azərbaycana artan marağı ölkədə innovasiya fəalllığının yüksəldilməsi məqsədilə istifadə olunur. İqtisadi məqsədəuyğuluq innovasiyalı fəaliyyət üzrə konkret layihənin investisiya cəlbediciliyini

qiymətləndirmək üçün istifadə oluna bilər. Bununla belə, artıq qeyd olunduğu kimi onun hesablanması metodikasında çoxsaylı dəqiqləşdirmələrə ehtiyac vardır. Məsələ ondadır ki, innovasiya layihəsində məsrəfləri əvvəlcədən kifayət qədər dəqiqliklə hesablamaq demək olar ki, qeyri-mümkündür. Digər tərəfdən həmin layihədən gözlənilən multiplikasiya effektinin də öncədən hesablanmasında investorun, daha çox bədbin proqnozlara üstünlük verməsi də innnovasiyalı inkişaf layihələrinin iqtisadi məqsədəuyğunluğunu müəyyənləşdirməyi çətinləşdirir.

**İnnovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluğu aspektləri**

İnnovasiya iqtisadiyyatın özünəməxsus cəhətlərindən biri izafi mənfəətin, əsasən istehsal hesabına deyil, bazarın yeni seqmentlərinin yaranması hesabına başa gəlməsidir. İnnovasiyalı istehsalın dayanıqlı inkişafı onun sosial-iqtisadi məqsədəuyğunluğunu təsdiqləyən amillər kompleksinin təsiri altında formalaşır [7]. Ümumiyyətlə, dayanıqlı inkişafda biosferin vəziyyəti, bəşəriyyət, istehsal, istehlak kimi amillərin təsir mühitində ahəngdar və davamlı fəaliyyəti nəzərdə tutulur.

XX əsrin 90-cı illərinin əvvəlində aktuallaşan problemlər dayanıqlı inkişaf konsepsiyasınan hazırlanmasında planetin məcmu imkanlarına nəzər salmağı zəruri etdi. 1992-ci ildə ətraf mühit və inkişaf üzrə BMT-nin keçirdiyi konfransda (Rio-de-Janeyroda) dayanıqlı inkişaf konsepsiyası yeni əsrdə bütün ölkələr üçün fəaliyyət proqramı kimi tövsiyə olunan sənəd müzakirəyə təqdim olundu. Bu istiqamətdə sonrakı illərdə müxtəlif səviyyələrdə həyata keçirilən tədbirlər, aparılan kompleks elmi araşdırmalar dayanıqlı inkişafda innovativlik amilinin artan rolunu təsdiqlədi.

İnnovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluğunun məqbul səviyyəsinin təmin olunmasında dayanıqlı və innovasiyalı inkişaf üçün əlverişli mühitin formalaşması həlledici rola malikdir. İnnovasiyalı iqtisadiyyatın dayanıqlığı, ilk növbədə aşağıdakı amillərdən asılıdır: maddi istehsal fəaliyyətinin səmərliliyindən, onun bilik iqtisadiyyatından bəhrələnməsi dərəcəsindən; istehsalın innovasiyalılığı isə öz növbəsində daxili əlaqələrin qarşılıqlı faydalılığından; xarici təsirlərə reaksiyaların adekvatlığı səviyyəsindən və s.

Digər tərəfdən başqa iqtisadi fəaliyyət istiqamətləri kimi maddi istehsal fəaliyyətinin dayanıqlığı sahədaxili və sahələrarası əlaqələrin davamlılığı və etibarlılığı şəraitində təmin oluna bilər. "İqtisadiyyatın dayanıqlığı onun elementlərinin sistemdaxili şaquli və üfüqi əlaqələrin davamlılığı və etibarlılığını, onların daxili və xarici «təzyiqə» dözmək qabiliyyətini əks etdirir" [8,s.12]. İnnovasiyalı fəaliyyətin iqtisadi məqsədəuyğunluğu və ümumilikdə iqtisadi-ekoloji səmərəliliyi, istehsal fəaliyyətinin innovativliyi prinsiplərinə riayət edilməsi dərəcəsi ilə qarşılıqlı surətdə əlaqədardır. Qənaətcillik və resursların təkrar istifadəsi, habelə bərpa olunan enerji mənbələrindən istifadə orta və uzaq perspektivə problem yaratmayan inkişaf strategiyasının reallaşdırılmasının başlıca şərtidir.

Emal sənayesində innovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluq aspektlərinə müvafiq fəaliyyətin əsas ekoloji tələblərindən təcrid olunmuş surətdə baxıla bilməz [9,s.15 -38]. Təbii ki, bu halda emal sənayesinin özünəməxsusluğunu şərtləndirən amillər diqqətdən kənarda qalmamalıdır.

İnnovasiyaların iqtisadi və ekoloji məqsədəuyğunluğuna vahid müstəvidə yanaşılması artım iqtisadiyyatı şəraitində olduqca çətin və bir sıra hallarda demək olar ki, qeyri-mümkündür. Bununla belə, müvafiq istiqamətdə işlərin kompleks şəkildə, daha qətiyyətlə və davamlı surətdə aparılması zərurəti birmənalı qəbul edilməlidir.

Məlum olduğu kimi bəşəriyyət hazırda qlobal ekoloji böhranın dərinləşməsi faktı ilə üz-üzədir. Ekspertlər və tədqiqatçılar qlobal ekoloji böhranın dərinləşməsinin iqtisadi proseslərə və onların iqtisadi məqsədəuyğunluğuna ciddi surətdə təsir edən aşağıdakı təzahürlərinə xüsusi diqqət yetirirlər: torpaqların, atmosferin və su hövzələrinin çirklənməsi və deqradasiya proseslərinin sürətlənməsi; biomüxtəlifliyin azalması; təbii ehtiyatların tükənməsi; istehsal və istehlak tullantılarının və onların ləğv edilməsinə məsrəflərin artması və i.a.

Azərbaycanda ətraf mühitin qorunması tədbirləri sistemli və davamlı surətdə həyata keçirilir. Bu baxımdan, heç də az saylı olmayan problemlərin qalmasına baxmayaraq, innovasiyaların iqtisadi-ekoloji məqsədəuyğunluğunun təmin edilməsi üçün atılan addımlar get-gedə

daha qətiyyətli xarakter alır. Maddi istehsalda, o cümlədən sənaye fəaliyyətində riayət edilməli ekoloji tələblər hərtərəfli əsaslandırılır. Ölkə qanunvericiliyində də müvafiq məsələlər daim diqqət mərkəzindədir.

Sənaye obyektlərinin istismarına ekoloji tələblər, Azərbaycan qanunvericiliyində aşağıdakıları nəzərdə tutur. "Sənaye, energetika, nəqliyyat və rabitə obyektlərinin, kənd təsərrüfatı təyinatlı obyektlərin istismarı və meliorasiya işlərində ətraf mühitin çirklənməsinin qarşısını alan təmizləyici qurğular və sanitariya-mühafizə zonaları, ekoloji əsaslandırılmış texnologiyalar və müəyyən edilmiş ekoloji tələblər nəzərə alınmaqla həyata keçirilir. Onlar tullantıların və maddələrin qalıqlarının tullantılarının təmizlənməsi, zərərsizləşdirilməsi və istifadə edilməsi üçün səmərəli vasitələrlə təchiz edilməli, təhlükəsiz yanacaq növlərini tətbiq etməli, təbii resursları qənaətlə və səmərəli istifadə etməli və ekoloji təhlükəsizlik üzrə tədbirlər görülməlidirlər" [10, maddə 42].

Digər tərəfdən, innovasiyalı sənaye istehsalının ekoloji-iqtisadi məqsədəuyğunluğunun məqbul həddinin təmin edilməsində mütərəqqi resursqoruyucu, o cümlədən enerjiqoruyucu texnologiyaların tətbiqi həlledici rola malikdir. "Dayanıqlı inkişaf aşağıdakı prinsiplərin reallaşdırılması deməkdir: qənaət prinsipi- resursların istehlakının azalması, uzunmüddətli istifadə mallarına keçid, tullantıları təkrar emal edilə bilməyən istehsaldan imtina edilməsi; enerjiqoruyucu texnologiyaların tətbiqi; istifadə olunmuş material və məmulatların ləğv edilməsi (utilləşdirilməsi), resurs məsrəfinin azaldılması, tullantılarla ətraf mühitin çirklənməsi dərəcəsinin azaldılması; bərpa olunan enerji mənbələrindən (günəş, su, külək və i.a. enerjisindən) istifadə" [11,s.71].

İnnovasiyalı istehsal fəaliyyətinin ahəngdarlığı və həmin fəaliyyətin nəticələri haqqında danışılan fəaliyyətin idarə edilməsi sisteminin səmərəliliyi ilə bilavasitə əlaqədardır. Yeniliklərin yaranması, yayılması və istifadəsi prosesləri, məqsədyönlü fəaliyyətdə kifayət qədər uzun bir müddət ərzində təşəkkül tapmış bir çox struktur elementləri ilə yanaşı, idarəetmə stereotiplərinə də tamamilə yeni müstəvidə baxmağı obyektiv zərurətə çevirir. İnnovasiyalı istehsal fəaliyyətinin idarə edilməsi sisteminin səmərəliliyini şərtləndirən amillər qismində, ilk növbədə idarəetmənin elmi təşkili, o cümlədən idarəetmə qərarlarının elmi əsaslandırılması səviyyəsi qeyd edilməlidir [12,s. 105 – 121].

İnnovasiyalı sənaye istehsalının iqtisadi məqsədəuyğunluğu və istehsal proseslərinin idarə edilməsinin elmi əsaslandırılması səviyyəsi arasında kifayət qədər sıx əlaqə vardır. Milli iqtisadiyyatın dinamik inkişaf imkanlarının genişləndiyi və həmin imkanların reallaşdırılması arealının genişləndirilməsində insan amilinin rolunun artdığı hazırkı şəraitdə "istehsal (o cümlədən, digər fəaliyyət sahələrinin) elmi idarə edilməsi əməyin elmi təşkilinə, sistemli təhlilə, qərarların qəbul edilməsi prosesində elmi cəhətdən əsaslandırılmış metodlara söykənir" [13, s.14]. Doğrudan da, sənaye istehsalının innovasiyalı-intensiv inkişafında, onun idarə edilməsində müasir informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən nə qədər fəal və geniş istifadə olunsa da, idarəetmə qərarlarının qəbulu mərhələsində insanın həlledici rolu qalmaqda davam edir.

İnnovasiyalı istehsal proseslərinin zaman amilinə görə fərqləndirilməsi, onların iqtisadi aspektlərinin araşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Məsələ ondadır ki, innovasiyalı istehsalın qısamüddətli inkişaf perspektivləri istehsal güclərinin qismən yenilənməsini nəzərdə tutursa, uzunmüddətli perspektivə həmin güclərin keyfiyyət baxımından əsaslı surətdə yenilənməsi nəzərdə tutula bilər. İkinci halda elmi-istehsal layihələrinin resurs təminatında köklü dəyişikliklər baş verə və onların maliyyələşdirilməsinin konseptual və strateji prioritetləri də yenilənə bilər. Başqa sözlə, innovasiyalı istehsalın uzunmüddətli perspektivə hesablanmış strateji hədəflərində, təcrübədən göründüyü kimi bütün resurslar, bir qayda olaraq dəyişənlər qismində nəzərdən keçirilir.

Azərbaycanda emal sənayesinin innovasiyalı inkişafında resurs təminatı imkanlarının çoxvariantlılığı özünəməxsus rola malikdir. Bu və digər səbəblərdən, innovasiyalı istehsalda resursların çoxtəyinatlılığı, istehsal güclərinin modernləşdirilməsi və bu kimi bir sıra digər amillər onun texniki, texnoloji nəticələrinin kifayət qədər böyük intervalda tərəddüd etməsinə səbəb olur. Haqqında danışılan istehsal

proseslərinin texniki nəticələrini əks etdirən göstəricilər informasiya iqtisadiyyatının inkişafının tempi və miqyası ilə bilavasitə bağlıdır. Həmin əlaqənin milli innovasiya sisteminin konsepsiyasının əsas hipotezlərinə uyğunluğu dərəcəsi yüksəldikcə, təcrübədən göründüyü kimi, yeni informasiya-kommunikasiya texnologiyalarından istifadə inkanları artır.

İstehsal innovasiyalarının iqtisadi məqsədəuyğunluğunu şərtləndirən amil kimi yeni informasiya-kommunikasiya texnologiyalarından istifadə arealı Azərbaycanda həmin texnologiyaların yaradılması və tətbiqinin prioritet olaraq bəyan edildiyi hazırkı dövrdə davamlı olaraq genişlənir. Belə vəziyyətin üstünlüklərinin lazımi səviyyədə reallaşdırılması üçün milli innovasiya sisteminin (MİS) formalaşması prosesləri dəstəklənməlidir. Bu baxımdan aşağıdakı mövqeni, zənnimizcə, məqbul hesab etmək olar.

“İqtisadi artımın və innovasiya fəaliyyətinin qarşılıqlı əlaqəsi innovasiyanın tətbiqinin yekun nəticələrinin tənqidi təhlili neoklassik artım modellərinin texniki tərəqqi ilə məhdudlaşdığını, yeni iqtisadi şəraitdə texniki tərəqqi amilinin qiymətləndirilməsinin qəbul olunmuş statistik üsullarının kifayət etməməsini və innovasiya proseslərinin dəyərinin ölçülməsi prinsiplərinin şərtiliyini göstərsə də, XX əsrin son onilliyindən başlayaraq iqtisadi tsiklin nəticələri yeni informasiya-kommunikasiya texnologiyalarının əmək məhsuldarlığının, iqtisadiyyatın ümumi səmərəliliyinin yüksəldilməsinə müsbət təsiri MİS konsepsiyasının əsas nəzəri hipotezlərini formalaşdırmışdır” [14,s. 29].

Emal sənayesində innovasiyalı inkişafa adekvat iqtisadi mühitin formalaşdırılması, bu sahədə innovasiya layihələrinin investisiyalaşmasına iqtisadi məqsədəuyğunluq prinsipi ilə yanaşma özünü doğruldur. Eyni zamanda, onu da qeyd etməliyik ki, innovasiyalı fəaliyyətin motivlərinin dəstəklənməsi müvafiq layihələrin iqtisadi məqsədəuyğunluq xarakteristikalarına əhəmiyyətli təsir göstərir.

Qabaqcıl xarici təcrübənin təhlili və aparılmış araşdırmalar belə deməyə, kifayət qədər əsas verir ki, innovasiyalı istehsalın iqtisadi səmərəliliyi, xüsusilə ilkin mərhələlərdə yeniliklərə həssaslığın motivləşdirilməsi sisteminin xarakterindən və onun innovasiyalı-intensiv inkişaf tələblərinə adekvatlığından, əhəmiyyətli dərəcədə asılıdır [15]. Emal sənayesində istehsal prosesində müxtəlif xarakterli yeniliklərə həssaslığın motivləşdirilməsinin, maliyyə tutumlu olduğunu nəzərə alaraq diaqnostik və analitik qiymətləndirməni nəzərdə tutan selektiv təşviq konsepsiyasına əsaslanması tövsiyə olunur. Həmin tövsiyələr, bir qayda olaraq innovasiya fəallığını yüksəltməyə yönəlir ki, bu da iqtisadi məqsədəuyğunluq məsələsini aktuallaşdırılmış olur. Sənayenin haqqında danışılan sahəsində innovasiyaların selektiv təşviqi sistemində istehsal fəaliyyətinin selektiv stimullaşdırması üzrə qərarların qəbulu meyarlarına münasibət çevik və əlbəttə ki, hərtərəfli əsaslandırılmış olmalıdır.

Məsələ ondadır ki, sənayedə innovasiyalı-intensiv inkişaf prioritetləri kifayət qədər uzun müddət üçün müəyyən edilsə də, onların reallaşdırılması prosesində təshihlərə ehtiyac yaranır. Həmin təshihlərin yüksək tezliyi, qabaqcıl təcrübədən göründüyü kimi nadir rast gəlinən hal deyildir. Belə vəziyyəti şərtləndirən səbəblər qismində, ilk növbədə elmi texniki tərəqqinin yüksək tempi, yüksək texnologiyaların yayılma arealının sürətlə genişlənməsi, innovasiyaların investisiyalaşdırılması imkanlarının bazar iqtisadiyyatının inkişafının tsiklik xarakterindən güclü asılılığı qeyd olunmalıdır.

İnnovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluq aspektlərinə münasibətdə deyilənlərə əlavə olaraq qeyd edək ki, sənaye texnologiyalarının yenilənməsi ideyası ilə, həmin ideyanın kommersiyalaşdırılaraq təcrübədə reallaşması, o cümlədən transferi arasında keçən müddət, innovasiyalı sənaye fəaliyyətinin səmərəliliyinin yenidən qiymətləndirilməsini tələb edir [16]. Həmin qiymətləndirmənin nəticələrinin potensial investor üçün nə dərəcədə cəlbedici olması, modernləşdirmə, yenidən strukturlaşdırma proseslərinin davamlılığında həlledici rola malik amil kimi qəbul edilməlidir.

Azərbaycanın emal sənayesində innovasiyalı inkişafa adekvat iqtisadi mühitin formalaşmasında elmi innovasiyaların iqtisadi səmərəliliyi səviyyəsi həlledici əhəmiyyət kəsb edir. Elmi innovasiyaların iqtisadi məqsədəuyğunluğu məsələsini araşdırarkən, ilk növbədə elmi-tədqiqatların xərc və zaman parametrlərinin

optimallaşdırılması (əlbəttə, minimumlaşdırma meyarı digər meyarların da nəzərə alınmasına imkan verməlidir) məsələsi nəzərdən keçirilməlidir.

Emal sənayesinin innovasiyalı inkişafının iqtisadi problemlərinin həllində elmi tədqiqatların xarakteristikalarının yaxşılaşdırılması, texnoloji biliklərin iqtisadi məqsədəuyğunluq meyarlarına müvafiqliyi dərəcəsinin kəmiyyətcə qiymətləndirilməsi innovasiyalı fəaliyyətin davamlılığı və əhatə dairəsinin optimallaşdırılmasında mühüm şərtlər qismində çıxış edir. İlkin yanaşmada elmi innovasiyaların yaranması, yayılması və mənimsənilməsi proseslərinin iqtisadi məqsədəuyğunluğunun təmin edilməsi üçün, ilk növbədə tələb olunan nəticənin əldə edilməsində vəsait və vaxt sərfinin optimal kəmiyyəti müəyyən edilməlidir. Daha sonra isə müvafiq layihənin digər xarakteristikaları müəyyənləşdirilməli, işlərin dəyərinin azaldılması tədbirlərinin məqsədəuyğunluğu layihənin icrasının ümumi nəticələri ilə müqayisədə əsaslandırılmalıdır.

Emal sənayesində məhsulun faktiki maya dəyəri bu və ya digər resurs növləri üzrə məsrəflərin miqdarı iqtisadi məqsədəuyğunluq prinsipindən çıxış edərək formalaşdırılır. Başqa sözlə, bu və ya digər xərc maddələrinin dinamikasını şərtləndirən amillər qismində iqtisadi məqsədəuyğunluq həlledici rola malikdir. Odur ki, elmi innovasiyaların yaranması, yayılması və istifadəsi proseslərinin resurs təminatında optimal nisbətlərin gözlənilməsi iqtisadi məqsədəuyğunluq səviyyəsini yüksəltməklə yanaşı, yüksək texnoloji emal sənayesinin erqonomik təminatını yaxşılaşdırmaq iqtidarındadır.

Azərbaycanın emal sənayesində ənənəvi istehsalın iqtisadi məqsədəuyğunluğunu təmin etmək üçün innovasiyalı inkişaf imkanlarının reallaşdırılması üçün sistemli addımlar atılır. Həmin addımların səmərəliliyinin, xeyli dərəcədə texnoloji və marketinq innovasiyalarının vəhdəti ilə təmin edilməsi nəzərdə tutulur. Emal sənayesində innovasiyalı istehsalın iqtisadi məqsədəuyğunluğun və sahədə məşğulluğun səviyyələri arasında əlaqələr tədqiqatçıların diqqət mərkəzindədir. Bu zaman innovasiya tipli məşğulluqda emal sənayesinin yeri və artan rolu xüsusi qeyd olunur [17, s.57].

Azərbaycanda 1995-2015-cü illər ərzində məşğul əhalinin artım sürətinin belə yüksək tempdə olması ali dövlət rəhbərliyi səviyyəsində həyata keçirilən və dinamik inkişaf meyarlarına əsaslanan məşğulluq siyasətinin uğurlu nəticəsidir. Maddi istehsalda məşğulluğun səviyyəsinin yüksəlməsi tempinin ümumilikdə iqtisadiyyat üzrə müvafiq göstəricidən bir qədər geri qalması, heç də gözlənilməz hal deyildir. Məsələ ondadır ki, iqtisadi inkişaf tempi yüksəldikcə məşğulluqda xidmət sahələrinin xüsusi çəkisi, demək olar ki, bütün hallarda artır. Bu isə nəticə etibarı ilə, maddi istehsalda, o cümlədən emal sənayesində innovasiya tipli məşğulluğun artım tempinə təsirsiz qala bilməz.

Ölkənin emal sənayesinin bir çox sahələrində innovasiyalı fəaliyyət imkanları, get-gedə iqtisadi və bazar amillərinin təsiri altında genişlənir. Bununla belə, bazar araşdırmalarının istehsal innovasiyalarının artan tələblərinə uyğunlaşdırılması, daha doğrusu, həmin araşdırmaların arzu edilən innovativliyinin təmin olunması problematik olaraq qalır. Ədalət naminə demək lazımdır ki, bu, ölkə və inkişaf səviyyəsindən asılı olmayan qlobal xarakterli problemdir və onun həllinə birgə səylərlə nail olmaq olar. Özü də bu halda korporativ səylərin elm sahələri arası (multidissiplinar) inteqrasiya effekti ilə müşayiət olunması zərurəti, artıq tədqiqatçıların və mütəxəssislərin böyük əksəriyyəti tərəfindən qəbul edilir.

**Nəticə**

Sənaye istehsalının innovasiyalı inkişafında iqtisadi məqsədəuyğunluq, yaşıl iqtisadiyyata keçidin hazırkı mərhələsində iqtisadi-ekoloji tələblərə cavab verdiyi dərəcədə məqbul sayıla bilər. Emal sənayesində texnologiyaların yenilənməsi ideyası ilə, həmin ideyanın kommersiyalaşdırılaraq təcrübədə reallaşması arasında keçən müddət, innovasiyalı sənaye fəaliyyətinin səmərəliliyinin, rəqəmsal texnologiyaların köməyi ilə yenidən qiymətləndirilməsini tələb edir. Həmin qiymətləndirmənin nəticələrinin potensial investor üçün nə dərəcədə cəlbedici olması, modernləşdirmə, yenidən strukturlaşdırma proseslərinin davamlılığında həlledici rola malik amil kimi qəbul edilməlidir. Sadalanan amillərin emal sənayesi müəssisələrinin bazar mövqeyinə təsiri imkanları aşkar edilməli və onların rellaşdırılması yolları dəqiqləşdirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Bazhal, Iurii. (2017). Evaluating Innovations Impact on Economy. 10.1007/978-3-319-54852-4_6.

2. Xin Long Xu,Tao Shen, Xi Zhang, Hsing Hung Chen. The role of innovation investment and executive incentive on financial sustainability in tech-capital-labor intensive energy company: Moderate effect. Energy Reports. Volume 6, November 2020, Pages 2667-2675. https://doi.org/10.1016/j.egyr.2020.09.011

3. İbrahimov F.M. Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşması proseslərinin modelləşdirilməsinin metodiki aspektləri. Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. İctimai elmlər seriyası. Naxçıvan ş. 2022, №6 (119) s. 163-169.

4. Funda H. Sezgin The Relationship Between Technological Development and Economic Growth in Emerging Economies: Panel Causality Analysis. Technological Development and Impact on Economic and Environmental Sustainability. 2022 |Pages: 11//DOI: 10.4018/978-1-7998-9648-7.ch008

5. Henrik Wimelius, Lars Mathiassen, Jonny Holmström, Mark Keil. A paradoxical perspective on technology renewal in digital transformation. 18 August 2020.https://doi.org/10.1111/isj.12307

6. A. Mital & L. J. George (1989) Economic Feasibility of a Product Assembly Line: A Case Study, The Engineering Economist, 35:1, 25-38, DOI: 10. 1080/ 00137918908 903001

7. Maxwell, Dorothy & Sheate, William & Vorst, Rita. (2003). Sustainable Innovation in Product and Service Development

8. Экономическая безопасность: производство-финансы-банки. Под ред. академика В.К. Сенчагова. Москва, ЗАО «Финстатинформ», 1998, 621с.

9. Serdal Ozusaglam. Environmental innovation: a concise review of the literature. Vie & sciences de l'entreprise 2012/2-3 (N° 191 - 192), pages 15 à 38

10. Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" Qanunu. Bakı şəhəri, 8 iyun 1999-cu il, № 678–I

11.Хайник Б., Хрдинова Г., Сакал П. Инновационное производство и экологическая безопасность// Журнал. Проблемы развития территории. №2, Том 58, 2012, с.70-74

12.Juan Ignacio Igartua, José Albors. The implementation process of innovation management in a medium-sized company. Projectics / 2011/1 (n 7), pages 105 à 121

13. Ataşov B.X. İdarə etmə elmi və rəhbər əməyi. Bakı, "Elm", 2011, 180 s.

14. Nəcəfov Z. M. Azərbaycan Respublikasinda milli innovasiya sisteminin formalaşmasi və inkişafi. 08.00.05 və 08.00.13. İ.e.d. ... dissert. avtoreferatı. Bakı, 2011, 38 s.

15. Soleas, E.K. Leader strategies for motivating innovation in individuals: a systematic review. *J Innov Entrep* **9**, 9 (2020). https://doi.org/10.1186/s13731-020-00120-w

16. Villafaña-Diaz, Luis & Lezama De La Rosa, Miguel. (2020). Literature review on industry commercialization and transfer of technology 4.0. 6. 1-9. 10.35429/JTP.2020.18.6.1.9

17. Süleymanova Əlvan. Sənayedə iş yerlərinin yaradılması xüsusiyyətləri innovasiya tipli məşğulluq. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. 2016, №3, s.54-61


**Камран Агаали РАСУЛОВ, к. э. н., доцент**
Агентство По Обеспечению Качества В Образовании
E-mail: kamran.rasulov@tkta.edu.az

## АСПЕКТЫ ЭКОНОМИЧЕСКОЙ ЦЕЛЕСООБРАЗНОСТИ ИННОВАЦИОННОГО ПРОМЫШЛЕННОГО ПРОИЗВОДСТВА

### Резюме

В статье рассмотрены вопросы экономической эффективности и целесообразности инновационного промышленного производства, уточнено понятие экономической целесообразности. Исследованы основные аспекты экономической целесообразности инновационного производства в перерабатывающей промышленности. Цель исследования -

исследовать экономическую целесообразность инновационного производства в сферах перерабатывающей промышленности и определить возможности их решения. В процессе исследования использовались методы монографического, сравнительного анализа, научной абстракции, логического обобщения и моделирования. Как вывод исследования, обоснованные положения и полученные результаты могут быть использованы в практике анализа и оценки экономической эффективности промышленных инноваций. В результате исследования были охарактеризованы факторы, определяющие благоприятную экономическую среду инновационного промышленного производства. Были оценены предпринятые шаги по обеспечению экономической целесообразности инновационного производства в перерабатывающей промышленности страны, а также выражено отношение возможностей инновационного развития отрасли к требованиям «зеленой» экономики.

**Ключевые слова:** инновационное производство, промышленность, экономическая целесообразность, зеленая экономика, устойчивость, моделирование.

**Kamran Agaali RASULOV, Ph.D., Associate Professor**
Agency for Quality Assurance in Education
E-mail: kamran.rasulov@tkta.edu.az

## ASPECTS OF ECONOMIC FEASIBILITY OF INNOVATIVE INDUSTRIAL PRODUCTION

### Summary

The article deals with the issues of economic efficiency and expediency of innovative industrial production, the concept of economic expediency is clarified. The main aspects of the economic feasibility of innovative production in the processing industry have been studied. The purpose of the study is to investigate the economic feasibility of innovative production in the processing industry and determine the possibilities for their solution. In the process of research, the methods of monographic, comparative analysis, scientific abstraction, logical generalization and modeling were used. As a conclusion of the study, the substantiated provisions and the results obtained can be used in the practice of analyzing and evaluating the economic efficiency of industrial innovations. As a result of the study, the factors that determine the favorable economic environment for innovative industrial production were characterized. The steps taken to ensure the economic feasibility of innovative production in the country's processing industry were evaluated, and the attitude of the possibilities of innovative development of the industry to the requirements of the "green" economy was expressed.

**Key words:** innovative production, industry, economic feasibility, green economy, sustainability, modeling.

**Şahin Nadir oğlu XURŞUDOV, i.f.d., dos.**

**Ramin Ramis oğlu MUSTAFAYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: raminmustafayev572@gmail.com

# COVİD-19 PANDEMİYASININ DÜNYA İQTİSADİYYATINA VƏ TURİZMİNƏ TƏSİRLƏRİ

**Xülasə**

Məqalədə Covid-19 pandemiyasının dünya və ölkələrin iqtisadiyyatına necə təsir göstərdiyi, həmçinin bu mənfi təsirlərdən qaçmağın yolları və əhəmiyyəti göstərilir. r. Turizm sektorunun xarici təsirlərdən necə çox təsirləndiyini və bu sektorda olan sahibkarlara necə və hansı yollar vasitəsi ilə bu kimi hadisələrə hazırlıqlı olmağı açıqlanır. İxrac və ümumi milli məhsulun (ÜMM) bu kimi dövrlərdə necə vacib və əhəmiyyətli olduğu, bununla birlikdə maliyyə fondlarınında belə böhranlı dövrlərdə sahibkarlar üçün necə əhəmiyyət kəsb etdiyi çatdırılır.

**Açar sözlər**: Covid-19, Pandemiya, İqtisadiyyat, Turizm, İdxal, İxrac,

**UOT: 332**
**JAL: J32**

## Giriş

**Tədqiqatın nəticələri** – dünyada turizmin qlobal xarakter aldığı bir şəraitdə böhranlı dövrlərin idarə edilməsi və bu dövrlər üçün hazırlıqların görülməsi sahəsində təklif və tövsiyələrin hazırlanması.

Ümumdünya Səhiyyə Təşkilatı 11 mart 2020-ci ildə Covid-19-u qlobal pandemiya elan etdi, lakin üzərindən 4 ilə yaxın müddət keçməsinə baxmayaraq dünya hələ də onun nəticələrindən əziyyət çəkir. Koronavirus ilkin olaraq Çinin Wuhan şəhərində aşkarlanıb və bütün dünyada pandemiyaya səbəb olub. Əvvəlcə ən çox yoluxma Çində müəyyən edildi, lakin virus Avropaya, Amerikaya və bütün dünyaya yayıldı. Yoluxmaların sayı artdıqca hökumətlər bunun qarşısını almaq üçün qatı karantin tədbirləri gördü. Lakin bu tədbirlər müasir dünyanın əsas dayaqlarını sarsıtdı. Qlobal ticarətə və əməkdaşlıq işi kimi iqtisadiyyata böyük mənfi təsirlər göstərdi. Hazırda iqtisadi şok da bundan qaynaqlanır. Virus xalqlara sızaraq istehsala təsir edir, tədarük axınını pozur və maliyyə bazarlarını narahat edir. Şübhəsiz ki, Covid-19-un ictimai sağlamlıq nəticələrinin aradan qaldırılması əsas prioritetdir, lakin eyni dərəcədə mühüm iqtisadi tədbirlər də bununla birlikdə görülməlidir. Covid-19 pandemiyasının səbəb olduğu iqtisadi böhran son 40 ildə baş verən iqtisadi böhran və fəlakətlərdən qat-qat pisdir. 2020-ci ildə dünya iqtisadiyyatı 4% azalıb ki, bu da qlobal maliyyə böhranındakı azalmadan təxminən iki dəfə çoxdur. Epidemiyanın yaratdığı zərbələrin təsiri və müddəti məlum olmadığından və dəqiq proqnozlaşdırıla bilmədiyi üçün iqtisadiyyatda yüksək səviyyədə qeyri-müəyyənliyə səbəb olmuşdur. Məlum olduğu kimi, qeyri-müəyyənlik həm istehlak, həm də, investisiyaların gecikməsinə və buna görə də, iqtisadi daralmaya səbəb olur. Bundan başqa, iqtisadi aktivliyin azalması nəticəsində fərdlərin gəlirləri azalır və epidemiyanın yaratdığı qeyri-müəyyənlik mühiti fərdlərin xərclərini daha da azaltmasına səbəb olur. Buna görə də, qeyri-müəyyənlik səviyyəsini həssas bir göstərici ilə ölçmək vacibdir. Bütün sektorlara, xüsusən də pandemiyadan ən çox təsirlənən sektorlara müxtəlif təşviq və dəstəklərin verilməsi pandemiyadan sonrakı iqtisadi bərpa prosesini sürətləndirəcək [1].

## Covid və Dünya iqtisadiyyatı

İlk dəfə 2019-cu ilin dekabr ayında Çinin Uhan şəhərində müşahidə olunan və qısa zamanda bütün dünyaya yayılan koronavirus (Covid-19) epidemiyası qlobal sağlamlıq böhranına çevrilərək bütün dünyanı təsir altına aldı. Qısa müddətdə həm iş dünyasına, həm də iqtisadiyyata mənfi təsir göstərən bu böhranın 1929-cu ilin Böyük Depressiyasından daha

dağıdıcı nəticələrinin olacağı təxmin edilir. Bu prosesdən şübhəsiz ki, inkişaf etməkdə olan ölkələr daha çox əziyyət çəkdilər. Xüsusilə risk səbəbindən birbaşa xarici investisiya axınında azalma, ticarət həcmində azalma, xammalın qiymətlərində artım oldu, bu artımdan asılı olaraq istehsal həcmi azaldı və qiymətlər artdı. İstehsalın azalması, həm də qiymət artımına və xüsusilə bəzi sektorlarda tələbin azalmasına səbəb oldu. Ancaq məzənnə artımı ilə, xüsusən də inkişaf etməkdə olan ölkələrdə milli valyuta dəyər itirdi. Nəticədə, bir çox makroiqtisadi dəyişənlər səbəb-nəticə əlaqəsi daxilində mənfi təsirə məruz qaldı [2].

**Covid və Turizm**

Koronavirusdan ən çox təsirlənəcək sektorların birincisi elə turizm sektoru idi. Bundan əlavə, turizm fəaliyyəti təxminən 54 fərqli sektorla, xüsusən də səyahət, yerləşdirmə, qida, içki və nəqliyyat xidmətləri ilə bilavasitə və bilvasitə sektorlarla əlaqəlidir. Bir çox sektorlarla giriş-çıxış əlaqəsində olması turizmdə yaranmış məsələlərin digər sektorlara da təsir etməsinə səbəb olur. Epidemiyalar, terrorçuluq cəhdləri, təbiət fəlakətləri, iqtisadiyyatın və siyasətin qeyri-stabilliyi və siyasi hadisələr və s. böhran zamanı turizmə olan tələbatı dəyişir. Ona görə də, insanlar birinci fiziki və təhlükəsizlik ehtiyaclarını qarşılamağa çalışır və turizm planlarını gecikdirməyə və ya dəyişdirməyə meyillənirlər [3].

Epidemik xəstəliklərin sadə və sürətli şəkildə insanlara keçməsi və yayılma riski səbəbindən turizm fəaliyyətinin əsas məntiqinə zidd gəlir. Epidemiyalar turizm fəaliyyətlərinə yaxından təsir etdiyi üçün turizm tələbinə neqativ təsir edir və iqtisadi ziyan vurur. Onun vurduğu zərərlər qısamüddətli, davamlı , yaxud müəyyən zamanlıq ola bilər [8].

Turizm, xüsusilə II İkinci Dünya Müharibəsindən sonra mühüm qlobal iqtisadi fəaliyyətə çevrildi. Bu gün turizmin həcmi 4-5% artım ilə qlobal məhsulun 8%-ni və təkcə dünyada məşğulluğun 10%-ni qarşılayır. Bundan əlavə, turizm yüksək təsiri ilə 135-dən çox sektora təsir edir, xarici valyuta daxilolmaları yaradaraq tədiyyə balansına töhfə verir, nəqliyyat, ticarət, tikinti, səhiyyə və maliyyə kimi bir çox aparıcı sənayeni işə salır. Turizmin iqtisadi təsirləri ilə yanaşı, bu araşdırmanın əhatə dairəsinə daxil olmayan bir çox sosial, mədəni və siyasi təsirləri də var. Turizm mühüm qlobal iqtisadi sektor olsa da, dünyanın istənilən ölkəsində və ya regionunda böhranlara çox həssasdır. Turizm tələbi təxirə salına bilən bir quruluşa malik olduğundan, təhlükəsizlik problemlərinə, iqtisadi böhrana və səhiyyə problemlərinə qarşı çox həssas bir görüntü yaradır[2]. Turizm də saxlanıla bilməyən bir məhsuldur, ona görə də, fiziki mallar kimi gələcəkdə satış üçün saxlanıla bilməz. Keçmişdəki bir neçə misal istisna olmaqla (məsələn, 2008-ci il iqtisadi böhranı) böhranların ancaq regional təsirləri olub və qlobal turizm hərəkətlərinə məhdud şəkildə təsir edəcək səviyyəyə çatıb. Şübhəsiz ki, Covid-19-u digər epidemiyalardan fərqləndirən onun sürətlə və geniş yayılması, yoluxma prosesinin və müalicəsinin qeyri-müəyyənliyi, habelə məcburi səyahət tədbirləri ilə birbaşa turizmə təsir edir. Həmçinin bu pandemiyanın bu qədər güclü təsir göstərməsinə səbəb isə insan metabolizmasına görə fərqli reaksiyalar verə bilməsidir. Elə bu səbəbdən də müxtəlif covid ştampları meydana gəlmişdir və müxtəlif variasiyaları yaranmışdır.

**Turizm və xarici təsirlər**

Turizm, tarixi prosesdə müxtəlif faktorların təsiri ilə geniş yayılmış və indiki vəziyyətinə çatmışdır. Turizm sferasının inkişaf etməsinə təsir edən çoxlu daxili və xarici ünsürlər, pandemiyalar, epidemiyalar, terror hücumları, təbii fəlakətlər, iqtisadi və politik qeyri-stabillik və i. kimi faktorlar vardır [3].

**Turizm sektorunun inkişaf etməsinə təsir edən daxili amillər -** insanları turizm fəaliyyətinə yönəldən əsas motivlər kimi ifadə edilir. Sözügedən amillər aşağıdakılardır:

- Maraq
- İş
- İnanc
- İncəsənət və təhsil
- Milli mədəniyyət
- İstirahət və əyləncə
- İdman
- Sağlamlıq
- Heyranlıq hissi, təqlid etməyə meyil
- Dostları və tanışları ziyarət etmək
- Qurultay və iclaslar

Turizm fəaliyyətinin əsas motivlərindən biri olan "maraq" insanların daha əvvəl tanımadıqları, görmədikləri yerləri, mədəniyyətləri və cəmiyyətləri görmək istəyi kimi izah edilir [9].

Təqlid etmə meyli, bir başqa mənada heyranlıq duymaq insanların turizm fəaliyyətlərində iştirakını artıran sosial-psixoloji elementlərdən biridir. İnsanların yaşadığı mühitdə;

– Reputasiya (etibar) qazanmaq,
– Dəbə, modaya uyğunlaşmaq
– Sosial mövqe təmin etmək məqsədilə gerçəkləşdirdikləri səyahətlər bu əhatəyə daxildir.

**Turizm sektorunun inkişaf etməsinə təsir edən xarici amillər -** Turizm sektorunun inkişaf etməsinə təsir edən daxili faktorlar qədər, xarici faktorlar da vacibdir. Əslində xarici amillər daxili amillərin tamamlayıcısı formasında təcəssüm edir. Bu səbəbdən xarici faktorlar;

– Marketinq kommunikasiyası ilə
– Yeni turistik bölgələrin, regionların və müəssisələrin yaranmasıdır.

**Turizm sənayesinin inkişaf etməsini stimullaşdıran hadisələr:** Dünyada və ölkəmizdə turizmin inkişaf etməsinə şərait yaradan fəaliyyətlər iki başlıq altında araşdırıla bilər:

- Təbii mühit
- Bəşəri (insan) mühit

**Təbii mühit:**

– Iqlim və yer formaları kimi turizmin əsas mənbəyinə işarə edərkən;
– Bəşəri (insan) mühit isə insanların yaratdığı festivallar və sərgilər şəklindəki turizm fəaliyyətlərini nəzərdə tutur.

**Təbii ətraf mühit fəaliyyətləri:** Turizmin təbii mühitlə münasibətini başa düşmək üçün ilkin olaraq insanları səyahətə sövq edən səbəblər araşdırılmalıdır. Urbanizasiyanın intensiv olduğu ərazilərdə yaşayanlar şəhərin yorğunluğundan və yaşayış şəraitindən uzaqlaşmaq üçün müəyyən müddət təbiətin və natural sərvətlərin olduğu məkanlara getmək ehtiyacı duyurlar. Beləliklə, ölkələrin təbii sərvətləri turistlər üçün mühüm cazibə obyektinə çevrilir. Bunlar aşağıda olduğu şəkildə təsnif olunur:

- Təbii ehtiyatlar
- İqlim şəraiti.

Bütün bunlardan əlavə, turizm sferasının inkişaf etməsinə təsir edən digər faktorlar isə, asudə vaxtın artması, ödənişli məzuniyyət hüququnun genişləndirilməsi, nəqliyyatda baş verən inkişaflar, gəlir səviyyəsinin artması, texnoloji inkişaflar, urbanizasiya və əhalinin artımı, səyahət azadlığı, sosial təminat, təhsilin və mədəniyyətin yüksəldilməsi, insan ömrünün uzanması və s.dir.

Ölkəmizin bir çox regionlarında turizmin inkişafına baxmayaraq, hələ də bəzi yerlərdə bu prosesə mənfi təsir göstərən maneələr mövcuddur. Belə ki, əsasən dağ bölgələrində kommunal ehtiyacların qarşılanmasında problemlər qalmaqdadır. Kommunal xidmətləri yerinə yetirmək üçün sahibkarın əlavə xərc çəkməsi lazım gəlir. Ona görə də, məkanların sahibləri qiymətləri artırır ki, bu da müştəri sayının azalmasına gətirib çıxarır.

Hesab edirik ki, ölkəmizin regionlarında turizmin yerləşdirilməsinin əsas xüsusiyyətlərini nəzərə almaqla, mövcud potensialdan istifadə üçün:

– Ölkəmizdə turizmin mövcud problemlərini aydınlaşdırmaq və turizmin iqtisadi-sosial inkişaf perspektivlərini müəyyən etmək.

– Azərbaycanın coğrafi mövqeyinə və yerləşdiyi məkana, təbii sərvətlərlə zəngin olmasından yararlanaraq, səyahətçilərin diqqətini cəlb etmək.

Azərbaycan xalqının qonaqpərvər olmasını, ölkəmizin füsunkar təbiətini, görməli tarixi yerlərini, çeşidli mətbəxini təbliğ etmək və s. əsas istiqamətlər olmalıdır.

Turizm regionların iqtisadiyyatının inkişafında, turizm xidmətləri və məhsullarının ölkənin iqtisadi dövriyyəsinə cəlb edilməsində, həmçinin əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Regionlarda turizmin inkişafı məşğulluq səviyyəsini artırır və əhalinin müvafiq gəlir mənbəyini təşkil edir.

**Azərbaycanda turizm üçün investisiya qoyuluşları**

Ölkəmizdə turizm sahəsinə həm yerli sahibkarlar, həm də burada işgüzar səfərdə olan xarici sahibkarlar tərəfindən investisiyalar qoyulur. Səyahət, turizm və investisiya bir-biri ilə sıx bağlı olan sahələrdir. Hazırda ölkəmizdə investisiyaların həyata keçirilməsi investisiya siyasətinə uyğun aparılmaqla, nəzəri cəhətdən əsaslandırılmış və bu proses daim təkmil-

ləşdirilir. Vergi sistemi əsaslı şəkildə yenilənmiş, prosedur qaydalar asanlaşdırılmış, sosial-iqtisadi sahələrin təkmilləşdirilməsi, iş adamlarının ölkəyə marağının artırılması sahəsində görülən işlər ölkəmizdə turizm sahəsinin inkişafına təkan vermişdir. İqtisadiyyata xarici investorlar tərəfindən qoyulmuş investisiyalar ölkəyə yeni texnologiyaların gətirilməsinə, kapital axınlarına imkanlar yaradır. [9].

Turizm bölgələrdə məşğulluğu artırmaqla ölkəmizdə yoxsulluq səviyyəsinin aşağı salınmasına və istehsala təsir göstərməklə əhalinin məskunlaşmasına kömək edir.

Ölkə rəhbərliyinin bu istiqamətdə apardığı əsas işlərdən biri ikiqat vergi tutma sisteminin aradan qaldırılması və ölkələrin maraqlarının qorunmasına dair ikitərəfli müqavilələrin bağlanması iş adamlarının, investorların ölkəyə olan marağının artmasına səbəb olmuşdur.

Ölkəmizdə 2008-ci ilin yanvar ayından “birpəncərə” sisteminin tətbiqi xarici və daxili investisiyaların ölkəmizin iqtisadiyyatına cəlb olunmasında və vergi sisteminin təkmilləşdirilməsində böyük rol oynamışdır.

Hər bir sahədə iqtisadi siyasət həyata keçirildiyi zaman əvvəla, onun istiqamətləri müəyyən edilməli və bu istiqamətlərə mütləq əməl olunmalıdır. Ədalətə, mövcud şəraitə, sistemli olmasına və fəallığa əsaslanan bu istiqamətlər iqtisadi-sosial qərarların qəbulu və elmi proqnozların hazırlanmasında əsas götürülür[9].

XXI əsrin əvvəllərindən ölkəmizdə həyata keçirilən iqtisadi-sosial siyasət, aparılan islahatlar nəticəsində Respublikamızın iqtisadiyyatına xarici kapital axınını sürətləndirmişdir. Ölkələrin inkişaf göstəriciləri yatırılan investisiyaların həcmindən əhəmiyyətli dərəcədə asılıdır. Odur ki, ölkələr bu məsələdə əsas diqqəti ölkəyə xarici investisiyaların cəlb olunmasına yönəltməlidir. Xarici investorlar müxtəlif ölkələrə investisiyanı fərqli məqsəd və səbəblərdən yatırırlar. İnvestorlar investisiya qoyduqları ölkələrdə özləri üçün ucuz xammal, istehlak bazarı əldə etməklə, istehsala qoyduqları xərci azaldaraq qanunvericiliyin imkanları miqdarında qazanc əldə edirlər. İnvestorlar dəqiq işləyən qanunvericilik və siyasi sabitlik olan ölkələrə yatırım qoyurlar [14].

Xarici investorlar öz fəaliyyət istiqamətlərinə uyğun sahələrə investisiya qoyarkən işlərinin normal getməsi üçün ilk növbədə həmin sahənin infrastrukturuna nəzər salır. Əgər öz işinə uyğun sahələrdə infrastruktur çatışmırsa, həmin sahəyə kapital qoyuluşu baş vermir. Buna görə də, dövlət hansı sahənin infrastruktur potensialı azdırsa, o sahələrin infrastrukturlarını lazımi qaydaya salır. Xarici investorlar fəaliyyətdə olduqları sahələrin infrastrukturunu genişləndirərək yeniləşdirdikdə bu yerli bazara da təsir göstərir və makroiqtisadi amillərdə dəyişikliklər baş verir.

Ölkəmizdə 2010-cu ildən başlayaraq daxili və xarici investorların cəlb olunmasında, iqtisadi infrastrukturun təkmilləşdirilməsində çox işlər görülmüşdür.

Xarici investisiyaların ölkəyə axınının sürətlənməsi Ümumdaxili məhsulun həcminin artmasına kömək edir. Bu investisiyaların 80%-i sənaye sahələrinin payına düşür. Eyni zamanda, qeyri-neft sektoruna yatırılan investisiyaların həcmində artım müşahidə olunur [8].

Turizm sahəsinin inkişafı və daha geniş dairədə yayılması üçün ölkənin təbii ehtiyatlarının və səmərəli iqtisadi-sosial resuslarının olması vacibdir. Bu sektor üçün kifayət qədər imkanların, əmək resuslarının olması, bu sahəyə çəkilən xərclərin böyük gəlir gətirməsi ölkəmizdə turizmə marağın artmasına səbəb olmuşdur. Ölkəmizdə turizm sahəsinə həm yerli sahibkarlar, həm də ölkəmizdə işgüzar səfərdə olan xarici sahibkarlar tərəfindən investisiyalar qoyulur. Hazırda ölkəmizdə investisiyaların həyata keçirilməsi investisiya siyasətinə uyğun aparılır. Vergi sisteminin yenilənməsi, prosedur qaydaların sadələşdirilməsi, iş adamlarının ölkəmizin turizm sektoruna marağının artmasına və turizmin inkişafına təkan vermişdir. Həmçinin onu da unutmaq olmaz ki, böyük xarici və yerli investorlara dayaq olduğumuz kimi, kiçik sahibkarlara da eyni dəstəyi göstərməliyik.

**Azərbaycanda turizmin son vəziyyəti**

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2022-ci ildə Azərbaycan Respublikasına dünyanın 178 ölkəsindən 1602,3 min və ya əvvəlki illə müqayisədə 2,0 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 27,9 faizi Rusiya Federasiyası, 19,5 faizi Türkiyə, 10,6 faizi İran, 6,0 faizi Səudiyyə Ərəbistanı, 5,1 faizi Gürcüstan, 3,8 faizi Hindistan, 3,2 faizi Pakistan, 2,6 faizi Birləşmiş

Ərəb Əmirlikləri, 1,9 faizi Qazaxıstan, 1,7 faizi Ukrayna, 1,6 faizi Özbəkistan, 1,5 faizi İsrail, 1,4 faizi Küveyt, hər birindən 1,2 faiz olmaqla Oman və Belarus, 10,8 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 74,8 faizini kişilər, 25,2 faizini qadınlar təşkil etmişdir.

2021-ci illə müqayisədə Omandan gələnlərin sayı 20,4 dəfə, Pakistandan - 17,5 dəfə, Səudiyyə Ərəbistanından - 10,9 dəfə, Hindistandan - 10,6 dəfə, Küveytdən - 9,9 dəfə, Özbəkistandan - 6,2 dəfə, Qazaxıstandan - 4,4 dəfə, İsraildən - 3,6 dəfə, ABŞ-dan - 2,8 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən - 2,4 dəfə, Almaniyadan - 2,4 dəfə, Fransadan - 2,1 dəfə, Böyük Britaniyadan - 1,9 dəfə, Rusiya Federasiyasından - 1,7 dəfə, Ukraynadan - 1,6 dəfə, Türkiyədən - 1,6 dəfə, İrandan - 36,0 faiz, Gürcüstandan - 31,2 faiz artmışdır.

2021-ci illə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 2,3 dəfə artaraq 357,9 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,1 dəfə artaraq 73,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə artaraq 569,8 min nəfər olmuşdur.

2021-ci illə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 1,5 dəfə artaraq 1489,5 min nəfər olmuşdur. İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 3,1 dəfə, Gürcüstana gedənlərin sayı 1,7 dəfə, Türkiyəyə gedənlərin sayı 1,4 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı isə 12,9 faiz artmışdır. Ölkə vətəndaşlarının 44,0 faizi Türkiyəyə, 18,0 faizi Rusiya Federasiyasına, 13,6 faizi İrana, 8,6 faizi Gürcüstana, 15,8 faizi digər ölkələrə səfər etmişdir. Gedənlərin 64,2 faizini kişilər, 35,8 faizini qadınlar təşkil etmişdir [5].

**Cədvəl 1**

**Azərbaycana gələn və xaricə gedən turistlərin sayı**

| İllərlə | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Ölkəyə gələn turistlər (nəfər) | 8.949 | 13.455 | 12.777 | 30.950 | 2.304 |
| Ölkədən gedən turistlər (nəfər) | 54.594 | 64.132 | 70.945 | 68.557 | 5.901 |

Mənbə: Dövlət Statistika Komitəsi, Bakı 2021

Cədvəl 1də 2016-2019-cu illərdə ölkəmizə gələn və xarici ölkələrə gedən turistlərin sayında nəzərə çarpacaq artım müşahidə olunsa da, 2020-ci ildə Covid-19 pandemiyası ilə əlaqədar tətbiq edilən məhdudiyyətlər səbəbindən kəskin azalma baş vermişdir. Ölkəmizin regionlarında olan kommunal xidmətlər (su, işıq və qaz) nəqliyyat sistemi, kurort, mehmanxanalar, sanatoriyalar turizm sektoruna birbaşa təsir göstərmişdir. Bu pandemiyanın təsirlərini, artıq 4 ilə yaxın bir müddət keçməsinə baxmayaraq, hələ də hiss edirik və uzun müddət də hiss edəcəyik.

## ƏDƏBİYYAT SİYAHISI:

1 - Marinko Skare, Domingo Riberio Soriano, Malgorzata Porada-Rocho´n- Impact of COVID-19 on the travel and tourism industry
crisis – and the future of the economy and economics

2 - Bouarar, Ahmed Chemseddine and Mouloudj, Kamel and Mouloudj, Smail - The impact of coronavirus on tourism sector - an analytical study

3 Rushikesh Vijaykumar B andal, Bhagyashree Pandurang Khandare – İmpact of Covid 19 onglobal

4 – (https://www.stat.gov.az)

5 – (https://www.tourismboard.az/az)

6 – (https://www.ebooks.az)

7 – (http:/e-qanun.az)

8 – (http:/unec.edu.az)

9 – (http:/azerbaijan.az)

10 – (http:/yeniazerbaycan.com)

11 – (http:/kayzen.az)

12 – (https://achiqkitab.aztc.gov.az/)

13 – (https://apa.az/az)

14 – (https://qafqazinfo.az/)

15 – (https://www.kitabyurdu.org/)

16 – (https://thebrowser.com/)

**Шахин Надир оглы ХУРШУДОВ, к. э. н., доцент**

**Рамин Рамис оглы МУСТАФАЕВ**
Азербайджанский Технологический Университет
E-mail: raminmustafayev572@gmail.com

## ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА МИРОВУЮ ЭКОНОМИКУ И ТУРИЗМ

**Резюме**

В статье показано, как пандемия covid-19 влияет на экономику мира и стран, а также пути и важность предотвращения этих негативных последствий. Объясняется, насколько туристическая сфера сильно зависит от внешних воздействий и как и какими средствами предпринимателям в этой сфере следует готовиться к таким событиям. Он показывает, насколько важны и важны экспорт и валовой национальный продукт (ВНП) в такие времена, а также показывает, насколько важны финансовые средства для предпринимателей в такие кризисные времена.

**Ключевые слова:** Covid-19, Пандемия, Экономика, Туризм, Импорт, Экспорт

**Shahin Nadir oghlu KHURSHUDOV, Ph.D., Associate Professor**

**Ramin Ramis oghlu MUSTAFAYEV**
Azerbaijan University of Technology
E-mail: raminmustafayev572@gmail.com

## EFFECTS OF THE COVID-19 PANDEMIC ON THE WORLD ECONOMY AND TOURISM

**Summary**

The article shows how the covid-19 pandemic affects the economy of the world and countries, as well as the ways and importance of avoiding these negative effects. It is explained how the tourism sector is greatly affected by external influences and how and by what means entrepreneurs in this sector should be prepared for such events. It conveys how exports and gross national product (GNP) are important and important in times like these, and also conveys how financial funds are important for entrepreneurs in such times of crisis.

**Key words:** Covid-19, Pandemic, Economy, Tourism, Import, Export

**Elay Cəlal oğlu ZEYNALLI, i.f.d., dosent**

**Fərid ZEYNALOV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# AQRAR SAHƏNİN MODERN İNKİŞAFINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ROLU

**Xülasə**

Milli iqtisadiyyatın mühüm tərkib hissələrindən biri olan aqrar sektor həm ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində, həm də regionların sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan aqrar sahədə mövcud potensial imkanlardan səmərəli istifadə edilməsi, kənd təsərrüfatının təbii və iqtisadi ehtiyatlarının iqtisadi dövriyyəyə tam və səmərəli cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın kənd təsərrüfatı məhsulları geniş ixrac potensialına malikdir, hazırda aqrar sahənin inkişaf strategiyasının əsas prioritetlərindən biri emal sənayesinin müasirləşdirilməsi və yeni emal müəssisələrinin tikintisidir.

Kənd təsərrüfatı sahəsində beynəlxalq əməkdaşlığın formalaşması və inkişafı nəticəsində bu sahədə rəqəmsallaşma xüsusi inkişaf əldə edib. Müasir dövrdə iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sektorun bütün seqmentlərində rəqəmsal həllərin tətbiqi səviyyəsi günü-gündən yüksəlməkdə davam edir. Aqrar-sənaye kompleksində səmərəli işə nail olmaq üçün zəruri amillərdən biri innovativ texnologiyalardan maksimum istifadə etməkdir. Yaxın gələcəkdə fəaliyyətlərini vahid rəqəmsal platformada qurmağı bacaran şirkətlər, şübhəsiz ki, sürətlə bazarda liderliyi ələ keçirəcəklər.

**Açar sözlər:** aqrar sahə, beynəlxalq əməkdaşlıq, ixrac məhsulları, kənd təsərrüfatında rəqəmsallaşma

**UOT: 332**
**JEL: Q 00**

## Giriş

Cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günə qədər insanların zəruri qida ehtiyaclarının təmin edilməsi əsas vəzifələrdən biri olaraq qalmaqda davam edir. Bu səbəbdən də hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet məsələdir.

Müstəqil Dövlətlər Birliyi ölkələrində kənd təsərrüfatı sektorunun dinamik inkişafı onlara nəinki ərzaq təhlükəsizliyini fəal şəkildə gücləndirməyə, həm də qlobal ərzaq bazarında mühüm rol oynamağa imkan verir. Təsadüfi deyil ki, MDB-də kənd təsərrüfatı istehsalı üzrə daxili vəziyyətdə baş verən hər hansı ciddi dəyişikliklərə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən Birlikdən kənarda yerləşən regionlar və ölkələr üçün ərzaq təminatı prizmasından baxılır.

Son onilliklərdə əsas mövqelərdə olan MDB-nin üzvü olan dövlətlər qlobal ərzaq bazarında öz mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmişlər. Xüsusilə, 2015-ci ildən 2019-cu ilə qədər Birlik ölkələrində dənli və paxlalı bitkilərin istehsalı 30 milyon ton artaraq, MDB ölkələrinin dünya istehsalında payı 7 faizdən 8 faizə, şəkər çuğundurunun istehsalı isə 17 milyon tona (artım)., dünya istehsalında xüsusi çəkidə - 51%-dən 68%-ə qədər yüksəlmişdir. O cümlədən, taxıl üçün günəbaxan tumları - 10 milyon ton (payın artması - 49-dan 58%-ə qədər), kəsim üçün mal-qara və quşla - 3 milyon ton (bir payın artması - 5-dən 6%-ə qədər) olmuşdur.

2050-ci ilə qədər 9,3 milyard dünya əhalisini qidalandırmaq üçün ümumi ərzaq istehsalının təxminən 70 faiz artırılması tələb olunacaq. Bununla yanaşı, dünyada həyat səviyyəsinin yüksəlməsi tendensiyasına uyğun olaraq qida istehsalı strukturunda sağlam və keyfiyyətli məhsullara tələbat da artır.

Odur ki, BMT-nin 2015-ci ildə qəbul etdiyi “Dünyamızın transformasiyası: Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi” sənədində aclığın aradan qaldırılması, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyən edilib.

Bu çağırışlar fonunda dünyada aqrar sektorun inkişafında yeni meyillər müşahidə olunur. Qlobal miqyasda urbanizasiya proseslərinin sürətlə davam etməsi və sənaye inqilabının 4-cü mərhələsinə keçidin başlanması nəticəsində kənd təsərrüfatı sektorunun rolunda və strukturunda mühüm dəyişikliklər baş verdi. Beləliklə, məhdud torpaq və su ehtiyatları fonunda qlobal ərzaq ehtiyatlarının əhəmiyyətli dərəcədə artırılmasını təmin etmək lazımdır. Bu isə davamlı kənd təsərrüfatı istehsalına imkan verən intensiv metodlardan və yeni texnologiyalardan istifadənin artırılmasını tələb edir. Buna görə də, kənd təsərrüfatında müasir texnologiyaların və innovasiyaların geniş tətbiqi hazırda qlobal ərzaq təhlükəsizliyinin gücləndirilməsinin və ətraf mühitə mənfi təsirin azaldılmasının əsas vasitəsidir. Bundan əlavə, torpaqlardan davamlı istifadə, kənd təsərrüfatının qlobal iqlim dəyişikliyinə uyğunlaşdırılması, ərzaq məhsullarının istehsalının artması da bu sahədə daim islahatların aparılmasını zəruri edir.

Aqrar islahatların hazırkı mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya, məhsuldarlığın artırılması və fermerlərin maddi rifahının yüksəldilməsi hesabına istehsal xərclərinin azaldılması təşkil edir.

Son illər ölkəmizdə aparılan sistemli islahatlar və yüksək dövlət dəstəyi sayəsində kənd təsərrüfatı məhsullarının istehsalının göstəriciləri durmadan artır. Bu nəticələr yerli istehsal hesabına daxili bazarda təkliflərin artmasına şərait yaratmaq, özünütəminat səviyyəsini yüksəltmək, fermerlərin gəlir əldə etmək imkanlarını yaxşılaşdırmaqla yanaşı, qeyri-neft ixracının da artmasına mühüm töhfə verir.

Azərbaycanda aparılan genişmiqyaslı aqrar islahatlar sayəsində kənd təsərrüfatında artım templəri sabitdir. 2003-2017-ci illərdə bütövlükdə kənd təsərrüfatı məhsullarının real artımı 166,4 faiz, o cümlədən bitkiçilikdə 156,7 faiz, heyvandarlıq sektorunda isə 177,8 faiz təşkil etmişdir. Dünya Bankının məlumatına görə, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sektorunun real artımı dünya üzrə orta göstəricidən, eləcə də region ölkələrinin müvafiq göstəricisindən yüksək olub.

Kənd təsərrüfatı sahəsində dinamik inkişaf tendensiyası cari ildə də davam etmiş, 9 ayda kənd təsərrüfatı məhsullarının ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 5,8 faiz, heyvandarlıq məhsulları istehsalı isə 5,8 faiz (2,7 dəfə) artmışdır. Bir sözlə, dövlət başçımızın da qeyd etdiyi kimi, “Biz kənd təsərrüfatında ardıcıl artım görürük”.

Aqrar islahatların hazırkı mərhələsi yüksək əlavə dəyər yaradan ənənəvi sənaye sahələrinin inkişafı baxımından həm də tarixi dönüş nöqtəsi kimi səciyyələndirilə bilər. Belə ki, qəbul edilmiş sahəvi dövlət proqramları çərçivəsində pambıqçılığın, tütünçülüyün, çəltikçiliyin, ipəkçiliyin, çayçılığın, üzümçülüyün və sitrusçuluğun inkişafı tədbirləri ardıcıl və sistemli şəkildə həyata keçirilib. Nəticədə kənd yerlərində yüksək əlavə dəyər və geniş məşğulluq imkanları yaradan sənaye və ixracyönümlü sektorlar mühüm inkişaf sürətinə nail olub.

Pambıqçılıqda həyata keçirilən məqsədyönlü tədbirlər məhsuldarlığı artıracaq və son nəticədə bu sahənin ənənəvi nüfuz və şöhrətini özünə qaytaracaq. Kənd təsərrüfatı məhsullarının emalı sənayesinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Ucar rayonunda pambıq, pambıq yağı və lifsiz pambıq toxumunun emalı zavodları istifadəyə veriləcək. Bu isə ölkədə sənayenin inkişafına mühüm töhfə verməklə yanaşı, həm də lifsiz pambıq toxumuna olan tələbatı yerli istehsal hesabına təmin edəcək.

Son illərdə intensiv təsərrüfat modelinin genişləndirilməsi nəticəsində heyvandarlıq sahəsində artım əsasən intensiv inkişaf hesabına əldə edilmişdir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında müqayisəli üstünlüklərin artması hesabına onların ixracında yüksək dinamika əldə edilib. Son 15 ildə kənd təsərrüfatı məhsullarının ixracının həcmi 6,3 dəfə, o

cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, bu ilin 8 ayı ərzində isə tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı - 32 ,5 faiz, xam pambıq ixracı 2,2 dəfə artmışdır.

Ölkədə aparılan uğurlu aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şəraiti formalaşmış, işgüzar fəallıq xeyli artmışdır. Bu, işçilərin sayının artmasın və investisiyaların çoxalmasına da təsir edib.

Aqrar sahədə inkişafın davamlı olmasını təmin etmək üçün müəyyənləşdirilmiş, elmi yanaşmalara əsaslanan islahatlar fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət edən strategiyaya əsaslanır. Bunu nəzərə alaraq, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində 3 əsas prinsipi - kəndli və fermerə yaxınlıq, səmərəli idarəçilik və innovasiyaların tətbiqini rəhbər tutur.

Dövlətin aqrar siyasəti fundamental prinsiplərə əsaslanaraq, funksional fəaliyyətinin müasir tələblərə uyğun təşkili üçün əsas kimi beş strateji istiqamət qəbul edib:

1. Kənd təsərrüfatının təhlili. Aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sənayenin strateji planlaşdırılması və onun innovativ inkişafı üzrə öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədi ilə Aqrar Tədqiqatlar Mərkəzi publik hüquqi şəxs statusuna malikdir və nazirliyin nəzdində yaradılmışdır. Bu problemlərin həlli üçün Mərkəz elmi yanaşmalara əsaslanan və beynəlxalq çağırışlara cavab verən tədqiqat, analitik və informasiya xidmətləri göstərən peşəkar struktur kimi formalaşır.

2. Kənd təsərrüfatı həlləri. Hazırda kənd təsərrüfatı sahəsində əsas vəzifə məhsuldarlığı artırmaqla rəqabət qabiliyyətini və ərzaq təhlükəsizliyini təmin etməkdir. Bu isə bütün sahələrdə innovativ istehsal və idarəetmə texnologiyalarının, müasir və mütərəqqi metod və həllərin geniş tətbiqini tələb edir.

Kənd təsərrüfatı yönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovativ innovasiyaların fermerlərə çatdırılması və bu strukturların məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində institusional islahatlar apararaq Aqrar Elm və İnnovasiyalar Mərkəzi formalaşdırılıb.

Hazırda kənd təsərrüfatı elminin müasirləşdirilməsi istiqamətində islahatlar davam etdirilir. Bu islahatlar çərçivəsində bütün elmi-tədqiqat institutlarının inzibati və laboratoriya binalarının əsaslı təmiri başa çatdırılıb. İnstitutlarda torpaq, bitki və suyun təhlili, ilkin toxumçuluq və tinglərin becərilməsi, xəstəlik və zərərvericilərə qarşı mübarizə üçün aqroekologiya və aqrokimya, genetika və seleksiya laboratoriyaları yaradılmış, müasir avadanlıqla təchiz olunmuş qazanxana və emal məntəqələri tikilmişdir. Toxumları müasir və bərəkətli meyvə bağları salınmışdır.

Türkiyə Respublikası həm kənd təsərrüfatı sahəsində, həm də bütün sahələrdə Azərbaycanın etibarlı tərəfdaşıdır. Hər iki ölkə kənd təsərrüfatı sahəsində tədqiqatlar, təhsil, pambıqçılıq, toxumçuluq, baytarlıq, kənd təsərrüfatı sığortası və digər sahələrdə sıx və səmərəli əməkdaşlıq edir. Kənd təsərrüfatı məhsulları üzrə qarşılıqlı ticarət əlaqələri inkişaf edir və bu sahədə ticarətin artırılması üçün birgə səylər göstərilir. Azərbaycan kənd təsərrüfatı sektorunda müasir texnologiyaların tətbiqi sahəsində Türkiyənin təcrübəsindən istifadə etməkdə maraqlıdır (1; s. 23)

Çin Xalq Respublikası ilə Azərbaycan arasında əlaqələr iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatı sahəsində də yeni müstəvidə inkişaf edir. Azərbaycanda baramaçılığın inkişafı üçün Çindən ölkəmizə 6 min qutu barama toxumu və 1,5 milyon tut tingi gətirilib. Qax tayfa ipəkçilik stansiyasının əsaslı şəkildə yenidən qurulması üçün Çin təcrübəsindən istifadə etməklə rayonda müasir tipli zavod tikilmişdir (5).

Dünya Bankının regional icraçı direktoru Verner Qruber və Beynəlxalq Maliyyə Korporasiyasının Kənd Təsərrüfatı Əməliyyatları üzrə Regional Direktoru Tomas Telma ilə keçirilən görüşlərdə Azərbaycanda kənd təsərrüfatının inkişafı strategiyasının əsas istiqamətləri, aqrar sahədə aparılan islahatlar barədə məlumat verilib, sənaye kompleksi, innovativ layihələr həyata keçirilib. Bildirilib ki, aqrar islahatların əsas məqsədi ölkənin ərzaq təhlükəsizliyini təmin etməkdir, , torpaq və su ehtiyatlarından daha səmərəli istifadə olunması vacibdir və dövlət bu sahədə dünyada istifadə olunan müasir texnologiyaların ölkəmizə gətirilməsini təşviq edir. Kənd təsərrüfatına dövlət dəstəyinin genişləndirilməsi barədə məlumat verən nümayəndə heyətinin üzvləri Prezident

İlham Əliyevin bu istiqamətdə imzaladığı fərman və sərəncamların mahiyyətini müşavirə iştirakçılarının diqqətinə çatdırıblar. Əlavə edilib ki, ölkədə kənd təsərrüfatı texnikası bazarının tam liberallaşdırılması bu sahəni xarici investorlar üçün cəlbedici edir (3; s. 20).

Azərbaycan və ABŞ nümayəndələri Oklahomada keçiriləcək forumun kənd təsərrüfatı sektorunda təcrübə mübadiləsi, tərəfdaşlıq və investisiya imkanlarının araşdırılması üçün mühüm platforma olması barədə razılığa gəliblər. Nümayəndə heyəti Vaşinqtona işgüzar səfəri çərçivəsində ABŞ Prezident Administrasiyasının kənd təsərrüfatı üzrə müşaviri Qreq Daud, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin rəsmisi Brok Bierman və Piter Haas ilə də görüşüb. Görüşlərdə Azərbaycan-Amerika əməkdaşlığı, ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun inkişaf tendensiyaları, əldə olunmuş nailiyyətlər müzakirə olunub. Görüş iştirakçıları iki ölkə arasında aqrar sahədə tərəfdaşlığın ikitərəfli əlaqələrin inkişafı üçün mühüm istiqamətlərdən biri olduğunu qeyd edərək, belə dialoqların əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanlar yaratdığını qeyd ediblər. Vaşinqtondakı görüşlər başa çatdıqdan sonra nümayəndə heyəti Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumunda iştirak etmək üçün bu ştata gedəcək. Qeyd edək ki, bu, 2019-cu ildə ABŞ və Azərbaycanın kənd təsərrüfatı istehsalçılarını birləşdirən ikinci forumdur. Aprel ayında Çikaqoda keçirilən forumda İllinoys ştatından 33, Azərbaycandan isə 14 şirkət iştirak edib (2; s. 30).

Türkiyə İxracatçılar Məclisinin (TİM) hesabatına görə, oktyabr ayında Türkiyənin kənd təsərrüfatı məhsullarının ixracı 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,7% artaraq 2 milyard 840 milyon 461 min dollara çatıb. Beləliklə, kənd təsərrüfatı sektoru bütün zamanların ən yüksək aylıq ixracını həyata keçirib. Ötən ay ən çox ixrac edilən kənd təsərrüfatı məhsulları 913 milyon 570 min dollar dəyərində dənli bitkilər, paxlalılar, yağlı bitkilər və məhsullar olub. Kənd təsərrüfatı sektoru qruplarına ən böyük tələbat ABŞ və İraqdan gəlib. ABŞ-a 28 milyon 101 min dollarlıq meyvə-tərəvəz məhsulları, 16 milyon 65 min dollarlıq tütün, 4 milyon 340 min dollarlıq zeytun və zeytun yağı, 181 milyon 69 min dollarlıq dənli bitkilər, paxlalılar, yağlı toxumlar və məhsullar ixrac edilib. İraqa 79 milyon 288 min dollara mebel, kağız və meşə məhsulları, 60 milyon 590 dollara su və heyvandarlıq məhsulları ixrac edilib. Almaniyaya 67 milyon 357 min ABŞ dolları dəyərində fındıq və fındıq məmulatları, 32 milyon 630 min ABŞ dolları dəyərində quru meyvə və məhsullar, Hollandiyaya 3 milyon 646 min dollar dəyərində bəzək bitkiləri və məhsulları, Rusiyaya 109 milyon 757 min dollarlıq təzə meyvə və tərəvəz satılıb [6].

Beynəlxalq əməkdaşlıq nəticəsində rəqəmsal kənd təsərrüfatı əhəmiyyətli inkişaf əldə edib. Rəqəmsal əkinçilik mərhələsində biznesin hər bir aspektinin performansı izlənilir. Rəqəmsal əkinçilik avadanlığı, sensorlar, dronlar və digər rəqəmsal elementlər bu nəzarətə nail olmağa kömək edir. Eyni zamanda, istehsal proseslərinin idarə edilməsi avtomatlaşdırılıb. Nisbətən aşağı istehsal xərcləri ilə yanaşı, nisbətən yüksək gəlirlər də xarakterikdir. Rəqəmsallaşmanın inkişafında digər mühüm amil startap və texnologiya şirkətlərinin qlobal inkişaf səviyyəsidir.

Onlar aşağıdakı əsas fəaliyyət sahələrinə bölünür:

1. Təsərrüfatların idarə edilməsi sistemləri (ağıllı təsərrüfatlar); robotlar və dronlar;
2. ətraf mühit haqqında ətraflı məlumatların toplanması (ağıllı əkinçilik üçün), istehsala inteqrasiya olunmuş sensor sistemi;
3. proqnozlaşdırma infrastrukturu;
4. ağıllı suvarma;
5. "ağıllı" damazlıq təsərrüfatları və yeni nəsil təsərrüfatları (məsələn, şaquli istixanalar).

Startaplardan başlayaraq bir çox texnologiya şirkəti istənilən sənaye sahəsi üçün lazım olan məlumatları toplayır və təhlil edir. ABŞ-ın kənd təsərrüfatı startapları idarəetmə qərarları qəbul edərkən yeni və effektiv texnologiyalardan - süni intellekt, kompüter modelləşdirmə və maşın öyrənməsindən geniş istifadə edirlər.

Bir sıra Rusiya şirkətləri də çox böyük kənd təsərrüfatı sahələrinin ətraflı xəritələrini təhlil etmək üçün bu texnologiyalardan istifadə etməyə başlayıblar. Bu proqramlar zəif cücərmə problemlərini vaxtında və dəqiq həll etməyə, torpaqda və bitkilərdə ola biləcək xəstəlik və zərərvericilərin yayılma ocaqlarını tapmağa, məhsulu yüksək dəqiqliklə proqnozlaşdırmağa və nəticədə cücərmə üçün iş planları qurmağa

imkan verir. Bu zaman məhsulun yığılması, daşınması və saxlanması daha dəqiqdir.

Heyvandarlıq startapları çoxlu sayda sensorların istifadəsinə və onlardan əldə edilən müxtəlif növ məlumatların ətraflı təhlilinə və modelləşdirilməsinə əsaslanır. Eyni zamanda, bu metodun effektivliyi əvvəlcə daha az ola bilər.

2020 və 2021-ci illərdə pandemiya və əlverişsiz iqlim şəraitinin yaratdığı böhrana baxmayaraq, bu tendensiyalar bir sıra mövqelərdə davam edib. Xüsusilə, 2020-ci ildə MDB-də dənli və paxlalı bitkilərin ümumi yığımı əvvəlki illə müqayisədə 3,9 milyon ton artaraq 244,9 milyon tona, 2021-ci ildə isə 247 milyon tona yüksəlib. 2021-ci ildə əvvəlki illə müqayisədə bütövlükdə Birlik ölkələrində tərəvəzin ümumi yığımı 0,2 faiz, şəkər çuğunduru 11,2 faiz, kəsim üçün mal-qaranın və quşların istehsalı (kəsim çəkisində) 0,7 faiz (2020-ci ildə - 2,7%), süd - 0,2% (2020-ci ildə - 1,9%) artıb.,

MDB-də kənd təsərrüfatı istehsalının artması dünya bazarında onun qiymətlərinin xeyli artması ilə müşayiət olunur. FAO və BMT-nin Ümumdünya Ərzaq Proqramı (ÜƏP) qlobal qida böhranının başlandığını elan edir. Onun əsas təzahürü, tələb olunan həcmin artan qiymətlərlə alınmasını təmin etməkdə son dərəcə çətin olan ən yoxsul ölkələr üçün ərzağın iqtisadi əlçatanlığının azalmasıdır.

Bunun fonunda 2021-ci ildə kənd təsərrüfatı məhsullarının pul ifadəsində (cari qiymətlərlə) həcmi MDB-nin bütün üzv dövlətlərində nəzərəçarpacaq dərəcədə artmışdır. Üstəlik, obyektiv olaraq bu artımın sürəti kənd təsərrüfatı məhsullarının əsas növləri üzrə ümumi məhsulun artım tempini üstələyib. Əgər 2020-ci ildə ümumilikdə MDB məkanında (Ukrayna və Türkmənistan istisna olmaqla) kənd təsərrüfatı məhsullarının həcmi 153,9 milyard ABŞ dolları təşkil edibsə, 2021-ci ildə 175,5 milyard ABŞ dolları təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 14 faiz çoxdur [2 ; səh.63]. Eyni dövrdə FAO-nun orta ərzaq qiymətləri indeksi 28,1% artaraq 2020-ci ildəki 98,1 bənddən 2021-ci ildə 125,7 bəndədək artıb.

Bu gün Birlik ölkələrinin aqrar sahədə əməkdaşlığı kənd təsərrüfatı fəaliyyətinin demək olar ki, bütün əsas sahələrini əhatə edir. Burada potensial artım nöqtələri arasında toxum-çuluq, o cümlədən kənd təsərrüfatı bitkilərinin yeni hibrid və sortlarının yaradılması üçün ən son biotexnologiyaların tətbiqi və heyvandarlıq, tərəvəzçilik və üzümçülük, kənd təsərrüfatı elminin dinamik inkişafı və bu sahədə texniki əməkdaşlıq, təhsil səviyyəsinin yüksəldilməsi və əmək resurslarının yenidən bölüşdürülməsi yolu ilə sənayenin kadr potensialının gücləndirilməsi, o cümlədən əmək miqrasiyası çərçivəsində elmi işlərin intensivləşdirilməsi daxildir.

Mübaliğəsiz demək olar ki, kənd təsərrüfatı sahəsində əməkdaşlığın effekti hətta MDB üzvü olan dövlətlərin makroiqtisadi göstəriciləri səviyyəsində də nəzərə çarpa bilər. Eyni zamanda, aqrar sektorun iqtisadiyyatın ən konservativ sahələrindən biri kimi geniş şəkildə qəbul edilməsinə baxmayaraq, gələcəkdə Birlik ölkələrində onun ən yüksək texnologiyalı sənayelər sırasında öz yerini tutmaq üçün hər cür imkanı var.

Son 5 ayda dünya ərzaq bazarında qiymət ucuzlaşsa da, bu, Azərbaycana idxal olunan məhsulların maya dəyərinə təsir etməyib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, ekspertlərin hesablamaları göstərib ki, bu ilin yanvar-iyul aylarında Azərbaycana idxal olunan ərzaq məhsullarının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 faiz bahalaşıb. Belə ki, 2022-ci ilin 7 ayı ərzində ölkəyə 1 milyard 180 milyon 424 min dollarlıq ərzaq məhsulları idxal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 182,5 milyon dollar çoxdur [6].

2022-ci ilin iyun ayında ixrac edilmiş məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 5,8 faiz, əvvəlki ilin müvafiq ayına nisbətən 84,6 faiz, 2022-ci ilin yanvar-iyun aylarında 2021-ci ilin yanvar-iyun aylarına nisbətən 79 faiz artıb.

İntensiv istehsalın inkişafı, istixanaların, aqroparkların sayının artması, kütləvi istehsalın artması ilə Azərbaycan bazarlarının şaxələndirilməsinə ehtiyac da artır. Çünki kənd təsərrüfatı məhsullarının 90 faizi, bəzi yerlərdə hətta 92-93 faizi Rusiya bazarına satılır. Bu da həmin bazarlardan asılılıq yaradır.

Hesab edirəm ki, bir neçə istiqamətdə addımlar atılmalıdır. İlk növbədə, bazarlar şaxələndirilməlidir. Bir bazardan asılılıq, hətta etibarlı tərəfdaşla belə, heç vaxt uğurlu olmur

(4; s. 22). Bəzi hallarda prosesə təkcə inzibati maneələr deyil, həm də iqtisadi və sosial məsələlər təsir edir. Məsələn, əhalinin alıcılıq qabiliyyətinin azalması kimi amil var. Ona görə də, bazarın şaxələndirilməsi və yeni bazarların axtarışı istiqamətində fəaliyyət gücləndirilməlidir. Bəzi hallarda özümüz hansısa formada bəhanə gətiririk ki, məhsul idxalını məhdudlaşdırsınlar. İstehsal prosesinin keyfiyyətinin yüksəldilməsi istiqamətində mütləq standartlar formalaşmalı və bu standartlar beynəlxalq bazarın tələblərinə cavab verməlidir. Biz tərəfdaş ölkələrlə daha möhkəm hüquqi əsasda qarşılıqlı əməkdaşlıq qurmalıyıq. Məsələn, Rusiya Azərbaycana kifayət qədər çox mal və xidmət ixrac edir.

Azərbaycan da bu və ya digər formada müəyyən alətlər formalaşdıra və Rusiyanın kənd təsərrüfatında zaman-zaman yaratdığı müvafiq problemlərə adekvat reaksiya verə bilər. Bu üsullardan istifadə etməklə kənd təsərrüfatındakı problemləri müəyyən dərəcədə düzəltmək olar.

Ölkədə aparılan uğurlu aqrar siyasəti nəticəsində kənd təsərrüfatında əlverişli bazar şəraiti formalaşmış, işgüzar fəallıq xeyli artmışdır. Bu da işçilərin sayının artmasına və investisiyaların çoxalmasına təsir edib.

Ölkədə yerli istehsal potensialının gücləndirilməsi və rəqabət qabiliyyətinin artırılması ilə özünü ərzaq məhsulları ilə təminetmə səviyyəsi xeyli yüksəlmişdir.

**Nəticə**

Aqrar sahədə beynəlxalq əməkdaşlıq proqramları çərçivəsində məhsulların ixracı xeyli artmışdır. Azərbaycandan meyvə və tərəvəzlər Rusiyaya ixrac edilsə də, qoz-fındıq məhsulları əsasən Avropa ölkələrinə ixrac edilir. Pambıq məhsulları əsasən Türkiyə, Rusiya, yem məhsulları isə Gürcüstan, İran, İraq və Türkiyəyə göndərilir.

Hazırda Azərbaycanın kənd təsərrüfatı məhsulları dünyanın 50-yə yaxın ölkəsinə ixrac olunur. Bu il ixrac məhsullarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə dəfələrlə artıb. Artım əsasən meyvə-tərəvəzdə baş verib. Pambıq və yem məhsullarının istehsalı xeyli artmışdır. Əvvəlki illə müqayisədə bu il Azərbaycanın ixrac etdiyi kartofun çəkisinin artacağı gözlənilir. Bunun da 2 səbəbi var. Birincisi, bu, Rusiya bazarında Azərbaycan kartofuna tələbatın artmasıdır.

Digər tərəfdən, son illər həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə istehsalın əhəmiyyətli dərəcədə artması qeyd olunub. Təbii ki, hasilatın artması ixracın artmasına da təsir edir.

Nazirlik tərəfindən yaradılan elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi aqrar sektorda, o cümlədən subsidiyaların verilməsində şəffaflığın və çevikliyin təmin olunmasına xidmət edəcək. Bütün xidmətlərin elektron hökumət vasitəsilə həyata keçirilməsi fermerlər üçün əlavə imtiyazlar yaradacaq. Onlar məlumatlılıq, məhsuldarlıq və satışın proqnozlaşdırılması imkanlarını artıracaq, həmçinin dövlət xidmətlərinin sadələşdirilməsi və sənədlərin azaldılması, xidmətlərin əlçatanlığı, eləcə də yeni bazar mexanizmlərinin tətbiqi imkanlarını yaradacaq.

Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sektorda qazanılan uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın göstəricisidir. Bu firavanlıq və rifah, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması daha çox məqsədyönlü dövlət siyasətinin nəticəsidir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Aqrar sahənin inkişaf istiqamətləri" mövzusunda respublika elmi konfransının materialları, Naxçıvan, 2019, 258 səh.
2. Ataşov B. "Aqrar sahədə struktur və səmərəlilik problemləri". Bakı, 2017, 536 səh.
3. Qarayev, İ.Ş. "Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi".Ali məktəblər üçün dərslik, Bakı, 2011
4. Qasımov Ə.C. "Kənd təsərrüfatının iqtisadiyyatı". Ali məktəblər üçün dərslik, Bakı, 2007
5. http://axa.gov.az/az/agency/24/sazisler
6.https://atm.gov.az/az/news/114/kend-teserrufati-sahesinde-azerbaycan-abs-emekdasl/

**Элай Джалал оглы ЗЕЙНАЛЛЫ, к. э. н., доцент**

**Фарид ЗЕЙНАЛОВ**
Азербайджанский Технологический Университет

# РОЛЬ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В СОВРЕМЕННОМ РАЗВИТИИ АГРАРНОГО СЕКТОРА

**Резюме**

Аграрный сектор, являющийся одной из важных составляющих национальной экономики, имеет большое значение как в обеспечении продовольственной безопасности страны, так и в социально-экономическом развитии регионов. С этой точки зрения особое значение имеет эффективное использование имеющихся потенциальных возможностей в аграрной сфере, полное и действенное вовлечение природных и экономических ресурсов сельского хозяйства в хозяйственный цикл.

Сельскохозяйственная продукция Азербайджана имеет широкий экспортный потенциал, в настоящее время одним из основных приоритетов стратегии развития аграрного сектора является модернизация перерабатывающей промышленности и строительство новых перерабатывающих предприятий.

В результате становления и развития международного сотрудничества в сфере сельского хозяйства цифровизация в этой сфере получила особое развитие. В современное время, как и в других сферах экономики, уровень применения цифровых решений во всех сегментах аграрного сектора продолжает расти день ото дня. Одним из необходимых факторов достижения эффективной работы в агропромышленном комплексе является максимальное использование инновационных технологий. В ближайшем будущем компании, сумевшие построить свою деятельность на единой цифровой платформе, несомненно, быстро займут лидерство на рынке.

**Ключевые слова:** аграрный сектор, международное сотрудничество, экспортная продукция, цифровизация в сельском хозяйстве.

**Elay Jalal ZEYNALLI, Ph.D., Associate Professor**

**Farid Zeynalov**
Azerbaijan Technology University

# THE ROLE OF INTERNATIONAL COOPERATION IN THE MODERN DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR

**Summary**

The agricultural sector, which is one of the important components of the national economy, is of great importance both in ensuring the country's food safety and security, and in the socio-economic development of the regions. From this point of view, the effective use of existing potential opportunities in the agricultural field, the full and effective involvement of the natural and economic resources of agriculture in the economic cycle are of particular importance.

Agricultural products of Azerbaijan have a wide export potential, currently one of the main priorities of the development strategy of the agricultural sector is the modernization of the processing industry and the construction of new processing enterprises.

As a result of the formation and development of international cooperation in the field of agriculture, digitization in this field has gained special development. In modern times, as in other areas of the economy, the level of application of digital solutions in all segments of the agricultural sector continues to rise day by day. One of the necessary factors to achieve efficient work in the agro-industrial complex is the maximum use of innovative technologies. In the near future, companies that manage to build their activities on a single digital platform will undoubtedly quickly take the market leadership.

**Keywords:** agricultural sector, international cooperation, export products, digitalization in agriculture

**Zakir Hacı oğlu ZEYNALOV, i.ü.f.d., dos.**
Azərbaycan Dövlət İqtisad Universiteti

**Rəşad Çingiz oğlu MƏMMƏDOV**
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: resadmemmedov691@gmail.com

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR ƏRAZİLƏRİNDƏ TURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Xülasə**

Azərbaycan Respublikası sosial-iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən biri sayılır. Respublikamızın inkişaf etməsinin ən əsas məqamlarından biri də coğrafi mövqeyinin uyğun olmasıdır. Coğrafi mövqeyinin uyğun olmasının əsas yararlarından biri də həmin ölkədə turizmin inkişaf etməsini misal göstərmək olar. Respublikamızda hal-hazırda 14 iqtisadi rayon mövcuddur. Bütün iqtisadi rayonlarımız turizm cəhətdən inkişaf etmişdir. Turizmin inkişaf etməsinə təsir göstərn başlıca amillərdən biri də dövlət tərəfindən göstərilən iqtisadi dəstək tədbirləridir. Hal-hazırda işğaldan azad olunmuş ərazilərdə turizmlə bağlı dövlət tərəfindən iqtisadi dəstək tədbirləri görülür. Ümumi anlamda bu əraizlər həm tarixi cəhətdən həm də istirahət cəhətdən çox turistlik əhəmiyyətli bölgələrdir. Bundan əlavə olaraq bizim bütün iqtisadi rayonlarımız destinasiyalı ərazilərdən sayılır.

**Açar sözlər:** turizm, inkişaf, göstərici, coğrafi mövqe, tendensiya, aqroturizm, dəmir yolu, standartlar.

**UOT: 379.85**
**JEL: Z30, Z32.**

**Giriş**

İşğaldan azad edilmiş bu ərazilərdə turizm sahəsinin inkişafı üçün mühüm aspektlərdən biri də bu ərazilərdə nəqliyyat sektorunun inkişaf etdirilməsidir. Nəqliyyat sektoru inkişaf etməmiş hər hansı bir regionda turizm sahəsinin inkişafından danışmaq qeyri-mümkündür. Nəqliyyat sektorunun inkişafı üçün dövlət tərəfindən lazımi qaydada iqtisadi dəstək tədbirləri görülmüşdür. Bundan əlavə olaraq da nəqliyyat sektorunun inkişaf etməsi, rəqəmsallaşdırılması təkcə turizm sahəsinin inkişafına yox, ümumiyyətlə, ölkəmizin iqtisadiyyatının daha da formalaşmasına müsbət təsir göstərəcəkdir. Çünki, nəqliyyat sektorunun inkişaf etməsi nəticəsində respublikamızda idxal-ixrac potensialı artır, ölkəmizin digər xarici ölkələr ilə inkişafı daha da sürətlənir və idxal-ixrac potensialının artırılması sahəsində ölkəmizdə bank sektoru daha da inkişaf edir.

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi turizmin inkişaf istiqamətlərini öyrənmək, onun inkişafına təsir göstərən amilləri müəyyən etmək və əsas xüsusiyyətlərini üzə çıxartmaq və ölkəmizin turizm bazarlarında inkişaf istiqamətləri üzrə potensialını müəyyən etmək, mövcud olmuş bazarın vəziyyətini təhlil etməkdən ibarətdir

**Tədqiqatın informasiya mənbəyi:** Tədqiqatın informasiya mənbəyini Azərbaycan və rus dillərində nəşr edilmiş və son dövrləri əhatə edən iqtisadi, texniki müasir ədəbiyyatlar, elmi jurnallar, Azərbaycanda professorlar tərəfindən tərtib edilən məqalələri, araşdırmaları, İnternet məkanında mövcud olan Azərbaycan və rus resursları təşkil edir

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat obyekti olaraq Azərbaycanda turizm sahəsində tədqiqat ilə bağlı olan məsələlərin cəlb edilməsi keçmiş dövrdə praktikada rast gəlinməmişdir. Turizmin inkişafında perspektiv istiqamətlərin müəyyən edilməsi, yeni innovasiya və strategiyalardan, həmçinin elektron xidmətlərinin istifadəsinə dair nəticə və təkliflər verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Tədqiqatın tətbiq edilməsi təcrübəsinin göstərilməsi, dünyanın aparıcı ölkələrində turizmin keçdiyi inkişaf yolu, onların tətbiq etdikləri innovasiyalar, hazırladıqları yeni xidmətləri xarici bazara çıxarılması və zəngin təcrübə rolunu oynayır. Beynəlxalq turizm sahəsində Azərbaycan təcrübəsinin ümumi

mənzərəsinin hazırlanması, onun inkişafı üçün zəruri iqtisadi-hüquqi bazanın təkmilləşdirilməsi və düzgün idarə edilməsi üzrə təkliflərin verilməsi bu sahənin inkişafı üçün vacibdir.Tədqiqatda prinsiplər əsasında Azərbaycanda turizm ilə bağlı həyata keçiriləcək gələcək planların inkişafı özündə əks etdirən üfüqləri və istiqamətləri göstərilir.

**Materiallar və müzakirələr.**

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə dövlət tərəfindən əsaslı şəkildə bərpa işlərinin aparılması, turizm sahəsinin inkişaf etdirilməsi, həmin ərazilərdə turizmin bərpası, orada müasir infrastruktur sahələrinin yaradılması mexanizmi həm Qarabağın, həm də Şərqi Zəngəzurun inkişafının təşkil olunması, dövlət tərəfindən iqtisadi tədbirlərin görülməsi qarşıya qoyulan əsas strateji istiqamətlərdən biri sayılır. Buna səbəb olaraq bərpa prosesi olmadan heç bir ərazinin sosial-iqtisadi cəhətdən inkişafını təmin etmək qeyri-mümkündür. Yenidənqurma işlərinin və ərazilərdə bərpa prosesinin daha da sürətləndirilməsinin həyata keçirilməsi Azərbaycan Respublikasında ümumi anlamda iqtisadi inkişafa təkan verəcək, turizm sahəsi daha da inkişaf edəcək, bölgələrdə iş yerlərinin yaranması prosesinə mümkün şərait yaradacaqdır.

Qarabağ və Şərqi Zəngəzur bölgələri turizm sahəsi olaraq, bir çox alternativ kimi turizmin növlərində yüksək potensiala malikdir. Bu ərazilərdə dövlət tərəfindən dəstək kimi əsasən layihələr həyata keçirilir və bir çox sahələr inkişaf etdirilir. İnkişaf etdirilən sahələr əsasən aşağıdakılardan ibarətdir:

- mağara turizminin inkişafı;
- termal fəaliyyətlərinin həyata keçirilməsi;
- dağ turizmi;
- aqroturizm;
- trekking;
- botanika turizmini əsasən bu sahələrin inkişafına aid etmək olar.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən biri kimi ixtisaslaşmış turizm və əyləncə müəyyən edilmiş, beynəlxalq və yerli ekspertlərlə birlikdə dünya təcrübəsində turizm sahəsində islahatların ən uğurlu modelləri və onların ölkəmizdə tətbiqi imkanları təhlil edilmişdir. Aparılmış təhlillər nəticəsində turizm sahəsi üzrə strateji yol xəritəsinin ilkin layihəsi hazırlanmışdır [8].

Eləcə də, Azərbaycan Respublikasının əlverişli coğrafi şəraitdə yerləşməsi respublikamızda rəqəmsallaşmanın inkişafını, eyni zamanda, işğaldan azad olunmuş regionlarımızda turizmin inkişafı üçün rəqəmsal enerji və nəqliyyat mərkəzləri statusuna çatmasını və yaxın regionlar üçün regional rəqəmsal mərkəzə çevrilmək potensialını daha da artırır. Respublikamızda turizm sahəsi üçün dövlət tərəfindən iqtisadi dəstək tədbirlərinin həyata keçirilməsi nəqliyyat sektorunda olan rəqəmsallaşmanın ölkədə dayanıqlı rəqəmsal infrastruktur quruculuğu istiqamətində atılan vacib addımlar vardır, ki, həmin layihələri nəzərdən keçirib, təhlilini qeydə alacağıq. Şərqi Zəngəzurun və Qarabağın iqtisadi cəhətdən də əlverişli mövqeyi vardır. Burada metallurgiya sahəsində əlvan metalların inkişafı üçün çox böyük potensal mövcuddur. Ərazi, əsasən qızıl yataqlarının, civənin, xromitin, mərmər kimi daşların, perlit və üzlük tikinti daşlarının yerləşdiyi faydalı qazıntılar ilə məşhurdur.

İqtisadi cəhətdən də rayon coğrafi mövqeyinə, tarixi abidələrinə əsasən turistlərin diqqət mərkəzində olacaqdır. Bura da digər rayonlarda olduğu kimi İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqları ilə zəngindir, eləcə də, iqlim-balneoloji şəraiti, dağ meşələri ilə zəngin olan ərazi kurortluq məqsədlər üçün gələcəkdə inkişaf etdirilib istifadəyə verilə bilər. Regionda tarixi memarlıq cəhətdən çox qədim abidələr mövcuddur, və bu tarixi abidələrin siyahısına əsasən aşağıdakılar aid edilir.

- Gəncəsər;
- Ağoğlan monastırları;
- Gürcülü;
- Məmmədbəyli türbələri;
- Xudafərin körpüsü və s. aiddir.

Şərqi Zəngəzur rayonunun tarixinə nəzər saldığımız kimi, Qarabağ iqtisadi rayonuna da diqqət yetirək. Bu iqtisadi rayon Şərqi Zəngəzur rayonu kimi gələcək inkişaf strategiyalarında, turizmin inkişaf edəcəyi ərazidir ki, o, həm də tarixi abidələri ilə də zəngindir. Bu iqtisadi rayon respublikamızın 14 iqtisadi rayonundan biridir. Qarabağ iqtisadi rayonunun sahəsi 7330 kvadrat kilometrdir. Daha dəqiq desək, 2 il bundan öncə (2020-ci ildə) bu iqtisadi rayonda əhalinin sayı

900,3 min nəfər olub, bu da hal-hazırda Azərbaycan Respublikasında yaşayan ümumi əhalinin 8,94%-ni təşkil edir. Tarixə nəzər salsaq görərik ki, bu iqtisadi rayon əsasən 1991- ci ildən 2021-ci ilə kimi Qarabağ iqtisadi rayonu kimi yox, Yuxarı Qarabağ iqtisadi rayonu adlandırılmışdır. İqtisadi rayonun tərkibinə əsasən bir sıra rayonlar aid edilir.

Müasir innovasiyalar mərkəzi yəni "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının yaradılması-bu layihənin əsas məqsədi, əsasən işğaldan azad olunmuş bölgələrimizdə reallaşdırılması həyata keçirlir. "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri respublikamızın təkcə iqtisadiyyatında deyil, turizm səhəsində də özünü göstərəcəkdir. Turizm sahəsi ilə yanaşı, digər regionlarımızda olan problemlərdən biri də nəqliyyat sektoru ilə bağlıdır ki, onların həll edilməsi sıxlıqların yaranmasını aradan qaldıracaqdır. Bu layihənin icrası bitdikdən sonra nəqliyyat sektoruna da öz böyük töhvəsini verəcəkdir. Layihənin həyata keçirilməsi Prezidentimizin verdiyi qərara əsasən Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziriliyinin tabeliyində olacaqdır.

Azad edilmiş ərazilərin infrastrukturu düşmən tərəfindən tamamilə məhv edildiyindən həmin ərazilərimizdə işlərin həyata keçirilməsi prosesi sıfırdan aparılır və bu da texnoloji yeniliklərin tətbiqini daha da asanlaşdırır. Ona görə də, Şərqi Zəngəzur və Qarabağın bərpası məsələsində innovasiyaların tətbiqi prosesi, əsasən müasir standartlara uyğun olan infrastrukturun yaradılması əsas iqtisadi prioritetlərdən biri sayılır. Bundan sonra həmin iqtisadi rayonların bərpasına uyğun olaraq əldə edilən təcrübələrin digər iqtisadi rayonlarımızda da asan bir şəkildə dövlət tərəfindən tətbiq edilməsi mühim amillərdən biri sayılır.

Ümumilikdə, bərpa prosesi ilə bağlı dövlət tərəfindən turizmə iqtisadi dəstək tədbirlərinin müəyyən edilmiş əsas məqsədlərinə aşağıdakıları aid etmək olar:

• turizm sahəsində bərpa prosesinin həyata keçirilməsinin əsasən keyfiyyətli və qənaətli şəkildə həyata keçirilməsi;

• müasir və beynəlxalq standartlara cavab verən turizm sahəsinə uyğun olan inkişaf modelinin yaradılması;

• azad edilmiş ərazilərdə turizmin inkişafı üçün texnologiya cəhətdən yüksək şəkildə inkişaf etmiş əraziyə çevrilmək;

• qabaqcıl şəkildə turizm şirkətlərinin bərpa edilməsi üçün bu ərazilərə turizm sektorlarının cəlb edilməsi aid edilir.

Turizmlə bağlı iqtisadi dəstək tədbirlərindən biri də işğaldan azad edilmiş ərazilərin sürətli inkişafının təmin edilməsini təmin etmək və turizm potensialının tam olaraq artırılmasını reallaşdırmaq üçün hava limanlarının da tikintisi yaxın illər ərzində nəzərdə tutulur. İlk hava limanı layihəsi Beynəlxalq Füzuli Hava Limanının layihəsidir. Artıq cari ilin yanvar ayının 14-də Füzuli hava limanının təməli qoyulmuşdur. Yeni hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcəkdir. Limanın uçuşenmə zolağının uzunluğu 2800 metr olacaqdır və bu il istifadəyə verilməsi gözlənilir. Hava limanının binası isə ən gec gələn il istifadəyə veriləcəkdir.

Tikinti işləri sürətlə gedərsə cari ildə də istifadəyə verilə bilər. Yeni hava limanının əsas məqsədi xarici qonaqların və turistlərin azad edilmiş ərazilərə, xüsusilə də Şuşaya gəlişini təmin etməkdir. Xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində tikintisi həyata keçirilən Füzuli-Şuşa avtomobil yolu vasitəsilə Şuşa şəhərinə gedə biləcəklər. Eyni zamanda azad edilmiş ərazilərdə daha iki hava limanın tikintisi nəzərdə tutulmuşdur. Bu limanlar Zəngilan və Laçın rayonlarının ərazisində inşa ediləcəkdir. Hazırda limanlar üçün uyğun ərazinin seçilməsi həyata keçirilir.

Beynəlxalq Turizm Təşkilatının məlumatlarına əsasən turizm səmərəliliyinə görə neftçıxartma, maşınqayırma sahələrindən sonra dünyada üçüncü yeri tutur. Həm də turizm struktur əmələ gətirən sahə olduğuna görə yeni fəaliyyət sahələrinin yaranmasına, zəif dövlətlərdə məşğulluq probleminin həllində, istifadə edilməyən rekreasiya potensialının təsərrüfatçılıq dövriyyəsinə daxil edilməsinə, ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsinə imkan verir. Bu baxımdan da yaxın gələcəkdə Fransa, ABŞ, İtaliya, İspaniya kimi turizmin inkişafına görə fərqlənən dövlətlərlə yanaşı Cənubi Afrika Respublikası, Əlcəzair və Cənub Şərqi Asiyanın bir çox ölkələri beynəlxalq turizm mərkəzlərinə çevriləcəklər. Məhz bu ölkələrdə sosial-iqtisadi

vəziyyət aşağı səviyyədə olduğuna görə onlarda indiyədək turizmin inkişafı kölgədə qalan sahəyə çevrilmişdir. Qeyd etdiyimiz amillərin təsirinin nəticəsidir ki, dünya ÜMM-nin 25%-ni təşkil edən kasıb dövlətlərdə imkansızlığın təsiri altında onlarda turizmə maraq aşağı səviyyədə olmuşdur.

Dünya təcrübəsindən görünür ki, ayrı-ayrı dövlətlər və müxtəlif fəaliyyət sahələri, o cümlədən turizm inkişaf edir. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, hansı ölkədə insanları maraqlandıran təbiət abidələri, turizmin inkişafı üçün yaxşı infrastruktur, kifayət qədər maliyyə resursları ayrılırsa, ərzaq üçün qiymətlər aşağıdırsa, o dövlətlərdə turizm yaxşı inkişaf edir. Belə ki, son on beş ildə Ümumdünya turizminin orta artımı 4% olduğu halda qardaş Türkiyədə bu göstərici 2 dəfə yüksək olmuşdur. Türkiyədə turizmin inkişafına xərclər xeyli artmış, turizm xidmətlərinin idarə olunmasında və tənzimlənməsində böyük irəliləyişlər baş vermişdir. Ümumdünya Turizm Təşkilatının məlumatlarına görə son 5 ildə Türkiyədə, Əlcəzairdə, Cənubi Afrikada və sair dövlətlərdə turizm sahəsi işçilərinin yaşayış səviyyəsi xeyli yaxşılaşdırılmışdır.

Bütün bunlar belə bir ümumi nəticəyə gəlməyə əsas verir ki, turizmin inkişafı yalnız dövlətin bu sahənin hesabına daha çox gəlir götürməsi ilə qurtarmır. Əsas məsələ insanların sosial vəziyyətinin yaxşılaşdırılması kimi problemin həlli üçün şərait yaratmalıdır. Bununla əlaqədar belə bir faktı qeyd etmək yerinə düşər ki, dünyanın böyük siyasi, iqtisadi və hərbi güc mərkəzi olan ABŞ-da fəhlənin işinə görə bir saatda qazandığı pul orta hesabla 12 dollar təşkil edir. Turizmdə çalışan işçilərin isə bir saatda qazandığı əmək haqqı fəhlənin eyni göstəricisindən 1,6-1,8 dəfə yüksəkdir. Onu da göstərmək yerinə düşər ki, turizmin inkişaf etdiyi dövlətlərdə turistlərin rahatlığı üçün yaxşı yollar, komfort otellər, istirahət evləri, su, istilik təchizatı, idman kompleksləri, rəqəmsal texnologiyaya əsaslanan rabitə sistemləri yaradılır ki, bunlar da regionun sosial inkişafının cəlbedici olmasına imkan verir.

Dünya turizminin üstünlüklərindən faydalanmaq üçün Azərbaycan respublikasında Dövlət Proqramı qəbul olunmuş, Strateji Yol Xəritəsi müəyyən edilmiş və Azərbaycan: 2030 sosial-iqtisadi inkişafın milli prioritetləri arasında turizmin inkişafında layiqincə təmsil olunmuşdur.

Dünyanın inkişaf etməkdə olan dövlətlərindən fərqli olaraq Azərbaycan respublikasında turizmdən faydalanmaq probleminə münasibət xeyli fərqlidir. Bəşəriyyətin həyatına sözün həqiqi mənasında geniş miqyasda nüfuz edən turizmin milli dövlətlərin qarşılarına qoyduqları məqsədlərin reallaşdırılmasında, bu sahənin inkişaf etdirilməsi ilə əlaqədar problemlərə kompleks yanaşma zərurəti yaranır ki, respublikamızda da bu istiqamətdə təsirli tədbirlər həyata keçirilir. Bu zərurətlə şaxələndirmə siyasəti, yaşıl iqtisadiyyat modelinin həyata keçirilməsi ön plana çəkilir. Qeyd edək ki, müasir təsəvvürlərə görə turizm səfərləri dedikdə, bu və ya digər regiona onun ətraf mühitinin, təbiətinin, yerli əhalisinin həyat tərzi, adət və ənənələri, tarixi və milli zənginlikləri ilə tanışlıq və dərketmə, habelə itirilmiş fiziki və zehni enerjinin bərpası üçün edilən səyahətlər başa düşülür [5, səh-35].

Turizm dünya ölkələrinin maraqlarında, həmçinin Azərbaycan dövlətinin iqtisadi inkişaf strategiyasında özünə mühüm yer tutur. Bu strategiyada ölkənin rekreasiya potensialından istifadə əsasında sosial-iqtisadi inkişafın sürətlənməsi və əhalinin gəlirlərinin çoxaldılması mühüm yer tutur. Məhz, buna görə də, praktiki tədbirlər sistemində bu cəhəti nəzərə almaq lazımdır. Bu, vəziyyətin həm turistlər, həm turizm müəssisəsi, həm də dövlət mənafelərinə uyğun olaraq idarə olunmasını tələb edir. Sahələrarası inteqrasiyada mühüm bir vasitə olan turizm siyasət, mədəniyyət, ekologiya və s. kimi sahələrə də güclü təsir edir. Buna görə də, turizmin ölkə iqtisadiyyatındakı rolunu həm sahə, həm də regional idarə etmə baxımından düzgün qiymətləndirmək lazımdır.

Fikrimizcə, Azərbaycanda kənd turizminin inkişafına fərqli qaydada yanaşmaq məqsədəuyğundur. Həm də bu turizm formasının beynəlxalq səviyyədən başqa ölkə daxilində təşviqinə diqqət gücləndirilməlidir.

Azərbaycan Respublikasının bütünlüklə ərazi bütövlüyünün tam şəkildə qorunması və təmin olunması xalqımızın çoxəsrlik tarixində ən vacib işlərdən biri sayılır. Azərbaycan xalqı bütün olaraq dövlət sərhədlərini bərpa etdi və son yüz ildə hərbi, diplomatik sahədə ən böyük qələbəyə nail olmuşdur. 44 günlük Vətən müharibəsinin yekun nəticəsi qələbə ilə yekunlaşdı. Bundan sonra isə məcburi köçkünlər öz doğma torpaqlarına qayıtdı, eləcə də, əlavə olaraq

vətəndaşların həmin ərazilərdə yerləşməsi və məskunlaşmasına növbəti illərdə imkan yaradılacaqdır. Bu məqsədlərə əsasən həmin işğaldan azad olunmuş ərazilərimizdə müasir infrastrukturun qurulması, insanların yaşaması üçün sağlam həyatın, əlverişli yaşayış mühitinin təmin edilməsi, davamlı məskunlaşma işlərinin görülməsi üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış yerinin təmin edilməsi, daimi iş mühitinin qurulması vacib amildir.

İşğaldan azad edilmiş ərazilərimizin digər bölgələrimizdə olduğu kimi iqtisadi və sosial inkişafı, tarixi mövqeyi bütünlüklə bərpa edilməli, yeni bölgəyə uyğun olaraq iqtisadi fəaliyyətin ən əsas aparıcı həlqələrindən birinə dəyişilməli, ölkəmizin digər regionları ilə eyni şəkildə uyğun inkişaf səviyyəsinə gətirilib çatdırılmalıdır. Regionlarımızda həyata keçirilən dayanıqlı iqtisadi inkişafın nəticəsində potensial resursların təmin edilməsi, təbii resursların bolluğu, ölkəmiz tərəfindən qazanılan tarixi imicin bərpası nəticəsində yenidən sərmayə cəlbinə imkan verəcək.

Respublikamızın bütün regionları möhkəm təməl və infrastruktur üzərində qurulmuşdur. Regionlarımızda infrastrukturun möhkəmləndirilməsi və məskunlaşma işlərinin həyata keçirilməsi nəticəsində bu ərazilərdə bərpa işlərini təmin etməklə bölgənin ölkə üzrə iqtisadi potensialını, eləcə də, iqtisadi fəaliyyətdə payını gələcəkdə artırmaq olar. Qeyd edilənlərlə yanaşı, regionlarımızda yeni beynəlxalq əlaqələrin daha da artırılması və regional ərazidə nəqliyyat logistika dəhlizlərinin bərpa olunması, əsasən ölkəmizdə iqtisadi qlobal bazarlara çıxış imkanlarını daha da artıraraq, işğaldan azad olunmuş ərazilərimizin inkişafına da əhəmiyyətli təkan verəcəkdir. Zəngilan şəhərində nəqliyyat logistika mərkəzi açılacaq və bu region nəqliyyat mərkəzi olacaqdır [10, səh-55].

Kənd turizminin təşviqi bütün səviyyələrdə təşkil edilməlidir. Yəni təşviq sistemi əmək kollektivlərini, şirkətləri, ali və orta ixtisas təhsilinin struktur vahidlərini əhatə etməlidir. Bu məqsədlə kənd turizmi üçün yararlı olan obyektlərin kataloqu hazırlanmalı, onların bir nüsxəsi internetə yerləşdirilməli, digər nüsxəsi isə yerli bələdiyyələrdə saxlanılmalıdır. Bu istiqamətdə dünyada özünü doğrultmuş təcrübə mövcuddur.

Tanışlıq üçün təkcə onu göstərmək kifayətdir ki, İngiltərədə, Almaniyada və digər Qərbi Avropa dövlətlərində ümumtəhsil və ali məktəblərdə tələbələr qrup halında tətil günlərində həm ölkənin daxilində, həm də xaricdə təbiəti gözəl olan kəndlərdə turist kimi istirahət edirlər. Eyni təcrübədən respublikamızda da istifadə etməklə kənd turizmindən daha çox insanların faydalanmasına və səmərəliliyinin yüksəldilməsinə nail olmaq olar. Belə ki, respublikamızın şimal bölgəsində “Qəçreş”, “Təngəaltı”, “Şahdağ”, Qala altıya yaxın kəndlər, Altıağac, Nabran, Afurca, qərbdə Tovuz rayonunda, Gəncədə, Göy-göl rayonunda, Lənkəran-Astara iqtisadi rayonunda, həmçinin İsmayıllı, Qəbələ, Qax və qeyd etmədiyimiz digər bölgələrdə kənd turizminin inkişafı üçün çox əlverişli şərait vardır [12, səh-15].

Regionların hər ikisinin turizm potensialı çox genişdir. İndi isə regionların turizmini əks etdirəcəyəm. Şərqi Zəngəzur rayonuna aid olan Zəngilan şəhəri Azərbaycan Respublikasının demək olar ki ən böyük yeraltı, yerüstü sərvətləri ilə zəngin olan perspektiv cəhətdən ən önəmli rayonlarından biri sayılır. Bu iqtisadi rayonda mühüm müalicəvi termal sular mövcuddur. Tarixə nəzər salsaq görərik ki, vaxtilə müxtəlif diyarlardan, yerlərdən həmin termal suların istifadəsi üçün turistlər bu sanatoriyalara gəlirdilər, insanlar burada müalicə olunurdular və istirahət edirdilər. Bu perspektivə görə əsasən Kəlbəcərdə, Şuşada, Zəngilanda bu kimi termal sanatoriyaların mövcud olması, istifadəyə verilməsi həm tarixdə mövcud olmuş həm də gələcəkdə də inkişaf etdiriləcəkdir. Buna görə də, həmin mərkəzlərdə əsasən yerli və xarici turistlərin axınının olacağı şübhəsizdir.

Bu iqtisadi rayonlar təkcə yayda istirahət üçün yox, həm də qış istirahət mərkəzləri üçün də çox faydalı və əlverişlidir. SSRİ dövrlərinə nəzər yetirsək görərik ki, həm Kəlbəcər, həm də Laçın rayonları turizm bölgəsi kimi tanınır. Bu bölgələrin turizm bölgəsi kimi tanınması da bizim üçün çox əlverişlidir, bu da onu deməyə əsas verir ki, bu ərazilər gələcəkdə də yenidən Respublikamızın turizm bölgəsinə çevriləcəkdir. Regionun özündə Şahdağ kompleksi kimi qış turizm kompleksinin inkişaf strategiyaları üçün olduqca çox əlverişli şərait vardır. Buna misal olaraq Dəmirçidanı, , Zivel kəndlərini, İstisu qəsəbəsini qış turizm kompleksi kimi adlandırmaq olar, çünki, onlar olduqca cəlbedici ərazilərdən sayılırlar.

Otuz illik işğaldan azad olmuş Şuşa, Kəlbəcər, Zəngilan, Qubadlı, Laçın, Cəbrayıl rayonları kənd turizminin inkişafı baxımından çox zəngin təbiəti, suyu, havası, meşəsi olan ərazilərdir. Bu ərazilərdə sosial infrastruktur sahələrinin, o cümlədən kənd turizminin inkişafı üçün böyük perspektivlər açılır.

**Nəticə**

Nəticə etibarı ilə, o fikrə gəlirik ki, yaşıl iqtisadiyyat modelinin həyata keçirilməsi işğaldan azad olmuş rayonlarda məskunlaşan əhalini zəruri ərzaq məhsulları ilə təmin etmək üçün bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının artırılmasına diqqəti gücləndirməlidirlər. Nəzərə alsaq ki, hazırda Azərbaycanın daxili bazarında bir çox məhsullara, o cümlədən qarğıdalı və günəbaxan yağlarına əhalinin tələbatının xeyli hissəsi idxal, xarici mənbələr hesabına ödənilir. Bu baxımdan idxalı azaltmaq və xaricə valyuta axınını minumumlaşdırmaq üçün Kəlbəcər, Laçın, Qubadlı və digər rayonlarda, xüsusilə Tərtər, Həkəri və s. çayların ətrafında yararlı torpaq sahələrində qarğıdalı, günəbaxan və bir sıra tərəvəz növlərini əkməklə əhalinin bu məhsullara tələbatının ödənilməsində yumşalmalara nail olmaq mümkündür. Regionda emal sənayesinin inkişafı istehsal olunan məhsulları emal etməklə ilk növbədə itkinin qarşısını almağa kömək edər. İkincisi, regionda yeni iş yerlərinin yaranmasına, məşğulluq probleminin həllinə səbəb olacaqdır, üçüncüsü kənddən şəhərə əhalinin miqrasiyasını xeyli azaldacaq, dördüncüsü məhsuldar qüvvələrin inkişafı üçün şərait yaranacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü barəsində Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
2. Nigar Əfəndiyev və İlqar Hüseynov-Turizmin əsasları-Bakı-2017.
3. Vüsalə Məhərrəmova-Turizmin təşkili-2019 fevral.
4. Köçərli Yalçın Ənvər-Turizmin əsasları-Bakı-2015.
5. B.Ə.Bilalov və dosent.Ç.G.Gülalıyeva-Turizmin əsasları dərslik-Bakı-2015
6. Xalq qəzeti-tarixi ədalət bərpa edildi-2021-sentybar 5.
7. Dos., İFD, Ceyhun Nəsib İsmayılov-Bank işi mühazirə mətni.
8. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafında perpektiv imkanları. Asiman Musayev.Bakı-2022.
9.Qarabağ və Şərqi Zəngəzur tamamilə yenidən qurulur-Xalq qazeti-2021,10 avqust.s.6.
10. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında investisiyaların rolu ( turizm).-Bakı 2022, jurnal
11.Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fərmanı-07 iyul 2021. Prezident İlham Əliyev "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"sərəncamı.
12.Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair strateji yol xəritəsi.

**Закир Гаджи оглы ЗЕЙНАЛОВ, д.ф.э., доц.**
Азербайджанский Государственный Экономический Университет,

**Рашад Чингиз оглы МАМЕДОВ**
Азербайджанский Государственный Экономический Университет

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТУРИЗМА В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГАЗУРСКОМ КРАЯХ

**Резюме**

Азербайджанская Республика считается одной из социально-экономически развитых стран. Одним из важнейших аспектов развития нашей республики является соответствующее географическое положение. Пример развития туризма в этой стране является одним из основных преимуществ соответствующего географического положения. В настоящее время в нашей республике насчитывается 14 экономических районов. Все наши экономические районы развиты в туристическом плане. Одним из основных факторов развития туризма являются меры экономической поддержки, оказываемые государством. В настоящее время государством

принимаются меры экономической поддержки в отношении туризма на территориях, освобожденных от оккупации. В целом эти районы очень важны для туризма как в историческом, так и в рекреационном отношении. Кроме того, все наши экономические районы считаются целевыми.

**Ключевые слова:** туризм, развитие, показатель, географическое положение, тенденция, агротуризм, железная дорога, стандарты.

**Zakir Haji oglu ZEYNALOV, ph.d., Associate Professor**
Azerbaijan State University of Economics

**Resad Chingiz oglu MAMEDOV**
Azerbaijan State University of Economics

## DIRECTIONS OF TOURISM DEVELOPMENT IN KARABAKH AND EAST ZANGAZUR TERRITORIES

**Summary**

The Republic of Azerbaijan is considered one of the socio-economically developed countries. One of the most important aspects of the development of our republic is the appropriate geographical location. An example of the development of tourism in that country is one of the main advantages of the appropriate geographical position. Currently, there are 14 economic districts in our republic. All our economic regions are developed in terms of tourism. One of the main factors for the development of tourism is the economic support measures provided by the state. At present, economic support measures are taken by the state in relation to tourism in the territories freed from occupation. In general, these areas are very important for tourism both historically and recreationally. In addition, all our economic regions are considered destination areas.

**Key words:** tourism, development, indicator, geographic location, trend, agritourism, railway, standards.

**Zeynalabdin Arif oğlu ƏLƏKBƏROV**
Odlar Yurdu Universitetinin doktorantı
E-mail: zeynalabdin.alakbarov@bk.ru

# QLOBAL TRANSFORMASİYALAR ŞƏRAİTİNDƏ SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ MALİYYƏ TƏMİNATI PROBLEMLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi qlobal transformasiyalar şəraitində sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemlərinin həlli yollarının müəyyənləşdirilməsindən ibarətdir. Bunun üçün sənaye sahələrinin innovasiyalaşdırılması problemləri açıqlanmış və maliyyə mexanizmləri ilə bağlı çətinliklər təhlil olunmuşdur. Sənaye müəssisələrinində yeni innovasiyaların işlənilməsi və tətbiqində əsas problemin maliyyə çətinliyi olması ön plana çıxarılmışdır. Qlobal təsirdən yaranan yeni şəraitdə sənaye sahələrinin innovasiyalaşdırılmasında daha səmərəli maliyyə mexanizmlərinə dair tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Tədiqatın metodu bir qrup elmi metodlardan – dialektika, analiz, sintez, ümumiləşdirmə və müqayisə kimi metodlardan istifadə edilmişdir. Eyni zamanda, sənaye sahələrinin innovasiyalaşdırılmasına dair araşdırmaları olan tədqiqatçıların fikirləri də diqqətdə saxlanılmışdır.

Tədqiqatın nəticələri ilk növbədə, Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasında daha səmərəli maliyyə mexanizmlərinin işlənilməsi və tətbiqi üzrə konseptual yanaşmaların formalaşdırılmasında və tədbirlərin görülməsində məqalədə yer almış elmi-praktiki nəticələrindən səmərəli istifadə edilməsi ilə izah olunur.

**Açar sözlər:** qlobal transformasiyalar, qlobal təsirlər, sənaye sahələri, innovasiyalaşdırma, innovasiya prosesləri, sənaye sahələrinin innovasiyalaşdırılması problemləri, maliyyə təminatı problemləri.

**UOT:** 338.246.025.2:338.33
**JEL:** O14; D04; F5

## Giriş

Qlobal transformasiyalar şəraitində maliyyə resurslarının və investisiya axınlarının formalaşdırılması və səmərəli istifadə edilməsi problemləri kifayət qədər mürəkkəbləşmişdir. Xüsusilə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə maliyyə sabitliyinin gücləndirilməsi və əlçatan maliyyə-kredit xidmətləri paketinin formalaşdırılması problemləri diqqət çəkir [1]. Bu baxımdan, ayrı-ayrı iqtisadiyyat sahələrinin, ilk növbədə, ixractutumlu sənaye sahələrinin innovasiyalaşdırılması və yüksək texnologiyaların tətbiqi ilə bağlı tələb olunan maliyyə resurslarının təmin edilməsi və bununla bağlı işlək mexanizmlərinin hazırlanması, həyata keçirilməsi problemləri vardır. Azərbaycan qlobal maliyyə silkələnmələrinə qarşı müəyyən müqavimət elementləri formalaşdırmağa nail olsa da, ümumən qlobal təzyiqlər nəticəsində son 10 il ərzində müəyyən maliyyə problemləri ilə üzləşmişdir. Milli valyuta dəyərdən düşmüş və devalvasiya uğramış, real iqtisadiyyat sahələrinin maliyyələşdirilməsində daha çevik və sabit bank-kredit mexanizmlərinin işlənilməsi və tətbiqi prosesləri zəif gedir. Xüsusilə, yeni innovasiyaların işlənilməsi, mənimsənilməsi və tətbiqi istiqamətində müəssiələr ümumən ayrı-ayrı sənaye sahələri sərbəst maliyyə resursları formalaşdırmaqda və uzunmüddətli dövr üçün innovasiyayönlü fəaliyyətə yatırımlar etməkdə ciddi çətinliklərlə üzləşmişlər [2]. Məhz bu səbəblərdən Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması başlanğıc mərhələsində yerində saymaqda davam edir.

## Qlobal transformasiyalar təsiri altında sənaye sahələrində innovasiyaların işlənilməsi və tətbiqi proseslərinin maliyyələşdirilməsi problemlərinin tədqiqi

Qeyd edək ki, sənaye sahələrində innovasiyaların işlənilməsi və tətbiqi bir sıra fəaliyyət sahələrinin ön plana çəkməyə sövq edir. Bu sırada innovasiya proseslərinin maliyyələşdirilməsi və bununla bağlı sənaye sahələrinin fəaliyyətinin obyektiv reallıqlar kontekstində

qiymətləndirilməsi tələb olunur. Dünya təcrübəsində və müasir reallıqlardan yanaşsaq, sənaye sahələrin fəaliyyətinin qiymətləndirilməsi üçün bir sıra keyfiyyət meyarları mövcuddur və əsasən bunlar seçilirlər: 1. Yüksək texnologiyalara əsaslanan investisiya layihəsinin düzgün və dəqiq hazırlanmış mexanizmi. 2. Sənaye sahələrin yaradılması məqsədlərinin bu sahədə mövcud dövlət proqramlarının məqsəd və prioritetlərinə uyğunluğu. 3. Yaradılan texnoparkın ixtisaslaşmasının dövlətin iqtisadi inkişaf strategiyalarına uyğunluğu. 4. Yaradılan texnoparkın regionun inkişafına müsbət təsirinin qiymətləndirilməsi. 5. Dövlət vəsaitlərinin cəlb edilməsi əsasında sənaye sahələria qoyulan investisiyaların əsaslandırılması. 6. Sənaye sahələrin fəaliyyəti üçün infrastruktur obyektlərinin mühəndis şəbəkələrinin mövcudluğu. 7. Sənaye sahələrin yaradılması üçün torpaq sahələrinin mövcudluğu. 8. Sənaye sahələrida yaradılan məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi.

Digər tərəfdən, sənaye sahələrin fəaliyyətinin qiymətləndirilməsi üçün vahid sistemli mexanizm yoxdur və onların fəaliyyətinin keyfiyyət və kəmiyyət meyarlarının təhlili əsasında qiymətləndirilməsi sisteminin yaradılması vacibdir. Bu sənaye sahəsinin maliyyə vəziyyətini daha obyektiv qiymətləndirməyə və lazım gəldikdə dövlət tərəfindən maliyyə dəstəyi göstərməyə imkan verəcək. Bir məsələni xüsusilə vurğulamaq istərdik ki, sənaye sahələrin fəaliyyətinin qiymətləndirilməsinin ən əsas meyarlarından biri maliyyə təminatıdır. Sənaye sahələrin səmərəli inkişafında məhz maliyyə mexanizmləri xüsusi rol malikdir. Sənaye sahələrinin maliyyələşdirilməsinin əsas mənbələri dövlət büdcəsinin vəsaitləri, təsisçilərin və sponsorların maliyyə vəsaitləri, torpaq sahələrinin dəyəri, bank kreditləri, qrantlar, subsidiyalar, xarici investisiyalar və digərləridir.

Sənaye sahələrin dövlət tərəfindən maliyyələşdirilməsi istiqamətləri şəkil 1-də sxematik olaraq verilmişdir.




**Şəkil 1. Sənaye sahələrin dövlət tərəfindən maliyyələşdirilməsi istiqamətləri (müəllif tərəfindən ümumiləşdirilmişdir).**

Azərbaycanda sənaye sahələri inkişaf etdirmək məqsədilə onlara büdcədən subsidiyaların verilməsi qaydasını, məqsədlərini və şərtlərini müəyyən edən bir sıra qərarlar qəbul edilmişdir. Bu subsidiyalar, güzəştlər, dövlət dəstəyi mexanizmləri sənaye sahələri subyektlərinin yaradılması üzrə investisiya layihələrinin həyata keçirilməsi baxımından əhəmiyyətlidir və xüsusilə bu məqsədlə texnoparklar, sənaye parkları, azad iqtisadi zonalar yaradılarkən daha sistemli şəkildə nəzərə alınır [3, s.65].

Vergi güzəştləri və subsidiyalar ölkənin təsis qurumlarının büdcələrinin və ya sənaye sahələrinin obyektlərinin yaradılması və inkişafı üçün regional büdcələrin xərclərinin birgə maliyyələşdirilməsi normalarına uyğun olaraq verilir [4]. Qanunvericilk aktlarına uyğun olaraq sənaye sahələrin ərazisində həyata keçirilən fəaliyyətdən əldə edilən mənfəətə münasibətdə sənaye sahələrin rezidentləri olan təşkilatlar üçün regional büdcəyə ödənilən gəlir vergisinin güzəştli dərəcələrinin tətbiqi mümkündür.

Rezident təşkilatlar tərəfindən sənaye sahələri subyektinin ərazisində həyata keçirilən fəaliyyətdən əldə edilmiş gəlirlərin (xərclərin) və fəaliyyəti həyata keçirərkən əldə edilmiş gəlirlərin (xərclərin) ayrıca uçotunun aparılması mənfəət vergisinin azaldılmış dərəcəsinin tətbiqi üçün şərt ola bilər.

Qeyd edək ki, sənaye sahələrinin innovasiyalaşdırılması üçün ilk növbədə, tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri həll olunmalıdır və bunun üçün tələb olunan maliyyə resurslarının formalaşdırılması vacibdir [5].

Digər tərəfdən, dövlət kifayət qədər sənaye sahələrin fəaliyyətinin inkişaf etdirilməsində mühüm rol oynayan elmi-tədqiqat işlərini maliyyələşdirmir. Ayrı-ayrı strateji əhəmiyyətli innovasiya layihələri üzrə sənaye sahələrin maliyyələşdirilməsi xərclərinin artırılması tövsiyə olunur [6, s.293]. Bu, iqtisadi səmərə əldə etməyə imkan verəcək: ölkədə ÜDM-in artımı, əhalinin həyat səviyyəsinin yüksəlməsi, bütün səviyyələrin büdcələrinə vergi ödənişlərinin artırılması təmin edilməklə yanaşı, həm də innovasiyaların tətbiqi proseslərini sürətləndirə bilər. Hesab edirik ki, yeni innovasiyaların formalaşdırılmasında və mənimlənilməsində tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələrinin sabitliyi mühüm əhəmiyyət kəsb edir.

Cədvəl 1-də Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri verilmişdir.

**Cədvəl 1**

**Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri (2015-2020)**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Tədqiqat və işləmələrə çəkilən daxili xərclər - cəmi, min manat | 120943,6 | 124721,3 | 129871,8 | 147468,3 | 163890,4 | 162452,5 |
| büdcə vəsaiti | 79530,0 | 85291,8 | 87270,1 | 101323,2 | 120553,8 | 122735,5 |
| büdcədən kənar vəsait | 353,9 | 493,2 | 923,5 | 824,9 | 950,8 | 1 271,2 |
| öz vəsaiti | 7 073,3 | 10760,9 | 13805,0 | 14073,6 | 12130,7 | 9 436,2 |
| sifarişçinin vəsaiti | 33482,4 | 26375,6 | 27772,0 | 31246,6 | 30255,1 | 29009,6 |
| ali təhsil müəssisələrini saxlamaq üçün büdcə təxsisatları | 504 | 1799,8 | - | - | - | - |
| xarici mənbələrin vəsaiti | - | - | 101,2 | - | - | - |

**Mənbə:** ARDSK məlumatları əsasında hazırlanmışdır.

Cədvəl 1-ə nəzər salsaq, görərik ki, 2020-ci ildə tədqiqat və işləmələrə çəkilən daxili xərclərin 75,2%-i dövlət büdcəsi hesabına təmin edilmişdir. Buna baxmayaraq, tədqiqat və işləmələrə çəkilən daxili xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi çox kiçik rəqəmlə ifadə olunur. Belə ki, 2020-ci ildə dövlət büdcəsinin xərcləri 26416,3 milyon mnat təşkil etmişdir. Bunun 162452,5 min manatı və yaxud 0,6%-i tədqiqat və işləmələrə çəkilən xərclərdir.

**Cədvəl 2**

**Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər (2015-2020)**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər – cəmi, min manat | 118643,3 | 120782,3 | 127997,0 | 144997,9 | 161299,9 | 160981,7 |
| o cümlədən | | | | | | |
| fundamental tədqiqatlar | 61025,6 | 67130,7 | 68841,9 | 80537,0 | 86620,9 | 89685,9 |
| tətbiqi tədqiqatlar | 23585,9 | 21227,8 | 24157,0 | 25876,3 | 38804,3 | 36005,5 |
| işləmələr | 34031,8 | 32423,8 | 34998,1 | 38584,6 | 35874,7 | 35290,3 |
| o cümlədən | | | | | | |
| layihə-konstruktor və texnoloji işlər | 27479,8 | 23121,2 | 26493,3 | 29730,5 | 29083,3 | 30399,4 |
| sınaq nümunələrinin, dəstlərin, məmulatların hazırlanması | 2605,7 | 7026,4 | 8389,4 | 8618,4 | 6757,4 | 4699,9 |
| tikinti üçün layihə işləri | 3946,3 | 2276,2 | 115,4 | 235,7 | 34,0 | 191,0 |

**Mənbə:** ARDSK-nın məlumatları əsasında hazırlanmışdır.

Ölkəmizdə tədqiqat və işləmələrə çəkilən daxili cari xərclərə gəlincə, bunlar 2020-ci ildə 160981,7 min manat təşkil etmişdir ki, bunun da 55,7%-i fundamental tədqiqatlara, 22,4%-i tətbiqi tədqiqatlara, 21,9%-i isə işləmələrə yönəldilmişdir (bax: cədvəl 2).

Digər tərəfdən, sənaye sahələrin fəaliyyətinin inkişafında vergi güzəştlərinin rolunu da qeyd

etmək lazımdır. Vergi güzəştləri bir və ya bir neçə vergiyə münasibətdə müəyyən edilə bilər. Belə ki, sənaye sahələriın mənfəət vergisi ilə yanaşı, əmlak vergisi, torpaq vergisi üzrə də güzəştlər müəyyən edilir. Məsələn, sənaye sahələriın əmlak komplekslərinə münasibətdə sənaye sahələriın idarəedici təşkilatlarını müəyyən müddətə vergi ödəməkdən azad etmək olar. Torpaq vergisinə gəldikdə, sənaye sahələriın idarəedici təşkilatları üçün sənaye sahələriın yerləşdiyi torpaq sahələri üçün hesablanmış dərəcəsini müəyyən illər üçün azaltmaq mümkündür. Xüsusilə klaster və texnoparklar mexanizmi ilə yeni innovasiyaların işlənilməsində və tətbiqində vergi güzəştləri mexanizmi vasitəsilə maliyyə təminatı problemlərinin nisbətən həll olunmasında toplanmış dünya təcrübəsi maraq doğurur və onlardan daha səmərəli istifadə edilməsi məqsədəuyğundur [7; 8].

Sənaye sahələrinin fəaliyyətində innovatik yanaşmaların daha səmərəli şəkildə tətbiq edilməsi və sahənin qarşısında duran hədəflərə uyğun şəkildə innovasiya fəaliyyəti strategiyasınını işlənilməsi və reallaşdırılması əlçatan maliyyə mexanizmlərinin, maliyyə-kredit xidməti paketlərinin olmasını şərtləndirir. Hesab edirik ki, bu amillər ölkəmizdə ciddi şəkildə dəyərləndirilməli və adekvat tədbirlərin görülməsi üçün zəruri addımlar atılmalıdır.

**Yaxın perspektivdə sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemlərinin həlli yolları**

Azərbaycanda sənaye sahələrinin inkişaf etdirilməsi xüsusilə ağır sənaye sahələrinin – metallurgiya, neft-kimya sənayesi və digər bu qəbildən olan sənaye sahələrinin inkişaf etdirilməsi, innovasiyaların tətbiqi və yüksək texnologiyaların transferi ilə bağlı problemlərin həll edilməsi kifayət qədər maliyyə resursları tələb edir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, son illərdə bu istiqamətdə müəyyən addımlar atılsa da, ciddi irəliləyişlərin olmasını qeyd etmək kifayət qədər çətindir. Xüsusilə, metallurgiya sənaye sahəsində uzun illərdir iri miqyaslı sənaye metallurgiya klasterinin yaradılması hədəf kimi qarşıya qoyulsa da, bu istiqamətdə önəmli addımlar atılmamışdır. Belə ki, Azərbaycanın metallurgiya sənayesinin xammal təminatı imkanları vardır və Daşkəsəndə həm qara, həm də əlvan metallurgiya sənaye sahələrinin inkişaf etdirilməsi üçün xammal resursları mövcuddur. Sovetlər birliyi dövründə Sumqayıt sənaye mərkəzində böyük potensiala malik boru-prokat zavodu fəaliyyət göstərmişdir [9]. Eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərində Alüminium zavodu əlvan metallurgiyanın inkişafına ciddi töhfələr vermişdir. Lakin keçmiş SSRİ-nin dağılması ilə həmin müəssisələr də öz fəaliyyətini demək olar ki, dayandırmış və hazırda çox cüzi potensialından istifadə edilir. Sumqayıt şəhərindəki Alüminium zavodu isə ümumilə fəaliyyətini dayandırmışdır. Bu istiqamətdə tədbirlərin görülməsində hesab edirik ki, yeni yanaşmalar və xüsusilə, bu sahələrin innovasiyalaşdırılması yolu ilə təmin olunmalıdır. Yüksək texnologiyalar əsaslı qurğuların tikilməsi, yerli xammal resurslarından səmərəli istifadə edilməsi, istehsal xərclərinin optimallaşdırılması və bu sənaye sahəsinin potensialından səmərəli istifadə edilməsi ölkəmizdə milli innovasiya sisteminin yaradılmasına çox ciddi töhfələr verə bilər [10; 11].

Bundan əlavə, digər mühüm bir innovativ innovasiyaların tətbiqi üçün daha geniş imkanları olan kimya və neft kimya sənayesini göstərə bilərik. Son illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin balansında iki iri nəhəng müəssisənin – SOCAR Karbamid və SOCAR Polimerin tikilməsi innovasiyaların işlənməsi və tətbiqi ilə birbaşa olmasa da, hər iki qurğuda innovasiyayönlü, innovasiya elementli yanaşmalar kifayət qədər çoxdur. Amma hesab edirik ki, dünya təcrübəsinə uyğun olaraq daha yeni innovasiyalar əsaslı müəssisələrin yaradılması və xüsusilə, kimya, neft-kimya sahəsində, metallurgiya və digər cihazqayırma sənayesində, neftqazkimya maşınqayırması sənayesində yeni innovasiyalar əsaslı yüksək texnologiyalar bazasında sənaye sahələrinin inkişaf etdirilməsi imkanları ölkəmizdə yüksək qiymətləndirilir.

Bunun üçün maliyyə mexanizmlərinin hazırlanması, ilk növbədə hesab edirik ki, dövlət büdcəsindən maliyyələşdirilməklə dövlət tərəfindən çox ciddi addımlar atılmalıdır. Dünya təcrübəsində dünya dövlətləri hər il yeni innovasiyaların işlənilməsi və tətbiqinə, yüksək texnologiyaların transferinə yüz milyardlarla dollar vəsait xərclənir. Biz də bu fikirdəyik ki, Azərbaycanda ilk vaxtlar məhz bir sıra sənaye sahələrinin, o cümlədən ilk növbədə qeyd etdiyimiz kimi ağır maşınqayırma sənaye sahələrinin

- innovasiya əsaslı sahələrinin təmin edilməsi üçün məqsədli dövlət vəsaitləri, investisiyalar yönəldilməli, investisiya-innovasiya layihələri işlənərək tətbiq olunmalıdır. Hesab edirik ki, bu istiqamətdə rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması və daha işlək mexanizmlərə, o cümlədən maliyyə təminatı mexanizmlərinə malik sənaye klasterinin formalaşdırılması və çoxfunksiyalı elmi- texniki parkların, elmi-texniki inkişaf zonalarının yaradılması mümkün olardı.

Cədvəl 3-də Sənaye sahələriın maliyyələşdirilməsinin səmərəliliyinin təmin edilməsinin dövlət dəstəyi tədbirləri əks olunub.

**Cədvəl 3.**

**Sənaye sahələriın maliyyələşdirilməsinin səmərəliliyinin təmin edilməsinin dövlət dəstəyi mexanizmi**

| s.s | Problem | Həll mexanizmi |
|---|---|---|
| 1 | Sənaye sahələrinin fəaliyyətinin maliyyələşdirilməsinin hüquqi tənzimlənməsi | Azərbaycan Respublikasının bütün ərazisində “Sənaye sahələriın maliyyələşdirilməsi haqqında" qanunun hazırlanması, təkmilləşdirilməsi və səmərəli şəkildə tətbiqi |
| 2 | Vergi güzəştlərinin, subsidiyaların, dövlət üstünlüklərinin verilməsi şərtləri | Sənaye sahələrinin subyektlərini güzəştli vergi ödəyiciləri kateqoriyasına ayırmaq, sənaye sahələrində sığorta haqlarının aşağı faiz dərəcəsi ilə ödənilməsi üçün xüsusi tarifin işlənib hazırlanması, dövlət qrantlarının verilməsi proqramlarının həyata keçirilməsi. |
| 3 | Elmi-tədqiqat və təcrübi konstruktor işlərinin maliyyə-ləşdirilməsi | İnnovativ layihələrin maliyyələşdirilməsi xərclərinin artırılması. |
| 4 | Vençur maliyyələşdirməsinin inkişafı | İlkin maliyyələşdirmə fondlarının yaradılması |
| 5 | Sənaye sahələrinin maliyyələşdirilmə-sinin səmərəliliyinin qiymətləndirilməsi | Sənaye sahələrinin fəaliyyətinin maliyyə göstəricilərinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq qiymətləndirilməsi metodikasının hazırlanması |

**Mənbə:** müəllif tərəfindən tərtib olunmuşdur

**Nəticə**

Yaxın perspektivdə Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsi və bununla bağlı maliyə təminatı problemlərinin həlli yollarının müəyyənləşdirilməsi məqsədilə bir sıra təkliflərimizi ümumiləşdirmişik:

1. Azərbaycanda sənaye potensialının açıqlanması və hədəfləri kontekstində müxtəlif sənaye sahələrinin və xüsusilə, ağır maşınqayırma sənayesi sahələrinin innovasiyalaşdırılmasının maliyə təminatı ilə bağlı konseptual yanaşmalar müəyyənləşdirilməli və ölkə səviyyəsində bununla bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi və praktiki fəaliyyət mexanizmlərinin işlənilməsi təmin edilməlidir;

2. Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemlərinin həlli məqsədilə hesab edirik ki, məhz xüsusi ixtisaslaşdırılmış investisiya-innovasiya fondunun formalaşdırılması vacibdir;

3. Fikrimizcə, müxtəlif sənaye sahələrinin innovasiyalaşdırılması üçün məqsədli qrantların ayrılması tələb olunur, məhz bu baxımdan müxtəlif sənaye sahələrinin innovasiyalaşdırılması potensialının reallaşdırılması üçün ciddi addımlar atılması mümkün olardı;

4. Dünya təcrübəsindən çıxış etməklə Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mexanizmlərinin hazırlanması və tətbiq edilməsi üzrə bir sıra ölkələrin təcrübəsinə xüsusi diqqət yetirilməli və dünyanın bu sahədə ixtisaslaşdırılmış maliyyə investisiya-innovasiya transmilli şirkətlərinin ölkəmizə dəvət edilməsi, ümumilikdə isə bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi vacib hesab olunur və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, – 2017. № 03, – s. 26-40.---s.29.

2. Алиев, Ш.Т. Вектор специальных экономических зон в инноватизации// Журнал Инновационная деятельность, г. Саратов, – 2010. № 4 (13), – с.7-11.

3. Məhərrəmov R. Ələt azad iqtisadi zonasında vergitutma məsələləri. Azərbaycanın Vergi jurnalı, 2019, № 1 (138), s.61-70. https://www.e-qanun.az/framework/24574.

4. Милькина, И.В., Ершиков, А.И., Кочнев, С.В. Стимулирование инвести-

ционной деятельности в технопарках Московской области // Муниципальная академия, – 2021. № 3, – с.113-120.

5. Aliyev Sh., Megits N., Pustovhar S., Bielialov T., Prokopenko O. The «Five-Helix» Model as an effective way to develop business in Industry 4.0 of selected countries// Journal of Eastern European and Central Asian Research (JEECAR), Minneapolis, USA, 2022, № 9(2), p. 357-368. https://doi.org/10.15549/jeecar.v9i2.920.

6. Завьялова, М. Ю. Модернизация финансовой политики технопарков как способ повышения инвестиционного потенциала регионов России // Азия - Россия - Африка: экономика будущего: Материалы IX Евразийского экономического форума молодежи. В 2-х томах, Екатеринбург, 17–20 апреля 2018 года. Екатеринбург: Уральский государственный экономический университет, 2018, с. 292-296.

7. Доброва, К.Б. Финансово-экономические аспекты стратегического управления промышленным кластером // МИР (Модернизация. Инновации. Развитие). – 2017. №4 (32), – с. 566–573.

8. Евлоева, М.М. Механизм повышения эффективности деятельности технопарков // Проблемы современной науки и инновации, – 2017. № 1, – с. 4-17.

9. Əliyev, Ş.T. Sumqayıt şəhərinin sənaye potensialının genişləndirilməsi məsələləri// Bakı. İpək Yolu. 2017. №01. S. 28-33- https://www.au.edu.az/upload-files/menu/ipekyolu/1-2017.pdf.

10. Доброва, К.Б. Финансово-экономические аспекты стратегического управления промышленным кластером // МИР (Модернизация. Инновации. Развитие). – 2017. №4 (32), – с. 566–573.

11. Александрова, А.А., Ротар А.Г. Технопарки как механизмы привлечения инвестиций // Стратегия предприятия в контексте повышения его конкурентоспособности, – 2016. № 5-1, – с.49-52.

**Зейналабдин Ариф оглу АЛЕКБЕРОВ**
докторант Университета «Одлар Юрду»
E-mail: zeynalabdin.alakbarov@bk.ru

# ПРОБЛЕМЫ ФИНАНСИРОВАНИЯ ИННОВАТИЗАЦИИ ПРОМЫШЛЕННЫХ ОТРАСЛЕЙ В УСЛОВИЯХ ГЛОБАЛЬНЫХ ТРАНСФОРМАЦИЙ

**Резюме**

*Целью исследования* является определение путей решения проблем финансирования инноватизации промышленных отраслей в условиях глобальных трансформаций. Для этого исследованы проблемы инновационной деятельности промышленных сфер и проанализированы трудности, связанные с финансовыми механизмами. Подчеркнуто, что основной проблемой при разработке и внедрении инноваций на промышленных предприятиях являются финансовые трудности. Даны рекомендации по более эффективным финансовым механизмам инновационной деятельности отраслей в новых условиях, создаваемых глобальным воздействием, и внесены предложения по исследуемым проблемам.

*Метод исследования* – использовалась группа таких научных методов как диалектика, анализ, синтез, обобщение и сравнение. При этом учитывались и мнения исследователей, исследующих инновации промышленных территорий.

*Результаты исследования,* в первую очередь, объясняются эффективным использованием научно-практических результатов исследования и формулировкой концептуальных подходов для реализации более эффективных финансовых механизмов в инновационной деятельности отраслей промышленности Азербайджана.

***Ключевые слова:*** глобальные трансформации, глобальные воздействия, промышленные отрасли, инноватизация, инновационные процессы, проблемы инноватизации промышленных отраслей, проблемы финансирования.

**Zeynalabdin Arif ALEKBEROV**
doctoral student of Odlar Yurdu University
E-mail: zeynalabdin.alakbarov@bk.ru

# THE CHALLENGES OF FINANCING INNOVATION OF INDUSTRIAL SPHERE IN GLOBAL TRANSFORMATION

**Summary**

The purpose of the research is to identify ways to solve the problems of financing the innovation of industrial industry in the context of global transformations. The problems of innovative activities in the industrial spheres are investigated and the difficulties associated with financial mechanisms are analyzed for this purpose. It is emphasized that the main problem in the development and implementation of innovations in industrial enterprises is financial difficulties. Recommendations on more effective financial mechanisms for innovative activities of industries in the new conditions created by the global impact, and proposals are given on the problems under research.

Research methods – a group of scientific methods such as dialectics, analysis, synthesis, generalization and comparison is used. At the same time, the opinions of researchers researching the innovations of industrial areas are also taken into account.

The results of the research are primarily explained by the effective use of scientific and practical results of the study and the formulation of conceptual approaches for the implementation of more effective financial mechanisms in the innovative activities of the industries of Azerbaijan.

**Key words:** global transformation, global impacts, industrial sphere, innovation, innovation processes, problems of innovation of industrial industries, problems of financing.

**Güləndam Şahiddin qızı İsmayılova**
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı.
E-mail: ismayilovagulendam@gmail.com

# AZƏRBAYCANDA NEFT EMALI SƏNAYESİNİN İNKİŞAFINDA İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ PERSPEKTİVLƏRİ

**Xülasə**

Məqalənin məqsədi – Azərbaycanda neft emalı sənayesinin inkişafında innovativ texnologiyaların tətbiqi perspektivlərinin müəyyənləşdirilməsindən ibarətdir. Bunun üçün Azərbaycanda neft emalı sənayesinin inkişaf problemləri açıqlanmış, xüsusilə innovativ texnologiyaların tətbiqi proseslərinin gücləndirilməsinin vacibliyinə diqqət yönəldilmişdir. Neft emalı sənayesi müəssisələrində innovasiyaların işlənilməsi, mənimsənilməsi və tətbiqi ilə bağlı problemlər verilmişdir. Ölkədə innovativ inkişafın, elm və texnologiyalar, innovasiyalar bazarının zəif inkişaf etməsi məsələlərinə münasibət bildirilmişdir. Yaxın perspektivdə Azərbaycanda neft emalı sənayesinin inkişafının sürətləndirilməsində innovativ texnologiyaların tətbiqi imkanları istiqamətində tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Tədqiqatın metodu – məqalədə əsas etibarilə dialektika, analiz, müqayisə və ümumiləşdirmə kimi elmi metodlardan istifadə olunmuşdur. Digər tərəfdən, neft emalı sənayesinin inkişafında innovativ texnologiyaların tətbiqi üzrə araşdırmalar aparan alim və tədqiqatçıların fikirlərinə də istinad olunmuşdur.

Tədqiqatın nəticələri – qlobal çağırışlar şəraitində Azərbaycanda neft emalı sənayesinin inkişafında innovativ texnologiyaların tətbiqinin intensivləşdirilməsi istiqamətində məqalədə əldə olunmuş nəticələrdən istifadənin mümkünlüyü ilə ifadə olunur.

**Açar sözlər:** Azərbaycan, neft, neft emalı sənayesi, innovativ texnologiyalar, neft emalı sənayesinin inkişaf perspektivləri, innovativ texnologiyaların tətbiqi perspektivləri.

**UOT:** 334.716.4
**JEL:** L60; L69; L78

## Giriş

Azərbaycanda neft emalı sənayesinin iqtisadi artımda rolunun yüksəldilməsi istiqamətlərinin obyektiv olaraq müəyyənləşdirilməsi və bu proseslərdə innovativ texnologiyaların tətbiqi perspektivlərinin müəyyənləşdirilməsi vacib şərtlərdəndir. Belə ki, son onilliklərdə Azərbaycanda milli iqtisadiyyatın inkişaf etdirilməsi ilə bağlı məsələlər kifayət qədər aktuallığı ilə cəlb edir. 1994-cü ildə neft strateqiyasının reallaşdırılmasından sonrakı dövrlərdə ölkəmizdə iqtisadi islahatların əsas fazası başa çatdırılmış, neft və qaz sektoru əsas etibarilə beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşmış bir sahəyə çevrilmişdir [1]. Azərbaycan dünya bazarlarına, ilk növbədə neft və qaz xammalı ixracı ilə çıxır və bu da təbiidir. Belə ki, ölkəmizin rəqabətqabiliyyətli və ixracyönlü iqtisadiyyat sahəsi kimi, həm də dünya bazarlarında böyük tələbat olduğundan, enerji bazarlarında bu resurslara tələbat artdığından ölkəmizin neft-qaz resursları ilə beynəlxalq əmək bölgüsündə ixtisaslaşması qanunauyğun bir hal kimi baxıla bilər. Bunlarla belə dünya bazarlarında və dünya səviyyəsində enerji resurslarının qiymətlərinin qeyri-sabitliyi, enerji resurslarının bölüşdürülməsində olan disproporsiyalar və bununla bağlı baş verən qlobal problemlər, təhdidlər ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasını, eyni zamanda daha səmərəli və məhsuldar emal mexanizmlərinin işlənməsini, emal sənayesi şəbəkəsinin formalaşdırılmasını tələb edir. Bu amillər nöqteyi-nəzərindən Azərbaycanda neft emalı sənayesinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi, bununla bağlı mövcud mexanizmlərin daha məhsuldar mexanizmlərlə, praktiki alətlərlə əvəzlənməsi vacibdir [2, s. 135].

Azərbaycanda neft emalı sənayesinin formalaşması neft sənayesinin özünün inkişaf tarixilə bilavasitə bağlıdır. Hələ XIX əsrin

ikinci yarısında Bakıda, Abşeron yarımadasında, Bakının kəndlərində neft emalı müəssisələri yaradılmışdır. Həmin dövrdə neft istehsalı artdıqca, neftin çıxarılmasının sənaye üsulu genişləndikcə Azərbaycan dünyanın ən çox neft istesal edən ölkəsinə çevrildi. Bununla bağlı olaraq neft istehsalında istifadə olunan, eyni zamanda neft quyularında istifadə olunan, neftin çıxarılmasında istifadə edilən bir çox məhsulların - kimya və neft-kimya məhsullarının istehsalı üçün əvvəlcə kiçik sexlər, sonra isə zavodlar, o cümlədən mexaniki zavodlar, neft emalı zavodları, kükürd, ağ neft və s. zavodlar tikilməyə başlanıldı. Artıq XX əsrin əvvəllərində bu istiqamətdə onlarla müəssisələr fəaliyyət göstərirdilər və bunların hamsı Bakının kəndlərində, Abşeron yarımadasında yerləşirdi [2, s. 433].

**Keçmiş SSRİ dövründə Azərbaycanda neft emalı sənayesinin inkişaf etdirilməsi proseslərinin tədqiqi**

Keçmiş SSRİ dövründə Azərbaycanda neft emalı sənayesinin inkişafı ilə bağlı prosseslərdə əsas etibarilə neft emalının bəzi istiqamətlətəri üzrə emal müəssisələrinin yaradılmasına üstünlük verilmişdir. Belə ki, neft emalından kauçuk istehsalına başlanılması hələ XX əsrin otuzuncu illərində planlaşdırılmış, lakin, II Dünya Müharibəsinin və Böyük Vətən Müharibəsinin başlanması ilə əlaqədar olaraq bu məsələlər təxirə salınmışdır. Bununla bağlı həmin dövrdə artıq Bakıda və Neftçalada yod zavodları fəaliyyət göstərirdilər. Və bu zavodların əsas təyinatlarından biri də hərbi təyinat idi. 1944-1945-ci illərdən başlayaraq Böyük Vətən müharibəsinin artıq gedişatında SSRİ-nin qələbə çalacağına inamın artmasından sonra Azərbaycanda kimya sənayesinin və neft-kimya sənayesinin formalaşdırılmasına xüsusi önəm göstərilmişdir [4].

Bütün bunlar neft emalı əsasında formalaşdırılmışdır. Məhz neft istehsalı sahələrində və neftayırma zavodlarından yaxın məsafədə - indiki Sumqayıt Sənaye Mərkəzində, Sumqayıt şəhərində bir-birinin ardınca neft emalı müəssisələrinin yaradılmasına başlanıldı. Həmin dövrdə Sumqayıtda artıq enerji infrastrukturu yaradılmış, istilik-elektrik stansiyaları istismara verilmiş və elektrik enerjisinin ötürülməsi üçün şəbəkə formalaşdırılmışdır. Bundan əlavə, əsas etibarilə burada kimya və neft-kimya müəssisələri daha çox üstünlük təşkil etmişlər.

1945-ci ildə ilk olaraq burada kimya sənaye istehsalı zavodu fəaliyyətə başlamışdır və əsas etibarilə neft məhsullarından istifadə olunurdu. Lakin yerli neft xammalı hesab olunan ən iri müəssisə 1952-ci ildə Sumqayıtda "Sintetik-kauçuk" zavodu - Azərbaycanın neft-kimya sənayesinin flaqmanı olan zavod kimi istismara verilmişdir. Həmin zavodda Azərbaycan neftindən emal olunan neft və neft emalından alınan yan xammalardan müxtəlif neft-kimya məhsullarının alınması prosseslərinə başlanılmışdır. 1960-cı illərin əvvəllərində isə Azərbaycanda böyük iri neft-kimya kombinatı - "Üzvi Sintez" kimya kombinatı istismara verilmişdir. "Üzvi Sintez" kimya kombinatı həmin dövrdə Avropada ən iri müəssisələrdən idi. Artıq burada Bakıda neft emalı zamanı ayrılan yan məhsullardan etilen və proplen xammalları alınırdı. Bu xammallardan isə yüksək və aşağı təyziqli poletilen və neft-kimya məsullarının sonrakı mərhələlərdə isə poliefir qətranlarının alınması təmin edilmiş, "Sintetikkauçuk" zavodunda isə texniki izopropil spirtinin alınması həyata keçirilmişdir.

Lakin Sumqayıtda böyük kimya müəssisələrinin yaradılması proseslərində ciddi problemlər də olmuşdur. Belə ki, kiçik bir ərazisi olan Sumqayıt şəhərində üç xlor istehsalatı istismara verilmişdir. Həmin dövrdə neft emalının artırılması planları Sumqayıtda ekoloji aspektləri arxa plana atmışdır. 1980-ci illərin sonunda Sumqayıtda demək olar ki, bu istiqamətlərdə görülən tədbirlər müəyyən mənada öz nəticələrini verməyə başlamışdır. Lakin kecmiş SSRİ-də başlanılan yenidənqurma prosesləri bu qəbildən olan ittifaq əhəmiyyətli zavodların fəaliyyətində problemlər yaratmışdır. İllərlə yığılıb qalmış sosial-iqtisadi problemlər həll edilmirdi və bundan əlavə, kimya zavodlarının ərazisində zəhərli civə tullantıları qalmış və onların təmizlənməsinə uzun illər lazım gəlmişdir [5, s. 34].

Keçmiş SSRİ-nin süqutundan sonra Azərbaycanda müəyyən məsələlər var idi ki, onların axıra çatdırılması tələb olunurdu. 1980-ci illərin ortalarından başlayaraq Sumqayıtda "EP-300" qurğusunun istismara verilməsi üçün xeyli təşəbbüslər, səylər göstərilməsi lazım gəlmişdir."Sintezkauçuk" İstehsalat Birliyinin

nəzdində olan bu qurğu o vaxtkı dövrdə kecmiş müttəfiq respublikalar arasında Rusyadan sonra yalnız Azərbaycanda tikilməyə başlanmışdır və Ukraynada əsasən rusların daha çox yaşadığı ərazilərdə tikilmişdir (Lisiçansk-Luqansk vilayəti). Qalan bütün "EP-300" qurğuları, o cümlədən "EP-450" emal qurğuları Rusiyanın müxtəlif regionlarında fəaliyyət göstərirdi. Bu qurğular böyük həcmdə neft məhsullarının emalına imkan verir və kifayət qədər səmərəli bir qurğu idi. Həmin dövr üçün bu qurğunun qiyməti indiki qiymətlərlə 500-600 milyon dollar səviyyəsində idi.

Bu il 100 illiyi qeyd olunan Ulu Öndər Heydər Əliyevin tarixi səyləri nəticəsində həmin qurğunun Azərbaycanda tikilməsi və istismara verilməsi planlaşdırılmış, Ulu Öndər dəfələrlə SSRİ rəhbərlərini Azərbaycana, o cümlədən Sumqayıt sənaye mərkəzinə gətirmiş və bu qurğunun maliyələşdirilməsinin davam etdirməsinə nail olmuşdur. Bütün bunların nəticəsində həmin qurğu 1988-ci ildə istismara verilmiş və Azərbaycanda neft-kimya məhsullarının alınmasında, neft emalının daha məhsuldar şəkildə təşkilində çox ciddi naliyyətlər əldə olunmuşdur. Lakin kecmiş SSRİ-nin dağılması ilə və təsərrüfat əlaqələrinin itirilməsilə bağlı olaraq bu sahədə problemlər artmışdır.

Amma, yenə ikinci dəfə Azərbaycanda hakimiyyətə Ulu Öndərin gəlməsindən sonra "EP-300" qurğusunun imkanlarının müasirləşdirilməsi və rekonstruksiya edilməsi hesabına bu qurğu müasir dövrdə bu günə qədər uğurla fəaliyyət göstərir. Düzdür, qurğu dəfələrlə yenidənqurma proseslərinə cəlb edilmiş və son on il ərzində isə qurğuda məqsədli şəkildə məhsul çıxışına daha ciddi önəm verilmiş və "EP-300" qurğusundan səmərəli istifadə edilməsi istiqamətində əlavə tədbirlər görülmüşdür.

Emal sənayesi müəssisələrinin yerləşdiyi ərazilərdə ətraf mühitə texnogen yükün azaldılması məsələlərinin həll edilməsi də zəruridir. Bu məqsədə nail olmaq təşkilati və texniki problemlərin həllinə xüsusi fikir verilməlidir. Təşkilati vəzifələrə bunları aid etmək olar: 1) emal sənayesi müəssisələrində ətraf mühitə nəzarət sisteminin formalaşdırılması və informasiya təminatı; 2) emal sənayesi müəssisələrində ekoloji idarəetmənin həyata keçirilməsi və 3) texnoloji avadanlığın istismarı zamanı çirkləndiricilərin emissiyalarının inventarlaşdırılması. Texniki vəzifələrə isə kənd təsərrüfatı xammalının kompleks emalını təmin edən və ətraf mühitə texnogen təsiri azaldan texnologiyaların tətbiqini aid edə bilərik. Emal müəssisələrinin yenidən qurulması və modernləşdirilməsi zamanı ətraf mühitə zərərli tullantıların azaldılmasına, yerüstü və yeraltı suların çirklənmədən qorunmasına diqqət yetirilməlidir. Hazırda bəzi müəssisələrdə xammalın sənaye emalı nəticəsində əmələ gələn ikinci dərəcəli ehtiyatların mühüm hissəsi səmərəsiz istifadə olunur, tez-tez zibilliklərə və ya su hövzələrinə tökülür ki, bu da təbiətə böyük ekoloji ziyan vurur. Odur ki, ikinci dərəcəli resursların istehsalı üçün emal müəssisələrinin tullantılarından istifadənin artırılmasına diqqət yetirmək lazımdır ki, bu da istehsalın səmərəliliyini artıracaq və həmin müəssisələrin ətraf mühitə zərərli təsirini azaldacaqdır.

Ümumiyyətlə, inkişafın innovativ tipinə keçid uzunmüddətli çağırışlara cavab verən yeni iqtisadi artım amillərinin daxil edilməsini nəzərdə tutur. Bu amillərin hərəkəti emal sənayesinin dayanıqlı inkişafını təmin edə bilər. İnnovativ inkişafa keçid emal müəssisələrinin rentabelliyinin və ümumi istehsalda innovativ məhsulların payının artırılmasına əlavə potensial formalaşdırar.

**Qlobal çağırışlara uyğun olaraq, Azərbaycanda neft emalı sənayesinin inkişafında innovativ texnologiyaların tətbiqi imkanları və istiqamətləri**

Qabaqcıl elmi-texniki nailiyyətlərdən istifadə etməklə, innovasiya və texnoloji inkişafın dəstəklənməsi üzrə milli sistemin yaradılması emal sənayesinin innovativ inkişaf yoluna keçidini təmin edə və tam rəqabətədavamlılığın reallaşdırılması üçün lazımi şərait yarada bilər. Emal sənayesində innovativ inkişaf vektorunu gücləndirmək üçün texnoloji platformadan səmərəli istifadə edilməlidir [6, s. 57]. Biznesin, hökumətin və elmin səylərini birləşdirən texnoloji platforma yeni texnologiyaların və biotexnologiyaların, yeni nəsil qida məhsullarının istehsalı üçün avadanlıqların tətbiqi yolu ilə əhalinin ərzaq təhlükəsizliyi, sağlam qidalanması problemlərinin həllinə töhfə verə bilər. Enerji ehtiyatlarının istehsalı üçün emal

müəssisələrinin tullantılarından istifadə edilməlidir ki, bu da istehsalın səmərəliliyini artırılması və müəssisələrin ətraf mühitə zərərli təsirinin azaldılması baxımından vacibdir. Bütün bunlar üçün iqtisadiyyatın müxtəlif sektorlarına, o cümlədən sənaye sahəsinə davamlı şəkildə investisiyaların yatırılması və son nəticədə innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi məqsədəuyğundur.

Azərbaycanda 2010-2020-ci illərdə emal sənayesi sahəsinə investisiya qoyuluşlarının mövcud vəziyyətini təhlili şəkil 1-də əks olunmuşdur.




**Şəkil 1. Emal sənayesində əsas kapitala investisiyalar, milyon manat (ARDSK məlumat bazası əsasında müəllif tərəfindən tərtib edilmişdir)**

Müasir dövrdə Azərbaycanda neft emalı sənayesinin inkişaf etdirilməsi üçün əsas fəaliyyət istiqamətləri məhz kimya, neft-kimya kompleksi ilə bağlıdır [7, s. 146]. Yenə Sumqayıt sənaye mərkəzində SOCAR-ın iri və yüksək texnologiyalar, innovasiyalar əsaslı qurğuları istismara verilmişdir. SOCAR Polimerdə azot gübrələrin alınması ölkəmizdə bu məhsula olan tələbatın tamamilə ödənilməsinə və ixrac potensialının yaradılmasına imkan vermişdir. İl ərzində azot gübrələrinin ixracından 200-250 milyon dollar həcmində valyuta vəsaitinin ölkəyə gətirilməsi mümkündür. Analoji situasiya SOCAR Polimerlə də bağlıdır. Uzun illər ərzində reallaşdırılmasında problem olan polipropilen istehsalatının tikintisinin başa çatdırılması nəhayət təmin edilmiş və ölkəmizdə, həm də regionda yüksək tələbatı olan polipropilen istehsalı, həm də xətti proplen məhsulunun istehsalına başlanılmışdır. Bu məhsullar üzrə ölkənin daxili tələbatının ödənilməsi ilə yanaşı, həm də il ərzində 150-200 milyon dəyərində ixracı reallaşdırmaq mümkün olacaqdır.

Bütün bunlar son illərdə Azərbaycanda neft emalı sənayesinin nə dərəcədə geniş imkanlarının olduğuna dəlalət edir [8]. Eyni zamanda, müasir texnologiyalar əsaslı Kimya Sənaye Parkının istismara verilməsi və birbirinin ardınca burada yeni texnologiyalar əsasında müəssisələrin istismara verilməsi ölkəmizdə neft emalı sənayesinin inkişaf imkanlarından xəbər verir [9; 10]. Beləliklə, emal sənayesində investisiya fəaliyyətinin səmərəliliyinə bir qrup amillər daha çox müsbət təsir göstərə bilər:

– əlverişli investisiya mühitinin yaradılması yolu ilə emal sənayesində innovativ fəaliyyətə dövlət dəstəyinin göstərilməsi;

– həm regional səviyyədə, həm də ayrı-ayrı müəssisələr daxilində strateji məqsədlərin, vəzifələrin formalaşdırılması və investisiya fəaliyyətinin əsas göstəricilərinin planlaşdırılması;

– investisiya layihələri haqqında məlumatların sistemləşdirilməsi, potensial investorlarla investisiyaya ehtiyacı olan sənaye obyektləri arasında səmərəli kommunikasiya sisteminin yaradılması;

– investisiya risklərinin minimuma endirilməsi mexanizminin adekvat qiymətləndirilməsi, planlaşdırılması və işlənib hazırlanması.

Müasir dövrdə, emal sənayesi müəssisələrinin innovativ inkişafı strategiyasının hazırlanması: 1) strateji məqsədlərin formalaşdırılması; 2) xarici mühitin qiymətləndirilməsi və təhlili; 3) daxili aspektlərin güclü və zəif

tərəflərinin, strateji alternativlərin müəyyənləşdirilməsi, təhlili və strategiyanın seçilməsindən ibarətdir. Emal sənaye müəssisələrinin innovativ fəaliyyətinin SWOT təhlili bu sahədə problemləri müəyyənləşdirməyə imkan verir. Belə bir təhlil emal sənayesinin gələcək inkişafı üçün meyilləri, amilləri və imkanları müəyyən etməyə, gələcək üçün proqnoz işləyib hazırlamağa, innovativ fəaliyyətin inkişafında prioritet istiqamətlər üzrə strategiyanı formalaşdırmağa imkan verir. Bu qeyd olunanların həyata keçirilməsi emal sənayesinin innovativ inkişafını stimullaşdırmağa və intensivləşdirməyə imkan verir ki, bu da son nəticədə emal sənayesinin səmərəliliyinin, rəqabət qabiliyyətliliyin və innovativ məhsul istehsalının artırılmasında ciddi töhfələr verə bilər və s.

**Nəticə**

Emal sənayesinin iqtisadi inkişafda rolunun yüksəldilməsi, xüsusilə neft emalı sənayesinin inkişafında innovativ texnologiyaların tətbiqinin intensivləşdirilməsindən ötrü bu sahənin özünün stimullaşdırılması vacib şərtlərdəndir və fikrimizcə həmin şərtlərə bnunları aid etmək olar:

– Dövlət maliyyə dəstəyi üçün obyektlər seçilərkən prioritet inkişaf sahələrində fəaliyyət göstərən, bütövlükdə qısa müddətdə dayanıqlı artımı və rəqabət qabiliyyətini artırmağa qadir olan innovasiya yönümlü emal sənaye müəssisələrinə üstünlük verilməlidir.

– Hökumətin biznesə birbaşa təsir üsulları ilə yanaşı, dolayı tədbirlərə, xüsusən də emal sənaye müəssisələrinin inkişafı üçün vergi güzəştləri alətlərinə çox diqqət yetirilməlidir.

– Emal sənaye inkişafının stimullaşdırılması kontekstində vergi qanunvericiliyi ölkənin milli inkişaf strategiyasının parametrləri ilə əlaqələndirilməli və milli və qlobal iqtisadiyyatda cərəyan edən proseslərə uyğun olaraq çevik, uyğunlaşdırıla bilən olmalıdır.

– Emal sənayesinin inkişafı üçün vergi güzəştləri geniş spektrli effektiv alətləri əhatə etməlidir.

– Emal sənaye istehsalının vergi stimullarının əsas alətlərinə sürətləndirilmiş amortizasiya sxemləri, investisiya vergisi kreditləri və s. daxil edilməlidir.

Bunlarla bərabər, apardığımız tədqiqatlar belə qənaətə gəlməyə imkan verir ki, emal sənayesinin inkişafı üçün müasir innovativ texnologiyaların tətbiqinin intensivləşdirilməsində vergilərin stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi və bir sıra digər təsirli tədbirlərin görülməsi zəruridir:

– Azərbaycanda neft emalı sənayesinin müasir dövrün texnologiyaları əsasında yenidən qurulması və bununla bağlı təxirəsalınmaz tədbirlərin görülməsi vacibdir;

– Azərbaycanda neft emalı sənayesinin mövcud vəziyyətinin təhlilindən yanaşmaqla emal sənayesinin inkişafına təsir edən amillərin real olaraq qiymətləndirilməsi və neft emalı sənayesinin daha da dərinləşdirilməsini ləngidən problemlərin həlli yollarının müəyyənləşdirilməsi tələb olunur;

– Ölkəmizdə neft emalı sənayesinin inkişaf etdirilməsi üçün innovativ mexanizmlərin tətbiq edilməsi, yüksək texnologiyaların tətbiqi proseslərinin sürətləndirilməsi məqsədəuyğundur və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev, Ş.T. Azərbaycanın kimya və neftkimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri. – Bakı: Elm və təhsil, – 2012. – 156 s.
2. Səfərov, Q.Ə., Əmiraslanova D.Ə. Neftkimya müəssisələrində strateji planlaşdırma və onun həyata keçirilməsi // İpək yolu, – 2017. №2, – s.132-140.
3. Aliyev, Sh.T. Strategic role of Sumgayit in the development of petrochemical industry of Azerbaijan / The International Conference on Actual Problems of Chemical Engineering - APCE 2020. - Azerbaijan State of Oil and Industry University. 24-25 december 2020. – p.430-435.
4. Алиев, Т.Н. Инновационное развитие промышленности Азербайджана: нефтехимия. – Москва: «Palmarium academic publishing». – 2016. – 232 с.
5. Aliyev, Sh.T. Strategic aspects of diversification and export potential increase of the non-oil industry in Azerbaijan / Economic and Social Development-55th International Scientific Conference on Economic and Social Development. Varazdin Development and Entrepreneurship Agency and University North in cooperation with Azerbaijan State University of Economics (UNEC) Faculty of Management

University of Warsaw Faculty of Law, Economics and Social Sciences Sale - Mohammed V University in Rabat Polytechnic of Medimurje in Cakovec. 18-19 June 2020, Volume 4. p. 30-39. https://www.proquest.com/openview/6e3b4feeb1bdf05baed60721eb258f6d/1?pq-origsite=gscholar&cbl=2033472.

6. Süleymanov, Q.S., Quliyeva G.N., İsmayılova A.B. Sənayenin innovativ inkişafında beynəlxalq təcrübə və Azərbaycan sənayesinin inkişaf perspektivləri // İpək yolu, – 2018. №3, – s. 55-66.

7. Aliyev, Sh.T. The Problems of the Variety of Formation and Functioning of the Special Economic Zones in Azerbaijan in the Context of the World Experience. Marketing and Management of Innovations, 1, 2010. -144-148. https://doi.org/10.21272/mmi.2010.1-18.

8. Abdalova, M.Ə. Sumqayıt şəhərində sənayenin innovasiya yönümlü inkişafı və strukturunun təkmilləşməsi istiqamətləri: / İqtisad üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 25 s.

9. Aslanzadə, İ.A. Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri: / İqtisad elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2013. – 56 s.

10. Azərbaycanda biliyə əsaslanan və innovativ iqtisadiyyatın inkişaf etdirilməsi – qiymətləndirmə və təklif sənədi. BMT-nin inkişaf proqramı. Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar Nazirliyi. – Bakı: – 2019, – 85 s.

**Гулендам Шахиддин гызы ИСМАИЛОВА**
докторант Азербайджанского Государственного
Экономического Университета,
г.Баку, Az 1001, ул. Истиглалият, 6
E-mail: ismayilovagulendam@gmail.com

## ПЕРСПЕКТИВЫ ПРИМЕНЕНИЯ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В РАЗВИТИИ НЕФТЕПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Резюме**

Цель статьи – определить перспективы применения инновационных технологий в развитии нефтеперерабатывающей промышленности Азербайджана. С этой целью были анализированы проблемы развития нефтеперерабатывающей промышленности в Азербайджане, акцентировано внимание на важности усиления процессов применения инновационных технологий. Приведены проблемы, связанные с разработкой, внедрением и применением инноваций на предприятиях нефтеперерабатывающей отрасли. Рассмотрены вопросы инновационного развития науки и технологий, недостаточного развития инновационной сферы в стране. В конце статьи даны рекомендации и предложения в направлении возможности применения инновационных технологий для ускорения развития нефтеперерабатывающей промышленности в Азербайджане ближайшее время.

Методы исследования – в статье, в основном, использовались такие научные методы, как диалектика, анализ, сравнение и обобщение. С другой стороны, также приводились мнения ученых и исследователей, проводящих исследования по применению инновационных технологий в развитии нефтеперерабатывающей отрасли.

Результаты исследования – выражены возможностью использования полученных в статье результатов в направлении интенсификации применения инновационных технологий в развитии нефтеперерабатывающей промышленности Азербайджана в условиях глобальных вызовов.

**Ключевые слова:** Азербайджан, нефть, нефтеперерабатывающая промышленность, инновационные технологии, перспективы развития нефтеперерабатывающей промышленности, перспективы применения инновационных технологий.

**Gulandam Shahiddin ISMAYİLOVA**
Doctoral student of Azerbaijan
State University of Economics
E-mail: ismayilovagulendam@gmail.com

# PROSPECTS FOR THE USE OF INNOVATIVE TECHNOLOGIES IN THE DEVELOPMENT OF THE OIL REFINING INDUSTRY OF AZERBAIJAN

**Summary**

The purpose of the research is to determine the prospects for the use of innovative technologies in the development of the oil refining industry in Azerbaijan. To this end, the problems of the development of the oil refining industry in Azerbaijan are analyzed; attention is paid to the importance of strengthening the processes of using innovative technologies. The problems associated with the development, implementation and application of innovations in enterprises of the oil refining industry are presented. The issues of innovative development of science and technology, insufficient development of the innovation sphere in the country are considered. At the end of the article, recommendations and proposals are given in the direction of the possibility of using innovative technologies to accelerate the development of the oil refining industry in Azerbaijan in the near future.

Research methods - the article mainly used scientific methods such as dialectics, analysis, comparison and generalization. On the other hand, the opinions of scientists and researchers conducting research on the use of innovative technologies in the development of the oil refining industry are also given.

The results of the research are expressed by the possibility of using the results obtained in the article in the direction of intensifying the use of innovative technologies in the development of Azerbaijan's oil refining industry in the context of global challenges.

**Key words:** Azerbaijan, oil, oil refining industry, innovative technologies, perspectives of oil refining industry development, perspectives of application of innovative technologies.

**Zümrüd Cümşüd qızı NƏSİBOVA**
Azərbaycan Kooperasiya Universitetinin dissertantı,
E-mail: nasibova.zumrud22@gmail.com

# QARABAĞ İQTİSADİ RAYONUNUN "AĞILLI" TEXNOLOGİYALAR ƏSASINDA İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**Xülasə**

Tədqiqatın məqsədi – Qarabağ iqtisadi rayonunun "ağıllı" texnologiyalar əsasında inkişaf etdirilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir. Bunun üçün Qarabağ iqtisadi rayonunun inkişaf hədəfləri və dirçəldilməsi proseslərinin əsas istiqamətləri araşdırılmışdır. "Ağıllı" texnologiyalar əsasında inkişafın üstün cəhətləri və müasir texnologiyaların tətbiqi ilə bağlı yanaşmalar verilmişdir. Qarabağın bərpa işlərində ağıllı texnologiyalardan istifadə edilməsi ilə bağlı görülən işlərin üstün elementləri açıqlanmışdır. İşğaldan azad olunmuş ərazilərin bərpa proseslərinin sürətləndirilməsində müasir texnologiyaların daha geniş tətbiqinin vacibliyi əsaslandırılmışdır. Yaxın dövrdə Qarabağ iqtisadi rayonunda "ağıllı" texnologiyalar əsasında inkişafın sürətləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Tədqiqatın metodu – əsas etibarilə dialektika, təhlil, sintez, müqayisə və ümumiləşdirmə formasında olan elmi metodlardan istifadə edilmişdir. Bunlarla bərabər, Qarabağ iqtisadi rayonunun ağıllı texnologiyalar əsasında inkişaf etdirilməsi üzrə araşdırmalar aparan tədqiqatçıların elmi əsərlərinə də istinad olunmuşdur.

Tədqiqatın nəticələri – Müasir dövrdə məqalədə alınmış elmi-praktiki nəticələrdən Qarabağ iqtisadi rayonunun "ağıllı" texnologiyalar əsasında inkişaf etdirilməsi üzrə daha intensiv və kompleks tədbirlərin hazırlanmasında, fəaliyyət strategiyalarının işlənilməsində istifadə olunması imkanları ilə izah olunur.

**Açar sözlər**: Azərbaycan, Qarabağ, Qarabağ iqtisadi rayonu, "ağıllı" texnologiyalar, "ağıllı" texnologiyaların tətbiqi problemləri, Qarabağın dirçəldilməsi hədəfləri.

**UOT:** 332.1: 911.6
**JEL:** O18, R14, R58

## Giriş

Müasir dövrdə Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsinin aktual problemləri ön plana çıxmaqdadır. Böyük Qarabağ Zəfərindən sonra Qarabağda, ümumiyyətlə işğaldan azad olunmuş ərazilərdə yeni reallıqlar yaranmışdır [1, s.279]. 30 ilə yaxın dağıdılmış ictimai binalar, istehsal infrasturukturu, deqradasiyaya uğradılmış torpaqlarımız düşmən tapdağından azad edilmişdir və artıq yeni reallıqlar formalaşmışdır. Belə bir şəraitdə strateji məqsəd həmim ərazilərin mümkün qədər daha tez dirçəldilməsi və bu ərazilərdə sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin qayıdışı ilə bağlı tədbirlərin kompleks və sistemli şəkildə həyata keçirilməsidir. Artıq Azərbaycanda bununla bağlı dövlət səviyyəsində davamlı şəkildə işlər görülməkdədir. Hələ müharibə qurtarmamış quruculuq işlərinə start verilmiş və bununla bağlı konseptual fikirlər, yanaşmalar, dövlətin iqtisadi siyasətinin əsas fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş və adekvat tədbirlərə başlanılmışdır [2, s.24]. Şübhəsiz, ilk növbədə, bu ərazilərin minalardan təmizlənməsi və təhlükəsiz yaşayış və fəaliyyət üçün müvafiq şəraitin yaradılmasıdır. Fikrimizcə, bu istiqamətlərdə işlər planlı şəkildə gedir, amma hesab edirik ki, bu məsələlərin daha da intensivləşdirilməsi üçün əlavə tədbirlərə ehtiyacı vardır. Bir məsələni də qeyd etmək istərdik ki, ərazilərin minalardan təmizlənməsinə daha çox vaxtın gedəcəyini nəzərə alsaq, quruculuq və dirçəliş tədbirlərinin, ümumilikdə, sosial-iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi üçün daha intensiv tədbirlərə ehtiyac vardır.

## Qarabağ iqtisadi rayonunun "ağıllı" texnologiyalar əsasında inkişaf etdirilməsi proseslərinin təhlili

Məlumdur ki, işğaldan azad olunmuş ərazilərdə, hələ işğaldan əvvəlki dövrün təhlilindən

yanaşsaq kifayət qədər təbii resurslar mövcud olmuşdur və onlardan səmərəli istifadə hesabına işğal dövründə dağıdılmış infrasturukturun bərpa edilməsi və sosial-iqtisadi inkişaf mənbələrinin formalaşdırılması mümkün ola bilər. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin idarə-etmə sisteminin təkmilləşdirilməsi, daha çevik idarəetmə formasının, yəni müasir dövrün çağırışlarına uyğun şəkildə qurulması məsələləri diqqət çəkir.

Artıq Qarabağ iqtisadi rayonunda konseptual baxımdan ortaya qoyulan fəaliyyət istiqamətləri diqqət çəkir. Belə ki, işğaldan azad olunmuş ərazilərdə görülən işlərə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri rəhbərlik edirlər və Şuşa şəhəri istisna olmaqla digər işğaldan azad olunmuş rayonlar üzrə Prezidentin xüsusi nümayəndəsi fəaliyyət göstərir. Eyni zamanda, Şuşa şəhəri özünün xüsusi spesifik cəhətləri ilə əlaqədar olaraq və mədəni irsin qorunması, burada tarixi abidələrin və özəlliklərin diqqət mərkəzində saxlanılması və gələcək nəsilə çatdırılması, şəhərin bərpa edilməsi, tarixi simasının özünə qaytarılması, Azərbaycanın mədəniyyət mərkəzi kimi inkişaf etdirilməsi məqsədilə, Şuşa şəhəri bütövlükdə qoruq elan olunmuşdur və buranın idarəçiliyi ilə inzibati idarə müdriyyəti məşğul olur. Bu isə demək olar ki, kifayət qədər fərqli bir idarə mexanizmidir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə nəzərə alınmaqla, ölkəmizdə yeni rayonlaşdırma - iqtisadi rayonların bölgüsündə dəyişikliklər edilmişdir. Məhz bunun nəticəsində əvvəlki 12 iqtisadi rayonun sayı artırılaraq 14-ə çatdırılmışdır.

Yeni yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hər birinin özünəməxsusluğunun inkişaf xüsusiyyətləri, təbii və iqtisadi resursları mövcuddur [3, s.70]. Hazırda başlıca vəzifə bu iqtisadi resurlardan səmərəli istifadə edilməsi, regionun özünün ənənəvi iqtisadiyyat sahələri ilə yanaşı, müasir iqtisadi inkişaf reallıqlarının nəzərə alınması, prioritetlərin dəyərləndirilməsi və Böyük Qayıdışla bağlı resurs potensialından səmərəli istifadə edilməsi hesabına istehsal infrasturukturunun formalaşdırılması, yaşayış səviyyəsinin yaxşılaşdırılması və əhalinin işlə təminatı ilə bağlı problemlərin nəzərə alınması vacib şərtlərdəndir [4, s.152]. Bu baxımdan Qarabağ iqtisadi rayonunun inkişaf problemlərinin həlli dövlət və cəmiyyət üçün daim müzakirə mövzusudur və aktual olaraq qalır. Qarabağ iqtisadi rayonunun ənənəvi iqtisadiyyat sahələrinin içərisində daha çox, şübhəsiz, kənd təsərrüfatı yönümlü istiqamətlər fərqlənir. Hələ sovetlər birliyi dövründə Qarabağda və xüsusilə Ağdam, Füzuli, Bərdə, Ağcəbədi, Tərtər rayonlarında kənd təsərrüfatının müxtəlif sahələri güclü şəkildə inkişaf etmişdir [5, s.26].

Burada ilk növbədə pambıqçılıq inkişaf etmişdir və Ağdam və Füzuli rayonlarında ölkənin ən məhsuldar taxılçılıq sahələri mövcud olmuşdur. Xüsusilə mühüm ərzaq məhsulu olan ərzaq buğdasının istehsalında bu rayonların rolu kifayət qədər böyük idi və Qarabağda istehsal olunan kənd təsərrüfatı məhsulları sovetlər dönəmində Azərbaycanda ümumi istehsalın 20-25 faizi səviyyəsində idi. Bütün bunlar onu deməyə imkan verir ki, müasir dövrdə kənd təsərrüfatı sahələrinin və aqrar sektorun bərpa edilməsi bununla bağlı tədbirlərin görülməsi Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi, Qarabağda iqtisadiyyat quruculuğunun gücləndirilməsi məsələləri kifayət qədər aktuallığı ilə diqqət çəkir. Bu rayonun aqrar potensialı və aqrar-sənaye sahələrinin inkişaf etdirilməsi ilə bağlı imkanları genişdir [6].

Qlobal çağırışlar nəzərə alınmaqla, Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi problemlərinə yanaşmalar baxımından qeyd edə bilərik ki, burada əsas iqtisadiyyat sahələrinin formalaşdırılmasına müəyyən vaxt tələb olunur. Amma qısa müddət ərzində kənd təsərrüfatı sahələrinin fəaliyyətinin bərpa edilməsi mümkündür və nəzərə alsaq ki, daha çox müasir texnologiyalar, o cümlədən "ağıllı" texnologiyaların tətbiqinə üstünlük veririlir. Bu baxımdan Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsində müasir və "ağıllı" texnologiyaların təmin edilməsi məhsuldarlığın yüksəldilməsinə, xərclərin optimallaşdırılmasına və daha çox gəlirin götürülməsinə imkan verəcəkdir. Digər tərəfdən, hesab edirik ki, artıq yaradılmasına başlanılan istehsal infrasturukturu kontekstində aqrar-sənaye emal müəssisələrinin daha geniş şəbəkəsinin işlənməsi, hazırlanması və istismara verilməsi vacibdir. Belə ki, Qarabağda və digər işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının və bütövlükdə aqrar sahənin inkişafı üzrə güclü perspektivlər vardır [7].

Burada texniki kənd təsərrüfatı məhsulu olan pambıqçılığın inkişaf etdirilməsi və kompleks olaraq onun əsasında toxuculuq sənayesi müəssisələrinin - tekstil müəssisələrinin istismara verilməsi və bununla regionda məhsuldar əlavə dəyər mənbələrinin formalaşdırılması, məğulluğun təminatı üçün yeni imkanların əldə edilməsi və əhalinin gəlirlərinin artması baxımından bu sahənin inkişaf etdirilməsini olduqca vacib hesab edirik. Heyvandarlıq sahəsində fikrimizcə, burada süd və süd məhsulları, ət və ət məhsulları üzrə ixtisaslaşmağa ehtiyac vardır. Regionun münbit iqlimi, hava şəraiti, qışlaq və yaylaq imkanlarının olması, eyni zamanda heyvandarlığın inkişafının burada ənənəvi bir sahə kimi uzun illər ərzində mövcudluğunu nəzərə alsaq, Qarabağ iqtisadi rayonunda heyvandarlıq komplekslərinin, xüsusilə Azərbaycanın özünütəminat baxımından ərzaq məhsulları üzrə ixtisaslaşmanın gücləndirilməsinə xüsusi ehtiyacın olduğunu qeyd edə bilərik.

Qeyd edək ki, hazırda Qarabağın bir sıra rayonları, o cümlədən Bərdə rayonu ölkədə heyvandarlıq məhsullarının istehsalı üzrə xüsusilə, iri buynuzlu mal-qaranın saxlanılması və ölkə əhalisinin ət ilə təminatında önəmli funksiyanı yerinə yetirir. Amma bütün bunların daha geniş və sənaye formasında, yəni sənaye - emal müəssisələrinin yaradılması kontekstində inkişaf etdirilməsi və region əhalisinin bu sahədə olan fəaliyyətinin bazar iqtisadiyyatı münasibətləri formasında inkişafı təmin olunmalıdır. Hesab edirik bununla bağlı Bərdə, Ağcəbədi rayonlarında heyvandarlığın inkişafı üçün xüsusi yanaşmalar və proqramlar işlənilməli, bu ərazilərdə iri heyvandarlıq kompleksinin, "ağıllı" fermaların yaradılması məsələsinə baxılmalıdır [8].

Hesab edirik ki, bu məsələlərin baxılmasında Avropa təcrübəsi, o cümlədən digər dünya ölkələrinin təcrübəsinə xüsusi diqqət yetirilməli və onların tətbiqi ilə bağlı məsələlər dərindən öyrənilməli, yerli şərait nəzərə alınmalı və bununla bağlı tədbirlərin maliyyə mexanizmləri həll edilməlidir. Digər tərəfdən, Qarabağın sosial-iqtisadi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, burada daha mütərəqqi, müasir dövrdə mühüm əhəmiyyət kəsb edə biləcək iqtisadiyyat sahələrinin kompleks inkişafına xüsusi diqqət yetirilməlidir [9]. Hesab edirik ki, belə bir sahə turizim sahəsi ola bilər. Turizm sovetlər dövründə də Qarabağ üçün kifayət qədər xarakterik bir sahədir. Şuşa şəhərində sovetlər birliyinin hər yerində tanınan iri sanatoriya fəaliyyət göstərirdi. Bundan əlavə, Kəlbəcərdə "İstisu" kompleksi var idi. Bunlar əlbəttə olduqca azdır və Qarabağ iqtisadi rayonunun turizm baxımından imkanları xeyli böyükdür və demək olar ki, hər bir rayonun turizm potensialı vardır [10]. Amma burada turizmin inkişafı ilə bağlı məsələ, fikrimizcə Şuşa şəhəri ilə bağlıdır.

Şuşa şəhərinin hazırda bərpa edilməsi prosesləri və dirçəldilməsi prosesləri intensiv fazaya keçmişdir. Yüzlərlə tarixi əhəmiyyət kəsb edən qədim binalar, tarixi abidələr bərpa olunur və burada geniş miqyaslı işlər görülür. Şuşa şəhərinin ərazisi kiçik olsa da, burada otel komplekslərinin, turizm müəssisələrinin yaradılması imkanı böyükdür və bu da öz növbəsində turizm sahələrinin və turizm brendlərinin Şuşaya gətirilməsi, milli turizm birendlərinin formalaşdırılması Şuşada turizm sahəsinin intensiv inkişafına əlavə şərait yarada bilər və Şuşanın inkişaf implusları bütövlükdə Qarabağ iqtisadi rayonun inkişafının sürətləndirilməsində önəmli funksiyanı yerinə yetirər. Artıq bu istiqamətdə çoxsaylı diskussiyalar diqqət çəkir. O cümlədən, Azərbaycan üçün yeni olan mədəniyyət iqtisadiyyatının yaradılması baxımından, Şuşa milli inkişaf modelini, yəni bu sahədə ilk inkişaf modelinin formalaşdırılması potensialına malikdir. Burada müxtəlif mədəniyyət sahələrinin, qədim sənətkarlıq sahələrinin, bununla bağlı kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, sənətkarlıq emalatxanalarının yaradılması və intellektual innovativ yanaşmalar əsasında yaradıcı mərkəzlərin təşkili, bir sözlə çoxlu sayda mədəniyyətyönlü sahələrin inkişaf etdirilməsi, o cümlədən suvenir istehsalının sənaye səviyyəsində təşkili, Qarabağ brendi kimi yerli toponimlərin adları ilə məhsulların istehsal edilməsi, onların satışının yerli, regional və dünya bazarlarına çıxarılması, turizm paketlərində Şuşa ilə bağlı olan özəlliklərin nəzərə alınması tədbirlərinin keçirilməsi ilə turizm paketlərinin formalaşdırılmasının təkmilləşdirilməsi və bütün bu tədbirlər hesabına yaxın perspektivdə Şuşada mədəniyyət iqtisadiyyatının formalaşmasına, bütövlükdə Azərbaycan üçün yeni bir model kimi bu mədəniyyət iqtisadiyyatı modelinin yaradılmasına imkan verə bilər.

Eyni zamanda, turizm-rekreasiya imkanlarının obyektiv olaraq dəyərləndirilməsi və buna

müvafiq olaraq turizm-otel komplekslərinin tikintisi vacibdir. Bu isə öz növbəsində Şuşa şəhərində digər sahələrin, ictimai iaşənin, nəqliyyatın, digər məşğulluq, sənətkarlıq sahələrinin inkişafına multiplikativ təsir göstərməklə əlavə dəyər və maliyyə mənbələrinin genişləndirilməsinə, məşğulluq imkanlarının artırılmasına, yeni iş yerlərinin formalaşdırılmasına güclü stimul və motivasiya verə bilər.

**Yaxın perspektivdə Qarabağ iqtisadi rayonunun "ağıllı" texnologiyalar əsasında inkişaf istiqamətləri**

Qarabağ Azərbaycanın qədim və hər birimiz üçün müqəddəs olan ərazisidir. Qarabağ daim özünün iqtisadi inkişaf istiqamətləri, adət və ənənələri, milli ruhda Azərbaycançılığın inkişaf etdirilməsi baxımından önəmli bir bölgə olmuşdur. Qarabağın inkişafı ilə bağlı tarixi-iqtisadi proseslərdən yanaşsaq, uzun illər ərzində burada gözəl təbiət və zəngin təbii resurslar hesabına əkinçilik və maldarlıq xüsusilə geniş inkişaf etmişdir. Qədim zamanlarda insanlar burada heyvandarlıqla və əkinçiliklə məşğul olmuş, ərzaq məhsulları yetişdirmiş və eyni zamanda ipəkçiliyi də inkişaf etdirmişlər. Keçmiş SSRİ dövründə Qarabağda kifayət qədər arzuolunmayan hadisələr baş vermişdir. Təəssüf ki, həmin dövr ərzində torpaqlarımızın hissə-hissə alınaraq Ermənistana verilməsi prosesi sürətlənmişdir və eyni zamanda Azərbaycanın içərisində – Qarabağın bölgəsində SSRİ-i rəhbərliyi Dağlıq Qarabağ vilayəti yaratmaqla, burada gələcək separatizmin əsasını qoymuşdur və bununla da Şuşanın mərkəzi statusunu zəifləməsi proseslərinə başlanılmışdır. Sovet dövründə Qarabağda əsas fəaliyyət istiqamətləri kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və emalı olmuşdur. Burada kənd təsərrüfatı məhsullarının geniş çeşiddə, taxılçılıq, bitkiçiliyin əksər növləri, eyni zamanda texniki bitkilərin, pambıqçılığın və üzümçülüyün iri həcmdə istehsalı təmin olunmuşdur.

Qarabağda üzümcülüyün inkişafı da xüsusi önəm kəsb etmişdir və xüsusilə XX əsrin 70-ci illərindən başlayaraq, Ağdam və Füzuli rayonlarında üzümçülük sürətlə inkişaf etmiş və böyük həcmdə üzüm məhsulunun istehsalına nail olunmuşdur [11]. Nəticədə burada çoxlu sayda üzümçülük emalı müəssisələri yaradılmış, yəni şərab müəssisələri – zavodları tikilmiş və keçmiş SSRİ-nin demək olar ki, əksər respublikalarına şərab məhsulu və spirtli içkilər ixrac olunmuşdur. Vaxtilə keşmiş SSRİ-də "Ağdam" adlı şərab məhsulu bir brend olaraq yayılmışdır. Bundan əlavə, Ağdam və Füzuli rayonlarında əsas ərzaq məhsulu olan ərzaq buğdasının istehsalında böyük nailiyyətlər əldə edilmişdir və yüksək məhsuldarlıqla bağlı nəticələr yadda qalmışdır. Eyni zamanda, bu ərazilərdə pambıq istehsalının da geniş sahələri yaradılmışdır. Digər ərazilərdə, o cümlədən Ağdamla qonşu olan Bərdə isə Azərbaycanın ən böyük pambıqçılıq rayonlarından biri kimi diqqət çəkmişdir. Ağcabədidə də pambıqçılıq sürətlə inkişaf etmişdir. Tərtərdə isə əsas etibarilə meyvəçilik və heyvandarlıq məhsullarının istehsalı geniş yayılmışdır. Amma Qarabağ üçün əsas xarakterik olan fəaliyyət istiqamətlərindən biri kimi heyvandarlıq və heyvandarlıq məhsullarının emalı üzrə müəssisələr olmuşdur. Hazırda işğaldan azad olunmuş ərazilərin yeni bölgüsündə Qarabağ iqtisadi rayonu ayrıca bir rayon kimi formalaşmışdır və əvvəllər xarakterik olan iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi və bununla bağlı proseslərin sürətləndirilməsi olduqca strateji əhəmiyyət kəsb edir [12].

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə inkişaf proseslərinin sürətləndirilməsi xidmət sahələrinin geniş seqmentdə təşkil olunması və şübhəsiz, nəqliyyat sektorunun - ictimai nəqliyyatın inkişafının intensivləşdirilməsi, şəhər təsərrüfatı sahələrinin digər xidmət sahələrinin inkişaf etdirilməsi və eyni zamanda, xidmət sektorunda ictimai iaşə və otel komplekslərinin yaradılmasına daha çox önəm verilməsi və şəhərdə intellektual resurslar əsasında bilik iqtisadiyyatı və rəqəmsal texnologiyalar əsasında isə fəaliyyət sahələrinin formalaşdırılması daha çox cəlbedici və bərpa olunan şəhərlərin hazırkı inkişafına müsbət təsir göstərə bilər.

Bunlarla bərabər, perspektivdə Şuşa rayonunun kəndlərinin potensialından daha səmərəli istifadə edilməsi məsələləri də ciddi nəzarətdə saxlanılmalıdır. Fikrimizcə, burada yüngül sənaye sahələrinin müxtəlif seqmentlərinin, o cümlədən rəqabətqabiliyyətli yüksək keyfiyyətə malik ərzaq - qida məhsulları istehsal edən yeyinti məhsulları müəssisələrinin yaradılması səmərə verə bilərdi. Yüngül sənaye sahələrində bura üçün kifayət qədər xarakterik

olan qədim xalçaçılıq sənətinin bütün seqmentlərinin inkişaf etdirilməsi, xalçaçılıq muzeyinin yaradılması və xalçaçılıq istiqamətində, o cümlədən tekstilin müxtəlif seqmentləri üzrə emal müəssisələrinin, milli brendlərin formalaşdırılması istiqamətində kompleks tədbirlərin görülməsi daha çox səmərə verə bilərdi.

Fikrimizcə istehsal olunacaq məhsulların, ümumiyyətlə brendləşdirilməsində yerli toponimlərdən istifadə edilməsi, Qarabağ, Şuşa toponimlərindən daha fəal şəkildə istifadə olunması, həm də Şuşanın, Qarabağın dünya səviyyəsində təbliğində və daha çox diqqət mərkəzində olmasında və bütün dünya Azərbaycanlılarının Şuşa ilə bağlı olan simvollara, milli dəyərlərə daha çox diqqət yetirməsində əlavə imkanlar formalaşdıracaqdır.

Hesab edirik ki, Şuşada və Şuşa rayonunun kəndlərində aqrar istiqamət üzrə aqrar-emal müəssisələrinin təşkili mümkündür, amma kifayət qədər iri məhsuldarlığa malik sənaye sahələrinin yaradılması burada məqsədəuyğun deyildir. Şəhərin ekoloji tarazlığının pozulmasına gətirib çıxara biləcək sənaye müəssisələrinin tikilməsi qeyri-səmərəli ola bilər. Buna görə də kiçik və orta biznes subyektləri səviyyəsində aqrar-emal müəssisələrinin yaradılması və fermer təsərrüfatlarının şəhərətrafı zonalarda təşkili daha məqsədəuyğundur. Belə ki, Şuşa rayonunun kəndlərinin də inkişafı baxımından və sosial-iqtisadi inkişaf proseslərinin həlli nöqteyi-nəzərindən məşğulluq problemlərinin həll edilməsi kontekstindən təsirli və ardıcıl tədbirlərin görülməsinə ehtiyac vardır. Şuşa şəhəri ilə inteqrativ inkişaf proseslərində bu tip sahələrin yaradılması, eyni zamanda aqroparkların təşkil edilməsi, müxtəlif ət və ət məhsulları, süd və süd məhsulları emalı müəssisələrinin yaradılması, yüksək keyfiyyətli və vitaminli meyvələrin emal olunması, meyvələr əsasında emal müəssisələrinin yaradılması yerli tələbatın ödənilməklə, bu məhsulların həm də xaricə ixrac edilməsi imkanları kifayət qədər aktuallığı ilə diqqət çəkir. Bu istiqamətlərdə azad iqtisadi zonalar statuslu iqtisadi fəaliyyət zonalarının təşkili perspektivləri də maraq kəsb edir [13].

**Nəticə**

Beləliklə, Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafının intensivləşdirilməsi, regionun iqtisadi təhlükəsizliyinin, ilk növbədə ərzaq təhlükəsizliyinin yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunması məsələsinin həllində burada mövcud olan potensialın reallaşdırılmasında, nəqliyyat-logistika kompleksinin, anbar təsərrüfatının yaradılması da vacib şərtlərdəndir və bunlar mütləq şəkildə nəzərə alınmalı və bununla bağlı tədbirlər Şuşa şəhərinin sosial-iqtisadi inkişafı konteksində baxılmalıdır.

Qeyd olunan istiqamətlərdə tədbirlərin görülməsi Şuşa şəhərinin inkişafında ciddi önəm kəsb edən amillərdəndir və bütün bunların nəzərə alınması yaxın perspektivdə Şuşa şəhərinin dirçəldilməsində, onun inkişaf elementlərindən "ağıllı" texnologiyalar hesabına daha səmərəli istifadə edilməsində, şəhər təsərrüfatı quruculuğunun və infrastruktur şəbəkəsinin yaradılması proseslərinin intensivləşdirilməsində, Böyük Qayıdışın sürətləndirilməsində önəmli funksiyaları yerinə yetirəcəkdir və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Алиев, Ш.Т., Меликова, Л.А. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий/ IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков».– Россия, г. Москва, 28 марта 2022 года - С.277-286.

2. Алиев, Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура на основе коцепций устойчивого и инклюзивного развития. The scientific heritage, № 82 (2022), c.19-33.

3. Гасымлы, В.А. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В. Гасымлы // Интерактивная наука. – 2022. – № 3(68). – С. 69-70.

4. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022. – с.148-155. - https://www.elibrary.ru/item.asp?id=48808624.

5. Fikrətzadə, F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfati sahəsinin bərpasi istiqamətləri və istehsal

göstəricilərinin proqnozlaşdirilmasi// Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34) – s. 23-37.

6. Quliyev, E.A. Aqrar iqtisadiyyat. Bakı, 2015, "Kooperasiya" nəşriyyatı, 320 s.
7. Ataşov, B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri, "Elm", Bakı, 2005, 336 s.
8. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı./ – Bakı şəhəri, 19 aprel 2021-ci il.
9. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. "Geostrategiya" jurnalı, – sentyabr, 2021. №4(64), – s.67-72
10. Jabbarov, A., Abbasova, S., Tanrıverdi, H. Erməni işğalı sonrası Qarabağda turizmin inkişafı məsələləri. Uluslararası Turizm, İşletme, Ekonomi Dergisi 2020, cilt 4(2), ss. 33-44. https://www.ijtebs.org/index.php/ijtebs/article/view/486/413.
11. Əliyev, Ş.T. Ağdam və Füzuli rayonlarında postkonflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti. "Geostrategiya" jurnalı, 2022. №4(70), – s.89-93.
12. Mammadov, A., Ahmadzada, N. Ways of increasing investment attractiveness of the Karabakh economic region. "Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında investisiyaların rolu" mövzusunda IV İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların Beynəlxalq elmi konfransı, İSCEMR, 2022, s.107-120.
13. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.

**Зумруд Джумшуд гызы НАСИБОВА**
Диссертант Азербайджанского Университета Кооперации
E-mail: *nasibova.zumrud22@gmail.com*

# ПУТИ РАЗВИТИЯ КАРАБАХСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА НА ОСНОВЕ «УМНЫХ» ТЕХНОЛОГИЙ

**Резюме**

Цель исследования - определить пути развития Карабахского экономического района на основе «умных» технологий. Для этого были исследованы основные направления развития и процессов активизации Карабахского экономического района. Приведены основные преимущества основанных на «умных» технологиях разработок и подходов, связанных с применением современных технологий. Подчеркнуты основные элементы проделанной работы в связи с использованием смарт-технологий в работах по восстановлению Карабаха. Обоснована важность более широкого применения современных технологий в ускорении восстановительных процессов освобожденных территорий. Даны рекомендации и предложения по ускорению развития Карабахского экономического района на основе «умных» технологий в современном периоде.

Метод исследования - использовались преимущественно научные методы - диалектика, анализ, синтез, сравнение и обобщение. Помимо них, упоминались также научные работы исследователей, проводящих исследования по развитию Карабахского экономического района на основе смарт-технологий.

Результаты исследования - научно-практические результаты, полученные в статье, объясняются возможностями их использования при подготовке комплексных мероприятий по развитию Карабахского экономического района на основе «умных» технологий и в разработке стратегии действий.

**Ключевые слова:** Азербайджан, Карабах, Карабахский экономический район, «умные» технологии, проблемы применения «умных» технологий, цели возрождения Карабаха.

**Zumrud Jumshud NASİBOVA**
Dissertation of Azerbaijan University of Cooperation
E-mail: nasibova.zumrud22@gmail.com

# WAYS TO DEVELOP THE KARABAKH ECONOMIC REGION ON THE BASIS OF "SMART" TECHNOLOGIES

**Summary**

The purpose of the research is to determine the ways of development of the Karabakh economic region on the basis of "smart" technologies. For this, the main directions of development and processes of activation of the Karabakh economic region are investigated. The main advantages of developments and approaches based on "smart" technologies related to the use of modern technologies are given. The main elements of the work done in connection with the use of smart technologies in the restoration of Karabakh are emphasized. The importance of wider use of modern technologies in accelerating the restoration processes of liberated territories is justified. Recommendations and proposals to accelerate the development of the Karabakh economic region on the basis of "smart" technologies are given in the modern period.

Research methods - mainly scientific methods - dialectics, analysis, synthesis, comparison and generalization are used. In addition, the scientific works of researchers conducting research on the development of the Karabakh economic region based on smart technologies are also mentioned.

The results of the research - the scientific and practical results obtained in the article are explained by the possibilities of their use in the preparation of complex measures for the development of the Karabakh economic region on the basis of "smart" technologies and in the development of an action strategy.

**Key words:** Azerbaijan, Karabakh, Karabakh economic region, "smart" technologies, problems of "smart" technologies application, goals of Karabakh revival.

**Samir Xosrov oğlu ƏLƏSGƏROV**
Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun doktorantı,
E-mail: samir_alesgerov@mail.ru

# SƏNAYE İSTEHSALINDA VERGİLƏRİN TƏNZİMLƏNMƏSİ PROSESİNDƏ RİSKLƏRİN ÖLÇÜLMƏSİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi – sənaye istehsalında vergilərin tənzimlənməsi prosesində risklərin ölçülməsi məsələlərinin araşdırılmasından ibarətdir. Bu məqsədlə sənaye istehsalında vergilərin tənzimlənməsinin müasir problemləri açıqlanmış və onlarla bağlı adekvat tədbirlərin görülməsinin vacibliyi əsaslandırılmışdır. Sənaye istehsalında vergilərin mühüm rolundan yanaşmaqla, ortaya çıxa biləcək risklərin müəyyənləşdirilməsi, ölçülməsi və daha səmərəli idarə olunması problemləri baxılmışdır. Sənaye istehsalının səmərəliliyinin artırılması və xərclərin optimallaşdırılması baxımından, vergi yükünün adekvatlığının vacibliyinə diqqət yönəldilmişdir. Hazırki qlobal təhdidlərin artdığı bir şəraitdə sənaye istehsalında vergilərin rolunun tənzimlənməsi məsələlərində risklərin müəyyənləşdirilməsi və zərərlərin minimuma endirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər *verilmişdir.*

Tədqiqatın metodu – kimi dialektika, analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlardan istifadəyə üstünlük verilmişdir. Bundan əlavə, sənaye istehsalında vergilərin tənzimlənməsi prosesində risklərin ölçülməsi məsələləri üzrə araşdırmalar aparan tədqiqatçıların fikirlərinə də diqqət yetirilmişdir.

Tədqiqatın nəticələri – olaraq məqalədə əldə olunmuş elmi-praktiki fikirlərdən və yanaşmalardan sənaye istehsalında vergilərin tənzimlənməsi prosesində risklərin ölçülməsi məsələləri üzrə fəaliyyət strategiyasının hazırlanmasında və həyata keçirilməsində istifadə edilməsi ilə izah olunur.

**Açar sözlər:** sənaye istehsalı, vergilər, vergilərin tənzimlənməsi, risklər, risklərin ölçülməsi məsələləri, risklərin idarə edilməsi.

UOT: 336.02: 336.027
JEL: L60; H21; H71

## Giriş

Dünya iqtisadiyyatı hazırda böyük bir sınaq qarşısındadır. COVID-19 virusunun nəticələri istənilən bütün ölkələrdə olduğu kimi Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərmişdir. Belə bir şəraitdə Azərbaycanın qarşısında yeni vəzifələr ön plana çıxmışdır. Bu, mahiyyət etibarı ilə daxili tələbatı daha dolğun şəkildə ödəmək, idxaldan asılılığı azaltmaq və ixrac potensialının artırmaq, milli valyutanın sabitliyinə nail olmaq və əhalinin həyat səviyyəsini yaxşılaşdırmaqdır. Bu vəzifələrin uğurla icrası milli sənayenin optimal sahə strukturuna və ərazi təşkilinə əsaslanır. Bunun üçün iqtisadiyyatda və sənayedə struktur dəyişikliklərinin səmərəliliyini artırmaq lazımdır. Sənaye müəssisələri öz fəaliyyətlərini əsasən yerli xammal hesabına inkişaf etməlidirlər. Bu baxımdan emal sənayesinin perspektivləri daha genişdir. Bu sahəyə daha az sərmayə qoyaraq daha çox gəlir əldə etmək olar. Emal sənayesinin inkişafı isə öz növbəsində digər sahələrin inkişafına kömək edər. Bütün bu işlərin müvəffəqiyyətli həlli vergilərin tənzimlənməsi səviyyəsindən xeyli dərəcədə asılıdır [1, s.515].

Ümumilikdə vergilər, milli iqtisadiyyatın inkişaf tempinin sürətləndirilməsində, işgüzar fəallığın artırılmasında, sənaye istehsalının fəaliyyətinin stimullaşdırılmasında, ölkədə səmərəli biznes və investisiya mühitinin formalaşdırılmasında mühüm alətlərdən biridir. Vergilərin səmərəliliyi iqtisadiyyatın dinamikasına təsir göstərməklə həm xarici investorların ölkəyə fəal daxil olmasına, həm də yüksək texnologiyaların tətbiqinə əlverişli şərait yaradır [2, s.149].

## Sənaye məhsulu istehsalı proseslərində vergilərlə bağlı risklərin ölçülməsi məsələlərinin təhlili

Ölkədə sənaye istehsalının şaxələndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması üçün sənye istehsalında özəl sektorun rolunun artırılması və bu sahədə emala gedən xammalın payının genişləndirilməsi məsələlərinə hərtərəfli

və strateji yanaşmalar təmin edilməli, bu istiqamətdə konkret addımlar atılmalı, potensial yerli və xarici investorlar sənaye daha fəal cəlb edilməlidir [3, s.68]. Bütün bu məsələlərin müvəffəqiyyətlə həlli sənaye istehsalında vergilərin tənzimləyici təsirinin artırılması vasitəsilə mümkündür.

Vergi tənzimlənməsinin mahiyyəti və məqsədi onun tənzimləyici funksiyası ilə müəyyən edilir ki, bu da fiskal funksiyadan fərqli olaraq iqtisadiyyatın və onun müəssisələrinin ayrı-ayrı fəaliyyət sahələrinin inkişafını stimullaşdırmaq və ya məhdudlaşdırmaq üçün nəzərdə tutulmuşdur. İqtisadiyyat sahələrinin inkişaf səviyyəsi və bütövlükdə dövlətin iqtisadi vəziyyəti vergi tənzimlənməsinin seçilmiş üsullarından və onların riayət etməli olduğu vergi siyasətinin məqsədlərindən asılıdır. Vergi tənzimlənməsinin ən çox yayılmış üsulları aşağıdakılardır: vergi tətilləri; vergi inzibatçılığı; verginin möhlətlə və hissə-hissə ödənilməsi; ikiqat vergitutmanın aradan qaldırılmasına dair dövlətlər arasında sazişlərin bağlanması. Hazırda sənaye istehsalının fəaliyyətinin səmərəliliyinin təmin olunmasında vergi tənzimlənməsi xüsusi rola malikdir. Sənaye istehsalında vergilərin tənzimlənməsində əsas məsələ risklərin ölçülməsidir. İstənilən iqtisadi sistemin səmərəliliyinin zəruri şərti iqtisadi azadlıqdır ki, bu da iqtisadi agentin ona muxtar, müstəqil qərar qəbul etməsinə zəmanət verən müəyyən hüquqlar toplusuna malik olmasını nəzərdə tutur. Lakin iqtisadi azadlıq qeyri-müəyyənlik və risk mənbəyidir, çünki bir iqtisadi agentin azadlığı eyni zamanda digər belə agentlərin azadlığı ilə müşayiət olunur [4, s.137].

Azərbaycanın müəssisələrinin əksəriyyəti müstəqil təsərrüfat subyektləridir ki, bu da bir tərəfdən öz strategiyasını müəyyənləşdirmək imkanı deməkdir, digər tərəfdən isə dövlətin qəzalar, təbii fəlakətlər və digər çətinliklər zamanı onlara dəstək vermək öhdəliyi yoxdur. Sənaye istehsalı, hər hansı bir fəaliyyət sahəsi kimi, daha çox risk şəraitində həyata keçirilir, ona görə də onun idarə edilməsinin əhəmiyyətini ölçmək çətindir. Sənaye istehsalı müəssisələri qeyri-sabitlik və qeyri-müəyyənlik şəraitində öz risklərin ölçülməsi sistemini inkişaf etdirməyə marağı getdikcə artır. Risklərin ölçülməsinin əhəmiyyətli üstünlüyü sənaye müəssisələrində risklərin müəyyənləşdirilməsi və azaldılması tədbirlərinin sistematik şəkildə tətbiq edilməsidir. Qeyri-müəyyənliklərin və təhlükələrin təhlili və qiymətləndirilməsi əsasında məsuliyyətli risk menecerləri müəssisə proseslərinin davamlılığını və onun rəqabət üstünlüklərinin artımını təmin etməyə kömək edən effektiv əlaqələndirmə qərarları formalaşdırırlar. Görülən tədbirlərin nəticəsi istehlakçıların və sənaye müəssisəsinin digər maraqlı tərəflərinin razılığıdır. Sənaye müəssisələrinin idarə edilməsində risklərin idarə edilməsi sisteminin formalaşdırılması, həmin müəssisələrin proqnozlaşdırıla bilən risklərə həssaslığını azaltmaqla yanaşı, onların mənfi təsiri nəticəsində yaranan itkiləri minimuma endirməyə imkan verir. İtkiləri minimuma endirməyə yönəlmiş tədbirlərin həyata keçirilməsində müəssisələr öz fəaliyyəti üçün sabit şəraitin formalaşmasına kömək edən proses yanaşmasına riayət etməlidir.

Müasir elmi ədəbiyyatda "risk" və "qeyri-müəyyənlik" anlayışlarının aydınlaşdırılmasına kömək edən risklərin idarə edilməsi problemi ilə bağlı müxtəlif fikirlər təqdim olunur. Məsələn, risk baş verə bilən və ya baş verə bilməyən təhlükəli proseslərlə əlaqəli hadisə, hərəkət və ya mənfi nəticənin baş verme ehtimalıdır. Risk gələcək nəticəsi bilinməyən hər hansı bir vəziyyət kimi xarakterizə olunur. Risk hər yerdə mövcuddur və onun olmadığı bir vəziyyəti təsəvvür etmək qeyri-mümkündür [5, s.5]. Risk, məqsədlərə çatmaqda qeyri-müəyyənliyin təsirinin nəticəsi kimi başa düşülür. Standart hadisəni, onun nəticələrini və ehtimallarını başa düşmək üçün zəruri olan məlumatın tam və ya qismən olmaması vəziyyətini ifadə edən qeyri-müəyyənlik anlayışıdır. Müasir şəraitdə müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin tərkib hissəsi olan qeyri-müəyyənlik onun həm texnoloji proseslərinə, həm də maliyyə nəticələrinə təsir göstərir. Qeyri-müəyyənliklərin azaldılması ilə bağlı qərarlar qəbul edilərkən nəzərə almaq lazımdır ki, onlar sosial-iqtisadi sistemdə və xarici mühitdə mümkün tendensiyalar haqqında kifayət qədər, mövcud olmayan və ya etibarsız məlumatlar səbəbindən hadisə və ya layihənin nəticələrinə təsir edir. Beləliklə, sənaye müəssisəsinin inkişafı strategiyasını formalaşdırarkən rəhbərlik müəssisədə risklərin idarə edilməsi əsasında fəaliyyətinin mənfi nəticələrinin baş verməsinin azaldılmasına yönəlmiş tədbirləri görməlidir. Təhdidlərin müəyyənləşdirilməsi mərhələsində layihənin və ya bütövlükdə müəssisənin fəaliyyət

risklərinin idarə edilməsinə cavabdeh olan şəxslərə aşağıdakılar həvalə olunur: müəssisənin fəaliyyət göstərdiyi mühiti sistemli şəkildə təhlil etmək; keçmiş layihə risklərinin tədqiqini aparmaq, bu layihələrdə zərərin azaldılması üsullarını öyrənmək; risklərin müəyyənləşdirilməsi metodlarından istifadə etməklə risk və qeyri-müəyyənlikləri aydınlaşdırmaq [6, s.1428].

Risklərin müəyyənləşdirilməsi mərhələsində risklərin idarə edilməsi zamanı n müəyyən metodlardan istifadə etməklə həm xarici (birbaşa və dolayı təsir), həm də daxili istehsal amillərini nəzərə almaq, potensial və real riskləri təyin etmək lazımdır. Risk amillərinin müəyyənləşdirilməsi və identifikasiyası müəssisənin maliyyə təhlükəsizliyinin təmin edilməsində əsas şərtdir. Xarici mənbələrdən inteqrasiya olunmuş məlumatlar kifayət qədər müxtəlifdir və bunlara daxildir: rəsmi statistika; elmi tədqiqatların nəticələri; rəqiblər, təchizatçılar və istehlakçılar haqqında məlumat və s. Daxili məlumatlar təşkilatın fəaliyyəti zamanı formalaşır. Daxili məlumatların strukturunda müəssisələrin maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında məlumat ən böyük əhəmiyyət kəsb edir, onların əsas mənbələri bunlardır: tənzimləyici və planlaşdırma məlumatları, maliyyə hesabatları, müəssisənin maliyyə nəticəsi haqqında statistik hesabatlar və s.

Hazırda vergi riski termini tez-tez istifadə olunur. "Vergi riski" termini ölkəmizin mövcud vergi qanunvericiliyində müəyyən edilmişdir. Elmi ədəbiyyatda bu anlayışa tez-tez rast gəlinir və onların təsnifatı, baş vermə amilləri, risk səviyyəsinin azaldılması tədbirləri və yolları nəzərdən keçirilir. İqtisadi ədəbiyyatda həm dövlət, həm də vergi ödəyiciləri baxımından nəzərdən keçirilən "vergi riski" termininin müxtəlif şərhləri mövcuddur.

**Azərbaycanda sənaye istehsalında vergilərin tənzimlənməsi tədbirlərində risklərin ölçülməsinin təkmilləşdirilməsi istiqamətləri**

Azərbaycanın Vergi Məcəlləsinin 13.2.47 maddəsində vergi riskləri, vergilər üzrə öhdəliklərin düzgün müəyyənləşdirilməməsi səbəbindən vergi ödəyicilərinin maliyyə itkisinə məruz qala bilməsinin mümkünlüyü kimi qeyd olunur [7]. "Vergi riskləri" anlayışı vergi hüquq münasibətləri iştirakçılarının müxtəlif mövqelərindən, dövlət, vergi ödəyicisi, vergi agentləri baxımından nəzərdən keçirilir.

Vergi riskləri vergi hüquq münasibətlərinin bütün iştirakçılarına xasdır və müvafiq olaraq hər bir subyekt üçün nəzərə alınmalıdır. Dövlət vergitutma sahəsində qərarların qəbulu zamanı istər ölkənin vergi sisteminin formalaşdırılması üzrə qanunvericilik fəaliyyətinin həyata keçirilməsi, vergi münasibətləri iştirakçılarının hüquq və vəzifələrinin müəyyənləşdirilməsi, istərsə də vergi nəzarətinin tətbiqi zamanı vergi riskləri ilə üzləşir. Vergi sahəsi üzrə tədqiqatçılar öz araşdırmaları çərçivəsində vergi risklərini digər risk növlərindən fərqləndirən spesifik xüsusiyyətlərini vurğulayırlar. Beləlilə, vergi riskləri vergi ödəyicilərinin vergilərin minimuma endirilməsi üsullarından istifadə etməsi nəticəsində büdcəyə və dövlət büdcədənkənar fondlarına vergilərin öz ödənilməməsi və ya ödənilməməsi təhlükəsidir [8, s.84].

Vergi risklərinin baş vermə səbəbləri müxtəlifdir, bunlardan başlıcası vergi ödəyicisi və dövlət nöqteyi-nəzərindən vergi riskləri konsepsiyasının məzmununda ziddiyyətlər, habelə normativ hüquqi aktlar arasındakı uyğunsuzluqlardır. Vergi risklərinin yaranmasının obyektiv səbəbi vergilərin fiskal və tənzimləyici funksiyalarına xas olan dialektik ziddiyyətdir. Ziddiyyət aşağıdakı kimidir. Bir tərəfdən dövlət ölkə büdcəsinə vəsaitin maksimum və tam axınında maraqlıdır. Digər tərəfdən, vergi ödəyiciləri vergi köçürmələrini optimallaşdırmağa (minimumlaşdırmağa) çalışırlar. Beləliklə, vergi risklərinin müxtəlif səbəbləri var. Vergi hüquq münasibətlərinin bütün subyektləri üçün ümumi xarakter daşıyan aşağıdakı səbəbləri ayırmaq olar: vergi və mülki qanunvericiliyin asimmetriyası; ölkə qanunvericiliyində edilən dəyişikliklər (o cümlədən ölkənin iqtisadi və vergi siyasətinin tənzimlənməsi məqsədilə); vergi qanunvericiliyinin normalarının mükəmməl olmaması; iqtisadi idarəetmə və planlaşdırmada səhvlər; vergi hüquq münasibətlərinin digər subyektlərinin və ya səlahiyyətli hakimiyyət və idarəetmə orqanlarının qeyri-qanuni hərəkətləri; vergi orqanları işçilərinin bacarıqsızlığı.

Vergi riskinin iki növü var: spekulyativ və təmiz. Spekulyativ vergi riski ya həddindən artıq vergi ödəmələrinin mümkünlüyü, ya da vergi sisteminin tətbiqi üçün seçilmiş variantla müqayisədə büdcəyə ödənişlərə qənaət ilə əlaqələndirilir. Bu növ riskin baş verməsi vergi qanunvericiliyinin vəziyyətindən çox asılıdır. Xalis vergi riski tənzimləyici orqanlar tərəfindən

cərimələrin hesablanması ehtimalı ilə əlaqədar yaranır ki, bu da öz növbəsində müəssisənin müflisləşməsinə səbəb ola bilər. Nəticələrin növünə görə vergi riskləri üç növə bölünür: 1) vergi nəzarəti riskləri; 2) vergi yükünün artması riskləri; 3) cinayət təqibi ilə bağlı risklər. Birinci növ vergi riskinin baş verməsi mühasibat və vergi uçotunun vəziyyətindən, habelə vergi ödəyicisinin vergilərin minimuma endirilməsi ilə bağlı fəaliyyət dərəcəsindən asılıdır. Vergi ödəyicisinin vergiləri minimuma endirmək üçün qanuni üsullardan istifadə etməsi bu risk növünü sıfıra endirir. İkinci risk növü vergi qanunvericiliyində dəyişikliklərdən asılıdır. Yeni vergi növlərinin tətbiqi, mövcud vergilərin dərəcələrinin artırılması, vergi güzəştlərinin ləğvi vergi yükünün artmasına səbəb olur. Həddindən artıq vergi yükü büdcəyə daxil olan gəlirlərin azalmasına, təşkilatların fəaliyyətinin dayandırılmasına səbəb olur. Kobud vergidən yayınma halında cinayət təqibi ilə bağlı risklər yaranır.

Vergi risklərini minimuma endirmək və aradan qaldırmaq məqsədilə onları idarə etməyin müxtəlif üsullarından istifadə olunur. İqtisadiyyatda bu fəaliyyət sahəsinin özünəməxsus xüsusiyyətləri var, bu da ondan ibarətdir ki, vergi risklərini uğurla idarə etmək (mənfi hadisələr zamanı zərərin azaldılması və ya kompensasiyası) üçün təkcə vergi sahəsində deyil, həm də mülki biliklərə yiyələnmək lazımdır [9]. Vergi riskinin idarə edilməsi xoşagəlməz hadisələrin başlanmasını proqnozlaşdırmağa, habelə belə hadisələrin mənfi nəticələrini aradan qaldırmaq və ya azaltmaq üçün tədbirlər görməyə imkan verən üsul və tədbirlərin məcmusu kimi xarakterizə edilə bilər. Bununla belə, effektiv idarəetmə üçün vergi risklərinin səbəblərini müəyyənləşdirmək lazımdır.

Vergi riskinin dərəcəsini azaltmaq, yəni itkilərin ehtimalını və həcmini azaltmaq üçün müəssisələr əməliyyatlarını təhlil etməli, ölkə qanunvericiliyinə uyğunluğunu qiymətləndirməli, vergi səhvlərinin aşkara çıxarılması və düzəldilməsi prosesini daim izləməli, həmçinin mümkün mənfi cəhətləri minimuma endirməlidirlər. Vergi riskinin idarə edilməsi çoxmərhələli prosesdir. Vergi risklərinin idarə edilməsi prosesi aşağıdakı addımları əhatə edir: vergi risklərinin müəyyənləşdirilməsi, vergi risklərinin qiymətləndirilməsi, vergi risklərinə cavab tədbirlərinin hazırlanması və vergi risklərinin aradan qaldırılması üzrə tədbirlərin görülməsinə nəzarət. Beləliklə, vergi riskinin idarə edilməsi müəssisənin üzləşə biləcəyi vergi risklərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi ilə başlayır. Sonra alternativlərin axtarışı və vergi risklərinə cavab vermək və ya onları azaltmaq üçün tədbirlər görülür. Risklərin idarə edilməsi prosesinin son mərhələsi görülmüş tədbirlərin effektivliyinin qiymətləndirilməsi və onların reallaşdırılmasına nəzarət edilməsidir. Nəticə etibarilə, vergi riskinin idarə edilməsi vergitutma prosesi ilə bağlı risklərin baş verməsini proqnozlaşdırmağa, mənfi maliyyə hadisələrinin mənfi nəticələrini aradan qaldırmağa və ya azaltmağa imkan verən metodlar, üsullar və tədbirlərin məcmusudur. Vergi risklərinin azaldılması üsullarına aşağıdakılar daxildir: maliyyə xidmətləri işçilərinin peşəkarlığının artırılması; vergi qanunvericiliyində dəyişikliklərin izlənməsi; qanunvericilikdə edilən dəyişikliklərə uyğun olaraq proqram təminatının yenilənməsi; vergi xətalarının monitorinqi, onların müəyyənləşdirilməsi və vaxtında düzəldilməsi; müəssisələrin struktur bölmələri səviyyəsində bütün nəzarət prosedurlarının həyata keçirilməsi (vergilərin hesablanması və ödənilməsi qaydasını tənzimləyən daxili sənədlərin hazırlanması və onların icrasına nəzarət) [10, s.83].

Vergidən yayınma və potensial cərimələrlə bağlı riskləri artırmaqla və yaxşı korporativ idarəetmə mədəniyyətini saxlamaqla sənaye istehsalı sahələrini qeyri-qanuni fəaliyyətlərdən çəkindirmək olar. Bununla belə, aydındır ki, zəif vergi siyasəti və vergi tənzimlənməsi alətləri sənaye istehsalı müəssisələrini həvəsdən salır və xərclərini artırır, onlar üçün risk və qeyri-müəyyənlik yaradır və rəqabət qabiliyyətini zəiflətməklə inkişaflarına mane olur. Bu baxımdan inkişaf yönümlü vergi tənzimlənməsi təkcə vergi yığımını maksimum dərəcədə artırmamalı, həm də sənaye istehsalı müəssisələri üçün əlverişli biznes mühitini saxlamalıdır [11, s.41]. Vergi risklərinin ölçülməsi mexanizmi bir sıra təsir tədbirləri və təşkilatın fəaliyyət məqsədlərinə çatmağa yönəlmiş müxtəlif aspektlərinin qiymətləndirilməsi vasitələrini əhatə edir. Artan rəqabət şəraitində təşkilatlar taktiki və strateji səviyyədə innovativ inkişafı təmin etmək və maliyyə potensialını gücləndirmək üçün satılan məhsulların çeşidini genişləndirmək, riskləri minimuma endirmək üçün yeni imkanlar

axtarmalı olurlar. Vergi risklərinin ölçülməsinin səmərəli təşkil olunmuş mexanizmi vergi hesabatlarının keyfiyyətinə və etibarlılığına zəmanət verir, vergi risklərinin qarşısının alınmasına kömək edir. Bununla əlaqədar olaraq, daxili vergi nəzarəti prosedurlarının təşkili və tətbiqində bölmələrin və ayrı-ayrı mütəxəssislərin fəaliyyətini tənzimləyən şirkətdaxili mövcud standartların (təlimatların, əsasnamələrin) hazırlanmasına və tənzimlənməsinə ehtiyac var. Vergi risklərinin ölçülməsi mexanizmini formalaşdırarkən vergi risklərinin idarə edilməsi prinsiplərinə riayət etmək lazımdır, o cümlədən: vergi risklərinin ölçülməsi üçün vahid meyarlar sisteminin formalaşdırılması; korporativ nəzarətin ümumi sisteminə daxili vergi nəzarətinin tətbiqi; vergi uçotu orqanlarının struktur tabeçiliyinin müəyyənləşdirilməsi; vergi risklərinin idarə olunması üzrə sistemli hesabatların aparılması. Vergi riskləri ilə bağlı məqsədə nail olmaq üçün aşağıdakıları təmin etmək lazımdır: risklərin identifikasiya; risklərin qiymətləndirilməsi; daxili nəzarətin təşkili; vergi risklərinin idarə edilməsinin səmərəliliyinin təmin edilməsi.

Ümumiyyətlə, vergi riskinin ölçülməsinin mahiyyəti vergi pozuntularının vaxtında aşkar edilməsinə yönəlmiş effektiv metod və tədbirlərin görülməsindən və reallaşdırılmasından ibarətdir. Müasir uçot və vergi sisteminin artan riskləri şəraitində yeni mexanizmlərin axtarışına, vergi uçotunun və daxili vergi nəzarətinin mövcud müasir konsepsiyalarının hazırlanmasına və yaradılmasına, riskə əsaslanan yanaşmanın tətbiqinə ehtiyac var. Risklərin idarə edilməsi müasir müəssisələrin, o cümlədən sənaye istehsalının davamlı inkişafı üçün əsas şərtlərdən biridir [12]. Vergi risklərinin strukturlaşdırılması vergi monitorinqinin əsasını və onun effektivliyinin müəyyənedici amilini təşkil edir. Vergi idarəsi bir sıra təşkilati və metodiki vəzifələrin həllini təmin etməlidir: vergi risklərinin müəyyənləşdirilməsi və idarə edilməsi; davam edən dəyişikliklərin əhəmiyyətinin və vergi risklərinin yenilənməsi ehtiyacının qiymətləndirilməsi; iddia edilən risklər üzrə məlumatların və təkliflərin müvafiq nəticələrin verilməsi ilə qiymətləndirilməsi; risklərin vəziyyətinin monitorinqi və nəzarəti; şöbə müdirini məlumatlandırmaq, risklər haqqında məlumatların yenilənməsi üçün təkliflər hazırlamaq və risklərə cavab tədbirləri ilə bağlı qərarlar qəbul etmək; risklərin idarə edilməsi üzrə konsolidə edilmiş dövri hesabatların, o cümlədən risk hesabatlarının formalaşdırılması [13, s.18].

**Nəticə**

Bundan əlavə, vergi risklərini müəyyənləşdirdikdən sonra sənaye istehsalı müəssisələri onları minimuma endirmək üçün bir sıra qərarlar qəbul etməlidirlər. Bu məqsədlə vergi risklərinin qiymətləndirilməsi üçün xüsusi mexanizm yaradılır. Vergi riskinin ölçülməsi mexanizminin etibarlılığının yüksəldilməsi məqsədilə sənaye istehsalının miqyası və təşkilati strukturu, onun fəaliyyət dairəsi, ödənilmiş vergilərin siyahısı və s. nəzərə alınmaqla effektiv nəzarət tədbirləri hazırlanmalı, vergilərin ödənilməsi faktları obyektiv şəkildə müəyyənləşdirilməlidir. Vergi risklərinin ölçülməsi mexanizminin istifadəsi aşağıdakılara imkan verəcək:

– uçot və vergi proseslərinin səmərəliliyini artırmağa;

– informasiya boşluqlarının aradan qaldırılmasına;

– vergi məlumatlarının operativ və keyfiyyətli təqdim edilməsinin təmin edilməsinə;

– vergi risklərinin minimuma endirilməsinə və bu proseslərin idarə olunmasının təkmilləşdirilməsinə.

Beləliklə, vergi risklərinin ölçülməsi mexanizmi, o cümlədən məsul işçilər tərəfindən həyata keçirilən nəzarət prosedurlarının tətbiq edilməsi vergilərin hesablanması və ödənilməsinin düzgünlüyünü və tamlığını vaxtında və effektiv şəkildə yoxlamağa, kontragentlər və dövlət qurumları ilə münaqişələrin qarşısını almağa kömək edəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Quliyev, İ.Q., Quluzadə, G.İ. Milli sənayenin sahə quruluşu və onun restrukturizasiyası imkanları. "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" Beynəlxalq Elmi Konfransın materialları (8-9 iyul 2020-ci il). Sumqayıt Dövlət Universiteti, 2020. – s.514-517.

2. Əliyev, Ş.T. Xüsusi iqtisadi zonalarda vergilərin mühüm aspektləri. Azərbaycanın vergi jurnalı, №2, Bakı, 2014, s. 149-160.

3. Əliyev, Ş.T. Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialinin artırılması istiqamətləri. "Audit" jurnalı, № 04, 2019, s.61-73.

4. Фадеева, Е.А. Классификация и проблемы оценки рисков промышленного предприятия на примере производственных компаний / Е.А.Фадеева, К.А.Родина // Бизнес. Образование. Право. – 2018. – № 1(42). – С. 136-140.

5. Баганов, В.Ю. Измерение риска / В.Ю.Баганов // Активизация интеллектуального и ресурсного потенциала регионов: новые вызовы для менеджмента компаний: материалы Всероссийской конференции, Иркутск, 19 марта 2015. – С. 5-12.

6. Дебердиева, Н.П. Идентификация рисков промышленных предприятий в концепции риск-менеджмента / Н.П. Дебердиева, А.В.Воронин // Экономика, предпринимательство и право. – 2020. – Т. 10. – № 5. – С. 1425-1438.

7. Azərbaycanın Vergi Məcəlləsi. https://www.e-qanun.az/framework/46948.

8. Печникова, А.Г. Налоговые риски: понятие и методы управления / А.Г.Печникова, Э.О. Козлова // Генезис экономических и социальных проблем субъектов рыночного хозяйства в России. – 2019. – № 13. – С. 81-83.

9. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, – 376 s.

10. Печникова, А.Г. Налоговые риски: понятие и методы управления / А.Г.Печникова, Э.О.Козлова // Генезис экономических и социальных проблем субъектов рыночного хозяйства в России. – 2019. – № 13. – С. 81-83.

11. Rzayev, P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Monoqrafiya. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2013. – 392 s.

12. Алиев, Ш.Т., Гаибова, А.М. Современные проблемы повышения прозрачности налоговой системы Азербайджана// The priorities of the world science: experiments and scientific debate: Proceedings of the XVIII International scientific conference – North Charleston, SC, USA: CreateSpace, 2018.-25-26 July 2018.- P. 60-67. 117 p.- http://otkritieinfo.ru/d/669057/d/sbornik_prioritety_18.pdf.

13. Остапенко, А.И. Формирование механизма оценки налоговых рисков организаций молочно-перерабатывающей промышленности / А.И.Остапенко, О.С.Тюнина // Сибирская финансовая школа. – 2018. – № 1(126). – С. 16-19.

**Самир Хосров оглу АЛЕСКЕРОВ**
докторант Института Экономики
Министерство Науки и Образования .
E-mail: samir_alesgerov@mail.ru

## ВОПРОСЫ ИЗМЕРЕНИЯ РИСКОВ В ПРОЦЕССЕ РЕГУЛИРОВАНИЯ НАЛОГОВ В ПРОМЫШЛЕННОМ ПРОИЗВОДСТВЕ

### Резюме

*Цель исследования* - изучить вопросы измерения рисков в процессе регулирования налогов в промышленном производстве. Для этого были изложены современные проблемы налогового регулирования в промышленном производстве и обоснована важность принятия адекватных мер, связанных с ними. Исходя из роли налогов в промышленном производстве, рассмотрены проблемы нахождения, измерения и более эффективного управления рисками, которые могут возникнуть. В условиях повышения эффективности промышленного производства и оптимизации затрат акцентировано внимание на важности адекватного распределения налоговой нагрузки. В сложившейся ситуации нарастания глобальных угроз даны рекомендации и внесены предложения по выявлению рисков и минимизации убытков в вопросах регулирования роли налогов в промышленном производстве.

*Метод исследования* – использовались такие методы как диалектика, анализ, синтез, сравнение и обобщение. Кроме того, внимание было уделено мнениям исследователей, проводящих

исследования по вопросам измерения рисков в процессе налогового регулирования в промышленном производстве.

*Результаты исследования* объясняются использованием полученных в статье научно-практических результатов и подходов при подготовке и реализации стратегии действий по вопросам измерения рисков в процессе регулирования налогов в промышленном производстве.

***Ключевые слова:*** промышленное производство, налоги, налоговое регулирование, риски, вопросы измерения рисков, управление рисками.

**Samir Khosrov ALESKEROV**
doctoral student of the Institute of Economics of the Ministry of Science and Education
E-mail: samir_alesgerov@mail.ru

## PROBLEMS OF RISK MEASUREMENT IN THE PROCESS OF TAX REGULATION IN INDUSTRIAL PRODUCTION

**Summary**

The purpose of the research is to study the issues of measuring risks in the process of regulating taxes in industrial production. For this, modern problems of tax regulation in industrial production are analysed and the importance of taking adequate measures related to them is justified. Based on the role of taxes in industrial production, there are considered the problems of finding, measuring and better managing the risks that may arise. In the context of increasing the efficiency of industrial production and cost optimization, attention is paid to the importance of adequate distribution of the tax burden. In the current situation of increasing global threats, recommendations and proposals to identify risks and minimize losses in matters of regulating the role of taxes in industrial production are given in the end of the article.

Research methods - methods such as dialectics, analysis, synthesis, comparison and generalization are used. In addition, attention is paid to the opinions of researchers conducting research on measuring risks in the process of tax regulation in industrial production.

The results of the research are explained by the use of the scientific and practical results and approaches obtained in the article in the preparation and implementation of an action strategy for measuring risks in the process of regulating taxes in industrial production.

**Keywords**: industrial production, taxes, tax regulation, risks, risk measurement issues, risk management.

**Gəray Aydın oğlu ƏLİYEV**
Sumqayıt Dövlət Universitetinin doktorantı
E-mail: gerayaliyev1907@gmail.com

# REAL İQTİSADİYYATIN İNKİŞAF ETDİRİLMƏSİNDƏ KREDİTLƏŞDİRMƏ MEXANİZMİNİN STRATEJİ ASPEKTLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* – real iqtisadiyyatın inkişaf etdirilməsində kreditləşdirmə mexanizminin strateji aspektlərinin tədqiqidir. Bu məqsədlə real iqtisadiyyatın inkişaf etdirilməsi problemləri açıqlanmışdır. Kreditləşmə mexanizminin mürəkkəbliyi diqqətə çatdırılmış və onun real iqtisadiyyatın inkişafında əsas funksiyaları ümumiləşdirilmişdir. Bank-kredit təşkilatları ilə real iqtisadiyyat subyektləri arasında əməkdaşlığının gücləndirilməsinin vacibliyi əsaslandırılmışdır. Əlçatan kredit resurslarının formalaşdırılması və kredit xidmətləri paketinin hazırlanması zərurəti bildirilmişdir. Müasir şəraitdə real iqtisadiyyatın inkişaf etdirilməsində kreditləşdirmə mexanizminin təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

*Tədqiqatın metodu* – kimi əsasən təhlil, sintez, müqayisə və ümumiləşdirmə kimi elmi metodlardan istifadə olunmuşdur. Bundan əlavə, real iqtisadiyyatın kreditləşdirilməsi problemlərinə həsr olunmuş elmi əsərlərdə verilmiş müddəalara da yer ayrılmışdır və istinadlar verilmişdir.

*Tədqiqatın nəticələri* – praktiki fəaliyyət proseslərində real iqtisadiyyat sahələrinin tələblərinə uyğun kreditləşdirmə mexanizminin hazırlanmasında burada əks olunmuş nəticələrdən istifadə imkanları ilə ifadə olunur.

***Açar sözləri:*** real iqtisadiyyat, kredit, kredit mexanizmi, real iqtisadiyyatın kreditləşdirmə problemləri, real iqtisadiyyatın inkişaf problemləri, bank-kredit müəssisələri.

**UOT:** 336.1:336.7:336.77
**JEL:** E44; F65; G21; G32; P34

## Giriş

Real iqtisadiyyatı maddi və qeyri-maddi əmtəələrin və xidmətlərin istehsal olunduğu sənaye sahələrinin məcmusu kimi başa düşmək olur. Real iqtisadiyyat əmtəə və xidmətlərin istehsalını, daxili bazarda tədarük və satışı təmin edir, şəxsi və sənaye istehlakı məqsədilə mallara tələb yaradır. Real iqtisadiyyat mürəkkəb sahə strukturuna malikdir ki, buraya sənaye, kənd və meşə təsərrüfatı, ovçuluq, balıqçılıq, nəqliyyat, turizm və istehsalla birbaşa əlaqəli olan və məhsulu istehlakçıya çatdıran bütün sənaye sahələri daxildir. Real iqtisadiyyat ölkədə iqtisadi artımın əsas mənbəyidir. İqtisadiyyatın maliyyə və real sektorlarının vəziyyəti və inkişaf tempi bir-biri ilə sıx bağlıdır. Müəssisələr maliyyə sektoruna resurs axınının güclü mənbəyidir. Müəssisələrin gəlirləri və mənfəətləri real sektorda dəyişirsə, bu, maliyyə sektoruna da ciddi təsir göstərir. İnkişaf etmiş, öz funksiyalarını tam yerinə yetirməyə qadir olan maliyyə sektoru real iqtisadiyyat subyektlərinin maliyyə təminatı və inkişaf səviyyəsinə birbaşa təsir göstərir.

Real iqtisadiyyatda müəssisələrin fəaliyyətinin maliyyələşdirilməsi aşağıdakılar hesabına reallaşdırıla bilər: 1. Müəssisənin öz vəsaiti. İstənilən müəssisənin maliyyə fəaliyyəti özünümaliyyələşdirmə prinsipinə əsaslanmalıdır, o zaman əldə edilən gəlirlər dövrün bütün xərclərini ödəməklə bərabər, genişləndirilmiş təkrar istehsalı təmin etmək üçün də kifayətdir. 2. Əvəzsiz olaraq alınan vəsaitlər. Bunlar adətən dövlət subsidiyalarıdır. 3. Borc vəsaitləri. Borc alınmış maliyyə mənbələrinin əsasını kommersiya banklarının sahibkarlıq subyektlərinə verdiyi kreditlər təşkil edir. Real iqtisadiyyatın rasional təşkil olunması, onun subyektlərinin nə dərəcədə səmərəli fəaliyyət göstərməsi müxtəlif amillərdən asılıdır. Real iqtisadiyyatın maliyyələşdirilməsinin keyfiyyət parametrlərinin dəyişdirilməsi, habelə ixracyönümlü neft sektorundan qeyri-neft sektorun kapital axınının təmin edilməsi iqtisadi inkişafın hazırkı

mərhələsinin əsas problemlərindəndir. Bu məsələlərin həlli böyük miqdarda milli və beynəlxalq maliyyə resursları tələb edir. Həmin resursları bank sektoru vasitəsilə toplamaq və yenidən bölüşdürmək lazımdır. Həmçinin ölkənin daxili resursları və ilk öncə, kommersiya banklarının maliyyə resursları səfərbər edilməlidir.

**Real iqtisadiyyat proseslərində kreditləşdirmə mexanizminin tədqiqi**

Real iqtisadiyyatda ən dinamik inkişaf edən sahələrdən biri kimi bank sektoru çıxış edir. Banklar maliyyə vasitəçiləri kimi də çıxış edirlər. Onlar bəzi təsərrüfat subyektlərinin müvəqqəti sərbəst pul ehtiyatlarını toplayır və onları müvəqqəti istifadə üçün başqa təsərrüfat subyektlərinə verirlər. Bank xidmətləri bazarında əsas fəaliyyət növləri depozit və kredit əməliyyatlarıdır. Kredit fəaliyyəti bank anlayışını formalaşdıran ən mühüm xüsusiyyətlərdən biridir. Ölkədə iqtisadi vəziyyətin hazırkı şəraitində bank kreditləşdirilməsi kommersiya bankları üçün əsas mənfəət mənbələrindən biridir. Bank təşkilatı olmadan maliyyə dövriyyəsini təsəvvür etmək mümkün deyil. Kommersiya bankları tərəfindən Mərkəzi Bankın hazırladığı pul-kredit siyasəti reallaşdırılır ki, bu, tədavüldə olan pul kütləsinin maliyyə sabitliyinin və normal iqtisadi artım tempinin qorunması məqsədlərinə uyğun olmasını təmin edir. Kommersiya banklarının resurslarından istifadənin ən mühüm və ənənəvi üsulu, eləcə də davamlı iqtisadi artımın dəstəklənməsi və dövlətin iqtisadi siyasətinin reallaşdırılmasının əsas üsullarından biri real iqtisadiyyatda təsərrüfat subyektlərinə kredit verilməsidir. Əksər tədqiqatçılar hesab edirlər ki, bank və iqtisadiyyatın real sektorlarının qarşılıqlı əlaqəsi kredit prosesi iştirakçılarının maraq və məqsədlərinin üst-üstə düşməsini təmin edir. Real sektor müəssisələri üçün bazar payını genişləndirmək və rəqabət qabiliyyətini artırmaq məqsədilə bank kreditləri lazımdır. Real iqtisadiyyatın bank kreditləşməsinin inkişafı onun artımına kömək edir və bu, şübhəsiz ki, məşğulluğa, məcmu tələbə və istehsala müsbət təsir göstərir. Real və bank sektoru arasında keyfiyyət əlaqəsi üçün bank sistemi üçün elə bir idarəetmə və tənzimləmə siyasətini hazırlamaq lazımdır ki, bu, konkret sənayenin bütün ehtiyaclarını nəzərə ala və onun davamlı inkişafını təmin edə bilsin.

Ümumiyyətlə, bank sektoru real iqtisadiyyatın prioritet sahələrinin inkişafına böyük töhfə verə bilər. Banklar əhalinin, təşkilatların, dövlətin vəsaitlərini toplayaraq onları sənaye, kənd təsərrüfatı, elmtutumlu qeyri-istehsal sahələrində innovativ texnologiyalar hazırlayan və tətbiq edən sahibkarlıq subyektlərinin kreditlərinə çevirə bilirlər. Beləliklə, banklar tərəfindən uzunmüddətli əsasda vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi üçün şərait yaradılması aktualdır [1, s.109]. Ölkədə maliyyə sabitliyinin təminatında və dövlətin maliyyə-kredit sistemində bankların rolu strateji səviyyədə qiymətləndirilməli, onların rəqabət qabiliyyətinin, praktiki fəaliyyət proseslərində geniş tətbiq olunan maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasına ciddi əhəmiyyət verilməlidir [2, s.28]. Bunlarla bərabər, hazırki dövrün tələblərinə cavab verə bilən müasir bank texnologiyalarının hazırlanmasına və fəal istifadəsinə üstünlük verilməli, yəni bank xidmətləri göstərilərkən keyfiyyət və rəqabətqabiliyyətlilik, müştəri məmnunluğu kimi elementlər prioritet olmalıdır. Müştərilərin bank xidmətlərindən tam məmnunluğunu təmin etmək məqsədilə həmin xidmətlər lazımi səviyyədə göstərilməli, infrastrukturlar yaradılmalı, vaxt itkisinə yol verilməməli, bank əməliyyatları operativ aparılmalı, müştərilər üçün geniş informasiya mənbələri yaradılmalı, məsləhət xidmətləri göstərilməlidir. Digər problem bank sistemi ilə maliyyə bazarlarının qarşılıqlı əlaqəsini müasir dövrün tələblərinə uyğunlaşdırmaqdır. Maliyyə-kredit bazarında rəqabət mühitinin şəffaflığına, sağlam münasibətlərin formalaşmasına, maliyyə və mühasibat hesabatlarının etibarlılığına, onların beynəlxalq standartlara uyğunluğuna diqqət yetirilməli, təkmilləşdirməyə ehtiyacı olan hər bir sahədə ardıcıl tədbirlər reallaşdırılmalı, bütövlükdə maliyyə bazarı iştirakçılarının fəaliyyətində maliyyə və bank mexanizmlərinin səmərəli istifadəsi təmin edilməlidir. Həmçinin, müasir dövrün çağırışları ilə maliyyə bazarı iştirakçılarının münasibətləri arasındakı ziddiyyətləri və problemləri nəzərdən qaçırmamaq lazımdır [3, s.53].

Ölkə iqtisadiyyatının keyfiyyət artımını gücləndirmək, real sektorun ümumi kreditləşmə

həcmlərinin artımını təmin etmək üçün bütün lazımi şəraitin yaradılması zəruridir ki, bu da artım mənbəyi kimi çıxış edəcək və iqtisadiyyatın digər sektorları üçün multiplikativ effekt yaradacaqdır [4]. Bank krediti iqtisadi münasibətlərin yaranması üçün əsasdır ki, onun vasitəsilə sahibkarlıq subyektlərinin, dövlətin və əhalinin müvəqqəti boş pul vəsaitləri kredit təşkilatları tərəfindən toplanır və sonradan onlar təcili şərtlərlə ehtiyacı olanlara şəxslərə verilir. Yəni, bank kreditləşməsi elə şərait yaradır ki, müxtəlif ehtiyaclar üçün öz vəsaitlərinin çatışmazlığını digər subyektlərin hesabına kompensasiya etmək mümkün olsun. Real iqtisadiyyatın bütün sahələrində kreditlərin verilməsi bank təşkilatları üçün mənfəətin formalaşmasında əsas amildir və müvafiq olaraq kredit portfelinin keyfiyyəti, faiz dərəcələrinin dəyəri və kredit riskinin həcmi bank sisteminin dayanıqlılığının təmin edilməsində böyük önəm daşıyır [5, s.31].

Bütün kredit məhsulları qısa, orta və uzunmüddətli olaraq bölünür. Qısa və uzunmüddətli bank kreditləşməsi, ilk olaraq, fiziki və hüquqi şəxslərin maliyyələşdirilməsi yolu ilə milli iqtisadiyyatın inkişafına təsir göstərir. Qısamüddətli kredit müəssisənin fəaliyyəti zamanı yaranır və likvidlik çatışmazlığı ilə bağlı mövcud problemi tez bir zamanda həllinə imkan verir. Ən məqbul olan isə uzunmüddətli kreditdir, çünki bu, müəssisəyə strateji məqsədləri həll etməyə imkan verir. Uzunmüddətli kreditin alınması prosesi daha çox vaxt aparır, çünki borcalanın maliyyə parametrlərini hərtərəfli təhlil etmək və onun fəaliyyətinin proqnozlarını qiymətləndirmək tələb olunur.

Real iqtisadiyyatda fəaliyyət göstərən müəssisələrin kreditləşdirilməsi bir çox kommersiya bankları ilə onların müştəriləri arasında əməkdaşlığın ən çox tələb olunan forması olmaqla resursların bölüşdürülməsi, milli iqtisadiyyatın inkişafına töhfə verilməsi və yerli istehsalçıların dəstəklənməsi üçün prioritet istiqamətdir [6, s.114]. Bəzi müəssisələrin texniki təchizat səviyyəsi elədir ki, bu, istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına kömək etmir, satışı isə alınan kreditin ödənilməsi mənbəyi kimi çıxış edir. Belə hallarda banklar üzərlərinə götürmək məcburiyyətində qaldıqları yüksək risklərə görə kredit verməkdə maraqlı deyillər. Uzunmüddətli kreditlərə çıxış imkanlarının məhdudlaşdırılmasının növbəti səbəbi bankın girovla bağlı tələbidir və bir qayda olaraq, girov kimi borc alanın daşınmaz əmlakı çıxış etməlidir. Digər səbəb bank kreditinin alınması prosedurunun mürəkkəbliyi və müddəti, bütün lazımi sənədlərin düzgün rəsmiləşdirilməsi üçün borcalanın kifayət qədər ixtisasının olmamasıdır. Aydındır ki, bu cür problemlər, ilk öncə, ölkənin real iqtisadiyyatının kreditləşməsinə dəstək proqramlarının hazırlanması yolu ilə dövlətin fəal iştirakını tələb edir. Həmçinin problemli və ya yüksək riskli müəssisələrə kredit verən kommersiya bankları üçün vergi güzəştlərinin hazırlanması və tətbiqi də tələb olunur. Qeyd olunmalıdır ki, kredit məhsullarının əlçatanlığının artırılmasında bankların özlərinin fəal iştirakına ehtiyac vardır. Girov kimi qəbul edilə bilən əmlakların siyahısına yenidən baxılması məqsədəuyğundur. Borcalanın fəaliyyətinin maliyyə parametrlərinə olan tələbləri də azaltmaq lazımdır. Banklar, risklərinin idarə olunmasının effektiv mexanizmindən, xüsusilə sığorta kimi alətlərdən istifadə etməklə kredit risklərini minimuma endirməlidir [7]. Real iqtisadiyyatın inkişafında investisiya bankları əsas rol oynayır. Real iqtisadiyyata investisiya xidmətləri göstərmək baxımından ixtisaslaşmış bankların yaradılması aşağıdakılara imkan verə bilir: müəssisələrə investisiya xidmətləri göstərmək üçün resursları cəmləşdirməyə; marketinq tədqiqatları əsasında bank investisiya xidmətlərinə əlavə ehtiyacı müəyyən etmək; uzunmüddətli resursların formalaşması və istifadəsi mexanizmini hazırlamaq; büdcənin məqsədli istifadəsinə nəzarəti təmin etmək [8, s.30].

Ümumiyyətlə, bankların əsas maliyyə resursları onların kreditləridir. Kreditlərin reallığa çevrilməsi üçün ən azı iki şərt lazımdır: 1) borc verənlə borcalanın maraqları üst-üstə düşərsə, kredit zəruri olur; 2) kredit əməliyyatının iştirakçıları - borc verən və borcalan - iqtisadi əlaqələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə maddi təminat verən müstəqil subyektlər kimi çıxış etməlidirlər. Həmçinin dövlət öz səylərini ölkə müəssisələri üçün Avropa standartlarını tətbiq etməklə, yeni beynəlxalq o cümlədən sahibkarlığı dəstəkləyə biləcək investisiya layihələrinin təşviqinə səy göstərməlidir [9].

Beləliklə, real iqtisadiyyatın inkişafında bank kreditləşdirilməsi önəmli rol oynayır. Hazırda

kreditləşmənin inkişafı bütövlükdə bank sisteminin fəaliyyətinin ən mühüm məqsədlərindən biri olmaqla yanaşı, ölkənin iqtisadi inkişafında da rol oynayır [10, s.58]. Bank kreditləşdirilməsi iqtisadiyyatda kredit münasibətlərinin ən geniş yayılmış formasıdır, borc verənlə borcalan arasında qarşılıqlı əlaqənin məhsuludur. Bank kreditləşməsinin keyfiyyəti müştərilərin artan və daim inkişaf edən maliyyə və sosial tələbatlarını ödəyə bilən, vaxtında və tam bank xidmətlərinin məcmusunu əks etdirən kredit münasibətlərinin əsası kimi başa düşülməlidir. Müştəri üçün bank kreditləşməsinin gözlənilən keyfiyyəti müvafiq kommunikasiyalar sistemi vasitəsilə bankın marketinq siyasətinin təsiri altında formalaşır [11, s.73]. Real iqtisadiyyatda bank kreditləşməsinin roluna aşağıdakılar daxildir:

– müəssisədə kapitalın fasiləsiz dövriyyəsinin və genişləndirilmiş təkrar istehsal prosesinin təmin edilməsi;

– maliyyə resurslarının yerləşdirilməsinin rasionallığının və onlardan istifadənin səmərəliliyinin artırılması;

– innovasiyanın stimullaşdırılması yolu ilə bankda texnoloji və idarəetmə proseslərinin davamlı olaraq təkmilləşdirilməsini və sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin artırılması;

– qarşıya qoyulmuş məqsədə nail olunması prosesində bankın maliyyə-iqtisadi potensialından istifadənin səmərəliliyinin artırılması və əlavə dəyərin kapitallaşdırılması prosesinin aktivləşdirilməsi və s.

Bank kreditləşməsi milli iqtisadiyyatın inkişafına ən böyük təsir göstərir. Bu təsir mexanizmi şəkildə göstərilmişdir. Çox dinamik kateqoriyalardan olan bank kreditləşdirilməsi bankların maliyyə imkanlarının əsas göstəricilərindən biridir. Bank kreditləşdirilməsinin dinamikasına dövlətin büdcə-vergi siyasəti, iqtisadi tsiklin fazaları, inflyasiya, rəqabətin səviyyəsi və s. təsir göstərir. Bu da, bankın maliyyə sabitliyinə və ödəmə qabiliyyətinə təsir edir. Odur ki, sabit iqtisadiyyatda etibarlı və səmərəli bank sisteminin qurulması məqsədilə bank kreditləşdirilməsnin idarə olunmasına dövlətin təsir mexanizmini hazırlamaq və tətbiq etmək lazımdır. Bank sektorundakı vəziyyət və həmin sektorun iqtisadiyyatın investisiya və maliyyələşdirilməsində iştirakı Mərkəzi Bankın və ümumilikdə dövlətin reallaşdırdığı pul-kredit siyasətindən də asılıdır [12, s.74].

Bank kreditləşdirilməsi vəsaitlərin bir müəssisədən digərinə, bir sənayedən digərinə hərəkətinin təmin edilməsi problemini həll edir. Başqa sözlə, bank kreditləri təkrar istehsal prosesinin sürətləndirilməsini qabaqcadan müəyyən edərək, pul vəsaitlərinin və digər kapital hərəkətlərinin yenidən bölüşdürülməsi sisteminə xidmət edir. Bank kreditləşdirilməsi borcalana ödəniş, geri ödəmə və təxirəsalınmaz şərtlərlə vəsait təqdim etmək üçün bank əməliyyatıdır [13, s.214].

### Yeni çağırışlar kontekstində real iqtisadiyyat sahələrinin kreditləşdirmə mexanizminin təkmilləşdirilməsi istiqamətləri

Bank sektorunun müəssisələrə kredit verməsi prosesin hər iki iştirakçısı üçün faydalıdır. Bank faizdən sabit gəlir əldə edir ki, bu da onun mənfəətini, kredit portfelinin diversifikasiyasını təmin edir və nəticə etibarilə maliyyə vəziyyətinin sabitliyinin artmasına səbəb olur. Real iqtisadiyyat üçün bank kreditləşməsi iqtisadi fəaliyyətin yeni növlərinin inkişafı, satışın artırılması, innovasiyaların tətbiqi və maliyyə axınlarının optimallaşdırılmasına imkanlar açır.

Banklar müəssisələrin kreditləşdirilməsinə elə də önəm vermirlər. Bankların çox hallarda müəssisələrin kreditləşdirilməsində kifayət qədər iştirak etməməsi bir sıra amillərlə bağlıdır: müəssisələr üçün qısamüddətli kreditlər; kredit üzrə likvid girovun olmaması; sənayeyə yönəldilən investisiyaların yüksək riskləri; müəssisələrin kredit borcunun çox olması və s.

Müəssisələrin, kiçik və orta biznesin dəstəklənməsi, onların bank sektoru ilə qarşılıqlı əlaqəsi üçün kreditləşdirmə alətlərinin təcrübədə tətbiqi vacibdir. Ümumilikdə, bankların aktiv kredit fəaliyyətinin bərpası yolunda qarşıda bir sıra problemlər durur ki, bunlardan biri problemli borcların olmasıdır. Problemli kreditlərin əhəmiyyətli həcmdə olması banklar üçün böyük itkilərə səbəb olur, onların maliyyə sabitliyini pisləşdirir və real iqtisadiyyatın kreditləşdirilməsi imkanlarını məhdudlaşdırır. Real iqtisadiyyatın kreditləşdirilməsi problemlərinin həlli üçün ilk öncə bank sisteminə inam səviyyəsinin yüksəlməsi hesabına uzunmüddətli borc vəsaitlərinin həcmini artırmaq lazımdır.

Digər tərəfdən isə, səmərəli kiredit siyasətinin hazırlanması və tətbiqi də zəruridir.

Bank fəaliyyətinin idarə edilməsi prosesi əsasən kredit siyasətindən asılıdır ki, həmin siyasətin də formalaşması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

1. Bankın kredit siyasəti ilə onun maliyyə-iqtisadi inkişafının ümumi strategiyası arasında əlaqə təmin edilməlidir. Maliyyə-kredit təşkilatının kredit siyasəti bankın fəaliyyətinin və iqtisadi inkişafının ümumi strategiyasının məcburi elementlərindən biri kimi qəbul edilməli, həmçinin faiz, depozit və bank risklərinin idarə edilməsi siyasəti ilə əlaqələndirilməlidir. Kredit siyasəti iqtisadi inkişafın ümumi strategiyasının ən böyük elementlərindən biri olduğundan, bankın fəaliyyət göstərməsi və inkişafının ümumi strategiyasına uyğun olmalı və onunla ziddiyyət təşkil etməməlidir.

2. Bankın kredit siyasətinin formalaşdırılması prosesində ölkənin vəziyyəti və onun müəyyən dövr ərzində inkişafı nəzərə alınmalıdır. Bu onunla bağlıdır ki, bankın kredit siyasəti özünün xarici mühitində bir-biri ilə sıx bağlıdır və bütövlükdə real iqtisadiyyatın mövcud vəziyyəti ilə müəyyənləşdirilir.

3. Bankın kredit siyasətinin formalaşdırılması prosesində onun kredit fəaliyyətinin reallaşdırılması ilə bağlı dövlət tənzimlənməsinin norma və qanunlarına və dövlət qaydalarına riayət olunması təmin edilməlidir. Bankların kredit fəaliyyəti, habelə bəzi təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin digər sahələri dövlət tərəfindən məcburi qaydada tənzimlənir. Belə tənzimləmə formaları kimi müəyyən qanunlar və müxtəlif normativ aktlar çıxış edir. Eyni zamanda, strateji məqsədlər və onlara nail olmaq yolları bankın kredit fəaliyyətinin tənzimlənməsi sahəsində mövcud qanunvericiliyə zidd olmamalıdır.

4. Bankın kredit siyasəti formalaşdırılarkən kredit təşkilatının daxili potensialı, habelə onun inkişaf imkanları nəzərə alınmalıdır [14, s.259].

Bankın kredit siyasətinin formalaşdırılması böyük ölçüdə aşağıdakı kimi alətlərdən istifadə etməklə həyata keçirilir: borcalanın kredit qabiliyyətinin müəyyənləşdirilməsi; kreditlər üzrə faiz dərəcələrinin formalaşması; bankın kredit resurslarının formalaşması. Hər bir alət kredit siyasəti və bütövlükdə bankın fəaliyyəti üçün vacibdir.

**Nəticə**

Beləliklə, real iqtisadiyyatın inkişaf etdirilməsində kreditləşdirmənin rolunu nəzərə alaraq onun təkmilləşdirilməsini zəruri hesab edirik. Real iqtisadiyyatın kreditləşdirilməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

– real iqtisadiyyatın kreditləşdirilməsində risklərin minimuma endirilməsi və ümidsiz kreditlərin sayının azaldılması üçün tədbirlərin formalaşdırılması;

– kredit müqaviləsinin icrası zamanı və müqavilənin bütün müddəti ərzində girov qoyulmuş əmlakın yoxlanılmasının təmin edilməsi;

– şübhəli borclar üzrə mümkün itkilər üçün ehtiyatların tam həcmdə formalaşdırılması;

– kredit müraciətlərinə baxılma müddətini azaldan standartlaşdırılmış prosedurların tətbiqi.

Beləliklə, real iqtisadiyyatda bank kreditləşməsi sisteminin təkmilləşdirilməsi iqtisadi sektorların kreditin dövriyyəsində geniş və çevik iştirakına, iqtisadiyyatın sabit maliyyə vəziyyətinə kömək edəcəkdir ki, bunlar da effektiv bank sisteminin qurulmasına zəmin yaradacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Субботина, Е.С. Виды банковского кредита как источника финансирования реального сектора экономики / Е.С.Субботина // Современные тенденции развития науки и технологий. – 2015. – № 2-6. – С. 105-109.

2. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, – 2017. № 03, – s. 26-40.

3. Əliyev V.Ə. Maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasında sistem əhəmiyyətli bankların strateji əhəmiyyəti. Audit № 3, Cild 25, 2019, s.49-58.

4. Aliyev, Sh.T. Rəqəmsal iqtisadiyyatin formalaşdirilmasi və inkişafi (Çin təcrübəsi). I International Conference on Modern Trends in Digital Economy, Baku, 13-14 February, 2020.S.107-108. https://de-conf.unec.edu.az/images/Proceeding%20book_Conference_Digital%20Economy_13-14%20february%202020.pdf.

5. Таштамиров, М.Р. Роль кредитного компонента в обеспечении эффективности банковской системы / М.Р. Таштамиров// Вестник Чеченского государственного университета им. А.А. Кадырова. – 2021. – № 4(44). – С. 28-36.

6. Шамсиева, В. Т. Роль кредита в развитии реального сектора экономики / В. Т. Шамсиева// Теоретический и практический потенциал современной науки: Сборник научных статей / Научный редактор Д.В. Фурсова. Том I. Часть III. – Москва: Издательство "Перо", 2019. – С. 114-119.

7. Zahid F.Mamedov, Shafa T.Aliyev, Natavan Jafarova. Digitalization of the economy: analysis of influence on the banking sphere in Azerbaijan in the context of world experience. / Economic and Social Development - 55th International Scientific Conference on Economic and Social Development. Varazdin Development and Entrepreneurship Agency and University North in cooperation with Azerbaijan State University of Economics (UNEC) Faculty of Management University of Warsaw Faculty of Law, Economics and Social Sciences Sale - Mohammed V University in Rabat Polytechnic of Medimurje in Cakovec, 18-19 June 2020, Volume 2. -https://www.proquest.com/openview/d0f16e8414e64acfe06d4c4fbb34477b/1?pq-origsite=gscholar&cbl=2033472.

8. Швейкин, И.Е. Банковский инвестиционный кредит - основа развития реального сектора экономики/ И.Е.Швейкин, Г.Г.Коробова // Сибирская финансовая школа. – 2016. – № 2(115). – С. 25-30

9. Əliyev, Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri //Xəbərlər, AMEA II, №5. 2020.– s.5-12.

10. Севек, Р.М. Коммерческое кредитование и пути его совершенствования/ Р.М. Севек, О.А.Оюн, А.Н.Хуурак// Экономика и бизнес: теория и практика. – 2022. – № 5-3(87). – С. 58-60.

11. Езангина, И.А. Проблема качества банковского обслуживания в секторе кредитования/ И.А. Езангина, В.Д. Березовская// Сборники конференций НИЦ Социосфера. – 2017. № 14. – С. 73-75.

12. Kamilov, A. Azərbaycanda bank kapitalının real sektorun maliyyələşdirlməsinə cəlb edilməsi yolları. İpək yolu, №.2, 2017, s.72-79.

13. Шойбул, Д.М. Роль банковского кредита в условиях рыночной экономики/ Д.М. Шойбул, А.А. Хомушку // Экономика и бизнес: теория и практика. – 2022. – № 5-3(87). – С. 214-216.

14. Фирюлина, Е.В. Инструменты формирования кредитной политики банка/ Е.В.Фирюлина, Е.Ю.Смолина// Актуальные проблемы авиации и космонавтики. – 2018. – Т. 3, № 4(14). – С. 259-260.

**Герай Айдын оглы АЛИЕВ,**
Докторант Сумгаитского Государственного Университета
E-mail: gerayaliyev1907@gmail.com

# СТРАТЕГИЧЕСКИЕ АСПЕКТЫ КРЕДИТНОГО МЕХАНИЗМА В РАЗВИТИИ РЕАЛЬНОГО СЕКТОРА ЭКОНОМИКИ

**Резюме**

*Цель исследования* заключается в изучении стратегических аспектов механизма кредитования в развитии реального сектора экономики. Для этого оценены проблемы развития реального сектора экономики. Исследован механизм кредитования и обобщены его основные функции в развитии реального сектора экономики. Обоснована важность укрепления взаимодействия банковско-кредитных организаций с субъектами реального сектора экономики. Обоснована необходимость формирования доступных кредитных ресурсов и подготовки пакета кредитных услуг. Даны рекомендации и предложения по совершенствованию механизма кредитования в развитии реального сектора экономики в современных условиях.

*Метод исследования* – использовались, в основном, научные методы, такие как анализ, синтез, сравнение и обобщение. Кроме того, выделены положения и даны ссылки в научных работах, посвященных проблемам кредитования реальной экономики.

*Результаты исследования* выражаются возможностями использования результатов исследования при подготовке механизма кредитования в соответствии с требованиями реальных сфер экономики в процессах практической деятельности.

**Ключевые слова:** реальная экономика, кредит, кредитный механизм, проблемы кредитования реального сектора экономики, проблемы развития реального сектора экономики, банковско-кредитные учреждения.

**Geray Aydin ALIYEV**
Doctoral student of Sumgait State University
E-mail: gerayaliyev1907@gmail.com

## STRATEGIC ASPECTS OF THE CREDIT MECHANISM IN THE DEVELOPMENT OF THE REAL SECTOR OF THE ECONOMY

### Summary

*The purpose of the research* is to study the strategic aspects of the lending mechanism in the development of the real sector of the economy. For this, the problems of the development of the real sector of the economy are assessed. The credit mechanism is investigated and its main functions in the development of the real sector of the economy are summarized. The importance of strengthening the interaction of banking and credit institutions with entities of the real sector of the economy is justified. The need to form available credit resources and prepare a package of credit services is justified. Recommendations and proposals to improve the lending mechanism in the development of the real sector of the economy are given in modern conditions.

*Research methods* - mainly scientific methods are used, such as analysis, synthesis, comparison and generalization. In addition, the provisions are highlighted and references are given in scientific works on the problems of lending to the real economy.

*The results of the research* are expressed by the possibilities of using the results of the study in the preparation of a lending mechanism in accordance with the requirements of real areas of the economy in the processes of practical activity.

**Key words**: real economy, credit, credit mechanism, problems of lending to the real sector of the economy, problems of development of the real sector of the economy, banking and credit institutions.

**Gülşən Qalib qızı HÜSEYNZADƏ**
Sumqayıt Dövlət Universitetinin doktorantı
*E-mail:* gulsen396@mail.ru

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAYANIQLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi problemlərinin həlli yollarının müəyyənləşdirilməsindən ibarətdir. Bunun üçün sənaye müəssisələrinin dayanıqlı inkişaf problemləri açıqlanmış və ümumiləşdirilmişdir. Sənaye müəssisələrinin dayanıqlı inkişafının gücləndirilməsindən ötrü daha təkmilləşdirilmiş mexanizmlərinin hazırlanmasının vacibliyi elmi arqumentlərlə verilmişdir. Müasir dövrdə sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik problemlərinin və dayanıqlı inkişaf etməsi məsələlərinin kompleks şəkildə baxılmasının vacibliyi əsaslandırılmışdır. Yeni çağırışlar nəzərə alınmaqla, sənaye müəssisələrinin dayanıqlı inkişafının təşkili üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

Tədqiqatın metodu olaraq bir qrup elmi metodlardan, o cümlədən, analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlardan istifadə edilmişdir. Eyni zamanda, sənaye müəssisələrinin dayanıqlı inkişaf problemlərinə dair elmi əsərlərdə olan fikirlərə də yer verilmişdir.

Tədqiqatın nəticələri hazırkı şəraitdə sənaye müəssisələrinin dayanıqlı inkişafının intensivləşdirilməsi üçün məqsədli strategiyaların və proqramların hazırlanmasında əldə olunmuş nəticələrdən istifadənin mümkünlüyü ilə izah olunur.

**Açar sözlər:** sənaye müəssisələri, dayanıqlı inkişaf, sənaye müəssisələrinin inkişaf problemləri, sənaye müəssisələrinin inkişaf perspektivləri, sənaye müəssisələrinin dayanıqlılıq məsələləri, sənaye müəssisələrinin inkişaf impulsları.

**UOT:** 336: 330.34
**JEL:** L52; L53; O14

## Giriş

Qeyd edək ki, ölkənin və onun regionlarının dayanıqlı iqtisadi inkişafına yalnız sənaye, müəssisə və təşkilatlar kimi struktur elementlərin iqtisadi sabitliyi ilə nail olmaq mümkündür. Sənaye müəssisənin dayanıqlı inkişafı onun sahibi olduğu resurslardan istifadə hesabına, iqtisadi və sosial təkrar istehsal məqsədilə kifayət qədər gəlir əldə etmək əsasında rəqabətqabiliyyətli məhsulların istehsalı və satışı yolu ilə bazarda uzunmüddətli fəaliyyət göstərməsini nəzərdə tutur. Müəssisənin dayanıqlı inkişafı dedikdə, zaman məkanında hərəkət edən istehsal sisteminin heç bir təsir altında öz hərəkətindən yayınmamaq qabiliyyəti başa düşülür. Müəssisələrdə bütün istehsal prosesinin dayanıqlı inkişafa yönəldilməsi uzun müddət tələb edir. İstənilən müəssisənin dayanıqlı iqtisadi inkişafı ölkənin bütün təsərrüfat sisteminə nəinki öz potensialını qoruyub saxlamağa, həm də onun keyfiyyət artımını və yeni rəqabətqabiliyyətli məhsullarla beynəlxalq bazarlara çıxışını təmin etməyə imkan verir [1]. Müəssisələrin dayanıqlı inkişafın elementləri ilə, xüsusən də istehlakçıların üstünlükləri, daxili iqtisadiyyatın dəstəklənməsi və bazarda rəqabət qabiliyyətinin artırılması ilə məşğul olması zəruridir. Dayanıqlı inkişafın elementlərini tətbiq etməyən müəssisə, dayanıqlı inkişafın prinsip və elementlərini tətbiq edən müəssisələrlə rəqabət apara bilməyəcək [2, s.92].

Ümumiyyətlə, müəssisənin dayanıqlı iqtisadi inkişafı dayanıqlı inkişafın aşağıdakı komponentlərinin strateji və operativ idarə olunması prosesində əldə edilir: investisiya fəaliyyəti, onun texniki və texnoloji strukturunun rəqabət qabiliyyəti, məhsulların rəqabət qabiliyyəti, innovativ fəaliyyət, maliyyə sabitliyi, innovativ fəaliyyət qabiliyyəti və s. Müəssisənin dayanıqlı iqtisadi inkişafı bilavasitə ölkə iqtisadiyyatının

vəziyyəti ilə müəyyən edilən və obyektiv şəraitdən qaynaqlanan amillərdən asılıdır [3, s.5].

**Sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin olunması problemlərinin tədqiqi**

Sənaye müəssisələrinin davamlılığı həm hər bir regionunun iqtisadiyyatının, həm də bütövlükdə ölkə iqtisadiyyatının davamlı artımını və maliyyə sabitliyini təmin edir. Maliyyə sabitliyi, yəni kapital strukturunun optimal nisbəti və çevikliyi, operativ idarəetmə prosesində və strateji planlaşdırma üfüqündə müəssisənin inkişafının dayanıqlığının təmin edilməsində əsas amildir, çünki bu, kritik riskləri aradan qaldırmaq üçün müəssisənin yerləşdiyi şərtləri, habelə iflas üçün ilkin şərtləri qiymətləndirmək imkan verir. Bu baxımdan müəssisə üçün dayanıqlılığın ilkin iqtisadi həlqəsi onun maliyyə-iqtisadi sabitliyinin təmin edilməsidir.

Son zamanlar Azərbaycan iqtisadiyyatı koronavirus pandemiyasının nəticələrinə qarşı mübarizə şəraitində bir sıra problemlərlə üzləşib [4]. Belə arzuolunmaz şəraitdə fəaliyyət göstərən müəssisələr həm sabit iqtisadi göstəriciləri saxlamaq, həm də ümumilikdə bazarda qalmaq imkanları ilə bağlı problemləri aradan qaldırmağa məcbur olublar. Müvafiq olaraq, müəssisələrin qarşıya qoyulmuş fəaliyyət və dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün səy göstərməyə ehtiyacı var. Məhz dayanıqlı inkişaf mexanizmi müəssisələrə xarici mühitin təsirinə uyğunlaşmağa və gələcək inkişafı reallaşdırmağa imkan verir. Biznes mühiti daim dəyişir və dayanıqlı inkişaf siyasətini reallaşdırmaq məqsədilə müəssisə bu cür dəyişikliklərə hazır olmalı, onlara tez reaksiya vermək bacarığına malik olmalıdır. Bunun üçün xarici mühiti təhlil etməli, vəziyyətini nəzərə alaraq onun inkişafı üçün planlar qurmalıdır. Təbii ki, oxşar təhlil müəssisənin daxili mühiti ilə bağlı aparılmalıdır.

Müxtəlif dövrlərdə müəssisəyə təsir edən amillərdən asılı olaraq, onun maliyyə-iqtisadi vəziyyəti əlverişli (inkişaf edər) və ya əlverişsiz (müflisləşər) dəyişə bilər. Tədqiqatçıların fikrincə, sabit iqtisadiyyatı olan ölkələrdə müəssisələrin müflisləşməsinin 1/3 hissəsi xarici amillərlə, 2/3 hissəsi isə daxili amillərlə bağlıdır. Xarici amillər şərti olaraq makromühit (iqtisadi, siyasi, sosial, ekoloji) və mezo-mühit amillərinə (coğrafi bazarlar, istehlakçılar, rəqiblər, paylama kanalları, təchizatçılar) bölünür. Öz növbəsində daxili amillərə müəssisənin mikromühit və nanomühit amilləri daxildir. Mikromühit amillərinə maliyyə-iqtisadi (müəssisənin ödəmə qabiliyyəti səviyyəsi, investisiyaların həcmi, öz və borc vəsaitlərinin nisbəti və s.), istehsal-texniki (müəssisənin istehsal güclərindən istifadə səviyyəsi, amortizasiya), sosial (işçilərin ixtisası, əmək haqqı səviyyəsi, iş şəraiti və rejimi və s.), müəssisənin özünün fəaliyyətindən asılı olan təşkilati, idarəetmə və digər amillər daxildir. Nanomühit amillərinə insanın maraqlarına və müəssisənin dayanıqlılığına təsir edən iqtisadi (əmək haqqı), sosial (sosial təminat), istehsal, təşkilati amillər daxildir.

Müəssisənin səmərəliliyinin nisbi göstəricisi isə gəlirlilikdir. Maliyyə təhlili aparılarkən cari maliyyə vəziyyətini xarakterizə edən, problemləri, onun inkişaf imkanlarını və perspektivlərini müəyyən edən göstəricilər hesablanır. Təhlilin nəticələri idarəetmə qərarlarının qəbulu, biznes planının tərtib edilməsi üçün məlumat bazası kimi istifadə olunur. Həmçinin, bu məlumat investorlar, səhmdarlar və biznes sahibləri üçün vacibdir [5, s.371]. Müasir sənaye müəssisəsinin dayanıqlı inkişafının meyarları aşağıdakılar ola bilər: 1) tələb olunan inkişaf tempinə uyğun gələn yüksək innovativ potensial; 2) müəssisənin strateji inkişaf məqsədlərinə uyğun olaraq əqli mülkiyyəti idarə etmə bacarığı; 3) müəssisənin inkişaf perspektivləri nəzərə alınmaqla innovativ texnologiyanın tətbiqi imkanları və 4) restrukturizasiya əsasında müəssisənin inkişafının dayanıqlılığının artırılması imkanları.

Müəssisələrin dayanıqlı inkişafını şərtləndirən amillər arasında hazırda istehsal texnologiyasının əsaslı şəkildə yenilənməsinə, yeni məhsul növlərinin buraxılmasına səbəb olan innovasiya səviyyəsinin əldə edilməsi əsas yer tutur. İnnovativ inkişafın imkanları təkcə müəssisənin maliyyə vəziyyəti və resurs potensialının xüsusiyyətləri, regionda innovasiya infrastrukturunun inkişaf səviyyəsi ilə deyil, hər şeydən əvvəl mövcud idarəetmə üsulları ilə müəyyənləşdirilir [6]. Ölkə iqtisadiyyatının hazırkı iqtisadi modelində və idxalı əvəzləmə siyasətinin reallaşdırılması zərurəti fonunda sənaye müəssisələri yeni şəraitə uyğunlaşmaq və dayanıqlı inkişafa nail olmaq məcburiyyətində qalırlar. Ölkədə iqtisadi mühitin

mürəkkəbliyi müəssisələrin rəhbərlərini rəqabət qabiliyyətinə və iqtisadi cəhətdən müstəqil olmasına mane olan mümkün səhvlərin qarşısını almaq üçün bazar vəziyyətini və onun inkişaf meyillərini daha fəal və diqqətlə öyrənməyə stimullaşdırır. Müəssisənin potensialından istifadəsini optimallaşdırmaq üçün düzgün təşkil edilmiş idarəetmə fəaliyyəti təkcə onun fəaliyyətinin sabitliyinə deyil, həm də bir sıra amillərin mənfi təsiri şəraitində maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılmasına şərait yaradacaqdır.

İqtisadi dayanıqlılığı təmin etmək üçün metodların hazırlanması prosesində müəssisə ətraf mühitin hansı amillərinin indiki dövrdə və gələcəkdə onun fəaliyyətinin nəticələrinə təsir göstərə biləcəyini özü müəyyənləşdirir. Xarici mühitin vəziyyəti müəssisə üçün önəm daşıyır, çünki ona münasibətdə xarici mühit obyektiv mühitdir, yəni müstəqil olaraq mövcuddur və bu, onun fəaliyyətində nəzərə alınmasının zərurətinə səbəb olur. Bu baxımdan müəssisənin fəaliyyətinin səmərəliliyi xarici mühitin bütün aspektlərinin düzgün nəzərə alınmasından asılıdır. Daxili mühitə müəssisənin əsas prosesləri və elementləri daxildir, onların vəziyyəti birlikdə həmin müəssisənin rəqabətqabiliyyətli və iqtisadi cəhətdən müstəqil olması potensialını və imkanlarını müəyyənləşdirir. Müəssisənin daxili mühit amillərinin təhlili aşağıdakı istiqamətlərdə aparılır. 1. Maliyyə: aktivlərin strukturu və likvidliyinin, kapitalın strukturunun, öz dövriyyə kapitalı ilə təminatının, gəlirlilik səviyyəsinin, investisiya layihələrinin gəlirliliyinin, dividend siyasətinin qiymətləndirilməsi. 2. İstehsal: əsas və dövriyyə vəsaitlərinin vəziyyəti və strukturunun, məsrəflərin strukturunun, keyfiyyətə nəzarət sisteminin təhlili. 3. Marketinq: məhsul çeşidinin, qiymət siyasətinin, sifarişlər portfelinin, istehlakçıların diversifikasiya dərəcəsinin, istehlakçılarla hesablaşma siyasətinin, marketinq araşdırmalarının təhlili. 4. Logistika: tədarük olunan xammalın keyfiyyətinin, tədarükün ritminin, müasir təchizat texnologiyalarından istifadənin, xammal təchizatının diversifikasiya səviyyəsinin qiymətləndirilməsi. 5. İnvestisiyalar: investisiya resurslarının mövcudluğunun, innovasiya fəallığı səviyyəsinin təhlili. 6. Kadrlar: idarəetmənin təşkilati strukturunun, kadrların motivasiyasının, əməyin ödənilməsi parametrlərinin, inkişaf strategiyasının mövcudluğunun, kadrların ixtisas və strukturunun təhlili. 7. Ekologiya: ətraf mühitin mühafizəsi tədbirlərinin görülməsi, yeni texnologiyaların tətbiqi [7, s.96-97].

Daxili mühit amillərinin təhlili və müəssisənin vəziyyətinin qiymətləndirilməsi nəticələrinin etibarlılığı ilk öncə analitik baza kimi istifadə olunan məlumatların keyfiyyətindən asılıdır. Etibarlı mühasibat uçotu və maliyyə məlumatları yalnız müəssisə əməliyyat, mühasibat, idarəetmə, vergi və statistik uçot növlərini özündə birləşdirən effektiv mühasibat uçotu sisteminə malik olduqda əldə edilə bilər. Beləliklə, müxtəlif amillərin təhlili prosesində yaranan məlumat tədqiq olunan obyektlərin informasiya modellərini yaratmağa və onların köməyi ilə müxtəlif parametrlərdə mümkün dəyişiklikləri proqnozlaşdırmağa imkan verir. Bu cür qiymətləndirmələr müəssisənin rəqabət qabiliyyətinin artımının etibarlı ölçüsüdür və müəyyən bir müəssisənin ümumi maliyyə vəziyyətinə keyfiyyətcə təsir göstərməyə imkan verəcək və nəticədə onun dayanıqlı inkişafının idarə edilməsinə müsbət təsir göstərəcəkdir. Ümumiyyətlə, ölkədə fəaliyyətdə olan müəssisələrin dayanıqlı inkişafı məqsədilə müxtəlif tədbirlərin görülməsini zəruri edir. Sənaye müəssisələrinin rəqabət qabiliyyətli dayanıqlı inkişafı ETT-nin nailiyyətlərindən səmərəli istifadə hesabına reallaşdırılmalıdır ki, bu da rəqabətqabiliyyətli və yüksək keyfiyyətli məhsul istehsalına münbit şərait yaradacaqdır. Bu işə ancaq yeni texnika və texnologiyaların əldə edilməsinin elmi təşkili və onların dərhal istehsalata tətbiqi ilə nail olmaq olar [8, s.22]. İnnovativ fəaliyyət müəssisənin dayanıqlı inkişafına və səmərəliliyinin artırılmasına ən böyük töhfə verən, ən perspektivli dəyişiklik növü və əsas inkişaf amili kimi xidmət edə bilər. İnnovasiya sahəsinin - elmin, yeni texnologiyaların, bilik tutumlu sənayelərin və innovasiyaları fəal şəkildə tətbiq edən müəssisələrin inkişaf səviyyəsi və onların dinamikliyi dayanıqlı iqtisadi artımda əsas təşkil edir.

Sənayenin dayanıqlı inkişafı onun innovasiya strategiyasının düzgün seçimindən və hazırlanmasından asılıdır. İnnovasiya strategiyasının hazırlanması aşağıdakı mərhələlərin

məcmusundan ibarətdir: müəssisənin ətraf mühitində innovasiya sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi; müəssisənin innovasiya fəaliyyətini əks etdirən inkişaf göstəricilərinin təhlili; mövcud sənaye müəssisəsinin inkişafı ilə bağlı strategiyasının təhlili; müəssisənin inkişafı baxımından innovativ strategiyanın seçilməsi və reallaşdırılması. İnnovasiya fəaliyyətinin dayanıqlı inkişafın müəyyənedici amilinə intensiv çevrilməsi ilə sənaye müəssisəsinin rəqabət qabiliyyətinin artırılmasının effektiv vasitəsi innovativ potensialdan istifadədir. Müəssisənin dayanıqlı inkişafı innovasiya sferasında resursların toplanması, seçilmiş prioritetlər çərçivəsində onlardan səmərəli istifadə edilməsi, yəni innovativ potensialın artırılması ilə təmin edilir. Müəssisələrin dayanıqlı inkişafının müasir dövrdə formalaşmış modeli elmi-texniki sferanın inkişaf proseslərinə sistemli inteqrasiyasını nəzərdə tutur. Həmçinin, dayanıqlı inkişafın zəruri ilkin şərti hesab edilən milli müəssisələrin innovativ potensialının artırılması prosesi innovativ xarakterli səmərəli qərarların qəbulu və onların nəticələrinin qiymətləndirilməsi üçün rəsmiləşdirilmiş aparatın olmaması ilə üzləşir [9, s.41].

**Yaxın perspektivdə sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi problemlərinin həlli istiqamətləri**

Dayanıqlı inkişaf strategiyasının formalaşdırılması innovativ fəaliyyət sahələrinin, innovasiya layihələrinin həcminin və strukturunun, onların həyata keçirilmə müddətlərinin, innovasiyaların idarə edilməsi üzrə təşkilati strukturların vəziyyətinin qiymətləndirilməsinin seçilməsi və əsaslandırılmasını nəzərdə tutur. Xüsusi iqtisadi şəraitdə dayanıqlı inkişaf üçün ən rasional strategiyanın seçilməsi prosesi innovasiya fəaliyyətinin bütün formalarının qiymətləndirilməsinin nəticələrinə əsaslanır. İnnovasiyaların tətbiqi müəssisənin əsas və köməkçi proseslərinin yenidən qurulmasını nəzərdə tutur, maya dəyərinin, amortizasiyanın ölçüsünün və strukturunun, xarici və daxili logistika, marketinq və idarəetmə proseslərinin dəyişdirilməsini tələb edir. Müəssisənin innovasiya potensialının təşkilati aspektini nəzərə alaraq qeyd edək ki, innovasiya həmişə risklə əlaqələndirilir ki, bu da bir sıra amillərin təsirindən yaranır və onların təsirini əvvəlcədən dəqiq müəyyənləşdirmək mümkün deyil. Ümumiyyətlə, innovasiya fəaliyyətində risk bazarda gözlənilən tələbi tapa bilməyən yeni əmtəə və xidmətlərin istehsalına, yeni texnika və texnologiyaların inkişafına investisiya qoyuluşu nəticəsində yaranan itkilərin ehtimalı kimi müəyyənləşdirilə bilər.

Sənaye müəssisələri innovasiyaları tətbiqi zamanı istehsal infrastrukturunun imkanlarını, bütün zəruri texnoloji parametrləri və innovasiya bazarının konyunkturasına uyğun gələn istiqamətləri nəzərə almalı, innovativ mühitin cəlbediciliyinin artırılması və mövcud mexanizmlərin təkmilləşdirilməsi üzrə tədbirlərin gücləndirməlidirlər. Diqqət daha çox diqqət sənayedə innovativ yanaşmaların tətbiqi və innovasiya yönümlü müəssisə və birliklərin yaradılması problemlərinə yönəldilməlidir [10, s.30]. Sənaye müəssisələrinin öz inkişafının dayanıqlılığını təmin etməyə səy göstərərkən əsas vəzifəsi məqsədlərə nail olmaqla bərabər, fəaliyyətinin şaxələndirilməsi olmalıdır. Bu onunla bağlıdır ki, müasir müəssisə xarici mühitdə həddindən artıq turbulentlik şəraitində fəaliyyət göstərir və onun dəyişikliklərinə daim uyğunlaşmalıdır ki, bu da əsasən şaxələndirmə strategiyalarının tətbiqi zamanı mümkündür. Beləliklə, müəssisələr dayanıqlı iqtisadi inkişaf strategiyasını formalaşdırmalıdırlar [11, s.131]. Sənaye müəssisəsinin inkişafı üçün innovativ mexanizmlər sistemində şaxələndirmə mexanizmi mühüm rol oynayır. Sənayenin dayanıqlı inkişafı xeyli dərəcədə onun şaxələndirilməsi səviyyəsindən asılıdır. Sənaye istehsalının şaxələndirilməsi bir-biri ilə əlaqəsi olmayan istehsal növlərinin eyni anda inkişafı, bir müəssisə, firma, trest, holdinq, konsern çərçivəsində istehsal olunan məhsulların çeşidinin genişləndirilməsidir.

Şaxələndirmənin əsas məqsədi bazardakı mövqeləri möhkəmləndirmək və rəqabət üstünlüklərini gücləndirməklə mənfəəti artırmaqdır. Eyni zamanda, rəqabət üstünlüklərinin formalaşdırılması yolları və onların stimulları müxtəlifdir. Şaxələndirmənin əlaqəli və əlaqəsiz olmaqla iki əsas növü vardır. Əlaqəli şaxələndirmə fəaliyyətində mövcud biznes sahələri ilə əlaqəli olan yeni sahələrin yaradılmasıdır. Əlaqəsiz şaxələndirmə artıq həyata keçirilənlərlə birbaşa əlaqəli olmayan prinsipial olaraq yeni fəaliyyət sahələrini əhatə edir [12, s.126].

Əvvəllər mənfəət və zərər haqqında hesabatda yenidən qiymətləndirilmiş aktivin silinməsi halında, yalnız silinmənin yenidən qiymətləndirmədən artıq hissəsi tanınır. Eyni zamanda, əvvəllər tanınmış yenidən qiymətləndirmə 331 №-li "Yenidən qiymətləndirmə ehtiyatı" hesabından silinir.

Misal olaraq, əgər birinci istifadə ilinin sonunda 30.000 manata bərabər olan aktivin ilkin dəyəri 2000 manat artıb və onun bazar qiyməti (əvəzetmə dəyəri) 302.000 manat təşkil edibsə, onda 2000 manatlıq bu yenidən qiymətləndirmə üçün mühasibat yazılışı verilir:

Dt.111 "Torpaq, tikili və avadanlıq - Dəyər" - 2000 man.

Kt. 331 "Yenidən qiymətləndirmə üçün ehtiyat" - 2000 man.

Növbəti ildə onun bazar qiyməti 1800 manat ucuzlaşarsa, əksi baş verəcək:

Dt. 331 "Yenidən qiymətləndirmə ehtiyatı" - 1700 man.

Kt. 111 "Torpaq, tikili və avadanlıq – Dəyər" – 1800 man.

Üçüncü ildə bu aktivin bazar qiyməti 1750 manat ucuzlaşıb.

Misalın davamı kimi, əvvəllər yenidən qiymətləndirilmiş aktivin amortizasiyası zamanı yalnız köhnəlmənin yenidən qiymətləndirmədən artıq məbləği tanınır. Nəticə etibarı ilə, 1750 manat məbləğində son endirim ödənilməli olan birinci il üzrə 2000 manat, ikinci il üzrə 1800 manatdan artıq (2000 man – 1800 man)=200 manat məbləğində qismən ödənilir ki, əvvəllər hesablanmış ehtiyata, 1750 manat - 200 manat = 1550 manat məbləğində endirimin qalan məbləği xərclərə silinir və mühasibat yazılışında əks etdirilən 801 №-li "Cəmi mənfəət (zərər)" hesabında əks etdirilir:

Dt.331 "Yenidən qiymətləndirmə üçün ehtiyat" - 200 man

Dt. 801 "Cəmi mənfəət (zərər) - 1550 man

Kt. 111 "Torpaq, tikili və avadanlıq - Qiymət" - 1750 man.

Eyni zamanda, xərc kimi silinəcək endirimin məbləği "Sair əməliyyat xərcləri" hesabında, azalmalar təbii fəlakətlər nəticəsində baş verdikdə isə 761 №-li "Fövqəladə xərclər" hesabında əks etdirilə bilər. Aktivdən istifadənin dördüncü ilində onun bazar qiyməti 2100 manat artmışdırsa, bu halda birinci ildə hesablanmış ehtiyat 2000 manat sonrakı iki ildə köhnəlmə hesabına tam istifadə edildiyindən və bu məbləğ tam olaraq istifadə edilmişdir. 331 №-li "Yenidən qiymətləndirmə ehtiyatı" hesabından silinir, ona görə də, bu yenidən qiymətləndirmə aktivin istifadəsinin ikinci və üçüncü illərində devalvasiya nəticəsində əldə edilmiş itkilərin ödənilməsinə aid ediləcək və 1550 manat məbləğində xərc kimi daxil ediləcək. 801 №-li "Cəmi mənfəət (zərər)" hesabının debeti, bu yenidən qiymətləndirmənin qalan hissəsi (2100 man - 1550 man) = 550 manat yenidən qiymətləndirmə ehtiyatının formalaşdırılmasına yönəldiləcək və bu, mühasibat yazılışında əks etdiriləcək:

Dt. 111 "Torpaq, tikili və avadanlıq - Qiymət" 2100 man

Kt. 801 «Cəmi mənfəət (zərər)» - 1550 man

Kt. 331 "Yenidən qiymətləndirmə üçün ehtiyat" - 550 man

Belə ki, həmin obyektin istifadəsinin dördüncü ilinin sonuna bazar qiymətinə əsasən əvəzetmə (ədalətli) dəyəri 111 №-li "Torpaq, tikili və avadanlıq" hesabının debetində 30550 manat təşkil edəcək.

Bu aktivin balans dəyəri hesablanmış amortizasiya və dəyərsizləşmə itkiləri çıxılmaqla 30550 manat təşkil edəcək. Aktivin köhnəlməsindən zərərlər üçüncü istifadə ilinin sonuna kimi uçota alınmış və 801 №-li "Cəmi mənfəət (zərər) 1550 manat məbləğində hesabın debetində əks etdirilmiş 1550 manat təşkil etmişdir ki, bu da hesabat tərtib edilərkən üçüncü il üçün aktivin əvəzetmə (ədalətli) dəyərindən (bazar qiymətindən) çıxılmalıdır.

112 №-li "Torpaq, tikili və avadanlıq – Köhnəlmə" hesabının krediti üzrə uçota alınan amortizasiyaya gəldikdə isə, aktivin balans dəyərini etibarlı şəkildə müəyyən etmək və maliyyə hesabatında əks etdirmək məqsədi ilə həmin aktivin yenidən qiymətləndirildiyi tarixə də düzəliş edilir. Bu vəziyyətdə iki tənzimləmə üsulu istifadə olunur. Birinci üsula əsasən, amortizasiya, amortizasiyadan əvvəl aktivin balans dəyərindəki dəyişikliyə mütənasib olaraq yenidən ölçülür. Bu halda, yenidən qiymətləndirmədən sonra aktivin balans dəyəri onun yenidən qiymətləndirilmiş dəyərinə uyğun olmalıdır.

Tutaq ki, obyektin ilkin dəyəri 30000 manat, hesablanmış amortizasiya isə 5000 manatdır. Yenidən qiymətləndirmədən sonra aktivin balans dəyəri 35.000 manat olmalıdır. Yenidən qiymətləndirmədən əvvəl aktivin qalıq dəyərini müəyyən edək ki, bu da 30.000 man – 5000 man-=25.000 manat olacaq.

Yenidən qiymətləndirmə nəticəsində aktivin qalıq balans dəyərinin dəyişmə əmsalı, yenidən qiymətləndirmədən əvvəl balans dəyərinin qalıq dəyərinə nisbəti kimi müəyyən edilir: 35 000 manat: 25 000 manat = 1,4

Aktivin ilkin dəyəri yenidən qiymətləndirildikdən sonra 30.000 manat x 1.4 = 42.000 manat olacaq.

Bu mütənasibliyə uyğun olaraq yığılmış amortizasiyaya düzəlişlər edilir ki, bu da belə olacaq: 5000 manat x 1.4 = 70.000 manat.

Bu düzəliş əsasında yenidən qiymətləndirmədən sonra aktivin balans dəyəri belə olacaq: 452.000 manat-7.000

manat=35.000 manat. Hansı ki, birinci metodun yuxarıdakı şərtinə uyğundur.

İkinci üsul amortizasiya hesabının əsas vəsaitlər hesabına bağlanması üsuludur. Bu zaman obyektin ilkin dəyəri azaldılır və qalıq dəyərinə çatdırılır. Bunun üçün qeyd edilir:

Dt. 112 "Torpaq, tikili və avadanlıq - Amortizasiya"

Kt. 111 "Torpaq, tikili və avadanlıq – Dəyəri" – 5000 man.

Obyektin yenidən qiymətləndirməyə qədər qalıq dəyəri belə olacaq: yenidən qiymətləndirməyə qədər ilkin dəyəri 30 000 manat, yığılmış amortizasiya çıxılmaqla 5 000 manat. - 25000 man.

Əsas vəsaitlər hesabının debetinə daxil olan 25 000 manat aktivin qalıq dəyəri 10 000 manat fərqlə onun yenidən qiymətləndirilmiş (əvəz edilmiş) dəyəri 35 000 manata çatdırılsın. Yenidən qiymətləndirmə ehtiyatı aparılır, bunun üçün mühasibat uçotu verilir:

Dt. 111 "Torpaq, tikili və avadanlıq - Dəyər" - 10 000 manat

Kt. 331 "Yenidən qiymətləndirmə ehtiyatı" - 10 000 man

Əvəzetmə dəyəri yeni, oxşar aktivin dəyəridir. Amortizasiya edilmiş əvəzetmə dəyəri, yığılmış amortizasiya çıxılmaqla yeni, oxşar aktivin dəyəridir.

**Nəticə**

Beləliklə, bazar iqtisadiyyatına keçid, onun mülkiyyət formasından asılı olmayaraq çoxtərəfli inkişafı ilə əlaqədar ənənəvi idarəetmə funksiyaları dəyişir. Belə şəraitdə mühasibat uçotunun təkmilləşdirilməsi və beynəlxalq standartlara yaxınlaşdırılması zəruri olur. Hazırda müəssisələr tərəfindən beynəlxalq uçotun mütərəqqi üsul və metodlarından istifadəsinin mütərəqqi texnika və texnologiya ilə tam təmin edilməsi zəruri haldır.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Ə.A.Sadıqov, T.Ə.Sadıqov, Ş.Ə.Cəfərov, C.Ə.Sadıqov, Mühasibat uçotu, Dərslik (Kommersiya təşkilatları üçün) Bakı 2012.
2. O.Abbasov, S.Səbzəliyev, Ə.Daşdəmirov, V.Quliyev, Ə.Sadıqov. Mühasibat (maliyyə) uçotu. Bakı 2003
3. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq mühasibat uçotu və hesabata giriş. Bakı, 2001.
4. Rzayev G.R. Mühasibat uçotu və audit. Bakı, 2002.
5. Səbzəliyev S.M. Maliyyə hesabatı: formalaşma və təkmilləşmə problemləri. Bakı, 2004.
6. Пятов М.Л., Генералова, Н.В. Учетная политика организации, составляющей отчетность по МСФО- / М.Л. Пятов, Н.В. Генералова // БУХ. 1С. 2008. № 2. — С. 11
7. Семенов А.С. Организация работы по трансформации финансовой отчетности и переходу на МСФО» / А.С. Семенов // Международный бухгалтерский учет. 2008. — № 1. — С.21



**Мехман Мазахир оглы ГУСЕЙНОВ, к. э. н., доцент**

**Фатима Бадил кызы НОВРУЗОВА**
Азербайджанский Государственный Аграрный Университет
E-mail: hasanovafatima968@gmail.com


## ПРОБЛЕМЫ ОЦЕНКИ И УЧЕТНЫХ ЗЕМЕЛЬНЫХ ОБЪЕКТОВ, ЗДАНИЙ И ОБОРУДОВАНИЯ

**Резюме**


В статье анализируются проблемы оценки и организации земельных объектов, зданий и оборудования. Правильная оценка земли, зданий и оборудования имеет большое значение при их благоустройстве и учете. Земля, здания и объекты благоустройства оцениваются по их физическим и стоимостным показателям. Земля, здания и оборудование, а также расходы, связанные с их доставкой и строительством, учитываются по годовой стоимости до целого маната, в которую входят расходы, произведенные на их приобретение или строительство.

Таким образом, правильное использование земли, зданий и оборудования имеет большое значение для будущего развития экономики страны. Поэтому очень важен правильно организованный учет этих средств.

**Ключевые слова:** земля, здание, оборудование, оценка, учет, МСФО, МСБУ и др.

**Mehman Mazahir oghlu HUSEYNOV, ph.d., Associate Professor**

**Fatima Badil gizi NOVRUZOVA**
Azerbaijan State Agrarian University
E-mail: hasanovafatima968@gmail.com

## VALUATION AND ACCOUNTING PROBLEMS OF LAND OBJECTS, BUILDINGS AND EQUIPMENT

### Abstract

The article analyzes the problems of evaluation and organization of land objects, buildings and equipment. Correct assessment of land, buildings and equipment is of great importance in their improvement and accounting. Land, buildings and landscaping facilities are valued according to their physical and cost indicators. Land, buildings and equipment, as well as the costs associated with their delivery and construction, are accounted for at an annual cost up to a whole manat, which includes the costs incurred for their acquisition or construction. Thus, the proper use of land, buildings and equipment is of great importance for the future development of the country's economy. Therefore, properly organized accounting of these funds is very important.

**Keywords:** land, building, equipment, valuation, accounting, IFRS, IAS, etc.

**Cəfər Firdovsi oğlu CƏFƏROV**
Azərbaycan Dövlət Aqrar Universitetinin
"Maliyyə və iqtisadi nəzəriyyə" kafedrasının dissertantı
E-mail: jafar.jafarov@adau.edu.az

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AQRAR SIĞORTA BAZARININ YARANMA MƏRHƏLƏLƏRİ

**Xülasə**

Təbii riskləri təminata götürən effektiv sığorta mexanizmi nəinki kənd təsərrüfatı məhsul istehsalçılarının risklərini onlar arasında bölüşdürür, həm də kənd təsərrüfatının inkişafını istiqamətləndirir. Məqalədə aparılan tədqiqatın məqsədi Azərbaycanın aqrar sahəsində sığorta bazarının formalaşması mərhələləri və prinsipləri, dövlətin bu prosesdə rolunun öyrənilməsidir. Tədqiqatın metodologiyasının əsasında dünya aqrar sığorta bazarının təcrübəsinin, ilk növbədə Türkiyənin TARSİM modelinin mahiyyətinin və onun Azərbaycanda tətbiqi üsullarının araşdırılması dayanır. Eyni zamanda, statistik məlumatların bazasında Azərbaycanda tətbiq olunan sığorta modeli ətraflı təhlil edilmişdir. Məqalədə aparılan aqrar sığorta bazarının yaranma mərhələlərinin tədqiqatının elmi əhəmiyyəti ilə bağlı irəli sürülən bir çox fikirlər bu bazarın təkmilləşdirilməsində istifadə oluna bilər. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycanda aqrar sığorta bazarının yaranma mərhələləri, bu mərhələlər arasında fərq və hər bir mərhələnin üstünlükləri və çatışmazlıqlarının ətraflı tədqiqatı aparılmışdır. Paralel olaraq, bu sahənin inkişafı prosesində mövcud olan potensiallar qabarıq şəkildə üzə çıxarılmışdır.

**Açar sözlər:** aqrar sığorta, aqrobiznes riskləri, sığorta modeli, dövlət tənzimləməsi, risklərin idarə olunması.

**UOT** 368
**JEL:** G22, Q14

## Giriş

1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini yenidən bərpa etdiyi zamandan başlayaraq SSRİ dövründən miras qalan iqtisadi problemlərin həlli ölkəmizdə aparılan iqtisadi islahatın mərkəzində dururdu. İqtisadi islahatın əsas məqsədi inzibati amirlik sisteminin bazar sisteminə çevrilməsi idi. Bu dövrü iqtisadi ədəbiyyatda keçid dövrü də adlandırırlar. Keçid dövründə iqtisadi problemlərin həll olunmasının açarı inzibati amirlik sisteminin əsasını təşkil edən dövlət mülkiyyətinin özəl mülkiyyətə transformasiyası əsasında bazar iqtisadi sisteminin formalaşdırılması və hakim sistemə çevrilməsi idi. Aqrar sahə də bu proseslərdən kənarda qalmadı. XX əsrin 90-cı illərində iqtisadi islahatlar çərçivəsində aqrar sahədə ulu öndər Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü siyasətin nəticəsində Azərbaycanın aqrar sahəsində kolxoz və sovxozların fermer təsərrüfatlarına çevrilməsi prosesi baş verdi. Fermer təsərrüfatlarının kənd təsərrüfatında hakim mövqe tutması aqrar bazarın yaranmasının təməlini təşkil etdi.

Dünya təcrübəsindən məlumdur ki, aqrar sahənin yüksək riskliliyi bu sahədə iqtisadi artımın qarşısında dayanan əsas maneədir. Aqrar sahədə risklərin yüksək intensivliyi və səviyyəsi sahənin səciyyəvi xüsusiyyətləri ilə əlaqədardır. İlk növbədə sahədə biznes fəaliyyətinin təbii risklərə məruz qalmasıdır. Bu səbəbdən də, digər sahələrdən fərqli olaraq aqrar sahədə təbii hadisələr nəticəsində yaranan riskləri aqrobiznes riskləri də adlandıra bilərik [6]. Aqrobiznes risklərinin yüksək səviyyəsi öz təzahürünü ilk növbədə fermerlərin gəlirlərinin həcmində tapır. Bu səbəbdən də, kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlərinin sabitləşdirilməsi iqtisadi artımın təməl daşını təşkil edir. Gəlirlərin sabitləşdirilməsi isə ancaq aqrar sahədə mövcud olan aqrobiznes risklərinin effektiv idarəedilməsindədir. Aqrobiznes risklərinin effektiv idarəedilməsinin ən geniş yayılmış üsullarından biri və başlıcası kənd təsərrüfatı məhsullarının sığorta təminatına götürülməsidir. Müstəqillik dövründə aparılan iqtisadi islahatlar bu problemi nəzərdən qaçırmamış və bu sahədə zəruri olan ilkin

addımlar atılmışdır. Aqrobiznes risklərinin idarəedilməsinin kökündə aqrar sığorta bazarının yaradılması dayanır. Aqrar sığorta bazarının Azərbaycanda formalaşmasını biz iki mərhələyə bölə bilərik.

**Aqrar sığorta bazarının yaranmasının ilkin mərhələsi: dövlətin passiv iştirakı**

Birinci mərhələnin təməli 2002-ci ildə qəbul olunmuş "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qoyulmuşdur [3]. Bu qanunun məqsədi Azərbaycan Respublikasında aqrar sığorta bazarının formalaşmasının institusional əsaslarını yaratmaqla yanaşı, fermerlərin investisiya və təsərrüfat fəaliyyətinin stimullaşdırılması idi. Bununla bərabər, aqrar sığorta bazarının tənzimlənməsi məqsədi ilə dövlət büdcəsi tərəfindən sığorta haqlarının subsidiyalaşdırılmasını nəzərdə tuturdu. Baxmayaraq ki, qanunun tətbiq edildiyi ilkin dövrlərdə (2004-cü il) yalnız buğda məhsulu üzrə sığorta haqqının 25%-i dövlət büdcəsi hesabına subsidiyalaşdırılırdı, sonrakı illərdə bu siyahı genişləndiriləræk bir çox dənli məhsulları (arpa, qarğıdalı, günəbaxan və s.), meyvə və üzüm məhsullarını da əhatə etmişdir. Qeyd edək ki, 2007-ci ildən dövlət hesabına sığorta haqlarının subsidiyalaşdırılması isə 50%-ə çatdırılmışdır [8].

Digər tərəfdən isə, kənd təsərrüfatı məhsullarının (bitkiçilik və heyvandarlıq) təbii hadisələrdən sığortalanmasının həm dövlət şirkətləri, həm də özəl sığorta şirkətləri tərəfindən həyata keçirilməsi nəzərdə tutulurdu. Lakin, birinci mərhələdə özəl şirkətlər aqrar sığorta bazarına elə də böyük maraq göstərmədilər. Təkcə onu demək kifayətdir ki, birinci mərhələdə sığorta bazarında maksimum 29 şirkətdən ancaq 5 şirkət eyni zamanda aqrar sığorta bazarında da fəaliyyət göstərirdi. Özəl şirkətlərin aqrar sığorta bazarında zəif iştirakını sahənin yüksək riskliliyi və dövlət tərəfindən tənzimlənməsinin passiv xarakteri ilə izah etmək olar. Həmin dövrün statistik məlumatları da deyilənləri tam təsdiqləyir. Belə ki, 2013-cü ildə Maliyyə Nazirliyi tərəfindən kənd təsərrüfatı məhsullarının sığortalanmasına ayrılan vəsaitlərin ancaq 0,9%-i, 2014-cü ildə isə cəmi 2,3%-i təyinatı üzrə istifadə olunmuşdur. Eyni zamanda, sığorta şirkətləri heyvanların sığortalanmasına üstünlük verirdilər. Məsələn, 2014-cü ildə bitkiçilik məhsulları üzrə yığılan sığorta haqları ümumi sığorta haqlarının 18%-ni, heyvandarlıqda isə 82%-ni təşkil etmişdir [10]. Sonrakı illərdə də, bu dinamikada əhəmiyyətli dəyişiklik baş verməmişdir və heyvandarlığın payı yüksək səviyyədə qalmışdır. 2014-2019-cu illər arasında bitkiçilik məhsullarının payı müəyyən qədər artsa da, bizim hesablamalara görə 2019-cu ildə heyvandarlığın payı ən yüksək həddə çataraq aqrar sahədə yığılan sığorta haqlarının 88,71%-nə çatmışdır. Sahələr arasında belə disproporsiya sığorta ödənişlərində də öz əksini tapmışdır. Bu illər ərzində ümumi tendensiya ondan ibarət olmuşdur ki, baş vermiş hadisələrə görə sığorta ödənişləri göstərilən illər üzrə heyvandarlıqda artaraq 2019-cu ildə demək olar ki, 100%-ə çatmış, bitkiçilikdə isə sıfırlanmışdır [5].

Aqrar sığorta bazarında bitkiçilik və heyvandarlıq istiqamətlərində yığılan sığorta haqları arasında belə kənarlaşmanın iki səbəbi olmuşdur. Birinci səbəbi ondan ibarətdir ki, heyvandarlıqla müqayisədə bitkiçilik məhsulları təbii hadisələrin təsirinə daha çox məruz qalır və müvafiq olaraq risklərin səviyyəsini də artırır. Tarixən məlumdur ki, sığorta şirkətləri daha az riskli sahələri "sevirlər" və riskləri təminata götürdükdə bu sahələrə daha çox üstünlük verirlər. İkinci səbəbi isə heyvandarlıqda lizinqin geniş yayılmasıdır. Belə ki, Azərbaycanda heyvandarlığı stimullaşdırmaq məqsədi ilə cins heyvanların lizinq yolu ilə güzəştli satışı həyata keçirilir. Məlumdur ki, lizinq də kredit əməliyyatları kimi əmlakın sığortalanmasını tələb edir. Cins heyvanlar da əmlak olduqları və güzəştli şərtlərlə satıldığı üçün hökmən satış şirkəti tərəfindən əmlakın sığortalanmasını məcburi hala çevirirdi və hazırda da çevirir.

Sığorta şirkətlərinin aqrar sığorta bazarının inkişafında maraqlı olmamaqları ilə yanaşı, kənd təsərrüfatı məhsul istehsalçılarının da bu bazara olan etimadsızlığı onun inkişafına mənfi təsir göstərməyə bilməzdi. Kənd təsərrüffatı məhsul istehsalçılarının sığorta şirkətlərinə olan etimadsızlığını müəyyən səbəblərlə izah etmək olar:

- ilk növbədə müqavilələrin bağlanmasında bürokratik əngəllərin mövcud olması və sığorta şərtlərinin sərt xarakteri;

- risklərin qiymətləndirilməsinin müstəqil ekspert tərəfindən deyil, sığorta şirkətinin nümayəndəsi tərəfindən aparılması;
- sığorta ödənişlərinin qarşısında suni əngəllərin yaradılması;
- tarif dərəcələrinin cəlbediciliyinin aşağı olması;
- sığortanın mahiyyəti və üstünlüyü haqqında maarifləndirmənin zəif olması.

Nəticədə aqrar sığorta bazarı ölkənin ümumi sığorta bazarının zəif həlqəsinə çevrilmişdir. Bu hal aqrar sığorta bazarının ümumi sığorta bazarının payında da öz təzahürünü göstərmişdir. Təsadüfi deyil ki, 2019-cu ildə heyvandarlıqda yığılan sığorta haqqı ölkə üzrə yığılan ümumi sığorta haqlarının payında 0,2%, bitkiçilikdə isə cəmi 0,03% təşkil etmişdir. Belə vəziyyət, həm də sığorta ödənişlərində özünü biruzə vermişdir. Belə ki, əgər ölkə üzrə ümumi sığorta ödənişlərinin həcmi yığılan sığorta haqlarında 44,3% təşkil etmişdirsə, aqrar sahədə bu rəqəm 0,3%-ə bərabər olmuşdur [5].

Apardığımız analitik və statistik təhlildən belə nəticə çıxartmaq olar ki, 2020-ci ilə kimi davam etmiş sığorta bazarının ilkin mərhələsi inkişaf imkanları tapmayaraq tənəzzülə uğramışdır. Bu tənəzzülün baş verməsində yuxarıda sadalanan və təhlil olunan səbəblərlə yanaşı onların aradan qaldırılması dövlətin zəif müdaxiləsi ilə izah olunur. Deməli, bu ilkin mərhələni biz aqrar sığorta bazarının dövlət tərəfindən tənzimlənməsinin passiv dövrü kimi də qələmə verə bilərik. Bu vəziyyətdən çıxış yolu aqrar sığorta bazarının tənzimlənməsində dövlətin rolunun passiv formadan aktiv formaya çevrilməsi idi. Bu proses 2019-cu ildə "Azərbaycanda Aqrar Sığorta haqqında" qanunun qəbul edilməsi və Aqrar Sığorta Fondunun yaradılması ilə başlanmışdır. Bundan sonrakı dövrü biz aqrar sığorta bazarının formalaşmasının ikinci mərhələsi də adlandıra bilərik.

**Aqrar sığorta bazarının yaranmasının ikinci mərhələsi: dövlətin aktiv iştirakı**

İkinci mərhələdə qəbul olunmuş qanuna müvafiq olaraq aqrar sığorta bazarının əsas obyektləri və subyektləri konkret şəkildə ifadə olunmuş və bu bazarın tənzimlənməsində dövlətin əsas vəzifələri müəyyən edilmişdir. Eyni zamanda, aqrar sığorta bazarının tənzimlənməsi məqsədi ilə xüsusi yaradılmış Aqrar Sığorta Fondu sığorta şərtlərini müəyyənləşdirən, həyata keçirən və sığorta bazarının işləmə mexanizmini təşkil edən qeyri-kommersiya təşkilatıdır. Sığorta şərtlərinə görə sığorta haqlarının 50%-i dövlət büdcəsi vəsaiti hesabına subsidiyalaşdırılır [3]. Xüsusi ilə qeyd edək ki, yeni qanuna əsasən tətbiq edilən sığorta modeli Türkiyənin TARSİM modelinin təcrübəsinə əsaslanaraq dövlət və özəl tərəfdaşlığını nəzərdə tutur. Qanuna əsasən 41 adda bitkiçilik məhsulları, 19 adda isə meyvə məhsulları risklərdən təminata götürülür. Heyvandarlıqda isə 3 yaşa qədər ətlik mal-qara, 7 yaşa qədər südlük mal-qara və 5 yaşa qədər xırdabuynuzlu heyvanların sığortalanmasını əhatə edir [4].

Yeni qəbul edilmiş sığorta modelinin aşağıdakı üstünlüklərini xüsusi vurğulamaq olar:

- aqrar sığorta bazarın tənzimlənməsində dövlətin passiv rolunun aktiv rola çevrilməsi və onun aqrar sığorta bazarının inkişafında aparıcı rola malik olması;
- sığorta haqlarının 50%-nin subsidiyalaşdırılması və Aqrar Sığorta Fondunun qeyri-kommersiya xarakteri daşıması;
- azgəlirli təsərrüfatların aqrar sığorta bazarında iştirakının təmin edilməsi;
- müstəqil ekspertlərin risklərin qiymətləndirilməsinə cəlb edilməsi və müvafiq olaraq onun şəffaflığının təmin edilməsi;
- risklərin qiymətləndirilməsində çevikliyin və vaxtın qısaldılması;
- baş vermiş təbii hadisələrə görə ödənişlərin vaxtının konkret müəyyənləşdirilməsi;
- iqtisadi rayonlarda coğrafi iqlim şəraitindən asılı olaraq risklərin səviyyəsinə uyğun tarif dərəcəsinin diferensiallaşdırılması;
- müxtəlif güzəştlərin tətbiqi;
- apelyasiya şurasının yaradılması.

Əlbəttə, Türkiyə təcrübəsinə əsaslanan modelin yaradılması və bu bazarın tənzimlənməsində dövlətin aktiv iştirakı aqrar sığorta bazarının inkişafında yeni mərhələyə keçməsinin əsas şərtlərindən biridir. Son illərdə aqrar sığorta bazarının fəaliyyətinin statistik təhlili də bu fikri təsdiqləyir. Ən əsası isə odur ki, yeni model 2020-ci ildən başlayaraq bu sahədə əhəmiyyətli dönüş yaratmışdır. Xüsusilə də, bu dönüş bitkiçilik və heyvandarlıq məhsullarının sığorta haqlarının yığılmasında və ödənişlərinin aparılmasında baş vermişdir. Belə ki, artıq

2021-ci ildə yığılan sığorta haqlarına görə bitkiçilik sahəsi heyvandarlıq sahəsinə bərabərləşdi, 2022-ci ildə isə üstələmə müşahidə olunmağa başlandı. 2022-ci ildə bitkiçilik sahəsində yığılan sığorta haqlarının payı ümumi aqrar sığorta haqlarının payında 62,2%, heyvandarlıqda isə 37,8% təşkil etmişdir. Eyni tendensiya sığorta ödənişlərində də müşahidə olunmaqdadır. Baxmayaraq ki, sığorta ödənişlərinin ümumi məbləğində hələ də heyvandarlıq məhsulları üstünlük təşkil edir, lakin, onlar arasında fərq getdikcə azalmaqdadır. 2022-ci ildə yığılan sığorta haqlarının 18,2%-i bitkiçilik sahəsində baş vermiş təbii hadisələrə görə, 19,3%-i isə heyvandarlıqda sığorta hadisələrinə görə ödənişlər edilmişdir. Ümumi tendensiya isə ondan ibarətdir ki, artıq 2022-ci ildə 2020-ci illə müqayisədə sığorta hadisələrinə görə ödənişlərdə heyvandarlığın payı 39% azalmış, bitkiçliyin payı isə 61% artmışdır.

Aqrar sığorta bazarında köklü dönüşün yaranmasında əsas məqamlardan biri də odur ki, bu bazarın ümumi sığorta bazarında da payı dəfələrlə artaraq 2022-ci ildə 1,53%-ə çatmışdır. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2019-cu ildə cəmisi 0,23% təşkil edirdi [5]. Əbəttə, təhlil etdiyimiz üç ilin göstəriciləri onun nə qədər uğurlu olması haqqında tam məlumat vermir. Çünki, zəif inkişaf etmiş bazarın stimullaşdırılması nəticəsində ilkin illərdə müvafiq göstəricilərin baza dövrü ilə müqayisədə yüksək artım tempi müşahidə oluna bilər. Onun növbəti illərdəki göstəriciləri isə hələlik məlum deyil. Türkiyə təcrübəsi göstərir ki, aqrar sığorta bazarı o zaman inkişaf edir ki, risklərə daha çox məruz qalan bitkiçilik sahəsi bütün sığorta göstəriciləri üzrə (sığorta haqları və ödənişlər) daha az riskli olan heyvandarlıq sahəsini üstələsin. Bu baxımdan Türkiyəni misal kimi gətirsək görərik ki, bitkiçlik sahəsində yığılan sığorta haqlarının payı 2021-ci ildə ümumi yığılan sığorta haqlarında 85,3%-ə qədər qalxmışdır. Sığorta ödənişlərində isə bu göstərici ümumi yığılan sığorta haqlarının 72%-ni təşkil etmişdir [9]. Rəqəmlərdən göründüyü kimi, aqrar sığorta bazarının inkişafı ilk növbədə bitkiçilik sahəsi ilə birbaşa əlaqəlidir. Dünya təcrübəsi də bu fikri təsdiq edir. Belə ki, dünya üzrə aqrar sığorta haqlarında bitkiçlik məhsullarının payı 90%-ə bərabərdir. Digər sahələr isə, heyvandarlıq da daxil olmaqla akvakultura, meşəçilik və istixanalar cəmisi ümumi yığılan sığorta haqlarının ancaq 10%-ni təşkil edir [11].

Amma, onu da qeyd edək ki, Azərbaycanın aqrar sığorta bazarının inkişafı üçün böyük potensiallar mövcuddur. Hazırda ölkəmizdə əkinə yararlı sahələrin ümumi miqdarı 4780,6 min hektara qədərdir [1]. Aqrar Sığorta Fondunun 2022-ci il statistik məlumatlarına əsasən sığortalanmış əkin sahəsinin həcmi 261223 hektar təşkil edir [2]. Bu da, ümumi əkin sahəsinin cəmi 5,5 %-ni təşkil edir. Müvafiq vəziyyət heyvandarlıq üçün də xarakterikdir. Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarların balansında olan iribuynuzlu mal-qaranın sayı 2648,8 min baş, qoyun və keçilərin sayı isə 7899,7 min başdır [1]. Sığortalanmış heyvanların ümumi sayı isə cəmi 13102 başdır [2]. Bu da, ümumi sığortalanan heyvanların cəmi 0,12% -ni təşkil edir.

Beləliklə, rəqəmlərdən göründüyü kimi aqrar sığorta bazarının ikinci mərhələsi çox uğurla başlamışdır və bu istiqamətdə əhəmiyyətli addımlar atılmışdır. Ən əsas addım isə ondan ibarətdir ki, dövlət aqrar sığorta bazarının tənzimlənməsinin əsas aparıcı qüvvəsinə və aktiv iştirakçısına çevrilmişdir. Aqrar sığorta bazarının belə inkişafı ilk növbədə kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlərinin sabitləşməsinə, investisiya imkanlarının artmasına və son nəticədə kənd təsərrüfatının ümumilikdə inkişafında mühüm rol oynayacaqdır. Onu da qeyd edək ki, bu sahənin inkişafı bütün dünyada müsbət trend xarakteri daşıyır və ümumi qanunauyğunluqdur. Aqrar sığorta bazarının inkişafı eyni zamanda müasir dünyada baş vermiş iqlim dəyişiklikləri mühitində öz dəyərini dəfələrlə artırır. Eyni zamanda, hər bir ölkənin strateji məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi isə aqrar sahənin inkişafından və bu sahədə risklərin effektiv idarəedilməsi ilə bilavasitə qarşılıqlı əlaqədədir. Azərbaycanın aqrar sahəsinin böyük potensialı olmasına baxmayaraq, hələ ki aqrar sığorta bazarının yarandığı ikinci mərhələdə bu potensialdan tam istifadə olunmur. Amma, ümumi trend ondan ibarətdir ki, aqrar sığorta bazarı sürətli şəkildə genişlənməkdədir. Bu

potensialın reallaşması sürəti ərzaq təhlükəsizliyinin təmin edilməsində ən əhəmiyyətli addımlardan biri ola bilər.

**Nəticə**

Azərbaycanın aqrar sahəsində sığorta bazarının formalaşmasının tarixi inkişaf mərhələlərinin öyrənilməsi əsasında ümumiləşdirilmiş formada qısa nəticələr çıxarda bilərik:

- aqrar sığorta bazarının formalaşması müəyyən zaman kəsiyində baş vermiş və onun təməli müstəqillik dövrünün əvvəllərində qoyulmuşdur.
- aqrar sığorta bazarının yaranmasının əsas səbəbi məruz qaldığı təbii hadisələr nəticəsində dəymiş itkilərdən fermerlərin müdafiə edilməsi və gəlirlərinin sabitləşdirilməsidir.
- Azərbaycanda formalaşmış müasir sığorta bazarının yaranmasını şərti olaraq iki mərhələyə bölmək olar. Birinci mərhələ 2000-ci illərin əvvəllərindən başlamış və 2019-cu ilə qədər davam etmişdir. Bu mərhələdə sığorta bazarında müəyyən uğurlar qazanılsa da, son nəticədə uğursuzluqla nəticələnmişdir. Bunun əsas səbəbi bazarın tənzimlənməsində dövlətin iştirakının passiv xarakteri və bazarın tam özəl şirkətlərin ixtiyarına verilməsidir. İkinci mərhələ 2020-ci ildən başlamış və hazırda davam etməkdədir. Qeyd edək ki, ikinci mərhələdə dövlətin bazarın tənzimlənməsində və sığorta şərtlərinin müəyyənləşdirilməsində aktiv rolu onun qısa müddətdə sürətlə genişlənməsinin və inkişafının təməl daşına çevrilmişdir.
- Aqrar sığorta bazarının qısa müddətdə bitkiçilik və heyvandarlıqda mövcud vəziyyəti qənaətbəxş hesab edilsə də, lakin, bu sahənin bütöv potensial imkanlarından tam istifadə edilməmişdir. Amma, nəzərə almaq lazımdır ki, aqrar sığorta bazarı Azərbaycanda yenidir və aqrar sahəni tam əhatə etməsinə müəyyən zaman tələb olunur.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı. 2022. s. 53
2. Aqrar Sığorta Fondunun statistik məlumatları www.asf.gov.az
3. Aqrar sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. 27 iyun 2019-cu il
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 505 nömrəli Qərarı ilə təsdiq edilmiş “Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi”ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. 21 dekabr 2021-ci il. 397 saylı qərar.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları. https://www.cbar.az/page-189/insurance
6. C.F.Cəfərov. Aqrar risklərin nəzəri əsasları və idarəedilməsində sığorta amili. ADAU-nun Elmi Əsərləri. 2023. s.40-46
7. Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında Azərbaycan Respublikasının qanunu. 18 iyun 2002 Bakı. https://e-qanun.az/framework/1124
8. M.M.Sadıqov, M.C.Hüseynov, H.H.Həsənov. Kənd təsərrüfatının maliyyəsi. Gəncə. ADAU. 2012. s.151
9. TARSİM 2021 Faaliyet Raporu, s.20
10. Гусейнов М.Дж, Салахов Э.А. Основные проблемы финансовой обеспеченности аграрной сферы. Финансовый вестник . 2 (33). Воронеж. 2016.стр.55
11. Atlas magazine «Agriculture insurance: products and schemes». 2018. https://www.atlas-mag.net/en/article/agricultural-insurance-products-and-schemes

**Джафар Фирдовси оглы ДЖАФАРОВ**
Диссертант кафедры «Финансы и экономическая теория»
Азербайджанского Государственного Аграрного Университета
E-mail: **jafar.jafarov@adau.edu.az**

## ЭТАПЫ СТАНОВЛЕНИЯ РЫНКА СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО СТРАХОВАНИЯ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Резюме**

Эффективный механизм страхования, покрывающий природные риски, не только распределяет их между производителями сельскохозяйственной продукции, но и направляет развитие сельского хозяйства. Целью исследования, проведенного в статье, является изучение этапов и принципов формирования страхового рынка в аграрной сфере Азербайджана, роли государства в этом процессе.Методология исследования основана на изучении опыта мирового рынка сельскохозяйственного страхования, в первую очередь, сущности турецкой модели TARSIM и методов ее применения в Азербайджане. В то же время на базе статистических данных была детально проанализирована страховая модель, применяемая в Азербайджане. Научная значимость исследования этапов становления рынка сельскохозяйственного страхования, проведенного в статье, выдвинутые идеи могут быть использованы в совершенствовании этого рынка. Научная новизна статьи заключается в том, что впервые подробно исследованы этапы становления рынка сельскохозяйственного страхования в Азербайджане, различия между этими этапами, преимущества и недостатки каждого этапа. В то же время были отчетливо выявлены имеющиеся потенциалы в процессе развития данной сферы.

**Ключевые слова:** сельскохозяйственное страхование, риски агробизнеса, модель страхования, государственное регулирование, управление рисками.

**Jafar Firdovsi JAFAROV**
Ph.D candidate of Finance and economic theory department of
the Azerbaijan State Agricultural University
E-mail: **jafar.jafarov@adau.edu.az**

## ESTABLISHMENT STAGES OF THE AGRICULTURAL INSURANCE MARKET DURING THE PERIOD OF INDEPENDENCE

**Summary**

An effective insurance mechanism that covers natural risks not only distributes the risks of agricultural producers among them, but also directs the development of agriculture. The goal of the research presented in this article is to investigate the stages and principles of insurance market creation in Azerbaijan's agrarian area, as well as the involvement of the state in this process. The research approach is based on a review of the global agriculture insurance market's experience, namely the substance of Turkey's TARSIM model and its implementation techniques in Azerbaijan. Simultaneously, the insurance model used in Azerbaijan was thoroughly examined in a statistical data database. Numerous recommendations of scientific value from the article's analysis of the stages of the establishment of the agricultural insurance market can be applied to improve this market. The scientific novelty of the article is that, for the first time, a detailed study of the stages of the creation of the agricultural insurance market in Azerbaijan, the difference between these stages, and the advantages and disadvantages of each stage was conducted. At the same time, the existing potentials in the process of development of this field have been clearly revealed.

**Keywords:** agriculture insurance, agribusiness risks, insurance model, state regulation, risk management.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Azərbaycan Texnologiya Universiteti

# İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT

№ 1 2023

**Baş redaktor:**

**Yaşar Adil oğlu Ömərov, dosent**

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
**Gülalıyev Mayıs Gülalı oğlu i.e.d., dos.**

**Məsul katib:**
**Zəminə Novruzova**

Hacıyeva Nüşabə, i.f.d., dosent
Qurbanova Xatirə, i.f.d, dosent
Qarayev Maarif , f.f.d., dosent
Hümbətov Yusif, i.f.d., dosent
Əhmədova Mətanət, t.f.d., dosent

**GƏNCƏ – 2023**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdaki Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №1, 2023, - 288 səh.*

©Azərbaycan Texnologiya Universiteti

Redaksiyanın ünvanı: AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti 103
Azərbaycan Texnologiya Universiteti Tel: +(994-22) 57-56-29,
Faks: +(994-22) 57-29-61 E-mail: info@atu.edu.az, uteca.iem@gmail.com

© Azərbaycan Texnologiya Universiteti 2023

## MÜNDƏRİCAT

**HÜMBƏTOV Yusif Əbülfət oğlu, QAPAQOV Vüqar Faiq oğlu**
Sanatoriya və kurortların turizmin sənaye əsasında təşkilinə təsiri…………………….. 6

**ƏLİYEV, Şəfa Tifli oğlu, CƏBİYEV Fərid Arif oğlu**
Sumqayıt Şuşa şəhərinin sosial-iqtisadi inkişafının təmin edilməsində Heydər Əliyevin rolu..... 11

**ABBASOV Vahid Hacıbəy oğlu, HƏSƏNZADƏ Esmira Hüseyn qızı**
Azərbaycan Respublikasında maliyyə mexanizmlərinin təkmilləşdirilməsində iqtisadi təhlükəsizliyin rolu……………………………………………………………………… 18

**ABBASOV Fuad Zakir oğlu, NƏCƏFOV Rəşad Baxşəli oğlu**
Layihələrin idarə edilməsində risklər və onların azaldılması yolları……………………….. 24

**AĞAYEVA Xalidə Mehdi qızı, RZAYEVA Həmayə Mikayıl qızı**
Milli iqtisadiyyatın inkişafında kiçik biznesin rolu …………………………………….. 30

**ASLANOV Emin Şahin oğlu, HƏSƏNOV Elmin Elçin oğlu**
Korporativ kredit portfelinin idarə edilməsinin yerli və xarici təcrübəsi……………… 38

**BABAYEV Məhərrəm Ramiz oğlu**
Xarici investisiyaların iqtisadi inkişafa təsiri……………………………………………. 45

**CAVADOV Natiq Əli oğlu, MƏHƏRRƏMOV Əli İxtiyar oğlu**
Turizmə ölkəmizdə strateji baxışlar və ona təsir edən amillərin təkmilləşdirilməsi…….. 52

**HACIYEVA Aygün Alim qızı, SALIYEVA, Validə İsa qızı, ABBASZADƏ Nəsimi Əlipolad oğlu**
Ölkənin sosial-iqtisadi inkişafında kiçik və orta biznesin rolu və inkişaf yolları ……… 58

**HACIYEVA Səbinə İsmayıl qızı**
Aqrar sahədə səmərəli kadr siyasətinin formalaşması istiqamətləri……………………….. 64

**HACIYEVA Sevda Tofiq qızı, RZAYEVA Aynur Muraz qızı**
İnsan resurslarının idarə edilməsi mexanizmi ilə bağlı baxışlar………………………… 70

**HƏMİDOV Afiyəddin Həmid oğlu, QƏLƏNDƏRLİ Pünhan Qəşəm qızı**
Süd emalı müəssisələrində insan resurslarının idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi…………………………………………………………………………... 77

**HƏSƏNOV Arzu Nəcəf oğlu, ORUCOV Fərid Rahil oğlu**
Turizm destinasiyasının strukturunun planlaşdırılması və təşkili prinsipləri…………… 84

**HUSEYNOV Ragif Tofiq, HUSEYNOVA Shafa Shahin**
Stress management strategıes…………………………………………………………… 92

**HÜSEYNOV Məhərrəm Cəlal oğlu, İSGƏNDƏRLI Asim Akif oğlu HÜSEYINZADƏ İmamverdi Lətif oğlu**
Korporativ biznesdə risklərin idarə edilməsi metodologiyasının tətbiqi………………... 99

**HÜSEYNOV Mehman Məzahir oğlu, ABBASOVA Sumayya Təhmasib qızı**
Kənd təsərrüfatı müəssisələrində daxili audit işinin təşkili…………………………………. 105

**HÜSEYNOV Nüsrət Qənbər oğlu, ZEYNALOVA Arzu Zaur qızı**
İşgüzar münasibətlərdə marketinq xidmətindən istifadənin yaxşılaşdırılmasının yolları…………………………………………………………………………………… 111

**İLYASOV Asiman Rasim oğlu**
Ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyətin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət meyarlarına dair persepsiyasının akkreditasiya meyarlarında əks olunması vəziyyəti……………………………………. 117

**HƏMİDOV Afiyyəddin Həmid oğlu, MUSTAFAYEVA Həbibə Sabid qızı**
Bazar iqtisadiyyatı şəraitində dövlətin struktur siyasətinin reallaşması və təkmilləşdirmə məsələləri………………………………………………………………… 123

**KƏRİMOV Fazil Cəmil oğlu, MƏMMƏDOVA Aidə Xeyrəddin qızı, QÜRBƏTZADƏ Anarə Anar qızı, HƏSƏNOVA Əfsanə Vaqif qızı**
Daxili istehlak bazarında nəzarət mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri…… 131

**KƏRİMOVA Minurə Hacı qızı, RZAYEVA Aynur Muraz qızı, İSGƏNDƏRLİ Asim Akif oğlu, HƏSƏNOVA Əfsanə Vaqif qızı**
Kommersiya müəssisələrində insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi.. 139

**MƏHƏRRƏMOV Eldəniz Məzahir oğlu**
İşğaldan azad olunmuş ərazilərdə aqrar sahənin mövcud vəziyyəti və inkişaf etdirilməsi problemləri ........................................................................................................ 147

**MİRZƏZADƏ Nərmin Qabil qızı**
Subsidiyalaşmanın kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında rolu………… 155

**MUXTAROVA Pərvin Elman qızı, RƏHİMOVA Gülnarə Rəsul qızı**
Azərbaycan respublikasında büdcə sistemi ……………………………………………….. 161

**NƏBİYEVA Türkan Hamlet qızı**
Müasir dövrdə beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri məsələləri…. 167

**NƏRİMANOV Nicat Adil oğlu, MEHTIYEVA Leyla Samir qızı MUSTAFAYEVA Həbibə Sabit qızı**
Xarici investisiya qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları …………….. 174

**QARAYEV Mahir Tahir oğlu**
Aqrar sahənin maddi-texniki bazasının inkişaf etdirilməsi perspektivləri……………… 181

**ZEYNALOV Zakir Hacı oğlu, TƏLAİ Pərvin Cavanşir qızı**
Dayanıqlı bank sektorunun sosial-iqtisadi inkişafda əhəmiyyəti……………………….. 187

**QASIMLI Tükəzban Qurban qızı, VƏLİZADƏ Həcər Şöhrəddin qızı**
Dayanıqlı inkişaf kontekstində marketinq fəaliyyətinin əhəmiyyəti…………………… 195

**RƏSULOV Kamran Ağaəli oğlu**
İnnovasiyalı sənaye istehsalının iqtisadi məqsədəuyğunluq aspektləri………………… 203

**Xurşudov Şahin Nadir oğlu, Mustafayev Ramin Ramis oğlu**
COVİD-19 pandemiyasının dünya iqtisadiyyatına və turizminə təsirləri ……………… 212

**ZEYNALLI Elay Cəlal oğlu, ZEYNALOV Fərid**
Aqrar sahənin modern inkişafında beynəlxalq əməkdaşlığın rolu …………………….. 218

**ZEYNALOV Zakir Hacı oğlu, MƏMMƏDOV Rəşad Çingiz oğlu**
Qarabağ və Şərqi Zəngəzur ərazilərində turizmin inkişaf istiqamətləri..…………………… 225

**ƏLƏKBƏROV Zeynalabdin Arif oğlu**
Qlobal transformasiyalar şəraitində sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemləri........................................................................................ 231

**İSMAYILOVA Güləndam Şahiddin qızı**
Azərbaycanda neft emalı sənayesinin inkişafında innovativ texnologiyaların tətbiqi perspektivləri........................................................................................................................ 238

**NƏSİBOVA Zümrüd Cümşüd qızı**
Qarabağ iqtisadi rayonunun "ağıllı" texnologiyalar əsasında inkişaf etdirilməsi yolları............... 245

**ƏLƏSGƏROV Samir Xosrov oğlu**
Sənaye istehsalında vergilərin tənzimlənməsi prosesində risklərin ölçülməsi məsələləri.............. 252

**ƏLİYEV Gəray Aydın oğlu**
Real iqtisadiyyatın inkişaf etdirilməsində kreditləşdirmə mexanizminin strateji aspektləri.......... 259

**HÜSEYNZADƏ Gülşən Qalib qızı**
Sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi problemləri.................................... 266

**BAXŞƏLİYEV Rüfət Məzahir oğlu**
Regionlarda bank-kredit müəssisələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi yolları............... 274

**HÜSEYNOV Mehman Məzahir oğlu, NOVRUZOVA Fatimə Badil qızı**
Torpaq obyektlərinin, tikili və avadanlıqların qiymətləndirilməsi və uçotun təşkili problemləri...................................................................................................................... 281

**CƏFƏROV Cəfər Firdovsi oğlu**
Müstəqillik dövründə aqrar sığorta bazarının yaranma mərhələləri................................. 287

**Yusif Əbülfət oğlu HÜMBƏTOV, i.e.d., dos.**

**Vüqar Faiq oğlu QAPAQOV, t.f.d., dos.əv.**
Azərbaycan Texnologiya Universiteti
E-mail: vugargapagov@gmail.com

# SANATORİYA VƏ KURORTLARIN TURİZMİN SƏNAYE ƏSASINDA TƏŞKİLİNƏ TƏSİRİ

**Xülasə**

Balneoloji ehtiyatlar sanator-kurort müəssisələrinin təşkilində əsas müalicə amillərindən sayılır. Ölkəmizdə mövcud olan bütün mineral və termal sulardan istifadə edilməsi balneoloji kurortların inkişafı üçün əhəmiyyətli zəmin yaradır. Azərbaycanda müalicə-sağlamlıq məqsədilə aparılan araşdırma nəticəsində məlum olub ki, ölkəmizdə müalicəvi müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanatoriya mühafizə zonaları və digər kurort infrastrukturunun təşkili üçün geniş imkanlar vardır.

Müasir dövrdə fəaliyyət göstərən turizm firmaları özünün davamlı fəaliyyətini təmin etmək məqsədilə turizm xidməti və biznesinin vəhdəti olan turizm sənayesinin yaradılmasına cəhd göstərirlər. Turizm sənayesinin tərkibində müalicə işinin yəni sanatoriya və kurortların olması məqsədəuyğun olardı.

**Aşar sözlər:** balneloji ehtiyatlar, müalicəvi sular, turizm potensialı, turizm sənayesi, kompleks turizm müəssisələri, müalicə-sağlamlıq turizmi.

**UOT:** 338
**JEL:** L 86

**Giriş**

Ölkəyə turist axınını təmin etmək üçün öncə bəzi nüanslara diqqət edilməlidir. Turistlərin tələbatı müəyyən edilməklə yanaşı, həm də, öncədən bu sahədə infrastruktur şəbəkəsini inkişaf etdirmək, turistlərin yerləşməsi üçün mövcud otellərdə xidmət və keyfiyyət standartlarına uyğun olmasını, nəqliyyat şəbəkəsinin genişlənməsini təmin etmək lazımdır.

Son illərdə sağlamlıq turizminin təşkili istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilir. Öncə müalicə mərkəzləri, onların təklif etdiyi xidmətin keyfiyyəti, personalın davranışı, müalicə çeşidi, qiymətlərin miqdarı və s. kimi məlumatlar əldə edilir.

Əldə edilən məlumatlara əsasən sanatoriya kurortların yenidən təşkili həyata keçirilir. Bu proseslərin həlli zamanı əlaqədar təşkilatların birgə köməyindən istifadə edilir. Ölkəmizdə sağlamlıq turizminin təşkili zamanı bir çox ölkənin bu sahədə həyata keçirdiyi təcrübədən istifadə edilir. Digər ölkələrdən ekspertlərin dəvət olunması, bu sektorun inkişaf etdiyi ölkələrə infoturların təşkil olunması sağlamlıq turizminin təşkilində mühüm rol oynayır. Buna Naftalan, Qalaaltı və başqa turizm mərkəzlərinə təşkil edilən infoturları misal göstərmək olar [4, səh. 11].

Sağlamlıq funksiyasını qorumaq üçün sanatoriya və kurortlar xəstələrin proqramlarını daha fərqli formada - mədəni tədbirlər və geniş sağlamlıq xidmətlərinin təklifi yönündə tədbirlər həyata keçirir.

Sanatoriya və kurortların məqsədi sağlamlıq xidmətlərinin və müştərinin sağlam yaşam tərzinin yüksək səviyyədə təşkil edilməsidir. Xidmətin xüsusiyyətləri ilə əlaqədar olaraq sanatoriya və kurortlarda istirahətin müəyyən formaları hazırlanmışdır. Əlavə gəzintilər, kinoteatr, hovuzlar və s. Sağlamlıq baxımından bir məhsulun inkişaf etdirilməsi kompleks və çoxsəviyyəli bir prosesdir.

**Azərbaycan turizmin inkişafı üçün zəngin potensiala malikdir. Bunlardan biri də balneloji ehtiyatlardır.** Mineral suların mənşəyi və fiziki-kimyəvi xüsusiyyətlərini, xarici və daxili tətbiq zamanı müalicə-profilaktik məqsədlə onların istifadə metodlarını, tətbiqi, tibbi göstərişləri və əks göstərişlərini tibb elminin bir

bölməsi olan balneologiya öyrənir.

Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə Azərbaycanda müalicə-sağlamlıq məqsədilə aparılan araşdırma nəticəsində məlum olub ki, ölkəmizdə müalicəvi müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanatoriya mühafizə zonaları və digər kurort infrastrukturunun təşkili üçün geniş imkanlar vardır.

Balneoloji ehtiyatlar sanator-kurort müəssisələrinin təşkilində əsas müalicə amillərindən sayılır. Ümumiyyətlə, ölkəmiz balneloji ehtiyatlarla zəngindir. Ölkəmizdə mövcud olan bütün mineral və termal suların təsnifatı və istifadə edilməsi balneoloji kurortların inkişafı üçün əhəmiyyətli zəmin yaradır. Dünyada səkkiz qrup mineral suyun olması qəbul olunur ki, ölkəmizin ərazisində bu suların hamısına rast gəlinir.

Azərbaycanda qədim dövrlərdən müalicə-profilaktika məqsədi ilə təbiətin şəfaverici amilləri olan mədən sularından, müxtəlif növ neft və vulkanik palçıqlardan geniş istifadə edilmişdir. Ölkəmiz uzun illər boyu dünyaca məhşur olan tarixi İpək Yolu vasitəsilə nadir dərman kimi ixrac edilən müalicəvi Naftalan nefti ilə məşhur olmuşdur.

Azərbaycanın XIX əsrdən başlayaraq müxtəlif regionlarda mövcud olan müalicə əhəmiyyətli təbii resursları elmi araşdırılmış və mühüm nəticələr əldə olunmuşdur. Aparılan araşdırmaların nəticələrinə əsasən sanatoriya və kurortların inkişafı üçün ölkəmizdə mövcud olan təbii və balneoloji resursların əhəmiyyəti müəyyən edilmişdir. Odur ki, heç də təsadüfi deyil ki, Azərbaycan kurortlar diyarı adlandırılmışdır.

Balneoloji kurortlarda müxtəlif mənşəli təbii və süni hazırlanmış mineral sulardan müxtəlif xəstəliklərin profilaktikası və müalicəsi üçün xaricdən vanna qəbul etməklə və daxilə içməklə istifadə olunur. Ölkədə olan mineral suların analoqları bir çox ölkələrdə yayılmışdır. Onlar bu mineral sulardan müalicə sağlamlıq məqsədilə geniş istifadə edirlər. Bu baxımdan Azərbaycanda olan balneoloji ehtiyatların analoqlarının yayılması və istifadəsini müasir vəziyyətə görə təhlil etdikdə məlum olur ki, ölkəmizdəki bu ehtiyatlardan tam istifadə olunmur [11]. .

Azərbaycanda çoxlu sayda mineral sular mövcuddur: Naxçıvanda – Sirab, Badamlı, Darıdağ, Vayxır; Kəlbəcərdə - İstisu; Şuşada – Turşsu və Şirlan; Dəvəçidə - Qalaaltı və s.

Abşerondakı göllərinin müalicəvi palçıqları və suları, Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları respublikamızın balneoloji ehtiyatlarına aiddir.

Azərbaycanın Kəlbəcər və Laçın rayonlarında radonlu mineral sular aşkar edilmişdir. Müalicəvi sularda radon qazının olması, onların müalicə xüsusiyyətini yüksəldir. Kəlbəcər rayonunda Bağırsaq, Naxçıvan MR-də Darıdağ və Dahab sularının tərkibində daha çox, Qax rayonunun İlisu bulaqları, Quba rayonunun Xaltan, Çimi Xaşı bulaqlarında radon qazı aşkar edilmişdir. Ölkəmizdə olan müalicəvi bulaqlardan 34-ü radonlu mineral sulardır.

Lakin əfsuslar olsun ki, bu günlərə kimi bizə radon tərkibli suyun keçmiş İttifaqda yalnız Rusiya və Gürcüstan ərazisində mövcudluğu barədə məlumat verilmişdir. Bu suyun müalicəsini qəbul etmək üçün ölkə vətəndaşları adları çəkilən yerlərə üz tutmuşlar. Hesab edirik ki, bu müalicəvi suyun yerləşdiyi ərazilərdə xüsusi müalicə vannalarının qəbulunun təşkil edilməsi ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafına öz töhfəsini verərdi.

Yuxarıda sadalanan zəngin ehtiyatlar və çox əlverişli təbii şərait, yaxın gələcəkdə respublikamızda sağlamlıq turizminin inkişafına və ölkəmizin iqtisadi qüdrətinin artmasına zəmin yarada bilər [12].

1936-cı ildə Kurortologiya və Fizioterapiya İnstitutu təşkil edildikdən sonra təbii kurortların elmi cəhətdən tədqiqində yeni mərhələ başlamışdır. XX əsrin ikinci yarısında Azərbaycanda artıq formalaşmış kurortlar şəbəkəsi mövcud idi. Həmin dövrdə yaradılan sanatoriya, pansionat və istirahət evləri sistemi Azərbaycanın, demək olar ki, bütün ərazisini əhatə edirdi. Kurort-müalicə imkanları çox geniş olan Naxçıvan Muxtar Respublikası, Abşeron yarımadası, Gəncə-Hacıkənd-Göygöl, Şəki-Zaqatala, Şuşa-Turşsu, Quba-Xaçmaz-Nabran, Lənkəran-Astara və digər regionlarda müalicə və istirahətin təşkili üçün lazımi şərait yaradılmışdı [11]. .

Azərbaycan kurortlarının inkişafına 1970-ci ildən başlayaraq xüsusi diqqət yetirilmişdir. Məhz, həmin ildə SSRİ hökumətinin qərarı ilə

Abşeron yarımadası, Naftalan və İstisu kurortları ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edilmişdir.

1980-ci illərdə isə hökumətin xüsusi qərarına əsasən, Azərbaycanın kurortlar şəbəkəsinin genişləndirilməsi, o cümlədən Xaçmaz-Nabran zonasında irimiqyaslı layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulsa da, cərəyan etməyə başlayan mürəkkəb siyasi proseslər bu planın həyata keçirilməsinə imkan verməmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra kurort işinin inkişafında xüsusi bir mərhələ başlamışdır.Belə ki, 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev **"Azərbaycan kurortları"** dövlət proqramı haqqında sərəncam imzalamışdır. Bundan başqa, 2009-cu ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti “Kurortlar haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi haqqında qərar qəbul etmişdir ( [2]. ).

Ölkədə müalicəvi baxımdan ən çox öyrənilmiş Axtarma, Qaradağ, Daşgil, Bahar, Masazır, Babazənən, Qaynarca vulkan palçıqları öz tərkiblərinə görə Gürcüstanın palçıq kurortu olan Axtala mənbəyinə oxşardır. Şimali Qafqazdakı Tabukan gölü və Krımdakı vulkan palçıqlarından isə müalicəvi təsirlərinə görə üstündür.

Abşeron sanatoriyalarında vulkan palçığından kompleks istifadə üçün maddi-texniki bazanın az da olsa mövcudluğu bu imkanlardan yararlanmağa şərait yaradır. Hesab edilir ki, Abşeronda vulkan palçığına əsaslanan sanatoriyanın tikilməsi mümkündür. Belə bir sanatoriyanı müalicəvi xüsusiyyətləri daha üstün olan Daşgil palçıq vulkanının bazasında təşkil etmək daha əlverişlidir. Eyni zamanda, Zığ, Masazır palçıqlarından istifadə etməklə kompleks müalicə xidməti göstərən sanatoriyaların tikintisi iqtisadi cəhətdən səmərəli olar.

Azərbaycan alimlərinin apardığı tədqiqatlara əsasən ölkəmizdəki vulkanların sayına, tərkibinə, palçıq vulkanların müalicə xüsusiyyətinə və , aktiv fəaliyyətinə görə dünyada analoqu yoxdur. Odur ki, hesab edirik ki. palçıq vulkanları ilə müalicələrin təşkili ölkəmizin müalicə-sağlamlıq turizminin inkişafına zəmin yaratmaqla, turizm sektoruna əlavə gəlir gətirə bilər. Bütün bunları nəzərə almaqla Azərbaycanın gələcəkdə ekoloji və sağlamlıq turizmi üzrə model ölkə olması qənaətinə gələ bilərik.

Deyilənləri nəzərə almaqla, əminliklə qeyd edə bilərik ki, Azərbaycan kurort təbii müalicə ehtiyatlarına malik olan ölkədir. Həmin ehtiyatlardan bərpa, profilaktika və müalicə məqsədi ilə istifadə etmək üçün zəruri şəraiti var. Ərazilərimiz kurortlarla zəngindir. Həmçinin istirahət və müalicəni təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanitariya mühafizə zonalarının olması və onlardan səmərəli istifadə edilməsi ölkəmizdə sağlamlıq turizminin inkişafı üçün əlverişli şərait yaradır.

Təbii müalicə ehtiyatlarına görə Azərbaycanda kurortların balneoloji, iqlim, müalicəvi palçıq kurortları və Naftalan nefti kurortu kimi növləri mövcuddur. Balneoloji kurortlara, əsasən, təbii mineral sulardan istifadə olunan kurortlar aiddir.

İqlim kurortları üçün səciyyəvi olan müalicəvi amillər (dəniz suyu, günəş vannaları, isti qum vannaları, dağ iqlimi və s.) bir çox xəstəliklərin profilaktikası və müalicəsi baxımından əhəmiyyətli hesab olunur.

Müalicəvi palçıq kurortlarında palçıqdan, əsasən lil palçığından (Masazır və Zığ gölünün palçıqları) və təpə (vulkan) palçıqlarından istifadə yolu ilə müalicə aparılır. Naftalan nefti kurortunda unikal müalicə amilli olan və yüksək təsirə malik Naftalan nefti ilə müalicə aparılır [10]. ).

Müasir dövrdə fəaliyyət göstərən turizm firmaları özünün davamlı fəaliyyətini təmin etmək məqsədilə turizm xidməti və biznesinin vəhdəti olan turizm sənayesinin yaradılmasına cəhd göstərirlər.

Turizm sənayesi özündə ölkə iqtisadiyyatının bir cox sahələrini birləşdirir. Turizm sənayesi bir sistemdir və sistemin fəaliyyəti ona daxil olan bütün sahələrin ahəngli işləməsi ilə həyata keçirilir. Turizm sənayesinin xüsusiyyətlərinə aid olan turizm-rekreasion resursların, , müvafiq səviyyədə infrastrukturun və savadlı, peşəkar kadrların olması xüsusi əhəmiyyət kəsb edir. Turizm sənayesi elə yerlərdə inkişaf edir ki, bu yerlər təbii və süni, yəni insan tərəfindən yaradılmış yerlərdən ibarətdir və turistləri müxtəlif fəaliyyət xüsusiyyətləri ilə cəlb edir [4, s 4-5].

Turizm sənayesi həm material tutumlu məhsul istehsal edir, həm də qeyri-maddi məhsul, yəni xidmət yerinə yetirir. Məhz, bu əlamətlər turizm sənayesinin əsas xüsusiyyətini təşkil edir. Dünyanın bir çox ölkələrində milyonlarla insanın məşğulluğunu təmin edən və təsərrüfatın bütün sahələri ilə əlaqədə fəaliyyət göstərən, geniş maddi bazaya malik olan, formalaşmış və sabit inkişaf edən turizm sənayesi mövcuddur.

Turizm sənayesinin əsas tərkib hissələri aşağıdakılardır:

- yerləşmə vasitələri;
- nəqliyyat vasitələri;
- ictimai iaşə müəssisələri;
- əyləncə, tanışlıq, işgüzar, idman və başqa təyinatlı təşkilatlarda turoperator və turagentin fəaliyyətlərini reallaşdıran ekskursiya xidməti;
- tərcüməçiliyin təşkilini özündə birləşdirir.

Hesab edirik ki, qeyd edilən sahələrdən başqa turizm sənayesinin tərkibində müalicə işinin, yəni sanatoriya və kurortların olması məqsədəuyğun olardı. Bu növ turizm müəssisələrinin yaradılması və onların kompleks şəkildə fəaliyyətlərini qurması turizmin inkişafına, kompleksə daxil fərdi qaydada fəaliyyət göstərən müəssisələrə korporativ marağın yaranmasına və sonda möhkəm əlaqələrin formalaşması hesabına gəlirlərin artmasına, mövsümdən asılı olmayaraq turist axınına şərait yarada bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı.
2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli sərəncamı.
3. Bilalov.B. “Azərbacanda müalicə-sağlamlıq turizmi: problemləri və perspektivləri”. “Turizm və Qonaqpərvərlik Tətqiqatları”jurnalı, №3, Bakı, “Aypara 3”, 2013.
4. Hümbətov Y.Ə, Kərimov F.C, Qapaqov V.F, Cavadzadə X.N “Turizm sənayesinin təşkili”. Bakı, Avropa nəşriyyatı, 2021 –ci il 333 səh.
5. Rəhimov V. “Rekreasiya zonaları və ekoturizm”. Bakı-2010.
6. Qapaqov V.F. “Azərbaycanın sanatoriya kurort ehtiyatları”, Bakı, “Avropa” nəşriyyatı 2022 –ci il, 120 səh
7. https://ikisahil.az/post
8. https://xalqqazeti.com/mobile/az/news/94171
9. https://www.azerbaijan-news.az/index.php/az/posts/detail
10. https://e-qanun.az/downloadPdf/16143
11. http://www.azerbaijans.com/content_892_az.html
12. https://kayzen.az/blog/Az

**Юсиф Абульфат оглы ГУМБАТОВ, д. э. н., доцент**

**Вугар Фаиг оглы ГАПАГОВ, к.т.н., доцент**
Азербайджанский Технологический Университет
E-mail: vugargapagov@gmail.com

# ВЛИЯНИЕ САНАТОРИЕВ И КУРОРТОВ НА ОРГАНИЗАЦИЮ ТУРИЗМА НА ОТРАСЛЕВОЙ ОСНОВЕ

**Резюме**

Бальнеологические ресурсы считаются одним из основных лечебных факторов при организации санаторно-курортных учреждений. Использование всех имеющихся в нашей стране минеральных и термальных вод создает важную основу для развития бальнеологических курортов. В результате исследований, проведенных с целью лечения и оздоровления в Азербайджане, установлено наличие широких возможностей для организации медицинских учреждений (санаториев, домов отдыха, пансионатов, бальнеологических и

грязелечебных центров, курортных поликлиник, оздоровительных центров и др.), санаторно-защитных зон и другой курортной инфраструктуры в нашей стране.

Туристические компании, работающие в современную эпоху, пытаются создать индустрию туризма, представляющую собой единство туристического сервиса и бизнеса, чтобы обеспечить ее устойчивую деятельность. Здравоохранение, т. е. санатории и санаторно-курортные учреждения, целесообразно иметь в составе туристической отрасли.

**Ключевые слова:** бальнеологические ресурсы, целебные воды, туристский потенциал, индустрия туризма, комплексные туристские предприятия, оздоровительный туризм.

**Yusif Abulfat oghlu Humbatov, d.e. s., associate professor**

**Vugar Faig oghlu Gapagov, Ph.D., Associate Professor**
Azerbaijan Technology University
E-mail: vugargapagov@gmail.com

## THE INFLUENCE OF SANATORIUMS AND RESORTS ON THE ORGANIZATION OF TOURISM ON THE BASIS OF INDUSTRY

### Summary

Balneological resources are considered among the main treatment methods in the organization of sanatorium-resort institutions. The use of all mineral and thermal waters available in our country creates the basis for the development of balneological resorts. In Azerbaijan, it was discovered that the treatment-health operation is a helpful method for the organization of medical institutions (sanatoriums, rest houses, boarding houses, balneological and mud treatment centers, resort polyclinics, recovery centers, etc.), sanatorium protection zones and other resort infrastructure

Tourism companies operating in the modern era are trying to create a tourism industry that is a unity of tourism service and business in order to ensure its sustainable activity. It would be appropriate to have health facilities, i.e., sanatoriums and spas, as part of the tourism industry.

**Key words:** balneological resources, healing waters, tourism potential, tourism industry, complex tourism enterprises, health tourism.

**Mehman Məzahir oğlu HÜSEYNOV, i.f.d., dosent**

**Sumayya Təhmasib qızı ABBASOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: sumayyaabbasova@gmail.com

# KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ DAXİLİ AUDİT İŞİNİN TƏŞKİLİ

**Xülasə**

Məqalədə kənd təsərrüfatı müəssisələrində audit xidmətlərinin təşkili məsələlərinə baxılır. Göstərilir ki, kənd təsərrüfatı sahəsində müəssisənin müstəqil sahibkarlıq subyekti statusunun gücləndirilməsi məqsədi ilə onun fəaliyyətinə nəzarətin həyata keçirilməsinə prinsipcə yeni yanaşmalara ehtiyac duyulur. Bu istiqamətdə daxili nəzarətin tədricən aradan qaldırılması və müstəqil audit xidmətlərinin yaradılmasına və inkişafına şərait yaradılmalıdır. Həmçinin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (ETKİS) Avropa Birliyinin Kənd Təsərrüfatı Uçotu Məlumat Şəbəkəsi - FADN (The Farm Accountancy Data Network) sistemi ilə müqayisə edilərək gələcək inkişaf üçün yeni istiqamətlərə baxılır.

**Açar sözlər:** uçot, audit, auditor, mühasibatlıq, ETKİS, FADN.

**UOT: 332**
**JEL: O13**

## Giriş

Beynəlxalq təcrübə göstərir ki, kənd təsərrüfatının inkişaf etdirilməsində kəndli-fermer təsərrüfatlarının aqrar kooperativlərdə birləşdirilməsinin və bu kooperativlər vasitəsilə kənd təsərrüfat məhsullarının ticarət şəbəkələrinə çıxarılmasına əhəmiyyətli təsir göstərir. Bu, eyni zamanda, kənd təsərrüfatında məhsulların istehlakçılara vaxtında çatdırılmasına, nəqliyyat-daşıma infrastukturlarına, xüsusilə, maliyyə və statistika hesabatlılığı sistemlərinin tam, dolğun və şəffaf formada təşkilinə təkan verir.

Auditin kifayət qədər böyük inkişaf tarixi vardır və müxtəlif tərcümələrdə "o dinləyir" və ya "dinləyici" mənalarını verir. Auditin meydana gəlməsi bilavasitə şirkətləri idarə edənlərin (müdiriyyət, menecer) və onların fəaliyyətlərinə pul qoyanların (mülkiyyətçilər, səhmdarlar, investorlar) mənafelərinin ayrılması inkişafı ilə bağlıdır. Mülkiyyətçilər, səhmdarlar, investorlar yalnız təşkilatlarının rəhbərlərinin və onların tabeliyindəki mühasiblərin təqdim etdikləri maliyyə informasiyasına etibar edə bilməzlər və etibar etmək istəmirlər. Müxtəlif şirkətlərin tez – tez müflisləşməsi səbəbi müdiriyyət tərəfindən aldadılma halları maliyyə qoyuluşları riskini xeyli artırır.

Auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat subyektinin mühasibat (maliyyə) hesabatlarının düzgünlüyü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdən ibarətdir.

2016-cı il 18 iyul tarixli «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanunu bu baxımdan müstəsna əhəmiyyətə malikdir. .Belə ki, həmin qanunda kooperativlərdə şəffaflığın artırılmasına xidmət edə biləcək bir sıra müddəalar əks olunmuş, onların tətbiqinin hüquqi əsasları göstərilmiş, «kooperativlərə və kənd sakinlərinə göstərilən maliyyə-kredit xidmətlərinin genişləndirilməsi» kənd təsərrüfatı kooperasiyasının inkişafına dövlət dəstəyinin əsas istiqamətlərindən biri kimi öz əksini tapmışdır (Maddə 13, bənd 13.1.7). Həmçinin bu sahədə müstəqil auditə xüsusi əhəmiyyət verilmiş, Qanunun 5-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulmuşdur ki: «Kooperativlərin maliyyə-təsərrüfat fəaliyyətini tənzimləmək, kooperativ üzvlərinin maraqlarına zidd olan, kooperativin fəaliyyətini pisləşdirən və ya onun iflasına səbəb olacaq nöqsanların aradan qaldırılması və kooperativin idarə edilməsinin səmərəliliyini artırmaq məqsədilə kooperativdə «Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq audit yoxlaması həyata keçirilir» [1].

"Kənd təsərrüfatı kooperasiyası haqqında"Azərbaycan Respublikasının Qanununda kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə

fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi kənd təsərrüfatı kooperativi adlanır və iştirakçılarının maddi və sosial tələbatlarının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi üçün yaradılan hüquqi şəxs kimi təsbit olunmuşdur.

Müəssisələrdə həyata keçirilən auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat obyektlərində mühasibat (maliyyə) hesabatlarının düzgünlüyünü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdir.

Auditin əsas vəzifəsi - müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinə dair düzgün informasiya toplamaq və həmin informasiya əsasında müəssisənin maliyyə vəziyyəti haqqında, mühasibat balansı və maliyyə hesabatlarının düzgünlüyü haqda nəticələri formalaşdırmaqdır. Həmin vəzifələrin uğurla həyata keçirilməsi üçün aparılan audit ümumi prinsiplərə əsaslanır (BAS 120 «Auditin beynəlxalq standartlarının əsas prinsipləri»). Auditi tənzimləyən prinsiplər iki əsas qrupa bölünür: peşə etikası və metodoloji. Auditin aparılması zamanı peşə etikası prinsipləri mütləq nəzərə alınmalıdır. Metodoloji prinsiplər mütləq və tövsiyə xarakteri daşıya bilər. Mütləq və ya tövsiyə xarakterli metodoloji prinsiplər konkret audit standartları ilə reqlamentləşdirilir.

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı məhsullarının kooperativlər formasında istehsal olunmasının aşağıdakı üstünlükləri vardır:

1.Kooperativlərdə kənd təsərrüfatı məhsullarının istehsalı aşağı risk səviyyəsinə malikdir;

2.Daha mütərəqqi nəqliyyat-daşıma infrastrukturunun təşkilinə imkan verir;

3.Bazar iqtisadiyyatına daha çox uyğunlaşmışdır;

4.Kəskin qiymət dəyişmələrinin mənfi təsirinə daha az məruz qalır;

5.Şəffaf maliyyə hesabatlılığının təşkilinə imkan verir[3].

Kənd təsərrüfatının inkişaf etdirilməsinin Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olduğunu nəzərə alsaq, kooperativlərdə məcburi auditin tətbiqinin aktuallığı ön plana gəlir. «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu kimi, kooperativlərdə «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq audit yoxlaması həyata keçirilməlidir.

Kooperativlərdə auditin aparılması aşağıdakı qaydalarda təsis edilir:

1.Qanunvericiliyin tələblərinin yerinə yetirilməsi;

2.Rəhbərlik və mülkiyyətçilər tərəfindən idarəetmə ilə bağl əsaslandırılmış qərarların qəbul edilməsi üçün dürüst məlumatların əldə edilməsi;

3.Maliyyə hesabatı istifadəçiləri (Dövlət, müvafiq icra hakimiyyəti orqanları, bank, sığorta və s. təşkilatlar) tərəfindən dürüst məlumatların əldə edilməsi;

4.Audit zamanı aşkar edilən nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədləri .

5.Kooperativ üzvlərinin kooperativin maliyyə vəziyyəti, maliyyə nəticələri və gözlənilən dividendlər barədə məlumatlandırılması [2].

Audit zamanı kənd təsərrüfatı kooperativlərinin yaradılması şərtləri, nizamnamədə göstərilmiş fəaliyyət növləri, nizamnamə kapitalının məbləği, idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, qərarların qəbul edilməsi haqqında məlumatlar və təşkilatın 10 ləğvi şərtləri ətraflı araşdırılmalıdır. Kənd təsərrüfatı kooperativlərinin hüquqi əsasları, hansı təşkilati-hüquqi formada yaradılması, iştirakçıları, nizamnaməsi, nizamnamə kapitalı, mənfəətin bölüşdürülməsi, idarəetmə, onların yenidən təşkili və ləğvi, nizamnamə kapitalındakı payın keçməsi, iştirakçının əmlakındakı payına tutmanın yönəldilməsi, iştirakçının təşkilatdan çıxması və çıxdığı andakı hesablaşmaları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən və kənd təsərrüfatı kooperativlərinin nizamnaməsi ilə müəyyən edilir.

Auditor kənd təsərrüfatı obyektlərində audit zamanı protokollardan və qərarlardan çıxarışlarla tanış olmalı, müvafiq bölmələrin auditi zamanı bu qərarların icrası vəziyyətini araşdırmalıdır. Auditin əhatə etdiyi dövrdə kənd təsərrufatı obyektlərində auditor yaranmış nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, həmçinin aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

Auditor kənd təsərrüfatı fəaliyyəti üzrə aşağıdakı məsələləri diqqətlə araşdırmalı və öz hesabatına daxil etməlidir:

a) maliyyə hesabatlarında tanınmış hökumət subsidiyalarının xüsusiyyəti və miqyası;

b) hökumət subsidiyaları üzrə yerinə yetirilməmiş şərtlər və gözlənilməz hallar;

c) hökumət subsidiyalarının səviyyəsində gözlənilən mühüm azalmalar.

Təsərrüfat subyektlərində auditor xidmətlərini, müdiriyyət sifariş verir. Auditor xidmətindən daha çox istifadə edənlərə vergi orqanları, banklar və digər maliyyə təsisatları; potensial investorlar, ticarət tərəfdaşları və başqaları aiddir. Audit yoxlanması məcburi hallarda bilavasitə qanunvericilikdə müəyyənləşdirilmiş hallarda və ya dövlət orqanlarının tapşırığı ilə keçirilir.

Kənd təsərrüfatı müəssisələrində auditor xidmətinin əhəmiyyəti aşağıdakılardan ibarətdir.

- ✓ kənd təsərrüfatı obyektlərində şəffaflığı yüksəldir;
- ✓ biznes tərəfdaşlarının kənd təsərrüfatına diqqətini artırır;
- ✓ neqativ hallara qarşı qabaqlayıcı tədbirlər görməyə şərait yaradır.

Maliyyə hesabatının düzgünlüyünü təsdiq etmək üçün auditor yoxlamaları dövlət orqanlarına, məhkəmələrə, prokurorluğa və müstəntiqlərə lazımdır.

Kənd təsərrüfatı obyektlərində həyata keçirilən auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat subyektlərinin mühasibat (maliyyə) hesabatlarının düzgünlüyünü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdir. Buradan belə aydın olur ki, auditin təyin edilməsi aşağıdakı məqsədlə maliyyə hesabatlarının yoxlanılması deməkdir:

- hesabatların düzgünlüyünün təsdiqi və ya qeyri-düzgün olmasının müəyyən edilməsi;
- yoxlanılan dövrdə məsrəflərin, gəlirlərin və fəaliyyətin maliyyə nəticələrinin uçotda və hesabatda dolğun, düzgün və dəqiq əks etdirilməsinin yoxlanılması;
- uçotun aparılması və hesabatların tərtib edilməsi qaydalarını tənzimləyən qanunvericiliyə və normativ sənədlərə, aktivlərin, öhdəliklərin və xüsusi kapitalın qiymətləndirilməsi metodologiyasına əməl olunmasına nəzarət;
- əsas və xüsusi dövriyyə vəsaitlərindən, maliyyə ehtiyatlarından və borc mənbələrindən daha yaxşı istifadə imkanlarının üzə çıxarılması.

Kənd təsərrüfatı müəssisələrində iflas, təsərrüfat subyektlərinin səhmdarları, investorları qarşısında öhdəliklərini yerinə yetirməmək halları mövcuddur. Nəticə etibarilə maraqlı tərəflər bir çox hallarda iqtisadi fəaliyyətin həcminin azalmasının əsl səbəbləri barədə məlumat ala bilmir və kənd təsərrüfatı müəssisələrinin iflas səbəbləri barədə etibarlı məlumata sahib olmurlar. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda göstərilir ki, auditor yoxlaması məcburi və ya könüllü ola bilər. Qanuna görə, öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburi, digər hallarda isə könüllü həyata keçirilir [4].

Audit xidməti, maliyyə hesabatlarının etibarlılığını təsdiqləməklə yanaşı, həmçinin auditlə əlaqəli xidmətlər də göstərə bilər:

- ✓ mühasibat uçotunun bərpası və aparılması,
- ✓ maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsi,
- ✓ konsaltinq xidmətləri;
- ✓ vergi konsaltinqi;
- ✓ hüquqi konsaltinq;
- ✓ iqtisadi və maliyyə konsaltinqi;

Maliyyə uçotu məlumatları və digər hər hansı bir məlumat daxili audit üçün nəzarət obyekti kimi xidmət edir. Daxili audit istehsal metodlarını qənaət, məhsuldarlıq və səmərəlilik üçün qiymətləndirir. Bütün maliyyə və iqtisadi fəaliyyətlərə daxili audit nəzarət edir. Daxili auditdə istifadə olunan alətlərə daxili nəzarət sisteminin qiymətləndirilməsi, daxili maliyyə və idarəetmə hesabatlarının yoxlanılması və qiymətləndirilməsi, kooperativ təşkilatlar siyasətinin həyata keçirilməsini təmin edən nəzarət sisteminin təhlili, maliyyə planlarının təhlili aid edilir. Daxili auditin əsas funksiyaları bunlardır: - daxili qaydalar və nəzarət prosedurları sisteminin yetərliliyinin yoxlanılması; - hesablama intizamına uyğunluğun yoxlanılması: - mühasibat uçotu metodikasının və texnikasının, maliyyə hesabatlarının etibarlılığının araşdırılması.

Audit üzrə beynəlxalq normativlərə görə audit - obyektin mənfəət əldə edib-etməməsindən, həcmindən, təşkilati formasından asılı olmayaraq nəşr olunmuş maliyyə hesabatlarının və gələcək fikirlərin formalaşdırılması və ya ona aid maliyyə informasiyalarının məqsədi ilə aparılan müstəqil yoxlanmasıdır.

"Auditor xidməti haqqında" AR Qanununda göstərilir ki, audit- əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun

dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanmasıdır. Audit prosesinin aparılmasında məqsəd qanunvericiliklə, auditor fəaliyyətinin tənzimlənməsinin normativ sistemi ilə, müştərinin müqavilə öhdəlikləri ilə müəyyən olunan konkret məsələlərin həll edilməsidir [3].

Audit (auditing) elə bir prosesdir ki, onun vasitəsilə səlahiyyətli sərbəst işçi kəmiyyətcə qiymətləndirilə bilən və spesfik təsərrüfat sisteminə aid olan informasiyanın müəyyən edilmiş meyarlara uyğunluq dərəcəsini təsbit etmək və bunu öz rəyində əks etdirmək üçün həmin informasiya haqqında sübutlar toplayır və onları qiymətləndirir.

"Auditor haqqında" AR Qanununda göstərilir ki,audit yoxlanması məcburi və ya könüllü (təsərrüfat subyektlərinin öz təşəbbüsü ilə) şəkildə aparıla bilər .Qanunvericiliyə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat obyektləri üçün, habelə qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və ya səlahiyyətli dövlət orqanlarının müvafiq qərarlarına əsasən (onların sifarişi ilə) həyata keçirilən audit məcburi, digər hallarda isə könüllüdür.

Auditor prosesini yalnız yoxlama fəaliyyəti kimi xarakterizə etmək olmaz. Bura mühasibat (maliyyə) hesabatlarının, ödəmə-hesablaşma sənədlərinin, vergi bəyannamələrinin və iqtisadi subyektin digər maliyyə öhdəliklərinin və tələblərinin müstəqil idarədən kənar yoxlanılması, eləcə də digər auditor xidmətlərinin göstərilməsi: gəlirlər haqqında bəyannamələrin və mühasibat (maliyyə) hesabatlarının hazırlanması; maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, iqtisadi subyektin aktivlərinin və passivlərinin qiymətləndirilməsi; maliyyə, vergi, bank və digər təsərrüfat qanunvericiliyi məsələləri üzrə məsləhətlərin verilməsi və s. daxildir.

Audit – mühasibat uçotunun aparılması qaydasının gözlənilməsinin, təsərrüfat əməliyyatlarının AR-in qanunvericiliyinə uyğunluğunun, müəssisənin fəaliyyətinin mühasibat (maliyyə) hesabatlarında əks etdirilməsinin tamlığının və dəqiqliyinin yoxlanılması əsasında müəssisənin mühasibat (maliyyə) hesabatlarının müstəqil ekspertizasıdır.

Audit müstəqil təftiş keyfiyyətinə malik olsa da, onun fəaliyyəti yalnız mühasibat (maliyyə) hesabatlarının yoxlanması ilə məhdudlaşa bilməz. Məlumatların kütləvi axını şəraitində onların ümumiləşdırilməsi və səmərəli istifadə olunması menecerin və təsərrüfat rəhbərinin qarşısında duran ən vacib məsələlərdən biridir. Digər tərəfdən, müəssisələrdə və təşkilatlarda uçot nəzarətinin yüksək səviyyədə qurulması ilə resursların səfərbər edilməsini, onlardan səmərəli istifadə olunmasını, məhsulun maya dəyərinin minimum həddə çatdırılmasını, mənfəətin artımını, sabit maliyyə vəziyyətini təmin etmək olar. Auditin məqsəd və vəzifələri bu prinsiplərə uyğun olaraq həyata keçirilir.

Auditor nəzarəti üzrə əsas məqsədə çatmaq və müştəriyə rəyi təqdim etmək üçün auditorlar aşağıdakı məsələlər üzrə öz fikrini formalaşdırmalıdır:

- hesabatların ümumi qəbul edilməsi (hesabatın bütövlükdə bütün tələblərə cavab verməsi, yanlış informasiyaları özündə əks etdirməməsi);
- əsaslı olması (hesabatda göstərilən məbləğlərin hesabata daxil edilməsi haqda əsasın olması);
- qiymətləndirmə (bütün kateqoriyaların düzgün qiymətləndirilməsi, düzgün hesablanması);
- açıqlanması (bütün kateqoriyaların maliyyə hesabatlarına köçürülməsi, hesabatlarda və onlara əlavələrdə düzgün əks etdirilməsi) [5].

Auditor apardığı audit prosesi və onun nəticəsinə dair verdiyi rəyə görə məsuliyyət daşıyır. Auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yerinə yetirmədikdə qanunvericiliyə uyğun olaraq əmlak məsuliyyətinə cəlb oluna bilərlər.

Auditorun məsuliyyətini yaradan şərtlər aşağıdakılardır:

1. Auditin prinsiplərinin pozulması
2. Keyfiyyətsiz auditin aparılması
3. Başqa növ fəaliyyətlə məşğul olmaq
4. Vaxtı keçmiş, könüllü olaraq Auditor Palatasına qaytarılmış və ya auditorlar palatası şurasının qərarı ilə ləğv edilmiş lisenziyalara əsasən auditor fəaliyyəti göstərmək.
5. Auditor tərəfindən etika və peşəkarlıq normalarına riayət edilməsi

Auditor dövlət qarşısında və keyfiyyətsiz audit prosesinin aparılması nəticəsində zərərçəkən sifarişçi və təsərrüfat subyekti qarşısında məsuliyyət daşıyır.

Dövlət qarşısında məsuliyyət qanunvericilikdə müəyyən edilmiş cəza və cərimələrlə, sifarişçi və ya təsərrüfat subyekti qarşısında məsuliyyət isə

müqavilənin şərtlərinə görə müəyyən edilir. Auditorun məsuliyyətinin aşağıdakı növləri vardır:

1. İntizam məsuliyyəti
2. Mülki məsuliyyət
3. Cinayət məsuliyyəti

Auditorun intizam məsuliyyəti auditorlar palatası tərəfindən, mülki və cinayət məsuliyyəti isə məhkəmə orqanları tərəfindən, Azərbaycan Respublikasının müvafiq qanunvericilik və normativ hüquqi aktları əsasında müəyyən edilir.

Auditor müəssisəsində yoxlama apararkən təsisedici sənədlərin qanunauyğunluğuna xüsusi olaraq fikir verilməlidir. Ona görə ki, təsisçilər tərəfindən üzvlük haqqı kimi ödənilən əmlakın və qeyrimaddi aktivlərin auditorun iştirakı ilə inventarlaşdırılması keyfiyyətli yoxlamanın zəruri şərti sayıla bilər. Çünki əmlakın tərkibində bəzən sıradan çıxmış əsas vəsaitlər, az qiymətli və tez köhnələn əşyalar və qeyrimaddi aktivlərin sırasında intellektual əhəmiyyətini itirmiş "Nou-hau" proqramları ola bilər. Nəzarətin sonuncu mərhələsində nizamnamə kapitalının uçotunda aşkar olmuş normativ hüquqi aktlardan, nizamnamədən kənarlaşmalar yekunlaşır və onların aradan qaldırılması üzrə təkliflər verilir.

Mühasibat uçotunun informasiya sistemi kənar (maliyyə uçotu) və daxili (idarəetmə uçotu) sistemlərə ayrılır. Maliyyə uçotunda müəssisənin maliyyə-təsərrüfat və iqtisadi göstəriciləri haqqında məlumatlar əks olunur və pul ifadəsində öz əksini tapır. Maliyyə mühasibat uçotunun əsas vəzifəsi müəssisədaxili və kənar istifadə edənlər üçün xüsusi müəyyən olunmuş formada hazırlanmış informasiyalarla təmin etməkdən ibarətdir. Etibarlı səviyyədə hazırlanmış iqtisadi informasiyalar faydalı idarəetmə qərarlarının qəbul olunmasında xüsusi əhəmiyyətə malik olmaqla, müəssisənin gələcək vəziyyətinin yüksəlməsinə, mülkiyyət sahiblərinin mənfəətinin artırılmasına, dövlət büdcəsinə daxil olan vəsaitin artmasına və digər əsaslı inkişafın təmin olunmasına kömək edir [6].

**Nəticə**

Zamanla müəssisələrin miqyası və təsərrüfat fəaliyyətlərinin mürəkkəbliyi ilə daxili auditin xarakteri dəyişir. Audit və auditorlar müəyyən edilmiş prosedurlardan kənarlaşmaların adi fiksasiyası istiqamətində deyil, daha çox və daha fəal şəkildə bu sistemlərə və prosedurlara daxil olaraq onlara düzgün bir qiymət vermək üçün inkişaf etməyə başlamışlar.

Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, hec kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil. Bunun nəticəsidir ki, 2022-ci ildə ümumi iqtisadiyatda təxminən 5%, qeyri neft sektorunda 9%-dən n çox, bununla bərabər ümumi daxili məhsulumuz rekord həddə - 130 mln. dollara çatıb, bu tarixi bir nailiyyətdir. Bu göstəricilərin nəticəsində belə aydın olur ki, Azərbaycan Respublikasında kənd təsərrüfatına necə önəm verilir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Kənd Təssərüfatı Kooperativlərində Auditin Aparılmasına Dair Təlimat. Bakı 2017
2. Azerbaijanian journal of Agricultural Economics.Bakı 2020
3. Azərbaycanın və Dünya Ölkələrinin Kənd Təssərüfatı. Bakı 2003
4. Novruzov V.T. və başqaları. “Audit”. Dərs vəsaiti. Bakı, 2012.
5. Rzayev Q.R. “Nəzarət və təftiş”. (dərslik) Bakı, “Adiloğlu” nəşriyyatı, 2011.
6. Qəhrəman Rəsul oğlu Rzayev “Mühasibat uçotu və audit”. Bakı 2006.

**Мехман Мазахир оглы ГУСЕЙНОВ, к. э. н., доцент**

**Сумайя Тахмасиб кызы АББАСОВА**
Азербайджанский Технологический Университет
E-mail: sumayyaabbasova@gmail.com

## ОРГАНИЗАЦИЯ РАБОТЫ ВНУТРЕННЕГО АУДИТА В СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ПРЕДПРИЯТИЯХ

**Резюме**

В статье рассматриваются вопросы организации аудиторской службы в сельскохозяйственных предприятиях. Показано, что для укрепления статуса предприятия как самостоятельного хозяйствующего субъекта в сфере сельского хозяйства необходимы принципиально новые подходы к контролю его деятельности. В этом направлении должны быть созданы условия для постепенной ликвидации внутреннего контроля и создания и развития независимых аудиторских служб.

**Ключевые слова:** бухгалтерский учет, аудит, аудитор, учет, ЭТКИС, ФАДН.

**Mehman Mazahir oghlu HUSEYNOV, Ph.D., Associate Professor**

**Sumayya Tahmasib gizi ABBASOVA**
Azerbaijan Technology University
E-mail: sumayyaabbasova@gmail.com

## ORGANIZATION OF INTERNAL AUDIT WORK IN AGRICULTURAL ENTERPRISES

**Summary**

The article examines the issues of organizing audit services in Agricultural Enterprises. It is observed that by strengthening the status of the enterprise as an independent business entity in the field of agriculture, fundamentally new approaches are needed to control its activity. This system should be created to eliminate internal control and establish independent audit services.

**Keywords:** accounting, audit, auditor, accounting, ETKIS, FADN.

**Vahid Hacıbəy oğlu ABBASOV, prof.**

**Esmira Hüseyn qızı HƏSƏNZADƏ**
Bakı Dövlət Universitetinin dissertantı
E-mail: esmira.hesenzade@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASINDA MALİYYƏ MEXANİZMLƏRİNİN 336TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ROLU

**Xülasə**

Məqalədə maliyyə təhlükəsizliyinin milli iqtisadi təhlükəsizliyin tərkib elementi kimi təsir və əhatə dairəsi nəzərdən keçirilmişdir. Maliyyə siyasətinin milli iqtisadi inkişafa və təhlükəsizliyə təsirinə dair nəzəri müddəalar qeyd olunmuşdur. Maliyyə sisteminin əsas elementlərindən biri olaraq bank sistemi nəzərdən keçirilmişdir. Bank sektorunda qarşılaşılması mümkün olan təhdidlərə nümunələr göstərilmişdir. Azərbaycanda 2014-2020-ci illər üzrə makroiqtisadi vəziyyətin dəyişməsi ilə bank sektorunun fəaliyyəti və vəziyyəti arasında əlaqə araşdırılmışdır.

**Açar sözlər:** maliyyə təhlükəsizliyi, maliyyə siyasəti, bank sektoru, kredit qoyuluşları

**UOT: 336**
**JEL: P 43**

## Giriş

Maliyyə təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyin mühüm tərkib elementi kimi Azərbaycanda da xüsusilə dövlət siyasətində hərtərəfli tənzimlənmə tədbirlərinin yönəldildiyi problemdir. Məlumdur ki, maliyyə təhlükəsizliyi və maliyyə sahəsində sabitlik milli iqtisadiyyatın inkişafına müsbət təsir göstərir. Eyni zamanda milli iqtisadi inkişaf səviyyəsi ilə müəyyən olunma xüsusiyyəti də diqqətə alınmalıdır. Belə ki, ölkəmizin müstəqilliyinin ilk illərində təsərrüfat-iqtisadi əlaqələrin pozulması, istehsal və xidmət sahələrindəki böhran, idarəetmə böhranı və digər problemlər ciddi maliyyə problemlərinin yaranmasına gətirib çıxarmışdır. Bu hal həm ölkədə yerli istehsal göstəricilərinin kəskin şəkildə azalmasına, əhalinin istehlak tələbinin qarşılanmasında ciddi çətinliklərin yaranmasına, işsizlik probleminin dərinləşməsinə, həm də milli valyutanın dəyərinin kəskin azalmasına, inflyasiya göstəricilərinin kəskin yüksəlməsinə, bank sektorunda böhranın dərinləşməsinə, ölkənin investisiya qoyuluşları üçün əlverişsiz vəziyyətə gəlməsinə səbəb olmuşdur. Yalnız ilkin zəruri iqtisadi tənzimləmə tədbirləri, siyasi, hərbi, hüquqi və sosial sahədə yerinə yetirilən kompleks tədbirlərlə ilkin olaraq ümumi sabitliyin yaradılması, daha sonra isə iqtisadi resursların investisiya qoyuluşlarının stimullaşdırılması sayəsində müsbət dinamikaya nail olmaq mümkün olmuşdur.

## Əsas mətn

Maliyyə siyasəti ilə artan investisiya qoyuluşlarının iqtisadiyyatda multiplikator effekti yaratması hesabına iqtisadi artıma dəstək verməsi, eyni zamanda ümumi daxili məhsul artımının da akselerator effekti yaratması hesabına investisiya qoyuluşlarını artırması bu əlaqəyə uyğundur. Lakin makroiqtisadi nəzəriyyələr də onu göstərir ki, qeyd olunan göstəricilərin istənilən səviyyədə olması, effektivliyinin və səmərəliliyinin arzuolunan səviyyədə təmin olunmasına dair yanaşmalar birmənalı deyildir. Əsas məqam kimi maliyyə resurslarının iqtisadiyyatda aktiv investisiya vəsaitlərinə çevrilməsində onun səmərəlilik meyarları, milli iqtisadi maraqların təmin olunmasına təsir dərəcəsi, iqtisadiyyatın strateji, zəruri və potensial imkanları olan sahələrində aktivliyin artırılmasına təsiri, əhalinin rifah səviyyəsinin yüksəldilməsinə təsiri, sahələrarası, regionlararası və sosial qruplar üzrə disproporsiyaların müvafiqliyinə təsiri və s. kimi şərtlər də diqqətdə saxlanılmalıdır. Eyni

zamanda, ümumi milli məhsul, ümumi daxili məhsul, milli gəlir kimi makroiqtisadi göstəricilər artarkən davamlı iqtisadi artımın təmin olunması üçün əldə olunmuş artımdan investisiya qoyuluşlarının kəmiyyət və keyfiyyət baxımından necə dəyişməsi də mütləq izlənilməlidir. Müasir iqtisadiyyatda demək olar ki, bütün sahələrin əlaqələndiricisi rolunda maliyyə sahəsi çıxış etdiyindən bu sahədə təhdid yarada biləcək bütün amillərin aradan qaldırılması üçün mövcud mexanizmlərin daima təkmilləşdirilməsinə və yeni daha effektiv mexanizmlərin tətbiqinə çalışılmalıdır.

Azərbaycan Respublikasının maliyyə sistemi bəzi mənbələrdə dövlət və bələdiyyə maliyyəsi, müəssisə və təşkilatların maliyyəsi, kredit-bank sisteminin maliyyəsi, dövlətin maliyyə orqanları və sistemindən ibarət olmaqla göstərilir [7, s.23]. Maliyyə fəaliyyətində sığorta maliyyəsi və beynəlxalq maliyyə sistemi də aktiv rol oynayır. Dövlətin maliyyə siyasətində dövlət maliyyəsinin tərkibinə daxil olan elementlərdən xüsusilə dövlət büdcəsi aktiv istifadə olunur. Eyni zamanda, kredit-bank sistemindən Mərkəzi bank pul-kredit siyasətinin reallaşdırılmasında əsas rola malikdir. Ölkədə maliyyə sisteminin ümumi fəaliyyətinə nəzarət, tənzimləmə, icra funskiyaları isə bu bölgüdə dövlət maliyyə orqanlarının üzərinə düşür.

Ölkə üçün maliyyə sisteminin strukturunun və inkişafının qiymətləndirilməsinin əsas məqsədləri maliyyə xidmətlərinin mövcud vəziyyətinin qiymətləndirilməsi, maliyyə bazarı və xidmətlərinin uğursuzluğunun, çatışmazlıqlarının səbəblərinin müəyyənləşdirilməsi, fəaliyyət üçün maneə yaradan amilləri müəyyən etmək və geniş mənada maliyyə sisteminin səmərəli fəaliyyətini təmin etməkdir. İqtisadiyyatda göstərilən maliyyə xidmətlərinin dəyəri, miqyası, keyfiyyəti kimi göstəricilər maliyyə sisteminin fəaliyyətinin nəticələrinə aid edilir. Bu xidmətlər adətən yüksək abstraksiya səviyyəsində aşağıdakı kimi təsnifləşdirilir:

- Ödənişlərin həyata keçirilməsi;
- Əmanətlərin səfərbər edilməsi;
- Kapital fondlarının ayrılması;
- Vəsaitlərin istifadəçilərinin monitorinqi;
- Risklərin transformasiyası [8].

Maliyyə təhlükəsizliyinin təmin olunması üzrə mexanizmlərin seçilməsində nəzərdən keçirilən iqtisadi səviyyə və sferaların xarakteristikalarının dəqiqləşdirilməsi lazımdır. Milli iqtisadiyyat və makroiqtisadi səviyyədə maliyyə təhlükəsizliyi mexanizmləri əsasən dövlətin gəlir və xəclərinin təşkili, milli gəlir səviyyəsinin dəyişməsi, ölkənin valyuta ehtiyatlarının formalaşması və istifadəsi, inflyasiya səviyyəsi, investisiya qoyuluşlarının dəyişməsi, milli valyutanın məzənnəsindəki dəyişmələr, həmçinin pul-kredit, büdcə-vergi siyasətinin təsirləri, maliyyə bazarlarının inkişafı, tarazlığının dəyişməsinə təsir edən faktorların təhlili ilə əsaslandırılır. Mikroiqtisadi səviyyədə isə iştirakçıların hər birinin spesifik üstün və zəif maliyyə şərtlərinin təhlili, kənar təsirlərin müəyyənləşdirilməsi və daxili qorunma reflekslərinin seçilməsi ilkin məsələ kimi qarşıya çıxır. Beynəlxalq səviyyədə isə dövlətlərin və beynəlxalq təşkilatların qarşılıqlı maliyyə fəaliyyətləri, beynəlxalq maliyyə bazarlarında konyunkturanın dəyişməsi ilə yaranan təsirlər daha çox nəzərə alınır. Ümumilikdə isə bütün səviyyələr üzrə maliyyə təhlükəsizliyinin təmin olunması müəyyən şəkildə vahid sistemin elementləri kimi qarşılıqlı əlaqələrlə təzahür edir. Bu mənada əslində ən alt səviyyədə tətbiq olunan təhlükəsizlik mexanizmlərini üst səviyyədə təhlükəsizliyin təminatını alt şərti kimi qəbul etmək də olar [5, s.12].

Dünya təcrübəsi göstərir ki, dövlətin nəhəng maliyyə və sənaye strukturları ilə sıx əməkdaşlığı iqtisadiyyatın böhrandan çıxması və dinamik inkişafına kömək edə bilir. Onu da qeyd edək ki, sənaye-maliyyə qruplarının formalaşması investisiya layihələrinin reallaşması üçün əlavə kapital cəlb etmək imkanlarını ortaya qoyaraq, iqtisadiyyatın sabitləşməsi və istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas amillərindən biri kimi çıxış edir. Bu qruplarda maliyyə resurslarının birləşdirilməsi onların daxili investisiya imkanlarını genişləndirir və daha vacib istiqamətlərdə öz imkanlarını səfərbər etməyə şərait yaradır.

Ölkənin iqtisadi təhlükəsizliyinin aspektlərindən biri də valyuta-kredit təhlükəsizliyidir. Bu anlayış altında valyuta-kredit kompleks münasibətlər başa düşülməlidir. Bazar iqtisadi sistemində kredit münasibətləri borc şəkli alır. Bu sistemə dövlətin yalnız daxili borcları deyil, eyni zamanda xarici dövlətlərlə olan valyuta-

kredit münasibətləri də daxildir. Ona görə də həm daxili, həm də xarici borclar ölkənin təhlükəsizliyinə təsir göstərən amillərdir [2, s.121]. Valyuta-kredit münasibətlərinin tənzimlənməsində isə bank sisteminin də özünəməxsus rolu vardır.

Uğurlu iqtisadi artımın təmin edilməsində bank kapitalının rolu böyükdür. İnvestisiya axınının istiqamətləri ilə bağlı əsas qərarların qəbul edilməsində, yeni investisiya institutlarının formalaşmasında bank kapitalı mühüm əhəmiyyətə malikdir. Bu mənada ölkənin pul-kredit, struktur və investisiya-innovasiya siyasətinin işlənib hazırlanmasında aparıcı bankların cəlb olunması səmərəli ola bilər [1, s.34]. İnvestisiya sferasına yönəldilən vəsaitlərin toplanılması işlərinin sürətlənməsi, vacibliyi və xarici ölkələrin təcrübəsi də nəzərə alınaraq səhmdar cəmiyyətləri formasında investisiya banklarının yaradılması məsələlərinin nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Bu banklar aşağıdakı vəzifələri həyata keçirməlidirlər:

- yüksək səmərəli investisiya layihələrinin reallaşması üçün vəsaitlərin toplanılması;
- özəlləşdirilmiş müəssisələrin səhmləri ilə əməliyyatların aparılması və onları dövlətlərin fond bazarlarında yerləşdirmək;
- yüksək səmərəli investisiya layihələrinin həyata keçirilməsi nəticəsində müəssisələrin səhm paketinin dövlət adından idarə edilməsi;
- ölkəyə qaytarılan ən yüksək səmərəli investisiya layihələrinə yönəldilən, yaxud da əlverişli investisiyaların sığortalanması üçün istifadə olunan kapital və vəsaitlərlə bağlı təkliflərin hazırlanması.

Bu məsələlərin həyata keçirilməsi, eyni zamanda sivil intensivliyi konsepsiyasının işlənib hazırlanmasını tələb edir. Bu konsepsiyada aşağıdakılar nəzərdə tutulur:

- geniş təkrar istehsal sistemində istehsal yığımının rolu və yerinin strateji cəhətdən əsaslandırılması, təsərrüfatçılığın maliyyə mexanizminin qurulmasını təmin etmək;
- investisiya proseslərində ərazi təşkilatlarının fəallaşması, regional investisiya tikinti komplekslərinin vahid makroiqtisadi tənzimləmə sistemində birləşməsi. Burada tikinti-maliyyə korporasiyaları şəklində holdinq tipli formalardan istifadə edilir;
- istehsalın inkişafında maliyyələşmə və investisiya yatırımının dinamikasının sinxronluğunu təmin etmək;
- sahələrarası komplekslərdə, iqtisadi rayonlarda sənaye-maliyyə qruplarının formalaşdırılması yolu ilə struktur-investisiya siyasətinin həyata keçirilməsi;
- istehsala investisiya yatırımlarının stimullaşdırılması üzrə tədbirlərin həyata keçririlməsi;
- əsas fondlarının dəyərinin dövri olaraq indeksləşdirilməsi, həmçinin sürətli amortizasiyaların fəal tətbiqi vasitəsilə amortizasiya siyasətinin fəallaşdırılması;
- istehsal sahələrinə yatırılan investisiya kreditləri və ticarət əməliyyatları üzrə üçün borclar üzrə və banklararası dövriyyədə faiz stavkalarının differensiasiya olunması [3, s.341-342].

Maliyyə təhlükəsizliyindən bəhs edərkən, xüsusilə ölkədə fəaliyyət göstərən bankların mövcud vəziyyəti, onların qarşılaşdığı risklər, maliyyə vəsaitlərinin dövriyyəsində effektivlik kimi məsələlər də nəzərə alınmalıdır. Mövcud bankların fəaliyyəti məqsədəuyğun, milli iqtisadiyyatın inkişafını xüsusilə uzunmüddətli perspektivdə dəstəkləyici yöndə düzgün təşkil oluna bildiyi halda bu həm də banklar üçün gələcək riskləri azaltmağa, imkanları genişləndirməyə şərait yaradacaqdır. Nəzərə almaq lazımdır ki, milli iqtisadiyyatın hansı sahələrinin daha çox inkişaf etməsində inestisiya qoyuluşlarının rolu böyükdür. İnvestisiya qoyuluşlarının stimullaşdırılmasında isə ölkədə həyata keçirilən pul-kredit siyasətinin mexanizmləri aktiv elementdir. Hər hansı sahədə sahibkarlıq fəaliyyəti üçün investisiya mənbəyi olaraq ən geniş mərkəz rolunu kommersiya bankları oynayır. Kommersiya banklarında isə sahibkarlıq kreditlərinə üstünlük verilməsi, stimullaşdırıcı faiz dərəcələrinin tətbiqi, bundan başqa bank vəsaitlərinin alınması zamanı təyinatın ciddi şəkildə yoxlanılaraq təhlil olunması, təyinatdan kənar və səmərəsiz istifadə hallarının olmamasına xüsusi diqqət ayırılmalıdır [6, s.9]. Hər bir kommersiya bankı mikroiqtisadi çərçivədə fəaliyyət göstərsə belə, ölkənin strateji və potensial sahələrinin investisiyalaşmasında dəstəkləyici olması gələcəkdə daha əlverişli mühitin formalaşmasına imkan verəcəkdir. Bir məqama diqqət yetirmək kifayətdir ki, ölkədə iqtisadi baxımdan

dalğalanmaların, geriləmələrin və böhranların olduğu dövrdə bank sektoru əsasən bundan mənfi mənada daha tez təsirlənir. İqtisadiyyatda göstəricilərin pisləşməsi, iqtisadi subyektlərin, əhalinin gəlir səviyyəsinin aşağı düşməsi kimi problemlər banklarda risk dərəcələrini yüksəldir, problemli kreditlərin sayı və həcmi artır, uyğunlaşa bilməyən banklar fəaliyyətini dayandırır, bank sektorunda ixtisarlar artır, pul təklifinin azalması ilə faiz dərəcələrinin yüksəlməsi, rəqabət mühitinin pisləşməsi halları müşahidə edilə bilir.

Elmi ədəbiyyatlarda bank sektorunun fəaliyyətində yarana biləcək risklər müxtəlif kriteriyalara uyğun olaraq təsnifləşdirilir. Burada risklərin ierarxiyası bütün yanaşmalarda əhəmiyyətlilik dərəcəsinə görə qurulur və ölkədə xarici və daxili amillərin təsiri altında yaranmış mövcud andakı vəziyyətdən asılı olaraq dəyişə bilər. Bununla belə bank sektorunda aşağıdakı səbəblərdən daha çox təhdidlər arta bilir:

- bank kapitalının keyfiyyətinin aşağı olması;
- banklar tərəfindən riskli kredit siyasətinin həyata keçirilməsi;
- bank nəzarətinin səmərəliliyinin yetərli olmaması;
- əmanətlərin sığorta sistemi ilə təminatının zəif olması;
- bank aktivlərinin likvidliyinin aşağı olması;
- iqtisadiyyatın real sektorunda müəssisələrin rəqabət qabiliyyətliliyinin aşağıolması;
- bank sektorunda xarici investisiyaların xüsusi çəkisinin yüksək olması [4, s.29].

Azərbaycanda milli iqtisadiyyatda regionların sosial-iqtisadi inkişaf problemləri, xüsusilə qeyri-neft sektorunun inkişaf problemlərinin həllində bankların aktiv iştirakı olduqca vacibdir. Bu istiqamətdə effektiv bank fəaliyyətinin olmadığı hallarda milli iqatisadiyyatın davamlı inkişafının qorunması çətinləşir. Belə ki, dünya neft bazarında qiymətlərin kəskin şəkildə azaldığı dövrlərdə milli iqtisadiyyat üzərində xarici amillərdən yaranan təhdidlər maliyyə-bank sisteminə də güclü təsir göstərmişdir. 2015-ci ildə həyata keçirilən devalvasiya siyasəti də məhz bu şərtlərin təsiri altında baş vermişdir və bank sektorunda xeyli dalğalanmalar müşhidə edilmişdir. Ölkədə fəaliyyət göstərən bankların sayı 2015-2020-ci illər arasında 37-dən 26-ya qədər azalmışdır. 2015-ci ildən Azərbaycanın ÜDM-də istər milli vallyuta ilə istərsə də, dollarla ifadədə azalma müşahidə edilmişdir. 2016-cı ildən manatla ifadədə artım müşahidə edilsə də 2020-ci ildə pandemiya şəraiti və müharibə şəraiti həm bank sektoruna, həm də iqtisadi artıma mənfi təsir göstərmişdir.

Azərbaycanda banklar tərəfindən iqtisadiyyatın real sektoruna kredit qoyuluşları 2014-2020-ci illər üzrə müvafiq olaraq 18542,6 mln, 21730,4 mln, 16444,6 mln, 11757,8 mln 13020,3 mln, 15298,2 mln, 1530,4 mln manat olmuşdur.

**Cədvəl 1.**

**Azərbaycanda kredit qoyuluşlarının sahələr üzrə strukturu (milyon manatla)**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Ticarət və xidmət | 2680,7 | 3158 | 2467 | 2069,2 | 2379,5 | 2491,3 | 2606,8 |
| Energetika, mədənçıxarma, kimya və təbii ehtiyatlar | 195,8 | 316,5 | 596,2 | 315,5 | 419,2 | 619,4 | 524,5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoru | 847,3 | 508,1 | 441,3 | 429,2 | 470 | 543,4 | 566,2 |
| İnşaat və tikinti | 2555,1 | 3063,2 | 1908,6 | 546,2 | 388,8 | 477,1 | 493 |
| Sənaye və istehsal | 2027,8 | 1948,3 | 1265,6 | 621,2 | 706,6 | 872,6 | 1250,1 |
| Nəqliyyat və rabitə | 736 | 1465,6 | 1271,1 | 1126,7 | 1370,7 | 1204,3 | 848,5 |
| Ev təsərrüfatlarına | 7731,8 | 8383,6 | 5858,7 | 4606,5 | 5319,6 | 6978,7 | 6709,3 |
| Daşınmaz əmlakın tikintisinə və alınmasına | 1219,1 | 1542,4 | 1703,5 | 1737,3 | 1848 | 1939,1 | 2093,4 |
| Digər sektorlar | 231,2 | 259,4 | 198,1 | 146,8 | 228,4 | 673,8 | 527,9 |

Mənbə: https://uploads.cbar.az/assets/acc41ac8a6ec8886355f2366d.pdf

Kredit qoyuluşlarının strukturunu nəzərdən keçirdikdə ev təsərrüfatlarının xüsusi çəkisinin daha yüksək olduğu görünür. Digər tərəfdən diqqəti cəlb edən məqamlardan biri də ondan ibarətdir ki, kredit qoyuluşları üzrə ümumi göstəricilərin azaldığı 2015-2017-ci illərdə ticarət və xidmət sektoruna, daşınmaz əmlakın tikintisinə və alınmasına (ipoteka kreditləri daxil olmaqla) kredit kapital qoyuluşlarının xüsusi çəkisinin artdığı halda, sənaye və istehsal, ev təsərrüfatlarına kredit qoyuluşlarının xüsusi çəkisi azalmışdır. Həmçinin iqtisadiyyatda ciddi dalğalanmaların yaşandığı 2015-ci ildən etibarən vaxtı keçmiş kreditlərin xüsusi çəkisi də artmağa başlamış və 2017-ci ildə bu göstərici 13,8 faizə bərabər olmuşdur ki, bu da bank sektoru üçün ciddi maliyyə problemlərinə səbəb olmuşdur. Ölkədə ÜDM və digər makroiqtisadi göstəricilərdə müsbət meyillərin artmağa başladığı dövrdə isə bu göstərici aşağı düşməyə başlamışdır. 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən ölkədə problemli kreditlərin həlli ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində valyuta məzənnəsindəki dəyişikliklərlə əlaqədar kredit götürən şəxslərin zərərinin müəyyən hissəsinin kompensasiya olunması müsbət tənzimləmə addımı olmuşdur. Bu sayədə bankların problemli kreditlərlə əlaqədar yükü azalmış, borc öhdəliyi olan şəxslərin öhdəlikləri yüngülləşmiş, dəyişən məzənnə səbəbindən əlavə ödənişlər etmiş şəxslərin isə kompensasiya olunmuş gəlirlərlə rifah səviyəsini qismən də olsa artırmaq imkanı yaratmışdır.

**Nəticə**

Beləliklə nəzərdən keçirilən məsələlər üzrə aşağıdakı nəticələrə gəlmək olar:

- iqtisadiyyatın bütün sahələrini əhatə etməklə maliyyə təhlükəsizliyinin bütün səviyyələrdə təmin olunması vacib problemdir;
- maliyyə təhlükəsizliyinin təmin olunması dövlətin effektiv maliyyə siyasətinin aparılması ilə birbaşa əlaqəlidir;
- dövlət tərəfindən maliyyə sahəsində hər hansı tənzimləmə tədbiri həyata keçirilərkən mənfi və müsbət aspektlər dəqiq və hərtərəfli qiymətləndirilməlidir;
- bank sektorunda kredit siyasəti ilə milli iqtisadiyyatdakı inkişaf meyilləri birbaşa və dolayı yolla funksional əlaqəyə malikdir.

Azərbaycanda maliyyə təhlükəsizliyinin gücləndirilməsi, milli iqtisadiyyatın inkişafının davamlılığının artırılması, bank sisteminin sağlamlaşdırılması üçün aşağıdakı məsələlər nəzərdən keçirilə bilər:

- kreditlərin verilməsində təyinat strukturuna və əsaslandırılmalara nəzarətin gücləndirilməsi;
- əmanətlərin və kredit vəsaitlərinin sığortalanması sisteminin təkmilləşdirilməsi;
- qeyri-neft sektorunda investisiya qoyuluşlarına kreditlərin xüsusi çəkisinin artırılmasının stimullaşdırılması;
- sahibkarlıq fəaliyyətində kreditlərdən səmərəli istifadənin təşkili yönündə maarifləndirici və digər istiqamətlərdə xidmətlərin təşkili;
- mövcud şərtlər nəzərə alınmaqla bank sektorunda istehlak yönümlü deyil, istehsal yönümlü kredit qoyuluşlarına üstünlük verilməsi.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikası Mərkəzi Bankı. Statistik bülleten №12. Bakı-2020. 75 s.
2. N.M.Məmmədov. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı Dövlət Universiteti nəşriyyatı. Bakı-2005, 310 s.
3. Meybullayev M.X., Mikayılova S.M. İqtisadi təhlükəsizlik nəzəriyyəsi. Dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı – 2005. 372 s.
4. Lelyuk N., Rodchenko S. Identification of threats to the financial security of banks. Technology audit and production reservs. № 2/4(46), 2019. S.28-33.
5. https://www.cbar.az/page-188/credit-institutions
6. https://president.az/articles/32092
7. https://www.researchgate.net/publication/24078266_An_economic_analysis_of_security_policies
8. http://lib.bbu.edu.az/files/book/1122.pdf

**Вахид Гаджибей оглы АББАСОВ, проф.**

**Эсмира Гусейн кызы ГАСАНЗАДЕ**
Бакинский Государственный Университет
E-mail: esmira.hesenzade@mail.ru

## РОЛЬ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В СОВЕРШЕНСТВОВАНИИ ФИНАНСОВЫХ МЕХАНИЗМОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Резюме**

В статье исследуются влияние и масштабы финансовой безопасности как неотъемлемой части национальной экономической безопасности. Отмечены теоретические положения о влиянии фискальной политики на экономическое развитие и безопасность страны. Банковская система рассматривалась как один из ключевых элементов финансовой системы. Приведены примеры возможных угроз в банковском секторе. Была изучена взаимосвязь между изменениями макроэкономической ситуации в Азербайджане в 2014-2020 годах и деятельностью и ситуацией в банковском секторе.

**Ключевые слова:** финансовая безопасность, финансовая политика, банковский сектор, кредитные вложения.

**Vahid Hajibey oglu ABBASOV, prof.**

**Esmira Huseyn gızı HASANZADE**
Baku State University
E-mail: esmira.hesenzade@mail.ru

## THE ROLE OF ECONOMIC SECURITY IN THE IMPROVEMENT OF FINANCIAL MECHANISMS IN THE REPUBLIC OF AZERBAIJAN

**Summary**

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Daxili investorların investisiyaları nəticəsində ölkə iqtisadiyyatı müəyyən bir səviyyədə inkişafa nail olur. Tədqiq etdiyimiz xarici investisiyaların stimullaşdırıcı tədbirləri nəticəsində dünya iqtisadiyyatının bir parçasına çevrilmiş, iqtisadi səmərəliliyi daha da yüksəlmiş ölkəyə çevirmək olar.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. https://aydinoghlu.wordpress.com/2017/07/08/investisiya-n%C9%99dir- v%C9%99-onun-mahiyy%C9%99ti/.
2. Allahverdiyev H.B Bakı-2017, s-228.
3. https://stat.gov.az/source/system_nat_accounts/
4. https://stat.gov.az/source/agriculture/
5. Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər. Bakı-2015, səh.174.
6. Süleymanov Elçin, "İnvestisiya cəlbediciliyinin iqtisadi azadlıqların rolu və əhəmiyyəti", Journal of Baku Engineering University – Economics and Administration.

**Магеррам Рамиз оглы БАБАЕВ**
Гянджинский Государственный Университет
E-mail: mahar.babayev.91@gmail.com

**ВЛИЯНИЕ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ**

**Резюме**

Практически большинство стран мира в новейшее время перешли к рыночной экономике, основанной на свободной конкуренции. В рыночной экономике особое внимание уделяется развитию производства и торговли. Роль иностранных инвестиций в быстром развитии производства - неоспоримый факт. Наша статья содержит общую информацию об инвестициях. Также в виде статистических показателей отражена динамика изменения инвестиций в стране за последние пять лет, а также доля иностранных инвестиций. Наряду с этими таблицами также было исследовано и проанализировано влияние иностранных инвестиций на экономику страны.

**Ключевые слова:** инвестиции, экономика, капитал, государство, иностранный капитал, рынок.

**Maharram Ramiz BABAYEV**
Ganja State University
E-mail: mahar.babayev.91@gmail.com

**THE IMPACT OF FOREIGN INVESTMENTS ON ECONOMIC DEVELOPMENT**

**Summary**

Almost most of the world's countries in modern times have transitioned to a market economy based on free competition. In the market economy, special attention is paid to the development of production and trade. The role of foreign investments in the rapid development of production is an undeniable fact. Our article contains general information about investment. Also, the dynamics of changes in investments in the country over the last five years, as well as the share of foreign investments, have been reflected in the form of statistical indicators. Along with these tables, the impact of foreign investments on the country's economy was also investigated and analyzed.

**Keywords:** investment, economy, capital, state, foreign capital, market.

**Natiq Əli oğlu CAVADOV, i.ü.f.d.**

**MƏHƏRRƏMOV Əli İxtiyar oğlu**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: ali.meherremov20@gmail.com

# TURİZMƏ ÖLKƏMİZDƏ STRATEJİ BAXIŞLAR VƏ ONA TƏSİR EDƏN AMİLLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Siyasi və maliyyə komponentlərinin təsirinin genişləndirilməsində, xroniki, normal və sosial dəyişənlər də turizmin inkişafına təsir göstərir. Millət daxilində baş verən siyasi hadisələr qorxu, müharibə, dövlətin siyasi statusunun dəyişməsi və s. kimi dəyişənlər turist axınına çox təsir edir. Planlaşdırma, turizmin təkmilləşdirilməsi çərçivəsində həyati əhəmiyyət kəsb edən maliyyə komponentlərinin öyrənilməsi çərçivəsində istifadə olunur. Millətin sosial vəziyyəti də təsir edən dəyişənlər arasındadır. Sosial dəyişənlər arasında yaşayış meyarlarının artımını, əhalinin boş vaxtının artımını qeyd etmək lazımdır ki, bu da müasir potensial səyahətçi axınını nəzərdə tutur.

**Açar sözlər:** turizm, strategiya, inkişaf, amil, potensial, coğrafi xüsusiyyətlər.

**UOT: 332**
**JEL: L83**

## Giriş

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına əsasən 8 əsas və 3 yardımçı olmaqla, 11 sektor üzrə Azərbaycan iqtisadiyyatının təfsilatlı inkişaf planlarının işlənilməsi məqsədi ilə işçi qrup yaradılaraq, 2020- ci ilədək iqtisadi inkişaf strategiyasının və tədbirlər planının, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışın və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın hazırlanmasına dair müvafiq tapşırıqlar verilmişdir.

**Turizm sənayesi** - özündə yerləşmə (mehmanxana, otellər, müalicə korpusları) vasitələri, nəqliyyat vasitələri, ictimai-iaşə müəssisələri, əyləncə, tanışlıq, işgüzar, idman və digər təşkilatlarda turaperator və furagentin fəaliyyətləri ilə reallaşdırılan ekskursiya xidməti və tərcüməçiliyin təşkilidir. Turizmin inkişafı səyahətə çıxanların sayının artması ilə ölçülmür. Bu sektor üzrə uzunmüddətli perspektivə nail olmaq məqsədilə 2020-ci ilədək olan dövr üçün ölkə üzrə turizm sektorunda dörd əsas hədəf müəyyənləşdirilmişdir:

- Xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi Milli Turizm Təbliğat Bürosunun yaradılması və ilk olaraq Bakı şəhərində fəaliyyətinin təmin olunması, Bakı şəhərindəki cəlbedici turizm məkanlarına dair məlumatların və turist xidmət paketlərinin yenilənməsi, Bakı şəhəri üzrə təbliğat-təşviqat tədbirlərinin keçirilməsi, Bakı şəhərinin turizm infrastrukturunun, o cümlədən uyğun qiymətə mehmanxana və cəlbedici turizm məkanlarının inkişaf etdirilməsi.
- Turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması Turizm Şurasının fəaliyyətinin təşkili, turizm və rekreasiya zonalarının (TRZ) yaradılması, yerli və xarici turistlər üçün turizmdə mövsümlük problemi regional səviyyədə aradan qaldıran turizm xidməti infrastrukturunun inkişaf etdirilməsi, Əsas tələb bazarları ilə hava əlaqəsinin təkmilləşdirilməsi.
- Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması, qış turizminin inkişafının dəstəklənməsi, mədəni turizm marşrutlarının yaradılması, işgüzar turizmin inkişafının dəstəklənməsi, davamlı turizm potensialının gücləndirilməsi (ekoturizm, kənd turizmi və s.)

- Turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaradılması Turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşu, turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi.

Turizm sektoru iqtisadiyyatın həssas sektoru kimi qlobal iqtisadi böhranların təsirinə birbaşa məruz qalmasına baxmayaraq, 2009-cu ildən etibarən dördillik müddət ərzində böhranın təsirindən çıxaraq yenidən sürətli inkişafa başlamışdır. Bu trendin əsasını iki mühüm amil təşkil edir: ABŞ, Yaponiya və Avropanın bir çox inkişaf etmiş ölkələrində müşahidə olunan iqtisadi canlanma nəticəsində həmin ölkələrdən gəlmə turistlərin və müvafiq olaraq onların gəlirlilik səviyyəsinin artması, eləcə də orta sinfin genişlənməsi,

- Dövlətlərin turizmin inkişafına artan dəstəyi nəticəsində Asiya və Latın Amerikası ölkələrində də turizm sektorunun inkişafı, həmçinin aşağıbüdcəli hava nəqliyyatı xidmətlərinin mövcudluğu.

Ümumiyyətlə, turizm sənayesinin dəyişən dinamikasına müvafiq olaraq son illərdə turizm strategiyasının inkişafı sahəsində beş əsas istiqamət qlobal trend kimi müəyyənləşdirilmişdir.

Ölkələr və turizm məkanlarının turizm brendinin hazırlanmasına və təbliğinə daha çox diqqət yetirməsi turistlərin sayının artmasını nəzərə alaraq, fərqli maraq dairəsinə malik turistlərə xidmət məqsədilə turizm sektoru mümkün olan bütün seçimləri və növləri diversifikasiya etmişdir.

Bu baxımdan, dövlət və özəl sektorun nümayəndələri eksklüziv və innovativ təklifləri artırmaqla ixtisaslaşmış turizmi, müxtəlif biznes modellərini və məhsul brendlərini hədəfləyərək, turizm mərkəzlərini daha da təşviq etmək üçün təşəbbüslər həyata keçirməyə çalışırlar.

Dünya ölkələrində mühüm amil kimi hava əlaqəsinin əlçatanlığının gücləndirilməsinə xüsusi diqqət yetirilməsi qabaqcıl ölkə təcrübələrində iqtisadi səmərə üçün milli aviadaşıyıcıya sahib olmaqla yanaşı, həm də uyğun qiymətə aviabiletlərin təşkili məqsədilə müxtəlif istiqamətli tədbirlər görülür və bazarın genişləndirilməsi təmin edilir. Bundan əlavə, əksər ölkələr ciddi investisiya qoyuluşu həyata keçirmədən əlçatanlığın yaxşılaşdırılması məqsədilə viza proseslərini asanlaşdıracaq tədbirlər həyata keçirirlər.

Flaqman layihələrin turizm məkanları üzrə sektor strategiyasının həyata keçirilməsi baxımından mühüm element hesab edilməsi Flaqman layihələr sektor strategiyasını dəstəkləyən operativ, böyük miqyaslı və nəzərə çarpan investisiya layihələridir və daha geniş islahatların həyata keçirilməsində həm güclü əlaqə vasitəsi, həm də marketinq aləti rolunu oynaya bilər. Nəhayət, bu cür layihələr coğrafi əhatə dairəsini kiçiltmək və islahatların mürəkkəbliyini azaltmaqla, bütövlükdə sektor üçün səmərəli təsir göstərə bilər.

Master planın inkişafının turizm sektorunun sürətli inkişafı üçün əsas alət kimi istifadə edilməsi bu planların hazırlanmasına və icrasına məsuliyyət daşıyır və bu master plan proseslərin sadələşdirilərək investorlar üçün cəlbedici edilməsi ilə yanaşı, həm də inteqrasiya edilmiş brend strategiyasının tətbiqinə də şərait yaradır.

İnkişafda olan ölkələrdə turizmin inkişafı üçün birbaşa xarici investisiyalara daha çox üstünlük verilməsi əsasən, bəzi inkişaf prosesləri üzrə yüksək investisiya qoyuluşlarının tələb edildiyi, xüsusən də infrastruktura investisiya qoyuluşlarının zəruri olduğu hallarla daha çox bağlıdır. Bununla belə, dəyər zəncirində ən çox beynəlxalq şirkətlər iştirak etdiyinə görə, investisiyaya tələb zəruri olmadığı hallarda belə, beynəlxalq investorlarla əməkdaşlıq səmərəli ola bilər.

Respublikamız azadlığa qovuşduqdan sonra xalqımız təbii-iqlim şəraitindən bəhrələnmək üçün əlverişli şərait yaratmış, cəlbedici turizm potensialı ondan istifadə etmək üçün çoxsaylı layihələr həyata keçirməyə başlamışdır. Azərbaycan zəngin dövlətdir, burada turizmin inkişafı üçün zəngin bir sərvət var və biz bu zəngin imkanlardan lazımi şəkildə istifadə etməliyik. Ölkəmizdə müavinət seqmenti müavinət bölgüsü daxilində xüsusi uzaq və məişət fərziyyələri dövrün məcburi olduğu bir vaxtda yaradılır.

Azərbaycanda da dünya təcrübəsinin turizmə tətbiqi həyata keçirilməlidir. Turizmin inkişafına mane olan amillərdən biri ölkəmizin Dağlıq Qarabağ zonasının işğal altında olması idi. Xarici ölkələr münaqişəli ərazi olduğuna görə Azərbaycan turizminə investisya yatırmaqdan

çəkinirdilər. Lakin artıq 2020-ci ilin sentyabrından başlayaraq 44 günlük əks hücumun həyata keçirilməsi nəticəsində ölkəmizin zəngin turizm ehtiyatlarına malik Dağlıq Qarabağın işğaldan azad edilməsi ölkəmizə xarici turizm şirkətlərinin sərmayə qoymasına geniş imkanlar yaratmışdır[ Y.Hümbətov və başqaları , "Turizm sənayesinin təşkili", Dərslik, Bakı, 2021, s 3].

Rekreasiya-turizm potensialı tukənməyən təbii, anropogen, sosial-iqtisadi resurslara əsaslanır. Turizm resursları – təbii, iqlim, tarixi-arxitektur, dini, sosial-mədəni, mənəvi - irsi numunələri ozundə birləşdirir. Turizm ehtiyatlarından istifadənin əsas səbəbi turistlərdə yaranan maraq və təəssuratdır. Turistlərin marağına səbəb olan obyektlər - tarixi-mədəni dəyərləri ozundə birləşdirən yerlər, təbiət obyektlərivə təbii iqlim əraziləridir.

Turizm ehtiyatı dedikdə: təbii, iqtisadi, tarixi, mədəni, irsi, milli, etnoqrafik komponentlər, landşaft ekzotikliyi, iqlim komfortluluğu, təbiət abidələri, milli parklar, qoruqlar, yasaqlıqlar nəzərdə tutulur. Turizm ehtiyatlarının uzunmuddətli istifadəsi onun yerləşdiyi ərazinin coğrafi xususiyyətlərindən asılıdır. Belə ki, turizm ehtiyatları muəyyən bir ərazidə yığcam cəmlənirsə, bunlar rekresiya təssərufatın inkişafı ilə yanaşı onun uzunmuddətli istifadəsinin də təmin olunmasına xidmət edir.

Turizmin inkişafına siyasi, iqtisadi amillərin təsiri ilə yanaşı tarixi, təbii, mədəni amillərin də təsiri vardır. Ölkədə baş verən siyasi hadisələr terror, müharibə vəziyyəti, dövlətin siyasi statusunun dəyişməsi və s. kimi amillər turist axınına böyük təsir edir. Tədqiqtlardan belə nəticəyə gəlmək olar ki, turizmin sənaye əsasında təşkili, turist xidmətlərini və turist tələbatlı malların satışı ilə məşğul olan istehsal, ticarət və nəqliyyat müəssisələrinin birgə fəaliyyətini təmin edərdi. Aparılan müşahidələr göstərir ki, kütləvi turizmin dinamik inkişafı bütün dünyada turizm sənayesinin və xalq təsərrüfatının qarışıq sahələrinin, elm və mədəniyyətin, təhsil sisteminin qarşılıqlı inkişafına səbəb olmuşdur. Bu proses artdıqca qanunauyğun olaraq həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir. Yeni sənaye və xidmət sahələrinə ehtiyac artır. Qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi həm regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, həm də dövlət büdcəsinin gəlirlərinin artırılması və onun müxtəlif mənbələrdən formalaşdırılması, ixrac gəlirlərinin artırılması, idxalı əvəz edən və ixracyönümlü, geniş çeşidə malik sənaye məhsullarının istehsalı baxımından önəmli hesab edilir. Turizm sənayesi özündə ölkə iqtisadiyyatının bir cox sahələrini birləşdirir. Turizm sənayesi bir sistemdir və bu sistemin fəaliyyəti ona daxil olan bütün sahələrin ahəngli işləməsi ilə həyata keçirilir. Bu sahələrin inkişafı istehsalat, emaledici sahələrin inkişafı və yeniləşməsindən birbaşa asılıdır. Turizm sənayesinin xüsusiyyətlərinə aid olan turizm-rekreasion resursların, müvafiq səviyyədə infrastrukturun və savadlı, peşəkar kadrların olması xüsusi əhəmiyyət kəsb edir. Turizm sənayesi elə yerlərdə inkişaf edir ki, bu yerlər təbii və süni, yəni insan tərəfindən yaradılmış yerlərdən ibarətdir və bu yerlər turistləri müxtəlif fəaliyyət xüsusiyyətləri ilə cəlb edir. Turizm sənayesinin xüsusiyyəti odur ki, o həm material tutumlu məhsul istehsal edir, həm də qeyri-maddi məhsul, yəni xidmət yerinə yetirir. Elə bu əlamətlər turizm sənayesinin əsas xüsusiyyətini təşkil edir. Dünyanın bir çox ölkələrində milyonlarla insanın məşğulluğunu təmin edən və təsərrüfatın bütün sahələri ilə əlaqədə fəaliyyət göstərən, geniş maddi bazaya malik olan, formalaşmış və sabit inkişaf edən turizm sənayesi mövcuddur. Ölkədə iqtisadiyyatın dayanıqlı və tarazlı inkisafını təmin etmək, əhalinin sosial iqtisadi rifahını yüksəltmək, iqtisadi inkisafın keyfiyyətcə yeni modelini formalasdırmaq, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyini artırmaq, dünya iqtisadiyyatına səmərəli inteqrasiya etmək üçün və ölkənin uzunmüddətli inkisaf strategiyasına uygun olaraq qeyri-neft sektorunun inkisaf etdirilməsi hazırkı mərhələdə dövlətin qarsıya qoyulmus əsas vəzifələrindəndir və qeyri-neft sektorunun inkisaf etdirilməsi hökumətin iqtisadi siyasətinin əsas prioritetini təskil edir. Qeyri-neft sektorunun inkisafı sahəsində hökumət müxtəlif istiqamətlərdə iqtisadi siyasət həyata keçirir. İqtisadi inkisafın bir mənbədən asılılıgının aradan qaldırılması üçün həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi (diversifikasiya), qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi, qeyri - neft sektorunda investisiya qoyuluslarının maliyyələsdirilməsi üçün əlverisli səraitin yaradılması, o cümlədən, daxili investorlar üçün əlverisli investisiya mühitinin

yaradılması, sahibkarlıq fəaliyyətini tənzimləyən, sahibkarlığın inkişafının stimullasdırılması və təkmilləşdirilməsi, biznes mühitinin, özəl bölmənin yaxsılaşdırılması, səmərəli vergi siyasəti və s. qeyri-neft sektorunun inkisaf etdirilməsi üçün dövlətin iqtisadi siyasətinin əsas istiqamətləridir [ Y.Hümbətov və başqaları , "Turizm sənayesinin təşkili", Dərslik, Bakı, 2021, s 45].

Azərbaycanın qeyri-neft sektoru isə müasir mərhələdə ölkə iqtisadiyyatında qeyri - neft sektorunun inkişaf etdirilməsi istiqamətində hökumətin həyata keçirdiyi iqtisadi siyasət və həmin iqtisadi siyasətin reallasdırılması ilə baglı iqtisadi münasibətlərdir. Dərs vəsaitinin məlumat bazasını Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, Nazirlər Kabinetinin, iqtisadiyyat Nazirliyinin qeyri - neft sektorunun və onun aparıcı sahələrindən olan turizmin inkisafını nəzərdə tutan qərar, sərəncam və göstərişləri, Dövlət Statistika Komitəsinin, iqtisadiyyat Nazirliyinin və Dövlət Gömtük Komitəsinin statistik və hesabat məlumatları, elmi - praktik konfransların materialları təşkil edir. Müasir dövrdə turizm ölkədə qeyri - neft sektorunun inkişafında əsas prioritet sahə hesab edilir. Qeyri-neft sənaye sahələrində mövcud problemləri həll etmək, ehtiyat imkanlarından səmərəli istifadəyə nail olmaq üçün təşkilati – iqtisadi mexanizmləri və metodları kökündən dəyişdirmədən lazımi məqsədə çatmaq üçün bütün sahələrdə, o cümlədən turizm sahəsində yeni düşüncə tərzinə və yaradıcılıq imkanlarına malik kadrların hazırlanmasına zəruri ehtiyac duyulur. Müasir dövrdə elm insan fəaliyyətinin bir sahəsi kimi, müxtəlif predmet, hadisə və proseslərin mahiyyəti, daxili əlaqələri haqqında toplanmış biliklərin sistemləşdirilməsinə xidmət etməkdədir.Yeni xidmət sahələrinin yaranması, ölkə iqtisadiyyatının inkişafında təbii və əmək resurslarından səmərəli istifadə mühüm əhəmiyyətə malikdir Mövcud resursların son illərdə məqsədyönlü və səmərəli şəkildə istifadəsi ümumilikdə respublikanın dinamik iqtisadi inkişafında yeni keyfiyyət mərhələsi yaratmışdır.

Qeyri-neft sənaye sahələrində mövcud problemləri həll etmək, ehtiyat imkanlarından səmərəli istifadəyə nail olmaq üçün təşkilati – iqtisadi mexanizmləri və metodları kökündən dəyişdirmədən lazımi məqsədə çatmaq üçün bütün sahələrdə, o cümlədən turizm sahəsində yeni düşüncə tərzinə və yaradıcılıq imkanlarına malik kadrların hazırlanmasına zəruri ehtiyac duyulur.

Müasir dövrdə elm insan fəaliyyətinin bir sahəsi kimi, müxtəlif predmet, hadisə və proseslərin mahiyyəti, daxili əlaqələri haqqında toplanmış biliklərin sistemləşdirilməsinə xidmət etməkdədir.Yeni xidmət sahələrinin yaranması, ölkə iqtisadiyyatının inkişafında təbii və əmək resurslarından səmərəli istifadə mühüm əhəmiyyətə malikdir Mövcud resursların son illərdə məqsədyönlü və səmərəli şəkildə istifadəsi ümumilikdə respublikanın dinamik iqtisadi inkişafında yeni keyfiyyət mərhələsi yaratmışdır.

Artıq Respublikamızın müstəqillik əldə etməsindən 29 ildən artıq dövr arxada qalmış, bu illərdə ölkəmizdə nəzərə çarpacaq iqtisadi yüksəlişə nail olunmuşdur. Respublikamızda iqtisadiyyatın yenidən qurulması və inkişaf etdirilməsi haqqında bir sıra qanunlar qəbul edilməsi, istər daxili, istərsə də xarici investorların istehsal və xidmət sahələrinin inkişafına sərmayə qoyuluşuna səbəb olmuşdur. Yeni təsərrüfatçılıq formalarının yaradılmasında əsas yeri sahibkarlıq tutduğundan yeni müəssisələr yaradılarkən əsasən tələb - təklif prinsipi nəzərə alınaraq, istehsal və xidmət sahələri yaradılmışdır ki, bu da ölkə iqtisadiyyatının inkişafına oz müsbət təsirini göstərmişdir.

Milli iqtisadi fəaliyyətdə turizmin rolu daim artır. Turizm biznesi iş adamlarının, o qədər də çox vəsait tələb etməyən başlanğıc kapitalı, çəkilən xərclərin tez müddət ərzində qaytarılması, qoyulan vəsaitin yüksək rentabellik səviyyəsi, turizm xidmətlərinə olan tələbatın daim artması ilə cəlb edir. Azərbaycanda turizm bazarının inkişafı ilə yeni tip təfəkkür və davranışı olan kadrlara tələbat da artır.

Zamanın tələblərinə cavab olaraq respublikanın bir çox təhsil müəssisələri turizm biznesi üçün kadrların hazırlanmasına başlayıb. Nəticə etibarı ilə turizmin inkişafını təmin etmək və beynəlxalq standartlara cavab verən turizm komplekslərinin yaradılması zərurəti meydana gəlmişdir.

Belə bir vəziyyətdə "Turizm sənayesinin təşkili" kursuna dair dərs vəsaiti hazırlamağa müəllifi təhrik edən amil bu ixtisasda təhsil alan tələbələrə kömək etmək bu sahədə fəaliyyət göstərən ayrı-ayrı müəssisələrin kompleks şəkildə yəni sənaye əsasında təşkili haqqında onlara ətraflı məlumat vermək istəyi olmuşdur.

"Turizm sənayesinin təşkili" fənninin ali məktəblərdə tədris olunmasının məqsədi - ölkəmizin qeyri - neft sənaye sahələri, o cümlədən turizmin tək-tək fərdi müəssisələr şəklində deyil, kompleks şəkildə, daha dəqiq desək, sənaye əsasında inkişaf etdirilməsinin zəruriliyi, ölkə iqtisadiyyatının strukturunda turizmin yeri və bu sahədə göstərilən xidmətlərə olan tələbatların ödənilməsində əhəmiyyəti, eləcə də turizmin perspektiv inkişaf istiqamətləri haqqında zəruri biliklər verməkdən ibarətdir.

**Nəticə**

Müasir dövrdə ölkədə turizm sənayesinin inkişaf etdirilməsi və turizm potensialından düzgün istifadə edilməsi və turizmin rəqabət qabiliyyətinin yüksəldilməsi aktual problemlərdən biri olaraq qalır. Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün ölkədə turizm sənayesinin inkişaf etdirilməsi əsas prioritet sahələrdən biridir. Turizm sənayesi turistin istifadə etdiyi geniş xidmət sahələrini birləşdirən təsərrüfat kompleksidir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1."Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli fərmanı.

2.Quliyev E.A. "Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri". Monoqrafiya. Bakı, "Kooperasiya" nəşriyyatı. 2020, 463 s.

3.İbrahimov İ.H. "Regionların və işğaldan azad edimiş ərazilərin inkişaf istiqamətləri". Monoqrafiya. Bakı, "Kooperasiya" nəşriyyatı, 2022, 240 s.

4. Власов М.К. Основы экономической безопасности: учебное пособие. М. П. Власов, А. К. Моденов. Санкт-Петербург, СПбГАСУ, 2017, 220

5. Y.Hümbətov, F.Kərimov, V.Qapaqov, X.Cavadzadə, "Turizm sənayesinin təşkili", Dərslik, Bakı, 2021.

**Натиг Али оглы ДЖАВАДОВ, к. э. н.**

**Али Ихтияр оглы МАГЕРРАМОВ**
Азербайджанский Технологический Университет
E-mail: ali.meherremov20@gmail.com

## СТРАТЕГИЧЕСКИЙ ВЗГЛЯД НА ТУРИЗМ В НАШЕЙ СТРАНЕ И ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА НЕГО

**Резюме**

Помимо влияния политической и финансовой составляющих, на развитие туризма также влияют хронические, нормальные и социальные переменные. Политические события внутри страны включают страх, войну, изменение политического статуса государства и т. д. Такие переменные сильно влияют на поток туристов. Планирование используется в рамках изучения финансовых компонентов, жизненно важных для улучшения туризма. Социальное положение нации также входит в число влияющих переменных. Среди социальных переменных необходимо отметить повышение уровня жизни, увеличение свободного времени населения, а значит, приток современных потенциальных путешественников.

**Ключевые слова:** туризм, стратегия, развитие, фактор, потенциал, географические особенности.

**Natig Ali oghlu JAVADOV, Ph.D.**

**Ali Ikhtiyar oglu MAHARRAMOV**
Azerbaijan Technology University
E-mail: ali.meherremov20@gmail.com

## STRATEGIC VIEW OF TOURISM IN OUR COUNTRY AND FACTORS AFFECTING IT

**Summary**

In addition to the influence of political and financial components, chronic, normal and social variables also affect the development of tourism. Political events within the nation include fear, war, change in the political status of the state, etc. such variables greatly affect the flow of tourists. Planning is used within the framework of the study of the financial components that are vital to the improvement of tourism. The social condition of the nation is also among the influencing variables. Among the social variables, it is necessary to mention the increase in living standards, the increase in the free time of the population, which means the flow of modern potential travelers.

**Keywords:** tourism, strategy, development, factor, potential, geographical features.

**Aygün Alim qızı HACIYEVA,** baş müəllim

**Validə İsa qızı SALIYEVA,** baş müəllim

**Nəsimi Əlipolad oğlu ABBASZADƏ,** baş müəllim
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: aygun-gadjieva@mail.ru

# ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA KİÇİK VƏ ORTA BİZNESİN ROLU VƏ İNKİŞAF YOLLARI

**Xülasə**

Müasir zamanda ölkə iqtisadiyyatının səmərəli inkişafı zamanın tələbidir, bu isə öz növbəsində kiçik və orta biznesin inkişaf etdirilməsindən asılıdır. Kiçik və orta biznesin inkişafı ölkədə məşğulluq problemini həll etməyə kömək edir, iqtisadiyyatın ixrac potensialını, rəqabətqabiliyyətini və səmərəliliyini artıtır, dövlət büdcəsinin formalaşmasında iştirak edir. Milli sərvətin və resursların əsas hissəi kiçik biznes sektorunda yaradılır və dövr edir. Beləliklə, müxtəlif yollarla kiçik biznesi inkişaf etdirərək iqtisadi və sosial inkişafda böyük nəticələr əldə etmək olar. Məqalə ölkənin sosial-iqtisadi inkişafında kiçik və orta biznesin rolunun müəyyən edilməsinə və inkişaf yollarının tədqiqinə həsr edilmişdir.

**Açar sözlər:** kiçik biznes, kiçik və orta sahibkarlıq ,bazar iqtisadiyyatı, sahibkarlıq subyekti, müəssisə.

**UOT:** 334,7
**JEL**: Q 13

## Giriş

**Tədqiqatın məqsədi** – Tədqiqatın əsas məqsədi ölkəmizdə kiçik və orta biznesin fəaliyyətinin formalaşması, müasir vəziyyəti və inkişafını statistik tədqiq etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası-** Tədqiqat işində müşahidə, təhlil və müqayisə üsullardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti**–alınmış nəticələrdən kiçik və orta biznesi inkişaf strategiyalarının tənzimlənməsi ilə bağlı nəzəri və praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri**– qlobal çağırışlar və ölkənin müasir inkişaf səviyyəsi nəzərə alınmaqla kiçik və orta biznesin inkişafının tənzimlənməsinin optimallaşdırılması üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın elmi yeniliyi** – Təhlilini apardığımız məqalədə Azərbaycanda kiçik və orta sahibkrlığın inkişafının əhəmiyyəti və onun inkişaf amilləri haqqında məlumatlar yer almışdır. Son illərdə bu sahəyə dövlət dəstəyinin göstərilməsi, sahibkarlığın inkişafında xeyli müsbət nəticələr olduğu göstərilmişdir.

Milli iqtisadiyyatın səmərəli inkişafı müasir zamanın tələbidir, bu isə öz növbəsində kiçik və orta biznesin inkişaf etdirilməsindən asılıdır. Kiçik və orta biznesin inkişafı ölkədə məşğulluq problemini həll etməyə kömək edir, iqtisadiyyatın ixrac potensialını, rəqabətqabiliyyətini və səmərəliliyini artıtır dövlət, büdcəsinin formalaşmasında iştirak edir.

Kiçik biznes müəssisələri xarici mühitin dəyişməsinə qarşı daha davamlıdırlar. 90-cı illərin əvvəllərində Azərbaycanda baş verən tənəzzül zamanı məhz sahibkarlığın inkişaf etdirilməsi ölkə iqtisadiyyatını uçuruma uğramağa qoymadı. Kiçik biznes yeni bazar şəraitinə vaxtında adaptasiya etdi. Böyük dövlət müəssisələrinin isə çoxu rəqabətə dözməyib iflasa uğradılar, dağıdıldırlar və ya özəlləşdirildilər. Beləliklə də, kiçik biznes öz çevikliyini və həyat qabiliyyətini göstərdi, bazar iqtsadiyyatını inkişaf etdirdi.

Bazar iqtisadiyyatının təməl daşlarından biri sahibkarlığın inkişafıdır. Dünya iqtisadiyyatının inkişafı göstərir ki, kiçik və orta sahibkarlıq,

müasir dillə desək, kiçik biznes, bazar iqtisadiyyatında mühüm rol oynayır. Onun inkişafından ölkədə iqtisadi artım templəri, iqtisadi potensialdan səmərəli istifadə bilavasitə asılıdır.

Kiçik biznes bütün səviyyələrdə büdcənin formalaşdırılmasında iştirak edir. Kiçik müəssisələrin gəlirlərindən büdcəyə ayırmalarla yanaşı burada yaradılan iş yerlərində işləyənlərin əmək haqlarından tutulan vergilər də büdcənin formalaşdırılmasında mühüm rol oynayırlar.

Bundan başqa, ölkədə yeni iş yerlərinin yaradılmasında kiçik müəssisələrin rolu böyükdür, çünki burada mövcud problem dah tez və az xərclə həll olunur.

**Materiallar və metodlar.** Bazar iqtisadiyyatının əsas amili və inkişafının təminatı olan sahibkarlığın formalaşması zəruriyyəti və əsas prinsiplərinin müəyyənləşdirilməsi ilə bağlı əsaslandırmalarda ilk növbədə bu sahədə mövcud qanunvericilik sənədlərinə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik məcmuələri, internet resursları, kütləvi informasiya vasitələrinin materialları və həmçinin müxtəlif müəlliflərin elmi araşdırmalarına istinad edilmişdir.

**Nəticələr və müzakirə.** Sahibkarlıq mühitinin inkişaf etdirilməsi və kiçik biznesin yaradılması bazar iqtisadiyyatının formalaşmasının və inkişafının başlıca amillərindəndir. Bildiyimiz kimi sahibkarın başlıca məqsədi mənfəət əldə etməkdir. Buna nail olmaq üçün o, cəmiyyətə tələb olunan mal və xidmətləri istehsal edib reallaşdırmalıdır. Mal məhsul istehsal etmək üçün iş yerləri yaradır, başqa sahibkarların istehsal etdiyi avadanlıqları alır, məhsulunu daşımaq üçün yol çəkir, yeni bazarlar yaradır, infrastrukturun inkişafında iştirak edir. Beləliklə də, o cəmiyyətin tələbatlarını ödəyir, əhalinin rifahını yaxşılaşdırır. Büdcəyə vergi ödəyir və onun formalaşdırılmasında iştirak edir. Gördüyü işdən daha çox mənfəət əldə etmək üçün o yeniliklərdən istifadə etməli olur, bununla da bazarda novator kimi çıxış edir. Dediklərimizdən belə bir nəticəyə gəlmək olar ki, sahibkarlar öz sərvətlərini artıraraq cəmiyyətin sərvətini artırmış olurlar və iqtisadiyyatı daha da inkişaf etdirirlər.

Sahibkarlığın inkişafı iqtisadi inkişafla yanaşı sosial inkişafa da səbəb olur, yəni sahibkarlıq ölkənin ümumi sosial-iqtisadi vəziyyətinə əlverişli təsir göstərir. Sahibkarlığın inkişafı iqtisadiyyatda rəqabət mühitini formalaşdırır və inkişaf etdirir. Rəqabət mühiti istehsal amillərindən daha səmərəli istifadəyə səbəb olmaqla yanaşı, amil sahiblərinin də öz resurslarını daha sərfəli reallaşdırmalarına kömək edir. Deməli, bundan bütün əhali bəhrələnir və cəmiyyətdə sosial gərginlik azalır.

Müasir zamanda bazar iqtisadiyyatında biznesin əsas məqsədlərindən və xüsusiyyətlərindən biri maksimal gəlir əldə etməkdir. Bunun üçün sahibkarlar əllərində olan resurslardan və imkanlardan maksimal dərəcədə səmərəli istifadə etməli olurlar.

Hər zaman bazar iqtisadiyyatının yaranması və inkişafı bilavasitə kiçik biznesin inkişafı ilə bağlıdır. Çünki, o bazar mühitinin formalaşdırılmasında mühüm rol oynayır. Müasir zamanda real iqtisadiyyatın inkişaf etməsi üçün tez tez dəyişən ictimai tələbatlar nəzərə alınmalı və tez bir zamanda reaksiya verilməlidir. Bu cür reaksiya verməkdə kiçik biznes daha fəaldır, çevik və operativdir, dəyişməyə daha meyillidir və bu proseslər ona daha az xərc hesabına başa gəlir. Böyük müəssisələrin müflisləşdiyi, büdcəyə milyonlarla borclu olduğu bir şəraitdə, kiçik biznes göstərilən xüsusiyyətlərinə rəğmən tez dəyişir, dəyişən şəraitə uyğunlaşır, yeni iş yerləri yaradır, bununla da həm ictimai təklifi, həm də ictimai tələbi artırır, bir sözlə iqtisadi böhranın aradan qaldırılmasında fəal iştirak edir. Beləliklə, bazar münasibətlərinin daha da inkişaf etdirilməsində kiçik biznesin inkişafı obyektiv zərurətə çevrilir.

Ölkəmizdə bazar iqtisadiyyatının və münasibətlərinin inkişafı elə bir mərhələdədir ki, bazarın təməl daşı olan rəqabət tam formalaşmamışdır və iqtisadiyyatın inkişafına demək olar ki, təsir göstərə bilmir. Bu səbəbdən də, dövlətin iqtisadi siyasəti onun inkişafının stimullaşdırılmasına yönəlməlidir. Bu isə iqtisadiyyatda sahibkarlıq sektorunun və rəqabətin məqsədyönlü inkişaf etdirilməsi, biznes mühitinin canlandırılması hesabına mümkündür.

Sahibkarlığın, kiçik biznesin inkişafı iqtisadi məsələlərlə yanaşı, sosial məsələləri də həll etməyə imkan verir. Bu məsələlərdən ən vacibi yeni iş yerlərinin yaradılması hesabına işsizlik səviyyəsinin aşağı salınması probleminin həllidir. Bu səbəbdən də effektiv investisiya

siyasətinin həyata keçirilməsi imkanlarının məhdud olduğu bir şəraitdə belə, iş tapmaqda çətinlik çəkən şəxslərə və işsizlər üçün yeni iş yerləri yaradan müəssisə və təşkilatlara real dəstək vermək və kömək etmək olduqca zəruridir.

Yuxarıda göstərilənlər kiçik biznesin rəqabətli bazar mexanizminin ən vacib elementi olduğunu göstərir və onlar olmadan bazar iqtisadiyyatını inkişaf etdirmək, onun mütərəqqi imkanlarından səmərəli istifadə etmək demək olar ki, mümkün deyil. Kiçik və orta biznesin dövlət tənzimlənməsinin, onun dəstəklənməsinin səmərəli sisteminin formalaşdırılmasının nəinki kiçik müəssisə üçün, həm də, bütövlükdə ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyəti vardır. Kiçik biznes əhalinin geniş təbəqələrinin həyat səviyyəsinin yüksəldilməsi üçün şəraiti təmin edir, yeni iş yerləri yaradaraq cəmiyyət üçün zəruri mallar və xidmətlər istehsal edir, eyni zamanda müxtəlif məhsulların istehlakçısı kimi çıxış edərək ölkənin və onun regionlarının iqtisadi inkişafına mühüm təsir göstərir [2].

Ölkəmizdə bazar münasibətlərinin daha da inkişaf etdirilməsi iqtisadiyyatda müxtəlif mülkiyyət forması olan təsərrüfat subyektlərinin fəaliyyət göstərməsini tələb edir. Respublikamızda onların fəaliyyətinin nə yerdə olduğuna diqqət yetirək. 2020-ci ildə Azərbaycanda 316370 kiçik və orta sahibkarlıq subyekti fəaliyyət göstərmişdir. Onlardan 1811-i dövlət, 314559-u qeyri-dövlət mülkiyyətindədir. Həmin sahibkarlıq subyektlərinin 3264-ü kənd təsərrüfatı sahəsində, 14007-si sənayedə, 11670-i tikinti sahəsində, 103707-si ticarətdə, 65987-si – nəqliyyat və anbar təsərrüfatında, 20513-ü turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 6939-u rabitə və informasiya sahəsində, 6358-i təhsildə, 3793-ü səhiyyə və əhaliyə sosial xidmətlərin göstərilməsi sahəsində, 7282-si daşınmaz əmlakla əlaqədar əməliyyatlarda, qalan 72850-si isə digər sahələrdə fəaliyyət göstərirlər. Çoxlu sayda kiçik mülkiyyətçilər təbəqəsi kimi çıxıs edən kiçik biznes ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinə güclü təsir edir. Ona görə də, inkişafa meyilli olan ölkələrdə olduğu kimi, Azərbaycanda da bu sektorun inkişafı dövlətin və cəmiyyətin diqqət mərkəzindədir.

Milli sərvətin və resursların əsas hissəsi kiçik biznes sektorunda yaradılır və dövr edir, bu isə orta və iri biznesin qida mühitidir. Kiçik biznesdə işləyən müəssisələrdə texnoloji proseslər kiçik olduğu üçün həm istehsal, həm də idarəetmə baxımından çevikdirlər. Bu, onlara dəyişən bazar şəraitinə tez bir zamanda reaksiya verməyə və uyğunlaşmağa imkan verir. Daha dinamik inkişaf edən sektor olaraq, kiçik biznes makroiqtisadi mühitə əhəmiyyətli dərəcədə təsir edə bilir. O, məşğulluğun genişləndirilməsinə kömək edir, inhisarçılığın yaranmasına mane olan bazar mexanizminin həqiqi fəaliyyətinə imkan yaradır, bununla da rəqabət mühitinin formalaşdırılmasında mühüm amil kimi çıxıs edir.

Kiçik biznes yeni iş yerlərinin yaradılmasında iştirak edir, əhalinin məşğulluğunu təmin edir, nəticədə işsizlik azalır. Kiçik biznesdə olan nisbətən kiçik heyət tez bir zamanda möhkəmlənir. Bu işçilərin əmək motivasiyasını daha da artırır və işin nəticəsinə müsbət təsir edir. Qeyd etmək lazımdır ki, kiçik müəssisələr sosial baxımdan daha qeyri-sabit əhali təbəqəsini, cavanları, qadınları, immiqrantları və s. işlə təmin edir. Məhz bu cür müəssisələrdə cavanlar bilik, bacarıq və təcrübə qazanırlar, karyera artımına və özünü reallaşdırmağa nail olurlar. Deməli, kiçik biznes sosial qeyri-sabitliyin azalmasına səbəb olur. Burada əmək məhsuldarlığı yüksək olmasına baxmayaraq, əmək haqqı səviyyəsi böyük müəssisələrə nisbətən aşağı olur. Bu isə sahibkarların çox qənaətçil olması və gəlirlərinin nisbətən az olması ilə izah olunur. 2020-ci ildə Azərbaycanda fəaliyyət göstərən 316370 kiçik və orta sahibkarlıq subyektində 348,7 min nəfər çalışmışdır, onların orta aylıq nominal əmək haqqı 612 manat (ölkə üzrə 707) olmuşdur. Beləliklə, bu sektordan 2020-ci ildə əhali 2323,5 milyon manat məbləğdə əmək haqqı formasında gəlir əldə etmişdir.

Qərb ölkələrinin iqtisadiyyatının strukturunda kiçik müəssisələrin xüsusi çəkisinin fəal artımı 70 – ci illərin ortalarından və 90 – cı illərin əvvəllərindən başlamışdır. Bu gün inkişaf etmiş qərb ölkələrində kiçik firmalar müəssisələrin ümumi sayının 70-90% ni təşkil edir. Məsələn, ABŞ – da əhalinin 53%-i, Yaponiyada 71.7% -i kiçik sahibkarlıqla məşğul olur. Bu faktlar həmin ölkələrin iqtisadiyyatı üçün kiçik

biznes müəssisələrinin ciddi əhəmiyyətə malik olduğunu göstərir [1]. Azərbaycanda fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında kiçik və orta sahibkarların payı 2020-ci ildə 99,7% təşkil etmişdir [4].

Kiçik sahibkarlığın inkişafı köhnə irimiqyaslı müəssisələrə həyat verməklə, həm özləri, həm də bütövlükdə bazar iqtisadiyyatı əhəmiyyətli fayda əldə edir. ABŞ – da xalis gəlirin 34.9% - i, Yaponiyada işə emal sənayesi məhsulunun 56.6% -i kiçik biznesin payına düşür. Azərbaycanda 2020-ci ildə ölkə iqtisadiyyatında yaradılan əlavə dəyərin 16,7%-i , qeyrineft sektoru üzrə isə 23,7%-i bu sferada yaradılmışdır [4].

Kiçik biznesin, ümumiyyətlə, iqtisadiyyatda yeri və rolunu müəyyənləşdirmək çətindir. Ancaq statistikaya diqqət yerirsək və təhlil etsək onun iqtisadiyyatda tutduğu yerini qiymətləndirmək olar. BMT – nin yaydığı məlumatlara əsasən, demək olar ki, dünyada istehsal olunan ümumi məhsulun 33-66%-i kiçik biznes sektorunun payına düşür, əmək qabiliyyətli əhalinin yarısına qədəri bu sekorda çalışır. İnkişaf etmiş ölkələrdə isə satış həcminin 50%-i, məşğul əhalinin 80%-i kiçik biznesin payına düşür. Bu sektor Yaponiya ixracının 35%-ni, İngiltərə ixracının 17%-ni və ABŞ ixracının 20%-ni təmin edir.

Azərbaycanda 2020-ci ildə bu sahədə çalışan muzdlu işçilər müəssisələrdə muzdla işləyənlərin 42,1%-ni, qeyri-neft sektorunda çalışanların isə 43,8%-ni təşkil etmişdir. Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda kiçik və orta sahibkarlıq subyektlərinin payı 23,2 % olmuşdur. 2020-ci ildə sahibkarlıq subyektləri tərəfindən istehsal edilmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin ümumi dəyəri 25,7%-i mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşmüşdür. Bu göstərici 2019-cu illə müqayisədə 2,4% çox olmuşdur. Kənd təsərrüfatında istehsal edilən məhsulun, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin ümumi dəyərində kiçik və orta sahibkarlıq subyektlərinin payı 71,4% ( artım 2,9%), sənayedə 10,5% (2,5%), tikintidə 37,5% (6,4%) , ticarətdə 70,9% (azalma -4,1%), nəqliyyat və anbar təsərrüfatında 13,6%(-6,4%), turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 64,6% (-14,4%), təhsildə 81,2 (-17,2%), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 56,5% (-3,2%) olmuşdur. Azalmaları koronovirus pandemiyası şəraiti və 44-günlük Şanlı Vətən müharibəsi ilə izah etmək olar [4].

Dünya iqtisadiyyatının inkişafı göstərir ki, bazar şəraitində kiçik biznes öz çevikliyi, dərin ixtisaslaşma və kooperasiyadan istifadə etməklə daha yüksək səmərəlilik təmin edir. O, istehlak sferasında rəqabət mühitini yaradaraq burada olan qıtlığı tez bir zamanda aradan qaldırır.

Beləliklə, müxtəlif yollarla kiçik biznesi inkişaf etdirərək iqtisadi və sosial inkişafda böyük nəticələr əldə etmək olar. Bu yollardan biri kiçik biznesin maddi təminatının yaxşılaşdırılmasıdır. Burada lizinq böyük rol oynaya bilər. Lizinq istehsal vasitələrinin: maşınların, avadanlıqların, nəqliyyat vasitələrinin və istehsal təyinatlı binaların uzun müddətə icarəyə verilməsidir. Lakin icarə ilə lizinqi eyniləşdirmək olmaz. Lizinq icarədən fərqli olaraq daha mürəkkəb və kompleks bir anlayışdır. Lizinq münasibətləri mülkiyyətə əmlak qəbul edilməsi ilə bağlı yaranan kompleks əmlak və iqtisadi münasibətləri xarakterizə edir. O, müstəqil maliyyə vasitəsidir. Bu münasibətlərin sürətli inkişafı 1952-ci ildən başlayır. Müasir zamanda lizinq bir investisiya vasitəsinə çevrilmişdir. Burada həyata keçirilən investisiyaların ümumi həcmi bir ildə 100 mlrd. ABŞ dollarını üstələyir. Belə ki, xarici ölkələrdə həyata keçirilən investisiyalarda lizinqin payı İngiltərədə 28.2%, İsveçdə 26.5%, İspaniyada 17.5%, Avstraliyada 16.9%, Almaniyada 16.6%, Fransada14.6%, İtaliyada 11.5%, Niderlandda 10.5% təşkil edir.

Kiçik biznesin daha da inkişaf etdirilməsinin digər yolu yenilikçilik ruhunun aşılanması və innovasiyaların tədbiq edilməsidir. Yeni problem qarşıya qoymaq arzusu, hazırlığı, qabiliyyəti və yaradıcı həll etmə yanaşması kimi başa düşülən təşəbbüskarlıq, yeni şanslardan istifadə etmək, dəyişən şəraitə çevik uyğunlaşma sahibkarın iqtisadi davranışının müəyyənedici xarakteristikalarıdır. Təşəbbüskarlıq innovasiyalığın (fəaliyyəti səmərəliləşdirmək, səmərəliliyi yüksəltmək) zəruri şərtidir. Təşəbbüskarlıqla innovasiyalılığın bu cür daxili əlaqəsinin mövcudluğu kiçik innovasiya sahibkarlığının bazar iqtisadiyyatının təbiətinə müvafiqliyini əsaslandırır və sübut edir.

Kiçik innovasiya müəssisələrinin fəaliyyətinin iqtisadi mexanizminə innovasiya sferasının və iqtisadiyyatın qalan iştirakçıları ilə qarşılıqlı əlaqələrin müxtəlif növlərini daxil etmək olar. İnnovasiya infrastrukturunun ünsürləri vasitəsilə kiçik firmalar elmi-innovasiya fəaliyyətinə daxil edilir, onların dəstəklənməsi, maliyyələşdirilməsi həyata keçirilir və nəticəyə tələbliliyi təmin edilir. Kiçik innovasiya müəssisələrinin səmərəli fəaliyyət göstərməsi üçün vençur kapitalı (maliyyə) və texniki part strukturu(xidmət) xüsusilə vacibdir[4].

Bundan başqa, qeyd etmək istərdik ki, kiçik və orta biznesə dövlət dəstəyi kreditləşdirilməsi və sığortalanma investisiya fəallığının stimullaşdırılması sahəsində də zəruridir. İndiki zamanda, ölkəmizdə kiçik biznes qurumlarının inkişafının konkret perspektivləri haqqında uzunmüddətli proqnozlar vermək çox mürəkkəb məsələdir. Ancaq, onu deyə bilərik ki, kiçik sahibkarlıq fəaliyyətinin lazımınca tənzimlənməsi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olmalıdır.

Kiçik və orta sahibkarlıq subyektlərinin, kiçik biznesin dəstəklənməsi siyasəti özəl sahibkarlığın inkişafına, rəqabət qabiliyyətli milli iqtisadiyyatın və ölkənin siyasi-iqtisadi və sosial sabitliyinin təminatçısı kimi çıxış edən orta təbəqənin formalaşdırılmasına istiqamətlənməlidir. Kiçik biznesdə fəaliyyət göstərən sahibkarların vəzifəsi isə fəaliyyətlərində önəm verdikləri məsələləri köklü surətdə dəyişib daha müasir ,bazar şəraitinə uyğun prinsiplərə keçməkdən ibarət olmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Hüseynli İ.Q. Azərbaycanda kiçik biznesin inkişafının cari vəziyyəti və perspektivləri, Bakı, 2009.

2.Hüseynli İ.Q. Quliyev R., Xəlilov H., Abbasov və b. Azərbaycan iqtisadiyyatında kiçik və orta sahibkarlıq: nəticələr, problemlər və perspektivlər,"Səda" nəşriyyatı,2001

3..Niftullayev V.M. Sahibkalığın əsasları. Bakı, 2004

4.Никитина Н. Ю.,Корунов, С. М. и др. Предпринимательство: учебное пособие. Издательство Уральского университета, 2020

5. https://www.stat.gov.az/

**Айгюн Алим кызы ГАДЖИЕВА, старший преподаватель**

**Валида Иса кызы САЛЫЕВА, старший преподаватель**

**Насими Алиполад оглы АББАСЗАДЕ, старший преподаватель**
Азербайджанский Государственный Аграрный Университет,
E-mail: aygun-gadjieva@mail.ru

# РОЛЬ И ПУТИ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ

**Резюме**

В современный период эффективное развитие экономики страны является требованием времени, а это в свою очередь зависит от развития малого и среднего бизнеса. Развитие малого и среднего бизнеса помогает решить проблему занятости в стране, повышает конкурентоспособность, эффективность и экспортный потенциал экономики, помогает формированию государственного бюджета. Основная масса национального богатства и ресурсов создается и оборачивается в секторе малого бизнеса. Таким образом, развивая различными путями малый бизнес, можно достичь больших результатов в социальном и экономическом развитии страны. Статья посвящена исследованию роли малого и среднего бизнеса в социально-экономическом развитии страны и выявлению путей его развития.

**Ключевые слова:** малый бизнес, малое и среднее предпринимательство, рыночная экономика, субъекты предпринимательства, предприятие.

**Цель исследования -** Основной целью исследования является статистическое исследование формирования, современного состояния и развития малого и среднего бизнеса в стране.

**Методология исследования –** В ходе исследования использовались методы наблюдения и сравнительного анализа.

**Важность внедрения исследования -** Полученные результаты используются для решения теоретических и практических проблем, связанных с регулированием стратегического развития малого и среднего бизнеса.

**Результаты исследования -** Состоит в подготовке рекомендации и предложения по оптимизации регулирования малого и среднего бизнеса с учетом уровня современного развития страны и глобальных вызовов.

**Научная новизна исследования –** В проанализированной нами статье нашла свое место информация о значении развития малого и среднего предпринимательства в Азербайджане и факторах его развития. В последние годы государственная поддержка данной сферы показала наличие достаточно положительных результатов в развитии предпринимательства.

**Aygün Alim gizi HAJİYEVA, senior teacher**

**Valida Isa gizi SALİYEVA, senior teacher**

**Nasimi Alipolad oglu ABBASZADE, senior teacher**
Azerbaijan State Agrarian University,
E-mail: aygun-gadjieva@mail.ru

## THE ROLE OF SMALL AND MEDIUM BUSINESS IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE COUNTRY AND WAYS OF DEVELOPMENT

**Summary**

**The purpose of the research** - The main purpose of the study is to form the activities of small and medium-sized businesses in the country, the current state and development of statistical research.

**The methodology of the research** - The study used observational methods, analyzes and a comparative method.

**The practical importance of the research** - The results obtained are used to solve theoretical and practical problems related to the regulation of the strategic development of small and medium-sized businesses.

**The results of the research** - It consists in preparing recommendations and proposals for optimizing the regulation of small and medium-sized businesses, taking into account the level of modern development of the country and global challenges.

**The scientific novelty of research** - In the article we analyzed, a place is given to information about the significance of the development of small and medium-sized businesses in Azerbaijan and the factors of its development. In recent years, state support has been shown in this area, and rather positive results in the development of entrepreneurship have been indicated.

**Keywords**: small business, market economy, business entities, enterprise.

**Səbinə İsmayıl qızı HACIYEVA**
Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı
E-mail: sabina.adau.haciyeva@mail.ru

# AQRAR SAHƏDƏ SƏMƏRƏLİ KADR SİYASƏTİNİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

**Xülasə**

İnnovativ inkişaf strategiyası və aqrar sahənin rəqabət qabiliyyətinin artırılması çərçivəsində kadr potensialından səmərəli istifadə problemi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan yaradılmış kadr təminatı sisteminin kənd təsərrüfatının səmərəli inkişafındakı rolunun artırılmasını təmin etmək aqrar siyasətin prioritet vəzifələrdəndir. Kadr siyasətinin formalaşdırılması zərurətinə yanaşmaların nəzərdən keçirilməsinin vacib aspekti peşəkar standartlar tətbiq etməklə ixtisas tələbləri sisteminin yenilənməsi ilə əlaqəli proseslərdir. Müəyyən bir peşəkar fəaliyyət növünün həyata keçirilməsi üçün zəruri olan xüsusiyyəti, yalnız işçinin sahədəki peşəkar maraqlarına deyil, eyni zamanda, kadr ehtiyaclarının strukturuna da təsir edir.

**Açar sözlər:** kadr potensialı, kadr siyasəti, qiymətləndirmə, keyfiyyət, səmərə.

**UOT: 331.108; 338.43**
**JEL: J 43, Q 16**

## Giriş

**Tədqiqatın məqsədi.** Müasir iqtisadiyyatın səmərəliliyi əsasən onun təşkilinə sistemli yanaşma vasitəsilə təmin olunur. Bu yanaşmada ən vacib rol insan resurslarının payına düşür. Eyni zamanda, sistemli yanaşma baxımından onun kəmiyyət və keyfiyyət parametrləri ilk sırada durmur. Çünki, hər bir sahə çərçivəsində sahibkarlıq subyektinin yenilikçi inkişaf strategiyasının həyata keçirilməsini təmin edən elmi cəhətdən əsaslandırılmış kadr siyasəti tələb edilir. Bu proses, iqtisadiyyatın aqrar sektoru üçün xüsusilə xarakterikdir. Kənd təsərrüfatının kadr potensialının kəmiyyət və keyfiyyət parametrləri, həm qısa, həm də strateji perspektivdə iqtisadi subyektlər kontekstində göstərilmədən, sosial-iqtisadi inkişafın istənilən mərhələsində formalaşır.

Hal-hazırda kənd təsərrüfatında kadrlarla iş səriştəsinin artırılmasına, innovativ fəaliyyətə, kadr potensialının aşkar edilməsinə və iş mədəniyyətinin inkişafına xüsusi diqqət yetirmək lazım gəlir. Başqa sözlə, insan resurslarının formalaşması və effektiv istifadəsi ekstensiv üsulla deyil, intensiv üsulla həyata keçirilməlidir.

Ümumiyyətlə, innovativ inkişaf strategiyası və aqrar sahənin rəqabət qabiliyyətinin artırılması çərçivəsində kadr potensialından səmərəli istifadə problemi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan yaradılmış kadr təminatı sisteminin kənd təsərrüfatının səmərəli inkişafındakı rolunun artırılmasını təmin etmək aqrar siyasətin prioritet vəzifələrindəndir. Eləcə də, aqrar sektorun kadr potensialının keyfiyyət xüsusiyyətlərinin yaxşılaşdırılması, işçilərin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi, əmək resurslarından istifadənin səmərəliliyinin artırılması, kənd yerlərində yüksək ixtisaslı kadrların istehsalata cəlb edilməsi ölkə iqtisadiyyatının bu mühüm sferasının rəqabət qabiliyyətinin artırılmasında mühüm rolu ilə seçilir.

Araşdırmalar göstərir ki, aqrar sahədə kadr siyasəti bu məsələlərin bütün spektrinin həllinə istiqamətlənən sistemli bir yanaşma tələb edir. Bu, effektiv kadr siyasətinin formalaşdırılması probleminin xüsusi əhəmiyyətini müəyyənləşdirir. Aqrar sahədə kadr siyasəti aşağı səmərəliliyi ilə özünü göstərir və bunun əsas səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

- sektor üzrə kadr siyasətinin formalaşdırılması üçün elmi əsaslandırılmış konsepsiyanın və müvafiq normativ sənədlərin çatışmazlığı;
- kadr siyasəti probleminin əsaslı (fundamental) nəzəri və metodoloji elmi tədqiqatlarının və aqrar-sənaye kompleksinin idarə olunmasının istənilən səviyyəsinin inkişafı üçün elmi və praktik tövsiyələrin azlığı;
- ümumi və regional səviyyədə kadr siyasətinin kompleks xarakter daşımaması;

- sahibkarlıq subyektlərinin kadr siyasətinin olmaması;

- kadr siyasətinin formalaşması və həyata keçirilməsi problemini ortaya qoyan ciddi elmi nəşrlərin çatışmaması və s.

İnsan resurlarının inkişafının idarə edilməsi prosesinə daha çox elmi tutumlu texnologiyaların istehsal prosesinə daxil edilməsi təsir göstərir ki, bu da müvafiq olaraq işçilərin bilik və bacarıqlarının təkmilləşdirilməsi ehtiyacını müəyyən edir və beləliklə, davamlı iş üçün kadrların hazırlanması və motivasiyası sistemlərin tənzimlənməsi tələb olunur. Cəmiyyətin informasiyalaşdırılması səviyyəsinin dəyişməsi və xidmət sahəsinin rolunun artması ilə əlaqədar olaraq maddi istehsalın rolu azalır. Bu proseslər informasiya texnologiyaları və verilənlər bazası ilə işləmək baxımından işçilərin bacarıq səviyyəsinə yeni tələblər qoyur.

Müəssisə idarəetməsinin təşkilati strukturu kadrların idarə edilməsinə ən çox təsir göstərir. Xarici mühitin vəziyyətini, müəssisənin ölçüsünü, işinin xüsusiyyətlərini nəzərə alaraq, təşkilatın rəhbərliyi öz kadr idarəetmə strategiyasının müəyyən edildiyi struktur növlərindən birini seçə bilər. Məsələn, daha az mərkəzləşdirilmiş nəzarətə malik olan təşkilati strukturlar daha yüksək mərkəzləşmə səviyyəsinə malik olanlardan daha çevikdir[3,44].

İşin təşkili metodları da kadrların inkişafının idarə edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. İşçilərin məhsuldarlığının artırılması, həyata keçirilən əməliyyatların müxtəlifliyi ilə onun fəaliyyətinin məzmununun dəyişdirilməsi ilə birbaşa bağlıdır, çünki yüksək ixtisaslaşdırılmış təkrarlanan hərəkətlər yorğunluq və maraq itkisinə səbəb olur.

Kadrların inkişafı və siyasi-hüquqi amillərin idarə edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Təbii ki, qeyri-sabit siyasi vəziyyət müəssisələrdə kadrların davamlı inkişafına mane olur, müəssisənin bazarda ayaqda qalmaq vəzifələrini azaldır. Mövcud normativ-hüquqi baza HR proseslərinin inkişafına da mane olur. Effektiv kadr idarəetmə sistemini qurmaq üçün yuxarıda göstərilənlərə əlavə olaraq, insan orqanizminin xüsusiyyətlərindən asılı olan psixofizioloji amilləri nəzərə almaq lazımdır.

Kadrların potensial imkanlarını və insan psixofiziologiyasının ehtiyatlarını müəyyən etmək zərurəti bu prosesləri idarə etmək üçün müvafiq ixtisasa malik mütəxəssisləri tələb edir. Bir işçinin fiziki və intellektual resurslarına müəyyən təsir mexanizmlərini işə salmaqla, onun təbii məlumatlarından adətən görünməyənlərdən istifadə etmək olar.

Həmçinin qeyd etmək lazımdır ki, effektiv kadr idarəetməsi onların hər birinin ayrı-ayrılıqda deyil, yuxarıda göstərilən amillərin birləşməsinin təsirinin nəzərə alınmasını tələb edir. Axı sistem kimi işləyən müxtəlif amillər ona yeni bir xassə verir.

Nəticədə, müəssisənin idarəetmə strategiyasında kadrların idarə edilməsi sistemi düzgün tətbiq olunarsa, effekt artır. Strateji menecment təşkilatın uzunmüddətli məqsəd və fəaliyyətlərini əhatə edən bir təşkilatın idarə edilməsi funksiyasıdır, rəqabətli bazarda müəssisənin mövqeyini gücləndirməyə yönəlmiş bir-biri ilə əlaqəli uzunmüddətli tədbirlər kompleksidir.

Kadrların inkişafı strategiyası və müəssisənin ümumi strategiyası bir-biri ilə, o cümlədən ikitərəfli şəkildə sıx əlaqəli olmalıdır[4,78].

Kadrların inkişafı prosesləri şirkətin strategiyasından asılı olduğu halda, kadrların inkişafı siyasəti korporativ strategiyaya uyğundur və struktur taktikalarının inkişafı üçün əsasdır. Əks halda, kadrların inkişafı prosesləri korporativ strategiyanın formalaşması üçün əsasdır. Bu amillərin əlaqəsinin dərəcəsi və gücü təsərrüfat subyektinin iqtisadi səmərəliliyini, çevikliyini və bazarda sağ qalma dərəcəsini müəyyən edir.

Mümkün kadr inkişafı strategiyaları, idarə heyətinin inkişafı, biliyin idarə edilməsi, kadrların davamlı inkişafı strategiyası, "hazır" işçi qüvvəsindən istifadə, işçilərin özünüinkişafının təşviqi bilavasitə iş prosesində kadrların hazırlanmasından ibarətdir.

Ən əsası, kadrların davamlı inkişafı strategiyası mövcud reallıqlara uyğundur, çünki o, işçilərin davamlı təlimini təşkil edir və bunun sayəsində siz onların inkişafı və həyata keçirilməsi üçün əlverişli mühit yarada bilərsiniz. Bəzi təşkilatlar yalnız idarə heyətinin fərdi potensialının inkişafı ilə bağlı strategiyadan istifadə edirlər. Bu, onunla əsaslandırılır ki, müəssisənin inkişafı strategiyasının hər hansı variantının həyata keçirilməsinin effektivliyi ondan asılıdır.

Biliyin idarə edilməsi strategiyası təşkilatın əsas resursu kimi biliyə münasibətə əsaslanır. Bu strategiyanın məqsədi bilik axınını təşkil

etmək və ondan təhsil proseslərinin keyfiyyətini yüksəltmək üçün bütün işçi qüvvəsi tərəfindən istifadə etməkdir. Digər müəssisələr işçilərin özünü inkişaf etdirməsinə arxalanır.

Eyni zamanda, müxtəlif motivasiya üsullarından istifadə edərək işçiləri həvəsləndirmək yolu ilə zəruri bilik, və bacarıqların mənimsənilməsinə əsaslanırlar.

Təəssüf ki, bu gün az sayda yerli müəssisə bu strategiyalardan istifadə edir, çünki onların həyata keçirilməsi əhəmiyyətli maliyyə resursları tələb edir.

Beləliklə, öyrənmə yalnız son dərəcə zəruri olduqda baş verir. Bu, səmərəli kadr inkişafı idarəetmə sisteminin təşkilinə mane olduğu üçün əsassızdır.

Kadrların inkişafının idarə edilməsi üçün effektiv təşkilati strukturun seçilməsi problemi də var. İndi belə bir fikir formalaşıb ki, işçilərin davamlı və səmərəli inkişafının təmin edilməsi yalnız ayrı-ayrı təşkilatların bazasında xüsusi inkişaf və təlim mərkəzlərinin yaradılması ilə təşkil edilə bilər. Lakin kiçik və orta müəssisələr öz ölçülərinə və imkanlarına görə belə struktur bölmələri yarada bilmirlər. Təşkilatlarda kadrların inkişafının idarə edilməsi də insan resursları departamentlərinə həvalə oluna bilər, lakin onların imkanları dəqiq müəyyən edilmiş vəzifələr olduqda belə, keyfiyyətli təlim verməyə imkan vermir. Bu şöbələr struktur və idarəetmə maneələrinin təsirinə məruz qalır və buna görə də, kadrların inkişafı proseslərinin maksimum məhsuldarlığını və istənilən nəticəni təmin edə bilmirlər.

Müasir iqtisadiyyatda səmərəli texnologiyalar firmaların, sənaye sahələrinin və ölkələrin rəqabət qabiliyyətinin əsasını təşkil edir. Məhz onlar, rəqiblərlə qiymət müharibəsinə girmək riski olmadan, istehlakçılar üçün yeni, daha cəlbedici məhsulların inkişafı yolu ilə bazarlar və satınalmalar uğrunda rəqabətdə qalib gəlməyə və ya köhnə məhsullar istehsal etməyə, eləcə də, daha aşağı qiymətə xidmət göstərməyə imkan verir.

İstehlakçıların üstünlüklərinin güclənməsi səbəbindən yeni texnologiyaların əhəmiyyəti artır.

Məqalənin məqsədi müəssisədə yeni texnologiyaların tətbiqi məqsədilə idarəetmə sisteminin təkmilləşdirilməsi üçün nəzəri və praktiki tövsiyələr hazırlamaqdır.

Bu məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələrin həlli tələb olunur:

- ✓ yeni texnologiyaların tətbiqinin idarə edilməsinin məzmununu müəyyən edən kateqoriyalı aparatı araşdırmaq;
- ✓ yerli və xarici elmdə inkişaf etmiş yeni texnologiyaların tətbiqi prosesinin öyrənilməsinə nəzəri və metodoloji yanaşmaları sistemləşdirmək;
- ✓ müəssisədə yeni texnologiyaların həyata keçirilməsinin idarə edilməsi mexanizmlərini və transferinin əsas formalarını öyrənmək;
- ✓ Ölkədə istehsal dinamikasını və süd məhsulları bazarının vəziyyətini qiymətləndirmək;
- ✓ regionda süd sənayesi müəssisələrinin texnoloji inkişaf səviyyəsini təhlil etmək;
- ✓ yeni texnologiyaların tətbiqi proseslərinin həyata keçirilməsi üçün təşkilati şərtləri müəyyən etmək və süd sənayesində texnoloji dəyişikliklərin iqtisadi komponentini aydınlaşdırmaq;
- ✓ süd emalı müəssisələrində yeni texnologiyaların tətbiqinin idarə edilməsi üzrə təşkilati strukturun hazırlanması;
- ✓ inkişaf perspektivlərini əsaslandırmaq və süd sənayesi müəssisələrinin idarə edilməsində müasir texnologiyaların təkmilləşdirilməsi üçün təkliflər toplusunu hazırlamaq.

İnsan resurslarının təşkili hər bir işçiyə təsir edən mürəkkəb prosesdir. Bacarıqlı idarəetmə hər bir insanın imkanlarının şirkətin vəzifələrinə, strategiyalarına və inkişaf şərtlərinə uyğun olmasına imkan verir.

Süd emalı müəssisələrində insan resurlarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi üçün aşağıdakı tədbirlər təklif olunur[5,167].

1. Kadr seçimi və təlim sisteminin təkmilləşdirilməsi.

İnsan resurslarının idarə edilməsi sisteminin əsas komponentləri işə qəbul, təlim, motivasiyadır, buna görə də, performansın yaxşılaşdırılması üçün tövsiyələr bu sahələrə aid edilməlidir. Kadrların işə qəbulu və təlimi sisteminin təkmilləşdirilməsi tədbirləri axtarış üçün vaxt, ixtisaslı işçilərin təşkilata qəbulunu əhatə edir. İşçilərin seçimi həm xarici, həm də daxili mənbələrdən həyata keçirilir. İşə qəbulun xarici mənbələrinə təşkilatda işləməyi bacaran, lakin hazırda işləməyən bütün qeyri-müəyyən

sayda insanlar daxildir. Daxili mənbələr təşkilatda işləyən insanlardır.

Xarici seçim zamanı təşkilatda özləri ilə səmərəli ideyalar gətirən yeni insanlar peyda olur və bununla da müəssisənin daha səmərəli inkişafı üçün imkanlar yaradır. İlk növbədə, ən yaxşı ixtisasa malik olan namizədə, eləcə də təhsilinə, peşəkarlıq səviyyəsinə üstünlük vermək lazımdır.

2. İşçilərin vaxtaşırı peşəkarlığının artırılması.

Rəhbərlik işçilərə müntəzəm təlim proq-ramları keçirməyə təşviq olunur. İxtisasların artırılması işçilərin məhsuldarlığını artıracaq bacarıqlara yiyələnməsidir. Bu tədbirin nəticəsi müəssisəni lazımi peşəkar bacarıqlara malik kifayət qədər insanla təmin etməkdir ki, bu da biznesin təkrar istehsalı və genişləndirilməsi üçün zəruri şərtdir. İnsan Resursları üzrə araşdırma və təcrübə göstərir ki, iş saatlarında öyrənmək daha təsirli və daha faydalıdır.

İşçilərin potensialından səmərəli istifadə aşağıdakıları əhatə etməlidir: kadrlarla işin planlaşdırılması və təkmilləşdirilməsi; işçilərin bacarıq və ixtisaslarının dəstəklənməsi və inkişafı. İşdə çətinliklərin aradan qaldırılması, bilik və bacarıq səviyyəsinin artırılması üçün peşəkar müəllimlərlə xüsusi təlimlərin keçirilməsi tövsiyə olunur.

3. Motivasiya paketinin formalaş-dırılması.

Motivasiya insanda müəyyən fəallıq yaratmaqla onu hərəkətə sövq etmək üçün təsir etmək prosesidir. Kadrların idarə edilməsinin effektivliyi əsasən motivasiyanın həyata keçirilməsindən asılıdır.

4. Korporativ mədəniyyətin inkişafı.

Korporativ mədəniyyət xarici mühitə uyğunlaşma və daxili inteqrasiya prosesində təşkilatın əldə etdiyi, öz effektivliyini göstərən və təşkilat üzvlərinin əksəriyyəti tərəfindən paylaşılan davranış nümunələri toplusudur. Korporativ mədəniyyət hər şeydən çox, ona tapşırılan vəzifələri yerinə yetirən işçinin özünüdərkini və yüksək məsuliyyətini stimul-laşdırır.

Süd emalı müəssisələrinin səmərəliliyini artırmaq üçün müəsssisə daha məhsuldar iş üçün işçilərin motivasiya sistemini tətbiq etməlidir. Yüksək effektiv motivasiya sistemi təşkilatın işçiləri ilə möcüzələr yaratmağa imkan verir, onları daha səmərəli işləməyə, daim hərəkətdə olmağa, həmçinin təşkilatın inkişafında maraqlı olmağa stimullaşdırır.

Süd emalı müəssisələrində motivasiya sistemi işçilərin həm maddi, həm də qeyri-maddi peşəkar xidmətlərinə görə həvəs-ləndirilməsi ilə dəstəklənəcəkdir.

Süd emalı müəssisələrinin rəhbərliyi ən yaxşı işçiləri həvəsləndirməli, məsələn, təşkilatın maddi vəziyyətindən asılı olaraq rəhbərlik tərəfindən müəyyən edilmiş mükafatı ödəməyə, bununla da işçiləri daha məhsuldar işləməyə təşviq etməlidir.

Ayın ən yaxşı əməkdaşının mükafat-landırılması işçilər arasında sağlam rəqabət yaradacaq, hər kəs nəticə üçün çalışacaq və bununla da təşkilata pul axınını artıracaq.

Hər ilin sonunda şirkət həm də ən yaxşı işçini görülən işlərə görə maddi mükafat şəklində, eləcə də işçinin nailiyyətlərini göstərən sertifikat şəklində mükafatlandırmalıdır. Bu üsul işçiləri iş tempini aşağı salmamağa və gələcəkdə daha yaxşı nəticə əldə etməyə can atmağa sövq edəcək. İşçi qayğı hiss etdikdə, görülən işin əhəmiyyətinə görə qiymətlən-diriləcəyini biləndə işçinin şirkətə sədaqəti artır, kollektivdə psixoloji ab-hava yaxşılaşır [5,169].

## Nəticə

İnsan resurslarının idarə edilməsi sistemi kadrlarla işin təşkili üçün texnika və metodların, texnologiyaların məcmusudur. Bir təşkilatda kadr idarəetmə sisteminin qurulması üçün müxtəlif modellər mövcuddur.

Müəyyən bir təşkilat üçün konkret modelin tətbiqi onun təşkilati strukturundan asılıdır.

Təşkilat strukturu təşkilatın işçiləri tərəfin-dən yerinə yetirilən funksiyalar arasındakı əlaqəni müəyyən edir, həmçinin əmək bölgüsü, ixtisaslaşdırılmış bölmələrin yaradılması, vəzifələrin iyerarxiyası və s. kimi formalarda özünü göstərir.

Kadrların idarə edilməsi metodu kimi motivasiya fərdin, işçi qüvvəsinin maraqlarını, onların məmnunluq dərəcəsini nəzərə almaq ehtiyacını nəzərdə tutur, çünki sosial sistemlərin davranışında ən vacib amil ehtiyaclardır.

Apardığımız təhlillər nəticəsində məqalədə müəyyən etmişdik ki, müasir şəraitdə insan resurslarının idarə edilməsinin düzgün təşkili həm bütün işçi qüvvəsi, həm də bütövlükdə

müəssisənin fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir.

Əməyin stimullaşdırılmasının və həvəsləndirmənin müxtəlif formalarından istifadə təşkilatın rəhbərliyinə kollektivi birləşdirməyə, kadrların peşəkar hazırlığını təkmilləşdirməyə və müəssisənin sürətli inkişafı üçün yaxşı şərait yaratmağa imkan verir.

İşçilərin stimullaşdırılmasının ən təsirli yollarından biri səmərəli əmək haqqı sistemidir. Eyni zamanda, əmək haqqı fondlarından elə istifadə edilməlidir ki, əmək məhsuldarlığının artım tempi onun ödənilməsinin artım tempini üstələsin ki, bu da müəssisədə təkrar istehsalın artırılması üçün imkanlar yaradır.

İşçilərin maddi həvəsləndirilməsi ilə yanaşı, əməyin həvəsləndirilməsi sisteminə aşağıdakılar daxil edilməlidir:

− sosial proqramlar;

− kadrların hazırlanması və yenidən hazırlanması;

- işçilərin peşəkar yüksəlişinin və yüksəldilməsinin təşviqi.

Beləliklə, müəssisənin kadr idarəetmə sisteminin təkmilləşdirilməsinin prioritet istiqamətləri kimi aşağıdakıları qeyd etmək məqsədəuyğundur:

- kadrların idarə edilməsi bölmələrinin təşkilati və funksional strukturunun təkmilləşdirilməsi;

− şirkətin kadr potensialının qiymətləndirilməsi, kadr hazırlığı proqramının hazırlanması və həyata keçirilməsi;

− kadrların həvəsləndirilməsi sisteminin təkmilləşdirilməsi;

− korporativ mədəniyyətin inkişafı.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Alaverdov A.R. “Kadrların İdarə Edilməsi”. Tədris Bələdçisi /A.R. Alaverdov E.O. Kuroyedova O.V. Nesterov. -M. MFPU Synergy, 2013. - 195 s.
2. Ansoff I. “Strateji idarəetmə”. Klassik nəşr.I. Ansoff. - Sankt-Peterburq: Peter, 2015. - 344 s.
3. Bedyaeva T.V. “Müəssisə kadrlarının idarə edilməsi” Turizm: Dərslik / T.V. Bedyaeva A.S. Zaxarova Ed. prof. E.İ. Boqdanov. -2013. - 180 s.
4. Buqakov V.M. “Kadrların idarə edilməsi”: Dərslik / V.P. Bıçkov V. M. Buqakov V.N. Qonçarov Ed. V.P. Bıçkov 2013. - 237 s.
5. Bukhalkov M.İ. “Kadrların idarə edilməsi”. Dərslik / M.İ. Bukhalkov.400 s.

**Афияддин Гамид оглы ГАМИДОВ, к. э. н., доцент**

**Пюнхан Гашам кызы ГАЛАНДАРЛИ**
Азербайджанский Технологический Университет

## СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМОВ УПРАВЛЕНИЯ ЧЕЛОВЕЧЕСКИМИ РЕСУРСАМИ НА МОЛОКОПЕРЕРАБАТЫВАЮЩИХ ПРЕДПРИЯТИЯХ

### Резюме

В условиях становления и развития рыночных отношений особую актуальность приобретают наиболее рациональные пути совершенствования управленческих мероприятий в системе управления персоналом молокоперерабатывающего предприятия.

В новых экономических условиях традиционные методы управления человеческими ресурсами стали неэффективными и в определенной степени тормозили развитие не только управления персоналом, но и производства в целом. Это связано прежде всего с тем, что человек из фактора производства в традиционной организации стал основой и источником ее успеха в рыночных отношениях. С усилением роли и стратегической функции работников предприятия особое значение приобретают комплексные методы управления ими.

Цель статьи - подготовить комплекс предложений по совершенствованию практики управления человеческими ресурсами молокоперерабатывающих предприятий в рыночных условиях на основе использования новых подходов к оценке управленческих решений, принимаемых в процессе планирования, разработки и вовлечения. человеческих ресурсов.

**Ключевые слова:** молокоперерабатывающие предприятия, человеческие ресурсы, управление человеческими ресурсами, совершенствование механизмов управления человеческими ресурсами.

**Afiyaddin Hamid oglu HAMİDOV, Ph.D., Associate Professor**

**Pyunkhan Gasham gizi GALANDARLİ**
Azerbaijan Technological University

**IMPROVEMENT OF HUMAN RESOURCE MANAGEMENT MECHANISMS AT MILK PROCESSING ENTERPRISES**

**Summary**

In the conditions of the formation and development of market relations, the most rational ways of improving management measures in the personnel management system of the milk processing enterprise are of special relevance.

In the new economic conditions, the traditional methods of human resources management have become ineffective and to a certain extent hindered the development of not only personnel management, but also production as a whole. This is primarily due to the fact that a person from a factor of production in a traditional organization has become the basis and source of its success in market relations. With the strengthening of the role and strategic function of enterprise employees, their comprehensive management methods become especially important.

The purpose of the article is to prepare a set of proposals for improving the practice of human resources management in milk processing enterprises in market conditions based on the use of new approaches to the evaluation of management decisions made in the process of planning, development and involvement of human resources.

**Keywords:** Dairy processing enterprises, human resources, human resources management, improvement of human resources management mechanisms.

**Arzu Nəcəf oğlu HƏSƏNOV, i.e.d., professor (attestatsız)**
Gəncə Dövlət Universiteti
E-mail: arzu_hasan@mail.ru

**F ərid Rahil oğlu ORUCOV**
Gəncə Dövlət Universitetinin magistrantı
E-mail: feridorucov20@gmail.com

# TURİZM DESTİNASİYASININ STRUKTURUNUN PLANLAŞDIRILMASI VƏ TƏŞKİLİ PRİNSİPLƏRİ

**Xülasə**

**Mövzunun aktuallığı.** Müasir turizm sənayesinin təşkili və davamlı inkişafı, ərazilərin təbii turizm ehtiyatlarına və potensialına müvafiq lokallaşdırılmış turizm subyektlərinin yaradılmasını tələb edir. Belə tip turizm subyektlərindən biri turizm destinasiyaları hesab edilir. Turizmin davamlı inkişafını təmin etmək üçün destinasiyaların optimal strukturunun formalaşdırılması vacib amil hesab edilir. Məqalə, məhz turizm destinasiyalarının planlaşdırılması və təşkili prinsiplərinə həsr edilib və ona görə də, aktuallığı ilə seçilir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi, turizm destinasiyalarının planlaşdırılması, strukturunun təşkili və səmərəli fəaliyyət prinsiplərinin müəyyən edilməsindən ibarətdir.

**Tədqiqat materialları və metodları.** Tədqiqatın materialını yerli və xarici tədqiqatçıların turizm destinasiyalarının planlaşdırılması, təşkili və inkişafına həsr edilmiş tədqiqat əsərləri, beynəlxalq, milli və yerli turizm təşkilatlarının destinasiyaların təşkilinə yanaşma prinsipləri təşkil edir.

Tədqiqatda analitik təhlil, müqayisə, ümumiləşdirmə, sintez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəticəsində destinasiyaların planlaşdırılması, strukturunun təşkili və səmərəli fəaliyyətinin prinsipləri müəyyən edilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqat nəticəsində müəyyən edilən prinsiplər, irəli sürülən təklif və tövsiyələr təcrübi əhəmiyyətlidir və turizm destinasiyalarının təşkilində dövlət turizm idarəetmə orqanları, turizm təşkilatları tərəfindən istifadə edilə bilər. Tədqiqatın nəticələrinə turizm destinasiyalarının təşkilinə dair elmi-tədqiqat işlərində dəyərli mənbə kimi istinad edilə bilər.

**Açar sözlər:** turizm sənayesi, turizm destinasiyası, destinasiyanın strukturu, təşkili prinsipləri

**UOT: 332**
**JEL: L83**

## Giriş

Müasir qloballaşan dünyanın iqtisadi münasibətlər sistemində mühüm yerlərdən birini tutan turizm sənayesinin sürətli inkişafı, sosial-iqtisadi, mədəni, qlobal inteqrasiya və s. proseslərdə mühüm rol oynaması, onun müəyyən aspektlərinin geniş tədqiqini ön plana çəkir. Eyni zamanda, müasir inkişaf edən turizm sənayesinin çoxaspektli, şaxələnmiş, mürəkkəb iqtisadi, sosial və ekoloji sistem kimi formalaşması onun əsas komponentləri olan subyektlərinin, yəni turistlərin və obyektlərin, yəni, turizm istiqamətlərinin qarşılıqlı əlaqəsinə, inteqrativ xarakterinə əsaslanır.

Turizm, mahiyyətinə və fəaliyyətinin xarakterinə görə, təbii amillərlə, o cümlədən coğrafi ərazilərlə sıx bağlıdır və bir çox hallarda bu fəaliyyət təbii-coğtrafi şərtlərdən asılı olur. Əksər fəaliyyət sahələri kimi turizm fəaliyyətinin təşkili və inkişafında bir çox ehtiyatlar, xüsusilə turizm marağı yaradan, turistləri səyahətə təhrik edən, onların tələbatlarını ödəyən, istehlak dəyərinə malik olan təbii, antropogen, təbii-antropogen, infrastruktur və s. ehtiyatların rolu qeyd edilməlidir. Turizm sistemlərinin əsas elementi turisti motivləşdirən, müəyyən əlamətləri və xüsusiyyətləri ilə bağlı olan ərazilər cəlb edir, onun səfər etdiyi və bir müddət vaxt keçirdiyi yer - destinasiya yeri, tələbatların ödənməsi məkanıdır.

**Müzakirə.** Çoxaspektli və mürəkkəb sistem kimi xarakterizə edilən turizm sənayesinin əsas komponentlərindən, altsistemlərindən biri turizm destinasiyası hesab edilir. Turizm destinasiyası, müəyyən bir ərazidə yerləşən qarşılıqlı funksional əlaqəli elementlərdən, o cümlədən, turizm ehtiyatları, maliyyə vəsaitləri, turizm texnologiyaları, ərazinin xüsusi turizm (istehsal, xidmət, bazar) infrastrukturu, ümumi infrastruktur, peşəkar kadr potensialı, dövlət və özəl turizm idarəetmə institutları, turizm birlikləri və təşkilatları, turizm müəssisələri, informasiya-kommunikasiya strukturları və s. formalaşır və fəaliyyət göstərir.

"Destinasiya yeri, destinasiya məkanı" anlayışı latın mənşəli "location" sözündən yaranıb və 30 ilə yaxındır ki, xarici tədqiqatçıların və turizm praktiklərinin konseptual aparatının əsas terminlərindən biri kimi geniş formada istifadə edilir [1, 55-58].

Müasir turizm sisteminin tərkib hissəsi kimi "turizm destinasiyası" anlayışı ilk dəfə XX əsrin 80-ci illərində nəzərdən keçirilmiş və leksikona daxil olmuşdur və turizm destinasiyası müvəqqəti qalma üçün turistləri cəlb edən məkan, ərazi və bu cür cəlbediciliyi yaradan və ona maraq oyadan, kömək edən xüsusiyyətlərin məcmusu kimi qəbul edilirdi. Digər mənbələrə görə "destinasiya" anlayışı latın ("destino") sözündən törəyib və destinasiya, yer, ünvan kimi tərcümə olunur [2 , s. 274].

Bir çox elmi ədəbiyyatlarda və elmi sahələrdə, fəaliyyət sahələrində, müəssisələr praktikasında "destinasiya" anlayışı nisbətən yeni hesab edilir və yaxın vaxtlara kimi nisbətən az işlədilirdi.

"Turizm destinasiyası" anlayışının izahına yönəlmiş son tədqiqatların metodologiyasından və mövcud nəticələrindən istifadə edərək, bu anlayışın şərhinə və izahına yönəlmiş müxtəlif istiqamətləri aradan qaldıraraq, vahid yanaşma və fənlərarası prinsip əsasında destinasiya yerinin müəyyən edilməsinə yanaşmaların sistemləşdirilməsi aktuallaşır. Bundan başqa, hərtərəfli konseptual baxış sistemindən istifadə edərək, məsələyə aid müxtəlif müddəaları inkişaf etdirərək, biz tədqiq olunan konsepsiyanın mahiyyəti üzrə fənlərarası, metafən yanaşması, mədəni yanaşma və sivilizasiya yanaşmalarının ümumiləşdirilməsi yolu ilə turizm destinasiyası anlayışının mahiyyətə daha yaxın çərçivəsini formalaşdıra bilərik [10, s. 133–143].

Turizmin ən məşhur və nüfuzlu xarici və yerli tədqiqatçılarının "destinasiya" anlayışının mahiyyətinə müxtəlif yanaşmaları var. Bu yanaşmalar formaca müxtəliflikləri ilə fərqlənsə də, mahiyyətcə oxşar fikri ifadə edir və müəyyən amillərin daha qabarıq ifadə edilməsi ilə seçilir.

Turizm destinasiyasını Ümumdünya Turizm Təşkilatının ekspertləri və mütəxəssisləri turizm bazarında rəqabət qabiliyyətini müəyyən edən idarəetmə sistemi, imici və qavrayışa zəmin yaradan, davranışları dəyişən, təəssüratları müəyyən edən, fiziki və inzibati sərhədlərə malik olan, turistin ən azı bir gecə keçirdiyi coğrafi məkan kimi xarakterizə edirlər [5, s 1].

Destinasiya anlayışının mahiyyətinə klassik nöqteyi-nəzərdən ən mürəkkəb iki yanaşmanın nəzərdən keçirilməsini də maraqlı hesab edirik. Birincisi, ən çox istinad edilən turizm nəzəriyyəçiləri tərəfindən təklif edilir ki, destinasiya ideoloji, təşkilati və koqnitiv (dərketmə) aspektlərdən nəzərdən keçirilməlidir.

Destinasiyanın ideoloji aspekti ərazinin spesifik "maddi" xüsusiyyətlərinin məcmusunu, yəni, təbii, antropogen və qarışıq xüsusiyyətlərini təmsil edir. Təşkilati aspektə destinasiyanın yaranmasının məkan və zaman xüsusiyyətləri, koqnitiv aspektinə isə turistin və ya ekskursantın destinasiyanı dərketmə və qavrama səviyyəsi, destinasiyada olduğu müddətdə hiss və emosiyalarının dinamikası, destinasiyaya təkrar cəlb olunma dərəcəsi başa düşülür. Bu aspekt, ümumiyyətlə, xidmət sahəsində, xüsusilə müasir turizm biznesində fəaliyyətin nəticələrinə ciddi təsir edən amil hesab edilir.

Bu yanaşma müəyyən çatışmazlıqlar olmasına baxmayaraq, destinasiya anlayışının ən əhatəli təhlili hesab edilir. Yanaşmanın çatışmazlıqlarına destinasiyanın özünü ümumi terminologiyada "cəlbedici" kimi şərh edilməsinə meyillilik aid edilir. Eyni zamanda, bu yanaşma turizm məhsulunun şaxələndirilmiş və çoxkomponentli olmasını və müxtəlif cəlbedici amillərin və onların qarşılıqlı təsirlərini, bağlılıqlarını və asılılıqlarını, bəzən isə kombinə edimədsini, destinasiyanın müxtəlif komponentlərinin (infrastruktur, attraksionlar, xidmət istehsalçıları, ekoloji mühit, yerli icmaların münasibəti və s.) əlaqəsini, qarşılıqlı

təsiri və qarşılıqlı münasibətlərini, bu amillərin turistin "aldığı" son məhsula təsirini, destinasiyanın idarəetmə sisteminin xüsusiyyətlərini nəzərə almır. Bu amillər isə destinasiyanın fəaliyyəti prosesində mühüm rol oynayırlar.

Turizm destinasiyası, həm də turist-ekskursantın səfər etmək və bir müddət orada qalaraq istehlak tələbatlarını ödəmək üçün seçdiyi konkret ərazi, turist-ekskursant və turizm infrastrukturu arasında qarşılıqlı əlaqənin əsas elementlərinin təzahür etdiyi ərazi kimi qəbul edilir [7, s. 87].

Destinasiya turistin istehlak ehtiyaclarına, gözləntilərinə, dərketmələrinə, emosiyalarının dinamikasının təmin edilməsinə, davranışlarında müəyyən transformasiyaların baş verməsinə və qavrayışlarına əsaslanan inteqrasiya olunmuş kompleks məhsuldur və turistlərdə müəyyən təəssüratların yaranmasına xidmət edir. Turizm destinasiyasında sistem kimi formalaşmış və fəaliyyət göstərən turizm infrastrukturu qeyd edilən amillərin təmin edilməsinə, turistlərin ehtiyaclarının ödənilməsinə xidmət edir.

Destinasiya dedikdə, turistləri cəlb edən ölkələr, rayonlar, şəhərlər və digər ərazilər turizm fəaliyyətinin, turist axınının bölüşdürülməsi və lokallaşdırılması yerləridir. Destinasiya görkəmli turizm abidələrinin, yerləşdirmə obyektlərinin, yeməklərin, əyləncələrin, turizmin iqtisadi, sosial və fiziki təsirlərinin, digər xidmətlərinin maksimum cəmləşdiyi yerlər kimi qəbul edilə bilər.

Destinasiya dedikdə, konkret turistin və ya turist qruplarının tələbatının bütöv bir seqmentinin səyahət məqsədi kimi seçdiyi, bütün zəruri istehsal və xidmət qurumlarına, təşkilatlara, yerləşmə və qidalanma obyektlərinə, müxtəlif çeşid xidmətlərə, əyləncə və idman-sağlamlıq infrastrukturuna malik olan müəyyən sosial-coğrafi ərazi, lokal məkan başa düşülə bilər [4, s. 51-52].

Turizm destinasiyası, həm də turizm regionu, yəni istirahət və ya asudə vaxtın təşkili üçün zəruri olan xüsusi obyekt və xidmətlərin geniş şəbəkəsinə malik ərazi kimi də müəyyən edilə bilər. Bu tərifdən belə nəticə çıxır ki, turizm regionu müstəqil hesab olunmaq üçün turistlərin orada qalmaları üçün bütün zəruri şəraitə malik olmalıdır, yəni turistin və ya turist qrupunun turizm məhsulları və xidmətləri istehlak edə bildikləri, yaxud bu istehlaka şərait yaradan imkanlara malik olan yerdir. Bu məkanda, coğrafi ərazidə turistlərin seçdiyi və istehsalçı tərəfindən satılan xidmətlərin və turizm məhsullarının istehsal-istehlak prosesinin baş verməsi, onun mahiyyətini əks etdirən əsas amil kimi çıxış edir. Beləliklə, turizm destinasiyası da turizm regionu kimi səyahətin məqsədi və eyni zamanda, turizm məhsulunun transformasiya olunmuş formasıdır [3, s. 131–136.].

Bundan başqa, turizm destinasiyası müxtəlif yanaşmalar və prinsiplər əsasında formalaşdırılmış inzibati sərhədləri olan konkret ərazi, qorunan ərazi, milli park, tarixi hadisələrin baş verdiyi məkan, müəyyən əlamətdar hadisələrlə tanınan lokal bölgə və bu tipli göstəricilərə malik coğrafi ərazi vahidi kimi də səciyyələndirilə bilər [9, s. 151].

Turizm sənayesində aktual məsələlərdən biri, müasir tipli destinasiyaların strukturunun formalaşdırılması, işinin təşkili və səmərəli idarə edilməsidir. Bu zaman destinasiyanın strukturunun səmərəli təşkili, onun rəqabət qabiliyyətli subyekt kimi turizm bazarında davamlı fəaliyyətinə və inkişafına təminat yaradır.

Turizm destinasiyasının formalaşması və səmərəli fəaliyyət göstərməsi üçün istehsal strategiyasının və taktikasının həyata keçirilməsini və orada səmərəli iqtisadi, sosial və ekoloji fəaliyyətə yönəlmiş turizm xidmətləri və məhsullarının tərtibi və istehsalı, turizm destinasiyasında istehlakçılara təklif edilməsi üçün həm də informasiya-kommunikasiya strukturlarının mövcud olması da əsas şərtlərdən biridir.

İstehlak tələbatlarından asılı olaraq turistlər hər hansı destinasiyaya ilk növbədə onun təbii şəraiti, təklif olunan xidmətlər və məhsulların çeşidi, turistlərə ən yaxşı səviyyədə turizmlə bağlı xidmətləri təklif etmək üçün destinasiyaya aid elementlərin yaxşı qarşılıqlı əlaqələndirilməsi meyarlarına görə səfər edirlər. Dünyada turizmin sürətli inkişafı ilə əlaqədar olaraq, turizm destinasiyaları öz rəqabət qabilyyətlərini istehlakçılar üçün əlverişli qiymətlərlə məhsul və xidmətlər təklif edərək qoruyub saxlaya və gücləndirə bilirlər. Rəqabətə davamlı olmaq üçün destinasiya potensial turistlərin tələbatlarına daha uyğun gələn məhsul və xidmətlər istehsal və təklif etməlidirlər. Təcrübə

göstərir ki, strukturu yaxşı planlaşdırılan turizm destinasiyaları uzunmüddətli davamlı inkişafı , rəqabət qabiliyyətini artıran və ciddi keyfiyyət dəyişikliyinə məruz qalan turist məmnuniyyətini təmin edə bilər.

Destinasiyaların strukturunun səmərəli, elmi əsaslandırılmış planlaşdırması zamanı bir çox üstünlüklərə zəmin yaranır və destinasiyalar turizm bazarında uğurlu olurlar. Turizmdə bazar liderliyi hər bir destinasiyanın strateji məqsədidir və rəqabət mühitində məhsul və xidmətlər təklif etməklə, bazar payını artırmaq üçün nəzərdə tutulan mövqedir [6, 298-316]. Bazar lideri olan destinasiya, həmişə effektiv planlaşdırma strategiyası vasitəsilə müəyyən bazarda satışların ümumi həcmində öz bazar payını artırır.

Planlaşdırma zamanı əsasən destinasiyaya loyallığın təmin edilməsinə diqqət yetirilir. Destinasiyanın turizm bazarında liderliyini müəyyən etmək üçün qəbul edilən dəyəri, məhsul və xidmətlərin əhatə dairəsini, imici, qiymət siyasətini, destinasiyanın bazarda təbliği xərclərini və mənfəəti əsas götürürlər. Destinasiyanın planlaşdırılması turizm məkanının ümumi inkişaf səviyyəsini artırdığına görə, destinasiyalar arasında artan rəqabətə əsasən strateji planlaşdırmanı və inkişaf istiqamətlərini nəzərə almaq vacibdir.

Turizm destinasiyalarının strukturunun səmərəli planlaşdırılması regional iqtisadi inkişafı da stimullaşdırır. Ərazinin ehtiyatlarının effektiv istifadəsi, ehtiyatların səfərbər edilməsi məsələləri də struktur planlaşdırma zamanı diqqət mərkəzində olmalıdır. Turizm destinasiyalarının planlaşdırılması, eyni zamanda, mövcud resursların istifadəsini optimallaşdırmağa kömək edir. Turizm fəaliyyətini dəstəkləyən su, elektrik enerjisi, torpaq, qurğu, bina və digər infrastruktur elementləri, ictimai və şəxsi nəqliyyat, rabitə və s. kimi resurslar turizmin inkişafı üçün əsas ehtiyatlardır. Əsaslı planlaşdırılmış turizm destinasiyası, həm də yerli icmaların, əhalinin, turistlərin və turizmin inkişafında maraqlı tərəflərin istifadəsi üçün əlverişli olan bu resursları optimallaşdırır və istifadəsinə imkan yaradır.

Destinasiyanın strukturunun planlaşdırılması prosesində aşağıdakı ümumiləşdirilmiş hallar üzrə təhlilin aparılmasına ehtiyac yaranır [8, s. 23-36].

-ərazidə mövcud vəziyyətin təhlili;

-planlaşdırma prosesnin həyata keçirilməsi;

-davamlı fəaliyyətin təşkili və idarə edilməsi.

Destinasiyanın effektiv idarə ediməsi, turizmin gələcək inkişafı, marketinqi və digər zəruri sahələrin fəaliyyəti üçün strateji istiqaməti müəyyən edir, qərarların qəbulu bu sahədə mövcud olan ən yaxşı biliklərin istifadəsinə əsaslanır və destinasiyanın strukturunun effektiv planlaşdırılması aşağıdakı müsbət meyilləri təmin edir:

-regionada turizmin inkişafında maraqlı olan bütün maraqlı tərəflərin turizmin inkişafına cəlb edilməsini;

-aydın şəkildə müəyyən edilmiş prinsiplər əsasında idarə olunan, əlaqələndirilmiş yanaşmanı;

-destinasiyanın mövcud daxili və xarici əməliyyat və fəaliyyət mühitinin imkanlarına əsaslanmağı;

-destinasiya üçün turizm tələbi və təklifi proqnozlarının düzgün müəyyən edilməsini;

-marketinq araşdırması, maraqlı tərəflərin dəyərləri, planlaşdırma mühiti və mövcud resurslar və vəsaitlər daxil olmaqla, bütün müvafiq məlumatların nəzərə alınmasını;

-destinasiyanın missiya, məqsədlər, strategiyalar və fəaliyyətlər, brendinq və mövqeləşmə, rollar və məsuliyyətlər, davam edən idarəetmə prosesləri və təkmilləşmə tədbirləri daxil olmaqla, lazımi əsaslandırılmış və razılaşdırılmış strateji fəaliyyət proqramının hazırlanmasını;

-destinasiyanın idarə edilməsi, tədqiqat, strateji marketinq, risklərin müəyyənləşdirilməsi və idarə edilməsi planlarının və digər strateji sənədlərin işlənib hazırlanmasını;

- destinasiyanın idarə edilməsinin bütün mərhələlərinin, funksional vəzifələrin və məsuliyyətin informasiya təminatını;

-müasir qloballaşan və sürətlə dəyişən mühitdə fəaliyyətin və idarəetmənin səmərəliliyini təmin etmək üçün planların və strategiyaların mütəmadi olaraq nəzərdən keçirilməsini və s.

Bütövlükdə turizmin uğurlu inkişafı, destinasiya səviyyəsində geniş spektrli maraqlı tərəflər arasında qarşılıqlı faydalı və inteqrativ xarakterli tərəfdaşlığa əsaslanır. Bir çox subyektlər məlumat əldə etməkdə və maraqlı tərəflərin destinasiyaların planlaşdırılmasında

iştirak etməsində iştirakına müvəffəq olsa da, bir çox hallarda icra və funksiyaların yerinə yetirilməsi mərhələlərində həmin maraqlı tərəflərin fəaliyyətini lazımi səviyyədə tənzimləyə bilmir.

Eyni zamanda, turizmin inkişafında mühüm mərhələ olan destinasiyaların planlaşdırılması və inkişafında maraqlı tərəflərin uğurlu və davamlı cəlb edilməsi üçün vacib şərtlərə aşağıdakılar daxildir:

-konseptual xarakterli xüsusi layihələrin və ya strategiyaların olması maraqlı tərəflərin cəlb edilməsi üçün əsas şərtdir;

-strukturun layihələndirilməsi üçün maliyyə vəsaitlərinin ayrılması, mümkün qədər maliyyə mənbələrinin şaxələndirilməsi, tərəflərin əlaqələndirilməsini və layihələrin uğurlu irəliləyişini təmin edir;

-layihənin icrasında lazımi səviyyədə irəliləyişə nail olmaq üçün güclü təşkilatçı-menecerə malik olmaq;

-tərəfdaş subyektlər arasında məsuliyyətin və funksiyaların müəyyən edilməsi üçün müqavilələrin tərtibi və rəsmiləşdirilməsi. Bu şərtin təmini, sadəcə olaraq layihə planında ayrılmış məsuliyyətdən kənara çıxmaların, yayınmaların qarşısını almır, eyni zamanda, əlaqələrin möhkəmlənməsinə və ümumi fəaliyyətin səmərəliliyinə təkan verir.

**Təcrübə göstərir ki, planlaşdırılan destinasiyanın maraqlı tərəfləri üçün təkcə planlaşdırma mərhələsində deyil, bütün fəaliyyət mərhələlərinin idarə edilməsi prosesi boyunca iştiraka cəlb edilməsi təmin edilməlidir.**

Destinasiyanın strukturunun planlaşdırılması və yaradılması prosesi üçün aşağıdakı vəzifələr icra edilməlidir:

-maraqlı tərəflərin iştirakını və öhdəliklərinin yerinə yetirilməsi üçün destinasiyanın menecerlərinin və yerli turizm strukturlarının dəstəyinə nail olmaq;

-qabaqcıl təcrübədən istifadə etməklə, planlaşdırmaya və idarəetməyə diqqəti təmin etmək üçün maraqlı tərəflərin vəzifə və məsuliyyətlərinin dəqiq müəyyənləşdirilməsi;

-destinasiyanın əsas fəaliyyət istiqamətini müəyyən etmək və korporativ dəyərləri razılaşdırmaq və idarəetməni optimallaşdırmaq üçün maraqlı tərəflərin ümumi baxışının inkişafına nail olunması;

-destinasiyanın inkişafı, marketinqi və idarə edilməsi üçün uzunmüddətli istiqaməti təmin edən strateji planlaşdırma sənədlərinin hazırlanması;

-destinasiyanın məqsədlərinə nail olmaq üçün qısa, orta və uzunmüddətli fəaliyyət proqramlarının, strateji planların tərtib edilməsi və tərəflərlə razılaşdırılması.

Strateji planların tərtibi zamanı vacib sənədlər sırasında aşağıdakıların olmasına nail olmaq lazımdır:

-fəaliyyət strategiyaları daxil olmaqla, destinasiya üçün prioritetləri və istiqamətləri müəyyən edən uzunmüddətli strateji plan;

-effektiv planlaşdırma və strateji qərarlar qəbul etmək üçün tələb olunan məlumatların toplanması, emal və saxlanması planı;

-destinasiyanın fəaliyyətinə və perspektiv inkişafına təsir edə biləcək turizm risklərini və böhranlarını müəyyən etmək və onlara cavab vermək üçün çərçivə tədbirlərini və proseslərini əks etdirən riskin idarə edilməsi planı;

-turist axınlarının istiqamətini destinasiyaya uğurla cəlb etmək və destinasiya və məhsul seçiminə təsir etmək üçün marketinq strategiyalarını və fəaliyyətlərini müəyyən edən strateji marketinq planı;

-destinasiyanın unikal xüsusiyyətlərinin rəqabət üstünlüklərindən istifadə etməklə, yerli əhali və qonaqları destinasiyaya cəlb etmək və bir araya gətirməyə imkan verən xüsusi tədbirlər planı.

Müasir turizm üçün aktual məsələlərdən olan dayanıqlı inkişafa nail olunması, yeni yaradılan destinasiyalar üçün də keçərli hesab edilir. Bu baxımdan da destinasiyaların planlaşdırılması, effektiv idarə edilməsi zamanı dayanıqlı inkişaf konsepsiyasının nəzərə alınması da vacibdir. Ona görə də, destinasiyanın dayanıqlı inkişafının planlaşdırma prosesləri aşağıdakı elementlərlə xarakterizə olunmalıdır:

-sistemli, kompleks planlaşdırma və idarəetmə prosesləri;

-etibarlı və dolğun məlumat mənbələri;

-inteqrativ və innovativ idarəetmə yanaşmaları;

-avtonom informasiya toplama və emalı sistemi;

-informasyanın idarə edilməsi və əlçatanlığı;

-tərəfdaşların əməkdaşlığa təşviq edilməsi tədbirləri;

-tərəfdaşlar, rəqiblər və turizm təşkilatları ilə məlumat və təcrübə mübadiləsi;

-inkişaf etmiş və texniki-texnoloji təchizata malik ünsiyyət və əlaqə mexanizmləri;

-destinasiyanın korporativ mədəniyyəti.

Mühüm prinsiplərdən biri, destinasiyanın strukturunun yaradılması nəzərdə tutulan ərazinin potensialını müəyyən etmək üçün onun fəaliyyətə və inkişafa zəmin yaradan meyarlar toplusuna hansı səviyyədə cavab verməsini müəyyən etməkdir. Destinasiyanın idarə edilməsinin vəziyyətinin təhlili mərhələsi, turizm destinasiyasının fəaliyyət göstərdiyi mühitin sistemli və kompleks təhlilini əhatə edir. Bu təhlilin məqsədi, destinasiyanın perspektivdə necə inkişaf etməsinə, istehsal ediləcək xidmətlərin və məhsulların realizə üsullarına və idarə olunmasına təsir edəcək əsas amilləri müəyyən etməkdən ibarətdir. Bu təhlil, destinasiyanın baş planının mühüm tərkib hissəsidir və destinasiya üçün strateji əhəmiyyət kəsb edir, fəaliyyətin bütün mərhələ və istiqamətlərinin müəyyən edilməsinə və məqsədyönlü idarə edilməsinə yönəlir.

Tədqiqatlar göstərir ki, destinasiyaların formalaşdırılması üçün real vəziyyətin hərtərəfli təhlili aşağıdakıları əhatə etməlidir:

-destinasiyanın strukturunun planlaşdırılmasına və inkişafına təsir göstərə biləcək daxili və xarici amillərin, fəaliyyət mühitinin xarakterini;

-perspektivdə üstünlük verilən hədəf bazarları müəyyən etmək üçün istehlakçıların istehlak meyillərini, xüsusiyyətlərini, davranışlarını və xidmətlərə tələbatlarının prioritetlərini;

-destinasiyanın məqsədlərinin reallaşdırılması mexanizmini və fəaliyyət prinsiplərini;

-destinasiyanın fəlaiyyətinin iqtisadi və digər nəticələrinin müəyyən edilməsini və proqnozlaşdırılmasını;

-turizmin destinasiyasının lazımi ehtiyatlarla təmin edilməsinin strateji aspektlərinin müəyyən edilməsini və qiymətləndirilməsini;

-perspektivdə destinasiyanın qarşılaşa biləcəyi problemlərin, inkişaf istiqamətlərinin və imkanlarının müəyyən edilməsini və müasir çağırışların nəzərdən keçirilməsini;

-destinasiyanın fəaliyyətinin təmin və idarə edilməsi üçün tələb olunan maliyyə vəsaitlərinə və kadrlara tələbatını;

-turizm fəaliyyətinin tənzimlənməsi prosedurlarının əsas prinsiplərini;

-destinasiyanın fəliyyətinə və inkişafına milli turizm siyasətinin təsirlərini və bu siyasətin beynəlxalq turizm təşkilatlarının prinsiplərə uyğunluğunu;

-fəaliyyət prosesində uğurun əldə edilməsi, yarana biləck təhlükələrin, məhdudiyyətlərin, risklərin aradan qaldırılması və ya minimallaşdırılması metod və usullarını;

-potensial istehlakçı bazarlarının, istehlakçı auditoriyasının xarakterinin və social tərkibinin müəyyən edilməsini və s.

**Nəticə**

Beləliklə, turizmin inkişafına təkanverici subyektlərdən biri olan destinasiyaların mahiyyətinə və spesifik əlamətlərinə yanaşmaları, tərifləri, konseptual fikirləri, müəllif baxışlarını və digərlərini ümumiləşdirərək belə fikir formalaşdıra bilərik ki, turizm destinasiyası müəyyən fiziki məkan, müəyyən xüsusiyyətlərə malik olan obyektlər sistemidir. Turizm destinasiyaları bu xüsusiyyətləri, mövcud obyektləri, əlamətləri ilə turistləri cəlb edə və məqsədlərinə çatmaq üçün onları səyahətə həvəsləndirə, tələbatlarını ödəyə, təəssürat yarada bilir.

Turizm destnasiyalarının mahiyyətinin müəyyənləşdirilməsinə yanaşmaların ümumiləşdirilməsi, onun strukturunun planlaşdırılması və təşkilinə dair aparılan təhlillərə əsasən sadalanan amillərin müəyyən edilməsi və nəzərə alınması, destinasiyanın fəaliyyəti zamanı spesifik inkişaf strategiyasının reallaşdırılmasına, destinasiyanın uğurlu idarə edilməsinə, rəqabət qabiliyyətinin davamlı yüksəldilməsinə, istehsal edilən məhsulların və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, əsas strateji məqsəd olan davamlı inkişafına və gəlirliliyinə təminat yaradır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Гасанов А.Н. Перспективы развития туристских кластеров в Гянджа-Газахском экономическом районе Азербайджана. Вестник Национальной Академии Туризма. Туризм-путь к развитию регионов. № 4, СПб., 2013. 55-58.

2.Дворецкий И.Х. Латинско — русский словарь. 2-е изд., перераб. и доп. — М., 2016. — 1096 с.

3.Кирьянова Л.Г. «Туристская дестинация» как комплексный концепт и ключевой элемент туристской системы // Вестник КемГУ. 2012. № 4 (52), Т. 1, с. 131–136.

4.Павлова Э. Н. Дестинация как концепт развития региональной системы непрерывного профессионального туристского образования: дис. … д-ра пед. наук / Э. Н. Павлова. – М., 2009. – 618 с. s. 51-52.

5.A practical guide to tourism destination management. – Madrid: WTO, 2007. – P. 1., s 1.

6.Andriotis K.. Tourism planning and development in Crete: Recent tourism policies and their efficacy. Journal of Sustainable Tourism, 2001, 9(4), pp. 298-316.

7.Leiper N. Tourism Management. 3d ed. / N. Leiper/ – Sidney: Pearson Education Australia, 2004. – 326 p.

8.Liburd J. J., & Edwards, D. (Eds.). Understanding the sustainable development of tourism. Routledge. Oxford: Goodfellow, 2010, pp 23-36.

9.Ritchie B. The competitive destination: a sustainable tourism perspective / B. Ritchie, G. Crouch. – Cambridge: CAB, International, 2013. – 291 p., s. 151.

10.Saraniemi S., Kylänen M. Problematizing the concept of tourism destination: an analysis of different theoretical approaches // Journal or Travel Research, 2011, no. 50 (2), pp. 133–143.

**Арзу Наджаф ГАСАНОВ д.э.н., профессор**
Гянджинский Государственный Университет
E-mail: arzu_hasan@mail.ru

**Фарид Рагил ОРУДЖОВ**
Гянджинский Государственный Университет
E-mail: feridorucov20@gmail.com

## ПРИНЦИПЫ ПЛАНИРОВАНИЯ И ОРГАНИЗАЦИИ СТРУКТУРЫ ТУРИСТСКИХ ДЕСТИНАЦИЙ

### Резюме

**Актуальность исследования**. Организация и устойчивое развитие современной индустрии туризма требует создания локализованных субъектов туризма, соответствующих природным туристским ресурсам и потенциалу территорий. Одним из таких субъектов туризма считаются туристические дестинации. Формирование оптимальной структуры дестинаций считается важным фактором обеспечения устойчивого развития туризма. Статья посвящена принципам планирования и организации туристских дестинаций и поэтому выделяется своей актуальностью.

**Цель исследования.** Цель исследования - определить принципы планирования, организации структуры и эффективного функционирования туристских дестинаций.

**Материалы и методы исследования.** Материал исследования составили исследования отечественных и зарубежных исследователей, посвященные вопросам планирования, организации и развития туристских дестинаций, принципам подхода к организации дестинаций международными, национальными и местными туристскими организациями.

В исследовании использовались методы аналитического анализа, сравнения, обобщения и синтеза.

**Научная новизна исследования**. В результате исследования были определены принципы планирования, организации структуры и эффективной работы дестинаций.

**Практическая значимость исследования**. Определенные в результате исследования принципы, выдвинутые предложения и рекомендации имеют практическое значение и могут

быть использованы государственными органами управления туризмом и туристскими организациями при организации туристских дестинаций. Результаты исследования можно отнести к ценным источникам в научно-исследовательских работах по организации туристских дестинаций.
**Ключевые слова:** индустрия туризма, дестинация туризма, структура дестинации, организация, принцип.

**Arzu Najaf HASANOV**
**Dr. of science in economics, professor (without certificate),**
Ganja State University
E-mail: arzu_hasan@mail.ru

**F arid Rahil ORUCOV**
Ganja State University
E-mail: feridorucov20@gmail.com

## PRINCIPLES OF PLANNING AND ORGANIZATION OF TOURISM DESTINATION STRUCTURE

**Summary**

**The actuality of the subject.** The organization and sustainable development of the modern tourism industry requires the creation of localized tourism subjekts, corresponding to the natural tourism resources and potential of the territories. Tourism destinations are considered one of such type of tourism subjects. Formation of the optimal structure of destinations is considered an important factor to ensure the sustainable development of tourism. The article is dedicated to the principles of planning and organization of tourism destinations and therefore stands out for its relevance.

**The purpose of the study.** The purpose of the research is to determine the principles of planning, organizing the structure and efficient operation of tourist destinations.

**Research materials and methods**. The material of the study is made up of the research works of local and foreign researchers devoted to the planning, organization and development of tourism destinations, the principles of approach to the organization of destinations by international, national and local tourism organizations.

Analytical analysis, comparison, generalization, and synthesis methods were used in the research.

**Scientific novelty of the research.** As a result of the research, the principles of planning, organization of the structure and efficient operation of the destinations were determined.

**Practical significance of the study.** The principles determined as a result of the research, the proposed proposals and recommendations, are of practical importance and can be used by state tourism management structures and tourism organizations in the organization of tourism destinations. The results of the study can be referred to as a valuable source in scientific-research works on the organization of tourism destinations.

**Keywords:** tourism industry, tourism destination, destination structure, organization, principle